www.kitabxana.net

Milli Virtual Elektron Kitabxana


"Gənclərin Virtual Multikulturalizm Mərkəzi" N 29 (93 - 2016)

Söhrab Tahir

"Ata"

Poema-epos

İki cildə. II cild



YYSQ - Milli Virtual-Elektron Kitabxananın e-nəşri

YYSQ – 2016

Yeni Yazarlar və Sənətçilər Qurumu

www.yysq.org

www.kitabxana.net

Milli Virtual-Elektron Kitabxana

"Gənclərin Virtual Multikulturalizm Mərkəzi"

Elektron kitab N 29 (93- 2016)

Bu elektron nəşr Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondunun (#AzGF) maliyyələşdirdiyi, Yeni Yazarlar və Sənətçilər Qurumunun həyata keçirdiyi "Gənclərin Virtual Multikulturalizm Mərkəzi" kulturoloji-intellektual layihəsi çərçivəsində www.kitabxana.net - Milli Virtual-Elektron Kitabxana tərəfindən nəşrə hazırlanıb və yayılır.

Kulturoloji layihənin bu hissəsini qismən maliyyələşdirirlər:

Azərbaycan Respublikası Prezidenti yanında Gənclər Fondu: http://youthfoundation.az

Yeni Yazarlar və Sənətçilər Qurumu: http://www.yysq.org

Söhrab Tahir

"Ata"

Poema-epos

II cild

Azərbaycan tarixi-multikultural dəyərlərin poetik ensiklopediyası

YYSQ tərəfindən e-nəşrə hazırlanıb. Milli Virtual-Elektron Kitabxananın e-nəşri. Bakı - 2016

Virtual redaktoru və e-nəşrə hazırlayanı: Aydın Xan (Əbilov), yazar-kulturoloq

Xalq şairi Söhrab Tahir AzərAzər. "Ata". Poema-epos. II cild. Azərbaycan tarixi-multikultural dəyərlərin poetik ensiklopediyası... Azərbaycan ədəbiyyatında ən iri həcmli poetik əsər hesab edilən "Ata" poema-eposu qoşma şəklində yazılmış və çoxsaylı bölmədən ibarətdir. Əsər sadə xalq danışıq dilində olduğundan ərəb və fars sözlərindən istifadə edilməmişdir.

"Gənclərin Virtual Multikulturalizm Mərkəzi" silsiləsindəki e-kitablarla buradan tanış olun:

http://kitabxana.net/?oper=e_kitabxana&cat=174

Feysbuk səhifəmiz:

Sosial şəbəkələrdə Azərbaycan multikulturalizminin və tolerantlığının təbliği ilə bağlı fəaliyyətlərin genişləndirmək, bu sahələr üzrə İnternet resurslarımızı - elmi-intellektual sərvətlərimizi, araşdırma, tədqiqat işlərini təbliğ etmə üçün ayrıca virtual resurs burada: https://www.facebook.com/YeniYazarlar

Bakı, YYSQ - 2016



DİQQƏT!

Müəlliflik hüququ Azərbaycan Respublikasının qanunvericiliyinə və əlaqədar beynəlxalq sənədlərə uyğun qorunur. Müəllifin və resurs yaradıcılarının razılığı olmadan kitabın bütöv halda, yaxud hər hansı bir hissəsinin nəşri, eləcə də elektron informasiya daşıyıcılarında, İnternetdə yayımı yasaqdır. Bu qadağa kitabın elmi mənbə kimi istifadəsinə, araşdırma və tədqiqatlar üçün ədəbiyyat kimi göstərilməsinə şamil olunmur.

SÖHRAB TAHİR
AZƏR AZƏR

ATA

(Poema-epos)

(İki cilddə)

II cild

Azərbaycan Respublikasının
Milli Ordusuna və onun Ali Baş Komandanı
Respublika Prezidenti
İlham Heydər oğlu Əliyev
cənablarına ithaf edirəm.

Müəllif

Bakı-2015

Redaktoru və tərtib edəni: ***Tahir Söhraboğlu***
Nəşriyyat redaktoru: ***Musa Ələkbərli***

Söhrab Tahir "Ata (poema-epos)" II cild Bakı, "Zərdabi LTD" 2015, 1016 səh.

Elmi rəyçilər: **Ə.Əlizadə,** fil. elm. dok.
Gülxani Pənah, fil. elm. nam.

O taylı bu taylı Azərbaycanımızın bütövlük nəğməkarı, sevimli xalq şairimiz Söhrab Tahirin "Ata" poema-eposu həm həcminə, həm də poetik dəyərinə görə çağdaş poeziyamızda xüsusi çəkisi olan, alternativsiz bir əsərdir.

Xalqımızın ən qədim dövrlərinə baş vuran tədqiqatçı şair bu xalqın təşəkkül tarixinin poeziyamızda uğurlu, orijinal ifadəsinə nail olmuş, çoxillik ağır zəhməti hesabına müqəddəs Ata adına ədəbi bir abidə yaratmışdır.

S $\frac{470512049457}{0103-2015}$

MÜƏLLİFDƏN

Azərbaycan ədəbiyyatında ən iri həcmli poetik əsər hesab edilən "Ata" poema-eposunu 1991-ci ildən qələmə almağa başlamışam. Azərbaycanın ən qədim şeir forması–qoşma şəklində on min il əvvəl Yaxın, Orta, Uzaq Şərq genişliklərində yaşayan, yaradan, dəyişib varlığını və ləyaqətini isbat edən türkdilli qəbilə, tayfa və xalqların, xüsusilə Azərbaycan xalqının eramızın əvvəllərinə qədərki həyat və məişətinin bədii-tarixi lövhələrdə təsvirini əhatə edir. "Ata" sadə xalq danışıq dilində yazıldığı üçün burada demək olar ki, fars və ərəb sözləri işlənməmişdir. Əsərdə Azərbaycan, Orta Asiya, Türkiyə, Rusiya, İran, Ərəb ölkələri, İngiltərə, Almaniya, və s. Avropa alimlərinin tarixi sənədlərə, tarixi həqiqətlərə uyğun fikirləri əsas götürülmüşdür.

Çoxdandı ki, xarici ölkələrdə yaşayan soydaşlarımız xalqımızın varlığı, mənşəyi, yaşadığı ərazi, qədim həyat tərzi, dili və qəhrəmanlıqları ilə maraqlanır, bəziləri isə mənə bu haqda, məktub yazır, bu sahədə ortalığa ciddi suallar qoyurdular.

Son 20 ildə Azərbaycan xalqının varlığı, etnogenezi ilə əlaqədar elmi kitablarla yanaşı, şamanizm, zərdüştizm haqqında kitablar, əsatir, əfsanə, dastan, nağıl, deyim və söyləncələr oxuyurdum. Xalqımın qədim varlığını, adını, qəhrəmanlıqlarını göstərən sənədləri, abidələri dağıdıb, yandırıb məhv edən düşmənlərin qəddarlığının qanlı izinə düşüb, yavaş-yavaş dünyanın ən qədim, ən nəcib, ən dəyişkən, ən ləyaqətli və şücaətli xalqları olan türkdilli ellərin, o cümlədən xalqımızın ən qədim tarixinin monumental mənzərələrini aydın şəkildə görməyə başladım.

Azərbaycanda istiqlal hərəkatı başlarkən bu mövzuda böyük bir əsər yazmaq imkanı reallaşdı: Bir gün yas məclisində Moskvadan yenicə qayıtmış elimizin ağsaqqalı, böyük rəhbəri Heydər Əliyev xalqımızın tarixinin müxtəlif dövrlərindən söhbət açaraq üzünü mənə tutaraq məclisdə oturan alim və yazıçılara xitabən dedi: "Bu xalqın tarixini siz yazmasanız bəs kim yazacaq?!"

Mən xalqımızın böyük oğlu Heydər Əliyevin bu haqlı tələbinin təsiri altında "Ata" poema-eposunu yazmağa başladım...

İpək söyləncі

İpək gəldi, Əkbitəni bəzədi,
Gözü çəkən gözəllikdir, bəzəkdir.
İncə-incə boyanmışdı toxular,
Gözü çəkən gözəllikdir, bəzəkdir.

Qız, gəlini gözə çəkdi al ipək,
Varlılarda dəbə düşdü bər-bəzək.
Qız, qadınlar al don geydi, al ətək,
Gözü çəkən gözəllikdir, bəzəkdir.

Sallamalar, döşənəklər dəyişdi,
İpək üstdə ana, bala deyişdi,
Gözəlləşib gənclər-qızlar dəyişdi,
Gözü çəkən gözəllikdir, bəzəkdir.

Əkbitəndə yazı, oxu dəb oldu,
İpək gəldi toxu oldu, sap oldu,
Daş-qaş ilə bəzədilən qab oldu,
Gözü çəkən gözəllikdir, bəzəkdir.

Tanı dedi:-Turqtay oğlum sağ olsun,
Qoy hər yerdə onun üzü ağ olsun,
“Aldım ipək, satdım qarayağ” olsun,
Gözü çəkən gözəllikdir, bəzəkdir.

***

Tanı dedi:-Yola gəlsə çinelli,
Alver ilə gəl-get, barış var olar.
Suburunda tuluqlansın qarayağ,
Alver ilə gəl-get, barış var olar.

Mərmər, qızıl, göydaş, aldaş, durudaş,
Dəvəgözü, bayan, pambıq, bez, qumaş,
Yaxınlaşaq, qardaşlaşaq, a qardaş,
Alver ilə gəl-get, barış var olar.

Mindiyarım, Minellimlə Turqtayım,
Bu alveri uluslarda siz yayın,
Bundan sonra Turqtayı da şah sayın,
Alver ilə gəl-get, barış var olar.
Turqız dedi:-Dönsün evə Manayqız,
O, yetkindir, doğruçudur, çalarsız,

Qalıb Turel boğuşunda o yalqız,
Alver ilə gəl-get, barış var olar.

Turel daha boğuşmadan çıxıbdır,
Cumər çox-çox boğazları sıxıbdır,
Bir-birini qorxudanlar qorxubdur,
Alver ilə gəl-get, barış var olar.

***

Əkbitənin səsləncləri gurladı,
Yeniliklə pardaqlanar baxışlar.
Doldu boyal* ipəklərlə satallar,
Yeniliklə pardaqlanar baxışlar.

İlam, Asur, Balasq gəldi alverə,
Misirlilər daraşdılar bu yerə,
«İpək, ipək» səsi qalxdı göylərə,
Yeniliklə pardaqlanar baxışlar.

Yelçəkənə axdı Çinel ipəyi,
Satallara səpdi gülü, çiçəyi,
Oldu bütün toxuların göyçəyi,
Yeniliklə pardaqlanar baxışlar.

Batılılar Əkbitənin qonağı,
İpək görüb qaçdı solğun dodağı,
İpəklənib satdı, atdı yarağı,
Yeniliklə pardaqlanar baxışlar.

Gündən-günə genişləndi satallar**,
Ağız-buğuz dolub getdi çuvallar,
Düşdü işə iri-iri xarallar,
Yeniliklə pardaqlanar baxışlar.

***

Qoşar dedi:-Ala, ipək baxışlar,
İpək, köksü ipəklərə yaraşır.

Rəngbərəng
****Bazarlar***

Gözəl də var istidildir, soyuqsöz,
İpək, köksü ipəklərə yaraşır.

İpək paltar köksü, döşü basdırır,
Titrəyişi kişiləri qızdırır,

Bu gözəllik çox yolsuzu azdırır,
İpək, köksü ipəklərə yaraşır.

Qancıl qızı, sənin saçın ipəkdir,
Baxışların yuxa, yalçın ipəkdir,
Kirpiklərin, qaşın qırçın ipəkdir,
İpək, köksü ipəklərə yaraşır.

Boya-boya ipək gəlsin Çineldən,
Getsin yonuq durudaşım Mineldən,
Qoy gözəllik sözü olsun hər dildə,
İpək, köksü ipəklərə yaraşır.

Çox gözlədim səni, gülüm, mən dünən,
Gəl, ipəkdə evyolumdan* keçginən,
Soyuyubsan al ipəyi geyəndən,
İpək, köksü ipəklərə yaraşır.

***

Qoşar dedi:-Çox oynatma döş-başı,
Sarı ağa, göy qaraya yaraşır.
Mən gedirəm sənə ipək gətirim,
Sarı ağa, göy qaraya yaraşır.

Geyib çıxsan çölə, düzə, düz yanar,
Bu geyimdə söz söyləsən söz yanar,
Düzün qızı, sənə baxan göz yanar,
Sarı ağa, göy qaraya yaraşır.

Gəl dik üstə, görüm incə boyunu,
Qılınc qaşın, o sıyırma yayını,
Söylə özün, haçan çalım toyunu,
Sarı ağa, göy qaraya yaraşır.

Elə geyin, bizdə söz-möz olmasın,
Sənə baxan bir vurğun göz olmasın,

Küçə

Görünməsin, gəl-gedin tez olmasın,
Sarı ağa, göy qaraya yaraşır.

Qar əriyib, çöl, düz, yamac güllənib,
Ürəyimdə gizli sevgim dillənir,
İstəklərim, baxışlarım sellənir,
Sarı ağa, göy qaraya yaraşır.

***

-Mən Qoşaram, oxuyuram, yazıram,
Qopuz çəkib könlü göyə aparır.
Bu satalda bu gün nə çox gələn var,
Qopuz çəkib könlü göyə aparır.

Bu qız hara gedir, hara yollanır,
Qurşağının ipək ucu sallanıb,
İpək altda dik məmələr tullanır,
Qopuz çəkib könlü göyə aparır.

Tanrı, əlim dəysin onun əlinə,
Bir yol adım gəlsin onun dilinə,
Qolum çatsın onun incə belinə,
Qopuz çəkib könlü göyə aparır.

Nə tez gəlib bu yaz belə tez gedir,
Başım üstə ağ durnalar gur ötür,
Bu il mənim ürəyimdə gül bitib,
Qopuz çəkib könlü göyə aparır.

Dön, bax, gülüm, mən də sənə vurğunam,
Sağol sən tək ürək yaxan soyğuna,
İpək sənə, mən də sənə uyğunam,
Qopuz çəkib könlü göyə aparır.

***

Çapar atdır yaşayışla dayanış,
Öz kökündən qopacaqsan dayansan.
Gəldin, mindin, getdin, daha dayanma,
Öz kökündən qopacaqsan dayansan.

Çap, yaşayış, dayanışla ayaqlaş,
Soyuyanda sən də onla soyuqlaş,
Yoluqlaşdı, sən də onla yoluqlaş,
Öz kökündən qopacaqsan dayansan.

Sən də dəyiş o dəyişsə üzünü,
Yerə qoyma qabağında dizini,
O düz oldu, tut sən yolun düzünü,
Öz kökündən qopacaqsan dayansan.

Onlar dönüb geri baxmır, çaparaq,
Sən unutma, hərdən-birdən geri bax,

Keçmiş ilə gələcəyi qucaraq,
Öz kökündən qopacaqsan dayansan.

Nə tapdınsa azdan-çoxdan çək dişə,
Gir onlarla deyinməyə, deyişə,
Ancaq bu yol yaşayışı dəyişər,
Öz kökündən qopacaqsan dayansan.

***

Tanı dedi:-Turq yollansın Çinçaya,
Qardaşlığı hər gün, hər gün təzələ.
O çatdırsın ilk yazımı Xaqana,
Qardaşlığı hər gün, hər gün təzələ.

Gəlsin Xaqan qonaq olsun ellərə,
Son qoyulsun keçən qanlı illərə,
Vayqan, Soyqan tapşırılsın yellərə,
Qardaşlığı hər gün, hər gün təzələ.

Bilsin bizə gəliş-gediş gərəkdir,
Qardaşlıq da incəlikdə ipəkdir,
Alver, gəl-get elə vardır, çörəkdir,
Qardaşlığı hər gün, hər gün təzələ.

Tanı dedi:-Al yazını, yola düş,
Böyük Çinçay xaqanıyla sən görüş,
Qoy var olsun yaxşılığa bu dönüş,
Qardaşlığı hər gün, hər gün təzələ.

Desə Bacar niyə qaçıb, hardadır,
De ki, yanıb həm arvadı, həm atı,
Yanıb odda Uçarqızın qanadı,
Qardaşlığı hər gün, hər gün təzələ.

***

Çapar gəldi uzaq-uzaq Çinçaydan,
İki istək bilmədən də tuş gəlir.
Çapar-çapar yazı verdi Tanıya,
İki istək bilmədən də tuş gəlir.

Yazılmışdı: «Tanı şahın Turqtayı,
Mən xaqanam, başçısıyam Çinçayın.
Mindiyarın Minel soyu, Tur soyu,
İki istək bilmədən də tuş gəlir.

Daş-qaş çatdı, bayan, pambıq üstəlik,
Güclü alver başlamayıb hələlik,
Vardır məndə bir yetər də gileylik,
İki istək bilmədən də tuş gəlir.

Turq dustaqdan qaçırıbdır Bacarı,
Bacar bizim qardaşlığın açarı,
Qonağıydı böyük Çinçay diyarın,
İki istək bilmədən də tuş gəlir.

Gəlsin qonaq bizə həm Turq, həm Bacar,
Tez gəlsələr böyük sevinc olarlar,
Bizdən sizə başəydilər, sevgi var,
İki istək bilmədən də tuş gəlir.

***

Tanı dedi: – Birdən qurqu qurarlar,
Həm Bacarı, həm də səni vurarlar,
Onlar gizli busqularda durarlar,
İki istək bilmədən də tuş gəlir.

Turqtay deyir: – Onda Toplum götürüm,
Ayıqlığı, sayıqlığı artırım,
Toplumumu meşələrə yatırım,
İki istək bilmədən də tuş gəlir.

***

Çox da gərək deyil idi ayıqlıq,
Olaylarda olacaqdan ayıq ol,
Xaqan özü qarşıladı Turqtayı,
Olaylarda olacaqdan ayıq ol.

Onlar ata, bala kimi görüşdü,
Turqız ilə Tanı şahı soruşdu,
Sevinənlər bir-birinə qarışdı,
Olaylarda olacaqdan ayıq ol.

İlk söz düşdü satallarda ipəkdən,
Yoruldular bir-birini öyməkdən,
Durudaşla ipək-ipək deməkdən,
Olaylarda olacaqdan ayıq ol.

-Turq sağ olsun, açdı satal yolunu,
Dəbə saldı ipəklərin alını,
İpəklədi atların da çulunu,

Olaylarda olacaqdan ayıq ol.

Mən xaqanam, Manmən mənim soy adım,
Çinçay, Şanxay mənim qolum-qanadım,
Al ipəyim var eləyib elatı,
Olaylarda olacaqdan ayıq ol.

***

Turq dedi ki, göydaş bizdə bol deyil,
Bol olan şey düşür tez-tez dəyərdən.
Qardaşlıq da durudaşdan durudur,
Bol olan şey düşür tez-tez dəyərdən.

Qardaş olsaq alverimiz yüksələr,
El, uluslar qorxmaz, verər əl-ələ,
Yol açılar, maraq olar get-gələ,
Bol olan şey düşür tez-tez dəyərdən.

Manmən dedi:-Qardaş olmaq yaxşıdır,
Çinçay eli Muğel yurda qarşıdır,
Muğər isə çapqınçılar başıdır,
Bol olan şey düşür tez-tez dəyərdən.

Muğər deyir, biz Turqçuyuq, Turquq biz,
Muğmuğ eldə Turq olmuşuq hərəmiz,
Çapıb gedir, nə yol qoyur, nə də iz,
Bol olan şey düşür tez-tez dəyərdən.

Biz daş çəpər çəkməliyik yurdlara,
Yol vermərik çapıb soyan qurdlara,
Onlar bizi qalayırlar odlara,
Bol olan şey düşür tez-tez dəyərdən.

***

Turqtay dedi:-Burdan ora gedərəm,
Çapqınçılar eldə ərən sayılmır.
Öz yurdunu çapır Muğər ildə bir,
Çapqınçılar eldə ərən sayılmır.

Onlar çöldə ov etməklə dolanır,
Qışda yeyib qurtarırlar olanı,
Dəbə salıb aldatmağı, yalanı,
Çapqınçılar eldə ərən sayılmır.

***

Gözəllərin oynar-oynar belləri,

Harda olsa qızlar orda gözəldir.
Su tək axıb onlar quş tək səkdilər,
Harda olsa qızlar orda gözəldir.

Göy qurşağı boyasında ipəklər,
İpək içrə oynaq, incə sümüklər,
Saçlarında yelləm-yelləm lələklər,
Harda olsa qızlar orda gözəldir.

Gül qoxusu, çiçək iyi bayılqan,
Bu hansı ot tüstüsüdür yayılqan,
Baxışları, çağırışı duyulqan,
Harda olsa qızlar orda gözəldir.

Qollar dəniz ləpəsi tək oynaqdır,
Üz-göz, döş-baş süd deyildir, qaymaqdır,
Saçlarında daraq, sancaq dümağdır,
Harda olsa qızlar orda gözəldir.

Yelpiklərin yuxuladan yeli var,
Hər oyunda qolun, qıçın dili var,
Hərəsinin sanki sənə könlü var,
Harda olsa qızlar orda gözəldir.

***

Biri gəldi, Yanqu üzdə, görkəmdə,
Adam necə oxşayarmış adama.
Turq səksəndi, öz yerindən dəbərdi,
Adam necə oxşayarmış adama.
Döş aralı, sanki eniş-yoxuşdur,
Yanaqları uşaq kimi toppuşdur,
Elə gülür, sanki onla tay-tuşdur,
Adam necə oxşayarmış adama.

Turq Manmənə baxdı gizli, gözaltı,
Bu, Yanqudur, yoxsa yuxu, yanıltı?
Bu qız hardan gəldi, burda tapıldı,
Adam necə oxşayarmış adama.

Bu, olmaya Yanqu elə özüdür,
Bu üz-baxış, deyən onun üzüdür,
Balqarışıq üzdə Minel duzudur,
Adam necə oxşayarmış adama.

Bu qız bura necə gəldi, haradan,

“Bu sənmisən, Yanqu, çıx get buradan”,
Ah, sınayır yoxsa məni yaradan,
Adam necə, oxşayarmış adama.

***

Manmən Xaqan çaşqın gördü Turqtayı,
Yalan doğru, doğru yalan olub çox,
O tanıdı oynar-oynar* gözəli,
Yalan doğru, doğru yalan olarmış.

-Qadan alım, çıx get burdan, oynama,
Hanı Tuncay, hanı Günay qaynama,
Yanqu, məni sən bu sayaq sınama,
Yalan doğru, doğru yalan olarmış.

Qız qu kimi qondu onun yanına,
Turq əl çəkdi qızın qırçın donuna,
Coşqun istək düşdü Turqun qanına,
Yalan doğru, doğru yalan olarmış.

Turq yuxulu dedi:-Getdin sən ərə,
Mən sevirdim səni, daha sevmirəm,
Ürəyimdən sildim səni son kərə,
Yalan doğru, doğru yalan olarmış.

Rəqqasə

Qız dedi ki:-Turq, mən Yanqu deyiləm,
Bu Başevdə oynayıram mən belə,
Mən bir qızam, həm də yazıq bir kölə,
Yalan doğru, doğru yalan olarmış.

***

Bunu bilib Turq utandı, qızardı,
Niyə hamı öz içini gizlədir?
Qövr edirdi Turqun gizli istəyi,
Niyə hamı öz içini gizlədir?

Qız dedi ki:-Sən Yanqunu sevirsən,
Mən Yanqudan çox gözələm, biləsən,
Yanqu bilib sən yanıma gələsən,
Niyə hamı öz içini gizlədir?

Turq dedi ki:-Mən yanıldım, bağışla,
Adam çaşır hərdən bircə baxışdan,
Doğruluğa gərək olur yanlış da,

Niyə hamı öz içini gizlədir?

Qız dedi ki:-Yanlış deyil, gözələm,
Mən hər sayaq ağrılara dözənəm,
Gözdən, üzdən sevgiləri sezənəm,
Niyə hamı öz içini gizlədir?

Mən Dintiyəm, evimizdə sonbeşik,
Biz buraya Uğureldən gəlmişik,
Özümüzü köləsayaq bilmişik,
Niyə hamı öz içini gizlədir?

***

Turq dedi ki:-Gözəl Dinti, get oyna,
Baş qataraq dinclik verir hər oyun.
Sən gözümdə yeni Yanqu olmusan,
Baş qataraq dinclik verir hər oyun.

Dinti getdi, Xaqanına baş əydi,
-Böyük Xaqan,-dedi,-burda o təkdir,
Ürəyinə sevgi gülü mən əkdim,
Baş qataraq dinclik verir hər oyun.
Xaqan bunu bilib bir az düşündü,
Neçə yeri onun birdən qaşındı,
Düşündüyü çox işlərdən daşındı,
Baş qataraq dinclik verir hər oyun.

Dedi, «bunca çəkişmələr salaram,
Boğuşmaya durub gendən dalaram,
Hərdən gəlib barışdıran olaram,
Baş qataraq dinclik verir hər oyun.

Boğuşmalar, çəkişmələr yorandır,
Boğuşanlar bir-birini qırandır,
Bunlar olsa, döyüş-vuruş yalandır,
Baş qataraq dinclik verir hər oyun.»

Dinti söyləncі

-Böyük Xaqan, indi mənə yol göstər,
Hayan olsun gərək vurğun vurğuna.
O, qartaldır, mən yanında göyərçin,
Hayan olsun gərək vurğun vurğuna.

O, Tuncayın Yanqusunu sevirmiş,
Böyük hay-küy qoparacaq bu kal iş.
Əlverişli bir alverdir bu görüş,
Hayan olsun gərək vurğun vurğuna.

Xaqan dedi:-Gör Yanqunu, söz oynat,
Bu kəlləri vuruşdurub iş qaynat,
Bu sevgini Uğurelə sən anlat,
Hayan olsun gərək vurğun vurğuna.

Buralısan, oralısan, bilmirəm,
Çağırıram, gözəl, səni əlbirə,
Sevgi deyib dart sən Turqu hər yerə,
Hayan olsun gərək vurğun vurğuna.

Qoy söyləyim, bunu da bil, a Dinti,
On il qabaq mən Yanqunu sevirdim,
Gülüm, səni bəyənmişəm mən indi,
Hayan olsun gərək vurğun vurğuna.

***

Dinti dedi:-Eləyərəm, baş üstə,
Dil «hə» deyir, ürək isə başqa söz.
Turq igiddir, onun içi durudur,
Dil «hə» deyir, ürək isə başqa söz.

Dedi: «Mən ki, oxşayıram Yanquya,
Gərək onu sevənlərə od qoyam,
Gərək girəm bir dolambac qurğuya,
Dil «hə» deyir, ürək isə başqa söz.

Gərək elə bir od-alov qalayım,
Yanquları bu yanğına tullayım,
Yanqulaşıb olum igid Tuncayın
Dil «hə» deyir, ürək isə başqa söz.

Onda Xaqan, Tuncay, Turqtay mənimdir,
Üçü birgə mənim şahlıq günümdür,
İki ölkə, ay qız, Dinti, sənindir,
Dil «hə» deyir, ürək isə başqa söz.

Ancaq Turqa vurulmuşam deyəsən,
Sevgi göydəngəlmədirsə, öc nədən?
Tanrım, söylə, hansı işi görüm mən,»

Dil «hə» deyir, ürək isə başqa söz.

***

Turq qayıtdı Əkbitənə bir aya,
Çoxu dönür, öz yurdunu bəyənmir.
Satallarda al ipəklər sayrışır,
Çoxu dönür, öz yurdunu bəyənmir.

Turq gülürdü, danışırdı bayağı,
Al ipəklər bürümüşdü Duzdağı,
Unutmuşdu qılınc, bizuc, yarağı,
Çoxu dönür, öz yurdunu bəyənmir.
Unutmuşdu yer-yurdunu, kəndini,
Tuş qoymuşdu Yanqu ilə Dintini,
Yaşayırdı keçmişilə indini,
Çoxu dönür, öz yurdunu bəyənmir.

Sevgi ölür, o yenidən dirilir,
Bu sevgidən ürək yay tək gərilir,
Hər yan sənə sevgi sayaq görünür,
Çoxu dönür, öz yurdunu bəyənmir.

Turqu sevgi bir də çəkdi sınağa,
Yenə qoydu işi-gücü qırağa,
Yenə çıxdı at qovmağa, ovlağa,
Çoxu dönür, öz yurdunu bəyənmir.

***

Uğureldə Dinti tapdı Yanqunu,
İki gözəl bir ölkəyə sığışmaz.
Dedi:-Turqun sevgilisi Dintiyəm,
İki gözəl bir ölkəyə sığışmaz.

Dedi:-Onla görüşürsən, olmaya,
Yanaqların dönüb qızıl almaya,
Döş mayadır, üz mayadır, əl maya,
İki gözəl bir ölkəyə sığışmaz.

Bunu bilsə Tuncay səni öldürər,
Elə etmə bunu ona bildirəm,
Sözümə bax, dönüm yumuq gildirə,*
İki gözəl bir ölkəyə sığışmaz.

Yanqu düşdü əl-ayağa, tutuldu,
Göz qaraldı, qılınc qaşlar çatıldı,

O, Dintinin üzərinə atıldı,
İki gözəl bir ölkəyə sığışmaz.

Dedi:-Qadan ürəyimə, danışma,
Bu, yalandır, bunu məndən soruşma,
Nə istəsən verrəm, işə qarışma,
İki gözəl bir ölkəyə sığışmaz.

***İtburnu**

***

-Qadan alım, yalan evlər uçurur,
Yalan güclü toplumları dağıdır.
Qız, yazığın gəlsin mənim balama,
Yalan güclü toplumları dağıdır.

Tək Tuncaydır mənim ürək yoldaşım,
Turqtay isə onun ürək qardaşı,
Aralıqda salma qanlı savaşı,
Yalan güclü toplumları dağıdır.

Al, bu, sırğam, boyunbağım, qolbağım,
Bil, pis yola getməmişdir ayağım,
Qoy and içim, çatım sınaq ocağı,
Yalan güclü toplumları dağıdır.

Dinti dedi:-Onda tonqal qalayaq,
Səni, Yanqu, son sınağa yollayaq,
Yalan varsa od içində yoxlayaq,
Yalan güclü toplumları dağıdır.

Yanqu dedi:-Düzəm, oddan keçərəm,
Alovlardan qızıl bir don biçərəm,
Düzlüyümlə alovları içərəm,
Yalan güclü toplumları dağıdır.

***

-Yalan deyib onda mənə Turq özü,
Qoy son sözü desin sınaq tonqalı,
Yanqu dedi:-Ancaq Tuncay bilməsin,
Qoy son sözü desin sınaq tonqalı.

Çöldə tonqal qaladılar ikisi,
Tonqaldan da üstün Yanqu sevgisi,
Bu tonqalın böyük oldu görgüsü,
Qoy son sözü desin sınaq tonqalı.

Yanqu üç qat geyimini soyundu,
Oda girdi, pis gözlərdən yayındı,
Elə bil ki, alovlarda yuyundu,
Qoy son sözü desin sınaq tonqalı.
Dinti güldü, dedi yalan deyirdim,
Yanqu birdən acığından bəyirdi,
Yandı orda, o, ikiqat əyildi,
Qoy son sözü desin sınaq tonqalı.

Sonra yandı, yenə yandı, kül oldu,
Tonqal özü utanaraq lil oldu,
Tonqal söndü, bir ötəri yel oldu,
Qoy son sözü desin sınaq tonqalı.

***

Dinti geydi donlarını Yanqunun,
Qorxuludur seçilməyən oxşayış.
Döndü evə, Alçiçəyin yanına,
Qorxuludur seçilməyən oxşayış.

Qız dedi ki:-Ana, harda qalmısan,
Hara gedib belə gözəl olmusan,
Ancaq üzdən bir azcana solmusan,
Qorxuludur seçilməyən oxşayış.

Tuncay gəldi, inanmadı gözünə,
Gördü Yanqu sığal çəkib üzünə,
Yar-yaraşıq qatıb sanki özünə,
Qorxuludur seçilməyən oxşayış.

-Qadan alım, Yanqu, necə gözəlsən,
Nə olar ki, hər gün belə bəzənsən,
Çox sevilir qadın belə gözəlsə,
Qorxuludur seçilməyən oxşayış.

Dinti dedi:-İstəyənim var hələ,
Sənin kimi öyənlərim çox belə,
Ancaq gözəl demək olmaz hər gülə,
Qorxuludur seçilməyən oxşayış.

***

Tuncay dedi:-Dəyişilib səsin də,
Qadın ildə bir neçə yol dəyişir.
Baxışın da yatarlaşıb, güllənib,

Qadın ildə bir neçə yol dəyişir.
Tuncay onu qucaqladı, oxşadı,
Belindəki al ipəyi qurşadı,
«Bu, Yanqudur, yoxsa onun oxşarı»,
Qadın ildə bir neçə yol dəyişir.

-Mən Xaqanın istəyini sezirdim,
Sənə görə il-il buna dözürdüm,
Turq haçandan, ərim, məndən kəsirdi,
Qadın ildə bir neçə yol dəyişir.

Uğureldə Turqtay mənə vuruldu,
Çox gözlədi, gəldi, getdi, yoruldu,
Yol tapmadı, o, içindən qırıldı,
Qadın ildə bir neçə yol dəyişir.

Çox yerlərdə qaş-göz atıb Turq mənə,
Sənə görə mən dözmüşəm, mən yenə,
Daha artıq bağlanmışam, bil, sənə,
Qadın ildə bir neçə yol dəyişir.

***

-Mən onları görməzliyə vurmuşam,
Yanılana saymazlıqdır görməmək.
Sözatdılar, gözvurdular çox olub,
Yanılana saymazlıqdır görməmək.

Mən demişəm, ilkim, sonum Tuncaydır,
Turq əl çəkmir məndən ancaq üç aydır,
Buna görə indiyəcən subaydır,
Yanılana saymazlıqdır görməmək.

-Mən o Turqu oturdaram yerində,
Üz çevirər səndən səni görəndə,
Qoy utansın sevdiyinin ərindən,
Yanılana saymazlıqdır görməmək.

-Çox gözümü ağartmışam ona mən,
Çox pis sözlər eşitmişəm dilindən,
Gün olub ki, mən qaçmışam əlindən,
Yanılana saymazlıqdır görməmək.

-Bir yol göstər, mən inanım bunlara,
Yoxsa Yanqum, bunlar hara, Turq hara,
Görsəm, onla qardaşlığı ataram,

Yanılana saymazlıqdır görməmək.

***

Tuncay yedi öz-özünü içindən,
Gözdən düşər özgə yerə göz dikən.»
Bu qapalı sevgi daha nə demək,
Gözdən düşər özgə yerə göz dikən.

Bunca Turqun üzü vardır, içi yox,
Bu qardaşın adı vardır, vesi yox,
Bu doğmanın əli uzun, gücü yox,
Gözdən düşər özgə yerə göz dikən.

Sanki Yanqu üz tutubdur Turq yönə,
Göz pırtlayıb, döş qabarıb lap önə,
Öldürərəm hamısını bir günə,
Gözdən düşər özgə yerə göz dikən.

Görünür ki, dəyişkəndir qardaş da,
İşi qayım tutmalıyam bu başdan,
Mən onları güdməliyəm yavaşdan,
Gözdən düşər özgə yerə göz dikən.

Tanrı, yıxma mənim isti evimi,
Uzaq elə burdan sevgi devini,
Son ayaqda Tuncay sənə güvənir,
Gözdən düşər özgə yerə göz dikən.

***

Dinti gördü Tuncay onu güdmədə,
Sevgi oddur, içi, çölü yandırır.
Yazı yazdı, Turqu bura səslədi,
Sevgi oddur, içi, çölü yandırır.

Yazdı:«Dinti sənin üçün darıxır,
Sevgi onun ürəyini bərk sıxır,
Ayrılığın bir ölçüsü var axı,
Sevgi oddur, içi, çölü yandırır.
Dinti səni hər gün, hər an gözləyir,
O çırpınır quş tək, səni səsləyir,
Ürəyində böyük sevgi bəsləyir,
Sevgi oddur, içi, çölü yandırır.

Turq düşündü, bu da bir atmindidi,
Onu mənə unutduran Dintidir,

Bundan sonra yerim onun kəndidir,
Sevgi oddur, içi, çölü yandırır.

At səyirtdi Uğurelə doğru o,
Getdi birbaş Dintisinə sarı o,
Ürəyində daşıyırdı ağrı o,
Sevgi oddur, içi, çölü yandırır.

***

Dinti çıxdı qabağına yuxulu,
Olmaz bir də sevgilini dəyişmək.
Turq dedi ki:-Sənə qonaq gəlmişəm,
Olmaz bir də sevgilini dəyişmək.

Qız söylədi:-Mən Yanquyam, Dinti yox,
Sən sevirsən məni, buna örtü yox,
Turq söylədi:-İstəyirdim, indi yox,
Olmaz bir də sevgilini dəyişmək.

Dinti mənim, Tuncayındır Yanqu da,
Mənim üçün bir dinclikdir, bil, bu da,
Sevgi Tanrı işığıdır Qobuda,
Olmaz bir də sevgilini dəyişmək.

Tuncay güdüb eşidirdi onları,
Qabarmışdı alnındakı damarı,
Turqtay birdən acıqlanıb qabarır,
Olmaz bir də sevgilini dəyişmək.

-Məni bura kim çağırıb, Dinti qız,
Sən Yanqusan, bəs hardadır o qansız?!
O çağırıb məni bura, o, yalnız,
Olmaz bir də sevgilini dəyişmək.

***

-Bax, bunu da mənə Dinti yazıbdır,
Söz dəyişər, ancaq yazı pozulmaz.
Tuncay çıxdı, qapdı ondan yazını,
Söz dəyişər, ancaq yazı dəyişməz.

-Dinti kimdir?!-O, Yanquya çığırdı,
-Çıx get burdan! –O, bir daha bağırdı,
Üçündə də yazı ağrı doğrutdu,
Söz dəyişər, ancaq yazı dəyişməz.

-Dinti kimdir, nə istəyir o, səndən,
Ürək çəkir, öc doğurur o, məndə,
Yanqu başa düşmə Dinti deyəndə,
Söz dəyişər, ancaq yazı dəyişməz.

Turq utandı, qaşlarını çataraq,
Dinti onu aldatmışdı bu sayaq,
O gəlmişdi Uğurelə, çaparaq,
Söz dəyişər, ancaq yazı dəyişməz.

Turq utandı, dedi, yaman azmışam,
Bir yazıyla qızıxmışam, qızmışam,
Öz sevgimə sonda sonev qazmışam,
Söz dəyişər, ancaq yazı dəyişməz.

***

Onlar getdi, Turq alçaldı, utandı,
Ucaldacaq uca sevgi kişini.
Dinti alçaq iş görmüşdü yazıyla,
Ucaldacaq uca sevgi kişini.

At səyirtdi o, Çinçaya birbaşa,
Doğru olsun gərək qardaş qardaşa,
Dinti qızdır, o satılıb daş-qaşa,
Ucaldacaq uca sevgi kişini.

Kəsə yolla o, dağları aşırdı,
Gözlərindən acı, ağrı daşırdı,
Yolu üstə çaylar sanki şişirdi,
Ucaldacaq uca sevgi kişini.
Bir gün Tuncay dedi gözəl Dintiyə,
-Sənin dilin topuq vurur, qız, niyə?
Yanqu arvad deyilmisən sən bəyəm,
Ucaldacaq uca sevgi kişini.

Kürəyindən çapıq yeri silinib,
Alt dodağın iki yerə bölünüb,
Niyə belə titrədirsən dilini,
Ucaldacaq uca sevgi kişini.

***

Dinti dedi:-Mən də bunu duyuram,
Qız dəyişir, ana olur doğuşda.
Elə bil ki, mən o Yanqu deyiləm,
Qız dəyişir, ana olur doğuşda.

Qorxu məni əldən salıb, nə işdi,
Alçiçəyi doğdum, birdən dəyişdim,
Sanki sənlə mən yenidən sevişdim,
Qız dəyişir, ana olur doğuşda.

Sanki gedib göydən bir də gəlmişəm,
Sanki qızı mən doğaraq ölmüşəm,
Mən özümə səni Tanrı bilmişəm,
Qız dəyişir, ana olur doğuşda.

Tuncay dedi:-Doğuş Tanrı işidir,
Böyük Tanrı anaları eşidir,
Tanrı südlə dolu ana döşüdür,
Qız dəyişir, ana olur doğuşda.

Dinti bir az qaş-göz atıb əzildi,
Qorxu çəkdi, qız ürəyi üzüldü.
Bu qorxaqlıq üz-gözündən sezildi,
Qız dəyişir, ana olur doğuşda.

***

O düşündü, «Tuncay gərək yox ola,
Yer-yığışın, yerbəyerin çəmi var.
İşi bilsə vurub məni öldürər,
Yer-yığışın, yerbəyerin çəmi var.
Tuncay getsə Turqtay gələr görüşə,
Yanqu deyib o, mənimlə birləşər,
Onda Dinti Başevdə də yerləşər,
Yer-yığışın, yerbəyerin çəmi var.»

Tuncay dedi, «baxış, dodaq, dil özgə,
Niyə qorxur Alçiçəyi o görcək,
Ah, bunları öyrənəydim mən bircə,
Yer-yığışın, yerbəyerin çəmi var».

İnamsızlıq çoxalırdı günbəgün,
Çulğamışdı onu sorğu büsbütün,
Yumaqlanıb hey artırdı bu düyün,
Yer-yığışın, yerbəyerin çəmi var.

Tuncay bunca saralırdı get-gedə,
Göz qaralsa gözdə cığır, yol itər,
İnamsızı ancaq ölüm kiridər,
Yer-yığışın, yerbəyerin çəmi var.

***

Həm inanır, həm inanmır arvada,
Yaşa dolmur çox inamsız sevgilər.
İnamsızlıq sevgi ilə boğuşur,
Yaşa dolmur çox inamsız sevgilər.

«-Harda qaldı baldan dadlı öpüşün,
Soyuyubdur dilin, sözün, gülüşün,
Dəyişilib niyə yolun, yerişin,
Yaşa dolmur çox inamsız sevgilər.

Deyirsən ki, uşaq doğdum, soyudum,
O ilk sevgi, söylə, haçan qayıdır,
Sənsən mənim içim, çölüm, soy adım,
Yaşa dolmur çox inamsız sevgilər.

Sevdin, gəldin, gözəlləşdin bir az da,
Qar ələndi sevgimizə bu qızdan,
Dəyişilib günüm, ayım bu yazdan,
Yaşa dolmur çox inamsız sevgilər.

Sevgi gərək igidliyə tay ola,
Ölüməcən axar-baxar çay ola,
Sınıq sevgi özgəsinə pay olar,
Yaşa dolmur çox inamsız sevgilər.

***

Bir il keçdi, Tuncay öldü lapbadan,
Qoca düşər, gənc lapbadan keçinər,
Bu ölümə hamı göz-göz ağladı,
Qoca düşər, gənc lapbadan keçinər.

Hamı dedi bunun içi yanıbdır,
Ancaq çöldən üzü-gözü donubdur,
Ölüm bunun evi üstə qonubdur,
Qoca düşər, gənc lapbadan keçinər.

Bacar gəldi, Tuncər, Günay, Qarçiçək,
Haray çəkdi uzaqlardan Qızçiçək.
Çəkilmişdi üzərinə al örpək,
Qoca düşər, gənc lapbadan keçinər.

Hamı baxdı bir-birinə qapalı,
Yaşlı gözlər, yaş baxışlar yaralı,

Tuncay üçün ağlar üzlər saralıb,
Qoca düşər, gənc lapbadan keçinər,

Tanı gəldi, arxasınca min atlı,
Turq Quşatda uçub gəldi qanadlı,
Tanış-biliş, doğma, elli, elatlı,
Qoca düşər, gənc lapbadan keçinər.

***

Dinti qırx gün örpəyini açmadı,
Qara örpək qara günü göstərir.
Qaldı ancaq üz-gözünün bəzəyi,
Qara örpək qara günü göstərir.

Ağı deyib qız, qadınlar mələyir,
Tanrılardan tez-tez əltut diləyir,
«Aşa» deyib hamı üztut söyləyir,
Qara örpək qara günü göstərir.
Yaşdır Turqun seyrək bığı, saqqalı,
İri gözlər, sıx kirpiklər qapalı,
Ağlar gözlər, qıvrım saçlar qaralır,
Qara örpək qara günü göstərir.

Bu nə işdir gəldi elin başına,
Tuncay getdi, döndü Umay quşuna.
Çatdaq düşdü dağın soyuq daşına,
Qara örpək qara günü göstərir.

Bacar yoldu çal saçını, ağladı,
O, Mineli, Mindiyarı dağladı,
Alıb qara alınbağı bağladı,
Qara örpək qara günü göstərir.

***

Sərtüz gəldi, yalvarışlar ucaldı,
Gənc öləndə qoca torpaq gəncləşir.
O, Tuncaya göydən dinclik dilədi,
Gənc öləndə qoca torpaq gəncləşir.

Gətirdilər başı üstə atını,
Qonuratın neçə günlük otunu,
Gəlib durdu saçyolduya qadını,
Gənc öləndə qoca torpaq gəncləşir.

Sərtüz dindi, üztutdular* səsləndi,

Elin, yurdun ocaq yeri gözləndi,
Dinti qorxdu ondan, evdə gizləndi,
Gənc öləndə qoca torpaq gəncləşir.

-Aşa, Hörmüz, al qoynuna oğulu,
Dilli, dilsiz ölmək üçün doğulur,
Özü ölüb, içuçarı** yuxulu,
Gənc öləndə qoca torpaq gəncləşir.

-Aşa, Hörmüz, işıq elə Tuncayı,
Bu oğulun göydə, yerdə yox tayı,
Yaranışda beləsini çox yayın,
Gənc öləndə qoca torpaq gəncləşir.

***Dua**
****Ruh**

Qız toplumu söyləncі

Qız toplumu döyüşçülər geyimdə,
Qız gözəldir, ona hər şey yaraşır.
Döyüşçünün oğlan, qızı olmayır,
Qız gözəldir, ona hər şey yaraşır.

Manayqızın qılınc vuran qızları,
Geyimləri yamyaşıldır, sapsarı,
Bəstəboylar on qarıcdır, on yarım,
Qız gözəldir, ona hər şey yaraşır.

At üstündə qılınc vurur, ox atır,
Selə, suya, dağa, daşa qov atı,
Bu toplumu Tanrı özü yaradıb,
Qız gözəldir, ona hər şey yaraşır.

Gözəgəlim, yanaq dolu, döş dolu,
Var ərlisi, var subayı, var dulu,
Dözümləri kişilərdən çox olur,
Qız gözəldir, ona hər şey yaraşır.

Yaraqlıdır, ana olmaq istəmir,
Döyüşçüdür, bu sərt yolu pisləmir,
Qorxağı var, sısqası var yüzdə bir,
Qız gözəldir, ona hər şey yaraşır.

***

Başçıları qaba, incə Manayqız,

Yatımlıdır qız-qadında qabalıq.
Onu gülən görməyiblər hələ də,
Yatımlıdır qız-qadında qabalıq.

Qız toplumu qorxuludur, gülməli,
Qızlar kimi el yolunda ölməli,
Bunun üçün döyüşməyi bilməli,
Yatımlıdır qız-qadında qabalıq.

Qorxuları təklikdəndir, tək olma,
Qaçdıqları köklükdəndir, kök olma,
Tükdən qorxma, qız-qadında tük olmaz,
Yatımlıdır qız-qadında qabalıq.
Qancıl qızı, yaşat, oxşa ərini,
Al yanına sevgilini, ərini,
Qadan alım, söylə, gəlim, yerini,
Yatımlıdır qız-qadında qabalıq.

Bu qız-qadın artıq imiş olmaya,
Ər tayları ölmüş idi harada,
Qalmışdılar tək, kimsəsiz, arada,
Yatımlıdır qız-qadında qabalıq.

***

Cumər dedi Manayqıza yavaşca,
-Su bir yerdə qalsa çökər, iy verər,
Bu toplumu çıxart daha yollara,
Su bir yerdə qalsa çökər, iy verər.

Bacar təkdir, get ona sən arxa ol,
At çapsan da sən çox işdə yorğa ol,
Döyüşlərdə sınmaz, yenməz yonta ol,
Su bir yerdə qalsa çökər, iy verər.

Mən qalaram, ollam sənin yerincin,
Sən bir qızsan, ürəklərin sevinci,
Hamı deyir mən sevirəm bu gənci,
Su bir yerdə qalsa çökər, iy verər.

Döyüş, vuruş yoxdur hələ ölkədə,
Yan ötübdür Minel hərki-hərkidən,
İpək gəlir bizə uzaq ölkədən,
Su bir yerdə qalsa çökər, iy verər.

Cumər baxdı Manayqıza qıyqacı,

Baxış acı, üz-göz boğuq, dil acı,
Niyə belə doğulubdur bu bacı,
Su bir yerdə qalsa çökər, iy verər.

***

Cumər dedi:-Səni sevdim gizlicə,
Gizli sevgi qızğın olar, yandırar.
Bu sevgini bəsləyirəm üç ildir,
Gizli sevgi qızğın olar, yandırar.
Gözlədim ki, bunu duyub biləsən,
Çılğınlıqdan dönüb, yola gələsən,
Heç olmazsa mənlə deyib, güləsən,
Gizli sevgi qızğın olar, yandırar.

–Mən sevgini anlamıram, nədəndir,
Bu duyğular məndə ötüb gedəndir,
O, yuxulu bir buluddur, ötəndir,
Gizli sevgi qızğın olar, yandırar.

Mən sezirəm, hərdən boz-boz baxırsan,
Qora dönüb üzərimə yağırsan,
Sözlərini boğazında boğursan,
Gizli sevgi qızğın olar, yandırar.

Məni çox da soyuq sanma, qanıram,
Hərdən elə mən də sən tək yanıram,
Ürəyimə səni yaxın sanıram,
Gizli sevgi qızğın olar, yandırar.

***

Cumər tez-tez danışırdı, gülürdü,
Dil gözəlsə dilləndirər daşı da.
Yumuq gül tək çırtdayırdı Manayqız,
Dil gözəlsə dilləndirər daşı da.

Gənclər belə dil tapdılar özləri,
İlk sevgidən işıqlandı üzləri,
Sevgi ilə bələkləndi sözləri,
Dil gözəlsə dilləndirər daşı da.

Unuduldu yerdə qalan nə varsa,
Tut əlindən, tut əlindən bacarsan,
Kim olsan da ilk sevgiyə uyarsan,
Dil gözəlsə dilləndirər daşı da.

Çiçəkləndi Manayqız da sevgidən,
Yox, sevgidir deyən qızı bərkidən,
Ən ağırdır belə sevgi çəkidə,
Dil gözəlsə dilləndirər daşı da.

Sevişərək onlar verdi əl-ələ,
Güllər açdı sarmaşanda gül-gülə,
Bu, sevincdir, bunu öncə el bilər,
Dil gözəlsə dilləndirər daşı da.

***

Yavaş-yavaş dəyişildi Manayqız,
Yaz gələndə yumuq güllər açılar.
Bunu bildi Turqız, Turqtay, Tanı şah,
Yaz gələndə yumuq güllər açılar.

Hamı sevir, ancaq günü, ayı var,
Tanrılıqdır, onda sənin payın var,
Göydə onun hamıyacan sayı var,
Yaz gələndə yumuq güllər açılar.

Sevgi yetkin, sevgi gizli, sevgi kal,
Sevgi deyil gəlsə tez-tez, dalbadal,
Mərci deyil götürəsən bir çuval,
Yaz gələndə yumuq güllər açılar.

Açıl, açıl, yumuq gülüm, gül qoxu,
Sevgi quşu, gəl bizimçin sən oxu,
Oyan, oyan, nə çox çəkdi bu yuxu,
Yaz gələndə yumuq güllər açılar.

Hər bir gülün yiyəsi var, gələcək,
Gəlib sənin göz yaşını siləcək,
Hamı sevgi dad-duzunu biləcək,
Yaz gələndə yumuq güllər açılar.

***

Gözəlləşdi, yumrulandı Manayqız,
Gizli qalan nələr vardır sevgidə.
Gah ağladı, gah oynadı, gah güldü,
Gizli qalan nələr vardır sevgidə.

Qaş-qabağı, acılığı atdı qız,
Gözəllikdə birə əlli artdı qız,
Gülə-gülə oyandı qız, yatdı qız,

Gizli qalan nələr vardır sevgidə.
Hardan belə gül qoxuyan yel əsdi,
O, güllərin görüşünə tələsdi,
Ürəyində tanrılaşan nə səsdir,
Gizli qalan nələr vardır sevgidə.

Cumər onu gülər gördü, öyündü,
Ürəyində sevgi, sevinc döyündü,
Qız Cuməri, Cumər qızı bəyəndi,
Gizli qalan nələr vardır sevgidə.

Birgə ova, toy-düyünə getdilər,
Sevinc, sevgi, gülüşlərdə itdilər,
Sevgi quşu olub mahnı ötdülər,
Gizli qalan nələr vardır sevgidə.

***

Çuqçubaşı gəlib çıxdı Başevə,
Lap yaxından hər gün vurum gözlə sən.
Dedi:-Qorxu altındadır Manayyurd,
Lap yaxından hər gün vurum gözlə sən.

Asurelli Manayyurdu qorxudur,
Hər gün yeni yurd-yuvanı dağıdır,
Kamac oğlu qandan çaylar axıdır,
Lap yaxından hər gün vurum gözlə sən.

Yığılırlar toplum-toplum ormana,
Çapıb, yeyib, çevriliblər qabana,
Bənzəyirlər deşilməmiş çibana,
Lap yaxından hər gün vurum gözlə sən.

Tanı şahın üzü soldu, ağardı,
O, Turqtayı öz yanına çağırdı,
Öz oğluna o, ucadan bağırdı,
Lap yaxından hər gün vurum gözlə sən.

Dedi:-Toplum çıxart Manayyurda sən,
Beş min çuqçu birdən qopsun yerindən,
Arxadan da Asurelə çıxım mən,
Lap yaxından hər gün vurum gözlə sən.

***

Turqız dedi:-Mən də sənlə gedirəm,
Yer titrəyər hamı birdən dəbərsə.

Döyüş-vuruş səsləncləri gurladı,
Yer titrəyər hamı birdən dəbərsə.

Çuqçubaşı götürüldü Başevdən,
O hər yerdə torpaq güdən, el güdən,
Kimə gərək boş söz ilə boş gödən,
Yer titrəyər hamı birdən dəbərsə.

Soraq çatdı Muğər, Tuncər, Cumərə,
Tuşlanc* oldu düşüncələr bir yerə,
Səs yayıldı çölə, düzə, gör-görə,
Yer titrəyər hamı birdən dəbərsə.

On gün keçdi, durdu ərlər üz-üzə,
Kamac oğlu dadanmışdı çərəzə,
Ormanlardan endi onlar boş düzə,
Yer titrəyər hamı birdən dəbərsə.

Dedi:-Ey Turq, öldürmüsən Kamacı,
Sən qırmısan Asureli, a qancıl,
Ürəyimdə düyün salıb bu sancı,
Yer titrəyər hamı birdən dəbərsə.

***

Turq söylədi:-Çapqınçılıq etməyin,
Çapqınçının gərək başı çapılsın,
Biz yer verdik bu yolundan dönənə,
Çapqınçının gərək başı çapılsın.

Min ildir ki, bizi çapıb yeyirsiz,
Özünüzə Asurelli deyirsiz,
Orda, burda özünüzü öyürsüz,
Çapqınçının gərək başı çapılsın.

Boş-boşuna yer paylamır Mindiyar,
Manayyurdun yiyəsi var, Turqu var,
Qoy utansın özgə ələ baxanlar,
Çapqınçının gərək başı çapılsın.

Hədəf

-Gəlmişəm ki, burda şahlıq qurum mən,
Bizdən sizə sığınanı qırım mən,
Minimyarın başı üstə durum mən,
Çapqınçının gərək başı çapılsın.

-Kamac oğlu, gücün buna çatammaz,
Biz dəmirik, bizə dişin batammaz,
Öz yurduna qayıt geri, utanmaz,
Çapqınçının gərək başı çapılsın.

***

Şaqqıldadı bizuc, toppuz, ox, qılınc,
Qan tökülər, öc göyərər yerində.
Şahə qalxdı atlar, tez-tez kişnədi,
Qan tökülər, öc göyərər yerində.

Kamac oğlu bizuc atdı, ox atdı,
Ox Quşatın yalmanını qanatdı,
Bu, Turqtayın dözümünü daraltdı,
Qan tökülər, öc göyərər yerində.

Turq əl atdı, tutdu onun əlindən,
Dartıb aldı onu atın belindən,
Yerə dəydi, çabaladı o gödən,
Qan tökülər, öc göyərər yerində.

Ağır bizuc onu tikdi torpağa,
Səpələnib qan sıçradı otlağa,
Kamac oğlu durammadı ayağa,
Qan tökülər, öc göyərər yerində.

Beş min çuqçu birdən çıxdı vuruşa,
Acıqanın toplumuyla baş-başa,
Toqquşdular, sanki dəydi daş-daşa,
Qan tökülər, öc göyərər yerində.

***

Turq yeridi toplumuyla irəli,
İkitiyə qılınc tutub hər əli.
Ağıllandı bu döyüşdə çox dəli,
Qan tökülər, öc göyərər yerində.
Çuqçubaşı sıx sıralar yarırdı,
Acıqanı qoşa-qoşa qırırdı,
Hərdən toppuz, hərdən qılınc vururdu,
Qan tökülər, öc göyərər yerində.

Yer-yurd bütün palçıq oldu yağışdan,
Yeni toplum aşdı gəldi yoxuşdan,
Asurelli çoxalırdı bir ucdan,
Qan tökülər, öc göyərər yerində.

Soraqçılar, güdükçülər, yürüklər,
Dedi, gəlir alaylarda bölüklər,
Burdan üç yol qaçan üzü sürtüklər,
Qan tökülər, öc göyərər yerində.

Turqtay dedi:-hərə beşin gəbərtsin,
Gəbərdərək acıqanı seyrəltsin,
Döyüş nədir, qancıllara öyrətsin,
Qan tökülər, öc göyərər yerində.

***

Ancaq gediş dəyişmişdi döyüşdə,
Gərək hər an gözləyəsən gedişi.
Asurelə əltut gəldi Balasqel,
Gərək hər an gözləyəsən gedişi.

Nələr çəkdi Balasqeldən İşdayaq,
Qaraş, Düzər, Qızod ilə Üstüağ,
Niyə belə qan gəzirsən, yal-yaraq,
Gərək hər an gözləyəsən gedişi.

Dördtəkərli qoşquları qorxulu,
Geyimləri al dəmirdən toxunub,
Yorğunluqdan üzlər-gözlər yuxulu,
Gərək hər an gözləyəsən gedişi.

Əkbitəndən toplum gəldi üç günə,
Çıxdı dəmir qoşquların önünə,
Döyüşdülər uzununa, eninə,
Gərək hər an gözləyəsən gedişi.

Turq söylədi Filip oğlu Lamana,
-Ac at kimi nə gəlibsən samana,
Balasqelli dönüb öcə, yamana,
Gərək hər an gözləyəsən gedişi.

***

Laman dedi:-Eşitmişəm Yüzəri,
Deyiblər ki, yüz yol eşit, bir yol gör.
Söylənclərdən tanıyıram Mineli,
Deyiblər ki, yüz yol eşit, bir yol gör.

Gəldim görüm söyləncdəki ərləri,
Görüm burda gözoxşayan yerləri,

At belində quşa dönən elləri,
Deyiblər ki, yüz yol eşit, bir yol gör.

Turqtay dedi:-Mənəm indi İşdayaq,
Üstüağlar yetiribdir bu torpaq,
Burda ürək qoyub gedib çox qonaq,
Deyiblər ki, yüz yol eşit, bir yol gör.

Laman dedi:-Bizə otlaq gərəkdir,
Otlaq ətdir, otlaq süddür, çörəkdir,
Belə ölkə dayanışda tək-təkdir,
Deyiblər ki, yüz yol eşit, bir yol gör.

Turqtay dedi:-Yiyəsi var bu yurdun,
Tanrısı var hər ocağın, hər odun,

Deyiblər ki, yüz yol eşit, bir yol gör.

***

Dörd tərəfdə qızğın döyüş gedirdi,
Hər basarlıq keçir neçə vuruşdan,
Baş qoymuşdu bu döyüşdə çuqçular,
Hər basarlıq keçir neçə vuruşdan.

Qoşqulardan ox yağdıqca dörd yana,
Güc verirdi bu üstünlük Lamana,
O baxırdı qurğuyla ox atana,
Hər basarlıq keçir neçə vuruşdan.
Ancaq birdən dəyişildi döyüşlər,
Səngiyirdi geniş-geniş yürüşlər,
Üstünlükdə yaranmışdı dönüşlər,
Hər basarlıq keçir neçə vuruşdan.

Lapdan dönüş haradandı, nədəndi,
Tanrı özü doğruluğu güdəndi,
Güc tanrıdan gücsüzlərə yetəndi,
Hər basarlıq keçir neçə vuruşdan.

Tanı vurdu acıqanı arxadan,
Getdi böyük ürkü-qorxu aradan,
Manayyurda əltut oldu yaradan,
Hər basarlıq keçir neçə vuruşdan.

***

İlamyurddan vurdu gəldi Tanı şah,

Ağır vurum dəyər ancaq arxadan.
Gizli-gizli, dizin-dizin gəlmişdi,
Ağır vurum dəyər ancaq arxadan.

Axşam üstü Laman yorğun dönəndə,
Üzərinə tunc toppuzlar enəndə,
Öldü Laman ilk yeni il günündə,
Ağır vurum dəyər ancaq arxadan.

Ona daldan ağır qılınc vuruldu,
Qoşqudakı oxatanlar qırıldı,
Yorğun düşən lamançılar yoruldu,
Ağır vurum dəyər ancaq arxadan.

Parlayırdı Tanı şahın qılıncı,
Yellənirdi göydə ipək yapıncı,
Dərin idi qılıncının yarıncı,
Ağır vurum dəyər ancaq arxadan.

Qoşquları qoyub onlar qaçırdı,
Qaçanlara Tanı ölüm saçırdı,
Vuruşduqca Turqtaya yol açırdı,
Ağır vurum dəyər ancaq arxadan.

***

Çox qırıldı bu üç yanlı vuruşda,
Yaraqdadır indi parlaq üstünlük.
Qoşqulardan ox yağış tək yağırdı,
Yaraqdadır indi parlaq üstünlük.

Lamançılar düşmüşdülər üzüyə,
Dönmüşdülər qara ölü kötüyə,
Oxatanlar qanlı əzik-üzüyə,
Yaraqdadır indi parlaq üstünlük.

Bunu bilcək Turqtay bir də yüyürdü,
Qarşıdakı qoşquları kürüdü,
Çuqçular da irəliyə yeridi,
Yaraqdadır indi parlaq üstünlük.

Balasqelli, Asurelli dağıldı,
İstəkləri içlərində boğuldu.
Minellinin bicləməsi doğruldu,
Yaraqdadır indi parlaq üstünlük.

Tutuqlandı Asurelli neçə min,
Tanı dedi:-İşlərini bitirin,
Bir-bir qırın, yer üzündən itirin,
Yaraqdadır indi parlaq üstünlük.

***

Lamançılar dedi, bizi qırmayın,
Gücsüz daldan gəlir, güclü qabaqdan.
Çəm işlətdi, Tanı gəldi arxadan,
Gücsüz daldan gəlir, güclü qabaqdan.

Ancaq çoxu düşməyirdi qoşqudan,
İki toplum gözləyirdi busquda,
Lamançılar dağılırdı doğrudan,
Gücsüz daldan gəlir, güclü qabaqdan.

Üç gün sonra döyüş bir də başladı,
Oxatanlar oxlarını tuşladı,
Qılınc tutan at başını boşladı,
Gücsüz daldan gəlir, güclü qabaqdan.
Hər yürüşdə yüz-yüz yerə töküldü,
Bizuc ilə çox döş-qarın söküldü,
Qan qarışıq torpaq göyə çəkildi,
Gücsüz daldan gəlir, güclü qabaqdan.

Gah səngidi, gah qızışdı yürüşlər,
Dayanmadı gecə-gündüz döyüşlər,
Bağırtılar, qışqırtılar, söyüşlər,
Gücsüz daldan gəlir, güclü qabaqdan.

***

Tanı yardı sıraları neçə yol,
Qancıl ola gərək başçı döyüşdə.
Turq qabaqdan, Tanı isə, arxadan,
Qancıl ola gərək başçı döyüşdə.

Tanı aldı, tutuqladı, doğradı,
Sıraları qılınc ilə daradı,
Tək-tək qaçıb gizlənəni aradı,
Qancıl ola gərək başçı döyüşdə.

Tanı dedi:-Qırın, yaxın nə ki var,
Üç min ildir bunlar bizi soyurlar,
Yer tuturlar, bizi yersiz qoyurlar,
Qancıl ola gərək başçı döyüşdə.

Oğlum, Turqtay, vur bunları, yamanla,
Qancıl Əmən, Kamac, Həlləc, Lamanla,
Aldadıblar bizi yüz yol yalanla,
Qancıl ola gərək başçı döyüşdə.

Ay Minelli, birini də buraxma,
Dörd yerə böl hər qancılı yaraqla,
Qoy kəsilsin burdan əyri ayaqlar,
Qancıl ola gərək başçı döyüşdə.

***

Balasqelli, Asurelli bir oldu,
Birlik gərək ağ günlərə yol açа.
Qan-qadaya dartılırdı bu birlik,
Birlik gərək ağ günlərə yol açа.
Kəsilmədi qanın ardı-arası,
Bir də artdı Asurelin sırası,
Turqu yıxdı birdən köküs yarası,
Birlik gərək ağ günlərə yol açа.

Manayyurdu basıb aldı acıqan,
Tanı, Turqtay, Çuqçubaşı yarıcan,
Yaralılar əl çəkmədi vuruşdan,
Birlik gərək ağ günlərə yol açа.

Gecə gəldi Cumər ilə Manayqız,
Qız toplumu çılğın, diri, haraysız,
Yürüş etdi acıqana arasız,
Birlik gərək ağ günlərə yol açа.

Cumər od tək, ildırım tək çaxırdı,
Döşə, başa qızlar ox tək yağırdı,
Ürəklərdə yeni inam doğurdu,
Birlik gərək ağ günlərə yol açа.

***

Manayçılar, lamançılar didişir,
Qızın andı, ərin qolu güclüdür.
Manayyurdu boşaldırdı acıqan,
Qızın andı, ərin qolu güclüdür.

Qız toplumu oxdan keçdi qılınca,
Qılınc vurdu sıraları yarınca,
Dayanmadı Manayyurdu alınca,

Qızın andı, ərin qolu güclüdür.

Tuncər gəldi, silkələndi Mindiyar,
Döyüşlərə girdi dəmir qoşqular,
Gəmirtdədi it toplumu o ki var,
Qızın andı, ərin qolu güclüdür.

Cumər qartal sürüsünü kişlədi,
İti caynaq döşə, başa işlədi,
Qurdlar cumub yırtdı, sökdü, dişlədi,
Qızın andı, ərin qolu güclüdür.

Yaralı Turq, Tanı, Çuqçu vuruşur,
Qız, qadınlar kişilərə qarışır,
İtlər, qurdlar adamlara sarmaşır,
Qızın andı, ərin qolu güclüdür.

***

Lamançılar, həlləcçilər ürküdə,
Qorxu olsa ölür inam, bacarlıq.
Lamançılar üz qoydular batıya,
Qorxu olsa ölür inam, bacarlıq.

Onlar qaçdı, bunlar getdi dalınca,
Dənlədilər son tək-tükü qalınca,
Durmadılar qancıldan öc alınca,
Qorxu olsa ölür inam, bacarlıq.

Bu döyüşlər beş ay çəkdi, uzandı,
Minel yenə üstünlüyü qazandı,
Döyüşlərdən hamı bezdi, usandı,
Qorxu olsa ölür inam, bacarlıq.

Manayyurdun qaş-qabağı açıldı,
Ocaqlardan tüstü, alov saçıldı,
Turqtay adı tunc boşqaba yazıldı,
Qorxu olsa ölür inam, bacarlıq.

Bacar, Muğər sonra gəlib çatdılar,
Toplumları toplumlara qatdılar,
Sevinərək sevinclərə batdılar,
Qorxu olsa ölür inam, bacarlıq.

***

Manayyurdda bərkidildi qapılar,

Hər bir evin ilk qoruncu qapıdır.
Dəmir dirək, dəmir-düyün ağaclar,
Hər bir evin ilk qoruncu qapıdır.

Oturmuşdu başbilənlər, ərənlər,
Bu ölkənin gedişini görənlər,
Var-yoxunu el yolunda verənlər,
Hər bir evin ilk qoruncu qapıdır.
Bir yeni söz söyləyirdi hər öncül,
Tanı şahla Turq yatırdı üzümcül,
Yerdə qalan yaralılar ölümcül,
Hər bir evin ilk qoruncu qapıdır.

Dinti isə Əkbitənə çatırdı,
Ürəyində çox ağrılar yatırdı,
Qanığını* yanğısına qatırdı,
Hər bir evin ilk qoruncu qapıdır.

O gəlmişdi gənc Turqtayın üzünə,
Yazısını çəksin onun gözünə,
Bir yer etsin o, Başevdə özünə,
Hər bir evin ilk qoruncu qapıdır.

***

Alçiçəyin çırtlaq günü, ad günü,
Kimsəsizə kimsə olmaz özgədən.
Sığınmışdı o, Yanqunun adına,
Kimsəsizə kimsə olmaz özgədən.

Yanqudan çox o, Yanquya oxşayır,
Yanqu kimi o görünür, yaşayır,
Yanqulaşıb özgə adı daşıyır,
Kimsəsizə kimsə olmaz özgədən.

Alçiçəklə o oynayır, ağlayır,
Tuncay üçün ağlam**, göynəm saxlayır,
Gizli gedib hər bir yeri yoxlayır,
Kimsəsizə kimsə olmaz özgədən.

Turqız ona göz qoymuşdu, güdürdü,
Hərdən gəlib lap yanından ötürdü,
Gözlərində sanki tikan bitirdi,
Kimsəsizə kimsə olmaz özgədən.

Hərdən ondan soruşurdu Tuncayı,

Onun göyə ucalırdı harayı,
O, Turqıza göz olurdu dolayı,
Kimsəsizə kimsə olmaz özgədən.

***Təəssüf**
****Yas**

***

Turqız onu çağırtdırır yanına,
Bic qadınla ancaq qadın bacarar.
Deyir:-Necə oldu Tuncay keçindi,
Bic qadınla ancaq qadın bacarar.

-Tuncay məni qısqanırdı kiməsə,
Səs verirdi hər bir sözə, hər səsə.
Məni Turqa qısqanırmış, demə, sən,
Bic qadınla ancaq qadın bacarar.

-Yanqu, Turqu bura qatma havayı,
«Turq» söyləyib salma işə Turqtayı,
Mən bilirəm kim öldürüb Tuncayı,
Bic qadınla ancaq qadın bacarar.

Çıx get burdan, Tanı şahı gözləmə,
Çıxıb düzə Turqtayımı izləmə,
O, çox gəncdir, onu dinc qoy, izləmə,
Bic qadınla ancaq qadın bacarar.

-O, Çinçayda bunu deyib birinə,
Deyib, gərək mən od qoyam ərinə,
Girəm bir gün mən Tuncayın yerinə,
Bic qadınla ancaq qadın bacarar.

***

Turqız qovdu şah evindən Dintini,
Yalan sözlər hara düşsə qurd salar.
Aldı ondan Alçiçəyi, saxladı,
Yalan sözlər hara düşsə qurd salar.

Dedi:-Çıx get öz atanın yanına,
Sən yazısan öz yurdunun alnına,
Get, gir böyük Xaqanının qoynuna,
Yalan sözlər hara düşsə qurd salar.

Dinti dedi:-Məni qovub odlama,
Qaytar qızı, cızığını adlama,

Turqu saya qoyan yoxdur, çatlama,
Yalan sözlər hara düşsə qurd salar.
Üç min çuqçu döyüşçüm var burada,
Gəl qarışıq salma, Turqız, arada,
Mən Yanquyam, seçməm ağı qaradan,
Yalan sözlər hara düşsə qurd salar.

Çuqçulardan gedin, bir-bir soruşun,
Çuqçubaşı mənə görə vuruşur,
Qız alıblar, çoxu bura qarışıb,
Yalan sözlər hara düşsə qurd salar.

***

Turqız bir an «çuqçu» deyib düşündü,
«Bu, iş açar», bu işindən daşındı,
Ürəyini alıb getdi üşüntü,
Yalan sözlər hara düşsə qurd salar.

Dedi:-Gəl get, uşağını əmizdir,
Sənin Turqtay söyləməyin çox tezdir,
Sənin üzün bir üz deyil, üç üzdür,
Yalan sözlər hara düşsə qurd salar.

Oturduğun yer Manayın yeridir,
O ölməyib, o hələ də diridir,
Yaqu-manu ondan min il geridir,
Yalan sözlər hara düşsə qurd salar.

Dinti dedi:-Mən bunları bilirəm,
Buna görə mən bu evə gəlirəm,
Mən Turqtaya ürəyimdə gülürəm,
Yalan sözlər hara düşsə qurd salar.

Mən Tuncayın körpəsinə anayam,
Tuncay üstə məni çoxdur qınayan,
Sevgi üstə, düzlük üstə sınayan,
Yalan sözlər hara düşsə qurd salar.

***

Tək ana yox, döyüşçüyəm mən hələ,
Evi, çölü dolandıran anadır.
Kişilərin başı yurda qarışıq,
Evi, çölü dolandıran anadır.
Mən çuqçuyam, Sansi qızı Yanquyam,
Mən sevgidə, analıqda qayğıyam,

Bu Başevdə mən qapalı sorğuyam,
Evi, çölü dolandıran anadır.

Sən deyirsən, niyə Tuncay keçindi,
Sən de, necə tək yaşayım mən indi,
Ah, ürəyim, ah, ürəyim uçundu,
Evi, çölü dolandıran anadır.

Yıxılaraq Dinti iki bükülür,
Gözlərindən qanlı yaşlar tökülür,
Qolu, beli, boynu tarım çəkilir,
Evi, çölü dolandıran anadır.

Turqız dedi:-Onu yerdən götürün,
Aşağıda sağatçıya yetirin,
Sağaldaraq öz yanıma gətirin,
Evi, çölü dolandıran anadır.

***

Tanı, Turqtay gəlib çıxdı Başevə,
Doğma yurdda yara lap tez sağalır.
Neçə yerdən yaralıydı ikisi,
Doğma yurdda yara lap tez sağalır.

Əkbitəndə qoca, qarı, gənc, uşaq
Qarşıladı ərənləri qaçaraq,
Çalğı, mahnı, oyna-oyna, təmtəraq,
Doğma yurdda yara lap tez sağalır.

Əl atdılar, üzəngidən tutdular,
Başlarına al çiçəklər atdılar,
Dallarınca Başevədək yortdular,
Doğma yurdda yara lap tez sağalır.

Evyol, gəzyol, keçyol, çölyol doluydu,
Turqtay üçün bu, ucalıq yoluydu,
Tanı şaha bu, ana tək uluydu,
Doğma yurdda yara lap tez sağalır.

Dinti çıxdı, o yalladı Quşatı,
Turqun keçdi üz-gözündən qızartı,
«Bu qız kimdir, Yanqu, Dinti, qaraltı?»
Doğma yurdda yara lap tez sağalır.

***

Turq sarsıldı - atdan düşdü, bayıldı,
Ölmüş sevgi bir baxışla dirilər,
Qucaqladı qız Turqtayın köksünü,
Ölmüş sevgi bir baxışla dirilər.

-Turq, nə oldu, Turq, başına dolanım,
Turq, könlümdən böyük ağrı sallanıb.
Turq, sənindir mənim olan-qalanım,
Ölmüş sevgi bir baxışla dirilər.

Tanı dedi:-Qovun getsin Yanqunu,
Silin Turqun gözlərindən yuxunu,
Yelə verin bu yaranan qorxunu,
Ölmüş sevgi bir baxışla dirilər.

Turqız dedi:-Çuqçuları var onun,
Caynaqları çox itidir quzğunun,
Döz azcana, tapaq gizli qurğunu,
Ölmüş sevgi bir baxışla dirilər.

Tanı dedi: – Qovun getsin Çinçaya,
Tuş deyilmiş bu qız bizim Tuncaya,
Siz baxmayın göz yaşına, haraya,
Ölmüş sevgi bir baxışla dirilər.

***

Bir ağ ata mindirdilər Dintini,
Aldanışdır sevgi ovsun olanda.
Üç atlıyla onu yola saldılar,
Aldanışdır sevgi ovsun olanda.

Tapşırdılar hoydu-hoydu olmasın,
Göz qoyun ki, çöldə səs-küy salmasın,
Bir də sizi satın-matın almasın,
Aldanışdır sevgi ovsun olanda.
Yol getdilər on gün, dinməz-söyləməz,
Onuncu gün baş apardı küyləmə,
Bir-birini onlar dinlər-dinləməz,
Aldanışdır sevgi ovsun olanda.

Biri azca vurulmuşdu Dintiyə,
Qız baxırdı o, qırcanan pintiyə,
Qaş-göz ilə söz atırdı köntövə,
Aldanışdır sevgi ovsun olanda.

-Alınyazım mənim demək beləymiş,
Gənc yaşımda gərək ərim öləymiş,
Gözəllərin sonu yarım köləymiş,
Aldanışdır sevgi ovsun olanda.

***

Bu gözələ gülüb dedi yaraqlı,
-Gözəl gərək düzgün seçə yerini,
İki yandan sən ölkələr gəlini,
Gözəl gərək düzgün seçə yerini.

-Qandır, öcdür, paxıllıqdır gözəllik,
Tanrı sevinc verdi mənə onillik,
Göz qırpımı olub keçdi gəlinlik,
Gözəl gərək düzgün seçə yerini.

-Niyə çıxdın, Yanqu bacı, Başevdən,
Sənin üçün düşünürəm mən hərdən,
Öz yerini saxlamadın sən nədən,
Gözəl gərək düzgün seçə yerini.

-Mən gözələm, məni sevir Turq hələ,
Elə-belə baxmaq olmaz gözələ,
Əyri yolla getsən yolun düz gələr,
Gözəl gərək düzgün seçə yerini.

-Gözəl olsan, gözəl olar dilin də,
Qovulmazdın Mindiyarın elindən,
Su iyi var sən tək Çinel gəlində,
Gözəl gərək düzgün seçə yerini.

***

-Adın nədir, gözəl oğlan?
-Dədədüz!
-Düzlük gərək işdə ola, adda yox,
Sənin bunca baş-qulağın gözəldir,
Düzlük gərək işdə ola, adda yox.

-Mən çörəkçi bir varlının oğluyam,
Gözəl-mözəl olmasam da, doğruyam,
Əyri gedən dağ-daş görər, ağrıyar,
Düzlük gərək işdə ola, adda yox.

-Sən varlısan, mən də parlaq gözələm,
Dağa-daşa düşsəm belə, dözənəm,

Dürtməcədən, atmacadan küsənəm,
Düzlük gərək işdə ola, adda yox.

Atam Sansi, başçım Xaqan, özüm gül,
Qızıl, gümüş, çörək-mörək var deyil,
Dolanışın gözəlliyi – sev, sevil,
Düzlük gərək işdə ola, adda yox.

-Dədədüzəm, sənə vurğun yaraqlı,
Ola bilməz kölə qızdan adaxlı,
Bulud altdan çıxan günəş yanaqlı,
Düzlük gərək işdə ola, adda yox.

***

-Bağlı ollam sənə, dadlı, yatımlı,
Dirrik olmaz kimdə dad-duz olmasa.
Gözəllikdə axtar, gülüm, dad-duzu,
Dirrik olmaz kimdə dad-duz olmasa.

-Keçmək olmaz sənin kimi gözəldən,
İş üstdəyəm, gözəl, axı həm də mən,
Gözəl olur söz anlayan, söz bilən,
Dirrik olmaz kimdə dad-duz olmasa.

-İlk baxışdan bildim mənə bağlısan,
Mindiyarın şahlığından dağlısan,
Qorxmaz gəncsən, sıvrı, ipək bığlısan,
Dirrik olmaz kimdə dad-duz olmasa.
Sənin ollam, məni qaçır Çinçaya,
Orda dönək böyük, güclü olaya,
Mən günəşə çıxma deyim, sən aya,
Dirrik olmaz kimdə dad-duz olmasa.

-Dədədüzəm, Çörəkçilər boyundan,
Manay şahın Ağüz ellər soyundan,
Gəl, öp mənim qılıncımdan, yayımdan,
Dirrik olmaz kimdə dad-duz olmasa.

***

Üç gün sonra qaçdı Dinti, Dədədüz,
Birləşdirir, yollaşdırır yol bizi,
Gecə-gündüz yol getdilər Çinçaya,
Birləşdirir, yollaşdırır yol bizi.

Çox getdilər, atı yaman yordular,

Gəlib yaşıl bir talada durdular,
Ox atdılar, bir cüyürü vurdular,
Birləşdirir, yollaşdırır yol bizi.

Ocaq çatıb, yeyib, içib, yatdılar,
Bir-birini qırtıb, dartıb, yırtdılar,
Sonra dərin bir yuxuya batdılar,
Birləşdirir, yollaşdırır yol bizi.

Ayrılanda Dinti dedi:-Ərənim,
Sənə verdim Tanrı mənə verəni,
Turqız, Tanı boğazıma dirənib,
Birləşdirir, yollaşdırır yol bizi.

Sən mənim ol, yaşamını mənə ver,
Yaratmadan hay-küy, haray, səs-səmir,
Biz uçuraq Mindiyarı yerbəyer,
Birləşdirir, yollaşdırır yol bizi.

***

Dədədüzün iki gözü bərəldi,
Qız istəsə bir ölkəni dağıdar,
Dedi:-Gülüm, çatmaz buna gücümüz,
Qız istəsə bir ölkəni dağıdar.
Dinti dedi:-Mənim arxam böyükdür,
Çinçaydakı toplumlarım yürükdür,
Tanı şahsa içəridən çürükdür,
Qız istəsə bir ölkəni dağıdar.

Dedi, Turq da üzdən mənə vurğundur,
Buna görə üzü-gözü solğundur,
O da bizim yürüşlərə uyğundur,
Qız istəsə bir ölkəni dağıdar.

Üstün gəlsəm ad-sanını yayaram,
Səni böyük aparıcı qoyaram,
Mən özümə səni bir ər sayaram,
Qız istəsə bir ölkəni dağıdar.

Nə deyirsən, əlini ver əlimə,
«Yox» söyləmə səni sevən könlümə,
Sən qonaq ol Xaqanıma, elimə,
Qız istəsə bir ölkəni dağıdar.

***

-Burda mənim çuqçularım neçə min,
Bizi güc yox, bizi inam yaşadır.
Üç min çuqçu otuz min ər gücündə,
Bizi güc yox, bizi inam yaşadır.

Dədədüzü düşündürdü bu sözlər,
O dodaqlar, o yanaqlar, o gözlər,
Qız üzündən boylanırdı çox üzlər,
Bizi güc yox, bizi inam yaşadır.

Bu Turqtayın başbiridir deyəsən,
Tuncayın da başbiriydi o, dünən,
Mənə niyə könül verir, bəs nədən,
Bizi güc yox, bizi inam yaşadır.

Dedi:-Gedim mən bununla Çinçaya,
Gedib bir də qayıdaram üç aya.
Gördüyümü danışaram Turqtaya,
Bizi güc yox, bizi inam yaşadır.

Bu, qız deyil,-dedi – sanki Tanrıdır,
Düşüncəsi, sözü-mözü durudur,
Bunun bütün istəkləri ayrıdır,
Bizi güc yox, bizi inam yaşadır.

***

Əl verdilər, birləşdilər, güldülər,
Başbir olan yolbir olar, deyiblər,
Öpüşdülər, qızışdılar, söndülər,
Başbir olan yolbir olar, deyiblər.

Dədədüzün baş olmaqda gözü var,
Hara gedib çatıb görək başçılar,
Başçıların ölkəsidir Mindiyar,
Başbir olan yolbir olar, deyiblər.

Yelçəkənə at yortdular durmadan,
Ağ üzləri yalayırdı boz duman,
Yol üstündə ev qurmuşdu bir şaman,
Başbir olan yolbir olar, deyiblər.

Dinti dedi:-Şaman, bizə qam elə,
Buludları endir, bizə dam elə,
Göydən birlik gətir, bizi tam elə,
Başbir olan yolbir olar, deyiblər.

Şaman dedi:-Qız, üz-gözün durudur,
Söylə, yolun hansı yurda sarıdır,
Uğurelə burdan yollar yarıdır,
Başbir olan yolbir olar, deyiblər.

***

-Mən Sansinin sonbeşiyi, Yanquyam,
Doğmacalar doğmalardan doğmadır.
Mənim başçım, böyük Çinçay Xaqanı,
Doğmacalar doğmalardan doğmadır.

-Sən ölmüsən, Yanqu, artıq bir ildir,
Atan Sansi düşüb, o sağ deyildir,
Bu torpaqlar Mindiyardır, Mineldir,
Doğmacalar doğmalardan doğmadır.
Göydən gələn səslər deyir yavaşdan,
Əl götürün acgözlükdən, savaşdan,
Sizi ağır günlər gözlər o başdan,
Doğmacalar doğmalardan doğmadır.

Burda qalın, bu gün yola çıxmayın,
Ağ buluddan gözləməyin yağmağı,
Şaman elin atasıdır, qorxmayın,
Doğmacalar doğmalardan doğmadır.

Dinti dedi:-Yolçu yolda gərəkdir,
Ağ buludlar bulud deyil, ələkdir,
Şaman özü belə yeldir, küləkdir,
Doğmacalar doğmalardan doğmadır.

***

-Haydı,-dedi Dinti, çapdı Dədədüz,
Çap get, səni çağıranda uzaqlar.
At belində danışırdı ikisi,
Çap get, səni çağıranda uzaqlar.

Yorğa gedib oylaqları keçdilər,
Yaylaqları, qışlaqları keçdilər,
Meşələri, batdaqları keçdilər,
Çap get, səni çağıranda uzaqlar.

Yan keçdilər Uğureldən, Xançudan,
Yorğun-arğın dayandılar Çuqçuda,
Sansi gəldi, danışmadı qorxudan,

Çap get, səni çağıranda uzaqlar.

Sansi dedi:-Hanı Yanqu, Alçiçək,
Siz danışın o yerlərdən bir görək,
Tuncayımın keçinməsi nə demək,
Çap get, səni çağıranda uzaqlar.

-Mən Yanquyam, ata, özgə deyiləm,
Çox yorğunam, bulanmışam, mən liləm,
Nə olub ki, bu yaşımda mən öləm,
Çap get, səni çağıranda uzaqlar.

***

–Sən Dintisən, qızım, Yanqu deyilsən,
Ata, ana oxşarlığa aldanmaz.
Deyən ölüb Yanqu, mənə demirsən,
Ata, ana oxşarlığa aldanmaz.

Çox oxşayır ona qaşın-qabağın,
Onun kimi dikdir ətli yanağın,
Baxış onda duru, səndə bayağı,
Ata, ana oxşarlığa aldanmaz.

-Dəyişmişəm, ata, ana olandan,
Mən özümü bəzəmədim yalandan,
Kökəlmişəm Tuncay ilə qalandan,
Ata, ana oxşarlığa aldanmaz.

Az vayzaqla, məni onla qarışdır,
Apar məni, Xaqan ilə görüşdür,
Yol tap məni onun ilə barışdır,
Ata, ana oxşarlığa aldanmaz.

-Bir çapıq var sənin boynun dalında,
Göy çillər var dirsəyində, qolunda,
İki qırış olmalıdır alnında,
Ata, ana oxşarlığa aldanmaz.

***

Dinti qorxdu elə bil ki Sansidən,
«Öldür, əyri yerə quyla doğrunu».
Sansi qalsa mənə yeni iş açar,
Öldür, əyri yerə quyla doğrunu.

Dədədüzün əsdi qoşa dizləri,

Qara çaldı, ölüşgədi gözləri,
Eşidəndə bu qadalı sözləri,
Öldür, əyri yerə quyla doğrunu.

«Bu, qız deyil, gözdən gizli yarasa,
Bu, məni də öldürəcək hardasa,
Mən gedərəm, bu yerlərdə qalarsam,»
Öldür, əyri yerə quyla doğrunu.
Dedi: «-Gərək bu Dintini öldürəm,
Düzlük nədir, bu qancıla bildirəm,
Üzündəki ağ örtüyü qaldıram,»
Öldür, əyri yerə quyla doğrunu.

Bu duyğunu başa düşdü Dinti də,
Düyünlədi yumruğunu indidən.
Lapdan dedi, «Öldürərəm onu mən»,
Öldür, əyri yerə quyla doğrunu.

***

Yola düşdü Dinti, Sansi, Dədədüz,
Hər bir işdə iç-çölü var hərənin.
Görən burda öldürəcək kim kimi,
Hər bir işdə iç-çölü var hərənin.

Dinti tez-tez çəkilirdi arxaya,
Bu, salırdı Dədədüzü qorxuya,
Sansi acdı, güc vermişdi qorğaya,
Hər bir işdə iç-çölü var hərənin.

O, Sansiyə dedi:-Gərək qaçaq biz,
Qıza qarşı gərək duraq ikimiz,
Burularıq qabaqdakı dikdə biz,
Hər bir işdə iç-çölü var hərənin.

Yanqu deyil, Dinti devdir deyəsən,
Bundan necə üzülüşək biz görən,
Bunu gərək tez çatdırım Turqa mən,
Hər bir işdə iç-çölü var hərənin.

Turqtay sevir bu Dintini olmaya?
Bu bir devdir, basılmayan, solmayan,
Qaşı-gözü düzəltmədir, söz yalan,
Hər bir işdə iç-çölü var hərənin.

***

Dədədüzlə Sansi tində qaçdılar,
Qaçmağın da ölçüsü var, yeri var.
Dinti bir də gördü onlar yoxdular,
Qaçmağın da ölçüsü var, yeri var.
Axtardılar, tapmadılar onları,
Dinti dedi, «Qoy tökülsün qanları».
Çatıb artıq onların da sonları,
Qaçmağın da ölçüsü var, yeri var.

Dinti gəzdi, qapıları çox döydü,
Tapmadıqca öz-özünü o söydü,
Getdi Çinçay xaqanına baş əydi,
Qaçmağın da ölçüsü var, yeri var.

Dedi:-Xaqan, yol tapmışam Turqa mən,
Alçiçəyi aldı Turqız əlimdən,
Qaçanları tapdır Qobuçölündə,
Qaçmağın da ölçüsü var, yeri var.

Manmən dedi:-Tap onları, gəbərtdir,
Yüz atlını dallarınca səyirtdir.
İzlərini bu torpaqdan itizdir,
Qaçmağın da ölçüsü var, yeri var.

***

İndi daha düzəlməkdə aramız,
Barışıq da gizli gedən döyüşdür.
Bizim ipək, Mindiyarın satalı,
Barışıq da gizli gedən döyüşdür.

Dəyiş sən də, Yanqu deyil, Dinti ol,
Bicləmədə* dəyişdiyol, döndüyol,
İpək yolu, söz yoludur indi yol,
Barışıq da gizli gedən döyüşdür.

Dinti güldü, ancaq könlü qırıldı,
Hıçqıraraq o, Manmənə sarıldı,
O, özgə bir görkəm aldı, quruldu,
Barışıq da gizli gedən döyüşdür.

Yola düşdü yüz atlıyla yollara,
Çinellilər səpələndi yallara,
Göz oldular ağaclara, kollara,
Barışıq da gizli gedən döyüşdür.

***Siyasət**

Səyirtdilər iti-iti atları,
Aralayıb kolu-suyu, otları,
Hürkütdülər dörd bir yana itləri,
Barışıq da gizli gedən döyüşdür.

***

Qaçanları axtardılar neçə gün,
Əldən gedən getdi, çətin qayıdar,
Sınıq-salxaq qayıtdılar Çinçaya,
Əldən gedən getdi, çətin qayıdar.

Xaqan dedi:-Gözəl Dinti, sağ ol sən,
Gizli işdə hər şey gəlir əlindən,
Çoxdankı tək çox sevirəm səni mən,
Əldən gedən getdi, çətin qayıdar.

Unut Turqu, o, Çinçaya gərəkdir,
Bizim üçün indi hər şey ipəkdir,
İpək bizə böyük dirrik deməkdir,
Əldən gedən getdi, çətin qayıdar.

Çinçay Turqu çəkməlidir yanına,
Çinel qanı çatmalıdır qanına,
Çıxmalıdır Muğellinin sonuna,
Əldən gedən getdi, çətin qayıdar.

Muğellilər çapır bizim Çinçayı,
Ona qarşı qoymalıyıq Turqtayı,
Qoy qayıtsın onla çuqçu alayı,
Əldən gedən getdi, çətin qayıdar.

***

Xaqan aldı qucağına Dintini,
Bol sevincdir bir oxşantı qadına.
Onu öpdü, saçlarını oxşadı,
Bol sevincdir bir oxşantı qadına.

Gözoxşayan bu gözələ baxanda,
Ürəklərdə istək, sevgi doğanda,
Uşaqlaşdı, dintiləşdi Xaqan da
Bol sevincdir bir oxşantı qadına.
Könüllərə birdən yanğı yeridi,
Baxdı, baxdı, ikisi də kiridi,
İki istək bir-birində əridi,

Bol sevincdir bir oxşantı qadına.

Bu, sevgidi, yoxsa yanğı, bilən yox,
Sevgidirsə niyə onda solan yox,
Solğuntuda, sarsıntıda ölən yox,
Bol sevincdir bir oxşantı qadına.

Ancaq Dinti Turqu gizli sevirdi,
Ürəyində o igidi öyürdü,
«Mən Turqlaşıb qalmalıyam» deyirdi,
Bol sevincdir bir oxşantı qadına.

***

Dinti yenə oynar oldu Başevdə,
Könül çəkir, göz oxşayır oynamaq.
Xaqan baxdı oynar qıza, sevindi,
Könül çəkir, göz oxşayır oynamaq.

Bu Başevdə oynağan qız çox idi,
Qızlar içrə Dintiqızdan yox idi,
Dinti incə göyərçin tək ağ idi,
Könül çəkir, göz oxşayır oynamaq.

Oynayırdı qaşlar, gözlər, dodaqlar,
Dalğalanır incə qollar, barmaqlar,
Vurulurdu ona gələn qonaqlar,
Könül çəkir, göz oxşayır oynamaq.

Fırlanırdı, hərlənirdi, süzürdü,
Qaş atırdı, hərdən dodaq büzürdü,
Ağ üzündə boz kölgələr gəzirdi,
Könül çəkir, göz oxşayır oynamaq.

Niyə belə ikiliydi bu oynar,
Üzündə buz, gözlərində su qaynar,
Qız, dayanma, qız, bel oynat, qız, oyna,
Könül çəkir, göz oxşayır oynamaq.

***

Dəyişmişdi üzü-gözü Dintinin,
İşlək qızdan üz döndərir gözəllik.
O durmuşdu qulluğunda Xaqanın,
İşlək qızdan üz döndərir gözəllik.

O gözəllik getdi ənlik-kirşanla,

Tutuşdurma qızılgülü yovşanla,
İşi indi düyünlənib Xaqanla,
İşlək qızdan üz döndərir gözəllik.

Düşündüyü Turqdur, bir də Alçiçək,
Qoca Xaqan oynağana nə gərək,
Bu Turq deyir, Xaqan isə al ipək,
İşlək qızdan üz döndərir gözəllik.

Bütün günü orda, burda əlləşir,
Onun ilə, bunun ilə dilləşir,
Güzgü üzü kobudlaşır, çilləşir,
İşlək qızdan üz döndərir gözəllik.

Sevməyirdi Dinti böyük Xaqanı,
Bu istəkdə çəkməyirdi qan qanı,
Dinti artıq başa düşüb, oyanıb,
İşlək qızdan üz döndərir gözəllik.

***

Bir gün Dinti getdi Budda yanına,
Sevgi dibdən dəyişdirir adamı,
Dedi:-Ata, mən çoxlu qan tökmüşəm,
Sevgi dibdən dəyişdirir adamı.

İndi sevib mən də özgə birini,
İtirmişəm bu yerlərdə yerimi,
İndi daha düz görürəm əyrini,
Sevgi dibdən dəyişdirir adamı.

Budda dedi:-Sən sevirsən Xaqanı,
Aranızda bir başqası dayanıb,
O qoymayır ürək çəkə qan qanı,
Sevgi dibdən dəyişdirir adamı.
Qız olsan da alınyolun dolaqdır,
Çox kişi var, sənə vecsiz qonaqdır,
Birisi var, tək o, sənə dayaqdır,
Sevgi dibdən dəyişdirir adamı.

Mən Buddayam, ürəklərin açarı,
Bir köynəkdən başqa mənim yox varım,
Xaqan sənin, Budda mənim taparım,
Sevgi dibdən dəyişdirir adamı.

Dədədüz söyləncі

Turq eşitdi Başevdəki olayı,
Sevgi quşu tək qanadla uçammaz.
Turqız qovub Yanquqızı Başevdən,
Sevgi quşu tək qanadla uçammaz.

O, Duzdağdan yola düşdü Çinçaya,
Quşat onu çatdırarkən Altaya,
Ordan getdi Uğurelə bir aya,
Sevgi quşu tək qanadla uçammaz.

«Yanqu» dedi gözü, könlü, ürəyi,
Ötdü atla iti çapan küləyi,
«Dayan» dedi ona göylər şimşəyi,
Sevgi quşu tək qanadla uçammaz.

Turq bilmirdi o, Yanqu yox, Dintidir,
Yay qaşları qılıncdan da itidir,
O qancılın üzü bir yox, yeddidir,
Sevgi quşu tək qanadla uçammaz.

Turq Yanqunu qaytarmağa gedirdi,
Yolu, yalı ildırım tək ötürdü,
Ondan başqa hər şey gözdən itirdi,
Sevgi quşu tək qanadla uçammaz.

***

Yolda gördü Dədədüzü, Sansini,
Görüş var ki, belə göydəndüşmədir.
Qaçdı Turqun qabağına Dədədüz,
Görüş var ki, belə göydəndüşmədir.

-Böyük Turqtay,-dedi ona Dədədüz,
Kəsi olsun sənə iki gözümüz,
Doğru sözdür söylənilən sözümüz,
Görüş var ki, belə göydəndüşmədir.

Biz Yanqunu ötürürdük Çuqçuya,
Yanqu isə oxşamırdı Yanquya,
Sansi görüb onu düşdü qorxuya,
Görüş var ki, belə göydəndüşmədir.

Sansi dedi:-Sən Dintisən, Yanqu yox,
Səndə Yanqu balamdakı duyğu yox,

Dilində də onda olan vurğu yox,
Görüş var ki, belə göydəndüşmədir.

Mən ilk gündən inanmırdım sözünə,
Gah süzülən, gah qıyılan gözünə,
Sonra gəlib çıxdıq sözün düzünə,
Görüş var ki, belə göydəndüşmədir.

***

Turq dedi ki:-Düzü düpdüz söyləyin,
Ox buraxmaq, yay gizləmək nə gərək.
O, Dintisə, Yanqu özü hardadır,
Ox buraxmaq, yay gizləmək nə gərək.

Sən də söylə, Sansi ata, üstəlik,
Hara gedək, nə eləyək hələlik,
Yanqu deyib biz vuruşa bilərik,
Ox buraxmaq, yay gizləmək nə gərək.

Sansi dedi:-Mənim qızım özgədir,
Bu, Yanqunun qarşısında kölgədir,
Bu, qız deyil, bir təkədir, cöngədir,
Ox buraxmaq, yay gizləmək nə gərək.
Baş əyirəm, ey böyük Turq, qarşında,
Nəsə vardır Yanquqızın başında,
O nə görüb hələ bu gənc yaşında,
Ox buraxmaq, yay gizləmək nə gərək.

-Nə olacaq, Tuncay öldü, o qaldı,
Heç bilmədim sonra Yanqu nə oldu,
Tək uşaqla o gəlin dul sayıldı,
Ox buraxmaq, yay gizləmək nə gərək.

***

-Haydı, gedək, onu mənə göstərin,
Gözlər uyan, ürəklərsə duyandır.
Baxım görüm o Yanqudur, ya Dinti,
Gözlər uyan, ürəklərsə duyandır.

İlk baxışdan mən Yanqunu seçərəm,
Onun üçün mən hər şeydən keçərəm,
Yalan olsa mən al qanlar içərəm,
Gözlər uyan, ürəklərsə duyandır.

Dədədüzlə Sansi yolu qayıtdı,

Turqun sözü ürəkləri ovutdu,
Bunlar Turqu silkələdi, ayıltdı,
Gözlər uyan, ürəklərsə duyandır.

Quşat çapdı Çuqçuelə durmadan,
Dinməz gecə ondan heç nə sormadan,
Keçidlərdə səsə, sözə varmadan,
Gözlər uyan, ürəklərsə duyandır.

Sansi Turqu öz evində saxladı,
Dədədüzlə hər bir yanı yoxladı,
Qapı-bacanı qayım-qayım bağladı,
Gözlər uyan, ürəklərsə duyandır.

***

Daşqın qalxdı, uçdu yallar, uçqunlar,
Adam seli çay selindən qorxulu,
Muğellilər Çinellini çapırdı,
Adam seli çay selindən qorxulu.
Boğazlardan qanlı səslər qopurdu,
Boz atlılar yeri-yurdu çapırdı,
Əldən çörək, gözdən odu qapırdı,
Adam seli çay selindən qorxulu.

Kişnərtilər, bağırtılar qarışıq,
Muğellilər ev-eşiyə daraşıb,
El, obanın yoxdur artıq duruşu,
Adam seli çay selindən qorxulu.

Evlər yanır, bəyirməkdə mal-qara,
Dil açaraq xırıldayır yal-yaraq.
Düyü, geyim, arpa alır, qaçaraq,
Adam seli çay selindən qorxulu.

Bildirmələr, göstərişlər Muğərdən,
Adam ölür, qan tökülür heç nədən.
Bir qılıncla aşır, düşür üç gödən,
Adam seli çay selindən qorxulu.

***

Sansi deyir:-Muğellilər gəliblər,
Çapqınçılıq heç igidlik sayılmır.
Turq söyləyir:-Çıxaq, tapaq Muğəri,
Çapqınçılıq heç igidlik sayılmır.

Bunu deyib Turq atılır döyüşə,
Bu yol ilə o, Muğərlə görüşə,
O bağırır:-Son qoyunuz bu işə!
Çapqınçılıq heç igidlik sayılmır.

Dağıldıqca sınır Çinel toplumu,
Turq ayqırır, kəsir kəndin yolunu,
Üzərinə yağır oxun yaylımı,
Çapqınçılıq heç igidlik sayılmır.

O bağırır dəli qaplan sayağı,
-Mən Turqtayam, yerə qoyun yarağı,
Toxunmazdır, bilin, Çinel torpağı,
Çapqınçılıq heç igidlik sayılmır.

Niyə belə çapırsınız bu yeri,
Yandırırsız yurdu, evi, çəpəri,
Alın, atın qabağıma Muğəri,
Çapqınçılıq heç igidlik sayılmır.

***

Muğər atır qılıncını torpağa,
Qılıncdan da kəsərlidir göstəriş.
-Bilməmişik, – deyir – Turqtay burdadır,
Qılıncdan da kəsərlidir göstəriş.

Turq deyir ki,-Çapılanı qaytarın,
Çapqınçılıq oğurluqdur, qurtarın,
Buğdanızı zəminizdə axtarın,
Qılıncdan da kəsərlidir göstəriş.

Bundan sonra Muğel bilsin, anlasın,
Çapqınçını hamı döysün, danlasın,
Kim fərədir öz damında banlasın,
Qılıncdan da kəsərlidir göstəriş.

Əkin, biçin, alver günün tapıncı,
Çapqınçılıq Minelliyə yabançı,
Qoy işləsin qarıncılla adamcıl,
Qılıncdan da kəsərlidir göstəriş.

Atınızı al ipəklə yükləyin,
Könlünüzü yaxşılıqla kökləyin,
Vurun, yıxın, çapqınçını siz döyün,
Qılıncdan da kəsərlidir göstəriş.

***

Muğellilər çəkildilər, getdilər,
Selə qarşı üzmək ağır ölümdür.
Muğər dedi:-Böyük Turqtay deyəndir,
Selə qarşı üzmək ağır ölümdür.

Hər gələndə bizə də bir baş çəkin,
Hər bir evin sapandında yüz düyün,
Çapqınçını gəlin orda siz döyün,
Selə qarşı üzmək ağır ölümdür.
Yoxsulluğun qabağını alın siz,
Qışdan yaya, yaydan qışa acıq biz,
Onda hamı öləcək «öl» desəniz,
Selə qarşı üzmək ağır ölümdür.

Turq söylədi:-Əkin, biçin, becərin,
Qoy əl tutsun düşər ilə köçəri,
Çölə deyil, gücü verin içəri,
Selə qarşı üzmək ağır ölümdür.

Mən Turqtayam, Tanı şahın oğluyam,
Mindiyardır bizi bizə bağlayan,
Burda gərək mən çəkimi saxlayam,
Selə qarşı üzmək ağır ölümdür.

***

Sansi gəldi, Dədədüz də onunla,
Göz də gülür qurtaranda ölümdən.
Dedilər ki, Xaqan gəlib qapıya,
Göz də gülür qurtaranda ölümdən.

Xaqan dedi:-Turq sağ olsun, gəlibdir,
Çapqınlığı qabaqcadan bilibdir,
Gör Çineldən neçə mini ölübdür,
Göz də gülür qurtaranda ölümdən.

Başev böyük qonağını gözləyir,
Çinellilər sizə sevgi bəsləyir,
Hər ev, hər yurd indi Turqu səsləyir,
Göz də gülür qurtaranda ölümdən.

Çinçay yaxın, Turqay yorğun, yol ağır,
Turqa bütün el səs verir, el baxır,
Ağızlardan «sağol», «sağol» söz yağır,

Göz də gülür qurtaranda ölümdən.

«Yanqu» deyib Turq hər yanı gəzirdi,
Ölmüş sevgi onu yenə üzürdü,
Bu səs-küydən, hay-həşirdən bezirdi,
Göz də gülür qurtaranda ölümdən.

***

Dinti onu qarşıladı qapıda,
Sevgi dadlı-duzlu oyaq yuxudur.
Yuxulaşıb Yanqu ona gülürdü,
Sevgi dadlı-duzlu oyaq yuxudur.

Turq əlilə ovuşdurdu gözünü,
Bu yuxudan yan elədi üzünü,
Qucaqladı Dinti Turqun dizini,
Sevgi dadlı-duzlu oyaq yuxudur.

Dedi:-Turqum, mən Dintiyəm, Yanqu yox,
Mən sevgiyəm başdan-başa, yuxu yox,
Öz sevgimdə Xaqandan da qorxum yox,
Sevgi dadlı-duzlu oyaq yuxudur.

Sənə sevgim məni bütün dəyişdi,
Qandım dirrik döyüş deyil, duruşdu,
Qancıl könlüm gözəlliklə barışdı,
Sevgi dadlı-duzlu oyaq yuxudur.

Səni deyib gəlmiş idim ora mən,
Anan məni qovdu o gün Başevdən,
Düz deyirəm hər bir şeyi, dinlə sən,
Sevgi dadlı-duzlu oyaq yuxudur.

***

-Söz ver mənə, dönməyəsən sözündən,
Keç güc varkən əyri yoldan düz yola,
Çılğınlığım, qancıllığım, keçmişim,
Keç güc varkən əyri yoldan düz yola.

Turq qaldırdı onu yerdən, söylədi:
-Hamı böyük sevgisinə kölədi,
Sevgi də var sən tək elə-belədi,
Keç güc varkən əyri yoldan düz yola.

Mən sevmişəm, aldanmışam, qızmışam,

Böyük sevgi yazısını pozmuşam,
Yanquqıza oddan sonev qazmışam,
Keç güc varkən əyri yoldan düz yola.
-Nə deyirsən... Yanquqıza, sonev, sən,
-Mən qazmışam ona düzü, sonev mən,
Söylə, məni, ya Yanqunu sevirsən,
Keç güc varkən əyri yoldan düz yola.

-Nə deyirsən, mən Yanqunu sevirdim,
O tanrıydı, sən tanrını devirdin,
Sən məni də alt-üst etdin, çevirdin,
Keç güc varkən əyri yoldan düz yola.

***

O, acıqlı baxdı ağlar Dintiyə,
Qız ürəyi sığmaz bunca ağrıya,
Dedi:-Səni, Dinti, sevə bilmərəm,
Qız ürəyi sığmaz bunca ağrıya.

Söylə indi Yanqu harda, nə yerdə,
İtkin düşər, ya da ölər o, birdən,
Onda gərək mən də səni gəbərdəm,
Qız ürəyi sığmaz bunca ağrıya.

-Yox, mən bütün dəyişmişəm, sev məni,
Yaşadaram sevgim boyu mən səni,
Dəyişmişəm bu günümlə dünəni,
Qız ürəyi sığmaz bunca ağrıya.

Mən sevgidə alınmazam, tanrıyam,
Varlığımla mən Turqtayın varıyam,
Mənəm onu vuruşlardan qoruyan,
Qız ürəyi sığmaz bunca ağrıya.

-Yox, mən səni sevə bilməm, uzaq ol,
İstəyirsən dəyiş, ulu ocaq ol,
Get gözümün qabağından, iraq ol,
Qız ürəyi sığmaz bunca ağrıya.

***

Dinti getdi, qaş-qabaqlı, acıqlı,
Nə olsa da son inamı saxla sən.
Çalğıçılar, oynar qızlar gəldilər,
Nə olsa da son inamı saxla sən.
Xaqan, Turqtay oturmuşdu yan-yana,

Sevinc, gülüş səpilirdi dörd yana,
Oynayırdı çılğın, gözəl bir sona,
Nə olsa da son inamı saxla sən.

Dinti gözəl geyimdəydi, biçimdə,
Ancaq bir od alışırdı içində.
Sallaq idi, inam yoxdu gücündə,
Nə olsa da son inamı saxla sən.

Oynaq-oynaq gəldi Turqun önünə,
O, baş qoydu Turqun enli çiyninə,
Dedi:-Sevgi məni qoydu bu günə,
Nə olsa da son inamı saxla sən.

Bundan sonra Turqsuz necə mən dözüm,
Bil, Yanqunu mən öldürdüm, mən, düzü,
Dintini də öldürərəm mən özüm,
Nə olsa da son inamı saxla sən.

***

Sonra Dinti tək oynadı ortada,
Sönən işıq parıldayar son anda,
Belə onu görməmişdi Xaqan da,
Sönən işıq parıldayar son anda.

Başevdəki sevinc aşıb-daşırdı,
Mahnı qızın sümüyünə düşürdü,
Dodaqaltı Xaqan mahnı qoşurdu,
Sönən işıq parıldayar son anda.

Birdən durdu Dinti, bərkdən çığırdı,
Bunu görüb hamı birdən bağırdı,
Ağ köksündən qan fışqırıb axırdı,
Sönən işıq parıldayar son anda.

Gəlib Turqun qabağında dayandı,
Pal-paltarı qızıl qana boyandı,
Qız öləndə Turqtay sanki oyandı,
Sönən işıq parıldayar son anda.

Köküs yarıb Dinti artıq ölürdü,
Xaqan durub göz yaşını silirdi,
Öncə bunu bircə Xaqan bilirdi,
Sönən işıq parıldayar son anda.

***

Necə oldu çox şey belə dəyişdi,
Yüz il çəkir yavaş-yavaş dəyişmək,
Sevgi özü dəyişilməz dəyişkən,
Yüz il çəkir yavaş-yavaş dəyişmək.

Yoxsa min il gələn dədə yolu var,
Dədənin də dədə-baba qolu var,
Sonra gənc var, ağsaqqal var, ulu var,
Yüz il çəkir yavaş-yavaş dəyişmək.

Yay ilə qış altı aya dəyişir,
Yer altında, yer üstündə döyüşür,
Dəyişməyən ölülərə qarışır,
Yüz il çəkir yavaş-yavaş dəyişmək.

Hara belə dəyişirsən, dayanış,
Dünən elə, bu gün belə oyanış,
Dəyişməsə çürüyəcək yaranış,
Yüz il çəkir yavaş-yavaş dəyişmək.

Sevgi necə təpərlisən, qoçaqsan,
Sən özün də dəyişənsən, qonaqsan,
Dəyişməkdə sən tanrıdan qıvraqsan,
Yüz il çəkir yavaş-yavaş dəyişmək.

***

Baramadan ipək diddi Çinelli,
Qan qussa da elin könlü ipəkdir,
Əllərə bax, incə ipək toxuyur,
Qan qussa da elin könlü ipəkdir.

Turq öyrəndi burda ipək almağı,
Baramadan ipək teli yolmağı,
Toxuyarkən sapa arqac salmağı,
Qan qussa da elin könlü ipəkdir.
Çağırtdırdı Dədədüzü, Muğəri,
Dedi:-Çapın yollar keçən yerləri,
Uğureldən, Aladağdan az bəri,
Qan qussa da elin könlü ipəkdir.

Dedi:-Çatın ipəkləri atlara,
Daşıtdırın elatlara, yurdlara,
Satın getsin gənc qızlara, qartlara,
Qan qussa da elin könlü ipəkdir.

Dedi:-Çinel Minel ilə qonşudur,
Könlü, gözü ipəkdən də yaxşıdır,
Manmən Xaqan burda başlar başıdır,
Qan qussa da elin könlü ipəkdir.

***

Sansi dedi:-Mən də sizə əltutam,
Barış öcü, qan-qadanı azaldır.
Mən bu yolda həm yolçuyam, həm ata,
Barış öcü, qan-qadanı azaldır.

Burdan ipək, ordan bura qarayağ,
Bu yol ilə öc aradan qalxacaq,
Nəyə gərək qan axıdan yal-yaraq,
Barış öcü, qan-qadanı azaldır.

Muğər dedi:-Mən gedərəm bu işə,
Bu yol ilə el-obamız dəyişər,
Boş adamlar bir-birilə görüşər,
Barış öcü, qan-qadanı azaldır.

Mən bu işə ilxıları qoşaram,
Mən bu yolla yaşadaram, yaşaram,
Mən bu yolda dağı-daşı aşaram,
Barış öcü, qan-qadanı azaldır.

Yük altında atla dəvə düzgüsü*,
Yol ayrıcı çaylar, göllər güzgüsü,
Qayaların yazılmamış görgüsü, **
Barış öcü, qan-qadanı azaldır.

***Qatar**
****Lövhə**

***

Unutmadı Turq Yanqunu bir an da,
Sevimlisiz sevgi yenə qalarmış.
Çox axtardı sonevini, tapmadı,
Sevimlisiz sevgi yenə qalarmış.

Çuqçubaşı bir gün Turqu qucaraq,
Dedi:-Qalır meşəlikdə bir ocaq,
Ocaqdasa bir baş gördüm, bir çanaq,
Sevimlisiz sevgi yenə qalarmış.

Yollandılar onlar, birgə çaparaq,
Qaralırdı meşəlikdə bir ocaq,
Bir baş idi, iki qılça, bir çanaq,
Sevimlisiz sevgi yenə qalarmış.

Yanqu bilib sonevini qazdılar,
Üzərində «Yanqu» sözü yazdılar,
Sonra qoşa dayanaraq susdular,
Sevimlisiz sevgi yenə qalarmış.

Bir də qoşa ağladılar ikisi,
Turqun bir də alovlandı sevgisi,
Daş üstündə qaldı Yanqu görgüsü,
Sevimlisiz sevgi yenə qalarmış.

***

Gedim bir də başı üstə ağlayım,
Gülüm, ölən göz yaşıyla göyərməz.
Sevgim, bunca çox sıtqama, ağlama,
Gülüm, ölən göz yaşıyla göyərməz.

Bu sevgimi Yanqu, sən heç bilmədin,
Öldün, ancaq mənim üçün ölmədin.
Bircə yol da sən üzümə gülmədin,
Gülüm, ölən göz yaşıyla göyərməz.

İndi sənsiz çırpınıram, yanıram,
İlk görüşü hər gün, hər gün anıram,
Qalx torpaqdan, səni diri sanıram,
Gülüm, ölən göz yaşıyla göyərməz.
Sevgi yolum, alın yazım pozuldu,
Özgələşdin, əlim səndən üzüldü,
Necə incə, necə uyar gözəldin,
Gülüm, ölən göz yaşıyla göyərməz.

Qol-boyunsan, gülüm, qarla, yağışla,
Yazıq könlüm, bir də məni bağışla,
Bu yağışdır yağan, yoxsa qarğışlar,
Gülüm, ölən göz yaşıyla göyərməz.

Üç qardaş söyləncі

Yollar boyu zınqırovlu dəvə, at,

Dirdayaqlı uzun yollar kəsəndir,
Yanlarınca Sansi, Muğər, Dədədüz,
Dördayaqlı uzun yollar kəsəndir.

Hərəsində dörd göz vardır, on qulaq,
Dağda, düzdə yol dolambac, yol dolaq,
«Yavaş, Daşqır düzgüləri çapacaq,»
Dördayaqlı uzun yolu kəsəndir.

Min ağaclıq çölü, yolu yardılar,
Uğurelə gecə çatıb durdular,
Urumçinin Başevini sordular,
Dördayaqlı uzun yolu kəsəndir.

Bacar çıxdı, çal saçları dağınıq,
Yuva qurub gözdə ağrı yağımı,
Qar alıbdır sanki dağlar dağını,
Dördayaqlı uzun yolu kəsəndir.

Buyur-buyur, otur-otur, ye, iç, yat,
Yoxdur daha Qızçiçəklə İtiat,
Yananları anır hələ yurd, elat,
Dördayaqlı uzun yolu kəsəndir.

***

Muğər dedi:-Səni deyib gəlmişik,
Hər elatın bir dayağı olmalı,
Səni anır, ağlamsınır Qarçiçək,
Hər elatın bir dayağı olmalı.

Tuncay öldü, sənin başın sağ olsun,
Bundan sonra ağrın, acın yox olsun,
Qoy kötükcən, Alçiçəyin çox olsun,
Hər elatın bir dayağı olmalı.

Bacar dedi:-Mənə bir at seç gətir,
Yorğa olsun, çapar olsun, həm iti,
Uçarlığım, yenməzliyim tam itib,
Hər elatın bir dayağı olmalı.

İndi mənim kürəkənim Muğərdir,
Dolaq-dolaq ipəkləri çəkərdir,
Mən dördtəkər, osa qoşatəkərdir,
Hər elatın bir dayağı olmalı.

Sansi mənim oğlum, qudam, qardaşım,
İndi təkəm, öz əlimdir, öz başım,
Gəlin mənim dörd yanıma toplaşın,
Hər elatın bir dayağı olmalı.

***

Üç gün sonra yola düşdü düzgülər,
Yollar alın qırışıdır ölkənin.
İpək gəlir, göydaş gedir yerində,
Yollar alın qırışıdır ölkənin.

Yollar sapdır, atlar muncuq düzümü,
İpək, göydaş elin sevinc yozumu,
Tut Çinçaya, Mindiyara üzünü,
Yollar alın qırışıdır ölkənin.

Əkbitənin satalları qızardı,
Yoxsullaşıb sap satanlar sozardı,
Al ipəyə, satıcıya bozardı,
Yollar alın qırışıdır ölkənin.
Turq gətirdi baramanı Duzdağa,
Tut çubuğu basdırıldı torpağa,
Qurd daraşdı ac-acına yarpağa,
Yollar alın qırışıdır ölkənin.

Baramadan sap əyirdi onçular,
Hay-həşirdən uzaqlaşdı qoçular,
İpəkləşdi çörəkçilər, onçular,
Yollar alın qırışıdır ölkənin.

***

Üç il keçdi, doğu, batı yol oldu,
Ölkə alver durumuyla diridir,
Zənginləşdi Sansi, Muğər, Dədədüz,
Ölkə alver durumuyla diridir.

Qoşabaşlar gəlib yolda durdular,
Gədiklərdə neçə busqu qurdular,
Gələn-gedən düzgüləri vurdular,
Ölkə alver durumuyla diridir.

Burdan ipək, ordan göydaş, qarayağ,
Düz yolları iki yandan çaparaq,
Daşıyırdı qoşabaşlar atsayaq,

Ölkə alver durumuyla diridir.

Qoşabaşın başbaşısı Çinelli,
Ağız yekə, boy balaca, döş enli,
Sözü, dili, danışığı hind dilli,
Ölkə alver durumuyla diridir.

Arayırdı, yükdə daş-qaş tapırdı,
Nə görürdü qarmalayıb qapırdı,
At qarışıq yükü alıb çapırdı,
Ölkə alver durumuyla diridir.

***

Sansi dedi Dədədüzə:-Ayıq ol,
Oğru-moğru var yanında hərlənər,
Qayğı məndən, qılınc çalmaq səndəndir,
Oğru-moğru var yanında hərlənər.
Meşəlikdə hənirti var elə bil,
Yola burda oğru çıxdı keçən il,
Qoşabaşlar od püskürür ildə bir,
Oğru-moğru var yanında hərlənər.

Birdən yola qoşabaşlar çıxdılar,
Selə dönüb hay-küy ilə axdılar,
Yaraqlılar matdım-matdım baxdılar,
Oğru-moğru var yanında hərlənər.

Sansi dedi:-Tərpən, igid Dədədüz,
Üstümüzə oğru gəlir neçə yüz,
Çapılarıq, soyularıq yoxsa biz,
Oğru-moğru var yanında hərlənər.

Dədədüzsə tərpənmədi yerindən,
Durub baxdı, köks ötürdü dərindən,
Sansi dedi:-İgid, vur, yıx, nərildə,
Oğru-moğru var yanında hərlənər.

***

Qoşabaşlar alıb getdi yükləri,
Öz yerində göstər, varsa, gücünü.
Dədədüzü hoyladılar, söydülər,
Öz yerində göstər, varsa, gücünü.

Ağzı üstə düşüb Sansi ağladı,
Oğru çəkdi, aldı yükün bağladı,

Biri dönüb Dədədüzü yoxladı,
Öz yerində göstər, varsa, gücünü.

Dedi:-Durma dirək kimi yolumda,
Görmürsən ki, ağır yük var dalımda?
Sən bizdənsən, yapış mənim qolumdan,
Öz yerində göstər, varsa, gücünü.

Sansi baxdı, üzü-gözü ağardı,
Dədədüzə çox yalvardı-yaxardı,
Yavaşcadan qoca ona qabardı,
Öz yerində göstər, varsa, gücünü.

Sansi dedi:-Sən dirəksən, ya adam,
Çək qılıncı, vur oğrunu, sən, atam,
Yoxsa qaçar qoşabaşlar durmadan,
Öz yerində göstər, varsa, gücünü.

***

-Kimə dirək söyləyirsən, qoşabaş,
Birdən partlar dinməz ilə yovuşmaz,
Çəkdi qından qılıncını Dədədüz,
Birdən partlar dinməz ilə yovuşmaz.

Vurdu, yıxdı, aldı, qırdı, bağırdı,
Qoşabaşdan qanlı palçıq yoğurdu,
O, Sansini yardımına çağırdı,
Birdən partlar dinməz ilə yovuşmaz.

Sərdi yerə qabağına çıxanı,
Ağac, toppuz, qaya layı qalxanı,
Kim yıxacaq bu boydana buğanı,
Birdən partlar dinməz ilə yovuşmaz.

Qoşabaşlar yükü töküb əkildi,
Dırmaşaraq dağa-daşa çəkildi,
Gecə keçdi, dan-gün yeri söküldü,
Birdən partlar dinməz ilə yovuşmaz.

Sansi dedi:-Niyə belə elədin,
Yekə pərin ərənliyi belədi,
Alçalt, öldür, qalan sənə kölədi,
Birdən partlar dinməz ilə yovuşmaz.

***

Beləsi var alçadanda güclənir,
Öz-özünü oda vurur alçalan.
Ulus özü, el özü də belədir,
Öz-özünü oda vurur alçalan.

Qoşabaşın üçü gözdən yayındı,
Yerdə qalan öz qanında yuyundu,
Sansi indi Dədədüzü bəyəndi,
Öz-özünü oda vurur alçalan.
–Çalış-dedi-sən nə alçalt, nə alçal,
Özgənin yox, öz gücünlə sən ucal,
Səsilə yox, qanadıyla quş uçar,
Öz-özünü oda vurur alçalan.

Muğər gəldi düzgülərin dalınca,
Gəldi gördü Sansi üzgün, yarımcan,
Gözlədilər ətə-qana dolunca,
Öz-özünü oda vurur alçalan.

Sonra onlar Əkbitənə yol aldı,
Gəlirləri-götürləri bol oldu,
Yeni-yeni satal yeri quruldu,
Öz-özünü oda vurur alçalan.

Alpis söyləncі

Bacar gəldi sonevinə Tuncayın,
Sonev üstə andın böyük gücü var.
O and içdi Yanquqıza, Tuncaya,
Sonev üstə andın böyük gücü var.

-Balalarım, -dedi-sizə var sözüm,
Mən taparam Yaman ilə Alpisi,
Qılınclaram qancılları mən özüm,
Sonev üstə andın böyük gücü var.

Yeraltını yerüstünə qataram,
Gedib bir gün Qızçiçəyə çataram,
Gəlib burda yeni dirrik tutaram,
Sonev üstə andın böyük gücü var.

İtiatım, Qızçiçəyim yanıbdır,
Ürəyimdə iki sevgi donubdur,

Könül quşum çöllüklərə qonubdur,
Sonev üstə andın böyük gücü var.

Hardasınız, Tuncərimlə Günayım?
Çatsın sizə Ağüzeldə harayım,
Yeniyetmə getdi igid Tuncayım,
Sonev üstə andın böyük gücü var.

***

Bacar gəldi Ağüzelə birbaşa,
Susqun olmaz igid oğul itirən.
Günay qara geyimdəydi hələ də,
Susqun olmaz igid oğul itirən.

Ata, ana, baba bunca susdular,
Ürəklərə susqun qulaq asdılar,
Boyunları çiyinlərə qısdılar,
Susqun olmaz igid oğul itirən.

Tuncər dedi:-Ata, torpaq anadır,
Tuncaya da ulu torpaq doğmadır,
Ondan qalan bircə dilsiz çağadır,
Susqun olmaz igid oğul itirən.

Günay susdu, yandı ana ürəyi,
Çəkdi onu susqun körpə bələyi,
Alçiçəkdi evin bircə dirəyi,
Susqun olmaz igid oğul itirən.

Bacar dedi:-Mən gedirəm Alt Yerə,
Gedib görüm Qızçiçəyi son kərə,
Yaşın verib, həm də mənə güc verər,
Susqun olmaz igid oğul itirən.

***

Bacar çapdı, beş ay yeri dolandı,
Yeraltı da Yerüstündən başlanır.
Qızçiçəyi Yer Altında taparmı,
Yeraltı da Yerüstündən başlanır.

Çox çağırdı, çox səslədi, «Qızçiçək»,
Aldı onu at belinə yel, külək,
Ancaq səsə səs vermədi dağ, çökək,
Yeraltı da Yerüstündən başlanır.
Ətək-ətək yaz gül-çiçək gətirdi,

Ağaclar da yumuq güllər yetirdi,
Torpaq arpa, buğda, mərci bitirdi,
Yeraltı da Yerüstündən başlanır.

O, güllərdən Qızçiçəyi soruşdu,
Yorğunluqdan söz ağzından sürüşdü,
Arıqladı, üzü-gözü qırışdı,
Yeraltı da Yerüstündən başlanır.

Dedi:-Gülüm, haradasan, harada,
Bu qədər yol nə deməkdir arada,
Mənə səs ver, haradasan oradan,
Yeraltı da Yerüstündən başlanır.

***

Birdən bir səs eşidildi yamacdan,
İtən sevgi, küsən könül gül açmaz.
-Qızçiçəyi Yeraltından qaçırtdın,
İtən sevgi, küsən könül gül açmaz.

Mən Alpisəm, ildırımlar tanrısı,
Yeraltının odlu acı, ağrısı,
Ölümlərin, yanğınların qurğusu,
İtən sevgi, küsən könül gül açmaz.

Biz sevgiyə güclə bata bilmədik,
Qızçiçəyin yandı, ancaq ölmədi,
Onu qovduq, yamanlıqdan silmədik,
İtən sevgi, küsən könül gül açmaz.

Onu daha görməyəcək gözlərin,
Gedib çatmır Yeraltına sözlərin.
Yerüstündə çiçək tutub yüzləri,
İtən sevgi, küsən könül gül açmaz.

Çox bağırma, Qızçiçəyi səsləmə,
O yamanlıq tanrısını gözləmə,
Ona daha yer sevgisi bəsləmə,
İtən sevgi, küsən könül gül açmaz.

***

Bacar dedi:-Səni bir yol basmışam,
Baş aparmaz orda, burda basılan.
Səni bir də vuruşmada basaram,
Baş aparmaz orda, burda basılan.

Mən Bacaram, qılıncbatmaz, oxbatmaz,
Sən yanğınsan, ağrı, sancı, yaramaz,
Səndən bir də şimşək olmaz, qor olmaz,
Baş aparmaz orda, burda basılan.

Mən azcana yaşlanmışam, düşmüşəm,
Yamanları bizucumla deşmişəm,
Yer Altında, Yer Üstündə bişmişəm,
Baş aparmaz orda, burda basılan.

Qızçiçəyi qaytar, dönsün yerinə,
Hayan olsun oğlu, qızı, ərinə,
Dönsün burda anaların birinə,
Baş aparmaz orda, burda basılan.

Mən Bacaram, səni bir də basaram,
Sonevini Yer Üstündə qazaram,
Pərçimlərəm, şiş qayadan asaram,
Baş aparmaz orda, burda basılan.

***

-Bacar, bunu bacarmazsan daha sən,
Basılacaq soy adına güvənən,
İtiatın, Qızçiçəyin daha yox,
Basılacaq soy adına güvənən.

Sənin yaşın qurtaracaq bu günlər,
Açılacaq yaşımında düyünlər,
Nə edəcək tanrılara ölgünlər,
Basılacaq soy adına güvənən.

Ahur-məzda Qızçiçəyə yaş verib,
Sənlə onun yaşamağın tuş görüb,
Yaşayarsan ondan qalmış boş yeri,
Basılacaq soy adına güvənən.
Yaşın bir az doğru, bir az yalandır,
Olacaqdan keçmiş acıq alandır,
Qalan yaşın Qızçiçəkdən qalandır,
Basılacaq soy adına güvənən.

Bu yaşın da bir gün başa çatacaq,
Sevgin, yaşın, könlün bir gün qartacaq,
Ölüm səni sonevinə atacaq,
Basılacaq soy adına güvənən.

***

Sən Qızçiçək yaşımını yaşarsan,
Ahur-məzda verir yaşı, yaşımı*,
Öldürmərəm istəsən də səni mən,
Ahur-məzda verir yaşı, yaşımı.

Ölüm böyük qurtuluşdur İç üzə,
Yaşa, dayan ağrılarla üz-üzə,
Çevir qara gecələri gündüzə,
Ahur-məzda verir yaşı, yaşımı.

Yaşa ağrı, acıları bu sayaq,
Mən Yamanam, sən Yamana bir qonaq,
Gərək hər gün yaxşılardan öc alaq,
Ahur-məzda verir yaşı, yaşımı.

Mən ölüməm, mən şimşəyəm, mən Yaman,
Mən yanğınam, quraqlığam, mən yalan,
Öldürmərəm səni, yaşa, yavalan,
Ahur-məzda verir yaşı, yaşımı.

Ölüm səni acılardan qurtarar,
Yamanlığın dincliyində yatırar,
Qızçiçəyin sevgisinə çatdırar,
Ahur-məzda verir yaşı, yaşımı.

***

Bacar dedi:-Mən ölümdən qorxmuram,
Tanrı özü öldürəcək ölümü.
Onda ölüb yaşayacaq ölüm də,
Tanrı özü öldürəcək ölümü.

****Ömür***

Ölüm böyük qurtuluşsa Alpisə,
Vuruşaram mən onunla üz-üzə,
Dönəmmərəm buruq çapaq ilbizə,
Tanrı özü öldürəcək ölümü.

Yaşlansam da, Alpis, yenə Bacaram,
Yeraltına yeni yollar açaram,
Çatıb bir də Qızçiçəyi qucaram,
Tanrı özü öldürəcək ölümü.

Ayrı düşdüm anam verən qanaddan,

Güc alaram bu yol eldən, elatdan,
Bir də səni öldürərəm Yeraltda,
Tanrı özü öldürəcək ölümü.

Öldürsəm də səni, yenə ölməzsən,
Sən Yamansan, yaxşılığa gəlməzsən.
Sevgi nədir, onu duyub bilməzsən,
Tanrı özü öldürəcək ölümü.

***

Alpis çəkdi qından şimşək qılıncı,
Ağır gündə qorxaq adam tez ölür.
Bacar ölüm tanrısından qorxmadı,
Ağır gündə qorxaq adam tez ölür.

Bacar onla bir az ara saxladı,
Ayağına quru ağac bağladı,
Şimşəklərin yer çəkimi laxladı,
Ağır gündə qorxaq adam tez ölür.

Şimşək qılınc qalxdı, endi, parladı,
Alpis onu başı üstə fırladı,
Qorxusundan ağ buludlar gurladı,
Ağır gündə qorxaq adam tez ölür.

Oxa tutdu Bacar onu, saymadı,
Şimşəkləri yaxınına qoymadı,
O, ölümün oyununa uymadı,
Ağır gündə qorxaq adam tez ölür.

Tuşlanc etdi o, Alpisin atını,
Bir çəkimdə atdı oxun dördünü,
Yaraladı sağrısını, ordunu,
Ağır gündə qorxaq adam tez ölür.

***

Yerə gəldi Şimşək atın dizləri,
Ox şimşəyə dönür iti uçanda.
Qırıb tökdü göydə şimşək ipləri,
Ox şimşəyə dönür iti uçanda.

Alpis tanrı, yamanlığın tanrısı,
Yerüstünün qanlı acı, ağrısı,
Gözəlliyin, yaşımların oğrusu,
Ox şimşəyə dönür iti uçanda.

Qılıncları ağızlaşdı, yalaşdı,
Tunc qalxanlar ac qurd kimi ulaşdı
Toppuz səsi dörd bir yanı dolaşdı,
Ox şimşəyə dönür iti uçanda.

Qılınc gələn şimşəkləri doğradı,
Basar Alpis basıqlığa uğradı,
Qolu, qıçı, köksü sancıb ağrıdı,
Ox şimşəyə dönür iti uçanda.

Dedi, bu güc hardan gəlir Bacara,
Bunu bilsəm, çox düyünü açaram,
Mən Bacara ordan alov saçaram,
Ox şimşəyə dönür iti uçanda.

***

Alpis dedi:-Sən güclüsən, görürəm,
Tanrı ölür ancaq üç yol öləndə,
Bir yol məni sən öldürdün Yeraltda,
Tanrı ölür ancaq üç yol öləndə.

Bacar onu vurdu oxla uzaqdan,
Dəydi yerə Alpis, düşdü ayaqdan,
Toppuz onu yastılatdı torpaqda,
Tanrı ölür ancaq üç yol öləndə.
Göyün üzü, yerin üstü dəyişdi,
Ağ buludlar eşələndi, qarışdı,
Alpis tanrı öz qoruna bələşdi,
Tanrı ölür ancaq üç yol öləndə.

Bir səs gəldi uzaq, çox-çox uzaqdan,
Bu səs sanki ucalırdı torpaqdan,
Titrəyirdi bu səs titrək dodaqda,
Tanrı ölür ancaq üç yol öləndə.

Dağa-daşa bu səs tanış gəlirdi,
Bu kim idi, bunu Tanrı bilirdi,
Alpis-ölüm yavaş-yavaş ölürdü,
Tanrı ölür ancaq üç yol öləndə.

***

Bu səs gözəl Qızçiçəyin səsiydi,
Güclüdən də güclü olur acıqlı,
«-Sən Alpisi acığınla öldürdün,

Güclüdən də güclü olur acıqlı.

Doğma ərim, igid ərən sevgilim,
Qabağında hər gün yüz yol əyilim,
Sənə görə mən olmuşam ikili,
Güclüdən də güclü olur acıqlı.

Mən yansam da sevgim qaldı, yanmadı,
Sevgi nədir, Alpis bunu qanmadı,
Yerüstündə çoxu məni anmadı,
Güclüdən də güclü olur acıqlı.

On il keçib, indi məni gəzirsən,
Ayrılığa on il necə dözübsən,
Dedim, məndən sən əlini üzübsən,
Güclüdən də güclü olur acıqlı.

Gözləyirəm, yamanları itir, gəl,
Qarçiçəklə Tuncərimi götür, gəl,
Sözlərimi el-obaya yetir, gəl,
Güclüdən də güclü olur acıqlı».

***

Bacar susdu, Qızçiçəyi dinlədi,
Ürək çəkir söz ürəkdən gələndə.
Necə gözəl, necə tutqun səs idi,
Ürək çəkir söz ürəkdən gələndə.

-Necə sənə çatım, gözəl başbirim?
Bir də səni harda, necə mən görüm?
Tanrı mənə dözüm deyil, güc verib,
Ürək çəkir söz ürəkdən gələndə.

Ahay, ahay, haradasan, Qızçiçək,
Niyə səsin həm tutqundur, həm titrək,
Bacar qorxur səni bir də itirə,
Ürək çəkir söz ürəkdən gələndə.

Çapıb, gözəl, gəlib sənə çataram,
Yeraltını Yerüstünə qataram,
Baş qoyaram, dizin üstə yataram,
Ürək çəkir söz ürəkdən gələndə.

Mən sənsizəm, yerim-göyüm dar olub,
Paltarlarım, içim dolu qor olub,

Qocalmışam, saç-saqqalım qar olub,
Ürək çəkir söz ürəkdən gələndə.

***

İkiləşib əzəl gündən dolanış,
Nə görürsən, nə duyursan ikili.
Bir var içrə ikicə ad vuruşur,
Nə görürsən, nə duyursan ikili.

«Hə», «yox» sənin öz içində dolaşır,
Gah didişir səndə, gah da yalaşır,
Bir an içrə barışaraq dalaşır,
Gördüklərin, duyduqların ikili.

«Hə», «yox» böyük axtarışdır, tapıntı,
Hər dillidə* tikintidir, qazıntı,

*İnsan

Coşqunluqdur, susqunluqdur, sarsıntı,
Gördüklərin, duyduqların ikili.

«Hə», «yox» nədir, hər adamın içidir,
Bu, hər şeydə, hər varlıqda biçidir,
Yaşayışa, düşüncəyə ölçüdür,
Gördüklərin, duyduqların ikili.

Hamı bunca iki adlı olubdur,
Varlığına ikililik dolubdur.
Yaranışdan o, ikili qalıbdır,
Gördüklərin, duyduqların ikili.

***

Bacar şimşək qılıncını götürdü,
Basdığının nəyi varsa sənindir.
Atın yəhər-yüyənini bağladı,
Basdığının nəyi varsa sənindir.

Bacar oldu Şimşəkqılınc, Şimşəkat,
Yenə oldu qılıncbatmaz, quşqanad,
Görüb ona «Sağ ol» dedi el, elat,
Basdığının nəyi varsa sənindir.

O gəncləşdi, artdı yaşı, yaşımı,
Bu basarlıq çox çoxaltdı yaşını,
Görən oldu çox qabağı, qarşını,

Basdığının nəyi varsa sənindir.

Hamı dedi, öz adını aşıbsan,
Neçə yaşı bir yaşıma qoşubsan,
Buna görə calan-calan daşıbsan,
Basdığının nəyi varsa sənindir.

Çapdı getdi Alçiçəyi görməyə,
Nəyi varsa balasına verməyə,
Əkbitəndə onla ağgün sürməyə,
Basdığının nəyi varsa sənindir.

Uğurel söyləncі

Uğureldə Turq Bacarı gözlədi,
Heç bir gün də ölkə başsız qalmasın.
Başsız qalıb karıxmışdı Uğurel,
Heç bir gün də ölkə başsız qalmasın.

Busqudaydı toplumları Hindelin,
Vergi verib yaşamışdı on ili,
Buna artıq son qoymağa o gəlib,
Heç bir gün də ölkə başsız qalmasın.

Turq çağırdı öz yanına hamını,
Dedi:-Gərək biz artıraq sayğını,
Doğu yandan biz qoruyaq qapını,
Heç bir gün də ölkə başsız qalmasın.

Gözətçini yurd-yurd, el-el payladı,
Toplumları arxasınca hayladı,
Başçılara gizli belə söylədi:
Heç bir gün də ölkə başsız qalmasın.

-Hindel şahı tutacağam mən dilə,
Sağdan, soldan siz yeriyin Hindelə,
Dönün böyük qasırğaya, gur selə,
Heç bir gün də ölkə başsız qalmasın.

***

Busqularda beş-beş, on-on qalanın,
Acıqanı yuvasında boğginən.
Yaraqları əllərindən qoparın,

Acıqanı yuvasında boğginən.

Onda onlar gücümüzü görəcək,
Yığıb illik vergiləri verəcək,
İlan dönüb yuvasına girəcək,
Acıqanı yuvasında boğginən.

Minellilər busquları tutdular,
Qızmışları bir-birinə qatdılar,
Başraqlardan böyük ocaq çatdılar,
Acıqanı yuvasında boğginən.
Hindel şah da bicləmədə baş idi,
Uğurelin arxaları boş idi,
Bu boşluğa hindellilər xış idi,
Acıqanı yuvasında boğginən.

Bunu bilib Turqtay geri qayıtdı,
Hindel şahın istəyini sarsıtdı,
Toplumunu bir gecədə dağıtdı,
Acıqanı yuvasında boğginən.

***

Ancaq Bacar qayıtmışdı yurduna,
Sən yatsan da Tanrı ayıq, oyaqdır.
Gecə onu hayladılar arxadan,
Sən yatsan da Tanrı ayıq, oyaqdır.

-Kimsən belə, qaranlıqda qaraltı,
İşıq verir qaranlıqda quş atın,
De, nədəndir bu fınxırtı, parıltı,
Sən yatsan da Tanrı ayıq, oyaqdır.

Biz Hindeldən toplum-toplum gəlmişik,
Uğureli iki yerə bölmüşük,
Bu yerləri ulusumuz bilmişik,
Sən yatsan da Tanrı ayıq, oyaqdır.

Bacar dedi:-Mən sizlərə qarşıyam,
Mən Bacaram, burda ellərbaşıyam,
Dədə-baba buralarda yaşayan,
Sən yatsan da Tanrı ayıq, oyaqdır.

«Bacar» deyib döyüşçülər susdular,
Bu ərəni qaranlıqda busdular,
Sözlərinə ürkək qulaq asdılar,

Sən yatsan da Tanrı ayıq, oyaqdır.

***

-Ay Hindelli, çıxın, gedin buradan,
Qan-qan deyən öz qanında boğular.
Sizin ölkə həm böyükdür, həm gözəl,
Qan-qan deyən öz qanında boğular.
Birdən göydə şimşək qılınc parladı,
Göyün qara buludları gurladı,
O, qılıncı başı üstə hərlədi,
Qan-qan deyən öz qanında boğular.

Şimşəkatın kişnərtisi, şimşəyi,
Dırnağıyla yeri, göyü eşməyi,
Hindellinin yerə çöküb, düşməyi,
Qan-qan deyən öz qanında boğular.

Qaranlıqda bayılan var qorxudan,
Qaçanları Bacar vurur arxadan,
Yoxsa bunlar hələ dərin yuxuda,
Qan-qan deyən öz qanında boğular.

Bütün gecə Bacar qılınc oynatdı,
Dan yerinin tezdən gözün qanatdı,
Gələn qaçıb Uğureli unutdu,
Qan-qan deyən öz qanında boğular.

***

Kim ki qaldı, şimşək gördü, qılıncla,
Güc göstərən güclə gələr üz-üzə.
Qırdı Bacar ona qarşı duranı,
Güc göstərən güclə gələr üz-üzə.

Yumruburun, yastıburun, bizburun,
Yaraq töküb, yol üstündə düz durub,
Dan yerinin ilk gülüşü dupduru,
Güc göstərən güclə gələr üz-üzə.

Günəş çıxdı, Şimşəkatı gördülər,
Qorxub qaçıb kol dalına girdilər,
Matdım baxıb ağız yelə verdilər,
Güc göstərən güclə gələr üz-üzə.

Bacar dedi: -İndən belə otuz il
Vergi verin Mindiyara ildə bir,

Yoxsa acı günləriniz öndədir,
Güc göstərən güclə gələr üz-üzə.

Bundan sonra Bacar vurub qıracaq,
Başrağını Hindel üstə vuracaq,
Göstərişin qan üstündə quracaq,
Güc göstərən güclə gələr üz-üzə.

***

Bir də kəsdi Turq onların yolunu,
Öldür, ölmək istəməsən döyüşdə,
Göy gözləri qanla dolu çanaqdı,
Öldür, ölmək istəməsən döyüşdə.

Yerdə qaldı yer tutmağa gələnlər,
Yaralıdan çox-çox idi ölənlər,
Sağ qalmışdı öz yerini bilənlər,
Öldür, ölmək istəməsən döyüşdə.

Hindel şahsa qolu bağlı, yaralı,
Acığından yastı üzü saralıb,
Üzdə təkcə ac gözləri qaralır,
Öldür, ölmək istəməsən döyüşdə.

Beş gün keçdi, Hindelyurda çatdılar,
Hindellilər yoruldular, yortdular,
Yaraqları əllərindən atdılar,
Öldür, ölmək istəməsən döyüşdə.

Birdən Turqla Bacar çıxdı üz-üzə,
Bu döyüşdə çıxmış idi qan dizə,
Ölüm sözü qonmuş idi üz-gözə,
Öldür, ölmək istəməsən döyüşdə.

***

Bacar dedi: – Gözün aydın, Turqtayım,
Acıqana qarşı çox-çox qancıl ol.
Bundan sonra bağışlama qancılı,
Acıqana qarşı çox-çox qancıl ol.

Gərək Hindel şahın başı kəsilsin,
Qara qanı gözlərindən süzülsün,
Ürəyinin damarları üzülsün,
Acıqana qarşı çox-çox qancıl ol.
Turqtay dedi:-Böyük Bacar, varam mən,

Bu döyüşə çox yerində gəlmisən,
Tələs, indi Uğurelə qayıt sən,
Acıqana qarşı çox-çox qancıl ol.

Düşmə, ata, bir də Şimşək atından,
Bağlaşmamız vardır «ipək» adında,
Qalıb yüz-yüz dəvə yükün altında,
Acıqana qarşı çox-çox qancıl ol.

Mən Hindeli yandırmasam, yanaram,
Mən özümü bunca basıq sanaram,
Öc almasam Turq adımı danaram,
Acıqana qarşı çox-çox qancıl ol.

***

Bunu deyib Turq Quşatı səyirtdi,
Tunc dəmiri isti-isti döyərlər.
Yüz min toplum arxasınca yeridi,
Tunc dəmiri isti-isti döyərlər.

Turqun uca başraqları ucada,
-Öc almayın-dedi-qızdan, qocadan,
Boylanmayın hər qapıdan, bacadan,
Tunc dəmiri isti-isti döyərlər.

Yürüş etdi yüyürəklər, atlılar,
Hindel şahı dallarınca dartdılar,
Toplumları yara-yara artdılar,
Tunc dəmiri isti-isti döyərlər.

O uçurtdu şəhərləri, kəndləri,
Ürkdü fili, qaplanları, itləri,
İtkin düşdü qorxaqları, sərtləri,
Tunc dəmiri isti-isti döyərlər.

Böyük idi, iri Hindel torpağı,
İti idi Minellinin yarağı,
Sıxılırdı acıqanın qırtlağı,
Tunc dəmiri isti-isti döyərlər.

***

Yaşıl-yaşıl duru daşlar ovuğu,
Bər-bəzəyin iri qaşı yaşıldaş,
Burdan çox-çox ölkələrə yollanır,
Bər-bəzəyin iri qaşı yaşıldaş.

Meşəliklə örtülüdür yoxuşlar,
Qayalardan dağ döşündə qırışlar,
Üzə çıxır mərci-mərci bu daşlar,
Bər-bəzəyin iri qaşı yaşıldaş.

Turq dayandı bu ovuğun ağzında,
Yüz min toplum yerə çökdü azından,
Dincəldilər bu yerlərin yazında,
Bər-bəzəyin iri qaşı yaşıldaş.

Turq dedi ki:-Gəlirlidir bu ovuq,
Bura yiyə dura bilməz bir yoluq,
Bundan sonra Bacarındır bu qoruq,
Bər-bəzəyin iri qaşı yaşıldaş.

Üç yüz nəfər burda qalsın qorunc tək,
Gəlsin bura Sansi yeni yerinc tək,
Sağ, solunu kəssin qoca qılınc tək,
Bər-bəzəyin iri qaşı yaşıldaş.

***

Yaşıldaşlar ovuğunda ilk yerinc,
Dayanışın düzü, üzü, gözü çox.
Dünən elə, bu gün belə görünür,
Dayanışın düzü, üzü, gözü çox.

Dünən tutuq, bu gün yerinc olan var,
Dala qalır dayanışa uyanlar,
Ona birdir şaxta, külək, yağış, qar,
Dayanışın düzü, üzü, gözü çox.

Ondan bir daş aparan da olmayıb,
Dayanışca heç kəs yaşa dolmayıb,
Ona göz də ağardanlar qalmayıb,
Dayanışın düzü, üzü, gözü çox.
Gəzən, dözən tapıb onun gücünü,
Göz yaşıyla bağlayıbdır köçünü,
Tapıb onun çöl üzünü, içini,
Dayanışın düzü, üzü, gözü çox.

O dolanır, onla birgə dolan sən,
O bulandı, onla birgə bulan sən,
Onla yaşa, sonra ona quylan sən,
Dayanışın düzü, üzü, gözü çox.

***

Baş əymədi dayanışa böyük Turq,
Sevgi qalır, sevimli qız ölsə də.
Yuxusuna tez-tez Yanqu girirdi,
Sevgi qalır, sevimli qız ölsə də.

Otuz yaşa gəlib çatdı bilmədən,
Qaraqabaq oldu, üzü gülmədən,
İlk sevgisi yaşayırdı ölmədən,
Sevgi qalır, sevimli qız ölsə də.

Çuqçu ona doğma oylaq olmuşdu,
O, neçə il bu oylaqda qalmışdı,
Sevgisi tək saralmışdı, solmuşdu,
Sevgi qalır, sevimli qız ölsə də.

Turqız, Tanı, Tuncər, Günay duruxub,
«Görən niyə sevimli Turq soluxub»,
Göydə böyük tanrılar da karıxıb,
Sevgi qalır, sevimli qız ölsə də.

Yaşanmayıb sevgisindən ayrılar,
Bunu təkcə bilirdilər tanrılar,
Sevən ancaq sevgisilə durular,
Sevgi qalır, sevimli qız ölsə də.

***

Otuz yaşda itdi Turq öz içində,
Hər axtaran tapa bilməz özünü.
Üz qoymuşdu o, Çuqçuya, Çinçaya,
Hər axtaran tapa bilməz özünü.
Daşlar ilə, çaylar ilə danışdı,
Ovlaqlara, meşələrə qarışdı,
Küləklərin saçlarından yapışdı,
Hər axtaran tapa bilməz özünü.

Danışdırdı dilsiz gülən gölləri,
Göy düzlərdə yorğa çapan yelləri,
Yəhərlədi ilxı-ilxı çölləri,
Hər axtaran tapa bilməz özünü.

Gözəlliklər gördü, bir az kiridi,
Dedi «yoxsa gözəl Yanqu diridir?
Onda niyə çaylar, yollar əyridir?»

Hər axtaran tapa bilməz özünü.

–Tanrı, mənə yeni güc ver, dözüm ver,
Sağ qalıbsa sən Yanqunun özün ver,
Dayanışın məndən gizli üzün ver,
Hər axtaran tapa bilməz özünü.

Bacarın ölməsi söyləncі

On il keçim, çatdı Turqtay qırx yaşa,
İlk sevgini öz içində qocaltma.
Ovlaqlarda qaplanlarla tutuşdu,
İlk sevgini öz içində qocaltma.

Yeri-yurdu dağ ovuğu, sərt qaya,
Səs vermirdi dilli, dilsiz hər haya,
Bir səs yoxdur, söyləsin ki «Turq, dayan»,
İlk sevgini öz içində qocaltma.

O, Hindeldə tanrıları bəyəndi,
O, Çineldə güləşməyi öyrəndi,
Hara getdi, «Yanqu» deyib kövrəldi,
İlk sevgini öz içində qocaltma.

Misir, İlam, Asurellə Balasqel,
Dil öyrəndi, bilik tapdı düz on il,
Gördü dirrik o düşünən tək deyil,
İlk sevgini öz içində qocaltma.

Eşitdi ki, Bacar ölür yataqda,
Sulu çiçək salıb onu ayaqdan,
Qızçiçəksə güdür onu qıraqdan,
İlk sevgini öz içində qocaltma.

***

Dedilər ki, Bacar Turqu gözləyir,
Son ayaqda ölə bilməz gözləyən.
Gəlib onu aparmağa Qızçiçək,
Son ayaqda ölə bilməz gözləyən.

Quşatını çapıb gəldi bir aya,
«Ölüm, dayan, mən gəlirəm, döz, dayan!»
Hamı «sağol» dedi böyük Turqtaya,

Son ayaqda ölə bilməz gözləyən.

Bacar dedi:-Yaxşı gəldin, Turqtayım,
Mənim böyük vuruşqanım, Tursoyum,
Sənə çatır məndən iki güc payı,
Son ayaqda ölə bilməz gözləyən.

Gəlib məni aparmağa Qızçiçək,
Ölüm olum ölümlərə mən gərək,
Öləndə də orda gərək bir ölək,
Son ayaqda ölə bilməz gözləyən.

Qalsın sənə Şimşəkqılınc, Şimşəkat,
Dayanışı al, yenidən qur, yarat,
Tur elini Turq adınla sən ucalt,
Son ayaqda ölə bilməz gözləyən.

***

Alçiçəyi tapşırıram mən sənə,
Tək qalana, kimsəsizə arxa dur.
İki böyük eldən, soydan qalmadır,
Tək qalana, kimsəsizə arxa dur.
Sərtüzü də qoru, saxla yanında,
Yaşatmağa gücü vardır onun da,
Tur soyunun qanı vardır qanında,
Tək qalana, kimsəsizə arxa dur.

Mən gedirəm, qayıtmağa yolum yox,
Qızçiçəksiz getməyə də könlüm yox,
Danışmağa daha gücüm, dilim yox,
Tək qalana, kimsəsizə arxa dur.

Bacar öldü, üzdə sulu çiçəklər,
Qıjıldadı boz buludlar, küləklər,
Söndü sanki iri gözlər, bəbəklər,
Tək qalana, kimsəsizə arxa dur.

Get, Bacarım, Alt Yerini gəz, dolaş,
Pislə Yaxşı arasında tanrılaş,
Ay Qızçiçək, öz ərinə gəl yanaş,
Tək qalana, kimsəsizə arxa dur.

***

Eşitdilər Bacar ölüb, gəldilər,
Sözdən, üzdən iy anlayar ac adam.

Dedilər ki, Mindiyar da dağılar,
Sözdən, üzdən iy anlayar ac adam.

Dedilər ki, Mindiyarı alarıq,
Dörd bir yandan ona yiyə olarıq.
Minel içrə biz ayrılıq salarıq,
Sözdən, üzdən iy anlayar ac adam.

Gələn bura göz gəzdirdi gizlidə,
Nəsə gərək öyrənəsən güclüdən,
Bir iz-ətər görmədilər ölüdən,
Sözdən, üzdən iy anlayar ac adam.

Bilmədilər tanrılaşıb Bacar da,
Sonevi yox bu işıqlı diyarda,
Çəkindilər yox olmamış bu vardan,
Sözdən, üzdən iy anlayar ac adam.

Soruşdular, öyrəndilər, qorxdular,
Qorxa-qorxa bu diyardan çıxdılar,
Biclikləri içlərində boğdular,
Sözdən, üzdən iy anlayar ac adam.

***

Mindiyarda ağrıyerlər* quruldu,
Ağrıyerdə oturanlar susarlar,
Uğureldə, Əkbitəndə, Çuqçuda,
Ağrıyerdə oturanlar susarlar.

Manmən gəldi, Sərtüz, yüz at yüküylə,
Asur, Balasq öz qonşuluq ərkilə,
Yeləsəndən ayı, maral kürküylə,
Ağrıyerdə oturanlar susarlar.

Ağsaqqallar öyürdülər Bacarı,
Üzüntüdən üz-gözləri sapsarı,
Başraq enmiş, qılınc, bizuc, ox ayrı,
Ağrıyerdə oturanlar susarlar.

Tuncər, Günay, Muğər, Cumər, Qarçiçək,
Öz-özüylə danışırdı təkbətək,
Susqun idi, üzgün idi, dil gödək,
Ağrıyerdə oturanlar susarlar.

Qılıncını dizi üstə qoyaraq,

Turq bükülü oturmuşdu yay sayaq,
Göz qoymuşdu ona gələn hər qonaq,
Ağrıyerdə oturanlar susarlar.

***

Sansi gəldi, didik geyim içində,
Eldə basıq uca tutmaz başını,
Dedi qırıb dağıtdılar, çapdılar,
Eldə basıq uca tutmaz başını.

Yaşıldaşlar ovuğunu aldılar,
İçimizə qarğa kimi doldular,
Biz basıldıq, onlar basar oldular,
Eldə basıq uca tutmaz başını.

Yas yeri

Sansi dedi, Turq dinlədi, tutuldu,
Göz bərəldi, qara qaşlar çatıldı,
Birdən çıxdı at üstünə atıldı,
Eldə basıq uca tutmaz başını.

Dedi:-Burda bardaş qurmaq düz deyil,
Çıxsın yola toplum-toplum Uğurel,
Çıxa bilməz əlimizdən ovuqyer,
Eldə basıq uca tutmaz başını.

«Bacar» adı qulağımda sırğadır,
Bu ad doğma Uğurelə arxadır,
Biz qaplanıq, acıqanlar qarğadır,
Eldə basıq uca tutmaz başını.

***

Yer titrədi tərpənəndə Şimşəkat,
İgid atı, qılıncıyla diridir.
El bu sayaq görməmişdi Turqtayı,
İgid atı, qılıncıyla diridir.

Dalda qaldı ağac-ağac doğmalar,
Yola düşdü toplum-toplum yorğalar,
Yol göstərdi Turqa ellər, obalar,
İgid atı, qılıncıyla diridir.

At çapdıqca göyə torpaq sovrulur,
Daldakılar Turqdan çox-çox ayrılır,
Şimşəkatsa sıçradıqca qıvrılır,

İgid atı, qılıncıyla diridir.

Turq donmuşdu, görməmişdi belə at,
Atda bunca sıçraq-sıçraq qol-qanad,
Şimşəkatım, dırnağınla yer qanat,
İgid atı, qılıncıyla diridir.

Şimşəkatım, uç, dağları aşginən,
Dırnağınla daşda şimşək saçginən,
Basar-keçər yollarını açginən,
İgid atı, qılıncıyla diridir.

***

Hindel toplum göndərirdi Çinçaya,
Şahlar gərək boş-boşuna durmaya.
Əzilmişdi Uğureldə burunu,
Şahlar gərək boş-boşuna durmaya.

Yeni qırğın demək idi bu oyun,
Toplumların yüz mindən çox var sayı,
Uzanırdı, enlənirdi yol boyu,
Şahlar gərək boş-boşuna durmaya.

Turq dayandı, bir azcana düşündü,
Qılınc çəkib döyüşməkdən daşındı,
O gözlədi, meşəliyə sığındı,
Şahlar gərək boş-boşuna durmaya.

Meşələri bürümüşdü çən, duman,
Üz-üzəydi qaplan, maral, qurd, dovşan,
Toplumları gəlib çatdı bir azdan,
Şahlar gərək boş-boşuna durmaya.

Dedi:-Durun, Hindellilər sovuşsun,
Toplumlarım bu yerlərə uyuşsun,
Qılıncından hamı bərk-bərk yapışsın,
Şahlar gərək boş-boşuna durmaya.

***

Turq dincəldi, çıxdı qaplan ovuna,
Ova çıxan ova dönər özü də.
Düşdü birdən üstü bağlı quyuya,
Ova çıxan ova dönər özü də.

O gözlədi, çox da səs-küy salmadı,

Çox əlləşdi, çox dırmaşdı, olmadı,
Güc tükəndi, hayı-heyi qalmadı,
Ova çıxan ova dönər özü də.

Acıqanlar bundan soraq tutdular,
İlişkənli ip üstünə atdılar,
Sonra onu yuxarıya dartdılar,
Ova çıxan ova dönər özü də.
Qolu bağlı, qıçı bağlı vurdular,
Böyük Turqu heydən salıb yordular,
Əzişdirib döş-başını qırdılar,
Ova çıxan ova dönər özü də.

Dartıb, dartıb gətirdilər qabağa,
Dedilər ki, Turqu saldıq qoruğa,
Soxulmayın daha bizim torpağa,
Ova çıxan ova dönər özü də.

Alçiçək söyləncі

Birdən Quşat lap yaxında kişnədi,
Yüz at içrə at səsilə tanınar.
Bir qız atın üstdə qılınc tovlayır,
Yüz at içrə at səsilə tanınar.

Dedi:-Gəldim kəsim Turqun başını,
Mən qoymaram daş üstündə daşını,
Qan alıbdır yan-yörəni, qarşını,
Yüz at içrə at səsilə tanınar.

Onlar hələ tərpənməmiş yerindən,
Qız «hay» dedi, qız «hoy» dedi dərindən,
Üç baş vurdu qılınc ilə o, birdən,
Yüz at içrə at səsilə tanınar.

Sonra Turqun əl-qolunu açdı o,
Sonra onu qucaqladı, qucdu o,
Günəş kimi sanki işıq saçdı o,
Yüz at içrə at səsilə tanınar.

Turq qışqırdı:-Yanqu, dayan, bu sənsən?!
Dayan, sənin gül üzünə baxım mən,
Qayıdıbsan öz yerinə yenidən,
Yüz at içrə at səsilə tanınar.

***

Qız söylədi:-Alçiçəyəm, Yanqu yox,
Mən Yanqunun artasıyam, sorğu yox,
Anam kimi ürəyimdə qorxu yox,
Yüz at içrə at səsilə tanınar.

Gəldim gördüm neçə toplum yığıbsan,
Uğureldən Hindel yönə çıxıbsan,
Şimşəkatla şimşək kimi çaxıbsan,
Yüz at içrə at səsilə tanınar.

Mindim, çapdım iti-iti Quşatı,
Yolda duman, duman içrə çən qatı,
Gəldim, səni tutanlardan öc aldım,
Yüz at içrə at səsilə tanınar.

Turq baxırdı gülə-gülə, nə bilmək,
Bu igid qız Yanqu ola, Alçiçək,
Yanqu olsa bu gözəllə nə etmək,
Yüz at içrə at səsilə tanınar.

“Yanqu, niyə aldadırsan məni sən?
Ola bilər Yanqu deyil, Dintisən,
Düz söz çıxsın, gülüm, o gül dilindən,
Yüz at içrə at səsilə tanınar.»

***

Bu nə idi Yanqudan da gözəldi,
Gözəl tanrı bulağından su içir.
Alçiçək qız Yanqudan da sevimli,
Gözəl tanrı bulağından su içir.

Boy-buxunu, qaşı-gözü Yanqudur,
İpək saçı, güzgü üzü Yanqudur,
Başdan-başa qızın özü Yanqudur,
Gözəl tanrı bulağından su içir.

Sözü ipək, dodaqları al ipək,
Qonub sanki at üstünə kəpənək,
Alçiçəksə, onda Yanqu nə demək,
Gözəl tanrı bulağından su içir.
Çəkimlidir qara güzgü baxışı,
Tərpənişi ürəklərə yapışır,
Elə bil ki, süd bal ilə qarışıb,

Gözəl tanrı bulağından su içir.

«Dayan, getmə, güldən gözəl Alçiçək,
Dodaq göyçək, yanaq göyçək, üz göyçək,
Dayan, səni yaxşı-yaxşı bir görək,
Gözəl tanrı bulağından su içir”.

***

Gətirdilər Turqun Şimşəkatını,
Gözsüz qalsın gözəlliyi görməyən.
Turq qalmışdı ağzı açıq, uyğulu,
Gözsüz qalsın gözəlliyi görməyən.

“-Tanrım, yenə sınayırsan Turqunu,
Yaradıbsan necə bu boy-buxunu,
Yanqu mənə unutdurur Yanqunu,
Gözsüz qalsın gözəlliyi görməyən.

Elə bil ki, bu, Yanqunun özüdür,
Alçiçəkdir, ya Yanqunun qızıdır,
Dad Yanqudur, duz Yanqunun duzudur,
Gözsüz qalsın gözəlliyi görməyən.”

Alçiçəyi kim gördüsə duruxdu,
Yuxu görən adam kimi uyuxdu,
Kim baxdısa bu gözələ, soluxdu,
Gözsüz qalsın gözəlliyi görməyən.

Sansi gəldi, dedi:-Qızım ölməyib,
«Ölüb» deyən çox bərk çaşıb, bilməyib,
Onlar bizi doğru başa salmayıb,
Gözsüz qalsın gözəlliyi görməyən.

***

Qoşar çıxdı ortalığa lapbadan,
Anasından gözəl ola qız gərək.
Çala-çala o, Turqtaya yan aldı,
Anasından gözəl ola qız gərək.
Ata, ana nə var verir qızına,
Duz qatırlar qızlarının duzuna,
Sevgi baxmır qarasına, bozuna,
Anasından gözəl ola qız gərək.

Atan yaxşı, anan yaxşı, Alçiçək,
Çıx ortaya, oyna, atıl-düş görək,

Bu gözəllik haradandır, bir görək,
Anasından gözəl ola qız gərək.

Mən bilirəm, sən Yanqudan qalmasan,
Minel, Çinel sevgisindən olmasan,
Qızılgülsən, yoxsa yumru almasan,
Anasından gözəl ola qız gərək.

Atan yaxşı, anan yaxşı, a ceyran,
Çox igidsən, çox qorxmazsan sən yaman,
Durub bizə baxma belə uzaqdan,
Anasından gözəl ola qız gərək.

***

Turqun döyüş səsləncləri gurladı,
Yarağını götür, yüyür irəli,
Sansi yenə yerinc oldu bu yerdə,
Yarağını götür, yüyür irəli.

Alçiçəyin çırtdamışdı çiçəyi,
Ərən kimi güclü idi biləyi,
Bir Turq idi, bir Uğurel diləyi,
Yarağını götür, yüyür irəli.

Yola düşüm, mən Çinçaya yollanım,
Qız dedi ki,-Atım oddan çullanıb,
Çaylar üstən, dağlar üstən tullanım,
Yarağını götür, yüyür irəli.

Gedim deyim Çin xaqanı Manmənə,
Hindellilər yürüş edib, bil, sənə,
Çıx Təbətdə sən onların önünə,
Yarağını götür, yüyür irəli.

Turq dedi ki,-De Manmənə bu axşam,
Hindellini mən arxadan vuraram,
Güc deyəni üç-üç, beş-beş qıraram,
Yarağını götür, yüyür irəli.

***

Turq iki yol arasında asılı,
Söz, yol gərək iki başlı olmasın.
«Bu qız getsin, ya getməsin Çinçaya»,
Söz, yol gərək iki başlı olmasın.

Bu, Yanqudur, Alçiçəyin donunda,
Bu, gözəldir min-min qızın yanında,
Yanqu qanı, Tuncay qanı qınında,
Söz, yol gərək iki başlı olmasın.

Bu, Yanqudur, dönüb yeni bir gülə,
Alçiçəkdi, dönüb gəlib Minelə,
Bu gözəllik kimsədə yox bir belə,
Söz, yol gərək iki başlı olmasın.

Qoy getməsin, yolda onu tutarlar,
Bu gözəli dustaqlığa qatarlar,
Döyüb, döyüb son gününə çatarlar,
Söz, yol gərək iki başlı olmasın.

Yox, qoy getsin! Yox, getməsin Alçiçək!
O getmişdi, Quşat iti bir külək,
İki yana qırıq daşlar səpərək,
Söz, yol gərək iki başlı olmasın.

***

Turqun döyüş səsləncləri gurladı,
Hamı birdən tərpənərsə, basardır.
Yer tərpəndi, dağ titrədi yerində,
Hamı birdən tərpənərsə, basardır.

Turq çağırdı Dədədüzü arada,
Dedi:-Get, gör qız nə edir orada,
Üç gün qabaq toplum keçib buradan,
Hamı birdən tərpənərsə, basardır.
Atlar çapdı, atsızlarsa yüyürək,
Daldan çataq acıqana biz gərək,
Yoxsa Çinçay qan içində üzəcək,
Hamı birdən tərpənərsə, basardır.

Budaqlandı iki yerə toplumlar,
Acıqana iki yandan vuruş var,
Qoy Çinçaya arxa dursun Mindiyar,
Hamı birdən tərpənərsə, basardır.

Bu səs çatdı Manayyurda, Tuncərə,
Tuncər dedi Manayqıza, Cumərə,
Yayda ox tək sıçraq olaq biz gərək,
Hamı birdən tərpənərsə, basardır.

***

Quşat çapdı, getdi gündə yüz ağac,
Gecə düşcək yola çıxmaz tək atlı.
Hərdən gecə at da çapdı Alçiçək,
Gecə düşcək yola çıxmaz tək atlı.

Çuqçuyacan yollar aydın, düpbədüz,
İkinci gün çatdı ona Dədədüz,
Yaxınlaşdı Alçiçəyə o, gündüz,
Gecə düşcək yola çıxmaz tək atlı.

Qız tanıdı Dədədüzü, dayandı,
Tək ürəyi işıqlığa boyandı,
Kim olsa da kişi qıza hayandı,
Gecə düşcək yola çıxmaz tək atlı.

Dedi:-Yanqu, hara belə gedirsən,
Qız söylədi:-Mən Çinçaya gedirəm,
-Ancaq yaman tələsirsən sən, nədən,
Gecə düşcək yola çıxmaz tək atlı.

Qız söylədi:-Qan gözləyir Çinçayı,
Yürüşdədir Hindin neçə alayı,
Manmən yaxın adamıdır Turqtayın,
Gecə düşcək yola çıxmaz tək atlı.

***

-Sən gözəlsən, Yanqu, necə incəsən,
Qızlarındır gözəlliklə incəlik,
Mən Yanqu yox, Alçiçəyəm, ay oğlan,
Qızlarındır gözəlliklə incəlik.

Yanqu mənim anam olub, keçinib,
Sevgi yeyib, yaxıb onun içini,
O daşıyıb sonevinə köçünü,
Qızlarındır gözəlliklə incəlik.

-Bəs sən necə, sən birini sevirsən?
-Yaşım azdır, ancaq bilmək istəsən,
Mən bu yaşda böyük Turqu sevirəm,
Qızlarındır gözəlliklə incəlik.

On il qabaq onu gördüm at üstdə,
Qaplanlara bənzəyirdi o, üzdən,
Sanki günəş boylanırdı dənizdən,

Qızlarındır gözəlliklə incəlik.

-İndi necə?
-İndi daha üstündür,
Ancaq bir az qapalıdır, küskündür,
Küskün deyil, sanki bir az yorğundur,
Qızlarındır gözəlliklə incəlik.

***

Sevindilər Çuqçuelə çatanda,
Adamsayaq doğmalıq var torpaqda.
Görən dedi, Yanqu gəlib Çuqçuya,
Adamsayaq doğmalıq var torpaqda.

Hamı dedi, Yanqu, Tuncay qoşadır,
Acıqanın oxu üzü daşadır,
Tək sevgidir ürəkləri yaşadır,
Adamsayaq doğmalıq var torpaqda.

Biri dedi:-O, Yanqunun qızıdır,
İtin qızı düz Yanqunun özüdür,
Alçiçəkdir, yaşı azdır, quzudur,
Adamsayaq doğmalıq var torpaqda.
-Qıza, işdə var büsbütün özgə iş,
Turq bu qızın anasını sevirmiş,
Ancaq onla nə bir görüş, nə öpüş,
Adamsayaq doğmalıq var torpaqda.

Qız bu sözü eşitcəyin tutuldu,
At üstündə o diksinib atıldı,
Qara qaşlar dartılaraq çatıldı,
Adamsayaq doğmalıq var torpaqda.

***

«Məni sevməz o, anamı sevibsə,
Sevən üçün ana özgə, qız özgə,
Onda mənim sevgim necə olacaq?
Sevən üçün ana özgə, qız özgə.

Gedim, gərək bunu deyim Sərtüzə,
Görüm necə yozur bunu o, bizə,
Ana gəlsə öz qızıyla üz-üzə,
Sevən üçün ana özgə, qız özgə».

Alçiçəyəm, bu gənc sevgi yaşında,

Düşüncələr dolaq düşüb başımda,
Qopdu nəsə ürəyimin quşundan,
Sevən üçün ana özgə, qız özgə.

-Tanrım, məni Yanqu elə, sevilim,
Turq sevməsə məni, onda qoy ölüm,
Alçiçək tək sevsin məni, nə bilim,
Sevən üçün ana özgə, qız özgə.

Onda gedim, deyim şaman ataya,
O, sevgiyə pis baxanı qatdayar,
Odur çətin ağrıları atdayan,
Sevən üçün ana özgə, qız özgə.»

***

Gənc yaşında ağrı nədir duydu o,
Dirrik özü ağrı-acı deməkdir.
Yanqu olsun-dedi-yoxsa Alçiçək,
Dirrik özü ağrı-acı deməkdir.
Yanqu ölüb, necə Yanqu olum mən,
Olsam, Turqu necə sevim yenidən,
Ah, sevimlim, dinməyirsən bəs nədən?
Dirrik özü ağrı-acı deməkdir.

Yox, Alçiçək olacağam Turq üçün,
Buna çatar ana gücüm, qız gücüm,
Tanrı özü qoysun buna bir ölçü,
Dirrik özü ağrı-acı deməkdir.

Turqum, məni gözlə, sənə yanaşım,
Gəlim sənə ikilikdən danışım,
Anayla qız bir sevgidə tapışıb,
Dirrik özü ağrı-acı deməkdir.

Turqum, məni öz başına dolandır,
Mən Yanquyam, yox, Alçiçək yalandır,
Alçiçəyəm, Yanqu mənim balamdır,
Dirrik özü ağrı-acı deməkdir.

Hindel-Çinçay
vuruşları söyləncisi

Atlar çapdı, gəlib çatdı Çinçaya,
Tələsənlər nəyi isə unudur.

O, sevimli Turqtayını unutdu,
Tələsənlər nəyi isə unudur.

Baş əydilər, söylədilər olanı,
Başa saldı dilmanclarsa qalanı,
Xaqan qorxdu, ora, bura boylanıb,
Tələsənlər nəyi isə unudur.

Manmən çıxdı, ərənləri səslədi,
Hindel şahı tez-tez söydü, pisladi,
Toplumları yola saldı, izlədi,
Tələsənlər nəyi isə unudur.

Unuduldu Dədədüzlə Alçiçək,
Qız dedi ki,-Bu vuruşa biz gedək,
Bu döyüşdə Turqu görüm mən gərək,
Tələsənlər nəyi isə unudur.

Dincəlmədən yola düşüb getdilər,
Qaldı Çinçay, Çuqçu, gözdən itdilər,
Çapa-çapa toplumları ötdülər,
Tələsənlər nəyi isə unudur.

***

Acıqanlar üzləşdilər Təbətdə,
Dağ yerində vuruş çoxlu güc istər.
Hər iki yan güclü idi, yaraqlı,
Dağ yerində vuruş çoxlu güc istər.

Hindel şahla Manmən durdu qıraqda,
Yaraqlılar qızdı, düşdü ayaqdan,
Ölüm səsi gəldi hər bir yaraqdan,
Dağ yerində vuruş çoxlu güc istər.

İlk vuruşda yüz-yüz ərən yıxıldı,
Manməninsə sıraları sıxıldı,
Ön sırada iki toplum dağıldı,
Dağ yerində vuruş çoxlu güc istər.

Hər bir yandan oxla bizuc yağırdı,
Toppuzların vuruşunda bağırtı,
At döşündən yaralı qan sağırdı,
Dağ yerində vuruş çoxlu güc istər.

Çinçaylılar çəkilirdi geriyə,

Hindel şahsa at çapırdı bəriyə,
Qaçmaq yolu qalmamışdı diriyə,
Dağ yerində vuruş çoxlu güc istər.

***

Manmən çıxdı bizuc ilə irəli,
Nəyə gərək başçı, toplum olmasa.
Hindel şah da fillə çıxdı irəli,
Nəyə gərək başçı, toplum olmasa.
Onlar çəkib qılıncları qapdılar,
Tutaqları bir-birinə çırpdılar,
Bu döyüşdə yerlərini tapdılar,
Nəyə gərək başçı, toplum olmasa.

Xaqan dedi:-Qancıl, gizli gəlibsən,
Sən Çinçayı deyən başsız bilibsən,
Bu ölkəni neçə yerə bölübsən,
Nəyə gərək başçı, toplum olmasa.

-Bizim olsun gərək Təbət, Uğurel,
Sizdə Minel adamları az deyil,
Ya ver, ya öl, qalanını özün bil,
Nəyə gərək başçı, toplum olmasa.

-Biz Çinçayıq, Mindiyarsa ayrıdır,
Mindiyarın nə istəsən varıdır,
Bura dəniz, ora isə qurudur,
Nəyə gərək başçı, toplum olmasa.

***

Hindel şaha çatmayırdı ox, bizuc,
Hündürdə ol bacardıqca döyüşdə.
Fil üstündə, dağ döşündə durmuşdu,
Hündürdə ol bacardıqca döyüşdə.

Hind toplumu irəliyə gedirdi,
Dağı, düzü alıb keçib ötürdü,
Yavaş-yavaş o, Xançunu tuturdu,
Hündürdə ol bacardıqca döyüşdə.

Manmən tez-tez ox atırdı, qaçırdı,
Yandırılan kəndlər alov saçırdı,
Acıqanlar qan qan üstən içirdi,
Hündürdə ol bacardıqca döyüşdə.

Birdən bir qız səsi gəldi arxadan,
Çapa-çapa gəlib durdu ortada,
-Mən doğuldum-dedi-Yanqu anadan,
Hündürdə ol bacardıqca döyüşdə.

Hindel şahı səsləyirəm döyüşə,
Mən qadınam, ərkim çatar bu işə,
Mən istərəm yerdə gələk döş-döşə,
Hündürdə ol bacardıqca döyüşdə.

***

Hindel şahı yerə endi minikdən,
Fildən düşən elə bil ki, kiçilir.
–Armas şahdır,-dedi-durub önündə,
Fildən düşən elə bil ki, kiçilir.

O, qılıncı çəkib çıxdı qabağa,
Qız əl atdı birdən neçə yarağa,
Səsi düşdü düzə, çölə, oylağa,
Fildən düşən elə bil ki, kiçilir.

-Mən Yanquyam, ərən kimi vuruşqan,
Mənim üçün nə şah vardır, nə xaqan,
“Turq” demişəm mən anadan olandan,
Fildən düşən elə bil ki, kiçilir.

Baş əyirəm təkcə onun adına,
O gələcək Çinçayelə yardıma,
Mən onacan səni allam altıma,
Fildən düşən elə bil ki, kiçilir.

Qılınclaşma, toppuzlaşma, oxlaşma,
Sıralarda gözə çarpdı sıxlaşma,
Eşidildi yalvarışma, ağlaşma,
Fildən düşən elə bil ki, kiçilir.

***

-Səni tutub allam-deyir Armas şah,
Hay-küy ilə basar olan basılar.
Kölə edib saxlayaram səni mən,
Hay-küy ilə basar olan basılar.

Öncə sənin qıçlarını kəsərəm,
Sonra sənin saçlarını kəsərəm,
Burun, qulaq uclarını kəsərəm,

Hay-küy ilə basar olan basılar.
Qız, dönərsən, bir lomba ət olarsan,
Qabağımda quyruqsuz it olarsan,
Bir qulaqsız it kimi sərt olarsan,
Hay-küy ilə basar olan basılar.

-Mən də səni doğrayaram ət kimi,
Çiy-çiy yeyib çeynəyərəm qurd kimi,
Sümüyünü beşdaş edər nərd kimi,
Hay-küy ilə basar olan basılar.

Birdən toppuz dəydi qızın çiyninə,
Toran qondu elə bil ki, beyninə,
İsti-isti qan yeridi əyninə,
Hay-küy ilə basar olan basılar.

***

Manmən çıxdı qabağına acıqlı,
Qız vurana hələ kişi deməzlər.
-Bu da mənim toppuzumdur, dad bunu,
Qız vurana hələ kişi deməzlər.

Manmən vurdu, tutaq girdi araya,
Qılınc gəldi, bizuc çıxdı haraya,
Burda ancaq balta işə yarayar,
Qız vurana hələ kişi deməzlər.

Şahsa oxla vurdu yandan Manməni,
Dedi:-Bunca ağladaram mən səni,
Yeridərəm Çinçayelə yüz mini,
Qız vurana hələ kişi deməzlər.

Birdən qalxdı Dədədüzün harayı,
Tir-tir əsdi Hindel şahın alayı,
-Ala-dedi-bu da sənin ox payın,
Qız vurana hələ kişi deməzlər.

Armas şahın qulağını dəldi ox,
Qulağında dəmir sırğa oldu ox,
Qızıl qandan qızıl boya aldı ox,
Qız vurana hələ kişi deməzlər.

***

Turq göründü, Şimşəkqılınc, Şimşəkat,
Şimşək görüb, bulud yağar qorxudan.

Külək əsdi, sərt qasırğa, çən, yağış,
Şimşək görüb, bulud yağar qorxudan.

İşıq gördü çən içində Armas şah,
Səs düşmüşdü, qorxu-ürkü dağ-daşa,
Turq gəlirdi onun üstə birbaşa,
Şimşək görüb, bulud yağar qorxudan.

Armas çıxdı fil üstünə, oturdu,
Elə bildi dartışmadan qurtardı,
«Turqtay» sözü qorxusunu artırdı,
Şimşək görüb, bulud yağar qorxudan.

Turq sıyrılıb qılınc kimi parladı,
Nərildədi, göylər kimi gurladı,
Toppuzunu başı üstə fırladı,
Şimşək görüb, bulud yağar qorxudan.

Toppuz dəydi Armas şahın filinə,
Bizuc keçdi onun donqar belinə,
Sərələndi fil Təbətin çölünə,
Şimşək görüb, bulud yağar qorxudan.

***

Fil üstündən uçub keçdi Şimşəkat,
Şimşəklərin qabağında kim durar.
Yatdı yerə qorxusundan ərənlər,
Şimşəklərin qabağında kim durar.

Kim durdusa Turqa qarşı, qırıldı,
Qalan toplum sıra-sıra yarıldı,
Çoxu gedib Alçiçəyə sarıldı,
Şimşəklərin qabağında kim durar.

Çatır Minel, Mindiyarın alayı,
Vurur, kəsir, yıxır, Turqu arayır,
Gəlir Turqun ön sıradan harayı,
Şimşəklərin qabağında kim durar.
Hind toplumu səpələnir dörd yana,
Dönür onlar sürüm-sürüm dumana,
Yaralılar qan üstündə samana,
Şimşəklərin qabağında kim durar.

Axşam düşdü, Alçiçəyə çatdı o,
Başı üstdə bardaş qurub otdu o,

Göz yaşını göz yaşına qatdı o,
Şimşəklərin qabağında kim durar.

***

Yaralıydı, ölməmişdi Alçiçək,
Bir toppuzla ölməz igid döyüşçü.
Əzik çiyni oynamışdı yerindən,
Bir toppuzla ölməz igid döyüşçü.

Turqu görcək durdu gözəl Alçiçək,
Sevgililər hər bir yerdə bir gərək,
Alçiçək qız ağlamsındı, Turq kövrək,
Bir toppuzla ölməz igid döyüşçü.

“Mənim Yanqum”, “Mənim Turqum” dedilər,
Baxışlara qaynar, vurğun dedilər,
Bu gənclərə gözəl, uyğun dedilər.
Bir toppuzla ölməz igid döyüşçü.

“Mənim Yanqum”, “Mənim Turqum” sözləri
Yaşartdıqca ürəkləri, gözləri,
Sevənlərin qatdanırdı dizləri,
Bir toppuzla ölməz igid döyüşçü.

Ayrıldılar, baxışdılar, güldülər,
Bir-birində dirildilər, öldülər,
Dayanışı bütöv sevgi bildilər,
Bir toppuzla ölməz igid döyüşçü.

***

Unuduldu Alçiçəklə Yanqu, Turq,
Doğur hərdən sevgi bircə baxışdan.
Sevgidə yox kimsəsizlik, kimsəlik,
Doğur hərdən sevgi bircə baxışdan.
-Sən hardaydın, səni gəzdim neçə il,
-Mən də səni səndən qabaq bircə il,
-Sevgi, məni öz-özündən öncə bil,
Doğur hərdən sevgi bircə baxışdan.

“Mənim Yanqum”, “Mənim Turqum”, nə yaxşı,
Sevgi dilli, dilsizlərə yaraşır.
Sevgisi var kövrək daşa hər daşın,
Doğur hərdən sevgi bircə baxışdan.

Tanrı qurdu dayanışı sevgidən,

Doğdu hər şey sevgiləşən ikidən,
Sevgi ancaq ölənləri tərgidər,
Doğur hərdən sevgi bircə baxışdan.

Böyük Tanrı, bu sevgini qoru sən,
Yarı ona, yarı buna, yarı sən,
Qalma, qalma bu sevgidən ayrı sən,
Doğur hərdən sevgi bircə baxışdan.

***

Manmən gəldi, basarlara baş əydi,
Basarlıqda ilk addım var, sevgidir.
Dedi:-Çinçay sizə çox-çox borcludur,
Basarlıqda ilk addım var, sevgidir.

Armas şahın əli-qolu bağlıdır,
O, sizlərdən könlü yaman dağlıdır.
O, sən demə Hindel şahın oğludur,
Basarlıqda ilk addım var, sevgidir.

Turq dedi ki:-Biz dönürük geriyə,
Uğurelə birdən toplum yeriyər,
Qancıl baxmır nə ölüyə, diriyə,
Basarlıqda ilk addım var, sevgidir.

Acıqanı izləyirdik yerbəyer,
Yardım idi Çinçayelə Uğurel,
Uğur olsun ölkənizə yerbəyer,
Basarlıqda ilk addım var, sevgidir.

Biz Yanquyla bir gün sizə gələrik,
Basarlıqla onda deyib gülərik,
Manmən Xaqan, sizə uğur dilərik,
Basarlıqda ilk addım var, sevgidir.

***

İki yandan yaralılar daşındı,
Sevgidən də var yaralı ürəklər.
Turq, Alçiçək ön sırada qayıtdı,
Sevgidən də var yaralı ürəklər.

Yolda vardı neçə ellər yaralı,
Qalın ağac, incə güllər yaralı,
Tapdaq olmuş yerli dillər yaralı,
Sevgidən də var yaralı ürəklər.

Döyüşlərdən sonra gələn sevgidir,
Yaralardan qanı silən sevgidir,
Yurdda ev-ev sevinc bölən sevgidir,
Sevgidən də var yaralı ürəklər.

Unutmuşdu Turq nədənsə soy-sayı,
Qaytarırdı Uğurelə alayı,
Hərdən yana söyləyirdi, dolayı,
Sevgidən də var yaralı ürəklər.

Hərdən durub düşünürdü özünü,
«Yanqu»dan da çəkməyirdi gözünü,
«Qoy soruşum qızdan bunun düzünü»,
Sevgidən də var yaralı ürəklər.

XIII QAPI

Turq-Alçiçək söyləncisi

Uğureldən Əkbitənə getdilər,
Görüşəndə ağlaşarlar ayrılar.
Turq on beş il olmamışdı Başevdə,
Görüşəndə ağlaşarlar ayrılar.

Turqız dedi:-Bu qız qaçıb Başevdən,
Alçiçəkdir, onu yaxın qoyma sən,
Onu görmək istəmirəm bir də mən,
Görüşəndə ağlaşarlar ayrılar.

Tanı dedi:-O, uşaqdır, qoy qalsın,
Qaçıb gedib, bir də gəlib, qoy olsun,
Burda ona dibdaşı da qoyulsun,
Görüşəndə ağlaşarlar ayrılar.

Turq söylədi:-O, Yanqudur, qayıdıb,
Mənim sevgim gedib onu ayıldıb,

Sevgi onu dəyirman tək üyüdüb,
Görüşəndə ağlaşarlar ayrılar.

O, Yanqudur, ana, küsüb gedibdir,
O, Yanqudur, sevgisində itibdir,
Yanqu yeni bir gül olub bitibdir,
Görüşəndə ağlaşarlar ayrılar.

***

Ata, ana baxdı, gözlər bərəldi,
Yox, sevənlər üz döndərir hamıdan,
Bir-birini ancaq görür sevənlər,
Yox, sevənlər üz döndərir hamıdan.

Turqız dedi:-Dəli olub Turq deyən,
Dəlidirsə bu incəlik bəs nədən,
Tanrım, Turqu alma mənim əlimdən,
Yox, sevənlər üz döndərir hamıdan.
-Mən Yanquyam, Alçiçək yox, biliniz,
Könlünüzü özgəlikdən siliniz,
Sevgi ilə danışınız, gülünüz,
Yox, sevənlər üz döndərir hamıdan.

Tanı dedi:-Bu da dəli olubdur,
Üzündəki qaynar gənclik solubdur,
Öz adını öz üstündən silibdir,
Yox, sevənlər üz döndərir hamıdan.

Turq söylədi:-Qayıdarıq biz yenə,
Bizə gəl-gəl deyən sevgi yerinə,
Borcumuz yox bu sevgidə birinə,
Yox, sevənlər üz döndərir hamıdan.

***

Turqız dedi:-Oğlum, sənə yaraşmaz,
Şah tək gəzər, şah qız alar şah oğlu,
Niyə gərək sən Yanqunu sevəsən,
Şah tək gəzər, şah qız alar şah oğlu.

Tanı dedi:-Sən bu işə qarışma,
Bu, sevgidir, əl çək ondan, yapışma,
Daha Turqdan bunu – onu soruşma,
Şah tək gəzər, şah qız alar şah oğlu.

Bir ay qaldı Turq, Alçiçək burada,

Ayırd etdi Turqız ağı qaradan,
Bu sevgiyə göz qoymuşdu yaradan,
Şah tək gəzər, şah qız alar şah oğlu.

Turqız ilə Tanı verdi baş-başa,
Dedilər ki, qıza bir də yanaşaq,
Yeni deyil, ona yeni ad qoşaq,
Şah tək gəzər, şah qız alar şah oğlu.

Deyək, bu qız Çinel, Xaqan qızıdır,
Alnımıza, günümüzə yazıdır,
Bu qız günəş tanrısının özüdür,
Şah tək gəzər, şah qız alar şah oğlu.

***

Atasına bir gün dedi Turq belə:
-Alınyazı bizə göydə yazılır.
Uğurelə yerinc getsəm yaxşıdır,
Alınyazı bizə göydə yazılır.

Atmacalar daha məni doyurub,
İstəyimi alıb göyə sovurub,
Sevgi gəlib doğmaları ayırıb,
Alınyazı bizə göydə yazılır.

Mən gedirəm Uğurelə biryolluq,
Harda olsaq ata, bala bir olluq,
Sarsılmasın bu atalıq, oğulluq,
Alınyazı bizə göydə yazılır.

Hindel, Çinel gözün ora dikibdir,
Acıqanlıq dəni səpib, əkibdir,
Orda yerinc yeri aşıb, çökübdür,
Alınyazı bizə göydə yazılır.

Mən orada, sən burada var olaq,
Mindiyara boz baxana «vur» olaq,
Döyüşlərdə sellər kimi gur olaq,
Alınyazı bizə göydə yazılır.

***

Ata dedi:-Oğul, doğru deyirsən,
Doğru sözün qabağında söz olmaz.
Bacar öldü, Uğurelin dibdaşı,
Doğru sözün qabağında söz olmaz.

Əldə saxla Çinçayeli, Çineli,
Mənsə yenə qoruyaram bu yeri,
Cumər, Günay, Manayqızla Tuncərim,
Doğru sözün qabağında söz olmaz.

Balasqeldir, Asureldir, Tureldir,
Onlar daha basqın etmir on ildir,
Göz altdadır, görünənsə ağ güldür,
Doğru sözün qabağında söz olmaz.
-Ata, bil ki, mən kiçiyəm, sən uca,
Böyüklərdən söz eşidər balaca,
Bir ayağım mənim burda olacaq,
Doğru sözün qabağında söz olmaz.

Qoyma anam ağrı çəksin, sıxılsın,
Qoyma mənim sevgim üçün yaxılsın,
Qoyma böyük şahlığımız dağılsın,
Doğru sözün qabağında söz olmaz.

***

Gecə çıxdı uzaq yola iki gənc,
Bu dayanış qocaldıqca gəncləşir.
Şimşəkatla Quşat böyür-böyürə,
Bu dayanış qocaldıqca gəncləşir.

Pıçıltılar, uğuntular at üstdə,
Öpüşmələr yaşıl-yaşıl ot üstdə,
Ayrıldılar ordan bircə ad üstdə,
Bu dayanış qocaldıqca gəncləşir.

Anam sevgi, gör, nə yerə çatıbsan,
Gör, kimlərin sən başını qatıbsan,
Dirrik acı, sənsə bala batıbsan,
Bu dayanış qocaldıqca gəncləşir.

Gecə ağız marçıldadır, udqunur,
Öpüş üstə öpüş gəlir, dad qonur,
Tanrıya bax, ətdən, qandan nə yonub,
Bu dayanış qocaldıqca gəncləşir.

Yanqu gedib, Alçiçək də dalınca,
Sevənlər tək gör-gör dədə yalıncaq.
Sevil sən də, baş qoy, yat daş balınca,
Bu dayanış qocaldıqca gəncləşir.

***

-Mən sevildim, Yanqu anam sağ olsun,
Sevən yanır, o, yenidən doğulur.
Gözəl adın məni aldı, diriltdi,
Sevən yanır, o, yenidən doğulur.
Sən də yandın, pörşələndin, keçindin,
Qaldı mənə bir ovucluq isintin,
Yanmaq dedim, aldı məni üşüntü,
Sevən yanır, o, yenidən doğulur.

Sənin kimi mən də yanmaq istərəm,
Yanındaca səni anmaq istərəm,
Ana olmaq nədir, qanmaq istərəm,
Sevən yanır, o, yenidən doğulur.

Qoy dolanım ocağının başına,
Kəsi olum ağ külünə, daşına,
Dönüm mən də iç qatının quşuna,
Sevən yanır, o, yenidən doğulur.

«Qızım, gəlmə, mən səndəyəm, sən məndə,
Çox gənc öldüm, utanıram mən səndən,
Böyük ana kimi öl sən öləndə,
Sevən yanır, o, yenidən doğulur».

***

Turq soruşdu:-Danışırsan kiminlə?
Gör-gör dədə danışmağı bacarmır,
-Mən anamla danışırdım üz-üzə,
Gör-gör dədə danışmağı bacarmır.

-Yanqu!-deyib saqqalını yoldu Turq,
Buludlandı, bulud kimi soldu Turq,
Tüstüləşib od-alova doldu Turq,
Gör-gör dədə danışmağı bacarmır.

-Yanqu mənəm!-Tez-tez dedi Alçiçək,
Dan sökülür, yavaş-yavaş dur, gedək,
Dinlə, mənə Yanqu deyir gül, çiçək,
Gör-gör dədə danışmağı bacarmır.

Turq gözünü silib mindi atına,
Baş əydilər güllər Yanqu adına,
Tanrı verib hər bir şeyi qadına,

Gör-gör dədə danışmağı bacarmır.

Şimşəkatla Quşat yenə yanaşı,
Dönüb hərdən ağızlaşıb yalaşır,
Oğlan qıza, at da ata yaraşıq,
Gör-gör dədə danışmağı bacarmır.

***

Onlar bu yol Duzdağ yolu getdilər,
Dağ çayının qırağıyla yol sərin.
Zirvələrdən boylanırdı qartallar,
Dağ çayının qırağıyla yol sərin.

Dağdan aşıb su içməyə gələn daş,
Yolu kəsmə, mayallaq sal, bir də aş,
Qurşağacan girmə suya, yekəbaş,
Dağ çayının qırağıyla yol sərin.

Gül sallanıb qayalıqdan su içir,
Çaya düşüb bir boğulmuş gül keçir,
Tanrı gülə qayalıqda yer seçib,
Dağ çayının qırağıyla yol sərin.

Sınıq-sınıq, çilik-çilik qayalar,
Qayalarda qatı-qatı boyalar,
Ovuq-ovuq, ələk-ələk kahalar,
Dağ çayının qırağıyla yol sərin.

-Atım, sıçra, bu daşı da atıl, öt,
İstəyirsən gir çaylağa, çayla get,
Oynaqlaşan ləpələrdə sən də it,
Dağ çayının qırağıyla yol sərin.

***

Turqa açdı qucağını Duzdağel,
Ürəkləri sevindirir gözəllik,
Alçiçəyi alıb getdi gəlinlər,
Ürəkləri sevindirir gözəllik.

Qalın idi, enli, Turqun kölgəsi,
Qorxuluydu iri köksü, gövdəsi,
Ağır idi sözü, ərki, hikkəsi,
Ürəkləri sevindirir gözəllik.
Cumər yoxdu, o, Turelə getmişdi,
Manayqızın sevgisində itmişdi,

İlk sevgiylə gənc yaşları ötmüşdü,
Ürəkləri sevindirir gözəllik.

Yığıldılar çörəkçilər, onçular,
Duz daşıyan, quş ovlayan ovçular,
Yerliləşib oturmuşdu çuqçular,
Ürəkləri sevindirir gözəllik.

-Gəlin çalaq bu gənclərin toyunu,
Qoy səslənsin Minel yallı oyunu,
Boy yaradaq, qucaq elin boyunu,
Ürəkləri sevindirir gözəllik.

***

Çörəkçilər bic idilər, çoxbilmiş,
Toy hər evin öz içində qurular.
Bunu bilib acıqlandı Tanı şah,
Toy hər evin öz içində qurular.

Tanı küsdü, çörəkçilər sevindi,
Cumər gəldi, bu toy ilə öyündü,
Manayqızsa evdə qaldı, deyindi,
Toy hər evin öz içində qurular.

Turq da küskün, anasından, Başevdən,
İtkin idi, kimsəsizdi qız dünən,
Tapacaqdır öz yerini hər itən,
Toy hər evin öz içində qurular.

Turq öz evi sandı deyən Duzdağı,
Yersiz deyil,-dedi-toyu, toylağı,
Dedi, toydur bizim ellər qaynağı,
Toy hər evin öz içində qurular.

Tanı gəldi, Turqız, Tuncər, Manayqız,
Dedilər ki, qız toyudur bu, yalnız,
Oğlan toyu çalınacaq sayqısız,
Toy hər evin öz içində qurular.

***

-Nənəm kəsi belə gözəl gəlinə,
Ev-ocağı gülləndirən gəlindir.
Üzərliyi bol-bol yandır, tüstülət,
Ev-ocağı gülləndirən gəlindir.

Saçlarını dara, bur-bur, yana tök,
Yanağını gülləndirsin qoy sürtük,
Başındaca qızıl-çəpkən ağ örtük,
Ev-ocağı gülləndirən gəlindir.

Çuqçubaşı qoşu* qoşdu gəlinə,
Al ipəkdən qurşaq atdı belinə,
–Bacım-deyib o əl çəkdi telinə,
Ev-ocağı gülləndirən gəlindir.

Turqız açdı bağlamanı tələsik,
Üzük, sırğa, boyunbağı, bilərzik,
İynəylə sap, qayçı, sancaq, daş üskük,
Ev-ocağı gülləndirən gəlindir.

Bel oynadıb qızlar çıxdı oyuna,
Duzdağ, Ağüz eli gəldi toyuna,
Sulu yeri saldı qoşu payına,
Ev-ocağı gülləndirən gəlindir.

***

Toy çalındı eldə üç gün, üç gecə,
Toy-düyünün gileylisi çox olur.
Manayyurddan, Dirieldən gəldilər,
Toy-düyünün gileylisi çox olur.

Sonra gəlin on gün üzə çıxmadı,
Turqdan suvay bir kimsəyə baxmadı,
Ənlik-kirşan, sürtmə-çəkmə yaxmadı,
Toy-düyünün gileylisi çox olur.

Yayıldıqca toyun səsi bölgəyə,
Giley gəldi uzaq-uzaq ölkədən,
Gileyliydi hər olaydan ad güdən,
Toy-düyünün gileylisi çox olur.

Cehiz

Turqız, Tanı üç gün sonra qayıtdı,
Toy olsa da bu onları ayıltdı,
Bu, Turqızı sarsıdaraq qocaltdı,
Toy-düyünün gileylisi çox olur.

Gərək quraq Manayqızın toyunu,
Uca tutaq onun ulu soyunu,
Həm oxşayaq Cumərin də boyunu,

Toy-düyünün gileylisi çox olur.

***

Manmən xaqan Uğurelə yetişdi,
Doğma olur birdən-birə acıqan.
Yüz atlıyla pay-puş, bağış, al ipək,
Doğma olur birdən-birə acıqan.

Görüşdülər, öpüşdülər, qaldılar,
Alçiçəyin ürəyini aldılar,
Qonaq deyil, onlar doğma oldular,
Doğma olur birdən-birə acıqan.

Manmən dedi:-Siz bir yerdə qarıyın,
Mindiyarı, Uğureli qoruyun,
Qonşuları, yaxınları arayın,
Doğma olur birdən-birə acıqan.

Vuruşqandır, döyüşkəndir Alçiçək,
Bu çiçəkdən çiçək alaq biz gərək,
Bir də sizi çoxuşaqlı biz görək,
Doğma olur birdən-birə acıqan.

Manmən dedi:-Qarayağı bol edək,
Aramızda yolu ipəkyol edək,
Sözü, sazı, mahnıları bal edək,
Doğma olur birdən-birə acıqan.

***

Yetkin yaşda ana oldu Alçiçək,
Gec-tez oğlan ata olur, qız ana.
Qoşa doğdu, Odərpayla Odərboy,
Gec-tez oğlan ata olur, qız ana.
Əl çəkmədi ana oxdan, tutaqdan,
Vuruşlarda o düşmədi ayaqdan,
Gözəl idi yenə üzdə-yanaqda,
Gec-tez oğlan ata olur, qız ana.

Yox, Odərpay çox da sağlam olmadı,
Odərboysa heç yerdə dinc qalmadı,
Öyüd-möyüd heç vecinə almadı,
Gec-tez oğlan ata olur, qız ana.

Üç yaşacan Alçiçəklə yatdı o,
Beş yaşına Əkbitəndə çatdı o,

Qılınclaşma öyrəncini tutdu o,
Gec-tez oğlan ata olur, qız ana.

Odərpaysa inanışdan yapışdı,
O, Sərtüzlə, Qarçiçəklə tapışdı,
Yaxşı yolla pisliklərlə çarpışdı,
Gec-tez oğlan ata olur, qız ana.

***

Odərpaya düşdü ellər, uluslar,
Hər igidə ad-san gərək, yer gərək,
Qardaşına yurdlar, boylar verildi,
Hər igidə ad-san gərək, yer gərək.

Manayyurdla Duzdağ, Ağüz, Subölən,
Qoşaboğaz, Qoşadəniz, Əkbitən,
Qatışıldı, bölüşüldü yenidən,
Hər igidə ad-san gərək, yer gərək.

Qobuyerin, Qoşaçayın yerinci,
Odərboyun oldu uşaq sevinci,
Düşdü dilə Odərboyyurd söyləncı,
Hər igidə ad-san gərək, yer gərək.

Turqa görə qardaşları öydülər,
Hər görəndə onlara baş əydilər,
Çörəkçilər dalda deyib söydülər,
Hər igidə ad-san gərək, yer gərək.

Bu nə demək, şahlar yenə yer bölür,
Döyüşlərdə yerli ölür, yer ölür,
Başev olub ölüyuyan, şah ölü,
Hər igidə ad-san gərək, yer gərək.

***

Turqa görə qardaşları öydülər,
Uşaq üçün öydür ata kölgəsi.
Dolaşdılar ulusları, boyları,
Uşaq üçün öydür ata kölgəsi.

Böyük Turqun basarlığı, varlığı,
Ata kökdür, həm ağacın qabığı,
Ata qoşa qardaşların qoruğu,
Uşaq üçün öydür ata kölgəsi.

Böyüdülər, bolluq, qulluq gördülər,
El-obaya göstəriş də verdilər.
Hərdən gedib döyüşlərə girdilər,
Uşaq üçün öydür ata kölgəsi.

Böyüdülər böyük Turqtay biçimdə,
Biri döyüş, biri ocaq içində,
İkisi də şimşək, qaplan gücündə,
Uşaq üçün öydür ata kölgəsi.

Biri ulus, biri ocaq söylədi,
Biri tanrı, biri yaraq söylədi,
Biri üztut, biri ovlaq söylədi,
Uşaq üçün öydür ata kölgəsi.

***

On beş yaşda o oturdu ocaqda,
Tanrılara yaxın olur ocaqlar.
Ocaq etdi Suböləni, Duzdağı,
Tanrılara yaxın olur ocaqlar.

Nə Turq dindi, nə Alçiçək, nə Turqız,
Yalqızların içindəcə o, yalqız,
O qalmadı bir an belə Tanrısız,
Tanrılara yaxın olur ocaqlar.
Tanrıçılar yığıldılar ocağa,
Üz qoydular Subölənə, Duzdağa,
Yer qalmadı yoldan ötən qonağa,
Tanrılara yaxın olur ocaqlar.

Ana daddı tək qalmağın dadını,
Dedi, geri götürərəm andımı,
Gərək Odər qoymayaydım adını,
Tanrılara yaxın olur ocaqlar.

Turq söylədi:-Tanrı belə buyurub,
Onu bizdən, bizi ondan ayırıb,
Qılınclaşma yurdu qanla doyurub,
Tanrılara yaxın olur ocaqlar.

***

Tanı gördü saxlanc boşdur, söylədi:
Yoxsuldan az, zəngindən çox vergi al.
O bu yeni bildirməni qolladı,
Yoxsuldan az, zəngindən çox vergi al.

Vergi yeni savaş qatdı Turelə,
Vergi olmaz, soyğu olmaz bir belə,
Dedilər ki, vergi qoyur hər gələn,
Yoxsuldan az, zəngindən çox vergi al.

Yapışdılar Manayqızdan, Cumərdən,
Bizdən vergi almayırdı şah dünən.
Dedilər ki, çürüyübdür kök, gödən,
Yoxsuldan az, zəngindən çox vergi al.

Arielli göz bərəltdi yenə də,
Qan-qadanı o diriltdi yenə də,
İlgiləri çox seyrəltdi yenə də,
Yoxsuldan az, zəngindən çox vergi al.

Orda-burda Darvidellə vuruşdu,
Kim gəldisə ondan vergi soruşdu,
Cumər gəldi bu işlərə qarışdı,
Yoxsuldan az, zəngindən çox vergi al.

***

Bu səs-küyə gəldi yenə çuqçular,
Acıqanı iki əllə boğginən.
Bıçaq gəlib lap sümüyə dayandı,
Acıqanı iki əllə boğginən.

Cumər dedi, Darvidelli qızışdı,
Bu el yaman baş aparır biz bilən,
Yeri gəlib, öc al sırtıq üzlüdən,
Acıqanı iki əllə boğginən.

Cumər dedi, Darvidelli qızışdı,
Ağsaqqallar susqun durub büzüşdü,
Yavaş-yavaş iki elat didişdi,
Acıqanı iki əllə boğginən.

Hindel yaman incimişdi Mineldən,
Didərgini artırmışdı bu il də,
O püfləyib od tapırdı hər küldə,
Acıqanı iki əllə boğginən.

Xruş gəldi, ağzı dolu söz ilə,
Özü kimi Parsa adlı qız ilə,
Niyə gəlib, onlar hansı üz ilə,

Acıqanı iki əllə boğginən.

***

Bir ay çəkdi, beş ay çəkdi didişmə,
Yatanda da yatmış bilmə qancılı.
Parsa yeni Məniş idi, gəlmişdi,
Yatanda da yatmış bilmə qancılı.

Parsa dedi:-Mən Cuməri sevirəm,
Bunun üçün Arieli devirrəm,
Mindiyarı alt-üst edib çevirrəm,
Yatanda da yatmış bilmə qancılı.

Xruş dedi:-Manayqıza vurğunam,
Mənim olsa son qoyaram qırğına,
Yoxsa bu yer dönəcək qan arxına,
Yatanda da yatmış bilmə qancılı.
Biz gəlmişik soybir olaq Minellə,
Qardaş olaq iki başla, bir əllə,
Qoy gül açsın bu əkinlər, bu çöllər,
Yatanda da yatmış bilmə qancılı.

Mən Xruşam, Parsa mənim bacımdır,
Üzü güzgü, saçı qırçın-qırçındır,
Atam, anam burda ölüb, qaçqındır,
Yatanda da yatmış bilmə qancılı.

***

Cumər dedi:-Bunlar bütün yalandır,
İş başına tez ucalar yalançı.
Biz onları tanımırıq hələ də,
İş başına tez ucalar yalançı.

Əkbitəndə toy qururuq biz bu il,
Parsa, Xruş nə deyirsə düz deyil,
Öz tayını get tap, dəli, sev, sevil,
İş başına tez ucalar yalançı.

Mehcə, Məniş, Qızbal bizi aldatdı,
Qaraş, Qammad günümüzü qaraltdı,
Onlar bizə çox işləri anlatdı,
İş başına tez ucalar yalançı.

Turqız burda ad-san qoydu, iş qoydu,
Unutmuşdu çoxu burda nə soydu,

Qarın doydu, göz nə güldü, nə doydu,
İş başına tez ucalar yalançı.

İndən belə Xruş bizə acıqan,
Biz qılıncı sıyırırıq qınından,
Qoy Ariel üzsün qızıl qanında,
İş başına tez ucalar yalançı.

***

Xruş dolu, yöndəmsizdi, ortaboy,
Hamı üzdən, boy-buxundan seçilir,
Belənçilər işcil olur, vur, yıx, al,
Hamı üzdən, boy-buxundan seçilir.
Bacısı da gözəl, ancaq pısmırıq,
Duz var idi üz-gözündə bir qırıq,
Gözlər iri, dişlər iri, üz donuq,
Hamı üzdən, boy-buxundan seçilir.

Darvidelli başsız idi, dağınıq,
İstəkləri sönük idi, qaranlıq,
Gələcəyi düşünmürdü bir anlıq,
Hamı üzdən, boy-buxundan seçilir.

Gümüşqızdan sonra susub durmuşdu,
Karş onların ürəyini qırmışdı,
Qan-qadalar Darvideli yormuşdu,
Hamı üzdən, boy-buxundan seçilir.

Bunu Xruş, Parsa tez-tez duyurdu,
Orda-burda yalan-palan yayırdı,
Çoxları da bu yalana uyurdu,
Hamı üzdən, boy-buxundan seçilir.

***

İlk vuruşda yolevləri* tutdular,
Ev-eşiyin damarıdır yolevlər.
Turel böyük yerincevdi, kənd, elat,
Ev-eşiyin damarıdır yolevlər.

İlk vuruşlar burda belə başladı,
Darvidelli qapıları daşladı,
Arielə oxu, yayı tuşladı,
Ev-eşiyi damarıdır yolevlər.

Arielsə manqalara bölündü,

Parsa, Xruş at üstündə göründü,
Darvidelə oxla bizuc ələndi,
Ev-eşiyin damarıdır yolevlər.

Çuqçular da döyüşlərə girdilər,
Çox qancılı vurub yerə sərdilər,
Arielə qanlı öyrənc verdilər,
Ev-eşiyin damarıdır yolevlər.

***Bazar**

Arielli axşam geri çəkildi,
Evlərinin qapıları söküldü,
Bu döyüşdə çox-çox qanlar tögüldü,
Ev-eşiyin damarıdır yolevlər.

Dörd şah vuruşu söyləncі

Əlbir oldu Balasqşahla Asurşah,
Dəli olsan yel verənin çox olar.
Satallarda ipək, göydaş, qarayağ,
Dəli olsan yel verənin çox olar.

Dedilər ki, yol açırıq Çinçaya,
Bu bildirmə bəlli olsun Turqtaya,
Biz baxmarıq satallarda soy-saya,
Dəli olsan yel verənin çox olar.

Biz Tureli Körfəz yandan tutarıq,
Gəmiləri dənizlərə atarıq,
Su yoluyla Çinçay elə çatarıq,
Dəli olsan yel verənin çox olar.

Tanı, Turqtay gərək bizə yol verə,
Qısmır adam yeri, göyü dar görər,
Biz qurudan yol istərik o yerə,
Dəli olsan yel verənin çox olar.

Bizə ipək pambıq, göydaş, qarayağ,
Yol istərik satallara yol alaq,
Döyüşməkçin bizdə satdıq yal-yaraq,
Dəli olsan yel verənin çox olar.

***

İki atlı yüksək adla gəldilər,
Özgədirsə qayğı vardır qonağa.
Qarşıladı gələnləri Tanı şah,
Özgədirsə qayğı vardır qonağa.

Tanı dedi:-Uzaq düşər yolunuz,
Hər şey vardır satallarda, alınız,
Satalyanı evlərimiz, qalınız,
Özgədirsə qayğı vardır qonağa.

Bir söz dedi, birgə dindi qonaqlar,
-Bizim üçün maraqlıdır uzaqlar,
Biz ipəyi almalıyıq yaraqla,
Özgədirsə qayğı vardır qonağa.

On ildir ki, döyüş-vuruş olmayıb,
Saxlanclarda qızıl-gümüş qalmayıb,
Saxlanc ək-biç, mal-qarayla dolmayır,
Özgədirsə qayğı vardır qonağa.

Quru yolla bizə quru yol verin,
Yaraq ilə biz dolduraq hər yeri,
Satallarda kölə satmaq gəliri,
Özgədirsə qayğı vardır qonağa.

***

Balasq, Asur gözləmədi Tanını,
Gözləyəndə boğur səni sorğular.
Basıb keçdi Qoşaçayı, Körfəzi,
Gözləyəndə boğur səni sorğular.

İki yüz min toplum, dəmir qoşqular,
Qoşqu üstdə ox səyirdən qurqular.
Əyinlərdə tunc-dəmirdən toxular,
Gözləyəndə boğur səni sorğular.

Dəbilqələr parıldayır sırayla,
Minbaşılar atlı keçir arayla,
Başraqları al qarışıq qarayla,
Gözləyəndə boğur səni sorğular.

Elə bil ki, burulğandır, qasırğa,
Yerdən qalxır qum qarışıq sovurğa*,
Hardan keçir, kəndlər dönür tutuğa,

Gözləyəndə boğur səni sorğular.

Toz

Zaqrasdağı, Ərvəndçayı ötürlər,
Turel içrə basar kimi gedirlər,
Ye-iç, tut, soy, bas, kəs içrə itirlər,
Gözləyəndə boğur səni sorğular.

***

Xruş, Parsa çıxıb dedi:-Buyurun!
Gələn yerli öz yerinə buyurar.
Nə o, yerli, nə bu yerli burada,
Gələn yerli öz yerinə buyurar.

-On min ildir Turel sizi gözləyir,
Arielli sizə sevgi bəsləyir,
Vuruşaraq Mindiyarı pisləyir,
Gələn yerli öz yerinə buyurar.

Vergi deyib şahlar bizi soyurlar,
Qan düşəndə qanı qanla yuyurlar,
Ağız əyib gözlərini qıyırlar,
Gələn yerli öz yerinə buyurar.

Mən Xruşam, bu da mənim bacımdır,
Sıxıntıdan ürəyimiz haçadır,
Toplumumuz yoxdur, çoxu qocadır,
Gələn yerli öz yerinə buyurar.

Bizi bura Hindel-Armas göndərib,
Döyüş-vuruş yollarını göstərib,
Günümüzü üzüntüyə döndərib,
Gələn yerli öz yerinə buyurar.

***

Birdən göylər dumanlandı uzaqda,
Gedən gərək sağollaşa gələnlə.
Üç min atlı sıyırılmış qılıncla,
Gedən gərək sağollaşa gələnlə.

Cumər idi, üç min çuqçu yürüşdə,
Şahlar durub udqundular bu işdən,
Çəkindilər gözlənilməz döyüşdən,
Gedən gərək sağollaşa gələnlə.
Cumər dedi:-Bura Turel yurdudur,

Mənim adım bu ölkənin adıdır,
Bu nə köçdür, bu nə ölkə yardıdır,
Gedən gərək sağollaşa gələnlə.

-Biz Çinçaya yollanırıq birbaşa,
İstəsəniz girişərik savaşa,
Üç min neynər üç yüz minlik qurddaşa,
Gedən gərək sağollaşa gələnlə.

Cumər dedi:-Yiyəsi var yolun da,
Keçsəniz də bu dağların dalından,
Öpməlisiz Ağatımın yalından,
Gedən gərək sağollaşa gələnlə.

***

Bu söz yaman dəydi böyük şahlara,
Söz də oxdur, tuşlancı var onun da.
Yal-yarağın öz yeri, öz vurumu,
Söz də oxdur, tuşlancı var onun da.

Şahlar qalxıb çuqçulara baxdılar,
Acıqlanıb özlərindən çıxdılar,
Onlar yüz yol Cumərgildən çoxdular,
Söz də oxdur, tuşlancı var onun da.

Asurşahda qara gözlər bərəldi,
Balasqşahın üzü, köksü gərildi,
Qılınc çəkib şahlar çıxdı irəli,
Söz də oxdur, tuşlancı var onun da.

Cumər dedi:-Öncə bir-bir vuruşaq,
Kəllər kimi buynuzlaşaq baş-başa,
Bu vuruşa qoymam kimsə qarışa,
Söz də oxdur, tuşlancı var onun da.

Balasqel şah birdən çıxdı qılıncla,
Cumər onu vurdu öncə bizucla,
Sonra cumub qılınclaşdı bu qoçla,
Söz də oxdur, tuşlancı var onun da.

***

Balasqel şah yaralıydı böyürdən,
Yaralandın, yarı gücün itəcək.
Hər qılıncı üzləşirdi qılıncla,
Yaralandın, yarı gücün itəcək.

Çuqçubaşı Asurşaha dirəndi,
Qoşa qılınc ildırım tək göründü,
İkisi də qızıl qana bələndi,
Yaralandın, yarı gücün itəcək.

Bir qız səsi eşidildi arxadan,
Bu səs sanki yoğrulmuşdu yuxadan,
Qız toplumu «hoy, hoy!» deyib çapmada,
Yaralandın, yarı gücün itəcək.

Dəbilqəli yaraqlılar çaşdılar,
Oxlandılar, atdan bir-bir aşdılar,
Sonra birdən kükrəyərək daşdılar,
Yaralandın, yarı gücün itəcək.

Çoxu çaşıb matdım-matdım baxırdı,
Oxla bizuc dörd bir yandan yağırdı,
Yavaş-yavaş qorxu-ürkü doğurdu,
Yaralandın, yarı gücün itəcək.

***

Asurşah da yaralandı boynundan,
Yara almaq öyünc olub döyüşdə.
Çuqçubaşı valayladı, dayandı,
Yara almaq öyünc olub döyüşdə.

Vuruşanda dəbilqəli atlılar,
Atsızları dallarınca dartdılar,
Qarışqa tək qaynaşdılar, artdılar,
Yara almaq öyünc olub döyüşdə.

Üç min çuqçu irəliyə yeridi,
Atsızların sırasında əridi,
Acıqanı vurub yerlə sürüdü,
Yara almaq öyünc olub döyüşdə.
Vuruşurdu ağır-ağır çuqçular,
Birə qarşı on atlı var, atsız var,
Belə döyüş görməmişdi Mindiyar,
Yara almaq öyünc olub döyüşdə.

Qız toplumu lapdan vurub ötürdü,
Çəkilərək birdən gözdən itirdi,
Gəlib bir də ortalıqda bitirdi,
Yara almaq öyünc olub döyüşdə.

***

Göz-baş dələn quşlar göydə göründü,
Qıy qartallar göydə oxa gəlməyir.
Buludlandı göylər, birdən qaraldı,
Qıy qartallar göydə oxa gəlməyir.

Əyri dimdik, şəpə qanad, qurd caynaq,
Vurub yıxdı, gözlər dəldi cağbacağ,
Qurd caynaqlar boğaz sıxdı boğaraq,
Qıy qartallar göydə oxa gəlməyir.

Basılırdı yavaş-yavaş çuqçular,
Qılınc ilə sıraları yararaq,
Qartalları səsləyirdi nə ki var,
Qıy qartallar göydə oxa gəlməyir.

Balasq toplum, Asur toplum qırırdı,
Qartalları, çuqçuları vururdu,
Qızların da qabağında dururdu,
Qıy qartallar göydə oxa gəlməyir.

Yaralılar zarıyaraq ölürdü,
Dörd bir yanı qan qoxusu alırdı,
Bu bolluğa quzğunlar da gəlirdi,
Qıy qartallar göydə oxa gəlməyir.

***

Vuruşurdu Cumər ilə Balasqşah,
Son gücü də Tanrı verir üstünə.
Didişirdi, boğuşurdu hələ də,
Son gücü də Tanrı verir üstünə.
Çuqçubaşı təklənmişdi, yardımsız,
Qanlı qılınc sallanmışdı vurumsuz,
Çatdı ona şimşək kimi Manayqız,
Son gücü də Tanrı verir üstünə.

Dedi:-Torpaq qamarlayan Asurşah,
Qoçlar gəlib burda deyən baş-başa,
Sənə indi qızla vuruş yaraşar,
Son gücü də Tanrı verir üstünə.

İpi atdı, dedi:-Atdan düşginən,
İpləyərəm, şəlitlərəm səni mən,
Qopardaram səni öz şah yerindən,

Son gücü də Tanrı verir üstünə.

Çəkdi şahı, vurdu yerə bir anda,
Şah qoparkən öz bəzəkli atından,
Dedi:-Tanrı, qoru məni qadından,
Son gücü də Tanrı verir üstünə.

***

Cumər qalxdı Ağatına yenidən,
Yaralının acığı çox, gücü az.
Sürütdədi şahı, çapdı Manayqız,
Yaralının acığı çox, gücü az.

Xruş çıxdı onun ilə üz-üzə:
-Mindiyarın gücü çatar tək bizə,
İndi gərək yardım edək biz sizə,
Yaralının acığı çox, gücü az.

Bunu deyib Xruş cumdu Cumərə,
Dedi:-Qanın qoy fışqırsın göylərə,
Öz yurduna yiyə dursun qoy hərə,
Yaralının acığı çox, gücü az.

Göydə aldı Cumər enən qılıncı,
Dedi:-Mənəm burda yenə birinci,
Dedi, mənəm öz yerimin yerinci,
Yaralının acığı çox, gücü az.

Xruş vurdu, bir də vurdu, yoruldu,
Tutuq batdı, neçə yerdən yarıldı,
Cumərinsə çiyni, qolu qırıldı,
Yaralının acığı çox, gücü az.

***

Dedi:-Səndən alacağam Tureli,
Kim hardasa, ora onun yurdudur.
Biz birləşib Darvideli qırırıq,
Kim hardasa, ora onun yurdudur.

Darvidelli Turel yurddan silinər,
Arielin torpaqları bəllənər,
Cumər kimdir, Xruş kimdir, bilinər,
Kim hardasa, ora onun yurdudur.

Cumər dedi:-Gedib kimə qoşuldun,

Yoldan çıxdın, yəhərini aşırdın,
Keçən il də sən bu sayaq çaşırdın,
Kim hardasa, ora onun yurdudur.

Xruş vurdu, Cumər atdan tullandı,
Ancaq qıçı üzənkidən sallandı,
O, Ağatın qulağına boylandı,
Kim hardasa, ora onun yurdudur.

Dedi:-Atım, məni burdan uçur sən,
Bu dönüyün qabağından qaçır sən,
Su tap bir az, suyu mənə içir sən,
Kim hardasa, ora onun yurdudur.

At sıçrayıb çıxdı qanın içindən,
Adam suda, ölkə qanda boğular,
Sağrısına bir ox dəydi çapanda,
Adam suda, ölkə qanda boğular.

Qucaqladı Cumər atın boynunu,
At kişnədi, fınxırdatdı burnunu,
Dağlar açdı bulud ata qoynunu,
Adam suda, ölkə qanda boğular.

Xruş dedi:-Get, yer mənə qalacaq,
Bil ki, Turel Arielin olacaq,
Qaçqın mənəm, sən qaçırsan, a sarsaq,
Adam suda, ölkə qanda boğular.

Çuqçubaşı yaralıydı beş yerdən,
Uzanmışdı, qorxmayırdı ölümdən,
Bundan artıq nə gələrdi əlindən,
Adam suda, ölkə qanda boğular.

Manayqızsa axtarırdı Cuməri,
Yaralılar bürümüşdü hər yeri,
Xruş çıxdı, dedi:-Öldü, qız, ərin,
Adam suda, ölkə qanda boğular.

***

Dedi:-Səni istəyirəm, Manayqız,
Hamı sevgi qabağında kiçikdir.
Bu sevgimi dəyişmərəm Turelə,
Hamı sevgi qabağında kiçikdir.

Biz ikimiz yerinc olluq buraya,
Bu vuruşlar qalar çox-çox sonraya,
Qan yerinə körpü olluq araya,
Hamı sevgi qabağında kiçikdir.

Manayqızın könlü yandı, göynədi,
O ayqırdı, baxışları qaynadı.
At altında şahə qalxdı, oynadı,
Hamı sevgi qabağında kiçikdir.

Dedi:-Sən də öz yerini bilərsən,
İt, dalımca sümsün-sümsün gələrsən,
Bu döyüşdə dönük kimi ölərsən,
Hamı sevgi qabağında kiçikdir.

Lapdan dəyən qılınc beş qat ağırdır,
Xruş bunu gözləmirdi, bağırdı,
Acıq onu, qorxu bunu boğurdu,
Hamı sevgi qabağında kiçikdir.

***

Qız oğlanla qılınclaşdı, boğuşdu,
Ölüm yandan vuruşlara göz qoyur,
Vurum ağır, qılınc iti, söz odlu,
Ölüm yandan vuruşlara göz qoyur.

-Alçaq, sənin heç bir yerdə yerin yox,
-Sənin, gözəl, Cumər adlı ərin yox,
Qırılıbdır çuqçuların, dirin yox,
Ölüm yandan vuruşlara göz qoyur.

-Al, bu qılınc!
-Al, bu toppuz,
-Öyünmə!
-Öləcəksən, sonun çatıb, deyinmə!
-Gör kim kimi bu sevgidə bəyənməz?
Ölüm yandan vuruşlara göz qoyur.

İkisi də yaralandı, töküldü,
Paltar, yaraq, üz-göz, əl-qol söküldü,
İkisi də düşdü, yana çəkildi,
Ölüm yandan vuruşlara göz qoyur.

Onlar durub bir-birinə ox atdı,
Qan axdıqca üz-gözləri qızartdı,
Günəş batdı, yeri-göyü qaraltdı,

Ölüm yandan vuruşlara göz qoyur.

***

Tanışahın səsləncləri gurladı,
Səsləns səslər toplumları döyüşə.
Yüz min toplum birdən durdu sıraya,
Səsləns səslər toplumları döyüşə.

Tuncər, Günay, Tanı, Turqız qabaqda,
Qoşqu üstdə, iti-iti yaraqda,
Bir inilti eşidildi qıraqdan,
Səsləns səslər toplumları döyüşə.

Axtardılar, Cumər idi, yaralı,
Yaraları qurum basıb qaralıb,
Ağat durub ondan bir az aralı,
Səsləns səslər toplumları döyüşə.

Cumər dedi:-Turel əldən gedəcək,
Belə olsa ad-sanımız itəcək,
Tək vergi yox, hər şeyimiz bitəcək,
Səsləns səslər toplumları döyüşə.

Mən gedirdim Turqa bunu yetirim,
Bir də ondan toplum, yaraq götürüm,
Bu döyüşə Turqtayı da gətirim,
Səsləns səslər toplumları döyüşə.

***

Tanı dedi:-Sən qal, sağal burada,
Yaralıya vermə ağır tapşırıq.
Göyərçin var, Turqa yazı çatdırar,
Yaralıya vermə ağır tapşırıq.

Uçub getdi Uğurelə göyərçin,
Dağlar üstdən keçib gedən yol çətin,
Göyərçinin qanadları sərt, iti,
Yaralıya vermə ağır tapşırıq.

Yaralını Əkbitənə qoydular,
Vuruşlarda onu qıraq saydılar,
Ağlamsınıb gözlərini qıydılar,
Yaralıya vermə ağır tapşırıq.

Tuncər durub dik üstündə uladı,

Qurdlar gəldi, quyruğunu buladı,
Ulayanın qol-qıçını yaladı,
Yaralıya vermə ağır tapşırıq.

Tuncər dedi qurd dilində onlara,
Biz haraya, siz də birgə oraya,
Qurd pis gündə qurd soyuna yarayar,
Yaralıya vermə ağır tapşırıq.

***

Bir göyərçin qondu Turqun çiyninə,
Atlar, itlər, göyərçinlər dil qanır.
Sağ qıçında yazı vardı, bükülü,
Atlar, itlər, göyərçinlər dil qanır.

Turqa yazı göndərmişdi atası,
«-Ey yenilməz Mindiyarın artası,
Uğurelin döşü qarlı qayası,
Atlar, itlər, göyərçinlər dil qanır.

Hindel yandan Turelə gəl durmadan,
Toplumları gizli gətir, yormadan,
Ondan-bundan yolu-yalı sormadan,
Atlar, itlər, göyərçinlər dil qanır.

Asur, Balasq toplumları yürüşdə,
Çıxıb Cumər, Çuqçubaşı döyüşdən,
Gözlənilmir bu gedişdə dönüş də,
Atlar, itlər, göyərçinlər dil qanır.

Biz gedirik hamılıqla vuruşa,
Oğlum, tez gəl, vuruşlarda tapışaq,
Bir toppuzdan, bir qılıncdan yapışaq,
Atlar, itlər, göyərçinlər dil qanır.

***

Bunu bilib Parsa getdi Hindelə,
Bərk ayaqda hamı səslər doğmanı,
Dedi:-Tanı basqın edir Turelə,
Bərk ayaqda hamı səslər doğmanı.

Balasqşah da, Asurşah da ordadır,
İndi yazıq arielli dardadır,
Bizə yardım əli ancaq burdadır,

Bərk ayaqda hamı səslər doğmanı.

Armas dedi:-Bu, araya öc salar,
Bu yürüşü Turqtay bilsə, nə olar?
Qırılarıq, bizdən bircə şah qalar,
Bərk ayaqda hamı səslər doğmanı.
Parsa dedi:-Böyük ərən, çıx yola,
Kim ölsə də Armas, Parsa sağ qalar.
Turqtayları yaxmağa da var yalan,
Bərk ayaqda hamı səslər doğmanı.

Armas dedi:-Ayıq qızsan, görürəm,
Mən bu işə sənə görə girirəm,
Yavaş-yavaş sənə könül verirəm,
Bərk ayaqda hamı səslər doğmanı.

***

Bəzəkçilər bəzədilər Parsanı,
Gözəlliyi bəzək üzə çıxarır.
Gözə girdi qaş-göz, döş-baş, dil-dodaq,
Gözəlliyi bəzək üzə çıxarır.

Parsa dedi:-Böyük Armas biləndir,
Qız könlünü Parsa onla böləndir,
«Armas» deyib şah yolunda öləndir,
Gözəlliyi bəzək üzə çıxarır.

Armas dedi:-Gərək dalı bərkidəm,
Hay-küy ilə Çinellini ürküdəm,
Yola çıxam, öz yurdumu tərgidəm,
Gözəlliyi bəzək üzə çıxarır.

Parsa dedi:-Hindellidir Turel də,
Danışırıq, anlaşırıq bir dildə,
Gül adlanır qızılgül də, ağ güldə,
Gözəlliyi bəzək üzə çıxarır.

Armas dedi:-Çəkimlisən, gözəlim,
Sən bilirsən öz yerini hər gülün,
Hələ sənə dəyməmişdir şah əlim,
Gözəlliyi bəzək üzə çıxarır.

***

Yüz min toplum yola düşdü Turelə,
Toplumun da vardır gedər-gəlməzi.

Fil üstündə yırğalandı ipəkev,*
Toplumun da vardır gedər-gəlməzi.

Kəcavə

Armas, Parsa ipəkevdə yellənir,
Öpüşlərdən əllər, üzlər güllənir,
Bəzək içrə gözəl Parsa dillənir,
Toplumun da vardır gedər-gəlməzi.

-Sevən belə öpüşlərdən doyarmı,
Böyük Armas məni qız tək duyarmı,
O, Turelə məni yerinc qoyarmı,
Toplumun da vardır gedər-gəlməzi.

-Yox, Turelə yerinc deyil, şah gərək,
Biz Tanıyla gərək eli düz bölək,
Qasırğaya dönə bilmir hər külək,
Toplumun da vardır gedər-gəlməzi.

Mən, gözəlim, səni bərk-bərk qucuram,
Təkcə sənə ürəyimi açıram,
Mən Armasam, təkcə Turqdan qaçıram,
Toplumun da vardır gedər-gəlməzi.

***

Tanı çıxdı Balasqşahın önünə,
Böyük şahlar vuruşurlar şah kimi,
Yol yorğunu, çöl yorğunu üz-üzə,
Böyük şahlar vuruşurlar şah kimi.

Yırğalanır ipək çullar, qotazlar,
Yəhər altda zər saçaqlı palazlar,
Hörük-hörük yal içində almazlar,
Böyük şahlar vuruşurlar şah kimi.

Tunc döşlüklər, dəbilqələr, dizliklər,
Tunc alınlıq, burunluqlar, üzlüklər,
Tunc, arxalıq,–mərci-mərci dəliklər,
Böyük şahlar vuruşurlar şah kimi.

-Bu sənsənmiş, təpilibsən ölkəyə,
Toplumları çeviribsən düzgüyə,
Qan uddurub qusdurursan özgəyə,
Böyük şahlar vuruşurlar şah kimi.

-Mənəm, Tanı, yolum üstə dursan,
Çox boş yerə sən özünü yorursan,
Gəlib məndən boş-boş sözlər sorursan,
Böyük şahlar vuruşurlar şah kimi.

***

Çoxdan sənlə bir şah kimi tanışam,
Düşüncənin açarıdır tanışlıq.
Sən qaniçən, otlaqtutan, yolkəsən,
Düşüncənin açarıdır tanışlıq.

Durma, Tanı, yüz min qılınc sıyrılıb,
Burda sənin Darvidelin qırılıb,
Arielin deyinməkdən yorulub,
Düşüncənin açarıdır tanışlıq.

Biz gəlmişik Mindiyardan yol tapaq,
Uzaq-uzaq satallarda at çapaq,
Sən nə durub sözləşirsən, ay alçaq,
Düşüncənin açarıdır tanışlıq.

-Dön, yolunu geri qayıt, vuruşma,
Bu ölkənin iç işinə qarışma,
Tanı sənlə acıqandır, barışmaz,
Düşüncənin açarıdır tanışlıq.

Al, bu qılınc, dad sən onun dadını,
Səndən sonra «Tanı» qoyub adını.
Satallarda satacağam atını,
Düşüncənin açarıdır tanışlıq.

***

Qılınclaşma, kələzdənmə, söyüşmə,
Döyüşəndə söyüş vermə, deyinmə.
Bir o vurdu, bir də vurdu, söyüşdü,
Döyüşəndə söyüş vermə, deyinmə.

Ağızlaşdı qılıncları, yalaşdı,
Atlar qalxdı, dırnaqlaşdı, dolaşdı,
Qan sıçradı, yanlar qana bulaşdı,
Döyüşəndə söyüş vermə, deyinmə.
Balasqşahın yaraları göynədi,
Tanı dedi:-Al toppuzu, gör, nədir,
Diş qıcıtdı, dodağını çeynədi,
Döyüşəndə söyüş vermə, deyinmə.

Dəbilqəli biri çıxdı qabağa,
Dedi:-Şahım, siz çəkilin qırağa,
Mən Tanını əzim, salım torpağa,
Döyüşəndə söyüş vermə, deyinmə.

Tanı dedi:-Adın nədir, dombalan,
Sən çaqqalsan, Balasqşahsa boz qaplan,
Su üstündə başsız gəzən boş saman,
Döyüşəndə söyüş vermə, deyinmə.

***

-Mənim adım Farantodur, rumluyam,
Ərin adı qılıncında yazılar.
Qırx il qabaq mən Tuncərlə vuruşdum,
Ərin adı qılıncında yazılar.

Bura Turel, ora Manayyurd idi,
Biz boz qaplan, Tuncay isə qurd idi.
Vuran əli on beş, gözü dörd idi,
Ərin adı qılıncında yazılar.

-Mən yıxılsam, Tuncər çıxar qabağa,
Deyişənlər əl atdılar yarağa,
Dəbilqəli aşdı-düşdü torpağa,
Ərin adı qılıncında yazılar.

Dəbilqəli qılınc vura bilmədi,
Çox dartındı, çox silkindi, ölmədi,
Əl atdısa, qılınc ələ gəlmədi,
Ərin adı qılıncında yazılar.

Tanı dedi:-Qalx ayağa, çıx önə,
Gücün varsa dur döyüşə sən yenə,
Ya yaralı bir tutuq ol sən mənə,
Ərin adı qılıncında yazılar.

***

Gəldi yenə irəliyə Balasqşah,
Çox key olur inancını itirən.
İnancını itirmişdi bu şah da,
Çox key olur inancını itirən.

Dedi:-Tutuq düşüb bizə Manayqız,
Asurşahı verin, onu alınız,

Sizdə böyük döyüşkəndir o, yalnız,
Çox key olur inancını itirən.

Asurşahı gətirdilər, verdilər,
Manayqızı yapyaralı gördülər,
Qoşqusunu Əkbitənə sürdülər,
Çox key olur inancını itirən.

Asurşahsa çıxdı lapdan döyüşə,
İki ayda adam yaman dəyişər.
O, Tanıyla birdən gəldi döş-döşə,
Çox key olur inancını itirən.

İti bizuc dirənmişdi uc-uca,
Dəli atlar aralıydı bir azca,
Asurşahın budu keçdi bizuca,
Çox key olur inancını itirən.

***

Dirək boyda bir ər çıxdı ortaya,
Dirək olmaq döyüşçüyə yaraşmaz,
Tuncər dedi:-Çəkil yana, Tanı şah,
Dirək olmaq döyüşçüyə yaraşmaz.

Qoşatiyə qılınc çıxdı qınından,
O şütüdü onun boynu yanında,
Sağ qol düşdü, ər boyandı qanına,
Dirək olmaq döyüşçüyə yaraşmaz.

Bir də vurdu, Tuncər onu aşırdı,
Neçəsini belə atdan düşürtdü,
Bir də, bir də, başkəsəni şaşırtdı,
Dirək olmaq döyüşçüyə yaraşmaz.
Dalğalandı dəbilqəli şaşqınlar,
Özgə yeri qamarlayan azğınlar,
«Əltut» dedi arielli qaçqınlar,
Dirək olmaq döyüşçüyə yaraşmaz.

Dəbilqəli ərlər döndü dənizə,
Mindiyarın toplumuyla üz-üzə,
Qan töküldü, axıb çıxdı qan dizə,
Dirək olmaq döyüşçüyə yaraşmaz.

***

Üç yüz minlə yüz min girdi döyüşə,

Bir-birinə göz ağardıb sayla güc.
Arielli acıqana qoşuldu,
Bir-birinə göz ağardıb sayla güc.

Tuncər dedi:-Bizim toplum basılmaz
Hər çoxluğun qabağında sarsılmaz,
Ariel tək ona-buna qısılmaz,
Bir-birinə göz ağardıb sayla güc.

Tanı, Tuncər, Çuqçubaşı, Manayqız,
Sən boylusan, Günay, çəkil, get, ay qız,
Yaralılar yıxıq, saysız, yardımsız,
Bir-birinə göz ağardıb sayla güc.

Qurd sürüsü buraxılır irəli,
Bunu görən gözlər qorxur, bərəlir,
Döyüş-vuruş səngiməyir, gərilir,
Bir-birinə göz ağardıb sayla güc.

Didir qurdlar qabaqdakı «qoçları»,
Gəmirtdəyir dəbilqəli başları,
Kişləyirlər əyridimdik quşları,
Bir-birinə göz ağardıb sayla güc.

***

Balasqşahı qamarladı iki qurd,
Qurd ağzına keçən çətin qurtarar.
Şah gəlmişdi, yerə dəyib leş oldu,
Qurd ağzına keçən çətin qurtarar.
Göz dəlindi, suyu yerə töküldü,
Çox qarınlar, çox böyürlər söküldü,
Bunu görüb çoxu geri çəkildi,
Qurd ağzına keçən çətin qurtarar.

Vay o gündən qurdlar köçə daraşa,
Onda daha yer qalmayır savaşa,
Tuncər yardı yurdu, keçdi o başa,
Qurd ağzına keçən çətin qurtarar.

Qurdlardan da yaralanan çox idi,
Çox çoxları qan içində sağ idi,
Acıqana görünməmiş dağ idi,
Qurd ağzına keçən çətin qurtarar.

Qıy qartallar şığıyaraq keçirdi,

Onlar adam gözündən qan içirdi,
Qanadıyla başraqları biçirdi,
Qurd ağzına keçən çətin qurtarar.

***

Axşam düşdü, quş qayıtdı, qurd qaldı,
Gecə olcaq qurd ikiqat güclənir.
Gah arxadan, gah qabaqdan, gah yandan,
Gecə olcaq qurd ikiqat güclənir.

Kim qaçdısa, qurd üstünə atıldı,
Hər bir yanda gur ocaqlar çatıldı,
Qurdun gözü od aldısa tutuldu,
Gecə olcaq qurd ikiqat güclənir.

Tuncər gəldi, ac qurdları səslədi,
Kolluq içrə durub yer-yer gözlədi,
Sürü döndü, o, Tuncəri izlədi,
Gecə olcaq qurd ikiqat güclənir.

Qurd dilində Tuncər nəsə danışdı,
İtkin qurdlar bir-birilə tapışdı,
Yavaları, quduzları qapışdı,
Gecə olcaq qurd ikiqat güclənir.

-Ana qurdum, süd qardaşım, toxdaq ol,
Ağır gündə soydaşına ayaq ol,
Acıqana qarşı qanlı yaraq ol,
Gecə olcaq qurd ikiqat güclənir.

***

Turq çatanda Əkbitənə, dedilər,
-Hara getsə öz yeri var böyüyün,
Üç şah ilə üz-üzədir Tanı şah,
Hara getsə öz yeri var böyüyün.

Cumər dedi:-Yaxşı gəldin, bax belə,
Armas gəlib Arielə yel verə,
Məni apar, qoy vuruşum mən hələ,
Hara getsə öz yeri var böyüyün.

Turq söylədi:-Sən Başevdə qalginən,
Buraları göz altına alginən,
Məni gözlə, qayıdıram on günə,
Hara getsə öz yeri var böyüyün.

Bunu deyib Şimşəkata «hoy» dedi,
-Məni atam olan yerə qoy, – dedi,
Göyə qalın sovuraqlar yay, – dedi,
Hara getsə öz yeri var böyüyün.

Tanı gördü batı yanda sovuraq,
Uğurelin toplumları çaparaq,
Şimşəkatdan, Turqdan verir səs-soraq,
Hara getsə öz yeri var böyüyün.

***

Şimşəkatın kişnərtisi ucaldı,
Hər kişnərti bir dayaqdır ürəyə.
Döyüşənlər dönüb baxdı batıya,
Hər kişnərti bir dayaqdır ürəyə.

Turq atını vuruşlara səyirtdi,
Qabağına kim çıxdısa bəyirtdi,
Ərənləri nəriltiylə göyərtdi,
Hər kişnərti bir dayaqdır ürəyə.

Dedi böyük Mindiyarın adı var!
Qılıncımın şimşəyi var, odu var,
Mən Turqtayam, şimşək çaxan atım var,
Hər kişnərti bir dayaqdır ürəyə.
Hanı Armas, çıxsın, gəlsin ortaya,
Tunc toppuzum şax belini qatdaya,
Qılınc çəkən kimdir Tanı ataya,
Hər kişnərti bir dayaqdır ürəyə.

Armas çıxdı qorxa-qorxa qabağa,
O əl atdı parıltılı yarağa,
Bir toppuzla Armas düşdü torpağa,
Hər kişnərti bir dayaqdır ürəyə.

Xruş-Parsa söyləncі

Parsa gəlib durdu Turqun önündə,
Yer var, orda gözəllik də yaraqdır.
Dedi:-Sənə baş əyirəm, böyük Turq,
Yer var, orda gözəllik də yaraqdır.

Sən tanrısan bu görkəmdə, duruşda,

Darvidelli qırılıbdır vuruşda,
Yaralıdır süd qardaşım Xruş da,
Yer var, orda gözəllik də yaraqdır.

Sən tanrısan, döyüşlərin tanrısı,
Deyim sənə hər bir şeyin doğrusun,
Arielin üç min illik ağrısın,
Yer var, orda gözəllik də yaraqdır.

Üç min ildir biz buraya köçəli,
Mindiyarı elə elat seçəli,
Qırılmışıq qan-qadadan keçəli,
Yer var, orda gözəllik də yaraqdır.

Üç min ildir Mindiyara gəlmişik,
Özgəliyi göz yaşı tək silmişik,
Vergilərin çoxluğunda ölmüşük,
Yer var, orda gözəllik də yaraqdır.

***

Mehcə, Qaraş, Məniş, Qammad qırılıb,
Hər bir elin yeri, adı qoy olsun,
Üç min ildir yerin, adın tutuğu,
Hər bir elin yeri, adı qoy olsun.
Böyük Turqtay, yalvarıram sənə mən,
Ərlik göstər, tut Parsanın əlindən,
Yalvarıram dörd yüz minin dilindən,
Hər bir elin yeri, adı qoy olsun.

Bizə yer ver, bizə bizdən bir yerinc,
Qoy qurtarsın aramızda bu kilinc,
Yer dinc olsun, el dinc olsun, ürək dinc,
Hər bir elin yeri, adı qoy olsun.

Bunu deyib Parsa yerə yıxılır,
Qara qıvrıq hörükləri dağılır,
Turqun könlü bir anlığa sıxılır,
Hər bir elin yeri, adı qoy olsun.

Deyir:-Parsa, ayağa dur, gəl bəri,
Öncə gərək geri alaq bu yeri,
Buraxdıraq Darvidelli ərləri,
Hər bir elin yeri, adı qoy olsun.

***

Parsa dedi:-Onlar min-min qırılıb,
Çağırmaqla dirilərmi qırılan?
Bu yürüşdə biz də sənə əltutuq,
Çağırmaqla dirilərmi qırılan?

–Haydı!-dedi Turq – dayanın sıraya,
Ölkəmizi qancıllardan qoruyaq,
Sonra yeni bir yol, bir yön arayaq,
Çağırmaqla dirilərmi qırılan?

Turq yürüdü, Şimşəkqılınc, Şimşəkat,
Dalısınca Tanı, Tuncər, el-elat,
Acıqanlar min sırada, mincə qat,
Çağırmaqla dirilərmi qırılan?

Turq bağırdı:-Qan-qan deyən acıqan,
Geri çəkil öz yurduna durmadan,
Qılıncımdan qurtarammaz bir adam,
Çağırmaqla dirilərmi qırılan?

Dəbilqəli başlar yerə töküldü,
Sıx sıralar, qatlar yandan söküldü,
Bunu görüb şahlar geri çəkildi,
Çağırmaqla dirilərmi qırılan?

***

-Arielli, qoşul bizə, diri ol!
Öncə döyüş, sonra bölüş yaxşıdır.
Uğurelli, Arielli, Minelli,
Öncə döyüş, sonra bölüş yaxşıdır.

Şimşəkqılınc kəsdi, yaxdı, doğradı,
Əkbitənin toplumları çağladı,
Çox sıralar, çox durumlar laxladı,
Öncə döyüş, sonra bölüş yaxşıdır.

Turqa beş-beş, on-on yürüş etdilər,
Yürükləri minellilər diddilər,
«Biz Turqçuyuq» deyib yarıb ötdülər,
Öncə döyüş, sonra bölüş yaxşıdır.

Parsa, Xruş ön sırada vuruşdu,
Bu vuruşda Turqla birgə çalışdı,
Yavaş-yavaş uyğunlaşdı, alışdı,
Öncə döyüş, sonra bölüş yaxşıdır.

Xruş dedi:-Turq düz deyir ürəkdən,
Biz vuruşaq, yeri gəlsə ölək də,
Biz yabançı olduq Turel deməkdən,
Öncə döyüş, sonra bölüş yaxşıdır.

***

Turq biçirdi, Şimşəkqılınc, Şimşəkat,
Basılmayır birləşəndə neçə güc.
Tanı, Tuncər, Çuqçubaşı, Manayqız,
Basılmayır birləşəndə neçə güc.

Dəbilqələr danqıldayır, hellənir,
Qollar, qıçlar üzülərək yellənir,
Bizuc ilə sıx sıralar bellənir,
Basılmayır birləşəndə neçə güc.
Kəsir Turqun qabağını bir ərən,
Qaçan yerdə geri dönür o, birdən,
-Ey Turq, səni öldürərəm-deyir-mən,
Basılmayır birləşəndə neçə güc.

Şimşəkqılınc iki bölür duranı,
Doğrananlar heç görməyir vuranı,
Turq şimşək tək kəsib gedir aranı,
Basılmayır birləşəndə neçə güc.

Bir bölük də yandan çıxır lapbadan,
Turq yan alır Tanıgildən qopmadan,
O bağırır:-Ay acıqan, dur, dayan!
Basılmayır birləşəndə neçə güc.

***

Acıqanlar yürüşdədir, dayanmır,
Göz işığa, ac qılınca çapandır,
İşıq idi böyük Turqun qılıncı,
Göz işığa, ac qılınca çapandır.

Turq bağırdı:-Tanı, Tuncər, siz çapın!
Harda olsa Asurşahı siz tapın!
Qaçanlara tək Körfəzdən var qapı,
Göz işığa, ac qılınca çapandır.

Yandan gələn bölük birdən dayandı,
İlk vuruşda yüzü qana boyandı,
Qan qarışıq udqundular soy andı,

Göz işığa, ac qılınca çapandır.

Qılınc çəkdi Turq boğaza, qırtlağa,
Toppuz endi sola, sağa, qabağa,
Qalanlar da çəkildilər qırağa,
Göz işığa, ac qılınca çapandır.

Turq bağırdı:-Yaraqları tullayın,
Doğramları Asurşaha yollayın,
Ac qalsanız dağı-daşı yalayın,
Göz işığa, ac qılınca çapandır.

***

Tanı, Tuncər biçə-biçə gedirlər,
Toplum çapar başçısının dalınca,
Ox yağırdı, bıçaq, bizuc, bir də baş,
Toplum çapar başçısının dalınca.

Acıqanlar qaçır, durur, tökülür,
Ürəklərdən dözüm-durum çəkilir,
Göz bərəlir, qarın, döş-baş sökülür,
Toplum çapar başçısının dalınca.

Manayqızın ara-sıra cikkəsi,
Qılıncıyla birgə qadın hikkəsi,
Acıqana ölüm olub kölgəsi,
Toplum çapar başçısının dalınca.

Tanı, Tuncər qoşatiyə qılıncla,
Çapa-çapa qaçanların dalınca,
Yerə düşür başlar, qıçlar yalıncaq,
Toplum çapar başçısının dalınca.

Çuqçubaşı qoruncudur arxanın,
Dilə tutub gücləndirir qorxanı,
Tələsdirir ləngiyəni, yorğanı,
Toplum çapar başçısının dalınca.

***

Qabaqdadır böyük Zaqras, Ormançay,
Dağlar hündür qapısıdır ölkənin.
Çaya min-min atlı, atsız töküldü,
Dağlar hündür qapısıdır ölkənin.

Turq körpüdən keçdi gizli, gözlədi,
Çaydan çıxıb qaçanları izlədi,
Toplumları son yürüşə düzlədi,
Dağlar hündür qapısıdır ölkənin.

Dedi:-Durun, bir azcana oturun,
At yemləyin, güclərini artırın,
Bellərindən yükü, çulu götürün,
Dağlar hündür qapısıdır ölkənin.
Xruş dedi:-Bunlar çox-çox seyrəlib,
Bizi göndər görənçi tək irəli,
Asurşaha görək yardım nə gəlir,
Dağlar hündür qapısıdır ölkənin.

Xruş, Parsa getdi meşəqırağı,
Yoxlasınlar yan-yövrəni, qabağı,
Toplum gəlsə qalasınlar ocağı,
Dağlar hündür qapısıdır ölkənin.

***

Çox getdilər, gecə gözdən itdilər,
Nə olursa gecə olur gizlidə.
Gördülər ki çapıb qaçır Asurşah,
Nə olursa gecə olur gizlidə.

Parsa dedi:-Bunu necə çatdıraq?
Bunun üçün qalayaqmı od-ocaq?
Xruş dedi:-Gəl dalınca biz çapaq,
Nə olursa gecə olur gizlidə.

Parsa dedi:-Qardaş, göz qoy yollara,
Qaçan şahdır, şahlar hara, biz hara,
Görükçüyük, gərək çıxaq yallara,
Nə olursa gecə olur gizlidə.

Qalxıb-enib neçə yalı keçdilər,
Görmək üçün uca bir yer seçdilər,
Odun yığıb, kol qırdılar, biçdilər,
Nə olursa gecə olur gizlidə.

Qarlı dağlar zirvə-zirvə ağarır,
Gecə olcaq parıldayır buz qarı,
Bacı-qardaş gözlədilər yolları,
Nə olursa gecə olur gizlidə.

***

Gecə birdən at fınxırdı, kişnədi,
Gecə olcaq yola çıxır acıqan.
Parsa dedi:-Xruş, yolda toplum var,
Gecə olcaq yola çıxır acıqan.

-Odun gətir, od qalayım o döşdə,
Turq sevinər gördüyümüz bu işdən,
Qoy Mindiyar üstün olsun döyüşdə,
Gecə olcaq yola çıxır acıqan.

Od qalandı, alov-alov ucaldı,
Bir az keçdi, ocaq söndü, qaraldı.
–Bu, nə işdir?-Parsa deyib yahaldı,
Gecə olcaq yola çıxır acıqan.

Qalxdı döşə, gördü qara qaraltı,
Tüstülənən od-ocağa su atır.
Baxdı gördü, o, Xruşdur, gözaltı,
Gecə olcaq yola çıxır acıqan.

Qız dinmədi, oturdu, diz qatdadı,
Xruş getdi, Parsa diki addadı,
Odunları püfləyərək odladı,
Gecə olcaq yola çıxır acıqan.

***

Parsa dedi:-Turel bizim olacaq,
Ayrılmazdan qabaq birləş, doğma ol.
Vuruşuruq biz Mindiyar uğrunda,
Ayrılmazdan qabaq birləş, doğma ol.

Darvidelli bu döyüşdə qırıldı,
Yerinc, yerinc söyləməkdən yoruldu,
Dirrik gəldi, özgə sayaq quruldu,
Ayrılmazdan qabaq birləş, doğma ol.

-Biz düz olsaq, Turqtay bizə inanar,
Yanar bizə öz-özünə yananlar.
«Sağ ol» deyər bizə bizi dananlar,
Ayrılmazdan qabaq birləş, doğma ol.

Yerinc olsam, sən də başçı olarsan,
Bir neçə il öz yerimdə qalarsan,

Sonra məndən yerinc yeri alarsan,
Ayrılmazdan qabaq birləş, doğma ol.

Xruş dedi:-İnanmıram bu işə,
İnanıram təkcə gücə, döyüşə,
Mən Turqtayla gərək gəlim döş-döşə,
Ayrılmazdan qabaq birləş, doğma ol.

***

Gecə düşdü, yenə toplum göründü,
Dağ döşündə qızılgüldür ocaqlar.
Xruş dedi:-Turq bunlara batammaz,
Dağ döşündə qızılgüldür ocaqlar.

Parsa dedi:-Basar olsa Turq yenə,
Basarlıqla o öyünər, sevinər,
Turq ürəyi onda bizlə döyünər,
Dağ döşündə qızılgüldür ocaqlar.

Xruş dedi:-Gəl, dönməyək darğaya,
Yaxın düşmək olmur qara qarğaya,
Güclü yer-yurd, ad-san verməz sısqaya,
Dağ döşündə qızılgüldür ocaqlar.

Parsa dedi: – İnanıram mən ona,
Armas deyil, məni alsın qoynuna,
Əyri baxmır Turq bir qıza, qadına,
Dağ döşündə qızılgüldür ocaqlar.

Mənə inan, Xruş, gözlə, dalaşma,
Əkbitənə qancıl kimi yanaşma,
Tanı ilə, Turqız ilə savaşma,
Dağ döşündə qızılgüldür ocaqlaq.

***

Dəyişmişəm mən də Turqu görəndən,
Dağ, dağcıqlar arasında ucadır.
Könül verdim, sevgi duydum mən ona,
Dağ, dağcıqlar arasında ucadır.

Ola bilər, bu, sevgidir, ya çəkim,
Demə, qardaş, Parsa kimdir,Turqtay kim,
Bil ki, Tanrı gücündədir hər sevgi,
Dağ, dağcıqlar arasında ucadır.

Bu sevgimi bilməyəcək bir adam,
Bir sən bildin, süd qardaşım, gənc atam,
Bacın bərkdir, getməz, uymaz hər ada,
Dağ, dağcıqlar arasında ucadır.

-Yaxşı, qoyaq sən eləsən, o belə,
Nə çıxacaq bundan bizim bu elə,
Bu gedişi vermə, bacım, sən yelə,
Dağ, dağcıqlar arasında ucadır.

Sənin böyük Turqun mənə kiçikdir,
Arilərin qabağında kötükdür,
Arielli istəyimdə itikdir,
Dağ, dağcıqlar arasında ucadır.

***

-Ürək açdım, Xruş, sənə bacı tək,
Ölənəcən gizli qalan sevgi var.
Gözlə kirpik arasında gəz onu,
Ölənəcən gizli qalan sevgi var.

Heç bilmirəm, qardaş, mənə nə oldu,
Daş ürəyim qabıq-qabıq soyuldu,
Turqu gördüm, mən yenidən doğuldum,
Ölənəcən gizli qalan sevgi var.

Xruş dedi:-Xırçıldayır dişlərim,
Zoqquldayır içimdəki içlərim,
Heçə çıxır Arielin işləri,
Ölənəcən gizli qalan sevgi var.

Sevgi deyil, bu, yüyəndir bizlərə,
İnanmıram bu dəyərsiz sözlərə,
Dik baxıram mən üzlərə, gözlərə,
Ölənəcən gizli qalan sevgi var.

-Sən özgəsən, süd qardaşım, mən özgə,
Hardan çıxdı üzümüzə bu döngə,
Düşdü mənim ürəyimə bir kölgə,
Ölənəcən gizli qalan sevgi var.

***

Xruş ondan üz döndərdi, düşündü:
«İpdir qızın qıçlarına sevgilər,
Üzülüşüm, gərək bundan qurtarım,

İpdir qızın qıçlarına sevgilər.

Arielə Parsa yerinc qoyular,
Bacım burda məndən böyük sayılar,
Onda mənim tüstüm göyə yayılar,
İpdir qızın qıçlarına sevgilər.

Arielə gərək özüm şah olam,
Turel yurdu gərək Turqdan mən alam,
Kim ölsə də mən şahlıqda tək qalam,
İpdir qızın qıçlarına sevgilər.

Mən bu işdə sevgi yaxın qoymaram,
Mən şah olsam yerinc-merinc saymaram,
Mən qancılam, qan içməkdən doymaram,
İpdir qızın qıçlarına sevgilər.»

Parsa baxdı, Xruş onu saymadı,
Gizlidəsə onu gözdən qoymadı,
O özünə şah deməkdən doymadı,
İpdir qızın qıçlarına sevgilər.

İkiçayarası vuruş söyləncisi

Turqtay qovdu acıqanı sonacan,
Göz qırpmağa qoyma, öldür qancılı,
Vurdu, yıxdı, qırdı, tökdü Körfəzə,
Göz qırpmağa qoyma, öldür qancılı.

Yolda yeni toplum çıxdı önünə,
Vurdu, yardı uzununa, eninə,
Bunları da qoydu onlar gününə,
Göz qırpmağa qoyma, öldür qancılı.

Duru sular qızıl qana bulandı,
Burda ölü ölü üstə qalandı,
Çox istəklər qum çölünə quylandı,
Göz qırpmağa qoyma, öldür qancılı.

Ocaq gördü Turqtay dağın döşündə,
Görənçilər ayıq güdük işində,
Ocaq yazdır isti yerin qışında,
Göz qırpmağa qoyma, öldür qancılı.

Dedi:-Parsa, Xruş soraq verirlər,

Bir-bir gələn toplumları görürlər,
Bacı-qardaş od-alova giriblər,
Göz qırpmağa qoyma, öldür qancılı.

***

Mindiyarın toplumları yürüşdə,
Ondan beşi basar olur yürüşün.
Tanı döndü, Tuncər döndü Başevə,
Ondan beşi basar olur yürüşün.

Turqtay çapdı Asurşahın dalınca,
Toplum-toplum onu gücdən salınca,
Darvidelin acığını alınca,
Ondan beşi basar olur yürüşdə.

Çatdı İkiçayarası düzlərə,
İşıq qopdu, yatım gəldi üzlərə,
Gözəl gör-gör dinclik oldu gözlərə,
Ondan beşi basar olur yürüşün.

Soraq tutdu, öndə yollar qarışıb,
Bir ər gəlib Asurşahla vuruşur,
Turqa bənzər tərpənişi, duruşu,
Ondan beşi basar olur yürüşün.

Deyir:-Bilin, göy atamdır, yer anam,
Adım Odər, özüm Odərbaydanam,
İyirmi beş yaşlarında oğlanam,
Ondan beşi basar olur yürüşün.

***

Tanrım deyib Odərboydur bu yerlər,
Hardansansa, ora sənin özünsən.
Odərboyda yaşa dolub bu ərlər,
Hardansansa, ora sənin özünsən.

Turq iki gün çapdı, çatdı o yerə,
O, qıraqdan baxdı igid ərlərə,
Bir qaplandı, bir yenilməz ər hərə,
Hardansansa, ora sənin özünsən.

Gördü qırıb çatır onlar yurdları,
El-obanı yaxır qızıl odları,
Bəlli deyil yeri-yurdu, adları,
Hardansansa, ora sənin özünsən.

Ha səslədi, «dayan!» dedi, olmadı,
Onlar Turqu vecinə də almadı,
Qan tökdükcə Turqu saya salmadı,
Hardansansa, ora sənin özünsən.

Gördü oğlu Odərboydur, toxdadı,
Asurşahı o, qılıncla doğrayıb,
Bunu görüb Turqun könlü ağrıdı,
Hardansansa, ora sənin özünsən.

***

Dedi:-Mənim igid oğlum Odərboy,
Tanrı qanlı qırhaqırdan öclənir.
Kəsmək olmaz bir ulusun kökünü,
Tanrı qanlı qırhaqırdan öclənir.

Oğlu dedi:-Çəkil yana, sən kimsən?!
Kim olsan da heç nə gəlməz əlindən,
Duyuram ki, acılıq var dilində,
Tanrı qanlı qırhaqırdan öclənir.

Turq dedi ki,-İtiribsən özünü,
Qan tökməkdən qan tutubdur gözünü,
Qancıl, yu, sil, baxım, görüm üzünü,
Tanrı qanlı qırhaqırdan öclənir.
-Mən Odərəm, özüm Odərboydanam,
Tur soyuyam, göy atamdır, yer anam,
Qan pisdirsə, əl qatmayın bu qana,
Tanrı qanlı qırhaqırdan öclənir.

Bunu deyib o səyirtdi atını,
Vurdu, qırdı deyə-deyə adını,
Al qan aldı göyün, yerin qatını,
Tanrı qanlı qırhaqırdan öclənir.

***

Turq hayladı Şimşəkatı lapbadan,
Qancılı da qancıl kimi öldürmə.
Dedi:-Səni oturdaram yerində,
Qancılı da qancıl kimi öldürmə.

Çatdı ona, kəsdi onun yolunu,
Tutdu qılınc vuran ağır qolunu,
Çəngələyib dartdı atın yalını,

Qancılı da qancıl kimi öldürmə.

Odərboy da qılınc vurdu, qorxmadı,
O, Turqtayın üzünə də baxmadı,
Silkəndisə qan içindən çıxmadı,
Qancılı da qancıl kimi öldürmə.

Endi qılınc, Turqun budu yarıldı,
Yan çəkilib sağa, sola qanrıldı,
Turq bağırdı, qılıncına sarıldı,
Qancılı da qancıl kimi öldürmə.

Vuruşdular, atlarını yortdular,
Oxlaşdıları bizucları dartdılar,
Nə var idi, bir-birinə qatdılar,
Qancılı da qancıl kimi öldürmə.

***

Turqtay susdu, Odərboysa at çapdı,
Qan görərsən qan gözünü tutanda.
Acıqandan tək-tük adam qalmışdı,
Qan görərsən qan gözünü tutanda.
Dedi:-Yeri irəliyə, Minelli!
Gün aydındır, qabaq açıq, yol bəlli,
Gözüm, ağzım, boynum qanla doludur,
Qan görərsən qan gözünü tutanda.

Odərboyam, adım-sanım uludur,
Mənim yolum tanrıların yoludur,
Tut qancılın boğazından beşəlli,
Qan görərsən qan gözünü tutanda.

Çox at çapdı, öz ipini yığmadı,
Daha heç kəs qabağına çıxmadı,
Daha yeri, yurdu, eli yaxmadı,
Qan görərsən qan gözünü tutanda.

Üç gün çapdı, çıxdı böyük dənizə,
Göy ləpələr, göy sularla üz-üzə,
Girdi suya, çimdi, oldu təptəzə,
Qan görərsən qan gözünü tutanda.

***

Dedilər ki, öz atanla vuruşdun,
Qandan sonra ayılmaq da gec olur.

Dedi:-Atam Turqdur, o, Turq deyildi,
Qandan sonra ayılmaq da gec olur.

İnanmadı ataya söz qaytarıb,
İnandı ki, döyüş-vuruş qurtarıb,
Mindiyarın yerlərini artırıb,
Qandan sonra ayılmaq da gec olur.

Dedi:-Atam, böyük Turqtay bəs hanı?
Gedək, gərək biz axtaraq hər yanı,
Yavaş-yavaş qaynar başım ayılır,
Qandan sonra ayılmaq da gec olur.

Qayıdanda gördülər ki, Turq gəlir,
At üstündə o, bir dağdır, yüksəlir,
«Oğlum» deyib hərdən qalxıb, dikəlir,
Qandan sonra ayılmaq da gec olur.

Atasını görüb gözü bərəlir,
Düşür atdan, oğul qaçır irəli,
Şimşəkatın qabağına sərilir,
Qandan sonra ayılmaq da gec olur.

***

Deyir:-Ata, əl tut, məni bağışla,
Küy oğuldan, bağışlamaq atadan,
Tanımayıb sarsıtmışam mən səni,
Küy oğuldan, bağışlamaq atadan.

Mən eşitdim Tanı, Tuncər burdadır,
Mindiyarın Turel yanı dardadır,
Nə biləydim atam gəlib, ordadır,
Küy oğuldan, bağışlamaq atadan.

Atdan düşdü Turqtay, ona yanaşdı,
İri qollar bir-birinə sarmaşdı,
Ata, oğul öpüşərək yaxlaşdı,
Küy oğuldan, bağışlamaq atadan.

Nə o dindi, nə qımışıb bu dindi,
Ata, oğul bir-birilə öyündü,
Köküslərdə dağ ürəklər döyündü,
Küy oğuldan, bağışlamaq atadan.

İki yüz min toplum birdən baş əydi,

Ürək sevdi, göz yaşlandı, dil öydü,
Bu sevinci ulus, elat, yurd duydu,
Küy oğuldan, bağışlamaq atadan.

***

Ata dedi:-Oğul, başçı ol bura,
Harda basar olsan ora sənindir.
Sənə niyə Odərboydan deyirlər,
Harda basar olsan ora sənindir.

Bura İkiçayarası boyudur,
Ulu Turun el, ulusu, soyudur,
Bu da sənin tanrı verən payındır,
Harda basar olsan ora sənindir.
Burdan kəsə yol var Qoşadənizə,
Böyük dayaq olacaqsan sən bizə,
Həm də böyük başçı, önər Körfəzə,
Harda basar olsan ora sənindir.

Burdan bizə yürüş edir Balasqel,
Balasqeli bağışlamaq düz deyil,
Gedim ona kimliyimi mən deyim,
Harda basar olsan ora sənindir.

Baş əyərək Odərboydan söylədi:
-Ata, onlar qabağında kölədir,
Bu göstəriş artıq mənə bəllidir,
Harda basar olsan ora sənindir.

***

Dedi:-Ata, mən gedirəm vuruşa,
Baş əy mənim yerimdə də anaya.
Basar çıxsam, basıq olsam, unutma,
Baş əy mənim yerimdə də anaya.

Qoy duymasın ağrı oğul sarıdan,
Güc diləsin mənə böyük Tanrıdan,
Əltut olsun ona bizi yaradan,
Baş əy mənim yerimdə də anaya.

Qoy qardaşım Odərpay da var olsun,
Ocaqlarda Tanrı yeri sayılsın,
Adı-sanı Sərtüz kimi yayılsın,
Baş əy mənim yerimdə də anaya.

Turq söylədi:-Oğul, sən qal yerində,
Gedib gəlləm mən günlərin birində,
Sevinərəm səni yerinc görəndə,
Baş əy mənim yerimdə də anaya.

Öpüşdülər, ayrıldılar yenə də,
Ayrılıqlar mahnılandı yenidən,
Ey ayrılıq, çox qancılsan sən nədən,
Baş əy mənim yerimdə də anaya.

***

Axşam düşdü, dəniz qan tək qızardı,
Suqırağı sarı qumlar bozardı,
Günəş soldu, yavaş-yavaş sozardı,
Döyüşdə də hər ərənin yeri var.

Gecə düşdü, Balasqelli qalmadı,
Boş qayıqlar, boş gəmilər dolmadı.
Qaçaqlardan kimsə bir söz salmadı,
Döyüşdə də hər ərənin yeri var.

Odərboydan dedi:-Ata, gedim mən,
Acıqanı kəsib yıxım dibindən,
Öc də alım qancıl Balasqelindən,
Döyüşdə də hər ərənin yeri var.

Ata dedi:-Gəmiləri tut, götür,
Toplumunu Balasqelə tez yetir,
Başçısını başsız elə, al, itir,
Döyüşdə də hər ərənin yeri var.

***

Dedi:-Oğul, igid Odərboydanım,
Hər döyüşdə dözüm, güdüm* basardır.
Döz çətinə, güd yerini hər şeyin,
Hər yürüşdə dözüm, güdüm basardır.

Sən dənizlə, mən quruyla yürüşə,
Sən «hoy» desən acıqana vay düşər.
Qoşaboğaz ayrıcında görüşək,
Hər yürüşdə dözüm, güdüm basardır.

Ayrıldılar, yolu, yalı yordular,
Dalğaları, meşələri yardılar,
Önə çıxan acıqanı qırdılar,

Hər yürüşdə dözüm, güdüm basardır.

Geymişdilər dəbilqəni, geyimi,
Su üstündə tanıyacaq kim kimi?
Görünüşdə Balasqelli ər kimi,
Hər yürüşdə dözüm, güdüm basardır.

Taktika

Geyinmişdi hamı Balasqelli tək,
Döşlərində toxunmadan al çələng,
Gedirdilər tez-tez avar çəkərək,
Hər yürüşdə dözüm, güdüm basardır.

***

Minbaşıya bənzəyirdi Odərboy,
Hər ulusun geyimini uca tut,
Balasqelli geyimində minelli,
Hər ulusun geyimini uca tut.

Üç gün dalğa, avar çəkmək, göy dəniz,
Ac qaldılar üç gün, susuz, çörəksiz,
Dalğalarla, ləpələrlə üzbəüz,
Hər ulusun geyimini uca tut.

Suqırağı böyük kəndə çatdılar,
Qayalara iplə qarmaq atdılar,
Gəmiləri sudan çəkib dartdılar,
Hər ulusun geyimini uca tut.

Gecə neçə güdükçünü vurdular,
Sıralanıb yürüş üçün durdular,
On tutuğu bir-birinə sardılar,
Hər ulusun geyimini uca tut.

Dedilər ki, Turqu vurub qaytardıq,
Bu on əri qoyun kimi otardıq,
Balasqeli ölümlərdən qurtardıq,
Hər ulusun geyimini uca tut.

***

Becid-becid, tələs-tələs, çaphaçap,
Burum-burum yollar qalır arxada.
Böyük Turqtay Şimşəkata təpinir,
Burum-burum yollar qalır arxada.

Çata bilmir ona çapaq atlılar,
Yürüş edir Balasqelə Mindiyar,
Atsızlardan suvay min-min atlı var,
Burum-burum yollar qalır arxada.
Suqırağı meşələrin nəmişi,
Çayqırağı yarğanların qamışı,
Atsız da var atlılara sarmaşır,
Burum-burum yollar qalır arxada.

«Hoy» deyəndə Turqtay, Şimşəkat uçur,
Gümüşbaxış dan yerləri göz açır,
Qoşaboğaz Turqa baxır qıyqacı,
Burum-burum yollar qalır arxada.

***

Birdən suda qayıq, gəmi göründü,
Basıq gedən bir də öclə qayıdar.
Özlərini gizli yerə verdilər,
Basıq gedən bir də öclə qayıdar.

Bütün gecə qayıq gəldi, boşaldı,
Turq qayıtdı, onu görən yahaldı,
Doldu bütün qayaaltı, dağaltı,
Basıq gedən bir də öclə qayıdar.

Dan çırtdadı, vuruşmalar qızışdı,
Balasqelli bir-birinə qarışdı,
Turq onların başçısını soruşdu,
Basıq gedən bir də öclə qayıdar.

Başçı çıxdı dəbilqədə, udqundu,
Üz-gözündə bir göyərmiş boğuntu,
Baş əymədi, bu, Turqtaya toxundu,
Basıq gedən bir də öclə qayıdar.

Dedi:-Adım Arafasis, köləçi,
Anam kölə olub, atam bərəçi,
Özüm qılınc savaşında bilənçi,
Basıq gedən bir də öclə qayıdar.

***

Turqtay dedi:-Mən də Odərboydanam,
Hər igidin adı yurdla tanınar.
Mindiyarın yüz-yüz eli, boyu var,
Hər igidin adı yurdla tanınar.

Sən də qılınc savaşında tanıqsan,
Görürəm ki, bicləməsən, ayıqsan,
Sən savaşda bilənçi yox, toyuqsan,
Hər igidin adı yurdla tanınar.

Mən gedirdim Balasqelə, qayıtdım,
Səni görcək ürəyimi ovutdum,
Ağrı-acı günlərimi unutdum,
Hər igidin adı yurdla tanınar.

Balasqelin gücü yoxdur, yorulub,
Toplumları qum tək göyə sovrulub,
Öc almaqçın ilan kimi qıvrılıb,
Hər igidin adı yurdla tanınar.

Bunu deyib Turq irəli yeridi,
Arafasis geri durdu, kiridi,
Birdən çölü Turqun səsi bürüdü,
Hər igidin adı yurdla tanınar.

***

Gödək qılınc dəydi Turqun çiyninə,
İlk döyüşdə tez tərpənən udacaq.
Arafasis onu lapdan atmışdı,
İlk döyüşdə tez tərpənən udacaq.

Turq qılıncı çəkdi, atdı qırağa,
Əli getdi qan, boyalı yarağa,
Çatdı döyüş bilənçisi – qonağa,
İlk döyüşdə tez tərpənən udacaq.

Arafasis teztov idi, tez görən,
Qancılında darlıq güdən, yer güdən,
Ancaq bunlar çıxmışdılar əlindən,
İlk döyüşdə tez tərpənən udacaq.

Qılınclaşma sarsıtmışdı lovğanı,
Vurhavurlar gicəltmişdi dananı,
Əlləşirdi Turqa atsın yabanı,
İlk döyüşdə tez tərpənən udacaq.

Turq bizucla vurdu onu, saraltdı,
Ağ gününü gecə kimi qaraltdı.
Gözlərində yeri-göyü daraltdı,
İlk döyüşdə tez tərpənən udacaq.

***

Arafasis at qarışıq yıxıldı,
Basıq deyil hələ hər bir yıxılan,
O, üçüncü gödək qılınc tulladı,
Basıq deyil hələ hər bir yıxılan.

Turq atıldı Şimşəkatdan aşağı,
Arafasis dedi:-Ataq yarağı...
Boğazına keçdi Turqun caynağı,
Basıq deyil hələ hər bir yıxılan.

Süpürləşdi iki ərən, iki ər,
Turq qaldırdı onu göyə bu səfər,
Dedi:-Qancıl Arafasis, öl, gəbər,
Basıq deyil hələ hər bir yıxılan.

Bilənçi yox, öküz kimi qabasan,
Gərək ölüb sonevini tapasan,
Gedib orda kimliyini qanasan,
Basıq deyil hələ hər bir yıxılan.

Çırpdı yerə, yer yarıldı, göy uçdu,
Göy dənizdə dalğa qalxdı, su daşdı,
Neçə toplum bir-birilə tutaşdı,
Basıq deyil hələ hər bir yıxılan.

***

Odərboydan çıxdı qanlı döyüşə,
Döyüşdə də hər ərənin yeri var.
Qılınclayıb acıqanı dağıtdı,
Döyüşdə də hər ərənin yeri var.

Anadolu, Qoşadəniz arxada,
Balasqelsə yatıb, dincəl yuxuda,
Kəndlər, yollar tir-tir əsir qorxudan,
Burum-burum yollar qalır arxada.

***

Turq üç günə Balasqelə yetişdi,
Döyüşçüsüz, başsız ölkə basıqdır.
O, Başevin qapısında dayandı,
Döyüşçüsüz, başsız ölkə basıqdır.

Dedi:-Çıxsın el başçısı önümə,
Qoyum onu Arafasis gününə.

Tapdalayım uzununa, eninə,
Döyüşçüsüz, başsız ölkə basıqdır.

Neçə qadın gəldi, durdu yaxında,
Baş əydilər gözdən-başdan yayqınlar.
Ağır gündə qorxmaz olur qadınlar,
Döyüşçüsüz, başsız ölkə basıqdır.

Dedilər ki,-Öldürülüb böyüklər,
Qaçıb gedib qorxaqlarla dönüklər,
Bu ölkəni çapıb soyan çürüklər,
Döyüşçüsüz, başsız ölkə basıqdır.

Qoy böyük Turq Balasqeli yaxmasın,
Gizli qaçıb gedənlərə baxmasın,
Qoy bir daha qan, göz yaşı axmasın,
Döyüşçüsüz, başsız ölkə basıqdır.

***

Su yoluyla toplum gəlib – dedilər,
Yürüş üçün ən qısa yol dənizdir,
Başçısına Odərboydan deyirlər,
Yürüş üçün ən qısa yol dənizdir.

Qırıb çatır, o, hamıdan öc alır,
O, qardaşı Odərpaydan güc alır,
El dağılıb, dağda-daşda köç salıb,
Yürüş üçün ən qısa yol dənizdir.

Böyük Turqa diz qatdayır qadın, qız,
Sıralanıb yalvarırlar arxasız,
Ağlayırlar, sıtqayırlar arasız,
Yürüş üçün ən qısa yol dənizdir.
Turq söyləyir:-Yola düşsün on atlı,
Odərboya çatsın çapaq, qanadlı,
Desin, qırmaq olmaz eli, elatı,
Yürüş üçün ən qısa yol dənizdir.

Deyin, bir az acığını soyutsun,
O, qan-qada axınını qurutsun,
Toplumunu bol çörəklə doyurtsun,
Yürüş üçün ən qısa yol dənizdir.

***

Turq gözlədi, Balasqelə girmədi,

Girmə başsız qalan evə, ölkəyə,
Balasqelli bunu görüb sevindi,
Girmə başsız qalan evə, ölkəyə.

Çörək verdi, su gətirdi, çay balıq,
Çörək üstdə bişmiş ətdən yavanlıq,
Toplumları saxladılar bir aylıq,
Girmə başsız qalan evə, ölkəyə.

Odərboydan gəlib çatdı Turqtaya,
İki toplum döndü altı alaya,
Dəniz olur qarışanda çay çaya,
Girmə başsız qalan evə, ölkəyə.

-Balasqeli,-dedi-qırıb çatmışam,
Başçısını başsızına qatmışam,
Üç ərəni vurub, yorub tutmuşam,
Girmə başsız qalan evə, ölkəyə.

Ata dedi:-Odərboyum, toxda bir,
İtirdiyin, tapdığını yoxla bir,
Qonşuluğu pozma, barış saxla bir,
Girmə başsız qalan evə, ölkəyə.

***

Gecə gəldi ağsaqqallar, qadınlar,
Barış yolu ağsaqqaldır, qadındır.
Dedilər ki, bağışlasın böyük Turq,
Barış yolu ağsaqqaldır, qadındır.
Dedilər ki, baş əyirik sizə biz,
Balasqeldən çox ağrılar çəkdiniz,
Bağışlayın bu ölkəni bir də siz,
Barış yolu ağsaqqaldır, qadındır.

Bizi bir də bağışlasın Mindiyar,
İnnən belə Balasqel dinc oturar,
Bizimkilər sayıqlığı artırar,
Barış yolu ağsaqqaldır, qadındır.

Biz gəlmişik böyük Turqa baş əyək,
Onun Şimşək qılıncını biz öyək,
Oğluna da sağol deyək, sağ deyək,
Barış yolu ağsaqqaldır, qadındır.

Biz gəlmişik Turqsayağı barışa,

Lap istəsə Mindiyara qarışaq,
Ondan vergi ölçüsünü soruşaq,
Barış yolu ağsaqqaldır, qadındır.

***

Turq bağırdı, Turq qışqırdı, söylədi:
-Baş əyməyə, kiçilməyə üz gərək,
Sizinkilər çox baş əyib, kiçilib,
Baş əyməyə, kiçilməyə üz gərək.

Dedi:-Sizlər çox-çox qanlar tökdünüz,
Mindiyara dağ dağ üstən çəkdiniz,
Hər bir yerdə qan ağacı əkdiniz,
Baş əyməyə, kiçilməyə üz gərək.

Biz sizinlə birləşməyi neynərik,
Biz doğudan batıyadək bir yerik,
Birləşsək də çox az çəkər bu birlik,
Baş əyməyə, kiçilməyə üz gərək.

Vergi verin mənə bu gün yüz min at,
Vergiləri artırıram ikiqat,
Yaraqları versin bizə el-elat,
Baş əyməyə, kiçilməyə üz gərək.

Biz yenə də selə, suya dönərik,
Alay-alay dənizlərə enərik,
Üç yüz minlik bir ağızdan dinərik:
Baş əyməyə, kiçilməyə üz gərək.

***

Üç tutuğu qaytarmadı Odərboy,
Tutub saxla, vergilərə ödənc et.
Ödənc olsa vergiləri verərlər,
Tutub saxla, vergilərə ödənc et.

Bu tutuqlar böyük-böyük ərənlər,
Döyüşlərə on min ərlə girənlər.
Balasqeldə yaxşı günlər görənlər,
Tutuq saxla, vergilərə ödənc et.

Ağsaqqallar diz qatdayıb çökdülər,
Çuval-çuval qızıl, gümüş tökdülər,
Basarları qonaqlığa çəkdilər,
Tutuq saxla, vergilərə ödənc et.

Turq söylədi:-Getmə, Odərboy balam,
Acıqanda qılıq yalan, söz yalan.
Ağılanıb burda sənin üç baban,
Tutuq saxla, vergilərə ödənc et.

Sonra dedi:-Gedin, burda durmayın,
Bizə bunca qurma-quyu qurmayın,
Yalvar-yalvar özünüzü yormayın,
Tutuq saxla, vergilərə ödənc et.

***

-Böyük atam, böyük Turqtay sağ olsun,
Yerə salma dediyini böyüyün.
Dedi:-Ata, sən buyuran olacaq,
Yerə salma dediyini böyüyün.

Ancaq bircə qoy bunları qırım mən,
Mindiyarın yerincliyin qurum mən,
Qoy öc alım, sonlarına varım mən,
Yerə salma dediyini böyüyün.
Odərboyam, Odərboydan çıxmışam,
Mən özümə döyüşçü tək baxmışam,
Turqtay deyib at belinə qalxmışam,
Yerə salma dediyini böyüyün.

-Odərboydan çıxan oğlum Odərboy,
Döyüşlərdə yenilməzsən, od-alov,
Qayıt daha, ağlamasın anan qoy,
Yerə salma dediyini böyüyün.

Qayıt İkiçayarası boylara,
Son qoy evdə, döyüşlərdə vaylara.
Get yaz çağı, qış qabağı toylara,
Yerə salma dediyini böyüyün.

***

-Bunu deyir Odərpay da çox mənə,
«Bu qan-qada, döyüş-vuruş yetərdir.
Dayanışı toy-düyünə çevir sən,
Bu qan-qada, döyüş-vuruş yetərdir.

Yal-yarağı-deyir, – daha qoy yerə,
Üz tut böyük tanrılara, göylərə,
Yalvarışla üztut öyrət ərlərə,

Bu qan-qada, döyüş-vuruş yetərdir.

Yer üzündə bir acıqan var, Yaman,
Ona uyma, ondan, qardaş, yan dayan,
Gözü qandır, əli qandır, sözü qan,
Bu qan-qada, döyüş-vuruş yetərdir.»

–Odərpayı anlamıram hələ də,
Yeni Sərtüz olub deyən ölkədə,
Çox danışır o elədən, belədən,
Bu qan-qada, döyüş-vuruş yetərdir.

Ata dedi:-Bu yazılıb alnında,
O, paylancdır tanrıların yolunda,
Ahur-məzda dayanmışdır dalında,
Bu qan-qada, döyüş-vuruş yetərdir.

***

Yüz min atla geri döndü Odərboy,
At yürüşün, basarlığın dayağı.
Dedi:-Ata, Uğurelə gedirəm,
At yürüşün, basarlığın dayağı.

Gəmiləri tapşırdılar Xruşa,
Xruş döndü dəniz üstə ağ quşa,
Dalğa-dalğa düşdü eniş-yoxuşa,
At yürüşün, basarlığın dayağı.

Turqtay getdi öz oğlunun dalınca,
Dədələrin Qoşaboğaz yolunca,
Şimşəkatı çapdı, qovdu doyunca,
At yürüşün, basarlığın dayağı.

Yollar boyu o, Yanqunu anırdı,
Ürəyinə qorxu-ürkü qonurdu,
Ürəyinə nəysə, nəsə damırdı,
At yürüşün, basarlığın dayağı.

-Şimşəkatım, çap, yollarda yorulma,
Heç bir yerə dönmə, baxma, qanrılma,
Sən bir daha Alçiçəkdən ayrılma,
At yürüşün, Bacarlığın dayağı.

***

Çox gənc idi, qızğın, çılğın Odərboy,

Coşqun gənclik yaşın qızmar yayıdır.
Qışı, yayı, yazı, qarı duyammaz,
Coşqun gənclik yaşın qızmar yayıdır.

Yeni-yeni qaralmışdı bığ yeri,
Göz alışqan, səsi, sözü dipdiri,
Öz yerindən gənclər durar çox bəri,
Coşqun gənclik yaşın qızmar yayıdır.

Boy-buxunda, qol-qanadda ata tək,
Cumarlıqda qaplan idi, sərt külək,
Uçarlıqda qartal idi, kəpənək,
Coşqun gənclik yaşın qızmar yayıdır.
Boynu uzun, saçı seyrək, üzü ağ,
Çiyinləri içəriyə qatdanaq,
Baxışları həm itidir, həm oynaq,
Coşqun gənclik yaşın qızmar yayıdır.

Qaşlarının əyriliyi atadan,
Ağız-burun, alın, dodaq anadan,
Bu ötkəmlik, bu qancıllıq haradan,
Coşqun gənclik yaşın qızmar yayıdır.

***

Tələsirdi anasına qovuşsun,
Dəmirdağdır, çəkimi var ananın,
Harda olsan səni çəkib aparar,
Dəmirdağdır, çəkimi var ananın.

Uzaq-uzaq Aladağdan o yana
Oturmuşdu Uğureldə bir ana,
Gözləyərək göz dikmişdi ormana,
Dəmirdağdır, çəkimi var ananın.

O, Odərboy, o, Odərpay deyirdi,
Ürəyində böyük Turqtay deyirdi,
Soruşana ana «vay-vay» deyirdi,
Dəmirdağdır, çəkimi var ananın.

Tək qalmışdı, başı altda qılıncı,
Göz yaşından nəm çəkmişdi balıncı.
Təkbaşına Uğurelin yerinci,
Dəmirdağdır, çəkimi var ananın.

Görən, niyə ürəyini yeyirdi,

Ayrılıqdan qoşma, ağı deyirdi,
Hərdən-birdən dizlərini döyürdü,
Dəmirdağdır, çəkimi var ananın.

***

Hərdən-birdən kövrəlirəm, uzaqlar,
Gözdən uzaq könüldən də uzaqdır.
Altı aydır Turq vuruşda, döyüşdə,
Gözdən uzaq könüldən də uzaqdır.
Mindiyara iki oğul doğmuşam,
Üçüncünü öz içimdə sıxmışam.
Evdə qalıb öz evimi yıxmışam,
Gözdən uzaq könüldən də uzaqdır.

Çineldən yox, mən Hindeldən qorxuram,
Qorxuram ki, Hindel dönə çovğuna,
Tanrım, əl tut bu tək qalmış qadına,
Gözdən uzaq könüldən də uzaqdır.

Bu Başevin adamları soyuqdur,
Turqtay üçün könlüm ovuq-ovuqdur,
Sevgi yandan könlüm bütün sınıqdır,
Gözdən uzaq könüldən də uzaqdır.

Turqum, məni təpikləyir üçüncü,
Sənsən mənim içim, çölüm, sevincim,
Ey ölkəmin böyük şahı, yerinci,
Gözdən uzaq könüldən də uzaqdır.

***

-Hərdən-birdən kövrəlirəm, uzaqlar,
Qala bilməz sevən ürək təkayrı.
Mən qırğıydım, indi toyuq olmuşam,
Qala bilməz sevən ürək təkayrı.

Yaranışla, dolanışla dayanış,
Mənim ərim Turqtayımdan bərk yapış,
Hərdən-birdən ona məndən bir danış,
Qala bilməz sevən ürək təkayrı.

Eşitmişəm Parsa onu bəyənib,
O, nəyinə, o, kiminə güvənir,
Sanki uyub ona ərim, Turq dönüb,
Qala bilməz sevən ürək təkayrı.

Alçiçəyəm, öz sevgimdən dönmərəm,
Ulduz sönər, mən sevgimdə sönmərəm,
Anam Yanqu zirvəsindən enmərəm,
Qala bilməz sevən ürək təkayrı.

Alçiçəyəm, anam Yanqu balası,
Odərboyun, Odərpayın anası,
Ufuldayır qız sevgimin yarası,
Qala bilməz sevən ürək təkayrı.

***

Bir yay kimi Turq yumulur, açılır,
Olacağı duy öncədən, görginən.
«Hindel yandan Uğurelə yürüş var,
Olacağı duy öncədən, görginən.

Gənc Armasın alacaqlar öcünü,
Qıracaqlar Uğurelin gücünü,
Açacaqlar içlərinin içini,
Olacağı duy öncədən, görginən.

-Ay ağaclar, güllər, kollar, bitkilər,
Gözü yolda sevil-sevil sevgilər,
Pardaqlanmış göygöllərdən güzgülər,
Olacağı duy öncədən, görginən.

Yol göstərin, Uğurelə tez çatım,
Təkdir gülüm, Alçiçəyim, qanadım,
Çap, dayanma, Şimşəkatım, quş atım,
Olacağı duy öncədən, görginən.

Gözəl Yanqum-Alçiçəyim, gəlirəm,
Darıxıbsan, vurnuxursan, bilirəm,
Çap-çap, atım, çap, tərini silirəm,
Olacağı duy öncədən, görginən.»

Armas-Adra söyləncisi

Çatdı evə gənc Armasın ölüsü,
Döyüş qandır, yara-xora,ölüdür.
Subay idi, igid idi, gənc idi,
Döyüş qandır, yara-xora, ölüdür.

Hindel şahı bunu görüb sarsıldı,

Ayrılaraq bir bucağa sıxıldı,
Gözlərindən öc odları saçıldı,
Döyüş qandır, yara-xora, ölüdür.
Dedi:-Hanca Turq döyüşür uzaqda,
Gedək, salaq arvadını ayaqdan,
Düşsün alma yetişməmiş budaqdan,
Döyüş qandır, yara-xora, ölüdür.

Ya ölərik, ya qalarıq, yetərdir,
Onsuz hamı bu dirrikdən gedərdir.
Gedən dönüb bir də yerdə bitərdir,
Döyüş qandır, yara-xora, ölüdür.

Mən deyirəm Hind elləri adından,
Yurdum qaldı qan-qadanın altında,
Dur, çıx, Hindel, çıx qapılar dalından,
Döyüş qandır, yara-xora, ölüdür.

***

Sansi gəlib Alçiçəyə söylədi:
-Boylu qadın ağır işə girişməz.
Adra gəlir, yüz min toplum başında,
Boylu qadın ağır işə girişməz.

Ana dedi:-Uğurelə vay düşüb,
Mən duymuşdum Hindel yandan yürüşü,
Quşatımı verin, gedim döyüşüm,
Boylu qadın ağır işə girişməz.

Ərənləri o topladı bir yerə,
İş tapşırdı hər ərənə, hər ərə,
Sonra çıxdı, başraq tutdu ilk kərə,
Boylu qadın ağır işə girişməz.

Dedi:-Çıxın irəliyə, döyüşə,
Adra şahla yenə duraq döş-döşə,
Döyüşlərdə dəmir kimi bərkişək,
Boylu qadın ağır işə girişməz.

Başraq mənim əlimdədir, qorxmayın,
İrəliyə çıxın, dala baxmayın,
Sıralardan siz qırağa çıxmayın,
Boylu qadın ağır işə girişməz.

***

Adra şahı görüb durdu Alçiçək,
Danışıqdan sonra vuruş başlayır,
Dedi:-Çıx, get, Uğureldən sağ ikən,
Danışıqdan sonra vuruş başlayır.

Elə bildin tək qalmışam, sısqayam,
At üstündə çapar deyil, yorğayam,
Alçiçəyəm, mən özgəyəm, başqayam,
Danışıqdan sonra vuruş başlayır.

Adra dedi, gözlərini doldurub:
-Turq döyüşdə Armasımı öldürüb,
Alçiçəyə qoy bunu da bildirim,
Danışıqdan sonra vuruş başlayır.

Qılınc göydə parıldadı, şütüdü,
Adra şahın biz qılıncı itidir,
Ana aşdı, at üstündə o dedi:
–Danışıqdan sonra vuruş başlayır.

Dedi: – Dargöz, qancıl, ərlər gözləyir,
Danışmadan vurub qırmaq düz deyil,
Lapdan vurdun, dərin yaram qan verir,
Danışıqdan sonra vuruş başlayır.

***

Bunu deyib aşdı, düşdü Alçiçək,
Qoşa ölür boylu ana öləndə.
Bir səs gəldi, o diksinib dəbərdi,
Qoşa ölür boylu ana öləndə.

Odərboyun səsi gəldi uzaqdan,
Alçiçəksə yaralıydı, qucaqda,
Keçinirdi, bərk tutmuşdu tutaqdan,
Qoşa ölür boylu ana öləndə.

Necə oldu, ana bir də diksindi,
Atlar ürkdü, yaraqlılar səksəndi,
Alçiçəyin son dözümü tükəndi,
Qoşa ölür boylu ana öləndə.
Dedi:-Oğlum, Odərboyum, çatginən,
Qancılları bir-birinə qatginən,
Mən ölürəm, oğul, məni tutginən,
Qoşa ölür boylu ana öləndə.

Mindiyarın başrağını al, ucalt,
Acıqanı öldür, ağlat, sən alçalt,
Atan Turq tək yenilməz ol, ona çat,
Qoşa ölür boylu ana öləndə.

***

Adra şahla boy-boy durdu Odərboy,
Acıqlı gənc qaplan kimi nərildər.
Qılıncını sıyırmadı, gözlədi,
Acıqlı gənc qaplan kimi nərildər.

-Mən Turq oğlu Odərboyam, Adra şah,
Gözləməyək, gəl vuruşaq birbaşa,
Tez son qoyaq bu yaramaz savaşa,
Acıqlı gənc qaplan kimi nərildər.

-Mən Adra şah, ağrı-acı çəkirəm,
Armas üçün göz yaşları tökürəm,
Mən bel qırıb, boy-buxunlar bükürəm,
Acıqlı gənc qaplan kimi nərildər.

-Mən Odərəm, Odərboydan oğluyam,
Adra şahdan yaman-yaman dağlıyam,
Döyüşçüyəm, mən qılınca bağlıyam,
Acıqlı gənc qaplan kimi nərildər.

Bunu deyib qılıncını sıyırdı,
Bir vuruşla şah yıxıldı, böyürdü,
Şahı alıb öz qanında doyurdu,
Acıqlı gənc qaplan kimi nərildər.

***

Dedi:-Vur, qır, Uğurelli, Minelli,
Basılarsan, qalma, durma bir yerdə.
Qılınc ilə, bizuc ilə qanad aç,
Basılarsan, qalma, durma bir yerdə.
Mən ortadan, siz yanlardan qabağa,
Qoyma çıxsın acıqanı qırağa,
Od vur kəndə, yerə-yurda, otlağa,
Basılarsan, qalma, durma bir yerdə.

Gərək yansın Adra şahın var-yoxu,
Unudulsun onun Armas qoduğu,
Qanla dolsun Yaşıldaşlar ovuğu,
Basılarsan, qalma, durma bir yerdə.

Odərboyam, oddan doğub soy-köküm,
Yara açın, sümük qırın, bel bükün,
Qoy diz çöksün acıqanlar lap bu gün,
Basılarsan, qalma, durma bir yerdə.

Odərboyam, Odərboydan əriyəm,
Mindiyarın başrağıyla diriyəm,
Mən də Turqam, min-min Turqdan biriyəm,
Basılarsan, qalma, durma bir yerdə.

***

-Başevəcən durma, yeri irəli,
Hər yürüşdə varlıq da var, var da var.
Adra şahın Başevini çapın siz,
Hər yürüşdə varlıq da var, var da var.

Mindiyarın ağ başrağı yelləndi,
Tunc səsləncər on-on, yüz-yüz dilləndi,
Uğurelin toplumları selləndi,
Hər yürüşdə varlıq da var, var da var.

Çox güclüydü acıqanın toplumu,
Tutmuşdular Odərboyun yolunu,
Kəsmişdilər boz fillərin dalını,
Hər yürüşdə varlıq da var, var da var.

- Oxla bizuc qoy söyləsin sözünü,
Tuşlanc edin siz fillərin gözünü,
Qılınclayın yaraqlının özünü,
Hər yürüşdə varlıq da var, var da var.

İndi gəlsin onbaşılar irəli,
Yanbaşılar, minbaşılar irəli,
Yanbaşılar, önbaşılar irəli,
Hər yürüşdə varlıq da var, var da var.

***

Endi toppuz, cingildədi qılınclar,
Döyüşlərdə qılınc, qalxan danışır.
Boğuşmalar, qışqırıqlar boş səsdir,
Döyüşlərdə qılınc, qalxan danışır.

Bağırtılar, qışqırıqlar ucaldı,
Qan fışqırdı, hər bir yeri qan aldı,

Döyüşçülər bir-birindən öc aldı,
Döyüşlərdə qılınc, qalxan danışır.

Qolsuz, başsız çox görünür, çox nədən,
Yarılan var düz başından beləcən,
Vardır hələ yastılanmış döş, gödən,
Döyüşlərdə qılınc, qalxan danışır.

Kimi «ana», kimi «nənə» çağırır,
Kimi ölür, son uduqda bağırır,
Vuruşanlar öz adını doğurur,
Döyüşlərdə qılınc, qalxan danışır.

Odərboyu vurmaq, yıxmaq olmayır,
O, bir yerdə bircə an da qalmayır,
Onu bizuc, oxla toppuz almayır,
Döyüşlərdə qılınc, qalxan danışır.

***

Hər vuranda «ana» deyir Odərboy,
Döyüşdə də ana uca tanrıdır.
Anasını qoyub gəldi Odərboy,
Döyüşdə də ana uca tanrıdır.

-Alın, bu, bir, iki, bu üç, bu da dörd,
Bu döyüşdə durma, baş əz, qarın yırt,
Didsin gərək öz ovunu quduz qurd,
Döyüşdə də ana uca tanrıdır.
Dedilər ki, Aladağdan Turq enir,
Uda-uda o, dumanı, o, çəni,
Capa-çapa beş gün edib hər günü,
Döyüşdə də ana uca tanrıdır.

Göy gurladı, şimşək çaxdı, yer əsdi,
Soruşdular, bu nə haydır, nə səsdir,
Hindellilər qaçan-qaçan tələsdi,
Döyüşdə də ana uca tanrıdır.

Bir səs gəldi:-Anam, bacım, Alçiçək,
Ey saçları qara qalan ağbirçək,
Adı ana, özü gözəl bəbənək,
Döyüşdə də ana uca tanrıdır.

***

-Tək qoymuşdum səni, Turqu bağışla,

Kişi dözməz, qadın dözər təkliyə.
Mən də beş ay sənsiz təklik çəkmişəm,
Kişi dözməz, qadın dözər təkliyə.

Neçə-neçə döyüşlərdən addadım,
Neçə şahın dizlərini qatdadım,
Sənsiz bağrım sənin üçün çatdayıb,
Kişi dözməz, qadın dözər təkliyə.

Uğureli qoyub hara getmisən,
Hansı döyüş-vuruşlarda itmisən,
Bu yaşımda məni dəli etmisən,
Kişi dözməz, qadın dözər təkliyə.

Mən Arması öldürmüşəm, qancılı,
Şimşəkqılınc gövdəsinə sancılıb,
İndi yatıb sonevində dincəlir,
Kişi dözməz, qadın dözər təkliyə.

Mənim Yanqum-Alçiçəyim hardadır,
Ana yurdum, Uğurelim dardadır,
Mən burdayam, o, Hindeldə – ordadır,
Kişi dözməz, qadın dözər təkliyə.

***

Turq döyüşə girdi yandan, böyürdən,
Vur qılıncı gözlənilməz yerindən,
Turq onları yandan vurub dağıtdı,
Vur qılıncı gözlənilməz yerindən.

Hindellilər çaşıb qaldı arada,
Seçənəcən bunca ağı qaradan,
Toplumları bir-bir çıxdı sıradan,
Vur qılıncı gözlənilməz yerindən.

Turq ayqırdı, atlıları kükrətdi,
Yan-yövrədən döyüş-vuruş öyrətdi,
Acıqanı öz içində kövrəltdi,
Vur qılıncı gözlənilməz yerindən.

Dedi:-Vurun, sağ qoymayın birini,
Vurun, tökün irəlini, gerini,
Qoy tanısın acıqanlar yerini,
Vur qılıncı gözlənilməz yerindən.

Quşa döndü, oda döndü Şimşəkat,
Yıxdı, əzdi Turqtay kimi şartaşart,
Qılınc, qalxan, at dırnağı dartadart,
Vur qılıncı gözlənilməz yerindən.

***

Çıxdı bir də ata, oğul üz-üzə,
Qoy var olsun, sevinc olsun hər görüş.
Ata, oğul Mindiyarın qoruncu,
Qoy var olsun, sevinc olsun hər görüş.

Turq oğluna baxdı, bir az tutuldu,
Qalın qaşlar, qara qaşlar çatıldı,
Basarlığa bir kövrəklik qatıldı,
Qoy var olsun, sevinc olsun hər görüş.

Dedi: – Oğul, anan hanı, çağırtdır,
Dedi: – Anam yaralıdır, ağırdır,
Turq diksinib bundan, bir də bağırdı,
Qoy var olsun, sevinc olsun hər görüş.
Alçiçəyi gətirdilər bayılmış,
Bir at üstə, yorğan üstə qoyulmuş,
Nə keçinib, nə də bir yol ayılmış,
Qoy var olsun, sevinc olsun hər görüş.

Turq qaldırıb öpdü qanlı üzünü,
Sol qolu yox, qol dibindən üzülüb,
Üzü qanlı, solğun, bir az küsülü,
Qoy var olsun, sevinc olsun hər görüş.

***

Dedi:-Yanqum-Alçiçəyim, gəlmişəm,
Sevgi varsa ölüm yoxdur sevənə.
Gözlərini açıb baxdı Alçiçək,
Sevgi varsa ölüm yoxdur sevənə.

Baxdı, ancaq o danışa bilmədi,
Sevgi onu harayladı, ölmədi,
Turq ağladı, göz yaşını silmədi,
Sevgi varsa ölüm yoxdur sevənə.

Oğlu güldü göz yaşları içində,
Nərildədi neçə toplum gücündə,
Ağlayanlar vardı, toplum köçündə,
Sevgi varsa ölüm yoxdur sevənə.

Dedi:-Ana, Adra şahı öldürdüm,
Mən öcümü, acığımı bildirdim,
Bu Hindeli o qotura güldürdüm,
Sevgi varsa ölüm yoxdur sevənə.

Mən gedirəm, döyüş hələ bitməyib,
Ürkü-qorxu üstümüzdən ötməyib,
Öc içimdə qalıb, hələ getməyib,
Sevgi varsa ölüm yoxdur sevənə.

***

Yerdə hanca gül var, onca sevgi var,
Boş-boşuna gül-çiçəyi dərmə sən.
Sevgi ölür ancaq sevən öləndə,
Boş-boşuna gül-çiçəyi dərmə sən.
Gül önündə əyil, ona yaxşı bax,
Sevgi kimi o, gülərdir, utancaq,
Gəl, gülündən bir gül dərim, gülyanaq,
Boş-boşuna gül-çiçəyi dərmə sən.

Sarı gülü öpüm, sınıq sevgidir,
Ağ gül yumuq qızdır, donuq sevgidir,
Al gül oddur, dibdən yanıq sevgidir,
Boş-boşuna gül-çiçəyi dərmə sən.

Gül tək bitir yerdə az-az sevgilər,
Gülə dönür çox əlçatmaz sevgilər,
Gül tək gülər hər qış, hər yaz sevgilər,
Boş-boşuna gül-çiçəyi dərmə sən.

İtən sevgi, de, hardasan, mən gəlim,
Bir yol səni qoxulayım, dincəlim,
Sənsən mənim gülə dönmüş sevgilim,
Boş-boşuna gül-çiçəyi dərmə sən.

***

Susun, kollar, yekə-yekə ağaclar,
Gül dilində gül sevgidən danışır.
Baş qoyubdur quru kolun çiyninə,
Gül dilində gül sevgidən danışır.

Köks dərib qulaq asır güneylər,
Qulaq asır qarlı-qarlı quzeylər,
Sevgimizi qovub boğdu ögeylər,

Gül dilində gül sevgidən danışır.

Gülə döndük, mən sarı gül, sən ağ gül
Aramızda duman qırçın, sallaq tül,
Sonra gülüb, gülə döndük büsbütün,
Gül dilində gül sevgidən danışır.

Yağış yağdı, güllər göyə sovruldu,
Sevgi güldü, yeni gülə çevrildi,
Sevən qaldı, sevməyənlər devrildi,
Gül dilində gül sevgidən danışır.

Gül sevgilər, güldən sevgi becərin,
İki qaya arasında cücərin,
Gah dağlarda, gah düzlərdə köçəri,
Gül dilində gül sevgidən danışır.

***

Nə küsübsən, gül-çiçəyim, Alçiçək,
Yanqum getdi, ancaq könlüm səndədir.
Yanqu olub məni bir də yaşatdın,
Yanqum getdi, ancaq könlüm səndədir.

Yaxına gəl, mən dolanım başına,
Dizin-dizin gəlib çıxım qarşına,
Bir əl çəkim kirpiyinə, qaşına,
Yanqum getdi, ancaq könlüm səndədir.

Gözünü qırp, bir üzümə gülginən,
Səndən sonra sevgim yoxdur, bilginən,
Bir əl uzat, göz yaşımı silginən,
Yanqum getdi, ancaq könlüm səndədir.

Qaynar-oynar gəncliyimiz solubdur,
Gənclik keçib, gözəlliyin qalıbdır,
Könül quşum səndə yuva salıbdır,
Yanqum getdi, ancaq könlüm səndədir.

Sil könlündən yumşaq-yuxa gücünü,
Qov dumanı, göstər gözəl üzünü,
Püflə, yandır ürəyimin közünü,
Yanqum getdi, ancaq könlüm səndədir.

***

Qancıl istək, seçilmədin sevgidən,

Bir istək var, bir dilək var, bir sevgi.
Ürəkdədir üç yuvası üçünün,
Bir istək var, bir dilək var, bir sevgi.

Sevgi qızmar-qaynar gənclik bulağı,
İstək-dilək yaşlıların qonağı,
İnam da var, tanrıların sınağı,
Bir istək var, bir dilək var, bir sevgi.
Üçünü də bir yaradıb yaradan,
O bulaşır, bu olaşır arada,
Yer ver bizə, tanrım, bu sıx sırada,
Bir istək var, bir dilək var, bir sevgi.

İsinişmək, bu da vardır hamıda,
İsinişmək hərdən tutur qanı da,
Qovsalar da o qayıtmır qapıdan,
Bir istək var, bir dilək var, bir sevgi.

Bir də var ki, könülçəkən, gözçəkən,
Bir gülüşlə ürəklərdə gül əkən,
Dörd sevgi var belə gözəl var ikən,
Bir istək var, bir dilək var, bir sevgi.

***

Tanrı mənə öz yerimi göstərər,
Öz yerini tap, gözəlim, hər yerdə,
Qarışdırma sən sevgiylə istəyi,
Öz yerini tap, gözəlim, hər yerdə.

Birləşdirmə sən sevgiylə istəyi,
Qarışdırsan ələnəcək ələyin,
Sevgi evdir, yerdəkilər dirəyi,
Öz yerini tap, gözəlim, hər yerdə.

Çox başçılar sevgilərə uymayıb,
Gözəl görüb, boş şey bilib, saymayıb,
Sevənlərsə dörd sevgidən doymayıb,
Öz yerini tap, gözəlim, hər yerdə.

İstə, ancaq istəyəni unutma,
İstəklinin ürəyini qanatma,
Üzülsən də sevdiyini sən atma,
Öz yerini tap, gözəlim, hər yerdə.

Alçiçəyi istəyirdi Turq belə,

İstək gəlib sevgi olub qırx ilə,
Tanrım, bax gör, nə yaraşır gül gülə,
Öz yerini tap, gözəlim, hər yerdə.

***

Alçiçəyi qaytardılar Başevə,
Öz yuvası, öz yeri var hərənin.
Öz evində tez toxdayar yaralı,
Öz yuvası, öz yeri var hərənin.

Beş ay çəkdi, yaraları sağaldı,
Sağaldıqca iç ağrısı çoxaldı,
Ürəyində çox diləklər yoxaldı,
Öz yuvası, öz yeri var hərənin.

O, döyüşdə sağ qolunu itirdi,
Paxıl gözlər onu gözə gətirdi,
Ürəyində acı tikan bitirdi,
Öz yuvası, öz yeri var hərənin.

Yaxınları eldə qara geydilər,
İgid ana-deyib onu öydülər,
Gizlindəsə dizlərini döydülər,
Öz yuvası, öz yeri var hərənin.

Ana, böyük ərən ana, ər ana,
İgidliyin yayılıbdır hər yana,
El gəlibdir qulluğunda dayana,
Öz yuvası, öz yeri var hərənin.

Xruş-Parsa söyləncisi

Asureldən saldı Xruş yolunu,
Acıqana yaxın durma, uzaq ol.
Gəmiləri çəkib getdi oraya,
Acıqana yaxın durma, uzaq ol.

Parsa dedi:-Öldürərlər bizi də,
Acıqandır onlar mənim gözümdə,
Gəl qayıdaq, qardaş, qumsal düzündən,
Acıqana yaxın durma, uzaq ol.

Xruş dedi:-Biz gedirik bu yolla,
Gedib qallam, Asurşahla bir ollam,

Onun ilə Turel yurdu mən allam,
Acıqana yaxın durma, uzaq ol.

Parsa dedi:-Biz pis günə qalarıq,
Turq yoluyla biz Tureli alarıq,
Yeni adla yeni kəndlər salarıq,
Acıqana yaxın durma, uzaq ol.

Xruş dedi:-Sən gedən yol düz deyil,
Turq Tureli bizə verməz, yaxşı bil,
Arielli gözdən düşür ilbəil,
Acıqana yaxın durma, uzaq ol.

***

Parsa dedi:-Turqtay bizə inanır,
Düz yol varsa nəyə gərək əyri yol?
Turel üçün danışaram Turqtayla,
Düz yol varsa nəyə gərək əyri yol?

-Bacım, Turqu sən sevirsən, sevginən,
Öz yolumla gedəcəyəm bil ki, mən,
Mən ölsəm də, əl çəkmərəm Tureldən,
Düz yol varsa nəyə gərək əyri yol?

Su yoluyla Asurelə çatdılar,
Gəmiləri gəmilərə qatdılar,
Asurşahla dizin-dizin otdular,
Düz yol varsa nəyə gərək əyri yol?

Yaralıydı o, Turqtaydan, sarıqlı,
Basıq idi son döyüşdə, acıqlı,
Mindiyardan çox küsülü, yanıqlı,
Düz yol varsa nəyə gərək əyri yol?

Dedi:-Bizə çəpər olub Mindiyar,
Bizdə yoxdur, Mindiyarda hər nə var,
Qırılıbdır yarı-yarı toplumlar,
Düz yol varsa nəyə gərək əyri yol?

***

Xruş dedi:-Mənə yardım göstərin,
Hanca böyük olsa ölkə dağılar,
Kiçik artar, parçalanar böyüklər,
Hanca böyük olsa ölkə dağılar.

Biz bir olsaq Mindiyarı yıxarıq,
Sıyrılarıq, o ölkədən çıxarıq,
Biz özümüz sizə vergi yığarıq,
Hanca böyük olsa ölkə dağılar.

Körfəz bizə körpü olar, bir olluq,
Bir ölkədə ikilikdə var olluq,
Mindiyara od ələrik, qor olluq,
Hanca böyük olsa ölkə dağılar.

Şah söylədi:-Belə birlik çətindir,
Qan daş üstə, qan su üstə bitəndir,
Turq qancıldır, hər bir şeyə gedəndir,
Hanca böyük olsa ölkə dağılar.

Xruş dedi:-Mən quraram işləri,
Toppuzumla qırılacaq dişləri,
Od vuraram, külə dönər leşləri,
Hanca böyük olsa ölkə dağılar.

***

O, çox dedi, bu da çox az eşitdi,
Basıq gəlib basar olmaz beş günə.
Şah gücünü itirmişdi büsbütün,
Basıq gəlib basar olmaz beş günə.

Parsa, Xruş qayıtdılar Turelə,
Qardaşıyla küsülüydü o hələ,
Dedi, «gedib verrəm Turqla əl-ələ»,
Basıq gəlib basar olmaz beş günə.

Gəmi, qayıq qaldı suda, çürüdü,
Yırğalanıb dərinlərə yeridi,
Çovğun düşdü, nə var idi, kürüdü,
Basıq gəlib basar olmaz beş günə.
Parsa sevgi sevinciylə qol-boyun,
Ona yersiz görünürdü bu oyun,
Turq onunçun həm sevgiydi, həm duyum,
Basıq gəlib basar olmaz beş günə.

O deyirdi:-Qardaş, məni danlama,
Çox çətindir sevgilini anlamaq,
«Turel» deyib sən bacını dağlama,
Basıq gəlib basar olmaz beş günə.

***

Xruş dedi:-Sən Armasa getmişdin,
Qadın bir yol ərə gedər, beş yol yox.
İndi Turqa ərə getmək dilərsən,
Qadın bir yol ərə gedər, beş yol yox.

Parsa dedi:-Turqtay hara, mən hara,
Sevgi məndə sağalmayan bir yara,
Mənim sevgim bənzər lam-lam çaylara,
Qadın bir yol ərə gedər, beş yol yox.

Mən kim idim, gör, indi kim olmuşam,
Qancıl idim, lapdan gül tək solmuşam,
Boş qab idim, ağrılarla dolmuşam,
Qadın bir yol ərə gedər, beş yol yox.

Mənə inan, qardaş, məni danlama,
Çox çətindir ilk sevgini anlamaq,
Məni daha «Turel» deyib yanlama,
Qadın bir yol ərə gedər, beş yol yox.

Mən gedərəm, bir bucağa sığınnam,
Ağlayaram gecə, gündüz, uğunnam,
Sevgilimə yaxın durram yaxınnan,
Qadın bir yol ərə gedər, beş yol yox.

***

Xruş dedi:-Sən Ariel qızısan,
Hər budağın öz kökü var, öz yeri,
Ərə getsən, get doğmaca yerlinə,
Hər budağın öz kökü var, öz yeri.
Parsa dedi:-Məni bir ay dindirmə,
Asurelə elçi hələ göndərmə,
Sən bacından öz üzünü döndərmə,
Hər budağın öz kökü var, öz yeri.

Bu bir ayda unudaram Turqu mən,
Unutmasam, güc dilərəm sevgidən,
Mən öc allam hər bir şeydən, Hər nədən,
Hər budağın öz kökü var, öz yeri.

Çəkdi məni tanrı yaman sınağa,
Bir gül idim, düşdüm qara torpağa,
Döndüm döyüş-vuruş üçün çolağa,
Hər budağın öz kökü var, öz yeri.

Mən istərəm gəlib sənə qovuşum,
Öz sevgimdən yan ötüm, yan sovuşum,
İlk sevgimin təkliyinə uyuşum,
Hər budağın öz kökü var, öz yeri.

***

Parsa getdi, beş ay, on ay yox oldu,
Öz sevgini axtar, axtar, tapginən,
Orda-burda çağırdılar Parsanı,
Öz sevgini axtar, axtar tapkiiən.

Turelyurddan Qobuyerə yol uzaq,
Parsa qızda nə at vardı, nə yaraq,
Yamyaşıldı eniş-yoxuş, ot, otlaq,
Öz sevgini axtar, axtar, tapginən.

-Tanrı, məni üzüqara eləmə,
«Belə olmaz sevgi»-demə, söyləmə,
Mən yazığam, mənə pis gün diləmə,
Öz sevgini axtar, axtar, tapginən.

Mən bilirəm, sevən deyil Turq məni,
El də deyib, sevər görən görəni,
Mən gedirəm ona bir də görünüm,
Öz sevgini axtar, axtar, tapginən.

Gedəcəyəm düşməyincə ayaqdan,
Mən gedirəm onu görüm qıraqdan,
Gözləyirəm günəş çıxsın bayaqdan,
Öz sevgini axtar, axtar, tapginən.

***

Keçdi üç ay, beş ay, bir il itkidən,
Gəzdiyini tapar bir gün axtaran.
Uğurelin Başevinin qapısı,
Gəzdiyini tapar bir gün axtaran.

Turq göründü Şimşəkatın belində,
Çal saqqalı didik batı yelindən,
Şimşəkqılınc parıldayır əlində,
Gəzdiyini tapar bir gün axtaran.

Turq Parsanı tanıyanda dayandı,
Qızın üzü al Günəşə boyandı,

Yorğun sevgi ürəyində oyandı,
Gəzdiyini tapar bir gün axtaran.

Dedi:-Parsa, gözəl qızım, bu sənsən?
Atın hanı, yaraqsızsan sən nədən?
Bir yorğunluq görməkdəyəm səndə mən,
Gəzdiyini tapar bir gün axtaran.

Parsa ona baş əyərək büküldü,
Gözlərindən iri yaşlar töküldü,
Üz-gözündən ağrı-acı çəkildi,
Gəzdiyini tapar bir gün axtaran.

***

Dedi:-Mənim böyük Turqum sağ olsun,
Uzaq yolun yorğunluğu ötəndir.
Mən vurğunluq yorğunuyam, açığı,
Uzaq yolun yorğunluğu ötəndir.

Mən gəlmişdim səni görüm yaxından,
Bir ucalıq alım uca dağından,
İşıq artsın gözlərimin ağında,
Uzaq yolun yorğunluğu ötəndir.
Böyük Turqsan, Mindiyarın öyümü,
Sən dillərin mahnısısan, deyimi,
Parsa qızın ürəyinin duyumu,
Uzaq yolun yorğunluğu ötəndir.

Gəlib çıxdım mən buraya bir ilə,
Səni gördüm, ta dönürəm Turelə,
Üç ay yolu yortmalıyam mən hələ,
Uzaq yolun yorğunluğu ötəndir.

Turq söylədi:-Buyur, Parsa, içəri,
Bir ay dincəl, gəz bu gözəl yerləri,
Çox gözəldir Uğurelin gör-görü,
Uzaq yolun yorğunluğu ötəndir.

***

İçəriyə ötürdülər Parsanı,
Dinclik verir, qan soyudur gözəllik.
Güllər güldü, sular güzgü tutdular,
Dinclik verir, qan soyudur gözəllik.

Qızlar aldı dörd yanını Parsanın,

Bəzədilər təklik çəkən sonanı,
Gedib gördü o, Alçiçək ananı,
Dinclik verir, qan soyudur gözəllik.

Öpdü Parsa Alçiçəyin əlindən,
Öymə dedi ona o, fars dilində,
Söz söylədi, gileyləndi elindən,
Dinclik verir, qan soyudur gözəllik.

Ağ ipəyin içindəydi Alçiçək,
Hər yanında ətək-ətək gül-çiçək,
Tutqun idi nədən isə ağbirçək,
Dinclik verir, qan soyudur gözəllik.

Parsa dedi:-Ana, məni bağışla,
Düz deməsəm məni öldür, qarğışla,
Doğru desəm, mənə qoşul, alqışla.
Dinclik verir, qan soyudur gözəllik.

***

-Mən Parsayam, Tuncay qızı Alçiçək,
Ağsaqqala, ağbirçəyə baş əy, keç,
Mən gəlmişəm qarşınızda baş əyəm,
Ağsaqqala, ağbirçəyə baş əy, keç.

Turqu gördüm, gənc yaşımda vuruldum,
Sevgi deyib ağlamaqdan yoruldum,
Səni gördüm, mən ayıldım, duruldum,
Ağsaqqala, ağbirçəyə baş əy, keç.

İçəriyə mən girərkən qapıdan,
Gördüm, gözəl, sən üstünsən hamıdan,
Bu yolu mən qayıdıram yarıdan,
Ağsaqqala, ağbirçəyə baş əy, keç.

Gözüm sevib, könlüm bunu duymayıb,
Könlüm yazıq gözlərimə uymayıb,
Ağlar gözün göz yaşını saymayıb,
Ağsaqqala, ağbirçəyə baş əy, keç.

Mənim sevgim ötəri bir küləkdir,
Göz sevgisi yoxdur, sevən ürəkdir,
Alçiçəyin sevgisisə tək-təkdir,
Ağsaqqala, ağbirçəyə baş əy, keç.

***

Turq çox böyük öncül, önər kişidir,
Gözdən deyil, sevgi gəlir ürəkdən.
Göz sevgisi məni, anam, aldadıb,
Gözdən deyil, sevgi gəlir ürəkdən.

-Qızım, Parsa, Turqu sevən çox olub,
Bu sevgilər yarı yolda yox olub,
Turq sevgidə ac yox, gözü tox olub,
Gözdən deyil, sevgi gəlir ürəkdən.

Yaxşı oldu açdın mənə könlünü,
Mən bəyəndim sənin doğru dilini,
Qoy başına çəkim, qızım, əlimi,
Gözdən deyil, sevgi gəlir ürəkdən.
Mən duymuşdum, Turqu sən də sevirsən,
Qulağıma çatmış idi söz hərdən,
Gəlib çıxdın özün bizə o yerdən,
Gözdən deyil, sevgi gəlir ürəkdən.

Sən çox gəncsən, Turqtay hara, sən hara,
Gözəl qızsan, çəkimlisən,–ağ-qara,
Səni maraq çəkib uzaq yollara,
Gözdən deyil, sevgi gəlir ürəkdən.

***

Turqtay gəldi, qızlar durdu ayağa,
Saysan, sən də sayılarsan daha çox,
-Durma, otur, Parsa,-dedi Alçiçək,
Saysan, sən də sayılarsan daha çox.

Turq söylədi:-Parsa bizə qonaqdır,
O, qız deyil, Mindiyara dayaqdır,
Duru qızdır, bicliklərdən uzaqdır,
Saysan, sən də sayılarsan daha çox.

Döyüşlərdə bacı, qardaş durmadı,
Çox ağrıdı, ağrı onu qırmadı,
Uzaq-uzaq yollar onu yormadı,
Saysan, sən də sayılarsan daha çox.

Mən görürəm, çox qoçaqsan, ayıqsan,
Vara, mala, bər-bəzəyə soyuqsan,
Turelyurdda hamıdan çox sayıqsan,
Saysan, sən də sayılarsan daha çox.

İndi orda nə yerinc var, nə başçı,
Darvidelli ya qırılıb, ya qaçıb,
Gərək yazam bunu şaha mən, bacım,
Saysan, sən də sayılarsan daha çox.

***

Yazım, ata, Parsa qızı yerinc qoy,
Dinclik olur şah olanda qız-qadın,
Turelyurdu Arielyurd adlandır,
Dinclik olur şah olanda qız-qadın.
Parsa dedi:-Ey ölkənin başbaşı,
Yaxşı olar yerinc ola qardaşım,
Arielyurd Mindiyarın üstdaşı,
Dinclik olur şah olanda qız-qadın.

Mən Xruşun qulluğunda duraram,
Hər işini işləyərəm, quraram,
Soraq tutub sizi hər gün araram,
Dinclik olur şah olanda qız-qadın.

-Parsa, sən ol, söykənc olsun o, sənə,
Vergi qoyma hər gələnə, gedənə,
Daş atma sən, söz atma sən yetənə,
Dinclik olur şah olanda qız-qadın.

Üç min ildir orda bu iş dolaşıb,
Vergi üstə el Başevlə dalaşıb,
Arielli artıq bişib, soylaşıb,
Dinclik olur şah olanda qız-qadın.

***

-Qızım, Parsa, inanıram mən sənə,
İnam olsa çox iş düşər yoluna.
Yazı yazım, apar çatdır atama,
İnam olsa çox iş düşər yoluna.

Çıxma yola belə atsız, yaraqsız,
Bu yollarda sən itərsən soraqsız,
Qadın gərək tək olmasın, dayaqsız,
İnam olsa çox iş düşər yoluna.

Alçiçəklə Parsa, bir də Dədədüz,
Gah meşəlik, gah uzanan yaşıl düz,
Gəzişirdi, danışırdı üzbəüz,

İnam olsa çox iş düşər yoluna.

Qonaqlıqlar, gəzintilər, cıdırlar,
Yaşıl döşlər, burma yollar, cığırlar,
Yağışlardan sonra sellər, çamırlar,
İnam olsa çox iş düşər yoluna.

Parsa sevdi gül qoxuyan düzləri,
Ona baxan, gülümsəyən üzləri.
Hərdən doldu gizli, qara gözləri,
İnam olsa çox iş düşər yoluna.

***

Dədədüzü qoşdu qıza Alçiçək,
Tək buraxma qızı uzaq yollara,
Yazı yazdı Turqtay, verdi Parsaya,
Tək buraxma qızı uzaq yollara.

Yola düşdü Əkbitənə Parsaqız,
Olacaqdan, olmuşlardan soraqsız,
Bir yazıyla sevinirdi o, yalnız,
Tək buraxma qızı uzaq yollara.

Ayrılanda doluxsundu, tutuldu,
Gözlər doldu, qara qaşlar çatıldı,
Atı çəkib üzərinə atıldı,
Tək buraxma qızı uzaq yollara.

Ürəyini qoyub getdi elə bil,
Çapdı, çapdı ulus-ulus, elbəel,
Dedi: «Turqtay ilk sevgimdir, son deyil»,
Tək buraxma qızı uzaq yollara.

Dədədüz də bir takımla onunla,
Dalda qaldı çox uzaqlar, yaxınlar,
Çaylar, göllər, çox axmazlar, axınlar,
Tək buraxma qızı uzaq yollara.

***

Uğureldən Əkbitənə kəsə yol,
Yol qısalmaz, günlər üç qat uzansa.
Tutqun idi Parsa, həm də sevincək,
Yol qısalmaz, günlər üç qat uzansa.

Düşünürdü: «Yazı mənim əlimdə,

Yerinc ollam bu yazıyla elimdə,
Uzun olar Arieldə dilim də,
Yol qısalmaz, günlər üç qat uzansa.
Qoy qardaşım bilsin, düz yol bu yoldur,
O hay-küylər, o deyənlər heç oldu,
Arielə bunca dibdaş qoyuldu,
Yol qısalmaz, günlər üç qat uzansa.

Yerinc olsam yeni yollar çəkərəm,
O yerləri ildə üç yol əkərəm,
Su saxlancı, dəyirmanı tikərəm,
Yol qısalmaz, günlər üç qat uzansa.

Deyərəm ki, «Xruş qardaş, indi gəl,
Sən deyəni quraq, tikək əlbəhəl,
Arieli şahlıq edək birtəhər,
Yol qısalmaz, günlər üç qat uzansa.

***

-Süd qardaşım, gözlə məni, gəlirəm,
Sevgi şahdır, sevən artır, şahlaşır.
Mən sevgimi qoyub orda, gəlirəm,
Sevgi şahdır, sevən artır, şahlaşır.

Yazı yazıb Turq, söyləyib ataya,
Qoy barışıq yerinc olsun oraya,
Mən yerinc tək çıxacağam ortaya,
Sevgi şahdır, sevən artır, şahlaşır.

Sevəcəyəm səndən gizli Turqu mən,
Edəcəyəm nə gəlirsə əlimdən,
Görəcəksən, sevgi nədir, Xruş, sən,
Sevgi şahdır, sevən artır, şahlaşır.

Parsa çapdı, görgü-yazı qoynunda,
Yellənərək Alçiçəyin donunda,
Yaşıldaşdan boyunbağı boynunda,
Sevgi şahdır, sevən artır, şahlaşır.

Dədədüzü saymayırdı, çapırdı,
O, kirpiklə göydən ulduz qapırdı,
O, yazıya baxıb dinclik tapırdı,
Sevgi şahdır, sevən artır, şahlaşır.

***

Qorxdu Parsa Əkbitənə çatanda,
Nə desən də bax, gör, Tanrı nə deyir.
Alov çəkib Başev gur-gur yanırdı,
Nə desən də bax, gör, Tanrı nə deyir.

Tüstü, alov burulurdu qarışıq,
Sıçrayırdı bir-birindən yapışıb,
Qara tüstü buludlara sarmaşıq,
Nə desən də bax, gör, Tanrı nə deyir.

At səyirdib Parsa gəldi yaxına,
Dədədüz də onla girdi axına,
Yaxın düşə bilmədilər yanğına,
Nə desən də bax, gör, Tanrı nə deyir.

Başev yanır, onunla da Əkbitən,
Ağzı açıq qalıb baxır hər gələn,
Bir səs gəlir alovların içindən,
Nə desən də bax, gör, Tanrı nə deyir.

Bu səs nədir, bu qışqırıq haradan,
Parsa gəlir, qulaq asır yaxından,
Alovların içindədir dörd bir yan,
Nə desən də bax, gör, Tanrı nə deyir.

***

Bu, Tanıdır, bir də Manay anadır,
Öz yerilə anılacaq hər görüş,
Ana, bala alov içrə görüşür,
Öz yerilə anılacaq hər görüş.

-Tanı bala, gəl yanıma, bu yana,
-Mən Turqızı axtarıram, ay ana,
-Çıx alovdan, çıxsan, yanğın dayanar,
Öz yerilə anılacaq hər görüş.

-Tanı bala, haradasan, gəlirəm,
-Ana, gəlmə, mən yanmışam, ölürəm,
-Gəl, ölümü öldürməyi bilirəm,
Öz yerilə anılacaq hər görüş.
-Tanı bala, ölmə, dayan, amandır,
-Ana, gəlmə, bura tüstü-dumandır,
-Dayan, gəldim!Tanrı!Yardım!O yandı!
Öz yerilə anılacaq hər görüş.

-Tanı bala, Turqız burda yıxılıb,
-Ana, Turqız buradadır, yaxılıb,
-Bala, gəl ki, evim, könlüm dağılır,
Öz yerilə anılacaq hər görüş.

***

Bütün gecə eşidildi bu səslər,
Yerdə qalmır, səs-söz köçür göylərə.
Deyən onlar iç qatıdır hərənin,
Yerdə qalmır, səs-söz köçür göylərə.

Qulaq asdı, Parsa səsə ağladı,
Girdi oda, hər bir yeri yoxladı,
Yanan evlər ürəyini dağladı,
Yerdə qalmır, səs-söz köçür göylərə.

O çağırdı Turqız ilə Tanını,
Alov tutdu Parsa qızın donunu,
Bir boz kölgə kəsdi onun yanını,
Yerdə qalmır, səs-söz köçür göylərə.

Dedi:-Parsa, onlar yandı, sən qayıt,
Get, yanmayan yananları sən ovut,
Göz yaşınla göz yaşları sən soyut,
Yerdə qalmır, səs-söz köçür göylərə.

-Bəs sən kimsən,-Parsa dedi Manaya,
Manay dedi:-Mən bir kölgə-anayam,
Gəldim bir də öz oğlumu sınayam,
Yerdə qalmır, səs-söz köçür göylərə.

***

Bütün gecə yandı evlər, obalar,
Çirkinlikdən üzülüşdür od-alov.
Bütün gecə Başev yandı, kül oldu,
Çirkinlikdən üzülüşdür od-alov.
Dedilər ki, öncə kölgə görünüb,
Yer tərpənib, evlər yerlə sürünüb,
Çox daxmalar yer üzündən kürünüb,
Çirkinlikdən üzülüşdür od-alov.

Tökülübdür dağ başından qayalar,
Qarışıbdır bir-birinə obalar,
İtib-batıb boy-boy duran daxmalar,
Çirkinlikdən üzülüşdür od-alov.

Tanrı verib Əkbitəni yellərə,
Qatıb diri nə var idi küllərə,
Ellər, boylar çəkilibdir çöllərə,
Çirkinlikdən üzülüşdür od-alov.

Altı min il yaşı olan kənd-kəsək,
Qatıb qovdu düzənliyə od, külək.
Tanrım, haçan bu yanğınlar sönəcək,
Çirkinlikdən üzülüşdür od-alov.

***

Parsa baxdı Turqtay yazan yazıya,
İllər keçər, yazı qalar illərə,
Dedi, «Daha yazı kimə gərəkdir»,
İllər keçər, yazı qalar illərə.

Dedi, «Daha neynəyirəm bunu mən,
Kimə deyim, kimsələrin dilindən,
Yazı çıxıb böyük Turqtay əlindən,
İllər keçər, yazı qalar illərə.

Xruş gəldi, tər içində yal-yaraq,
El-obanı at döşüylə yararaq,
Parsa qızı ondan-bundan soraraq,
İllər keçər, yazı qalar illərə.

Parsa güldü qardaşını görüncə,
Dedi:-Qardaş, mən yerincəm, – sevincək,
Bir yaradaq Arieli biz gərək,
İllər keçər, yazı qalar illərə.

Xruş dedi:-Mən bilirəm yerincsən,
Ancaq bil ki, yerinc kimi gülüncsən,
Öz sonuna çatacaqsan bir gün sən,
İllər keçər, yazı qalar illərə.

***

Dedi:-Mən də Manay qızla evlənnəm,
Şahlıq çatar şahdan qalan artara*,
Mən şah ollam Manay qızın yoluyla,
Şahlıq çatar şahdan qalan artara.

Parsa dedi:-Bu lap gözəl, lap yaxşı,
Mən elbaşı, sənsə elin başbaşı,

El sevinər, şah olarsa qardaşım,
Şahlıq çatar şahdan qalan artara.

Qız düşündü, «bəs Turq necə olacaq,
Şahdan sonra şahlıq kimə qalacaq?
Xruş güclə şahlıq yeri alacaq,
Şahlıq çatar şahdan qalan artara.

Xruş bildi Parsa nələr düşünür,
Bacısına o qıcıdı dişini,
Dedi, «Sənin, aşıraram işini»,
Şahlıq çatar şahdan qalan artara.

Dedi: - Bacı, Manay qızı al mənə,
Arieli bağışlayım mən sənə,
Turqa yaxın bacı sənsən, sən yenə,
Şahlıq çatar şahdan qalan artara.

***

Parsa dedi:-Onda yolu qayıdım,
Atasızsa qız, eşitsin qardaşı,
Qardaşıma sevgilimdən qız alım,
Atasızsa qız, eşitsin qardaşı.

Xruş dedi:-Turqtay gəlir çaparaq,
Bir il qalar sevinc yasaq, toy yasaq,
Bu yanğını gec eşidib yapalaq,
Atasızsa qız, eşitsin qardaşı.

***Övlad**

-Onda gərək burda onu gözləyək,
Bir oturaq, bu işləri düzləyək,
Ağrıgünü bir il gün-gün izləyək,
Atasızsa qız, eşitsin qardaşı.

Dedi:-Bacı, onda durum, at çapım,
Gedim gözəl Manay qıza yol tapım,
Qoy üzümə açıq olsun hər qapı,
Atasızsa qız, eşitsin qardaşı.

Parsa dedi:-İstəklisi yaralı,
O, Cumərdir, qıçı sınıb-qaralıb,
Qan itirib, ağrılardan saralıb,
Atasızsa qız, eşitsin qardaşı.

***

Xruş susdu, çox düşündü, daşındı,
Bic adamı gözlərindən tanıyın.
Dedi, «gedib öldürərəm Cuməri»,
Bic adamı gözlərindən tanıyın.

Xruş getdi, Parsa qaldı çırpınaq,
«Hara belə o tələsir bu sayaq,
Birdən gedib bir iş açar bu sarsaq»,
Bic adamı gözlərindən tanıyın.

Sevgi bütün sarsıtmışdı Parsanı,
Deyirdi ki, «düzəldərəm aranı,
Bərkidərəm Arieldə arxamı»,
Bic adamı gözlərindən tanıyın.

«Turqa əltut, Mindiyara arxayam,
Acıqana daşam, Turqa yuxayam,
Qardaşımın bayramında kovxayam»,
Bic adamı gözlərindən tanıyın.

Sevgi onu durultmuşdu su kimi,
Pardaqlanıb daranmışdı qu kimi,
Ağ geyimdə gəlinləşib qar kimi,
Bic adamı gözlərindən tanıyın.

***

Turq gələndə Başev dibdən yox idi,
Ucalmağın alçalmağı var imiş.
Başev böyük Mindiyarın zirvəsi,
Ucalmağın alçalmağı var imiş.

Düşdü atdan, o sıçradı irəli,
O sarsıldı yanğınları görəli,
Bilmədi ki, alov hələ seyrəlib,
Ucalmağın alçalmağı var imiş.

Turqun gözü qıyılaraq bərəldi,
–Ata!-dedi, –Ana!-dedi, kövrəldi,
Onun boyun damarları gərildi,
Ucalmağın alçalmağı var imiş.

Alçiçəyin hönkürtüsü, harayı
Diksindirir elə bil ki, Turqtayı,
Nə edirlər, ana dinclik tapmayır,

Ucalmağın alçalmağı var imiş.

-Hanı Tanı, Turqız, Başev, baş şəhər?
Mindiyarı gözləyirmiş gör nələr,
Göylər bizi dara çəkib, ay ellər,
Ucalmağın alçalmağı var imiş.

***

Odərpayla Sərtüz gəlir üztuta,
Od uludur, yanğın isə yamandır.
Sərtüz deyir:-Bu, Manayın işidir,
Od uludur, yanğın isə yamandır.

Odərpaysa od önündə diz çökür,
Gözlərindən göz-göz iri yaş tökür,
O ağlayır, tez-tez durub ah çəkir,
Od uludur, yanğın isə yamandır.

Turq söyləyir:-Gəbərdərəm Yamanı,
Külə dönər onun olan-qalanı,
O nə adla bu yanlara dolanıb,
Od uludur, yanğın isə yamandır.
Sərtüz dedi:-Tanrı, bizə güc yetir,
Yaxşılıqla bizə od ver, qor gətir,
Yamanları yaxşılıqla al, itir,
Od uludur, yanğın isə yamandır.

Odərpayın səsi bütün batmışdı,
Səsi gedib tanrılara çatmışdı,
Səs batsa da od, alovu artmışdı,
Od uludur, yanğın isə yamandır.

***

Əkbitənin buludludur göyləri,
Çən yaylığı dağlar sıxıb gözünə,
Boz, ağ tüstü sarmaşaraq burulur,
Çən yaylığı dağlar sıxıb gözünə.

Tüstülənir Başev, evlər, daxmalar,
Qışqırışır uşaqlarla çağalar,
Qucaqlaşıb ağlayırlar doğmalar,
Çən yaylığı dağlar sıxıb gözünə.

İşıldayır dirəklərin gözləri,
Qızardırlar solğun-solğun üzləri,

Kösöv, kül, köz bürüyübdür düzləri,
Çən yaylığı dağlar sıxıb gözünə.

Yeləsəndən qorxa-qorxa yel əsir,
Qovur, qovur o, dumanı, o, sisi,
Çoxu yeni yer tapmağa tələsir,
Çən yaylığı dağlar sıxıb gözünə.

Dağ başından sanki Turər boylanır,
Əkbitənin dörd yanını dolanır.
Ulu Turqun ağ qaşları sallanıb,
Çən yaylığı dağlar sıxıb gözünə.

Qızbax, Qızağ, Düzər, Yüzər yanında,
Dərin-dərin qırışlar var alnında,
Öc qaynayır, ağrı coşur qanında,
Çən yaylığı dağlar sıxıb gözünə.

Cumərin ölüm söyləncі

Soraq gəlir, Cumər ölüb gecəykən,
Sevinc tək-tək, pissə gələr dalbadal.
Yanmış ev tək Cumər sönüb qaralıb,
Sevinc tək-tək, pissə gələr dalbadal.

Tuncər, Günay ağrıyerə* çatırlar,
Ellə birgə göz yaşına batırlar,
Ağıları acılara qatırlar,
Sevinc tək-tək, pissə gələr dalbadal.

Axsaq-axsaq gəlib çıxır Manay qız,
Ağrıyerdə yox ağısız, ağrısız,
Burda kimsə tapmaq olmaz Tanrısız,
Sevinc tək-tək, pissə gələr dalbadal.

Qız söyləyir:-Tanrım, bizə hayanlıq!
Bürüyübdür Mindiyarı dumanlıq,
Qoyma bizə üstün gələ yamanlıq,
Sevinc tək-tək, pissə gələr dalbadal.

Yaralandı Cumər Turel yolunda,
O dadmadı bir yol sevgi balından,
O tutmadı bir yol mənim qolumdan,
Sevinc tək-tək, pissə gələr dalbadal.

Alınyolum, alınyazım o idi,
Söykənc arxam, dadım-duzum o idi,
Mən lal-dinməz, sazım-sözüm o idi,
Sevinc tək-tək, ağrı gələr dalbadal.

***

Qız toplumu sıra-sıra gəlirdi,
İpək qızlar döyüşlərdə bərkiyir.
Ağrıyerdə and içdilər Cumərə,
İpək qızlar döyüşlərdə bərkiyir.

Dedilər ki, «Biz bu gündən Cumərik,
«Cumərtoplum» adı altda biz birik,

**Yas*

Manayqızlıq, Cumərlikdir bu birlik,
İpək qızlar döyüşlərdə bərkiyir.

Bəsləyərik qartallarla qurdları,
Cumərliklə çapar-çapar atları,
Qoruyarıq ulusları, elləri,
İpək qızlar döyüşlərdə bərkiyir.

Çuqçular da gəlib bizə qovuşar,
Qız, oğlanlar bir-birindən yapışar,
Burda çox-çox alınyolu tapışar,
İpək qızlar döyüşlərdə bərkiyir.

Qızlar dedi, Cumər ölüb, biz varıq,
Cumərləşib qancılları yararıq,
Biz Cumərik, yamanları qırarıq,
İpək qızlar döyüşlərdə bərkiyir.

Manay qızı bu Cumərlik ovutdu,
İçindəki yanğıları soyutdu,
Gözlərində göz yaşını qurutdu,
İpək qızlar döyüşlərdə bərkiyir.

***

Dirrik, sənin dayanışın yenilməz,
Sən Tanrısan dayanışda, Tanrı sən,
Səndən ot da heç ayrılmaq istəmir,
Sən Tanrısan dayanışda, Tanrı sən.

Apar çatdır tanrılara Cuməri,

De, el üçün yaralanıb, göyərib,
Çox güclüydü onun döyüş təpəri,
Sən Tanrısan dayanışda, Tanrı sən.

O, beş yüz il yaşayardı, qalsaydı,
Dağlaşardı sənlə yaşa dolsaydı,
Dadış* duyar Manayqızı alsaydı,
Sən Tanrısan dayanışda, Tanrı sən.

***Kam**

Yat, Cumərim, öz yurdunun qoynunda,
El borcu yox, ulus borcu boynunda,
Turər, Manay, Tanı gücü qanında,
Sən Tanrısan dayanışda, Tanrı sən.

Biz Cumərik, yamanları qırarıq,
Biz yamansız bir dayanış qurarıq,
Səni onda arayarıq, sorarıq,
Sən Tanrısan dayanışda, Tanrı sən.

Doğmaların yetişincə yatginən,
Gül-çiçəkli yuxulara batginən,
Sərtüz deyən o günlərə çatginən,
Sən Tanrısan dayanışda, Tanrı sən.

***

Şaman dedi:-Bunu Manay yandırıb,
Ölənlərin dönüb gəlir içqatı*,
Tanısını aparmağa gəlibmiş,
Ölənlərin dönüb gəlir içqatı.

Tanrılardan bunu özü diləyib,
Tanrı özü bu yanğını piləyib,
Tanı şahı od-alova bələyib,
Ölənlərin dönüb gəlir içqatı.

Mən şamanam, ölənlərin görüncü,
Yerlə göyün arasında ölümcül,
Tanrıların şamanlıqda yerinci,
Ölənlərin dönüb gəlir içqatı.

Mən görürəm, bir gənc gəlir sevincək,
O gənc gəlib bu yerləri tikəcək,
At yolları, su yolları çəkəcək,

Ölənlərin dönüb gəlir içqatı.

Mən görürəm, gəncləşəcək Mindiyar,
Ölənlərlə ucalacaq qalanlar,
Bölüşəcək varlarını yoxla var,
Ölənlərin dönüb gəlir içqatı.

***Ruh**

Mən görürəm Turqu, Odərboydanı,
Diz çökdürüb qabağında Yamanı,
Birləşdirib yerdə dağı, aranı,
Ölənlərin dönüb gəlir içqatı.

***

Sonra şaman ağac çalıb oynadı,
Çox danışan, çox oynayan acınar,
Ağzı-burnu köpükləndi, qurudu,
Çox danışan, çox oynayan acınar.

Acınaraq gördü Aşa, Atranı,
Beş min ildən sonra gələn sonranı,
Tunc at gəlib, atıb xışı, yabanı,
Çox danışan, çox oynayan acınar.

Gördü bütün dəyişilib dayanış,
Dəyişilib dibdən sanki yaranış,
Özgə yana üz tutubdur inanış,
Çox danışan, çox oynayan acınar.

Sonra şaman yavaş-yavaş ayıldı,
Dedikləri ağız-ağız yayıldı,
Hamı güldü, şaman dəli sayıldı,
Çox danışan, çox oynayan acınar.

Dedilər ki, bunun başı yellidir,
Yaşı keçib, yaşı beş yol əllidir,
Dediyindən düşüncəsi bəllidir,
Çox danışan, çox oynayan acınar.

Şaman dedi:-Gördüyümü demişəm,
Gərək bura gəlməyəydim görüşə,
Mən özüm də inanmıram bu işə,
Çox danışan, çox oynayan acınar.

***

Xruş gəldi, dəmirgeyim, yaraqlı,
Qoy içüzün çölüzünlə bir olsun,
Alçiçəyə, Turqa Xruş baş əydi,
Qoy içüzün çölüzünlə bir olsun.
-Daşqoyanam, evtikənəm-dedi-mən,
Bir ev tikim, gözəl olsun Başevdən,
Ev tikməkdə hər iş gəlir əlimdən,
Qoy içüzün çölüzünlə bir olsun.

Qoy «hə» desin böyük Turqtay, başlayım,
Nə işim var qoyum yerə, boşlayım,
Üç il burda mən yaylayım, qışlayım,
Qoy içüzün çölüzünlə bir olsun.

Odərboydan al daşları sıldırım,
Sıldırımdan dəvə daşlar saldırım,
O daşlardan böyük Başev qaldırım,
Qoy içüzün çölüzünlə bir olsun.

-Neçə ilə Başev başa gələcək?
Tikilincə olan-qalan öləcək,
Tikilməsə ölkə məndən biləcək,
Qoy içüzün çölüzünlə bir olsun.

Söz verirsən, mən də sənə söz verim,
Tikəmməsən sonev olar son yerin,
Ucalt, səni başıuca mən görüm,
Qoy içüzün çölüzünlə bir olsun.

***

-Biz gedirik ağrıyerə buradan,
Toya dönsün ağrıyerin ağrısı,
Mindiyarın Cumər oğlu keçinib,
Toya dönsün ağrıyerin ağrısı.

Hər min ildən bir yol tanrı sınağı,
Tanrı bizim, biz tanrının dayağı,
Yaşamayaq yer üzündə bayağı,
Toya dönsün ağrıyerin ağrısı.

Yananlardan qalmamışdı sümük də,
Od hər şeyi keçirmişdi körükdən,
Qoy götürüm bir ovuc kül küllükdən,
Toya dönsün ağrıyerin ağrısı.

İki ovuc kül götürdü Turq özü,
Oddan aldı o, Tanını, Turqızı,
Alçiçəyi dara çəkdi bu dözüm,
Toya dönsün ağrıyerin ağrısı.

Dedi:Tanrı, qoru bizi yanğından,
Qoru bizi acıqandan, azğından,
Qoru bizi yeruçdudan*, daşqından,
Toya dönsün ağrıyerin ağrısı.

Dedi: -Turdan Turqa kimi on min il,
Mindiyarı ucaldıbsan ilbəil,
Basar olub basılmışıq mindəbir,
Toya dönsün ağrıyerin ağrısı.

Odərboydan söyləncі

Qobuyerdən Qobuçölə bir il yol,
Uzaqları tez-tez anar yaxınlar.
Aralıqda doğma Qıpçaq çölləri,
Uzaqları tez-tez anar yaxınlar.

Bir az ləngi Odərboydan keçəndə,
Bulaqların gözlərindən içəndə,
Sərin palıd kölgəsini seçəndə,
Uzaqları tez-tez anar yaxınlar.

Göy qovağın, göy söyüdün telləri,
Şiş dağlardan əsən sərin yelləri,
Yarğanları gəmirtdəyən selləri,
Uzaqları tez-tez anar yaxınlar.

At ilxısı, mal naxırı qaynayır,
Dayçaları çəpişlərlə oynayır,
Kəl kişnəyir, at quş kimi banlayır,
Uzaqları tez-tez anar yaxınlar.

Evdə, çöldə nəyi varsa qonağın,
Alma qızın vardır al-al yanağı,

Zəlzələ

Bal-qaymaqdan dolu-dolu dodağı,
Uzaqları tez-tez anar yaxınlar.

Yaylaqları, oylaqları özgədir,
Dağlarının quzey yalı kölgədir,
Odərboydan özü böyük ölkədir,
Uzaqları tez-tez anar yaxınlar.

***

Odərboyun Odərboyca boyları,
Tanıqlanar ölkə igid adıyla.
Asureldə, Balasqeldə vuruşlar,
Tanıqlanar ölkə igid adıyla.

Turqa sevgi, Alçiçəyə sayıntı,
Bu çöllərdə ayda üç yol yağıntı,
Bu yer olub Mindiyara tapıntı,
Tanıqlanar ölkə igid adıyla.

Odərpayın Suböləni, Duzdağı,
Ocaq yanar iri çaylar qırağı,
Tanrı verib bu yararlı torpağı,
Tanıqlanar ölkə igid adıyla.

Bu yerləri düz ürəklə gəz, dolaş,
Burda başdır inam qardaş, güc qardaş,
Bu yerlərə ayağını bas yavaş,
Tanıqlanar ölkə igid adıyla.

Qobuyerdə adam sayı ocaq var,
Gələn gəlib Odərpayı soraqlar,
Boy-boy yatır ulduz altda qonaqlar,
Tanıqlanar ölkə igid adıyla.

Odərpayla Sərtüz verib əl-ələ,
Yoxsa adam tanrılaşmaz bir belə,
O, Sərtüzlə qol-qoladır, dil-dilə,
Tanıqlanar ölkə igid adıyla.

***

Odərpayın solğun üzü ağappaq,
Tanrılar da kök deyildir deyəsən.
Üzündəcə Turqdan qalma işıq var,
Tanrılar da kök deyildir deyəsən.

Yeməyi yox, içməyi yox elə də,
O sevməyib, evlənməyib hələ də,
O, tək gəzib ətəyini yellədər,

Tanrılar da kök deyildir deyəsən.

Qan-qadanın qancılıdır Odərpay,
Açıb ocaq qapısını taybatay.
Gəlir ellər üztutuna doqquz ay,
Tanrılar da kök deyildir deyəsən.

–Balalarım, qan-qadadan çəkinin,
Tutun, gedin qardaşlığın yükünü,
Seçin işin ağırını, bərkini,
Tanrılar da kök deyildir deyəsən.

Ağır gündə tanrılara sığının,
Artıq yükdür qızıl, gümüş yığını,
Varla başlar döyüş-vuruş qırğını,
Tanrılar da kök deyildir deyəsən.

Uzaq olun sarsaq, acgöz istəkdən,
Tanrılara qulaq asın bələkdən.
Çox ələrsən, heç nə qalmaz ələkdə,
Tanrılar da kök deyildir deyəsən.

***

Odərpayın paltarları gepgeniş,
Kişi gərək seçilməyə geyimdə.
Qurşaq sallaq, ətək uzun, saç topa,
Kişi gərək seçilməyə geyimdə.

Tanrı, bizə güc ver, basaq yamanı,
Qovaq getsin içimizdən yalanı,
Bu dayanış doğruluqla dolanır,
Kişi gərək seçilməyə geyimdə.

Qobuyerdən Qobuçölə Sərtüzük,
Sənin böyük yolun kimi düpdüzük,
Səni sevən ulus bizik, el bizik,
Kişi gərək seçilməyə geyimdə.
Qatdaq qalıb qabağında dizlərim,
Dikilibdir göyə mənim gözlərim,
Sönmək bilməz ocağımın gözləri,
Kişi gərək seçilməyə geyimdə.

Min-min gəlir ocaqlarda üztuta,
Kəsi ilə toxdaq tapır çox qada,
Yaxşılaşır ağrı çəkən hər adam,

Kişi gərək seçilməyə geyimdə.

Gül-çiçəyi Subölənin, Duzdağın,
Çayqırağı yanar qalır ocağı.
Gedib çatıb Muğelyurda sorağı,
Kişi gərək seçilməyə geyimdə.

***

İki qardaş – Odər, Önər yanaşı,
Hərənin öz yolu vardır dirrikdə.
Biri göyün, biri elin elçisi,
Hərənin öz yolu vardır dirrikdə.

Bir-birindən çox seçilib, ayrılıb,
Biri ocaq başındaca qovrulub,
Biri dəmir yal-yarağa sarılıb,
Hərənin öz yolu vardır dirrikdə.

Odərboya ad qoyulub ər-qaplan,
Qara gözlər parıltılı, alışqan,
Od-alovdur, döyüşkəndir, çalışqan,
Hərənin öz yolu vardır dirrikdə.

O, Odərboy yerincidir, baş əri,
Baş çəkərək eldə gəzir hər yeri,
Şaqqıldayır qoşqusunun təkəri,
Hərənin öz yolu vardır dirrikdə.

O, evdəki ululları unudub,
Gənclik qaynar bir bulaqdır, soyudub,
Gözü, gözəl qız ararkən, qapadıb,
Hərənin öz yolu vardır dirrikdə.

Döyüş-vuruş vurğunudur bu oğlan,
Döyüşkənlik verib ona yaradan,
Onu çəkir sınağına arada,
Hərənin öz yolu vardır dirrikdə.

***

Deyir:-Döyüş üstə durur dayanış,
Ölkə üçün çalış, vuruş, usanma,
Dəyişərəm dayanışın özünü,
Ölkə üçün çalış, vuruş, usanma.

Başev yanıb, onu bir də tikərəm,

Əkbitəni Odərboyda əkərəm,
Mən atamın dağ yükünü çəkərəm,
Ölkə üçün çalış, vuruş, usanma.

Süd qardaşım Odərpayın ocağı,
Üztutlardan saralıbdır yanağı,
Neçə qatdır qurşağının dolağı,
Ölkə üçün çalış, vuruş, usanma.

Gedim ondan bitdə-bitdə soruşum,
İlk gəncliyi ocaqlarda sovuşub,
Necə gedib tanrılara qovuşub,
Ölkə üçün çalış, vuruş, usanma.

Get göylərə, tanrılara yerinc ol,
Tanrıların arasında gilinc ol,
Döyüşlərdə yaralara təpinc ol,
Ölkə üçün çalış, vuruş, usanma.

Bizi tanrı iki yerə ayırıb,
Qan-qadayla bu torpağı doyurub,
Tanrı özü mənə «vuruş» buyurub,
Ölkə üçün çalış, vuruş, usanma.

***

Odərboydan toplum yığdı əlli min,
Qışda beli qoy, yarağı alginən.
Bütün qışı boş dayanma, əkinçi,
Qışda beli qoy, yarağı alginən.

Balasqeldən, Asureldən gələn var,
Eşidiblər yanıb Başev, Mindiyar,
Gəlirlər ki, bura yiyə duralar,
Qışda beli qoy, yarağı alginən.

Yeni qırğın yolu açır bu gəliş,
Başlayacaq Manayyurdda bu döyüş,
Odərboydan gedir Turqa deməmiş,
Qışda beli qoy, yarağı alginən.

Tuncər, Günay yapışdılar qılıncdan,
Azdı taxıl, arpa, saman saxlancda,
Un yığdılar evlərdəki qalıncdan,
Qışda beli qoy, yarağı alginən.

Dedilər ki, gərək qıraq onları,
Çox çapıblar onlar bizim diyarı,
Qırılıbdır iki yandan yapyarı,
Qışda beli qoy, yarağı alginən.

Ağüzelə Günay yazı yolladı,
Onu Tuncər, Günay qoşa qolladı,
Yaraqlılar atlarını nalladı,
Qışda beli qoy, yarağı alginən.

***

Gecə döyüş Manayyurdda başladı,
Bağışladın, bir də gələr acıqan,
Turq onları Balasqeldə qırmadı,
Bağışladın, bir də gələr acıqan.

Tuncər, Günay at üstündə, qabaqda,
Görünürdü yürüşçülər uzaqdan,
Yüz min oğul yapışmışdı yaraqdan,
Bağışladın, bir də gələr acıqan.

Göydə ulduz, yerdə atlı çoxalır,
Kişnərtidən batır göyün qulağı,
Addımlayır hamı oğru sayağı,
Bağışladın, bir də gələr acıqan.

Çırtlayanda dağ başında dan yeri,
Atlı, atsız bürümüşdü hər yeri,
Qoşaboğaz sularından az bəri,
Bağışladın, bir də gələr acıqan.
Tuncər, Günay başlayanda döyüşə,
Çöl, düz döndü sanki qanlı örüşə,
İki dəniz sanki gəldi döş-döşə,
Bağışladın, bir də gələr acıqan.

Bilinmirdi vuran kimdir, ölən kim,
Kim bacardır, kim basıqdır, bilən kim?
Tanrılardan barışığa gələn kim,
Bağışladın, bir də gələr acıqan.

***

Asurşahın oğlu çıxdı ortaya,
El deyib ki, daldan gələn bərk gələr,
Dedi:-Gəldim, alım ata öcünü,

El deyib ki, daldan gələn bərk gələr.

Qılıncımda yazılıbdır ad-sanım,
Tutacağam Manayyurdda hər yanı,
Toplumlarım məndən dalda dayanıb,
El deyib ki, daldan gələn bərk gələr.

Tuncər dedi:-Sən tək gələn çox olub,
Qayıdanda qan, qılıncdan pay alıb,
Qırılıblar, tək-tük qalıb, az qalıb,
El deyib ki, daldan gələn bərk gələr.

Tunc tutaqlar bizucları qatladı,
Toppuz dəydi, yerin bağrı çatladı,
Qor töküldü, atın yalın odladı,
El deyib ki, daldan gələn bərk gələr.

Qılınclaşdı, qurşaqlaşdı iki ər,
Yer açdıqca yerdə dizlər, dirsəklər,
Yorulmadı, əyilmədi biləklər,
El deyib ki, daldan gələn bərk gələr.

Döyüş-vuruş çəkdi bunca gecəyə,
Ölənlərin sayı gəlmir ölçüyə,
Yerdə onlar bənzər səpik mərciyə,
El deyib ki, daldan gələn bərk gələr.

***

Asurelin, Balasqelin gücü bir,
Basar olar iki güclü bir olsa,
«Yardım» deyə Tuncər baxdı arxaya,
Basar olar iki güclü bir olsa.

Minellilər beş gün belə vuruşdu,
Diş-dırnaqla güclülərlə didişdi,
Altıncı gün inam bitdi, dəyişdi,
Basar olar iki güclü bir olsa.

Tuncər qılınc vurumunu artırdı,
Acıqanın hay-küyünü yatırtdı,
Orda-burda donqultunu batırdı,
Basar olar iki güclü bir olsa.

-Duruş gətir! – Dedi Minel, Mindiyar,
Yerdə inam, göydə böyük Tanrı var,

Odərboyda bundan soraq tutarlar,
Basar olar iki güclü bir olsa.

Ancaq Minel toplumları qırıldı,
Sıraları sıra-sıra yarıldı,
Tuncər «vuruş», «inam» deyə yoruldu,
Basar olar iki güclü bir olsa.

Dörd bir yandan üzlərinə yol bağlı,
Günay qızı axtarırdı şah oğlu,
Çıxdı birdən önə bir gənc yaraqlı,
Basar olar iki güclü bir olsa.

***

Dedi:-Çox da oynaqlama, şah oğlu,
Qasırğa da əsir, birdən dayanır,
Odərboyam, Odərboydan gəlmişəm,
Qasırğa da əsir, birdən dayanır.

Geri çəkil, yoxsa günün pis olar,
Sonda səndən bir quruca gön qalar,
Toplumuna ac-yalavac qurd dolar,
Qasırğa da əsir, birdən dayanır.
Odərboyam, Odərboydan gəlmişəm,
Üç il qabaq Asureli almışam,
O yerlərdə burdan yerinc olmuşam,
Qasırğa da əsir, birdən dayanır.

Şah oğluna bu səs tanış gəlmədi,
Bu gələnin kimliyini bilmədi,
Şah gülsə də Odərboydan gülmədi,
Qasırğa da əsir, birdən dayanır.

Dedi:-Səsin Odərboya oxşamır,
O bu yana gəlmir, burda qışlamır,
Səsin mənə ər duyumu aşlamır,
Qasırğa da əsir, birdən dayanır.

Vuruşdular bir sonuncu inamla,
Durub baxdı bu vuruşa adamlar,
Belə olur çöldə yorğun axşamlar,
Qasırğa da əsir, birdən dayanır.

***

-Deyən, qızdır bu ər,-dedi şah oğlu,

Döyüşlərdə seçilməyir qız ərdən,
Çox aldatdı, güc göstərdi şah ona,
Döyüşlərdə seçilməyir qız ərdən.

Döyüşdülər yüz min ərin önündə,
Toplumları yorğun düşən bir gündə,
Bir qız idi o, Odərboy geyimdə,
Döyüşlərdə seçilməyir qız ərdən.

Bir səs gəldi, yer titrədi, uzaqdan,
Qız toplumu enib gəldi oylaqdan,
Sevinc, gülüş çiçəkləndi dodaqda,
Döyüşlərdə seçilməyir qız ərdən.

İgid dedi:- Mən Günayam, yapalaq,
Cumər qızlar gəldi yollar basaraq,
Minellilər yenə basar olacaq,
Döyüşlərdə seçilməyir qız ərdən.

Qılınc dəydi, şah oğlunu qorxutdu,
Günay onun al qanını axıtdı,
Qız toplumu qancılları dağıtdı,
Döyüşlərdə seçilməyir qız ərdən.

Bir ər gəldi, dağ gövdəli, qayadöş,
Dedi:-Mənəm Odərboydan, qudurmuş,
Səni çoxdan gözləyirdi bu döyüş;
Döyüşlərdə seçilməyir qız ərdən.

***

-Odərboyam, Odərboydan gəlmişəm,
-Döyüşəndə bəlli olar kimliyin.
-Sənlə mənim döyüş günüm bu gündür,
Döyüşəndə bəlli olar kimliyin.

-Mənim atam çolaq olub, sınıbdır,
Asurelin şah bayrağı enibdir,
Turq vurubdur, iki gözü sönübdür,
Döyüşəndə bəlli olar kimliyin.

Mən Turqtaydan, Odərboydan öc allam,
Manayyurdda Minelliyə baş ollam,
Manayqızı alıb burda ucallam,
Döyüşəndə bəlli olar kimliyin.

Odərboydan qılıncını sıyırdı,
Şah oğlunun üzərinə yüyürdü,
Acığından gözü atdı, səyirdi,
Döyüşəndə bəlli olar kimliyin.

Qılınc dəydi, tutuq iki bölündü,
Şah oğlunun içi-çölü bilindi,
Başı getdi, dağ gövdəsi yelləndi,
Döyüşəndə bəlli olar kimliyin.

Odərboydan vurub yıxdı gələni,
Özlərini basar-kəsər biləni,
Tapdaladı yaralını, ölünü,
Döyüşəndə bəlli olar kimliyin.

***

Cumərləşən qız toplumu yürüşdə,
Kimsə başraq olmalıdır qabaqda.
Tuncər, Günay, Çuqçubaşı, Manayqız,
Kimsə başraq olmalıdır qabaqda.

Odərboydan qırıb tökür, adlayır,
Əllər, bellər, qollar, qıçlar qatlayır.
Nəriltidən göyün bağrı çatlayır,
Kimsə başraq olmalıdır qabaqda.

Hər vuranda başlar, döşlər yarılır,
At adama, adam ata sarılır,
Asurelli yüz-yüz, min-min qırılır,
Kimsə başraq olmalıdır qabaqda.

Gözüqanlı Odərboydan qan tökür,
Toplum çəkib gələnlərə dağ çəkir,
Balasqelli, asurelli diz çökür,
Kimsə başraq olmalıdır qabaqda.

Bir ərəni görür birdən yaxında,
Qan qurumu saqqalında, bığında.
Qor tökülür qılıncından, oxundan,
Kimsə başraq olmalıdır qabaqda.

Deyir:-Kimsən, igid ərən, var gücün,
Qan ələyir toppuzunla bizucun,
Söylə, igid, vuruşursan kiminçin,
Kimsə başraq olmalıdır qabaqda.

***

Dağ gövdəli, qaya qollu ər dinir,
Bir yurdum var, Mindiyardır, Mineldir,
Acıqanı qıra-qıra gedirəm,
Bir yurdum var, Mindiyardır, Mineldir.

Dedilər ki, Manayyurdu tutublar,
Asurellə Balasqelə qatıblar,
Günay, Tuncər qan gölündə batıblar,
Bir yurdum var, Mindiyardır, Mineldir.
Təkbaşına gəlib çıxdım döyüşə,
Ər o ərdir el işinə yetişə,
İnanmazdım sənlə burda görüşəm,
Bir yurdum var, Mindiyardır, Mineldir.

Mən görürəm, atan kimi qoçaqsan,
Acıqanın başı üstə çomaqsan,
Odərboysan, Manayyurda qonaqsan,
Bir yurdum var, Mindiyardır, Mineldir.

Ağüzeldən Ağüz ərəm, döyüşkən,
Gəldim sənin qulluğunda durum mən,
Döyüşçüyəm, tək bu gəlir əlimdən,
Bir yurdum var, Mindiyardır, Mineldir.

-Ağüz ərim, çox yerində gəlmisən,
Toplumumda minbaşı ol bu gündən,
Asureli almalıyam bir də mən,
Bir yurdum var, Mindiyardır, Mineldir.

***

Ağüz ərin enli döşü qabarıq,
Döş-baş, qol-qıç güclü olar ərəndə,
Daş-qayaydı çiyinləri, kürəyi,
Döş-baş, qol-qıç güclü olar ərəndə.

Ağırlıqdan atın beli bükülüb,
Sıx saçları, sıx saqqalı tökülü,
Od baxışlar Odərboya dikilib,
Döş-baş, qol-qıç güclü olar ərəndə.

Hər ikisi yürüşdədir, yanbayan,
Ağüz vurdu, yüz qan aldı hər qana,
Dağ büründü qan qoxulu dumana,

Döş-baş, qol-qıç güclü olar ərəndə.

-Mən Ağüzəm, Odərboydan atlısı,
Asurelin, Balasqelin qanlısı,
Minellimin başı-gözü odlusu,
Döş-baş, qol-qıç güclü olar ərəndə.

Döyüş iki ölkə boyu gedirdi,
Minellinin basarlığı artırdı,
Acıqanlar qaçıb gözdən itirdi,
Döş-baş, qol-qıç güclü olar ərəndə.

Ağüz sağa, sola qılınc vururdu,
Qabağına kim çıxırdı, qırırdı,
Çapıb tez-tez Dümağ atı yorurdu,
Döş-baş, qol-qıç güclü olar ərəndə.

***

Şah oğlunun kəsik başı yerdədir,
Ölkə batar şah, yiyəsiz olanda,
Götürən yox, aparan yox, yuyan yox,
Ölkə batar şah, yiyəsiz olanda.

Basıq qaçıb öz yurduna dönürdü,
Gün istiydi, çöllər, yollar yanırdı,
Tutuqlarsa öz soyunu danırdı,
Ölkə batar şah, yiyəsiz olanda.

Balasqelli, asurelli basılıb,
Son umuna, son andına qısılıb,
İndi hər şey son vuruşdan asılı,
Ölkə batar şah, yiyəsiz olanda.

Hamı qaçdı, sona çatdı son vuruş,
Nə andiçmə, nə çağırış, nə duruş,
Acıqan da deyən daha ayılmış,
Ölkə batar şah, yiyəsiz olanda.

Dağılmışlar üz qoydular yollara,
Dırmaşdılar meşələrə, yallara,
Döndü sınıq-salxaq kölə-qullara,
Ölkə batar şah, yiyəsiz olanda.

Belə gündə hamı tanrı çağırar,
Ağlamaqdan saçlar, gözlər ağarar,

Son ayaqda qorxusundan bağırar,
Ölkə batar şah, yiyəsiz olanda.

***

Manayyurda yardım gəldi hər yandan,
Yardım gələr, ancaq çox-çox gecikər.
Arpa, buğda, sursat, qoşqu, – at ilə,
Yardım gələr, ancaq çox-çox gecikər.

Dönməmişdi hələ yurda ərənlər,
Acıqana dəmir köküs gərənlər,
Vuruşdadır-deyirdilər görənlər,
Yardım gələr, ancaq çox-çox gecikər.

Odərboydan, Ağüz döyüş qardaşı,
Biri başçı, o biri də minbaşı,
Acıqanla üz-üzədir, yanaşı,
Yardım gələr, ancaq çox-çox gecikər.

Seyrək meşə, isti külək, qum düzü,
Qızmar günəş yandırırdı üz-gözü,
Şəpə-şəpə sarı qumlar dənizi,
Yardım gələr, ancaq çox-çox gecikər.

Dodaqlarda susuzluqdan suluqlar,
Boyunlarda duzlu tərdən yanıqlar,
Əldə, qolda, dizdə yanıq çapıqlar,
Yardım gələr, ancaq çox-çox gecikər.

Odərboydan, Ağüz çapır atları,
Keçir bir-bir ulusları, yurdları,
Susuzluqdan batıq gözlə ordları,
Yardım gələr, ancaq çox-çox gecikər.

***

Toplumundan ayrı düşdü iki ər,
Ayrılıqda soyuqluq var, ölüm var,
Günəş vurdu, içlərini qovurdu,
Ayrılıqda soyuqluq var, ölüm var.

Diz qatdadı atlar susuz düzlərdə,
Od ələndi kirpiklərdən, gözlərdən,
Partdaq-partdaq oldu suluq üzlərdə,
Ayrılıqda soyuqluq var, ölüm var.
Yol gəldilər, gəlib suya çatdılar,

Özlərini göy dənizə atdılar.
Dinclik verən sərinliyə batdılar,
Ayrılıqda soyuqluq var, ölüm var.

Odərboydan üzdü, dala baxmadı,
Getdi, Körfəz sularından qorxmadı,
Ağüz çıxdı, Odərboydan çıxmadı,
Ayrılıqda soyuqluq var, ölüm var.

Sərin sular onu yerdən qopardı,
Alıb onu öz qoynuna, apardı,
Öc alırmış kimi dəniz qabardı,
Ayrılıqda soyuqluq var, ölüm var.

Ağüz onu çox axtardı, çağırdı,
–Odərboydan-deyib tez-tez bağırdı,
Su üzündən quşlar qalxdı, çığırdı,
Ayrılıqda soyuqluq var, ölüm var.

***

Bütün gecə, Ağüz üzdü, səslədi,
Su adamı səssiz-küysüz batırır,
Odərboydan su altında yatırdı,
Su adamı səssiz-küysüz batırır.

Odərboydan igid idi, yenilməz,
Yenilməzlər vuruşlarda əyilməz,
Dənizdəsə bu üstünlük bilinməz,
Su adamı səssiz-küysüz batırır.

Qaytar, dəniz, gənc ərəni Minelə,
Bu qancıllıq nəyə gərək bir belə,
Sevməyibdir, evlənməyib o hələ,
Su adamı səssiz-küysüz batırır.

Dəniz udur ən sağlamı, udqunur,
Sağlamlarla, gözəllərlə ovunur,
Bulud qorxur, dənizlərdən qorunur,
Su adamı səssiz-küysüz batırır.

Bu oğulun alınyolu beləydi,
Döyüşərək gərək bura gələydi,
Gərək gəlib bu yerlərdə öləydi,
Su adamı səssiz-küysüz batırır.

Gedin, deyin anasına, küləklər,
Göz yaşından yansın gözlər, ürəklər,
Çaxın burda oddan iti şimşəklər,
Su adamı səssiz-küysüz batırır.

***

Yara üstdən yara aldı Mindiyar,
Yara bir də yaralansa sağalmaz.
Tanı, Turqız, Cumər yatır sonevdə,
Yara bir də yaralansa sağalmaz.

Odərboydan dənizləşdi, boğuldu,
Suluqları, yanıqları sağaldı,
Odərboydan yeri-yurdu dağıldı,
Yara bir də yaralansa sağalmaz.

Ağrıyerin ağrıgünü bir ildir,
Böyük Turqun ata beli əyildi,
Boyda, yurdda, eldə ağı deyildi,
Yara bir də yaralansa sağalmaz.

Sərtüz dedi:-Alpis yaman qan tökür,
Başev yanır, oğul batır, dağ çökür,
O, baş üzür, qarın yırtır, döş sökür,
Yara bir də yaralansa sağalmaz.

Odərpayın göz yaşları ələnir,
Haray çəkir, min-min gözlər sellənir,
Sızıldaya-sızıldaya dillənir:
Yara bir də yaralansa sağalmaz.

Bunca adam öldürməyin, qardaşlar,
Yamanlığa dönüb qanlı savaşlar,
Buluddan da yağır qanlı yağışlar,
Yara bir də yaralansa sağalmaz.

Tanrı söyləncі

Sərtüz deyir:-Tanrı bunu götürməz,
Minel, bir də Odərboydan yetirməz,
Qanlı torpaq arpa, buğda bitirməz,
Yara bir də yaralansa sağalmaz.

Tanrı deyir:-Döyüşlərə son qoyun,
Naxır, sürü, ilxı olun yurd boyu,

Qan-qadadan göy tutulub, yer doyub,
Yara bir də yaralansa sağalmaz.

Tanrı deyir Odərpaya, Sərtüzə,
-Yerinclərim, tapşırıram mən sizə,
Ellər ilə siz oturun üz-üzə,
Yara bir də yaralansa sağalmaz.

Deyin, bu qan, bu acgözlük yetərdir,
Bunca dağ-daş əkilsəydi, bitərdi,
Ağ sürülər yaşıllıqda itərdi,
Yara bir də yaralansa sağalmaz.

Deyin daha döyüş-vuruş toxdasın,
Barış olsun, acı öclər ağlasın,
Barış ilə hamı ölkə saxlasın,
Yara bir də yaralansa sağalmaz.

Yoxsa Yaman minər seli, yanğını,
Minib çapar düşərliyi, qırğını,
Barış ilə yaxın siz o azğını,
Yara bir də yaralansa sağalmaz.

Parsa eli söyləncі

Xruş, Parsa oturdular üz-üzə,
Qan birdirsə düşüncələr bir deyil,
Xruş dedi:-Gəl öldürək Turqtayı,
Qan birdirsə düşüncələr bir deyil.

Parsa dedi:-Qardaş, dəli olmusan,
Burda dünən yerinc yeri almısan,
Tuluq olub acığınla dolmusan,
Qan birdirsə düşüncələr bir deyil.

Bacardıqca sən Turqtaydan uzaq ol,
Bizə yerinc yeri verən, bil, odur,
Hər bir döyüş bizə baha oturur,
Qan birdirsə duşüncələr bir deyil.

Xruş dedi:-Sən vurğunsan, azmısan,
Sonevini bu sevginlə qazmısan,
Orda, burda «Turq» deyərək qızmısan,
Qan birdirsə düşüncələr bir deyil.

Mən Ariel ölkəsini quraram,
Qabağıma nə çıxarsa yararam,
Şah olaram, şah yerimdə duraram,
Qan birdirsə düşüncələr bir deyil.

Parsa dedi:-Şah olmağa tələsmə,
Külək olub qasırğa tək sən əsmə,
Baş olmaqçın bunca, qardaş, baş kəsmə,
Qan birdirsə düşüncələr bir deyil.

***

Xruş dedi:-Get, gözümdən uzaq ol,
Yaxın adam qancıl olar yaxına,
Odur bilən sənin içlə çölünü,
Yaxın adam qancıl olar yaxına.

Mənə indi yardım, əltut gərəkdir,
Bil ki, əli dolandıran biləkdir,
Bacı, qardaş bir-birinə dirəkdir,
Yaxın adam qancıl olar yaxına.

Manayqızı alsam şah da olaram,
Bunca Turqu mən əlimə alaram,
Arieldə mən şəhərlər salaram,
Yaxın adam qancıl olar yaxına.

-İndi onlar ağrıyerdə oturaq,
Hər ölkədən ağrıyerdə var qonaq,
Elçilikdən, toydan onlar çox uzaq,
Yaxın adam qancıl olar yaxına.
Elçiliyə mən gedərəm gələn il,
İndi getmək bilirsən ki, düz deyil,
Buna vardır işıq yeri yüzdəbir,
Yaxın adam qancıl olar yaxına.

İndi mən də Arielə yerincəm,
Bunca sənə kölə ollam ölüncə,
Nə olsam da olacağa görüncəm,
Yaxın adam qancıl olar yaxına.

***

-Manayqızla Mindiyara şah ollam,
Göydəndüşmə nə oldusa qapginən.

Göydəndüşmə bir almadır Manayqız,
Göydəndüşmə nə oldusa qapginən.

Gəzib onu təkbaşına görəndə,
Qaçıraram mən günlərin birində,
Gətirərəm, oturdaram yerində,
Göydəndüşmə nə oldusa qapginən.

Əkbitəndə yeri vardır, şah yeri,
O, şah olar, mən də onun şah əri,
Mən yardıma səsləyərəm elləri,
Göydəndüşmə nə oldusa qapginən.

Tikdirərəm Əkbitəni yenidən,
Yiyə olluq Başevinə sənlə mən,
Bizə sağ ol deyər görən, görməyən,
Göydəndüşmə nə oldusa qapginən.

Sonra gəlir Manayqızı gəbərtmək,
Şah yerini dibdaşından dəbərtmək,
Minellini bu şahlıqdan süpürmək,
Göydəndüşmə nə oldusa qapginən.

İndi bacım nə buyurur, buyursun,
Bu şahlıqda nə istəyir, ayırsın.
Sevgisilə Turqdan qorğa qovursun,
Göydəndüşmə nə oldusa qapginən.

***

Parsa dedi:-Turq, Manayqız qalacaq,
Quduranda öz-özünə ölçü qoy.
Dadlı olur boş-boşuna danışmaq,
Quduranda öz-özünə ölçü qoy.

Turq, Manayqız Arielə yardımdır,
Biri başdır, biri başçı qadındır.
Biri sevgim, o birisi bacımdır,
Quduranda öz-özünə ölçü qoy.

Parsa, Xruş bunca bərk-bərk toqquşdu,
Turq üstündə bacı, qardaş boğuşdu,
Nə bu ona, nə o buna sığışdı,
Quduranda öz-özünə ölçü qoy.

Beş ay keçdi, küsülülər barışdı,

Xruş ondan Manayqızı soruşdu,
Qız nə ondan, nə də bundan danışdı,
Quduranda öz-özünə ölçü qoy.

Xruş dedi: «Bacım, mənim qancılım»,
Bunca necə Manayqızı qaçırım,
Parsadadır bu düyünün açarı,
Quduranda öz-özünə ölçü qoy.

Dedi bir az qoy bu işlər sovuşsun,
Bacım gərək sonevinə qovuşsun,
Yolum üstdə bu bir dağdır, qurğuşun,
Quduranda öz-özünə ölçü qoy.

***

Xruş bir gün Manayqızı qaçırtdı,
Qız qaçırsan barışığa üz saxla.
Bayılmışdı dərman ilə Manayqız,
Qız qaçırsan barışığa üz saxla.

Sonra getdi qapısına Turqtayın,
Dedi:-Məni bağışlasın Turq-qaynım,
Barmaq ilə açılmayır hər düyün,
Qız qaçırsan barışığa üz saxla.
Turq dedi ki,-Mən ağrıgün içində,
Osa gəlib parlaq geyim-kecimdə,
Mən hələ də çırpınıram içimdə,
Qız qaçırsan barışığa üz saxla.

Çox çalışdı Xruş, Turqu görmədi,
Görənlər də ona bir üz vermədi,
Heç kəs onla danışığa girmədi,
Qız qaçırsan barışığa üz saxla.

Beş gün Turqun qapısında oturdu,
Olan-qalan mənliyini itirdi,
İtlər hürdü, onu yola ötürdü,
Qız qaçırsan barışığa üz saxla.

Qan axıtma, söyləmişdi Odərpay,
Odur susdu həm Alçiçək, həm Turqtay.
Gilinc qaldı Mindiyarda bu olay,
Qız qaçırsan barışığa üz saxla.

***

Gələn gördü Xruş yolda Parsanı,
Hərdən adam gözlərinə inanmır,
Xruş dedi:-Parsa bacım, bu sənsən?
Hərdən adam gözlərinə inanmır.

Dedi:-Mənəm, Uğurelə gedirəm,
Gedirəm ki, Turqa bir söz yetirəm,
Qardaş, səni yer üzündən götürəm,
Hərdən adam gözlərinə inanmır.

Sən bacını, Manayqızı alçaltdın,
Od-alovu Əkbitənə sən atdın,
Cumərin də ağ gününü qaraltdın,
Hərdən adam gözlərinə inanmır.

Xruş çəkdi qılıncını qınından,
Dedi:-İçəm gərək sənin qanından,
Sözünü de son gününün sonunda,
Hərdən adam gözlərinə inanmır.

Qılınc endi, bacı iki bölündü,
Yerə-göyə sanki al qan ələndi,
«Turq» söylədi, dil ağızda yelləndi,
Hərdən adam gözlərinə inanmır.

Sonra düşdü, qucaqladı kolları,
Son baxışla yola saldı yolları,
Uzanırdı uzaqlara qolları,
Hərdən adam gözlərinə inanmır.

***

Turq eşitdi öldürüblər Parsanı,
Ölən var ki, öldürəni bilinmir,
Xruş dedi: – Onu Turqtay öldürüb,
Ölən var ki, öldürəni bilinmir.

Xruş dedi:-Onu Turqtay öldürüb,
Bu yol ilə öz öcünü bildirib,
Düz deyildir Turq deyənin heç biri,
Ölən var ki, öldürəni bilinmir.

Turq söylədi:-Qızın adı dirilsin,
Arielə Parsa adı verilsin,
Parsa özü bir ulusa çevrilsin,
Ölən var ki, öldürəni bilinmir.

Dedi:-Başev Əkbitəndə yox hələ,
Odərboydan Başev olsun Minelə.
Bundan sonra toxunmasın el elə,
Ölən var ki, öldürəni bilinmir.

Üzüquylu qaldı yıxıq Əkbitən,
Göz yaşları tökdü onu hər görən,
Tapılmadı bu yanğında çox itən,
Ölən var ki, öldürəni bilinmir.

Başev oldu Odərboydan, böyüdü,
Başraq oldu ona Tanrı öyüdü,
Sürü artdı, qanlı öclər soyudu,
Ölən var ki, öldürəni bilinmir.

IV Bölmə
XIV QAPI

Ağüzər söyləncisi

Turq Parsanın ölümünə acıdı,
Gedən daha acı olar qalandan.
Turelyurda Parsa adı qoydu o,
Gedən daha acı olar qalandan.

Dedi, səni öldürənə ölüm var,
Gün gələr ki, qancılını taparlar,
Könlü, gözü toxlarındır Mindiyar,
Gedən daha acı olar qalandan.

Ondan, qızın qancılını soruşur,
Turq çağırır öz yanına Əlruşu,
Görür qanlı al gözləri alışır,
Gedən daha acı olar qalandan.

Dedi: - Bacın Mindiyarın əriydi,
Çoxlarından çevik idi, diriydi,
Çox başçıdan, çox kişidən dəriydi,
Gedən daha acı olar qalandan.

Əlruş dedi:- o, sizinçin ölürdü,
Təkbaşına Uğurelə gəlirdi,
Əkbitəni yandıranı bilirdi,
Gedən daha acı olar qalandan.

Manayqıza elçiliyə gəlirdi,
Əkbitəni kim yandırıb bilirdi,
Bir də gizli bir sevgidən solurdu,
Gedən daha acı olar qalandan.

***

Turq söylədi:- Öyrən bunu, de mənə,
Yaman elə hər bir yerdə yamandır,
Yoxsa bizdən üz döndərər tanrılar,
Yaman elə hər bir yerdə yamandır.

Ancaq hərdən Parsalılar azırlar,
Bu ölümü başqa yerə yozurlar,
Başqasına dərin sonev qazırlar,
Yaman elə hər bir yerdə yamandır.

Ağrıevdən çıxmayıbdır Manayqız ,
Könül verdi Cumərinə o, yalnız,
İndi qərib göyərçindir, o, yalqız,
Yaman elə hər bir yerdə yamandır.

Ta açılar bir gün bağlı qapılar ,
Cumərdən də yaxşıları tapılar ,
Seçiləcək atlar ilə yabılar,
Yaman elə hər bir yerdə yamandır.

Get Parsaya, el işini al ələ,
Evlənməkdən çox danışma sən hələ,
Nə boydasan? Meşəlikdə göbələk,
Yaman elə hər bir yerdə yamandır.

Qoy şahımız yamanlardan öc alsın,
Mindiyarda tanrı kimi ucalsın,
Dörd yanında qotur, pinti azalsın,
Yaman elə hər bir yerdə yamandır.

Darvidelli öldürübdür bacımı ,
Yanğın salıb, alıb sizdən öcünü,
Şah buyursa qırram Darvid köçünü,
Yaman elə hər bir yerdə yamandır.

***

Yaxşı öyrən, Əlruş, bir az tələsmə,

Tələsənlər yanlış yola düşürlər,
Beş min ildir onlar burda yaşayır,
Tələsənlər yanlış yola düşürlər.

Yardım edin bir-birizə, bağlaşın,
Toyda gülün, ağrıyerdə ağlaşın,
“Qız al”, “Qız ver” soyluğuna çağlaşın,
Tələsənlər yanlış yola düşürlər.

Darvidelli, Arielli birləşib,
Döyüşlərdə , vuruşlarda ərləşib ,
Tək-tək azğın içlərində yerləşib,
Tələsənlər yanlış yola düşürlər.

Şahım, Minel min varlıqdır, bir gedən,
Unutmayın Azıeli yenidən,
Tələsirdim, tələsmərəm daha mən,
Tələsənlər yanlış yola düşürlər.

Mən bacımı öldürəni taparam,
Qılıncımı ürəyinə saplaram,
Şah buyuran yolu kənd-kənd çaparam,
Tələsənlər yanlış yola düşürlər.

Durub iz tap, dillərindən söz götür,
Dözüm ilə daşda mamır, ot bitir,
Sən bacımın qanlısını tap, gətir,
Tələsənlər yanlış yola düşürlər.

***

Turq Əlruşa dəyirmi qab göstərir,
Soy-kökünü qızıl qaba qazginən,
İgid başçı, ər döyüşçü, ağsaqqal,
Soy-kökünü qızıl qaba qazginən.

Turq oxuyur :- Gücər, Duru, Tur, Qızbax,
Daşar, Coşar, Odər, Arıq, Şah qızlıq,
Düzər, Yüzər, Qızot, Odər, İşdayaq,
Soy-kökünü qızıl qaba qazginən.

Əlruş deyir :-Turq lap başda yazılsın,
Parsa adı, Turq yanında qazılsın,
Bu qızıl qab gərək göydən asılsın,
Soy-kökünü qızıl qaba qazginən.

Turq söyləyir :- yüzdən çoxdur bu adlar,
Turq kökünün şahı, əri burda var,
Əlruş deyir :- Ər yurdudur Mindiyar,
Soy-kökünü qızıl qaba qazginən.

Baxdı Turqa Əlruş tez-tez, düşündü,
El adını dəyişməkdən daşındı,
Parsa adı qorxu, ürkü, üşüntü,
Soy-kökünü qızıl qaba qazginən.

Deyir :- Elin "Cumər" qoyum adını,
Onda sürər Manay bura atını,
Gəlin otar dadar sevgi dadını,
Soy-kökünü qızıl qaba qazginən.

***

Turelyurdun Parsa qoymam adını,
Hər bir işdə kölgə salır ad ada,
Deyim, öncə qoy tapılsın qanlısı,
Hər bir işdə kölgə salır ad ada.

Parsa adı sonevinə qoyulsun,
Öncə gərək mənim adım sayılsın,
Qoy Azıel bunu bilib ayılsın,
Hər bir işdə kölgə salır ad ada.

O, baş əyib Turqa, döndü Turelə,
Turel Parsa olmamışdı, yox, hələ,
"Parsa" nədir, Hindel bizə lap gülər,
Hər bir işdə kölgə salır ad ada.

Parsa, bacım olsa belə satqındır,
O, sevgidə kişidən də çılğındır,
O, məndən çox öz Turquna yaxındır,
Hər bir işdə kölgə salır ad ada.

Ev tikdirrəm – dedi – Hexa, Mənişə,
Hindel gələr onlar ilə görüşə,
Karşla Maha, Məniş yurdu dəyişər,
Hər bir işdə kölgə salır ad ada.

Mən Əlruşam, gərək burda şah olam,
Bu şahlığı gərək Turqdan mən alam,
Hamı gərək ölüb gedə, mən qalam,
Hər bir işdə kölgə salır ad ada.

***

Turq Əlruşa inanmırdı bu başdan,
İnam yoxsa, nə qardaşlıq, nə birlik,
Artıq yoxdu Cumər, Parsa, Əkbitən,
İnam yoxsa, nə qardaşlıq, nə bizlik.

Düşünürdü :- Bu cırtqozdur, sırtıqdır,
Yerinc olmaq istəyində yanıqdır,
Öz içində pöştələnən yazıqdır,
İnam yoxsa, nə qardaşlıq, nə birlik.

Bu Əlruşdan yerinc olmaz Parsaya,
Belə adam el qanına susayar,
Beləsini salma yurdda heç saya,
İnam yoxsa, nə qardaşlıq, nə birlik.

Mən Parsaya yeni yerinc qoyaram,
Ad -sanımı Çinə, Misrə yayaram,
Parsaqızı mən özümdən sayaram,
İnam yoxsa, nə qardaşlıq, nə birlik.

Misirel var, tanrılaşmış bir diyar,
O diyarda istəyim var, gözüm var,
Üzümüzə qoy açılsın qapılar,
İnam yoxsa, nə qardaşlıq, nə birlik.

Yoxsa çapır Mindiyarı Asurel,
Acıq artır aramızda ilbəil,
Yardım olsun bizə Misir və Babil,
İnam yoxsa, nə qardaşlıq, nə birlik.

***

Turqun döyüş səsləncləri gurladı,
Minbaşılar, başbaşılar sırada,
Asur gəlir üstümüzə dedilər,
Minbaşılar, başbaşılar sırada.

Turq, Şimşəkat, Şimşəkqılınc göründü,
Minel sevinc səslərinə büründü,
Hamı iti yarağına sarındı,
Minbaşılar, başbaşılar sırada.
Kişnəyirdi, yer eşirdi Şimşəkat,
Hamı durub öz yerində;
Toplumlarsa səkkiz bucaq, üç qanad,

Minbaşılar, başbaşılar sırada.

Hörmə geyim, tuncdan, dəmir alınlıq,
Hörmə-hörmə, qat-qat dəmir qarınlıq,
Dəbilqədən sallaq qalan burunluq,
Minbaşılar, başbaşılar sırada.

Durmuşdular Tuncay, Günay, Manayqız,
Çinçay-alay, Çuqçu-alay, alay-qız,
Tək Alçiçək dayanmışdı tək, yalqız,
Minbaşılar, başbaşılar sırada.

Hindel, Asur bir-birinə sarılıb,
Turqa qarşı bir qanlı yol qurulub,
Mindiyardan Turel çıxır, ayrılır,
Minbaşılar, başbaşılar sırada.

***

Turq söylədi:-Asur, Hindel birləşib,
Hər birləşmə kimə isə qarşıdır,
Bizi sınaq döyüşünə çəkirlər,
Hər birləşmə kimə isə qarşıdır.

Buna Xruş əl qataraq qol qoyub,
Kiçik olmaq ad-sanından o doyub ,
Böyük olmaq istəyir o, el boyu,
Hər birləşmə kimə isə qarşıdır.

Beş min ildir Darvideli qırırlar,
Özlərinə yeni ölkə qururlar,
Ancaq qırıb qırışırlar, dururlar,
Hər birləşmə kimə isə qarşıdır.

Karş haçansa belə bir yol tutmuşdu,
O, Tureli alıb Hində satmışdı,
Kütbaşlıqda son cızığa çatmışdı,
Hər birləşmə kimə isə qarşıdır.

İndi Əlruş yorta-yorta iş qurur,
İki ölkə arasında at yorur,
Qonşularla aramızı o vurur,
Hər birləşmə kimə isə qarşıdır.

***

Turq söylədi: - Ayıq olun, qoymayın,

Tanrılıqdır yeri-yurdu qorumaq,
İndi bizə tanrı bunu buyurur,
Tanrılıqdır yeri-yurdu qorumaq.

Vuruş iki ölkə ilə başlanır,
Köküslərdə ər ürəklər daşlanır,
Acıqana iti yaraq tuşlanır,
Tanrılıqdır yeri-yurdu qorumaq.

Mən Asurel, Tuncər Hindel üstünə,
Saman təpin acıqanın gönünə,
Çapın, yaxın uzununa, eninə,
Tanrılıqdır yeri-yurdu qorumaq.

Tuncər dedi:-Böyük Turqa and içək,
Qancılları qovaq yenə, biz biçək,
Mən arxada durram-dedi Alçiçək,
Tanrılıqdır yeri-yurdu qorumaq.

Biri gəldi, dağdı qaya duruşu,
Dedi:-Mənə yer göstərin, vuruşum,
İstəyində mən basdırım Xruşu,
Tanrılıqdır yeri-yurdu qorumaq.

Odərboydan mənə qardaş demişdi,
Biz bir yerdə acıqanla didişdik,
Üz tutaraq o, tanrıya qovuşdu,
Tanrılıqdır yeri-yurdu qorumaq.

***

O söylədi gur səsiylə hamıya:
-Güclü olsun gərək ərin arxası.
Mən Turqumun sağ qoluyam, oğulu,
Güclü olsun gərək ərin arxası.
Gərək Turqa kölə olum bu gündən,
Odərboydan kimi Minel önünə,
Öz borcumu gərək verim bir də mən,
Güclü olsun gərək ərin arxası.

-Bu, Ağüzdür,-Turq söylədi maraqla,
-Mənəm, gəldim yardım olum yaraqla,
Ağüzeldən burayacan ayaqla,
Güclü olsun gərək ərin arxası.

Turq söylədi:-Mənlə getsin Ağüzər,

Əri isti nəfəsindən sevərlər,
Bir də əri ər içində gəzərlər,
Güclü olsun gərək ərin arxası.

Dan qızardı, buludları qan aldı,
Bulud keçdi, dağ başını gün aldı,
Atlı toplum iki yana yön aldı,
Güclü olsun gərək ərin arxası.

Turq əyildi, öpdü ana torpağı,
Dalğalandı Mindiyarın başrağı,
Yer şumladı yüz min atın dırnağı,
Güclü olsun gərək ərin arxası.

Yürüş söyləncі

Acıqana yürüş burdan başladı,
Günəş gülür dağ dalından çıxanda.
Yer titrədi, bulud sallaq dayandı,
Günəş gülür dağ dalından çıxanda.

Turq da çapdı, düdükçülər qabaqda,
Keçdi döşdən, otlaqlardan, otlaqdan,
Dağ döşündə hələ yanmır ocaqlar,
Günəş gülür dağ dalından çıxanda.

Araşdırır yalı, yolu Ağüzər,
Arxasınca düdükçülər gedirlər,
Hər bir yeri göz qoyaraq güdürlər,
Günəş gülür dağ dalından çıxanda.
Soraq yoxdur acıqandan, Asurdan,
Yatır hələ sürünənlər çuxurda,
Səs-səmir yox bir sürüdən, naxırdan,
Günəş gülür dağ dalından çıxanda.

Bir düdükçü Ağüzəri çağırır,
Deyir burda göy biçiblər taxılı,
At dırnağı əzib otu, cığırı,
Günəş gülür dağ dalından çıxanda.

Necə asur görür Ağüz busquda,
Saçaq vardır başlardakı sarğıda,
Hamısı da dincəl-dincəl yuxuda,
Günəş gülür dağ dalından çıxanda.

***

Üstlərinə sürün-sürün gəlirlər,
Nələr olmur, nələr olur yuxuda.
Beşini də dolayırlar bir ipə,
Nələr olmur, nələr olur yuxuda.

Beşini də Ağüz basır o yerdə,
Əl-ayaqlar keçir qat-qat kəndirdən,
Alıb yıxır, guruldayır o, birdən,
Nələr olmur, nələr olur yuxuda.

Deyir:- Deyin, toplumunuz hardadır,
Biri deyir, toplum çox-çox daldadır,
Biri deyir, hələ uzaq yoldadır,
Nələr olmur, nələr olur yuxuda.

-Başçı kimdir bu döyüşdə, söyləyin,
Deməsəniz, bizdən ölüm diləyin,
Nədir onun bu yürüşdən diləyi,
Nələr olmur, nələr olur yuxuda.

Asur deyir:- Dilәkləri bəllidir,
O Əlruşun başı çox-çox yellidir,
O, evyıxan, aravuran, dillidir,
Nələr olmur, nələr olur yuxuda.

Asurşahı o, yerindən oynadıb,
Ağlayaraq ürəkləri qanadıb,
Hindelin də Başevinə qan atıb,
Nələr olmur, nələr olur yuxuda.

***

Beş tutuğu göndərdilər Turqtaya,
Hər cığırda bir iz qoy ki, yol olsun.
Ağüz getdi irəliyə basaraq,
Hər cığırda bir iz qoy ki, yol olsun.

Üç gün, dörd gün, beş gün çəkdi bu yürüş,
Yoxdur daha bu gedişdə bir dönüş.
Görünməyir hələ qanlı bir döyüş,
Hər cığırda bir iz qoy ki, yol olsun.

İsti yollar, günsal yollar ağırdı,
Qumsallığa göydən alov yağırdı,

Odlu günəş Ağüzəri yorurdu,
Hər cığırda bir iz qoy ki, yol olsun.

At çapırdı sağa, sola Ağüzər,
Bomboş idi qumsallıqda həndəvər,
Uzaqdasa oynaq-oynaq təpələr,
Hər cığırda bir iz qoy ki, yol olsun.

Yüyənini atın çəkdi, saxladı,
O, hər yanı bir-bir gəzdi, yoxladı,
"Odərboydan" deyib birdən ağladı,
Hər cığırda bir iz qoy ki, yol olsun.

On il qabaq dəniz burda çağladı,
Odərboydan batdı, eli dağladı,
Sular susdu, ancaq göylər ağladı,
Hər cığırda bir iz qoy ki, yol olsun.

***

Ağüz dedi:-Ağla, ağla, dənizim,
Adam udan dəniz çalar yaşıla.
Odərboydan sonevinə qovuşdu,
Adam udan dəniz çalar yaşıla.
Suqırağı çırpım-çırpım dalğalar,
Dalğalar da muncuq-muncuq sırğalar,
Quma hopur ləpə-ləpə yuxalar,
Adam udan dəniz çalar yaşıla.

Ağlar gördü düdükçülər Ağüzü,
"Odərboydan" "Odərboydan" hər sözü,
O yan, bu yan sürüyürdü dənizi,
Adam udan dəniz çalar yaşıla.

-Yaşıl dəniz, görüm al qan qusasan,
Yastılanıb göl olasan, susasan,
Gün altında yanıb-yanıb qarsasan,
Adam udan dəniz çalar yaşıla.

Yaşıl dəniz, dalğaların yellənir,
İçin susur, çopur üzün sellənir,
Dəniz baxır Ağüzərə, dillənir,
Adam udan dəniz çalar yaşıla.

-Mən vuruldum o igidin boyuna,
Döndüm onun sərin, mavi toyuna,

Odərboydan düşdü mənim payıma,
Adam udan dəniz çalar yaşıla.

***

Dağ döşündə ocaq yandı gurladı,
Acıqanı görən gözlər alışır,
Ağüz çapdı beş ər ilə irəli,
Acıqanı görən gözlər alışır.

Yüz atlıyla Əlruş sallaq gəlirdi,
Öz içində Mindiyarı bölürdü,
O, uzaqdan Ağüzərə gülürdü,
Acıqanı görən gözlər alışır.

Əlruş, Ağüz dayandılar üz-üzə,
Qıpqırmızı qan sıçradı üz-gözə,
Əlruş güldü, səpələndi səs düzə,
Acıqanı görən gözlər alışır.

Dedi:-İndi sən çıxmısan ortaya,
Sən uzaqsan, qorxsan, bağrın çatlayar,
Toppuz vurram, gözün-başın partlayar,
Acıqanı görən gözlər alışır.

Ağüz dedi:-Sən Əlruşsan, ya Asur,
Yad ölkədən sən gəlirsən, gəl, qotur,
Tanrım, bizi sən gör kimə kim satır,
Acıqanı görən gözlər alışır.

Əlruş dedi:-Sonunuza çıxmışam,
Başevi də mən yandırıb yaxmışam,
Özüm Əlruş şah yerinə qalxmışam,
Acıqanı görən gözlər alışır.

***

Əlruş dedi:- Vayzaqlama çox da sən,
Yüz ildən bir gediş gərək dəyişsin.
Baş döyüşçü indi mənəm Asurda,
Yüz ildən bir gediş gərək dəyişsin.

-Mən gedişi dəyişərəm büsbütün,
-Mən biləni dəyişəcək o bu gün,
Bundan qabaq ərlər gərək döyüşsün,
Yüz ildən bir gediş gərək dəyişsin.

Əl atanda Ağüz birdən yarağa,
Xruş qorxub ondan qaçdı qırağa,
İlk vurumdan asur düşdü qırağa,
Yüz ildən bir gediş gərək dəyişsin.

Əlli asur girdi birdən döyüşə,
Səpələnib bölündülər beş-beşə,
Ağüz ilə dayandılar döş-döşə,
Yüz ildən bir gediş gərək dəyişsin.

Ağüz çıxıb beş-beşlərə yanaşdı,
Sıyrılanda qılınc, gözlər qamaşdı,
Hər vurumda beş-beş qana bulaşdı,
Yüz ildən bir gediş gərək dəyişsin.

-Getdim,-dedi Əlruş – ucuz ölümə,
O sıçradı boz atının belinə,
At səyirtdi isti qumsal çölünə,
Yüz ildən bir gediş gərək dəyişsin.

***

-Hara qaçdın?- asurlular söylədi,
El vuruşmaz başçı qorxub qaçanda,
Ağüz dedi:- Siz oturun gözləyin,
El vuruşmaz başçı qorxub qaçanda.

Ağüz çapdı atı onun dalınca,
Durdu ona otuz addım qalınca,
Hər ikisi əl atdılar qılınca,
El vuruşmaz başçı qorxub qaçanda.

Şahə qalxıb dırnaqlaşdı kəhərlər,
Ağızlaşdı qılınclarla təpərlər,
Əlruş dedi:-Gərək səni gəbərdəm,
El vuruşmaz başçı qorxub qaçanda.

Ağüz dedi:- Mindiyarın satqını,
Ölkələrin beşyeyəni, qurdunu,
Sən yaratmaq istəyirdin qurğunu,
El vuruşmaz başçı qorxub qaçanda.

Əlruş dedi:-Alacağam öcümü,
Qırdırsam da Arielli köçünü,
Göstərərəm sənə şahlıq gücünü,
El vuruşmaz başçı qorxub qaçanda.

Ağüz dedi:-Özbaşına şah olmaz,
Kök olmasa heç bir ağac ucalmaz,
Boğazında qalar, yavaş ol bir az,
El vuruşmaz başçı qorxub qaçanda.

***

Qor sıçradı qılıncların ağzından,
Haçan isə qardaş olub qanla qor,
Batıq-batıq, dəlik-dəlik tutaqlar,
Haçan isə qardaş olub qanla qor.
Bir yüngülcə qılınc dəydi boynuna,
Aldı onu qızmar qumsal qoynuna,
Son qoyuldu qaçdı-tutdu oynuna,
Haçan isə qardaş olub qanla qor.

Ağüz düşdü, baxdı ona ötəri,
Elə bildi Əlruş artıq gəbərdi,
Gördü hələ əl-qol atır, dəbərir,
Haçan isə qardaş olub qanla qor.

Dedi:- Gəlin bu satqını götürün,
Onu böyük Turqa tezcə yetirin,
Asurları burdan qovun, itirin,
Haçan isə qardaş olub qanla qor.

Əlruş dedi:-Mən ölürəm, qoy ölüm,
Burax məni, Turq bu işi nə bilir,
Üzü belə iki toplum yol gəlir,
Haçan isə qardaş olub qanla qor.

Asur burdan, Hindel isə o yandan,
Mən onları inandırdım yalanla,
Təki yeni şahlıq qurum aranda,
Haçan isə qardaş olub qanla qor.

Amenexotip söyləncі

Busquçular getdi, Ağüz qaldı tək,
Göz ağardar sənə hamı, tək olsan.
Körfəz yandan yüz-yüz qayıq göründü,
Göz ağardar sənə hamı, tək olsan.

Dedi:-Asur kəsə yolu seçibdir,
O, Misiri, Həbəşeli keçibdir,
Yolu Əlruş arşın-arşın ölçübdür,
Göz ağardar sənə hamı, tək olsan.

Gələnlərsə ayaqyalın, başaçıq,
Bizucları kimi qora, apaçıq,
Qollar güclü, qıçlar iti, döş batıq,
Göz ağardar sənə hamı, tək olsan.

Gələn cumdu Ağüz üstə bizucla,
O, Asuru qarşıladı bizuc, qılıncla,
Sağ-solunda iki yorğun qoruncla,
Göz ağardar sənə hamı, tək olsan.

Dedi: –Asur gəlmə bura, yazıqsan,
Sən döyüşdə qaçaraqsan, qızıqsan,
Əlruş kimi sən qaçmaqla tanıqsan,
Göz ağardar sənə hamı, tək olsan.

Gələnlərsə sıralanıb durdular,
Dağ heybətli Ağüzərə vardılar,
Yaxınlaşıb onlar nəsə sordular,
Göz ağardar sənə hamı, tək olsan.

***

Anlamadı dillərini Ağüzər,
Dil hər bir yerdə, hər bir yerə açardır,
Əl-qol ilə danışdılar, olmadı,
Dil hər bir yerdə, hər bir yerə açardır.

Dillərində “Turel,” ”Tureb” sözləri,
Parıldayır qara kömür gözləri,
Danışanda hərdən gülür üzləri,
Dil hər bir yerdə, hər bir yerə açardır.

Biri durdu Ağüz ilə üz-üzə,
O, yüngülcə baş da əydi Ağüzə,
Dedi:-Ərən, nə deyirsən sən bizə,
Dil hər bir yerdə, hər bir yerə açardır.

Ağüz dedi:-Mindiyardır bu torpaq,
Siz kimsiniz-acıqansız ya qonaq?
Asurluya oxşadınız siz bayaq,
Dil hər bir yerdə, hər bir yerə açardır.

-Yox, biz Asur toplumları deyilik,
Biz toplum yox, böyük Misir eliyik,
Nil adıyla ölkələrə bəlliyik,
Dil hər bir yerdə, hər bir yerə açardır.

Mindiyarı tanıyırıq, çox ulu,
Gəlib Qızbax, qırx il bizdə şah olub,
İpək yolu, dağ yoludur, var yolu,
Dil hər bir yerdə, hər bir yerə açardır.

***

Qılıncını Ağüz qoydu qınına,
İnandırar yalnız özü inanan,
Ağüz dedi:-Bura niyə gəlmisiz?
İnandırar yalnız özü inanan.

Dedilər ki, qaça-qaça tələsik,
Darvideli qorumağa gəlmişik,
Bir toplumuq, yüz mincəyik hələlik,
İnandırar yalnız özü inanan.

-Darvideli qorumuşuq on min il,
Sizin bura gəlməyiniz düz deyil,
Üstümüzə gəlir Hindel, Asurel,
İnandırar yalnız özü inanan.

Biri ordan gəlir, biri buradan,
Darvideli çıxardırlar sıradan,
Yardım olsun qoy sizə də yaradan,
İnandırar yalnız özü inanan.

Yardım üçün gəlibsizsə, buyurun,
Bizimlə bir Darvideli qoruyaq,
Bu döyüşdə siz də bizə yarıyın,
İnandırar yalnız özü inanan.

Biz çıxmışıq asurlarla vuruşa,
Onlar gəlib yardım etsin Xuruşa,
Xuruş kimdir el işinə qarışa,
İnandırar yalnız özü inanan.

***

Misirelli qucaqladı Ağüzü,
Qoy hamının işi belə tuş olsun.

Dedi:-Qardaş, sən də qoşul bizlərə,
Qoy hamının işi belə tuş olsun.

Asurları üç gün qabaq qırmışıq,
Önümüzə qatıb, qovub qırmışıq,
Toplum-toplum gəlib burda durmuşuq,
Qoy hamının işi belə tuş olsun.

Birdən Turqun toplumları göründü,
Qumsallıqlar dumanlığa büründü,
Kişnərtilər buludlara diərəndi,
Qoy hamının işi belə tuş olsun.

Turq qabaqda, başraqçılar arxada,
Döyüşçülər min-min dəmir sırada,
Qız toplumu at səyirdir ortada,
Qoy hamının işi belə tuş olsun.

Turq soruşdu:-Bunlar kimdir, nəçidir,
Hansı eldən, hansı yurddan elçidir,
Bura böyük Mindiyarın içidir,
Qoy hamının işi belə tuş olsun.

Ağüz dedi:-Misirdəndir qayıqlar,
İçlərində Arielə acıq var,
Bunlar üçün çox doğmadır Mindiyar,
Qoy hamının işi belə tuş olsun.

***

Misirelli baş əyərək söylədi,
Tanrı verir hər bir elin yerini,
Asurları üç gün qabaq qırmışıq,
Tanrı verir hər bir elin yerini.

Biz onları yoxlamışdıq İlamda,
Dedilər ki, biz ovdayıq, yalandan,
Yüz min toplum busqudaydı, dumanda,
Tanrı verir hər bir elin yerini.
Bizim başçı Amenexot, Atona
Ov edərək çıxmışdılar ormana,
Toplumları gəlirdilər bu yana,
Tanrı verir hər bir elin yerini.

Amenexot dedi çıxıb qabağa,
-Ey asurel, sarınaraq yarağa,

Gedirsiniz Darvideli qırmağa,
Tanrı verir hər bir elin yerini.

Biz qoymarıq, burdan geri qayıdın,
Gedin Xruş yapalağı ovudun,
Su çiləyin üzərinə, ovudun,
Tanrı verir hər bir elin yerini.

İki yandan qılınc par-parparladı,
Döyüş, vuruş səsləncləri gurladı,
İki başçı atlarını hərlədi,
Tanrı verir hər bir elin yerini.

***

O söylədi:- Biz bir yolun üstəyik,
Biz yaxşıyıq, siz yaxşısız, nə yaxşı.
Böyük Turqa, Mindiyara baş əyin,
Biz yaxşıyıq, siz yaxşısız, nə yaxşı.

Böyük gəmi gəldi, sular yol oldu,
Misirelin başraqları ucaldı,
Amenexot gəlib Turqa yan aldı,
Biz yaxşıyıq, siz yaxşısız, nə yaxşı.

Dedi:-Sizə iki günlük qonağıq,
Biz ürəkdən yaxın, yoldan uzağıq,
Biz də siz tək döyüşlərdə qoçağıq,
Biz yaxşıyıq, siz yaxşısız, nə yaxşı.

Asurları vurduq, yıxdıq, dağıtdıq,
Üç gün qanı sular kimi axıtdıq,
Darvideli başlarından çıxartdıq,
Biz yaxşıyıq, siz yaxşısız, nə yaxşı.

Siz varsınız, biz buradan dönərik,
Acıqanlıq, cin atından enərik,
İki qonşu ölkə kimi dinərik,
Biz yaxşıyıq, siz yaxşısız, nə yaxşı.

Darvideli qoy Turq özü qorusun,
Darvidelin qırılıbdır yarısı,
Qoy onların yarasını sarısın,
Biz yaxşıyıq, siz yaxşısız, nə yaxşı.

***

Atdan düşüb Turq qonağa yan aldı,
Doğma olur qonaq çox-çox doğmadan,
O əl tutdu, qucaqladı qonağı,
Doğma olur qonaq çox-çox doğmadan.

Dedi:-Misir şahı Amenexotip
Mindiyara çox yerində düz gəlib,
Turelyurdu Darvidelli yer bilib,
Doğma olur qonaq çox-çox doğmadan.

Darvidelli Mindiyar tək uludur,
O, Minelin ulu-ulu qoludur,
Yer-yurdları Ariellə doludur,
Doğma olur qonaq çox-çox doğmadan.

Hindel gəlib hərdən onu qırmağa,
Arielə orda şahlıq qurmağa,
Ancaq ağzı keçib onun qırmağa,
Doğma olur qonaq çox-çox doğmadan.

***

Arielli arxalanıb Hindelə,
Turelyurda özlərini şah bilər,
Qoymamışıq Darvidelə güc gələ,
Doğma olur qonaq çox-çox doğmadan.

Arielin son başçısı Xruşdur,
Çılğınlıq həm yersizdir, həm boşdur,
Onun işi onla, bunla boğuşdur,
Doğma olur qonaq çox-çox doğmadan.

***

Asureli o çağırıb yardıma,
Öz yurdunda özgəsinə söykənmə.
O, çox yeri çıxmaq istər adına,
Öz yurdunda özgəsinə söykənmə.

-Asurel də aldadıbdır Xruşu,
Toplumları neçə-neçə yurd aşıb,
Misirelin yerlərinə daraşıb,
Öz yurdunda özgəsinə söykənmə.

Odur biz də tez-tələsik yüyürdük,
Çoxlarını İlamyurdda bəyirtdik,
Tüklərindən dəri şanlar əyirdik,
Öz yurdunda özgəsinə söykənmə.

Biz də çıxdıq qarşısına Asurun,
Busquladıq burda dağı, çuxuru,
Aparıblar bizdən neçə naxırı,
Öz yurdunda özgəsinə söykənmə.

Turq sizləri böyük qonaq sanıbdır,
Başımıza qızıl qartal qonubdur,
Nə olsun ki, Başevimiz yanıbdır,
Öz yurdunda özgəsinə söykənmə.

-O yanğıya çox yanmayın yox, nədən,
O Başevi biz tikərik yenidən,
Qonaq gəlləm Aton ilə bura mən,
Öz yurdunda özgəsinə söykənmə.

***

Qısa dinclik səsləncləri gurladı,
Hərdən dönsün qan-qadalar toy olsun.
Tüstüləndi orda-burda ocaqlar,
Hərdən dönsün qan-qadalar toy olsun.

Misir şahı Turqa baxıb güvəndi,
Turq onunla əl tutaraq öyündü,
Dağ ürəklər köks-köks döyündü,
Hərdən dönsün qan-qadalar toy olsun.

***

Aton gəldi, bər-bəzəklər içində,
Misirelin gözəlləri biçimdə,
Yeri-göyü qabağında kiçildən,
Hərdən dönsün qan-qadalar toy olsun.

-Çəkimlidir-dedi-bu yer, bu torpaq,
Biz burada ayaqüstü bir qonaq,
Gələk burda evcik quraq, yurd salaq,
Hərdən dönsün qan-qadalar toy olsun.

Amenexot yorğun düşüb, yorulub,
Döyüş-vuruş ucbatından saralıb,
Gün altında kömür kimi qaralıb,
Hərdən dönsün qan-qadalar toy olsun.

Getməliyik, Başev bizi gözləyir,
Yolumuzu cığır-cığır izləyir,
Hər bir işdə bizə ümid bəsləyir,

Hərdən dönsün qan-qadalar toy olsun.

***

Yola saldı Turq onları gəmiyə,
Hər bir görüş dönür qat-qat anıma.
O, söz verdi Darvidelə əl tuta,
Hər bir görüş dönür qat-qat anıma.

Turq toplumu böldü iki bölümə,
Biri Asur, biri Darvidelinə,
Çapıb, capıb döndü dəniz yelinə,
Hər bir görüş dönür qat-qat anıma.

Dedi:-Ağüz, bu yerlərdə sən dayan,
Mən gedirəm Hindel yana durmadan,
Yardım olsun sənə böyük yaradan,
Hər bir görüş dönür qat-qat anıma.

Xruş dəmir barmaqlıqdan baxırdı,
Boğazını acıq alıb çıxırdı,
Elə bil ki, kimsə onu boğurdu,
Hər bir görüş dönür qat-qat anıma.
Öz içində danışırdı elə bil,
“Ey Turq, məni tutuq etmək düz deyil,
Qovma məni ölkə-ölkə, elbəel, ”
Hər bir görüş dönür qat-qat anıma.

Mən səni də öldürərəm, qoymaram,
Qanını da içsəm belə doymaram,
Mən Darvidel, Turel nədir, saymaram,»
Hər bir görüş dönür qat-qat anıma.

Tuncər-Samdi söyləncі

Hindel çəkdi Mindiyarı sınağa,
Hara getsən öncə örgən oranı.
Daşdı çaylar, ellər, sular-yağışlar,
Hara getsən öncə örgən oranı.

Axdı sellər, atdı dala Tuncəri,
Su apardı çayda neçə önəri,
Batdı suda qoşquların təkəri,
Hara getsən öncə örgən oranı.

Onlar qaldı on gün yağış altında,
Yaraqlılar, atlar palçıq altında,
İsindilər gecə çör-çöp oduna,
Hara getsən öncə örgən oranı.

Tuncər dedi:-Gəz hər yanı, araşdır,
Zığdan ip al, ağac qayıq quraşdır,
Su üstündə durmaq üçün yer aç-dur,
Hara getsən öncə örgən oranı.

Bir ay çəkdi, sellər, sular, yağışlar,
Göyə qalxdı yerli-yersiz qarğışlar,
Göz bərəltdi gözlənilməz yanlışlar,
Hara getsən öncə örgən oranı.

Günəş çıxdı dağılışdı buludlar,
Sıçrayaraq çıxdı sudan ac atlar,
Oldu ata, yaraqlıya yem otlar,
Hara getsən öncə örgən oranı.

***

Hind toplumu tanıyırdı yurdunu,
Sel-su ilə, daşqın ilə oynama.
Dik yerlərdə oturmuşdu, güdürdü,
Sel-su ilə, daşqın ilə oynama.

Günəş çıxcaq onlar çıxdı busqudan,
Yola düşdü hündür, yüngül qoşquda,
Yaraqlılar az-çox yoxsul qayğıda,
Sel-su ilə, daşqın ilə oynama.

Üzləşdilər “Köçyer” adlı düzəndə,
Aclıq, darlıq ac atları üzəndə,
Yaraqlılar başçılardan küsəndə,
Sel-su ilə, daşqın ilə oynama.

Mindiyarın başrağını görəndə,
Tox atları üstlərinə sürdülər,
Düşkünlərə qanlı öyrənc verdilər,
Sel-su ilə, daşqın ilə oynama.

Tuncər meşə qatlarında gözlədi,
Addım-addım Hindelini izlədi,
Göz yaşları yora-yora sızladı,
Hara getsən öncə örgən oranı.

Basılmışdı Hindelə yox, gör-görə,
Dağılmışdı toplumları bir kərə,
Yol axtarır, əl atırdı hər yerə,
Hara getsən öncə örgən oranı.

***

Ey yaraqlı, ucalıq var adında,
Qoru bütün el-obanı, özünü.
Səni deyib yatır dinc-dinc körpələr,
Qoru bütün el-obanı, özünü.

Dirsəyinlə ölç azlığı, çoxluğu,
Qumsallığı, meşəliyi, dağlığı,
Yaşat dəmir köküsündə sağlığı,
Qoru bütün el-obanı, özünü.
Tuncər belə düşünürdü gedəndə,
Hər busqunun qabağından ötəndə,
Turq gözünün qabağında bitəndə,
Qoru bütün el-obanı, özünü.

-Görən onlar anırlarmı bizləri,
Nə olacaq görən bizə sözləri,
Ah, qatdanma, ah, qatdanma, dizlərim,
Qoru bütün el-obanı, özünü.

Tuncər gedir, basıqlar da dalınca,
Gedir, gedir o, aclıqdan solunca,
“Görən gücüm çatacaqmı qılınca?”
Qoru bütün el-obanı, özünü.

Yol üstündə bir yaralı ölürdü,
Ölə-ölə göz yaşını silirdi,
O, Əlruşdan nələr-nələr bilirdi,
Qoru bütün el-obanı, özünü.

***

O, Hindelin bir yaraqlı ərəni,
Aldanmaq var aldatmaqdan daha pis.
-Biz aldandıq, bizdən qaçın qırağa,
Aldanmaq var aldatmaqdan daha pis.

-Bizi Əlruş yerimizdən oynadıb,
Qanlı sözdən burda qazan qaynadıb,
Sizi bizə acıqan tək tanıdıb,
Aldanmaq var aldatmaqdan daha pis.

Biz gedirik Mindiyarı tutmağa,
Ölkəni biri-birinə qatmağa,
Beş min illik arzumuza çatmağa,
Aldanmaq var aldatmaqdan daha pis.

Tuncər dedi:-Yaralını götürün,
Onu Hindel toplumuna yetirin,
Ordan mənə yeni xəbər gətirin,
Aldanmaq var aldatmaqdan daha pis.

Tuncərgilə yol göstərdi yaraqlı,
Ağrı içrə o, ölümə adaxlı,
Onun üçün Tuncər, Minel maraqlı,
Aldanmaq var aldatmaqdan daha pis.

Tuncər dedi:-Kimdi burda başçınız,
Kimdir sizin təpərliniz, qoçunuz,
Nə sayaqdır sizin döyüş ölçünüz,
Aldanmaq var aldatmaqdan daha pis.

***

Tuncər ondan acıqanı öyrənir,
Öyrənməsən əyləncəyə dönərsən.
Bildi Samdi toplumlara başçıdır,
Öyrənməsən əyləncəyə dönərsən.

Dedi:-Gedib onu boğaq biz gərək,
Yaralının pal-paltarın geyərək,
Başçılarla biz vuruşaq təkbətək,
Öyrənməsən əyləncəyə dönərsən.

Deyin, Xruş asurlara satılıb,
Buna görə o, Körfəzdə tutulub,
Əlruş dəmir barmaqlığa atılıb,
Öyrənməsən əyləncəyə dönərsən.

Tanıyanda Samdi igid Tuncəri,
Qorxusundan əsdi başı, əlləri,
Tuncər dedi:-Yaralını çək bəri,
Öyrənməsən əyləncəyə dönərsən.

Tuncər dedi, Samdi yerdən dəbərdi,
Yavaş-yavaş tuluq kimi köpürdü,
Yaralı da hind dilinə çevirdi,

Öyrənməsən əyləncəyə dönərsən.

Samdi dedi:- Əlruş bizi aldadır,
Bizim səkkiz toplumumuz daldadır,
Əlruşun çox bicliyi yoldadır,
Öyrənməsən əyləncəyə dönərsən.

***

Minellilər Mindiyara çatdılar,
Deyən hamı öz yurdunda güclüdür,
Hindellinin yürüşünü güddülər,
Deyən hamı öz yurdunda güclüdür.

Minellilər yenə toplum oldular,
Doğma yerdən sanki dirrik aldılar,
Yer qazdılar, busqulara doldular,
Deyən hamı öz yurdunda güclüdür.

Sağaldılar, yaralılar, düşüklər,
Öz yerində durdu yenə bölüklər,
Önə çıxdı sağlam ərlər, yüzüklər,
Deyən hamı öz yurdunda güclüdür.

Gözlədilər ölüm-dirim döyüşü,
Bilmədilər Samdi dönüb, dəyişib,
Yolda durub bir-biriylə deyişir,
Deyən hamı öz yurdunda güclüdür.

On gün keçdi, hindellilər göründü,
Bulud olub dumanlığa büründü,
Döyüşlərə girmək üçün ərindi,
Deyən hamı öz yurdunda güclüdür.

Samdi çıxdı irəliyə, söylədi:
-Biz Xaqandan son göstəriş dilərik,
O da bunu başdansovdu elədi,
Deyən hamı öz yurdunda güclüdür.

***

Turq dayandı yetişərək Turelə,
Dözümlüdən güclü olur acıqlı.
İki yandan başçıları çağırdı,
Dözümlüdən güclü olur acıqlı.

Dedi, bura nə gözəldir, nə dincdir,

Dedi: Əlruş çox gilincdir, çox bicdir,
Bilsin burda Darvidelli yerincdir,
Dözümlüdən güclü olur acıqlı.
Misir şahı Amenexot gəlmişdi,
Darvideli yazıq, başsız bilmişdi,
Bizi görüb şah yolunu dəyişdi,
Dözümlüdən güclü olur acıqlı.

Aldadıbdır üç ölkəni o Xuruş,
Satqınlıqda yoxacanıb tutulmuş,
O, satqındır, içimizə soxulmuş,
Dözümlüdən güclü olur acıqlı.

***

Biri dedi:-Yenilməz Turq, o Xuruş
Bacısını iki şaqqa doğramış,
Başevə də yanğın salan o imiş,
Dözümlüdən güclü olur acıqlı.

Turq söylədi:-Darvid yerinc sayılsın,
Qoy bu yerlər Parsaqıza ad olsun,
Əlruş isə qıçlarından asılsın,
Dözümlüdən güclü olur acıqlı.

***

Turq söylədi-Qoy azalsın vergilər,
Soyğunçuluq düzəlməsin vergidən.
Parsayurdu dolandırın, dolanın,
Soyğunçuluq düzəlməsin vergidən.

Yerinc seçin, yardım olsun hamıya,
Yerinc gərək hamılıqda yarıya,
O, hamının istəyini qoruya,
Soyğunçuluq düzəlməsin vergidən.

Yerinc yaşlı Əbiş kişi seçildi,
Bunun ilə arielli kiçildi,
Yal-yaraşıq o yerincə biçildi,
Soyğunçuluq düzəlməsin vergidən.

***

Şimşəkatı Turq Hindelə səyirtdi,
El içində qoçaq yaşa, yürük ol.
Neçə toplum öz yerindən tərpəndi,
El içində qoçaq yaşa, yürük ol.

Turq düşünür, at çapırdı qabaqda,
Yüz min toplum atlı, atsız, yaraqda,
Tanrı Turqu gözləyirdi qıraqdan,
El içində qoçaq yaşa, yürük ol.

Turq deyirdi:-Hər yer solub, saralmış,
Bərk qorxudur məni yeni oyanış,
Yardım elə mənə, tanrı, dayanış,
El içində qoçaq yaşa, yürük ol.

***

Yuxuludur uzaq-uzaq düzənlər,
Torpaq bütün yaranışa anadır,
Torpaq ona göyə dağ-dağ boylanır,
Torpaq bütün yaranışa anadır.

Göy atadır, torpaq ana bizlərə,
Göy su səpir, yer bar verir düzlərə,
Göy-göyərti güc qollara, dizlərə,
Torpaq bütün yaranışa anadır.

Tanrı günəş yeri-göyü yaşadır,
Yer göy ilə sevgilidir, qoşadır,
Bu sevgidə varlıq, yoxluq ucadır,
Torpaq bütün yaranışa anadır.

Yıxılanı torpaq alır qoynuna,
Sevgi qatır günəş ata qanına,
Varlıq girir böyük sevgi donuna,
Torpaq bütün yaranışa anadır.

Ana torpaq, baş əyirəm gücünə,
Sonev olub çəkilirəm içinə,
Qoşuluram ulların köçünə,
Torpaq bütün yaranışa anadır.

Ana torpaq, üz qoyuram üzünə,
Səndən doğdum, dönəcəyəm özünə,
Düşəcəyəm mən ölməzlik izinə,
Torpaq bütün yaranışa anadır.

***

Yarpaqlardan sallanmışdır bu sözlər,
Dilli, dilsiz yarpaq-yarpaq tökülür.
Ana torpaq qucaqlayır onları,

Dilli, dilsiz yarpaq-yarpaq tökülür.

Turq Hindelə toplum-toplum yollanır,
Kirpiyindən düşüncələr sallanır,
Dan yerində göy qızarır, allanır,
Dilli, dilsiz yarpaq-yarpaq tökülür.

Turq tutqundur, gözlərində düşüncə,
Düşüncələr daha dönmür sevincə,
Qırtlağında düyünlənib düyünçə,
Dilli, dilsiz yarpaq-yarpaq tökülür.

Deyir: – "Bəlkə qocalmışam daha mən,
Gənc illərim çıxdı, getdi əlimdən,
Doğmalıdır tanrı məni yenidən,
Dilli, dilsiz yarpaq-yarpaq tökülür.

Gözəlliklər gözlərimdən yayınır,
Sanki dağlar lümlüt olub, soyunub,
İstək-sevgi yuxulayıb, bayılıb,
Dilli, dilsiz yarpaq-yarpaq tökülür."

Tuncər durub baxır ona bayaqdan,
Turq elə bil keydir, düşüb ayaqdan,
Su gətirib verir ona bulaqdan,
Dilli, dilsiz yarpaq-yarpaq tökülür.

Alçiçək-Samdi söyləncі

Hindel şaha soraq çatdı gizlicə,
Girəvədə acıqandan öc al sən.
Turq KörfəzdəAfo ilə görüşür,
Girəvədə acıqandan öc al sən.

Uğurelə yola saldı yaraqlı,
Ərən seçdi, ərən qollu-budaqlı,
Filli, atlı, atsız, iti ayaqlı,
Girəvədə acıqandan öc al sən.

Dedi:-Samdi, Uğureli tutarsan,
Eli qılınc qabağına qatarsan,
Alçiçəyi öldür, gücün çatarsa,
Girəvədə acıqandan öc al sən.

Sən özünü doğruldarsan bu sayaq,
Uğureli qan-qılıncla basaraq,
Qatılacaq bu Hindelə o torpaq,
Girəvədə acıqandan öc al sən.

Samdi dedi:-Şahım, bunu yaxşı bil,
Tuncər məni ovsunladı elə bil,
Bu döyüşdə qırılacaq Tuncərgil,
Girəvədə acıqandan öc al sən.

Şah qızılı çuxasını soyundu,
Verdi ona, Samdi bunca sevindi,
O, gedərkən bu çuxanı geyindi,
Girəvədə acıqandan öc al sən.

***

Dalda qaldı qalın-qalın meşələr,
Yox, igidlik deyil qanlı öc hələ,
İlk basqını Yaşıldaşlar ovuğu,
Yox, igidlik deyil qanlı öc hələ.

Samdi üç gün onlar ilə vuruşdu,
Qanla qarğış bir-birinə qarışdı,
Son andaca Alçiçəyi soruşdu,
Yox, igidlik deyil qanlı öc hələ.

Dedi:-gedin ona deyin, durmasın,
Qaçsın getsin, çox özünü yormasın,
Turq dalınca ağlaşmalar qurmasın,
Yox, igidlik deyil qanlı öc hələ.

Bu yürüşdən soraq tutdu Alçiçək,
Toplumunu meşəliyə çəkərək,
Dedi, biz də vuruşarıq təkbətək,
Yox, igidlik deyil qanlı öc hələ.
Atlı çapdı Turqa soraq yetirsin,
Onu döyüş yerlərinə gətirsin,
Turq Samdini yol üstündən götürsün,
Yox, igidlik deyil qanlı öc hələ.

Uğurelli busqulara qısılıb,
Hindellilər fildən, otdan asılı,
Sıx meşədə atlı, filli basılıb,
Yox, igidlik deyil qanlı öc hələ.

***

Oxla bizuc burda yüngül yaraqdır,
Hər yarağın döyüş, vuruş yeri var.
Samdigili bunca oxa tutdular,
Hər yarağın döyüş, vuruş yeri var.

Samdi meşə cığırıyla keçirdi,
Ox onları oraq kimi biçirdi,
Su yerinə ağac al qan içirdi,
Hər yarağın döyüş, vuruş yeri var.

Gedə bilmir at, fil meşə arası,
Nə boydadır atın, filin sağrısı,
Üç gün içrə qırılmışdı yarısı,
Hər yarağın döyüş, vuruş yeri var.

Samdi dedi:-Atı, fili buraxın,
Alın ələ iti, yüngül yarağı,
Yoluz olsun meşələrin qırağı,
Hər yarağın döyüş, vuruş yeri var.

Uğurelli qıvraq tutdu yolları,
Acıqandan sağ qalmışdı yapyarı,
Tutub mindi buraxılmış atları,
Hər yarağın döyüş, vuruş yeri var.

Kəsdi yolu neçə yandan Alçiçək,
Samdi dedi:-Gəl ər kimi görüşək,
Mən aslanam, sənsə rəngli kəpənək,
Hər yarağın döyüş, vuruş yeri var.

***

Bu toxundu Alçiçəyə nədənsə,
Öyüd nədir, hərdən qılınc olur söz.
Samdi gördü təkqolludur Alçiçək,
Öyüd nədir, hərdən qılınc olur söz.

Alçiçəyin atı yerdən dəbərdi,
Tək qolu var, o da qılınctəhərdir,
Dedi:-Görək kim aslandır, kim ərdir,
Öyüd nədir, hərdən qılınc olur söz.

Qılıncını çəkdi birdən qınından,
Qıvraq keçdi o, Samdinin yanından,
Samdi aşdı, çabaladı qanında,

Öyüd nədir, hərdən qılınc olur söz.

Sonra atdan düşdü, yerə oturdu,
Dedi:-Samdi! Samdi isə yatırdı,
Axşam idi, günəş enib batırdı,
Öyüd nədir, hərdən qılınc olur söz.

Bir ay keçdi, vuruşdular təkbətək,
Bir alıcı qartal imiş "kəpənək",
Tək qoluyla basar oldu Alçiçək,
Öyüd nədir, hərdən qılınc olur söz.

Dağ döşündə kişnəyəndə Şimşəkat,
Turq çağırdı igidləri adbaad,
Çıxdı onun qabağına el, elat,
Öyüd nədir, hərdən qılınc olur söz.

***

Şimşəkatın kişnərtisi qorxulu,
Səs səs olsa göyə dəyib qayıdar.
Titrəyərək bulud yerə ələndi,
Səs səs olsa göyə dəyib qayıdar.

Hindellilər dağ döşünə baxdılar,
Göydən gələn səsdən sanki qorxdular,
Təm-tələsik meşəlikdən çıxdılar,
Səs səs olsa göyə dəyib qayıdar.
Qan sıçrağı Alçiçəyin üzündə,
Qoşa damcı yaş parladı gözündə,
Bir basarlıq sevinci var sözündə,
Səs səs olsa göyə dəyib qayıdar.

Dedi:-Doğma, basılmaz Turq sağ olsun,
Onun bunca basarlığı çox olsun,
Hər bir işdə onun üzü ağ olsun,
Səs səs olsa göyə dəyib qayıdar.

Turq baş əydi Alçiçəyə, söylədi,
-Mənim igid Alçiçəyim, elədi,
Qadın evdir, həm döyüşkən lələdi,
Səs səs olsa göyə dəyib qayıdar.

Atdan düşüb Turq baş əydi anaya,
Sonra durdu gözəlliklə yan-yana,
Görən dedi, bir aslandır bu ana,

Səs səs olsa göyə dəyib qayıdar.

Qoşaçayarası söyləncisi

Körfəzelə Ağüz yenə baş oldu,
Ağır işdir başçı olmaq, baş olmaq.
Üstəlik də Babil, İlam, Qoşaçay,
Ağır işdir başçı olmaq, baş olmaq.

Bu yerlərin yayı, qışı görümlü,
El-obası dağlar kimi durumlu,
El bayramı, dili Minel qurumlu,
Ağır işdir başçı olmaq, baş olmaq.

Özlərini ayırmırlar Mineldən,
Başçıları kobud olub əzəldən,
Sevməyibdir başçısını el nədən,
Ağır işdir başçı olmaq, baş olmaq.

Ağüz gəzdi kənd-kənd yoxsul elləri,
Kol-kol gülən isti, geniş çölləri,
Mənimsədi oxşar, doğma dilləri,
Ağır işdir başçı olmaq, baş olmaq.
Kəndliləri bağlı isti torpağa,
Bağlı suya, otlaqlara, bulağa,
Mal-qarasa az yoşayan otlağa,
Ağır işdir başçı olmaq, baş olmaq.

Ağüz yoxsul daxmaları görürdü,
Yoxsullara ürək-dirək verirdi,
Göz yaşını barmağıyla dərirdi,
Ağır işdir başçı olmaq, baş olmaq.

***

Hara getdi Ağüz gördü doğmanı,
Dil anlağı, dil oxşarı başlıca.
Qoşaçayyer, İlamdiyar, Qaşqayel,
Dil anlağı, dil oxşarı başlıca.

Ərənçayla, Dəcəlçayla Təratçay,
Su ipəkdir, dalğa ipək, yol qolay,
Bolluq varsa, yoxsulluqlar yox olar,
Dil anlağı, dil oxşarı başlıca.

Qışlaq, yaylaq, otlaq, çaylaq, ovlağı,
Suqırağı bolluqlardı oylağı,
Buradadır qoyun-quzu yatağı,
Dil anlağı, dil oxşarı başlıca.

Bolluq olsa üzə sevinc oturar,
Yoxsul susar, zəngin isə qudurar,
Belə bolluq gözəlliyi artırar,
Dil anlağı, dil oxşarı başlıca.

***

Bu yerlərdə Odərboydan baş idi,
Üç çay boyu dırnaqları xış idi.
Dağ başında alov qızıl quş idi,
Dil anlağı, dil oxşarı başlıca.

Odərboydan getdi, Ağüz yerində,
O gənc igid dəniz-dəniz dərində,
O boylanır dalğaların birindən,
Dil anlağı, dil oxşarı başlıca.

***

Qaşqayeldə biri dedi Ağüzə,
-Biri yığır, biri gəlir aparır,
Yorulmuşuq bu alverdən doğrusu,
Biri yığır, biri gəlir aparır.

Əkdik, biçdik, gəldi, aldı özgəsi,
Niyə belə bu Mindiyar ölkəsi,
Üstümüzdə gücün qara kölgəsi,
Biri yığır, biri gəlir aparır.

Ağüz dedi:-İşlər belə qurulub,
Qaşqay dedi:-Ellər bundan yorulub,
Ağüz dedi:-Yoxsul, zəngin ayrılıb,
Biri yığır, biri gəlir aparır.

Qaşqay dedi, biz tikirik, o yıxır,
Boş-boş gəlir, biz veririk, o tıxır,
Hələ daşdan, yumurtadan yun qırxır,
Biri yığır, biri gəlir aparır.

Ağüz dedi:-Yoxsul tanrı dayağı,
Zənginlərsə elin tanrı qonağı,
Yoxsulların geyiminin yamağı,
Biri yığır, biri gəlir aparır.

Qaşqay dedi:-Qardaş, məni bağışla,
Soyuluruq biz hər yeni vuruşda,
Ac qalırıq hər savaşda, barışda,
Biri yığır, biri gəlir aparır.

Bir səs gəldi, dağlar əsdi, titrədi,
Dağıdandan çox üstündür yaradan.
Üz-üzədir yaranışdan iki güc,
Dağıdandan çox üstündür yaradan.

Ey yaradan, nə güc vardır qolunda,
Dayanmısan dayanışın dalında,
Var əkirsən bağda, dağın yalında,
Dağıdandan çox üstündür yaradan.

Biri torpaq, biri qılınc vurğunu,
Biri tarla, biri döyüş vurğunu,
Tanrı belə yaradıbdır qurğunu,
Dağıdandan çox üstündür yaradan.

Öz yeri var hər qayanın, hər çöpün,
Su gətirin, yer şumlayın, dən səpin,
Ac gözlərə, qarınlara var səpin,
Dağıdandan çox üstündür yaradan.

Dağıdanlar niyə belə qabadır,
Yaradanlar evdir, ana, atadır,
Biri ağdır, biri içdən qaradır,
Dağıdandan çox üstündür yaradan.

Ağ qaraya, qara ağa uyuşmaz,
İtələsən iki varlıq qovuşmaz,
Ayrıdırlar, ancaq qopuq, yovuşmaz,
Dağıdandan çox üstündür yaradan.

***

Dayanışla, yaranışla oyanış,
Hər bir şeyə dibdaşıdır bu üçlük.
Taxıl əkən, mal otaran, söz qoşan,
Hər bir şeyə dibdaşıdır bu üçlük.

Sürü, naxır, ilxı döşdə otlayır,
Çayı, arxı, bulaqları adlayır,
Çox yeməkdən mal-qara diz qatlayır,

Hər bir şeyə dibdaşıdır bu üçlük.

Yamanlardır bu üçlüyü pozanlar,
Yamanları sözlə qovur ozanlar,
Bu üçlüyə mahnı, qoşu yazanlar,
Hər bir şeyə dibdaşıdır bu üçlük.

İnək döşü dolub yerə toxunur,
Oynaqlayır balaları çoxunun,
Üzdə inam, gözdə sevinc oxunur,
Hər bir şeyə dibdaşıdır bu üçlük.

***

Ora getmə, o döşləri qar alıb,
Gölə düşmə, göy suları qurd alıb,
Otlağa get, bulaq dolu, arx dolu,
Hər bir şeyə dibdaşıdır bu üçlük.

İlxıbaşı alıb yalı-yalmanı,
Yaxşı rahla bu il otu, samanı,
Kəsi elə, yaxın qoyma yamanı,
Hər bir şeyə dibdaşıdır bu üçlük.

***

Dədə, gəlin bu il toyu çaldıraq,
Var olanda toy-düyün də çox olur.
Qız qalanda evdə, qartar, acıyar,
Var olanda toy-düyün də çox olur.

Kəsi olsun nənən hündür boyuna,
Yaraşıqdı qız yeddicə soyuna,
Tanrı özü gələcəkdir toyuna,
Var olanda toy-düyün də çox olur.

Dədəm oğlu, səninki də gətirdi,
Tanrı sənə bu gözəli yetirdi,
Yarpız əkdim, yer qızılgül bitirdi,
Var olanda toy-düyün də çox olur.

Anam, bacım, atam-dədəm, gəlinim,
Bəyənmişəm qızın yastı dilini,
Belə getsə tutacağam dölünü,
Var olanda toy-düyün də çox olur.

Oynayacaq ana, bala “Qaytağı”,
Ordan-burdan çalın deyir qulağı,

Düşüb bizə bu gəlinin ayağı,
Var olanda toy-düyün də çox olur.

Ay qız, səni ölməyəsən, oyna bir,
Sən də qoşub tay-tuşuna, qayna bir,
Ay toy bəyi, o sırtığı danla bir,
Var olanda toy-düyün də çox olur.

***

-Anan öldü, baban öldü, Alçiçək,
Tək yaşama, səs çıxmayır tək əldən.
Uğurelə yerinc-başçı olsan da,
Tək yaşama, səs çıxmayır tək əldən.

Belə dedi öz-özünə tək ana,
Öpdü, öpdü, ürək verdi Turq ona,
Oturdular, danışdılar yan-yana,
Tək yaşama, səs çıxmayır tək əldən.

-Sansi öldü, Yanqu öldü, sən sağ ol,
Alçiçəyim, sən quşdan da ayıq ol,
Ana oldun, indi daha ocaq ol,
Tək yaşama, səs çıxmayır tək əldən.

Hər yaraqlı döyüşlərdə güclənər,
Aslan, tülkü vuruşlarda içlənər,
Basıq çıxdı sənin döyüş bicləmən,
Tək yaşama, səs çıxmayır tək əldən.

Mən də bir az kövrəlmişəm, gözəlim,
Yan baxırsan məndən bir az küsəri,
Al ipək gey, bəzən, aya bənzərim,
Tək yaşama, səs çıxmayır tək əldən.

Qoy sevgimiz çiçək alsın yenə də,
Bu soyuqluq könlümüzü göynədər,
Sən incimə, gülüm, küsmə heç nədən,
Tək yaşama, səs çıxmayır tək əldən.

***

Barmaqlıqlar qalın idi, dəmirdən,
Əl qısaldır, köp yatırdır barmaqlıq.
Xruş orda çabalayıb dururdu,
Əl qısaldır, köp yatırdır barmaqlıq.

Barmaqlıqda sığınmışdı bucağa,

Basılaraq çəkilmişdi qırağa,
O dönmüşdü bir kimsəsiz dustağa,
Əl qısaldır, köp yatırdır barmaqlıq.
O, Başevi yaxdı, çölə pilədi,
Nə istədi, nə bacardı, elədi,
İndi dəmir barmaqlıqda kölədir,
Əl qısaldır, köp yatırdır barmaqlıq.

İndi Turqu öldürməyə and içib,
Ona yeni papış tikib, börk biçib,
Bu ölkəni tutmaq üçün yol seçib,
Əl qısaldır, köp yatırdır barmaqlıq.

İndi deyir:-Turqu gərək yandıram,
Ağüzəri satın alam, qandıram,
Kimliyimi Mindiyara andıram,
Əl qısaldır, köp yatırdır barmaqlıq.

***

O çağırır gözətçini, ağlayır,
Güclü yaraq, dolaq ipdir ağlamaq,
Deyir:-Qardaş, mən çox yazıq oğlanam,
Güclü yaraq, dolaq ipdir ağlamaq.

-Burax məni, qaçaq biz də buradan,
Uruyerə gedək, çıxaq aradan,
Bizə yardım kəsiləcək yaradan,
Güclü yaraq, dolaq ipdir ağlamaq.

Varım çoxdur, aşıb-daşıb tökülür,
Bir ölkəlik torpağım var, əkilir,
Yeni-yeni Başevlərim tikilir,
İti yaraq, dolaq ipdir ağlamaq.

Burax, gedək, səni başçı qoyaram,
Mən özümə səni qardaş sayaram,
Ad-sanını ucaldaram, yayaram,
İti yaraq, dolaq ipdir ağlamaq.

Evlənərik, iki bacı alarıq,
Biz həm qardaş, həm bacanaq olarıq,
Bir Başevdə yaşayarıq, qalarıq,
İti yaraq, dolaq ipdir ağlamaq.

***

Sil gözünü, yumruğunu düyünlə,
Ağlayanda qadın olur kişilər.
Ağlamaqla, sıtqamaqla yaşama,
Ağlayanda qadın olur kişilər.

Nə güdürsən sən ağlağan gözəldən,
İşlərini yalvarmaqla düzəldən,
Yapış, gözəl, yaxşı əldən, düz əldən,
Ağlayanda qadın olur kişilər.

Ağlayırlar, yalvarırlar gizlidə,
Tanrım, söylə, neçə üz var üzlüdə,
Dəyərsizdir o, əprimiş əskidən,
Ağlayanda qadın olur kişilər.

Ağlayanlar, sıtqayanlar aparır,
Ağlamaqla dağdan daşı qoparır,
Ağlamaqla yumuşaldır damarı,
Ağlayanda qadın olur kişilər.

Öz yerində otur, baxma tək-tükə,
Gündə girmə bir boyaya, örtüyə,
“Var,” “yer”-deyib dönmə sırtıq, sürtüyə,
Ağlayanda qadın olur kişilər.

***

Yavaş-yavaş üzülürdü gözətçi,
Tanrı gözüac yaradıb adamı,
Düşünürdü nəyi vardır, heç nəyi,
Tanrı gözüac yaradıb adamı.

Düşünürdü bunun başı yellidir,
Satqınlığı ölkələrə bəllidir,
Çox işlərdə dillilərdən dillidir,
Tanrı gözüac yaradıb adamı.

Düşünürdü var-yoxunu tutaram,
Öldürərəm, sonevinə qataram,
İstəyimə, diləyimə çataram,
Tanrı gözüac yaradıb adamı.
Deyərəm ki, qaçdı, qaçdım dalınca,
Dözdüm, ondan öc acığı alınca,
Çatdım ona, tutdum onu qılınca,
Tanrı gözüac yaradıb adamı.

Dedi:-Çıx dustaqdan, biz qaçaq,
Gedək orda dinclik tapaq, yer tapaq,
Sən başçı ol Uruyerdə, mən qonaq,
Tanrı gözüac yaradıb adamı.

***

Xruş dedi:-At yarağı, tutağı,
Qardaşlıqda yaraq gərək olmayır.
Sən qabaqda, mən də sənin dalınca,
Qardaşlıqda yaraq gərək olmayır.

Yarağını, tutağını atdı o,
Arxasınca dustağını dartdı o,
Xruş getdi, öz atını yortdu o,
Qardaşlıqda yaraq gərək olmayır.

Gözətçinin qurşağında bıçağı,
Xruş onu qapdı qırğı sayağı,
Vurdu, kəsdi üç damarı, qırtlağı,
Qardaşlıqda yaraq gərək olmayır.

Xırıldadı, o, torpağa sərildi,
Ağız açıq qaldı, gözlər bərəldi,
Çabaladı, qol-qıç atdı, gərildi,
Qardaşlıqda yaraq gərək olmayır.

Xruş dedi "–Asurelə çıxaram,
Alçiçəyi əllərimlə boğaram,
Böyük Turqu bu bıçaqla yaxaram,
Qardaşlıqda yaraq gərək olmayır.

***

Tanrım, məni öz yurdumda şah elə,
Hamı istər başçı olsun, şah olsun.
İstəyirəm buyuruqçu mən olum,
Hamı istər başçı olsun, şah olsun.
Mən bacımı öldürdüm ki, şah olum,
Öldürməkdir, aldatmaqdır qan yolu,
Gözlərimə acıq yatıb, qan dolub,
Hamı istər başçı olsun, şah olsun.

Mindiyara gücü çatmır Asurun,
Hardan hara uzanıbdır bu qurum,
Gərək onu yüz qatlayım, yüz burum,
Hamı istər başçı olsun, şah olsun.

Gərək gedim Balasqelə əyilim,
Odun olub ocağına tökülüm,
Ya da Misrə, Babilelə çəkilim,
Hamı istər başçı olsun, şah olsun.

Qaça-qaça yalvarırdı, dururdu,
Dizlərinə tez-tez yumruq vururdu,
Qumluqları tiyə-tiyə yarırdı,
Hamı istər başçı olsun, şah olsun.

XV QAPI

Ana südü söyləncі

Odərboydan dərpaya yüz il yol,
Od-ocağa bağlan, otur, yüz yaşa.
Biri suya, biri oda quylanıb,
Od-ocağa bağlan, otur, yüz yaşa.

Turqun yerə dəyməmişdi heç dizi,
Qocalanda bir oğluydu, bir özü.
Bir də sonda Alçiçəkdən bir qızı,
Od-ocağa bağlan, otur, yüz yaşa.

Qocalanda şirin olur sonbeşik,
Heyin gedir çıxaranda ilk dişi.
İlk addımı, ilk sözüylə yerişi,
Od-ocağa bağlan, otur, yüz yaşa.

Ad qoymadı Turq qızına düz on il,
Yer buz idi gözlərində sular, lil,
Qızın gözü çer olmuşdu, üz çil-çil,
Od-ocağa bağlan, otur, yüz yaşa.

Qarışmışdı varlığına odla su,
Qız od idi, göz yaşıysa axar su
Odur ata ad qoymaqda çox susur,
Od-ocağa bağlan, otur, yüz yaşa.

***

El-obaya göyöskürək yayıldı,
El sarsılır qanı qara olanda.
El-obaya qızılca da yayıldı,

El sarsılır qanı qara olanda.

Qızılcayla göyöskürək artırdı,
Uşaqları ölümlərə qatırdı,
Qalanlar da ölümüstü yatırdı,
El sarsılır qanı qara olanda.

Yataqdaydı qızılcadan Çilçiçək,
El baxırdı göz yaşları tökərək,
Qız öləcək, ya qalacaq, nə bilmək?
El sarsılır qanı qara olanda.

Yenilməz Turq sanki susub qalmışdı,
Mindiyarı qara günlər almışdı,
Turq yolunu çöllüklərə salmışdı,
El sarsılır qanı qara olanda.

***

-Böyük Tanrı, bu nə gündü, söylə bir,
Tanrıların səsi, sözü qapalı.
Yardım elə, el-obalar yazıqdır,
Tanrıların səsi, sözü qapalı.

Nədən idi, tanrılar da susurdu,
Mindiyarı hərdən qara basırdı,
Bu sözlərə Tanrı qulaq asırdı,
Tanrıların səsi, sözü qapalı.
Turq gəzirdi, "Tanrı, yardım et" deyə,
Yalvarırdı dağa, daşa, küləyə,
Gölə, çaya, kola, ota, çiçəyə,
Tanrıların səsi, sözü qapalı.

Birdən bir səs eşidildi uzaqdan,
Səs yaxından, gur-gur axan bulaqdan,
Söz yağırdı sınıq-sallaq budaqdan,
Tanrıların səsi, sözü qapalı.

Turq atına:- dayan! –dedi, saxladı,
Hər bir yanı, sağı, solu yoxladı,
Səs ucaldı, dağlar-daşlar laxladı,
Tanrıların səsi, sözü qapalı.

***

"-Mənəm! Yerin alt qatında Qızçiçək!
Sevgi məni tutuq etdi insana,

Bacar öldü, mən qayıtdım Alt Yerə,
Sevgi məni tutuq etdi insana.

Alpis məni qayalara bağlayıb,
O ipləyib məni, tutuq saxlayıb,
Şimşək olub məni hər gün dağlayır,
Sevgi məni tutuq etdi insana.

O öldürə bilmir məni, yox hayı,
Tək sevgiyə onun gücü çatmayır,
İnsan sevdim, ölüm məni tutmayır,
Sevgi məni tutuq etdi insana.

Qızçiçəyəm, Üst, Alt Yerdə köçəri,
Anasıyam Qarçiçəyin, Tuncərin,
Bacar idi ilk sevgili dağ ərim,
Sevgi məni tutuq etdi insana".

Səs kəsildi, Turq bağırdı, at aşdı,
Səs Üst Yeri, səs Alt Yeri dolaşdı,
Yer titrədi, göy diksindi, çay daşdı,
Sevgi məni tutuq etdi insana.

***

Qızçiçəyin səsi gəldi yenidən,
"Alpis tanrı yamanlığın tanrısı,
O sarsıdıb Mindiyarı, Mineli,
Alpis tanrı yamanlığın tanrısı.

Tutub eli göyöskürək, qızılca,
Gələcəkdir sarılıq da dalınca,
Öləcəkdir kiçik, körpə, balaca,
Alpis tanrı yamanlığın tanrısı.

Düşərliyin tanrıları burada,
Gəl, onları öldür, götür aradan,
Güc veribdir sənə böyük yaradan,
Alpis tanrı yamanlığın tanrısı.

Ana südü, çörəyindən güc götür,
O çörəkdən qurşağında bol gətir,
Qabağında ölüm nədir, güc nədir,
Alpis tanrı yamanlığın tanrısı.

Süddür böyük yaranışda təbərrik,

Ölümlərin qabağında o, dirrik,
Üç tanrını öldür, bitsin düşərlik,
Alpis tanrı yamanlığın tanrısı.”

***

Turq tərpəndi, Şimşək atı çaparaq,
Ana südü tanrılardan güclüdür.
Səsləyirdi onu tez-tez Qızçiçək,
Ana südü tanrılardan güclüdür.

-Alçiçəyim, öz südündə çörək yap,
Mənə yundan qat görməmiş qurşaq tap,
Mən gedirəm vuruşlara, çaphaçap,
Ana südü tanrılardan güclüdür.

Daha məndən “nədir-mədir” soruşma,
Uşağa bax, çöl işinə qarışma,
Hər bir şeydən yapışqan tək yapışma,
Ana südü tanrılardan güclüdür.
Mən gedirəm, tez qayıdıb gələrəm,
Düşərliyi Mindiyardan silərəm,
Bu yoldaca gərək olsa ölərəm,
Ana südü tanrılardan güclüdür.

Odur, məni çağırmaqda Qızçiçək,
Gedər-gəlməz bir ölümə gedərək,
Ölümlərə tez son qoyum mən gərək,
Ana südü tanrılardan güclüdür.

***

Turq buraxdı Şimşəkatın başını,
Tanıyırdı o yolları Şimşəkat.
Yer altının dolaq yolu hardadır,
Tanıyırdı o yolları Şimşəkat.

O yel olub, yel tək atı çapırdı,
Yumaq yolun dolağını tapırdı,
Hərdən-birdən düz yolunu sapırdı,
Tanıyırdı o yolları Şimşəkat.

Turq atını yeldən iti sürürdü,
Bulud yerə ağ döşənək sərirdi,
O elə bil şirin yuxu görürdü,
Tanıyırdı o yolları Şimşəkat.

-Çap, iti get, yenilməyən təkərim,
Yeraltının, Yerüstünün kəhəri,
Qalsın yerdə qoşa-qoşa ləpirin,
Tanıyırdı o yolları Şimşəkat.

Çap, qardaşım, atam, oğlum, yorulma,
Göz oxşayan gözəlliyə vurulma,
Çətinlikdən sınma, durma, qırılma,
Tanıyırdı o yolları Şimşəkat.

***

Bir ulartı eşidildi meşədən,
Meşə sonsuz, dilsiz, qoca söyləncdir,
Bir qurd igdi, ağlayırdı elə bil,
Meşə sonsuz, dilsiz, qoca söyləncdir.
Sürdü atı Turq, o səsə yan aldı,
At dayandı, o nə gördü, nə oldu,
Bir qurd idi, beş balası ölüydü,
Meşə sonsuz, dilsiz, qoca söyləncdir.

Qurd ulayır, süd axırdı döşündən,
Səs çıxmırdı balaların beşindən,
Gəzdirirdi hər balanı dişində,
Meşə sonsuz, dilsiz, qoca söyləncdir.

Turq söylədi:-Yazıq, dağdır bu ağrı,
Tanrı sənin ürəyini beş yarıb,
Nədən ölüb sənin, yazıq, beş yavrun?
Meşə sonsuz, dilsiz, qoca söyləncdir.

Turq xurcundan ət çıxartdı, pay qoydu,
Ət iyini qurd nə aldı, nə duydu,
Hey uladı, meşələrə səs yaydı,
Meşə sonsuz, dilsiz, qoca söyləncdir.

Heyvərələrlə vuruş söyləncı

Turq yollandı Yeraltının yoluna,
Yeraltında nələr vardır, nələr yox,
Düyün yollar, dolaq yollar, düz yollar,
Yeraltında nələr vardır, nələr yox.

Tutulurdu yavaş-yavaş yer üzü,
Bürüyürdü toranlıqlar gündüzü,

Tanımırdı lap yaxından üz üzü,
Yeraltında nələr vardır, nələr yox.

Tanınmayan səs-söz, haray, bağırtı,
Yağıntıya bənzəməyən yağıntı,
Hər yer yanğın, hər yer tüstü, dağıntı,
Yeraltında nələr vardır, nələr yox.

Quşlar tərsə – beli üstə uçurdu,
Ceyran ürküb dalı-dalı qaçırdı,
Günəş ay tək solğun işıq saçırdı,
Yeraltında nələr vardır, nələr yox.
Nə görsəydin əyintiydi, baş-ayaq,
Yel əsirdi, fırlanırdı çaysayaq,
Bulaq göllər, göl bulaqlar daşqalaq,
Yeraltında nələr vardır, nələr yox.

***

Kişnəyirdi nəsə tez-tez Şimşəkat,
Tutulursan görünməmiş görəndə,
Dişi tayın çağırırdı elə bil,
Tutulursan görünməmiş görəndə.

Birdən quduz bir heyvərə göründü,
Turq üstünə dördayaqlı süründü,
Boynu uzun, gözü-ağzı dərindi,
Tutulursan görünməmiş görəndə.

Atılanda Turq üstünə arxadan,
Bir qurd ona ağız atdı qorxmadan,
Qorxu aldı iki yanı arada,
Tutulursan görünməmiş görəndə.

Onlar birdən dəlisayaq boğuşdu,
Boz heyvərə kirpi sayaq yığışdı,
Qılınc endi boğazına, sığışdı,
Tutulursan görünməmiş görəndə.

Ana qurdu Turq tanıdı yenə də,
Südlü döşlər sallanırdı hələ də,
O gəlmişdi Turqla birgə meşədən,
Tutulursan görünməmiş görəndə.

***

Bir səs gəldi, Qızçiçəyin səsiydi,

“Vuranların vuran əli sağ olsun!
Göyöskürək tanrısını öldürdün,
Vuranların vuran əli sağ olsun.

Qızılcanın çil-çil olub dərisi,
O heyvərə heyvərələr tanrısı,
O qoruyur qanlı qancıl Alpisi,
Vuranların vuran əli sağ olsun.
Ağzı çaydır, su daşlanır ağzından,
Yüz ayının çəkisində azından,
Ancaq hey yox gövdəsinin yarsında,
Vuranların vuran əli sağ olsun.

Sarılığın tanrısı da quduzdur,
O heyvərə donuzsayaq donuzdur,
Döşü, başı oxbatmazdır, toppuzdur,
Vuranların vuran əli sağ olsun.

Ancaq qaçıb o, Alpisin əlindən,
Qızılcanı vursan, vur sən belindən,
Çıxacaqsan onda Alpis çölündən,
Vuranların vuran əli sağ olsun.

İgid olsan, qızılcayla bacarsan,
Gəlib məni qayalıqdan açarsan,
Alpis ilə üzləşməkdən qaçarsan,
Vuranların vuran əli sağ olsun.”

***

Bir il idi Turq yolları ölçürdü,
Yol yolçuya düz olmağı öyrədir,
Qurtarırdı ana südü çörəyi,
Yol yolçuya düz olmağı öyrədir.

Son əppəyi son döyüşdə yeyirdi,
Alçiçəyi yada salıb öyürdü,
Qızılcanı, sarılığı söyürdü,
Yol yolçuya düz olmağı öyrədir.

Dağ döşündən bulud endi torpağa,
Bir heyvərə yolda durdu ayağa,
Yaşıl idi, oxşayırdı batlağa,
Yol yolçuya düz olmağı öyrədir.

Caynaq atıb lapdan Turqdan yapışdı,

İki qancıl bir-biriylə çarpışdı,
Qanlar axdı, bir-birinə qarışdı,
Yol yolçuya düz olmağı öyrədir.

Turqu alıb dartdı, göydə saxladı,
Yarağını, geyimini qoxladı,
Qılıncını görüb, içdən laxladı,
Yol yolçuya düz olmağı öyrədir.

***

Onun üstə cumdu birdən ana qurd,
Gözlənilməz səs də qorxu yaradır.
Heyvərənin ayağını çeynədi,
Gözlənilməz səs də qorxu yaradır.

Qorxub Turqu aldı o, sol əlinə,
Turq qılıncı vurdu onun belinə,
Səs yayıldı Yeraltının çölünə,
Gözlənilməz səs də qorxu yaradır.

Qızılcanın beli sındı, çökdü o,
Caynağıyla yeri eşib sökdü o,
Titrəyərək qan içində səkdi o,
Gözlənilməz səs də qorxu yaradır.

***

Alpis gəldi, dişi Qorat üstündə,
Atda, qurdda, quşda sevgi suçu var,
Dedi:-yaxşı görüşümə gəlibsən,
Atda, qurdda, quşda sevgi suçu var.

Gəlibsənsə səni alıb yaxaram,
Yeraltında ölməyinə baxaram,
Bacarın da acığını çıxaram,
Atda, qurdda, quşda sevgi suçu var.

Qorat birdən şahə qalxdı, kişnədi,
Tayın görüb, yüyənini çeynədi,
Alpis dedi:-dəli atım, neynədin?
Atda, qurdda, quşda sevgi suçu var.

Alpis aşdı atdan, yerə sərildi,
Şimşəkqılınc başı üstə gərildi,
O, bir öldü, sanki bir də dirildi,
Atda, qurdda, quşda sevgi suçu var.

***

Alpis durub qaçdı, yer-yer gizləndi,
Yamanlıqdan acıq çıxdı yaxşılıq.
Yeraltında yandı iplər, kəndirlər,
Yamanlıqdan acı çıxdı yaxşılıq.

Çıxdı yenə tutuqluqdan Qızçiçək,
Addım-addım Turqa yaxın gələrək,
Yuxudaydı sanki, qalxdı gülərək,
Yamanlıqdan acıq çıxdı yaxşılıq.

Üz tutaraq yerə, göyə, bağırdı,
Yeraltından Alçiçəyi çağırdı,
Dedi:-Doğmam, bu ayrılıq ağırdı,
Yamanlıqdan acıq çıxdı yaxşılığ.

-Yerüstünə gəlləm, ollam bir qonaq,
Mən görünməz olacağam, bil, ancaq,
Özüm deyil, səsim-sözüm olacaq,
Yamanlıqdan acıq çıxdı yaxşılıq.

Turq yıxıldı, dili, gözü tutuldu,
Düşər oldu, qızılcaya qatıldı,
Qızçiçəyin ağ qaşları çatıldı,
Yamanlıqdan acıq çıxdı yaxşılığ.

Qızılcayla çarpışanda, sən demə,
Qızılcaya yoluxubdu Turq dədə,
Yoxsa niyə yıxılaydı, o nədən,
Yamanlıqdan acıq çıxdı yaxşılıq.

Turqun qızılcaya yoluxması söyləncisi

Turq yatmışdı, ağır nəfəs alırdı,
Tanrı, özün eloğluna yardım et.
Turq hərdənbir zarıyırdı, qusurdu,
Tanrı, özün eloğluna yardım et.
Turq olmasa Mindiyarı udarlar,
Bu ölkənin lap sonuna çatarlar,
Alıb onu özlərinə qatarlar,
Tanrı, özün eloğluna yardım et.

Böyük tanrı, güc ver Turqa, yaşaya,

Qızçiçəyəm, pisliklərə qarşıyam,
Yeraltının, Yerüstünün quşuyam,
Tanrı, özün eloğluna yardım et.

Qızçiçəyəm, sevdim insan oğlunu,
Mən çatlatdım pisliklərin bağrını,
Mən yalana qarşı qoydum doğrunu,
Tanrı, özün eloğluna yardım et.

Mən çağırdım onu Alpis çölünə,
Tanrı, məni üzüqara eləmə,
Turqu sağalt, qaytar doğma elinə,
Tanrı, özün eloğluna yardım et.

***

Ana südü-çörək olsa sağalar,
Kim olsa da ana, yenə tanrıdır.
Bir qırıq da olsa çörək, sağaldar,
Kim olsa da ana, yenə tanrıdır.

-Nə xurcunda, nə qurşaqda çörək var,
Ana qurdun südü vardır, sağaldar,
Sağın, görüm qurd südündən nə olar,
Kim olsa da ana, yenə tanrıdır.

Ana qurdu sağdı ana Qızçiçək,
O sağalar, ya sağalmaz, nə bilmək?
İsti süddən hər gün içsin Turq gərək,
Kim olsa da ana yenə tanrıdır.

Yol getdilər beş ay, on ay, il keçdi,
Turq ayıldı, hər gün üç yol süd içdi,
Bir il, beş ay atlar çapdı, yol ölçdü,
Kim olsa da ana, yenə tanrıdır.

Yerüstündə əsməkdəydi yel, külək,
Ancaq nədən yox olmuşdu Qızçiçək?
Ana qurdla Turq qalmışdı təkbətək,
Kim olsa da ana, yenə tanrıdır.

***

Çiçəklənib sağalmışdı Mindiyar,
Hər ölkənin yey başçısı tanrıdır.
Uşaq, körpə sağlam idi, oynağan,
Hər ölkənin yey başçısı tanrıdır.

Turqun qızı böyümüşdü, beş ildə,
Çil-çilliyi nə üzündə, nə əldə,
Ona gözəl söylədilər çox eldə,
Hər ölkənin yey başçısı tanrıdır.

Ad qoymuşdu ellər ona, Elçiçək,
On yaşında qaplan idi, kəpənək,
Oğlanlarla süpürləşmək, güləşmək,
Hər ölkənin yey başçısı tanrıdır.

Elçiçəyi evdə görmək olmurdu,
Bir anlığa o, bir yerdə qalmırdı,
Oynağan qız öyüd-möyüd bilmirdi,
Hər ölkənin yey başçısı tanrıdır.

Turq elləri dolanmaqdan doymurdu,
Şimşəkatı darıxmağa qoymurdu,
Hər gələni, hər gedəni saymırdı,
Hər ölkənin yey başçısı tanrıdır.

Ana qurd söyləncі

Elçiçəyin qocalmışdı atası,
Qocalıq da yaraşıqdı kişiyə.
Əl çəkmirdi təkcə ondan qızılca,
Qocalıq da yaraşıqdı kişiyə.

Sağalmışdı hamı, bütün el-oba,
Sağalmırdı bircə Turqda çox yara,
Üzülmüşdü, qıpqırmızı, qapqara,
Qocalıq da yaraşıqdı kişiyə.

Qızılcanı Turq düşərlik saymırdı,
Sızıltını boğub yaxın qoymurdu,
Ana qurdla oynamaqdan doymurdu,
Qocalıq da yaraşıqdı kişiyə.

Ana qurdun qurumuşdu döşləri,
Ağ süd kimi ağarmışdı dişləri,
Anlayırdı ağır sözü, işləri,
Qocalıqda yaraşıqdı kişiyə.

Sanki Turqu anlayırdı bir azca,

Sarsıtmışdı nər kişini qızılca,
Ona yardım eləmişdi bu qoca,
Qocalıq da yaraşıqdı kişiyə.

***

Ana qurdun Turqtaydaydı qulağı,
Adam kimi qurd da soya sayıqdır.
Sanki Turqda tapmışdı qurd soyunu,
Adam kimi qurd da soya sayıqdır.

Qurd atılıb qalxdı evə lapbadan,
Turqu görüb nərildədi o, bir an,
Yaxınlaşdı, sızıldadı astadan,
Adam kimi qurd da soya sayıqdır.

Sonra Turqun əl-qolunu yaladı,
Üz-gözünü, baş-boynunu yaladı,
Ağzını da, burnunu da yaladı,
Adam kimi qurd da soya sayıqdır.

Sonra Turqu bir də, bir də yaladı,
Sonra durub bərkdən-bərkdən uladı,
Sanki evdə olanları hayladı,
Adam kimi qurd da soya sayıqdır.

***

Ana qurdun səsi çatdı hamıya,
Qurd uladı, yatanları oyatdı.
Alçiçək də, Elçiçək də gəldilər,
Qurd uladı, yatanları oyatdı.

Qurd yox oldu, hamı qaçıb gələndə,
Susdu hamı Turqu ölmüş biləndə,
Turq diksindi, tutdu qızın əlindən,
Qurd uladı, yatanları oyatdı.

Turq hamıdan ana qurdu soruşdu,
Bir söz hərdən bayqın qoyur hamını,
Dedi:-Məni yalayırdı ana qurd,
Qurd uladı, yatanları oyatdı.

Dedi:-Məni aparırdı qızılca,
Ana qurdu gələn görüb qaçdı o,
Hamı susdu, susqun qaldı bu sözdən,
Qurd uladı, yatanları oyatdı.

Dedi:-Gedin, ana qurdu gətirin,
Onu mənə, onu mənə yetirin,
Sağalmışam, bu yatağı götürün,
Qurd uladı, yatanları oyatdı.

Dedi:-Gedin, tapın onu, səsləyin,
Bir ev tikin, onu orda bəsləyin,
O, tanrıdır, tanrılığın gözləyin,
Qurd uladı, yatanları oyatdı.

Dedi:-Məni o qurtardı ölümdən,
O ayrıldı sürüsündən, elindən,
Döyüşlərdə o yapışdı əlimdən,
Qurd uladı, yatanları oyatdı.

***

Turq sağaldı, qopdu ölüm əlindən,
Ölüm hər an dörd yanında gəzişir.
O geyindi döyüş-vuruş geyimi,
Ölüm hər an dörd yanında gəzişir.
Bir gün səhər tezdən ova gedirdi,
Şimşəkatla küləkləri ötürdü,
Hərdən seyrək meşəlikdə itirdi,
Ölüm hər an dörd yanında gəzişir.

Bir qazıntı gördü, atı saxladı,
Düşdü baxdı, o, qazmanı yoxladı,
Nə gördüsə, Turqun içi laxladı,
Ölüm hər an dörd yanında gəzişir.

Qurdu gördü, burda yuva salmışdı,
Evdən qaçıb deyən bura gəlmişdi,
Sonev qazıb öz-özünə ölmüşdü,
Ölüm hər an dörd yanında gəzişir.

***

Turq oturdu, baxdı, baxdı, ağladı,
Çox kişilər hər ölənə ağlamır.
Turq ağladı bu ağrılı ölümə,
Çox kişilər hər ölənə ağlamır.

Dedi:-Sənsən altı bala anası,
Beşi öldü, altıncı-mən-qalası,
Ana qurdum, mənim köksüm parası,

Çox kişilər hər ölənə ağlamır.

Qızılcanı sən yalayıb udubsan,
Sən onunla bu çuxurda yatıbsan,
Alıb onu bu sonevə qatıbsan,
Çox kişilər hər ölənə ağlamır.

Ana qurdum, mənim tanrım, inancım,
Öldü getdi sənin ilə o qancıl,
Göyərməsin daha o pis yabançı,
Çox kişilər hər ölənə ağlamır.

Mən ağlaram sənin üçün, yaraxlım,
Aramızda olmayacaq uzaqlıq,
Nə meşəlik, nə yamaclıq, nə dağlıq,
Çox kişilər hər ölənə ağlamır.

***

Turq götürdü dəbilqəni başından,
Tunc dəbilqə igidlərə yaraşır.
Qoydu qurdun sonevinin üstünə,
Tunc dəbilqə igidlərə yaraşır.

Gecə qaldı Şimşəkatla orada,
Hərdən durub o ağladı arada,
Dedi:-Qurdu yenə dirilt, yaradan,
Tunc dəbilqə igidlərə yaraşır.

Torpaq tökdü, ana qurdu quyladı,
Sonra özü durub qurd tək uladı,
Meşələri, ormanları hayladı,
Tunc dəbilqə igidlərə yaraşır.

XVI QAPI

Ana ürəyi söyləncisi

Odərpaya, Odərboya çəkməyib,
Doğrusayaq yığan idi Elçiçək,
Öldürməyi, öc almağı sevmirdi,
El qoruyan qalxan idi Elçiçək.

Çəkməyirdi ürəyini, gözünü
Boya-boya yun, ip, ipək geyimlər.

Sarsıdırdı onu eldə deyilən
Doğrusayaq, inancqurşaq deyimlər.

İstəyinin qanadıyla uçurdu
Doğrusayaq, inancqurşaq düzlərə,
El- obada qucağını açırdı
Ürək açan, könülyaxan sözlərə.

O sevirdi danışığı, söylənci,
Hərəsində yeni tutum tapırdı.
O gəzdikcə hər deyimdən bir inci,
Hər mahnıdan bir gözəllik qapırdı.

Gələ-gələ Uğurelə çatmışdı,
Döyüşlərin, basarların oylağı.
Sevinclərə, çiçəklərə batmışdı
Odərboyun gözəl-göyçək qonağı.

***

Bir ay qaldı, ordan getdi Duzdağa,
Yaranışa sorğu olur gəzənlər.
Hər ölkədə nələr-nələr görürdü,
Yaranışa sorğu olur gəzənlər.

Duzdağdan da endi gəldi Muğana,
Muğandan da gəldi Odərboydana.
Göz zillədi, o boylandı hər yana,
Yaranışa sorğu olur gəzənlər.

Eşitdilər, qonaq gəlib şah qızı,
Bəzədilər yurdu, eli, dam, düzü,
Varda, yoxda, ye-içməkdə yox gözü,
Yaranışa sorğu olur gəzənlər.

O göz qoyur yurdun hər dam-daşına,
Doğruyalan, yalandoğru yığır o,
Eşitdilər, ürəyinə, başına
Qoşma-qoşma ağı-ağrı yığır o.

Yığışdılar, el-obadan gəldilər,
Elçiçəklə danışdılar, güldülər,
Şah qızının yazdığını bildilər,
Yaranışa sorğu olur gəzənlər.

***

Biri qoşma, biri söyləmc söylədi,
Söyləmc-qoşma keçmişidir ellərin.
Doğrusayaq, yalandoğru dedilər,
Söyləmc-qoşma keçmişidir ellərin.

Biri çıxdı, od-alovlu danışdı,
Göy gözləri ulduz kimi sayrışdı,
Göz yaşları sözlərinə qarışdı,
Söyləmc-qoşma keçmişidir ellərin.
Dedi:-Gözəl, yapışıqlı Elçiçək,
Bir olmuşu sənə deyim mən gərək,
Danışırdı o, tələsik, o, titrək,
Söyləmc-qoşma keçmişidir ellərin.

Bir söyləmc var, eşidibdir bu Muğan,
Bu Muğanı qoruyubdur yaradan,
Bir anayla bir qız olub, bir oğlan,
Söyləmc-qoşma keçmişidir ellərin.

Qızın adı Demriz, oğlan Eldəbir,
Buralarda söyləmc belə söylənir,
Bir gün bu ev başçısını itirir,
Söyləmc-qoşma keçmişidir ellərin.

***

Ana qalır çox-çox çətin ayaqda,
Ev-eşiyi dolandıran kişidir.
Təkbaşına uşaqları böyüdür,
Ev-eşiyi dolandıran kişidir.

Çiçək kimi solur, gedir uşaqlar,
Heyvasayaq, sarı-sarı yanaqlar,
Kimə gərək susuz qalan budaqlar,
Ev-eşiyi dolandıran kişidir.

Kimsə saymır elə bil ki onları,
Dolanışın baxışları sapsarı,
Hər kişinin öz köçü var, öz varı,
Ev-eşiyi dolandıran kişidir.

Oğlan qoçaq, atası tək dik olur,
Ac olsa da üzü kökdür – dop-dolu,
Zəngin arıq, yoxsul nədən kök olur?
Ev-eşiyi dolandıran kişidir.

Ova gedir, dərz bağlayır, ot çalır,
Hər yüz dərzə o, bircəcik dərz alır,
Ancaq yenə o, dərz kimi saralır,
Ev-eşiyi dolandıran kişidir.

***

Eldəbirə tanrı ürək vermişdi,
Yaşayasan necə təkcə ürəklə.
Ancaq ona böyük ürək vermişdi,
Yaşayasan necə təkcə ürəklə.

Eldəbirin enli köksü, kürəyi,
Yumuşaqdan lap yumuşaq ürəyi,
Oyuncaqdır onun gənclik istəyi,
Yaşayasan necə təkcə ürəklə.

O sevirdi, bəyənirdi hamını,
Bir bilirdi hər bir evi, qapını,
Bir görürdü ağı, göyü, sarını,
Yaşayasan necə təkcə ürəklə.

Çox sevirdi öz oğlunu anası,
O olmuşdu gözün ağı-qarası,
Sevilirdi el içində balası,
Yaşayasan necə təkcə ürəklə.

Ana onla sevinirdi, gülürdü,
Öz oğlunu göy adamı bilirdi,
Onun üçün dirilirdi, ölürdü,
Yaşayasan necə təkcə ürəklə.

***

Yaz gəlmişdi, gülüşürdü çiçəklər,
Yaz ürəyə sevgi-sevinc gətirir.
Sanki daş da sevib-sevmək istəyir,
Yaz ürəyə sevgi-sevinc gətirir.

Bir gün dağlar arxasından Eldəbir
Ürək açan mahnı səsi eşidir.
Nədir bu səs, görən o qız nə deyir,
Yaz ürəyə sevgi-sevinc gətirir.

Alçiçəklər verib bu gün qol-qola,
Qor səpilib elə bil ki, yol-yala,
Bu mahnını oxuyan qız kim ola,

Yaz ürəyə sevgi-sevinc gətirir.
Nə gözəldir, nə incədir bu mahnı,
Alıb bu səs hər qulağı, hər yanı,
Niyə bu qız görünməyir, o, hanı,
Yaz ürəyə sevgi-sevinc gətirir.

Bu səs niyə salıb məni uyğuya,
Çəkib mənim ürəyimi yanğıya,
Sanki mən də bir mahnıyam, duyğuyam,
Yaz ürəyə sevgi-sevinc gətirir.

***

-Ana, bu səs hardan gəlir, nə səsdir,
-Oğlum, yazdır, bu, quşların səsidir.
-Ana, o qız necə gözəl oxuyur,
-Oğlum, yazdır, bu, quşların səsidir.

Ana gördü Eldəbiri səs alıb,
Mahnı səsi ürəyinə yurd salıb,
Səs yönünə o boylanır, ucalır,
-Oğlum, yazdır, bu, quşların səsidir.

Ana bir az ürəkləndi, sevindi,
Dedi, duyur gizlinləri o, indi,
Balasının duyğusunu bəyəndi,
-Oğlum, yazdır, bu, quşların səsidir.

Eldəbiri mahnı səsi kəsirdi,
O mahnıdan könlü kal-kal əsirdi,
Ana baxıb sevinirdi, susurdu,
-Oğlum, yazdır, bu, quşların səsidir.

-Tanrı səsi duymaqdayam səsdə mən,
Bizə sarı gəlir bu səs deyəsən,
Məni niyə çağırmaqda o, hərdən,
-Oğlum, yazdır, bu, quşların səsidir.

***

Üç aşırım, üç dağ, üç kənd arada,
Çəkir səni yatımlı səs, incə səs.
Hərdən gedib qayıdırdı Eldəbir,
Çəkir səni yatımlı səs, incə səs.
-Kimsən, gözəl, niyə belə küsülü,
Sanki yolun hər bir yandan kəsilib,
Elə bil ki, için sapdan asılıb,

Çəkir səni yatımlı səs, incə səs.

Bil ki, anam olmasaydı gələrdim,
İstəyini öyrənərdim, bilərdim,
Göz yaşını göz yaşımla silərdim,
Çəkir səni yatımlı səs, incə səs.

Gözəl, niyə sən bu sayaq dolubsan,
Sızlayırsan, kimdən yara alıbsan,
Haralarda gizli yuva salıbsan,
Çəkir səni yatımlı səs, incə səs.

Təkliyini təkliyimə qataram,
Harda olsan gəlib sənə çataram,
Çatıb, ay qız, əllərini tutaram,
Çəkir səni yatımlı səs, incə səs.

***

Gəzdi qızı, çiçəklərdən soruşdu,
Sevgi dili bilir çox-çox çiçəklər.
Dedi, onu tanıyırsan, ağ çiçək,
Sevgi dili bilir çox-çox çiçəklər.

Çiçəkləri bir-bir, yer-yer dindirdi,
Üzlərini səs yönünə döndərdi,
Hərdən ona yaz öpüşü göndərdi,
Sevgi dili bilir çox-çox çiçəklər.

Ay qaranquş, ay kəpənək, ay arı,
Mənə deyin ora gedən yolları,
Siz göstərin o səs gələn diyarı,
Sevgi dili bilir çox-çox çiçəklər.

O, bir səsdir, gəlib dolub beynimə,
O, qoxudur, gəlib hopub əynimə,
O, bir quşdur, gəlib qonub çiynimə,
Sevgi dili bilir çox-çox çiçəklər.

Mən gedirəm, gəlin mənim dalımca,
Yol gedərəm ondan soraq alınca,
Mən taparam onu gücüm qalınca,
Sevgi dili bilir çox-çox çiçəklər.

***

Yola düşdü, getdi vurğun Eldəbir,

Sevgi nədir, sevgi şirin yuxudur.
Yuxuluydu, tutuluydu elə bil,
Sevgi nədir, sevgi şirin yuxudur.

Bir kəpənək dağa sarı gedirdi,
Hərdən-birdən görünürdü, itirdi,
Başı üstdən qaranquşlar ötürdü,
Sevgi nədir, sevgi şirin yuxudur.

Döşlər yaşıl otlaqlara bürünüb,
Sarı dişli sərt qayalar görünür,
Çökəklərdə ağ buludlar sürünür,
Sevgi nədir, sevgi şirin yuxudur.

Səs gəlirdi uzaqlardan hərdənbir,
Çöl yuxuda danışırdı elə bil,
Hər ağacdan, hər koldan bir səs gəlir,
Sevgi nədir, sevgi şirin yuxudur.

Çayın sərin şırıltısı yuxulu,
Göyün bulud gurultusu qorxulu,
Axmaz göllər baxır dili sorğulu,
Sevgi nədir, sevgi şirin yuxudur.

***

-Ay göz çəkən mahnı səsi, hardasan?
İçi tel-tel tarım çəkən mahnıdır.
Ay qız, girdin ürəyimə səsinlə,
İçi tel-tel tarım çəkən mahnıdır.

O gedirdi, aşırımlar aşırdı,
O dolmamış sevgi ilə daşırdı,
Gedə-gedə hərdən mahnı qoşurdu,
İçi tel-tel tarım çəkən mahnıdır.
O gedirdi, meşə, yamac, dağ, çökək,
Yollar içrə öz yolu var sevginin.
Gözlərinə sanki heç nə görünmür,
Yollar içrə öz yolu var sevginin.

Mahnı səsi ağaclıqdan qalxırdı,
Gülə-gülə bir qız ona baxırdı,
Ürkək idi, nədən isə qorxurdu,
Yollar içrə öz yolu var sevginin.

Gözəl idi, göz çəkirdi gözüylə,

Aya bənzər, süddən də ağ üzüylə,
Danışırdı hərdən-birdən özüylə,
Yollar içrə öz yolu var sevginin.

***

-Bu, gözəllik tanrısıdır, ay ana,
Gözəl gördün, sal başını aşağı.
Belə gözəl görməmişəm hələ mən,
Gözəl gördün, sal başını aşağı.

Ağ göyərçin, ağ sonadır, ağ quzu,
Bu Duzdağın güzgüsüdür, ağ duzu,
Bu göylərin ən işıqlı ulduzu,
Gözəl gördün, sal başını aşağı.

Ancaq yağar bulud kimi tutqundur,
Ağlamaqdan, oxumaqdan yorğundur,
Üzü günəş, baxışları solğundur,
Gözəl gördün, sal başını aşağı.

Eldəbirin saralmışdı yanağı,
Qızı görüb pozulmuşdu anlağı,
Söz tutmurdu onun dili, dodağı,
Gözəl gördün, sal başını aşağı.

Qız görəndə Eldəbiri bu sayaq,
Yarı bayqın, dilsiz, vurğun, utancaq,
Dedi:-Qorxma, lap yaxına gəl, qonaq,
Gözəl gördün, sal başını aşağı.

***

Yaxınlaşdı o gözələ Eldəbir,
Gözəl elə uzaqdan da gözəldir.
Onu daha gözəl gördü yaxından,
Gözəl elə uzaqdan da gözəldir.

Qız dedi ki: -Ay utancaq, söylə sən,
Buralara necə, nə üçün gəlibsən,
Yoxsa məni öz tay-tuşun bilibsən?
Gözəl elə uzaqdan da gözəldir.

Eldəbirin bir an dili dolaşdı,
Utanaraq yanaqları allaşdı,
Səsi birdən şirinləşdi, ballaşdı,
Gözəl elə uzaqdan da gözəldir.

Dedi:-Çoxdan vurulmuşam səsinə,
İndi görüb vurulmuşam özünə,
Kəsi ollam saçlarına, üzünə,
Gözəl elə uzaqdan da gözəldir.

Mənim adım Eldəbirdir, gəncəm mən,
Sənə görə ayrılmışam elimdən,
Mənə tanrı olub yapış əlimdən,
Gözəl elə uzaqdan da gözəldir.

***

Qız dedi ki:-Mənim adım Üzaydır,
Yazıq olur çox-çox gözəl sevənlər.
Mən ölkənin gözəliyəm, çiçəyi,
Yazıq olur çox-çox gözəl sevənlər.

Məni sevib igid olmaq istəsən,
Onda gərək hara desəm gedəsən,
Bu sevgiyə inanaram onda mən,
Yazıq olur çox-çox gözəl sevənlər.

Acı keçib mənim gənclik illərim,
Qorxub ana-bacısından gənc ərim,
Onlara yox, o, tək mənə döş gərib,
Yazıq olur çox-çox gözəl sevənlər.
Gündə üç yol döyülmüşəm mən azı,
Döyüb məni qaynanamla baldızım,
Sən başa düş mən yazığı, yalqızı,
Yazıq olur çox-çox gözəl sevənlər.

Ərə getdim, beş ay qaldım, boşandım,
Keçmişimə nə acıdım, nə yandım,
Nələr gördüm, çox acıdım, çox yandım,
Yazıq olur çox-çox gözəl sevənlər.

***

İstəyirsən sənə ürək bağlayım,
Gətir mənə ürəyini ananın.
Məni belə günə qoydu qaynanam,
Gətir mənə ürəyini ananın.

Onda səni mən də sevib oxşaram,
Sənin ilə bir istəkdə yaşaram,
Oxuyaram, sənə mahnı qoşaram,

Gətir mənə ürəyini ananın.

Bağışlaram sənə nəyim qalıbsa,
Unudaram mənə nələr olubsa,
Məni gərək qoruyasan, alasan,
Qancılımı qırğı kimi çalasan,
Tüklərini bir-bir, tək-tək yolasan,
Gətir mənə ürəyini ananın.

İnanaram onda sənə, Eldəbir,
Dincəl-dincəl yaşayarıq onda biz,
İkilikdə yaşayarıq ikimiz,
Gətir mənə ürəyini ananın.

Mən də səni yuxularda görmüşəm,
Ürəyimi sənə gizli vermişəm,
Yuxularda ürəyinə girmişəm,
Gətir mənə ürəyini ananın.

***

Sevgisinə inanırdı Eldəbir,
İnam çəkir dağa-daşa adamı.
Qaça-qaça dönüb evə qayıtdı,
İnam çəkir dağa-daşa adamı.
Dedi:-Ana, qız gözəldi, maraldı,
Bir yol gördüm, sevgisindən saraldım,
Onu görcək, ana, gözüm qaraldı,
İnam çəkir dağa-daşa adamı.

Dedi mənə, biz gəlmişik döş-döşə,
Səni çox-çox yuxularda görmüşəm,
Göndərirəm səni ağır bir işə,
İnam çəkir dağa-daşa adamı.

Dedi, onda inanaram sənə mən,
Öz ananın ürəyini dibindən
Çıxarasan, gətirəsən mənə sən,
İnam çəkir dağa-daşa adamı.

Ana gördü dəli olub Eldəbir,
Danışan da o deyildir, sevgidir,
O, götür – qoy eləsə də birbəbir,
İnam çəkir dağa-daşa adamı.

***

Dedi:-Neynək, təki ağgün olasan,
Balasına ağ gün dilər analar.
Ağgünlərin qucağında qalasan,
Balasına ağ gün dilər analar.

Ürəyimi öz köksümdən alaram,
Əlidolu səni yola salaram,
Ürəksiz yox, oğul, sənsiz qalaram,
Balasına ağ gün dilər analar.

Bir az keçdi, ana birdən bağırdı,
Sonra oğlu Eldəbiri çağırdı,
Qan köksündən şorultuyla axırdı,
Balasına ağ gün dilər analar.

Çırpınırdı ürək ovcu içində,
Qana batmış iri armud biçimdə,
Ana güldü dolanışdan köçəndə,
Balasına ağ gün dilər analar.

Qapdı ana ürəyini Eldəbir,
Dalda qoydu cığırları birbəbir,
Ah, gör, ürək nə danışır, nə deyir,
Balasına ağ gün dilər analar.

***

Hərdən ürək danışırdı, dinirdi:
-Oğul, ana ürəyini unutma.
Hərdən ona pıçıldayıb deyirdi:
-Oğul, ana ürəyini unutma.

Eldəbirin qabağına qurd çıxır,
Qurdun qara gözlərindən yaş axır,
Deyir, ana ürəyindən qan yağır,
-Oğul, ana ürəyini unutma.

Deyir, getmə, o qız səni aldadır,
Onun qancıl yalanları daldadır,
Niyə sənə acılıqlar bal dadır?
-Oğul, ana ürəyini unutma.

Bir quş qonur yol üstündə bir daşa,
Nə deyəcək Tanrı bu kal dikbaşa?
Tanrı çətin bu sevgiylə barışa,
-Oğul, ana ürəyini unutma.

***

Qaçır gedir əldə ürək, Eldəbir,
Çox şeyləri görmür, duymur sevənlər.
Getmə deyir kollar, otlar, ağaclar,
Çox şeyləri görmür, duymur sevənlər.

Cinlər gəlir, yolu-yalı tuturlar,
Ürək deyir:-Çıxın yoldan, qoturlar,
Siz ki sevgi dadmayıbsız, qatırlar,
Çox şeyləri görmür, duymur sevənlər.

Nərildəyib qaplan baxır qıraqdan,
Getmə, deyir şırıldayan bulaqlar,
Sən bu yolda düşəcəksən ayaqdan,
Çox şeyləri görmür, duymur sevənlər.

Qan qusaraq deyir ana ürəyi,
-Eldəbirin düzdür yolu, diləyi,
Onun könlü incə arı çiçəyi,
Çox şeyləri görmür, duymur sevənlər.

Yolu üstə çıxır çobanyastığı,
Deyir:-Daha oyan, bəsdir yatdığın,
Ürək deyir, bəsdir ara qatdığın,
Çox şeyləri görmür, duymur sevənlər.

***

Çatır qıza yorğun-ərğın Eldəbir,
Nədən sevgi gənc yaşlarda tələsir.
Ağzı üstə o yıxılır torpağa,
Nədən sevgi gənc yaşlarda tələsir.

Ürək deyir:-Anan ölsün, Eldəbir,
Haran daşa dəydi, bala, söylə bir,
Güc qalmayıb səndə, döşün təntiyir,
Nədən sevgi gənc yaşlarda tələsir.

Yaralanıb onun dizi, dirsəyi,
İkiəlli qıza verir ürəyi,
Deyir:-Budur sənə böyük istəyim,
Nədən sevgi gənc yaşlarda tələsir.

Qız deyir ki, qalx, Eldəbir, ayağa!
Lap yaxın gəl, gəl bir az da qabağa,

At ürəyi o gur yanan ocağa,
Nədən sevgi gənc yaşlarda tələsir.

Eldəbirin əli əsir, yox deyir,
Ürək deyir, qorxma, oğul, Eldəbir!
Belə sevgi ələ düşər mindəbir,
Nədən sevgi gənc yaşlarda tələsir.

***

Üzay gəlir, alır ondan ürəyi,
Ürək közdür, od-alova alışqan.
O tullayır od içinə ürəyi,
Ürək közdür, od-alova alışqan.

Bir səs gəlir yana-yana ürəkdən:
-Niyə belə acıqlısan, qız, nədən!?
Sən də ana olacaqsan, ay nənəm!
Ürək közdür, od-alova alışqan.

Üzay dedi:-İnanıram indi mən,
Bir igidsən, sən Üzayı sevirsən!
Bir diləyim qalır, igid, yenidən,
Ürək közdür, od-alova alışqan.

Sevgim artdı, Eldəbirim, bil, sənə,
Görəcəyin ağ günlərin yerinə,
Bacının da ürəyini ver mənə,
Ürək közdür, od-alova alışqan.

Düşünmədən, daşınmadan Eldəbir,
Yolu dala qayıdaraq birbəbir,
O özünü bacısına yetirir,
Ürək közdür, od-alova alışqan.

***

Deyir:-Bacı, çat haraya, yardıma!
Bacı gərək qardaşına yaraya!
Ürəyini ver aparım Üzaya!
Ürək közdür, od-alova alışqan.

Bacı baxır, görür, o çox tələsir,
Dəli olub qardaş, sevgi dəlisi,
Deyir, hələ görünməyib beləsi,
Ürək közdür, od-alova alışqan.

Deyir:-Təki sən çıxasan ağ günə,
Kəsi olsun bacın dəli sevginə,
Qoy bu sevgi dolaşmasın düyünə,
Ürək közdür, od-alova alışqan.

Gözlə burda, ürəyimi gətirim,
Onu sənə, onu sənə yetirim,
Yolun üstən çətinliyi götürüm,
Ürək közdür, od-alova alışqan.

Bacı getdi, gözü-izi itirdi,
Qoyun kəsdi, ürəyini gətirdi,
Dəliləşmiş qardaşına yetirdi,
Ürək közdür, od-alova alışqan.

***

Çox sevindi, aldı, qaçdı Eldəbir,
Belə sevgi dəlilikdir, gülüncdür.
Yolda güldü bu sevgiyə çoxları,
Belə sevgi dəlilikdir, gülüncdür.

Ah, necə də doğru olub yalanlar!
Güldü ona quşlar, cinlər, qaplanlar,
–Dayan!-Deyir ona yerdə qalanlar,
Belə sevgi dəlilikdir, gülüncdür.

Üzay aldı, baxdı, dedi:-Eldəbir,
Bu lap qoyun ürəyinə bənzəyir,
At ocağa, bu ürəkdir, hər nədir!
Belə sevgi dəlilikdir, gülüncdür.

Üzay atdı o ürəyi ocağa,
Baxdı, baxdı, sonra durub ayağa,
Gəldi, gəldi, bir də baxdı qonağa,
Belə sevgi dəlilikdir, gülüncdür.

Dedi:-Kimsən qalmayıbdır, ay dəbək,
Kim sevdiyin qıza elçi gələcək!?
Kimin qaldı, kimliyindən, de, görək,
Belə sevgi dəlilikdir, gülüncdür.

Birdən bir səs eşidildi arxadan,
İkisi də dümdüz qaldı qorxudan.
Sarsıldılar bu biclikdən, qurqudan,
Belə sevgi dəlilikdir, gülüncdür.

***

-Mənəm!-dedi-Eldəbirin bacısı!
Boş başlara baxıb gülür dolanış.
Sanma mənim qardaşımı kimsəsiz,
Boş başlara baxıb gülür dolanış.

Qız deyilsən, sən dəlisən, öc alan!
Başdan-başa sevgin, sözün yapyalan!
Al, bu qılınc, bu da ölüm, bu qalxan!
Boş başlara baxıb gülür dolanış.

Bacı qılınc qaldıranda Üzaya,
Atılaraq qardaş girir araya,
Yara dəyir yara üstən yaraya,
Boş başlara baxıb gülür dolanış.

Üzay vurdu Eldəbiri, saxladı,
O titrədi, dəniz kimi çağladı,
Bacısını qucaqlayıb ağladı,
Boş başlara baxıb gülür dolanış.

Üzay qaçdı, o qaçandır, yox olub.
Deyirlər ki, o, Xruşdan yer alıb,
Qorxu çəkib, sir-sifəti saralıb,
Boş başlara baxıb gülür dolanış.

***

Qulaq asdı bu söyləncə Elçiçək,
Yanır, sonda külə dönür sevgilər.
Dedi:- Hanı Eldəbirin bacısı,
Yanır, sonda külə dönür sevgilər.

-Mənəm!-dedi-Eldəbirin bacısı!
Keçib gedib o illərin acısı,
Qalıb qardaş yaraları, sancısı,
Yanır, sonda külə dönür sevgilər.

-Adın nədir? İgid bacı, söylə bir,
Ölüb, qalıb o dəlisov Eldəbir?
-Adım Demriz, qardaşımsa sağ deyil,
Yanır, sonda külə dönür sevgilər.

Axtarıram tapım onu, Xruşu,
Onlar ilə bir döyüşdə görüşüm,

Dəyişdirim bu yalançı duruşu,
Yanır, sonda külə dönür sevgilər.

-Demriz sənsən, demək-deyir Elçiçək,
Başevə gəl, biz yaxşıca görüşək,
Bir qoruyaq ölkəmizi biz gərək!
Yanır, sonda külə dönür sevgilər.

XVII QAPI

Dəmirqız söyləncisi

Turqun yaşı üç yüz ilə çatırdı,
Yaş göstərir kimliyini adamın.
At çapırdı ovlaqlarda, çöllərdə,
Yaş göstərir kimliyini adamın.

Bir azcana şişmiş idi qıçları,
Ağarmışdı kirpikləri, qaşları,
Pambıq idi haçalanmış saçları,
Yaş göstərir kimliyini adamın.

Çox dadlara, duyğulara uymadı,
Anasının düz yolundan caymadı,
Yersiz-yersiz sevgiləri saymadı,
Yaş göstərir kimliyini adamın.

Şimşəkatı kişnəyirdi yaylaqda,
Şimşəkqılınc şütüyürdü ovlaqda,
O baxırdı öz-özünə qıraqdan,
Yaş göstərir kimliyini adamın.

Soyuyurdu vuruşlardan ilbəil
Parsel, Muğel, Çinel, Hindel, Asurel,
Dincəlirdi torpaq, yaraq, dəniz, göl,
Yaş göstərir kimliyini adamın.

***

Təkcə Parsel vergilərdə batmışdı,
Dilәkləri tarım çəkən vergidir.
Darvideldə yenə vuruş gedirdi,
Dilәkləri tarım çəkən vergidir.

Darvideli qatmaq üçün Parselə,
Üzay ilə Xruş verdi əl-ələ,
Kələzdənib dirənirdi el elə,

Dilәkləri tarım çәkən vergidir.

Cümər öldü, Manayqız da dul qaldı,
Qardaşına qayğıları azaldı,
Xruş ona arxa oldu, güc oldu,
Dilәkləri tarım çәkən vergidir.

Xruş onu pişim-pişim bәslәdi,
Hәrdәn onu Manayşah da sәslәdi,
Bic-bic gülüb, gizli-gizli gözlәdi,
Dilәkləri tarım çәkən vergidir.

Turqla Manay bir-birini yanladı,
Bir-birini orda, burda danladı,
Xruş isә yerli, yersiz banladı,
Dilәkləri tarım çәkən vergidir.

***

Xruş çoxdan susamışdı şahlığa,
Qan istәyir qanlı biclik, yüksәliş.
Manayı da bunca kәsi edirdi,
Qan istәyir qanlı biclik, yüksәliş.

Xruş dedi:-Mindiyarı tutaram,
Parseli dә Mindiyara qataram.
İstәyimә, dilәyimә çataram,
Qan istәyir qanlı biclik, yüksәliş.

Turqu, bir dә Alçiçәyi daşlaram,
Çox işləri yavaş-yavaş boşlaram,
“Ölkә-ölkә” oyunumu başlaram,
Qan istәyir qanlı biclik, yüksәliş.

Mәnim ola gәrәk böyük Mindiyar,
Mәnim ola bu ölkәdә nә ki var,
Saxlancıma qızıl, gümüş qalanar,
Qan istәyir qanlı biclik, yüksәliş.

Turq Tanrının öyüdünü anırdı,
Mindiyara onu başraq sanırdı,
Ancaq hәrdәn alışırdı, yanırdı,
Qan istәyir qanlı biclik, yüksәliş.

***

İncimişdi o, bacısı Manaydan,

Bacı gərək qardaşını atmaya.
Gedib bacı oturmuşdu Parseldə,
Bacı gərək qardaşını atmaya.

O bilmirdi bu inciklik nədəndi,
Bu deyirdi, bu ayrılıq səndəndi,
O deyirdi, bu çəkişmə səndəndi,
Bacı gərək qardaşını atmaya.

Xruş tez-tez yollanırdı Arana,
Göz dikmişdi Qobuçölə, Muğana,
O yerlərdi burda bolluq yaradan,
Bacı gərək qardaşını atmaya.

Yerinc qoymaq istəyirdi Manayı,
Bir də gizli saxlayırdı Üzayı,
Yüyən etmək Mindiyara cüt çayı,
Bacı gərək qardaşını atmaya.

Axmaqdaydı ürəyindən Kür, Araz,
Diləyində bu qoşa çay göy qotaz,
Ancaq özü bu çaylardan çox dayaz,
Bacı gərək qardaşını atmaya.

***

Ağüz gəldi Odərboya toplumla,
Hər bir şeyi öncə bilən Tanrıdır.
Odərboyu Odərboydan elədi,
Hər bir şeyi öncə bilən Tanrıdır.

Boyük Turq da yarıtanrı sayılır,
Dedikləri el içində yayılır,
Üz-gözündə ay işığı duyulur,
Hər bir şeyi öncə bilən Tanrıdır.

O bilirdi, bir gün Ağüz gələcək,
Odərboydan danışacaq, deyəcək,
Oğlu üçün ağlayacaq Alçiçək,
Hər bir şeyi öncə bilən Tanrıdır.
Ancaq Ağüz Pars elindən danışdı,
“Manay, Xruş” sözü sözə qarışdı,
Turq da elə bu sözlərdən yapışdı,
Hər bir şeyi öncə bilən Tanrıdır.

Dedi:-Oğlum, Ağüz, başın qarışıb,

Sənsən indi toplumumda minbaşı,
Sənsən mənə Odərboyun qardaşı,
Hər bir şeyi öncə bilən Tanrıdır.

***

Get Muğelə, Uğurelə, Çinçaya,
Başçı gərək ipi əldən verməsin.
Ölkənin də ipi-sapı yollardır,
Başçı gərək ipi əldən verməsin.

Get Parselə, duruş yarat, yerinc ol,
Manayqıza arxa dayan, görünc ol,
Bu gəlişlə Mindiyara qorunc ol,
Başçı gərək ipi əldən verməsin.

Ağüz dedi:-Böyük Turqa mən kəsi,
Minel ilə Mindiyarın zirvəsi!
Çəkilməsin üstümüzdən kölgəsi!
Başçı gərək ipi əldən verməsin.

Mən Xruşu vurdum, əzdim, dağıtdım,
Al qanını sarı quma axıtdım,
Ölən yerdə, ölüm ilə qorxutdum,
Başçı gərək ipi əldən verməsin.

O ölməyib, yaralanıb, sən demə,
Sonra durub yenə gedib Parselə,
Verib Manay Üzay ilə əl-ələ,
Başçı gərək ipi əldən verməsin.

***

Mən demirəm o satqındır, bu satqın,
Satqınlığın izi üzdən bəllidir.
O, şahlığa hazırlayır Manayı,
Satqınlığın izi üzdən bəllidir.
Eşitmişəm ona Manayşah deyir,
Bilmirəm ki, bu Xruşa nə deyim,
Xruş nədir, qoyunboğaz, tuncgeyim,
Satqınlığın izi üzdən bəllidir.

Ağüz dedi:-Öldürəndə onu mən,
“Əkbitəni-dedi-yaxan mənəm, mən”,
“Bil, Cuməri öldürən də mənəm, mən”,
Satqınlığın izi üzdən bəllidir.

Gülüncdür o, tez-tez bərkdən ulayır,
Bu ölkəni o ölkəyə calayır,
Ancaq üzdə Xruş kasa yalayır,
Satqınlığın izi üzdən bəllidir.

İzn verin, mən bu işə qarışım,
Gedib orda Manayqızdan soruşum,
Orda gedir qanlı ölüm, barışıq,
Satqınlığın izi üzdən bəllidir.

***

Turq söylədi:-Manay ona aldanmaz,
Düyün düşər iş iş üstə qalansa.
Çox işləri buraxmışıq başına,
Düyün düşər iş iş üstə qalansa.

Deyən, Manay unudubdur özünü,
Şahlıq yeri tutub qızın gözünü,
Doğru sanıb o, Xruşun sözünü,
Düyün düşər iş iş üstə qalansa.

Bir öyrən, gör, Üzay kimdir, nəçidir,
Hansı elin, hansı soyun köçüdür,
Hansı yurda o qız ölçü-biçidir,
Düyün düşər iş iş üstə qalansa.

Bir də öyrən, nə istəyir o harın,
Sevgi olmaz, biclik olar bu andır,
Yaş toqquşu çox böyükdür onların,
Düyün düşər iş iş üstə qalansa.

Ağüz dedi:-Tək çıxaram bu yola,
Odərboyda başçı yerim boş qalar,
Yoxsa onun ayaqları yer alar,
Düyün düşər iş iş üstə qalansa.

Ağüzün Parselə yollanması söyləncisi

Turq söylədi:-Şimşəkatı götür, min,
Ata inan, ona güvən, onu sev.
Şimşəkatda tanrı gücü var hələ,
Ata inan, ona güvən, onu sev.

Atla yolun iki gündür, üç gecə,
Çatan kimi Darvideldə düş öncə,
Manayı gör, danış mənim dilimdən,
Ata inan, ona güvən, onu sev.

Götürüldü yellər kimi Şimşəkat,
Şimşəkqılınc güc artırdı neçə qat,
Ağüz oldu dəmirköküs, yelqanad,
Ata inan, ona güvən, onu sev.

Öncə gizli Manay ilə görüşdü,
Ondan Cumər, Parsa, Turqu soruşdu,
Manayqızın alnı, üzü qırışdı,
Ata inan, ona güvən, onu sev.

Dedi:-Səni Şimşəkatdan tanıdım,
Ağüz ola gərək igid, ər adın,
Mənsə ərə getməmişdən dul qadın,
Ata inan, ona güvən, onu sev.

***

Manay dedi:-Gözləyirdim Turqu mən,
Bacı-qardaş arasına girməyin.
Bu, dönüklük deyil, biclik sayılır,
Bacı-qardaş arasına girməyin.

Manay dedi:-Anlayıram, Ağüz, mən,
Sən bu yerə nə suç ilə gəlibsən,
Bu ellərə gəlməmişdir Turq nədən,
Bacı-qardaş arasına girməyin.

Mən Xruşu öyrənirəm bir ildir,
O siz deyən, bilən Xruş deyildir,
Üzayisə bicdir, içi çil-çildir,
Bacı-qardaş arasına girməyin.

O istəyir mən – dul qadın yolu ilə,
Parselə yox, Mindiyara şah olam,
Sanır mənlə əl-ələdir, qol-qola,
Bacı-qardaş arasına girməyin.

O deyir ki, Turq qocalıb, sən şah ol,
Məni yoxa sürükləyir, düzə yox,
Mənə inan, sən qayıt get, ay oğul,
Bacı-qardaş arasına girməyin.

***

Qardaşıma de ki, küskün olmasın,
Uduzarsan gizli işdə tələssən.
Xruş Hindel, Asurelə söykənir,
Uduzarsan gizli işdə tələssən.

Mən Xruşu sona kimi ötürrəm,
Onu birdən mən aradan götürrəm,
O satqını ilim-ilim itirrəm,
Uduzarsan gizli işdə tələssən.

Ona de ki, mən edənlər oyundur,
De ki, Xruş quş yox, qanlı quzğundur,
Qardaş, bacı Tanrıdan da yaxındır,
Uduzarsan gizli işdə tələssən.

Gözləyirəm sona kimi küyləsin,
Qanlı-qanlı istəyini söyləsin,
Hər işində məni əlbir eyləsin,
Uduzarsan gizli işdə tələssən.

Qız toplumu burda mənə arxadır,
Turqun sözü qulağımda sırğadır,
Xruşunsa atı axsaq-yorğadır,
Uduzarsan gizli işdə tələssən.

***

Bu sözləri deyib Manay qayıtdı,
Lap dolaşar çəkişmələr gizlidə.
Ancaq Ağüz qayıtmadı, gözlədi,
Lap dolaşar çəkişmələr gizlidə.

O düşündü, Manayı tək qoymaram,
Bu gözəlin sözlərinə uymaram,
Mən Hindeli, Asureli saymaram,
Lap dolaşar çəkişmələr gizlidə.

Döyüşlərdə Manay igid olsa da,
Gizli işdə o saralıb solsa da,
Quzğun Xruş önündə tək qalsa da,
Lap dolaşar çəkişmələr gizlidə.

O gizləndi, Darvideldə gözlədi,
Addım-addım o, Xruşu izlədi,

Hərdən “Manay” çağıraraq səslədi,
Lap dolaşar çəkişmələr gizlidə.

Gecə ikən Qızay ilə yan-yana,
Xruş beş min toplum çəkdi Muğana,
Qalxdı bu səs, getdi çatdı hər yana,
Lap dolaşar çəkişmələr gizlidə.

Muğanda vuruş söyləncі

Öc almağa yollanırdı Qızay da,
Qadın öcü ağır kişi öcündən.
Eldəbirin bacısıydi qanlısı,
Qadın öcü ağır kişi öcündən.

Demriz yenə başçı idi elində,
Dinclik vardı dağ-daşında, çölündə,
Dedi, Xruş basqısını biləndə,
Qadın öcü ağır kişi öcündən.

-Çıxın iki çay arası, yaraqlı,
Əli yalın çıxın, əli çomaqlı,
Acıqanın qabağında başraqlı,
Qadın öcü ağır kişi öcündən.

Geydi döyüş geyimini əyninə,
Çıxdı gələn toplumların önünə,
Batdı qatı seyrək güney çəninə,
Qadın öcü ağır kişi öcündən.

Araz üstə gəlib durdu acıqan,
Gördü ona qarşı durub çox adam,
Gördü burda nərildəyir dağ, aran,
Qadın öcü ağır kişi öcündən.

***

Gördü biri qapı-qapı bağırır,
-Vuruş günü kiçik, böyük olmayır!
Xruş dedi:-Kimdi elə bağıran?!
-Vuruş günü kiçik, böyük olmayır!

Üzay dedi:-Odur, Demriz dəlisoy,
Ağ başrağı uca, özü ortaboy,
Bu ellərdə odur başçı, od-aloy,

-Vuruş günü kiçik, böyük olmayır!

Odur mənim yaralayan qolumu,
O kəsmişdir mənim sevgi yolumu,
Odur mənim ağı edən balımı,
-Vuruş günü kiçik, böyük olmayır!

Qoyma onun daş üstündə daşını,
O kəsmişdir çay üstündə qarşını,
Ver Üzaya onun kəsik başını,
-Vuruş günü kiçik, böyük olmayır!

Xruş dedi:-Qan qan üstən salaram,
Diri-diri onu tutuq alaram,
Başın kəsib, saçlarını yolaram,
-Vuruş günü kiçik, böyük olmayır!

***

Yaraqlılar çaya enib durdular,
Çay löhməsə, demək burdan sel keçib.
Neçəsini süpürləyib apardı,
Çay löhməsə, demək burdan sel keçib.

Xruş dedi:-Ağac kəsin, budayın,
Bərələrə minib çayı addayın,
O Demrizi yaxalayın, oddayın,
Çay löhməsə, demək burdan sel keçib.

Sal düzəldib, yaraqlılar mindilər,
Qorxa-qorxa löhmə çaya endilər,
Az keçmədi, ətə, leşə döndülər,
Çay löhməsə, demək burdan sel keçib.

Hər gün, hər gün sal qayıqlar tikildi,
Su üstündən qalın iplər çəkildi,
Vuruşlarda onlar çaya töküldü,
Çay löhməsə, demək burdan sel keçib.

Bir səs qalxdı, titrək, qorxunc o taydan,
Səs çıxmadı bu taydakı alaydan,
Xruş nəsə soruşmaqda Üzaydan,
Çay löhməsə, demək burdan sel keçib.

***

Qızay dedi:-Odur, Demriz bağırır,

Səs titrədir hərdən qancıl ürəyi.
Odur, səni başrağıyla qorxudur,
Səs titrədir hərdən qancıl ürəyi.

Demriz deyir:-Ahay, Xruş, yekəbaş!
Bu vuruşda sən yavaş ol, çox yavaş!
Buralarda nə tutuq var, nə daş-qaş!
Səs titrədir hərdən qancıl ürəyi.
Sən buradan öz yerinə dön, Xruş!
Yoxsa sənə sonev olar bu duruş,
Bu, Muğandır, sıra-sıra dağ, vuruş!
Səs titrədir hərdən qancıl ürəyi.

Mən dəliyəm, səni yaxıb əzərəm!
Hər bir yandan yollarını kəsərəm,
Boş başını quş başı tək üzərəm!
Səs titrədir hərdən qancıl ürəyi.

Mənəm yazıq Eldəbirin bacısı,
Mindiyarın qız balası, carçısı!
Qanlı dimdik quzğunların ovçusu,
Səs titrədir hərdən qancıl ürəyi.

***

Çox əlləşdi Xruş keçsin o taya,
Çayın səsi, seli-suyu qorxulu.
Keçənləri vurub çaya tökdülər,
Çayın səsi, seli-suyu qorxulu.

Gecə idi, bir səs qalxdı o taydan,
Bu səs güclü bağırtıdan, haraydan,
-Bu nə səsdir? – O soruşdu Üzaydan,
Çayın səsi, seli-suyu qorxulu.

Üzay dedi:-Bu, Demrizdir, bağırır,
Səni geri qayıtmağa çağırır,
Pis olacaq-deyir-sənin axırın,
Çayın səsi, seli-suyu qorxulu.

Xruş bir də yürüş edir o taya,
O göstəriş verir yorğun alaya,
Tökülsünlər sıra-sıra bu çaya,
Çayın səsi, seli-suyu qorxulu.

Deyir:-Gedin, vurun, qırın, dağıdın!

Deyir:-Yarın, qan qan üstə axıdın!
Muğan ilə Qobuyeri qorxudun!
Çayın səsi, seli-suyu qorxulu.

***

Alay gedir, Xruş, Üzay tək qalır,
Təklənəndə qorxu alar ürəyi.
Qaranlıqda şimşək çaxır iki yol,
Təklənəndə qorxu alar ürəyi.

Şimşək deyil, işıq düşür bircə an,
O, Demrizin qılıncıdır parlayan,
İki gövdə aşır yerə yanbayan,
Təklənəndə qorxu alar ürəyi.

Yerdə iki gövdə, iki baş qalır,
Dörd bir yanı ala-qızıl qan alır,
Kəsik başdan boğuq haray ucalır,
Təklənəndə qorxu alar ürəyi.

Qayıdanlar yaralanıb, əzilib,
Xruş, Üzay, qoşa başlar kəsili,
Qalanların daş ürəyi üzülür,
Təklənəndə qorxu alar ürəyi.

Demriz durub kəsik başlar yanında,
Qılıncını yuyur qancıl qanında,
Qalanlar da qaçır arvad donunda,
Təklənəndə qorxu alar ürəyi.

Yazıqlaşan yaraqlılar qaçırlar,
Yaralılar yatıb yeri qucurlar,
Muğanlılar çay yolunu açırlar,
Təklənəndə qorxu alar ürəyi.

***

At kişnəyir birdən Aran boyunca,
Gec gəlsə də arxa yenə arxadır.
Şimşəkatın kişnərtisi tanışdır,
Gec gəlsə də arxa yenə arxadır.

Turqla Manay, Ağüz gəlib yetişir,
Sanki atlar bir-biriylə ötüşür,
Onlar düşüb Demriz ilə görüşür,
Gec gəlsə də arxa yenə arxadır.

Yerdə cüt baş öz qanında üzürdü,
“Yaşa Demriz!” sözü çölü gəzirdi,
Göydə buna Tanrı qulaq asırdı,
Gec gəlsə də arxa yenə arxadır.

Turq soruşur:-Demriz sənsən, ay bala?!
Demriz deyir:-Mənəm, böyük Turq ata!
Xoş gəlibsiz bu Minelli elata!
Gec gəlsə də arxa yenə arxadır.

Turq söylədi:-Qoy var olsun qılıncın!
Daha sənsən Qobuyerin yerinci!
Sən başçısan, bir də burda birinci!
Gec gəlsə də arxa yenə arxadır.

Qız, çiynindən iki qotaz asılsın!
Adın tanıq adlar içrə yazılsın!
Adın gümüş çevrə qabda yazılsın,
Gec gəlsə də arxa yenə arxadır.

Tək Demriz yox, Dəmirqızsan Muğana,
Çevirmisən qız köksünü qalxana,
Qancılları tökdün çaya, yarğana,
Gec gəlsə də arxa yenə arxadır.

Turqa tanrı öyüdü

Yer üzünə bir də Zərdüşt gələcək,
O, tanrının oğlu, tanrı yoludur.
O gələndə sən də tanrılaşarsan,
O, tanrının oğlu, tanrı yoludur.

Yer üzünə Budda gəlsə, yaxın dur,
O, Zərdüştə bizə kökdən yaxındır,
İnsanları haqqa qoşan haqq odur,
O, tanrının oğlu, tanrı yoludur.

Yer üzünə Məryəm, İsus gələcək,
Onu tanrı öz övladı biləcək,
Böhtanları yer üzündən siləcək,
O, tanrının oğlu, tanrı yoludur.
Turq, Məhəmməd doğulacaq doğuda,
Tanrılaşıb yaranışda, qurquda,
Ayılacaq yuxulular yuxuda,

O, tanrının oğlu, tanrı yoludur.

Sən də sonda tuş gələrkən Alpisə,
Dur Bacar tək o ölümlə üz-üzə,
Öncə tapşır Mindiyarı Ağüzə,
O, tanrının oğlu, tanrı yoludur.

Turq, sənin də tanrılıqda adın var,
İlk yaranış, son barışıq – Mindiyar,
Turq barışda, Turq vuruşda baş çapar,
O, tanrının oğlu, tanrı yoludur.

Mindiyarın on min ildən çox yaşı,
Tanrılarla qoyulubdur dibdaşı,
Çox-çox ellər, çox uluslar qardaşı,
O, tanrının oğlu, tanrı yoludur.

Turq hər yerdə doğulacaq, qalacaq,
Gücü, işi tanrısayaq olacaq,
O, Alpisdən çox öc-acıq alacaq,
O, tanrının oğlu, tanrı yoludur.

***

Tanrı dedi:-Oğullarım, qızlarım,
Barış üstə dayanmışdır dayanış,
Barış olsun, ey Turq, hər bir yürüşün,
Barış üstə dayanmışdır dayanış.

Tanrı dedi:-Mindiyarı gəz, dolaş,
Nə qan olsun Mindiyarda, nə savaş,
Hər bir elə Turq adınla sən yanaş,
Barış üstə dayanmışdır dayanış.

Tanrı dedi:-Yaman, Turqu qarşıla,
Bütün düzlər gərək ona qoşula,
Yer bürünsün al qana yox, yaşıla,
Barış üstə dayanmışdır dayanış.

Böyüklükdə ilk oğlumdur o, mənim,
Saxlayacaq barış üstə ölkəni,
Çatdıracaq sonevinə o, səni,
Barış üstə dayanmışdır dayanış.

Turqtayındır Körfəz, Çinçay, Buzboğaz,
Bu yerlərin barı boldur, çoru az,

Dayanışa al qurşaqdır, göy palaz,
Barış üstə dayanmışdır dayanış.

Qoy Turq olsun hamı biri-birinə,
Hamı gərək eldə Turq tək görünə,
Oğullaşın Odərboydan yerinə,
Barış üstə dayanmışdır dayanış.

***

Tanrı dedi:-Dayanışın sonu yox,
Dayanışdan hərə bir ad qoparsın,
Yay, qış kimi, dayanış da dəyişir,
Dayanışdan hərə bir ad qoparsın.

Dəyişəcək, incələcək yalanlar,
Qalacaqdır yaxşılarla yamanlar,
Görüşəcək ölənlərlə qalanlar,
Dayanışdan hərə bir ad qoparsın.

Çəkiləcək yurdarası kəndirlər,
Qanadlanıb uçacaqdır dəmirlər,
Sarıyacaq yer üzünü təkərlər,
Dayanışdan hərə bir ad qoparsın.

Hamı gəlib gücü Turqdan alacaq,
Turqun adı barış kimi qalacaq,
Gözəlliklər bütün Turqun olacaq,
Dayanışdan hərə bir ad qoparsın.

Yer üzündən silinəcək qan-qada,
Lap yenidən doğulacaq hər adam,
Dönəcəkdir Yaman quru bir ada,
Dayanışdan hərə bir ad qoparsın.

Ağır gündə siz sığının Tanrıya,
Tanrı sizin yaranızı sarıyar,
Tanrı sizi qan-qadadan qoruyar,
Dayanışdan hərə bir ad qoparsın.

***

Tanrı dedi:-İgid Turqlar, Cumərlər,
Yer üzündə kim çox bilir, o gücdür,
Yerin, göyün alt, üstünü öyrənin,
Yer üzündə kim çox bilir, o gücdür.

Tanrılaşın gözəlliklə, biliklə,
Uçun göyə quşla, püflü köpüklə,
Qaynaq olun tunc, dəmirə körüklə,
Yer üzündə kim çox bilir, o gücdür.

Gəzin, tapın, açıqlayın yoxları,
Bilik ilə baş olacaq çoxları,
Bilik üzə çıxaracaq laxları,
Yer üzündə kim çox bilir, o gücdür.

Yer üzündə nə var, bilin, sizindir,
Son gəzməyin, varlıq dilin, sözündür,
Sonra hər şey suyun, qarın, buzundur,
Yer üzündə kim çox bilir, o gücdür.

Hər bir işdə Tanrı deyin, güllənin,
Bir danışın, bir yeriyin, dillənin,
Yamanlara qarşı durun, sellənin,
Yer üzündə kim çox bilir, o gücdür.

Yer üzündə dəmir Tanrı olacaq,
O, sudan da alov, şimşək alacaq,
Yaman görüb bu işləri solacaq,
Yer üzündə kim çox bilir, o gücdür.

***

Tanrı dedi:-İgid Turqlar, Cumərlər,
Toplu olun, dağılmasın sıranız,
Yer üzünə yaşıl qurşaq sizsiniz,
Toplu olun, dağılmasın sıranız.
Sayınızla tuşlaşıbdır ulduzlar,
Qoy böyüsün, kiçilməsin uluslar,
Qoy səslənsin hər bir yerdə qopuzlar,
Toplu olun, dağılmasın sıranız.

Turq başçıdır, özünüzə «Turq» deyin,
Yaman gəlsə, nə söyləsə, «yox» deyin,
Ac olanda özünüzə «tox» deyin,
Toplu olun, dağılmasın sıranız.

Mənim ilkin balalarım, ərlərim,
Buzboğazdan Körfəzəcən yerləri
Yamanlara yer verməyin, döş gərin,
Toplu olun, dağılmasın sıranız.

Qabaqdadır altı böyük inanış,
Qabaqdadır hələ neçə oyanış,
İnanışla dolanacaq dayanış,
Toplu olun, dağılmasın sıranız.

Ağır gündə məni deyin, səsləyin,
Mən arxayam, mənə inam bəsləyin,
Hər bir yerdə, işdə ölçü gözləyin,
Toplu olun, dağılmasın sıranız.

***

Turq düşündü:-Bunlar qızıl öyüddür,
Hər barışda gərək olur qılınc da.
Çox da olma bunca tüküyu muşaq,
Hər barışda gərək olur qılınc da.

Körfəz-Çinçay boyu təkşah olaram,
İki ölkə boyu yollar salaram,
Mən qarayağ verib ipək alaram,
Hər barışda gərək olur qılınc da.

Hələ qalır üç yanımda acıqan,
Tanrı olmaq nəyə gərək yalandan,
Nə tanrılıq, yerdə Yaman qalanda,
Hər barışda gərək olur qılınc da.

Gərək gedəm, Yeraltına addayam,
Çəkəm yaman tanrıları ortaya,
Məni görcək bağırları çatdaya,
Hər barışda gərək olur qılınc da.

Çinçay ilə gərək bir də barışaq,
Bu ölkəyə bir su olub qarışaq,
Bir ağaca iki yandan yapışaq,
Hər barışda gərək olur qılınc da.

Yerdə Minel, göydə Tanrı başrağım,
Doğu-Batı mənim qızıl qurşağım,
Odərpayla Sərtüz yanar ocağım,
Hər barışda gərək olur qılınc da.

V Bölmə
XVIII QAPI

Ağüzün sevgi söylənci

Keçdi yüz gün Araz üstdə döyüşdən
Sevgi birdən gəlir,-demə!, Yalandır.
Ağüz sevdi Dəmirqızı,-Demrisi.
Sevgi birdən gəlir,-demə!, Yalandır.

Gözəl idi Muğan qızı – Dəmirqız,
Muğan kimi ip-istiydi dumansız,
Baxışları iti, duru, toransız,
Sevgi birdən gəlir,-demə!, Yalandır.

Onu bir yol Elçiçəklə görmüşdü,
Ona bir də, bir də könül vermişdi,
Sanki ilkin sevgi gülü dərmişdi,
Sevgi birdən gəlir,-demə!, Yalandır.

Döyüşkənlik yontasıydı Dəmirqız,
Qancıllara qarşı yürük, amansız,
Ana, qardaş itirmişdi bu sərt qız,
Sevgi birdən gəlir,-demə!, Yalandır.

Öz-özüylə bir sırada, - yanaşı,
Onu görmək istəyirdi yüzbaşı,
Adı-sanı toplumlarda dolaşır,

Sevgi birdən gəlir,-demə!, Yalandır.

Başçılıqda, bicləmədə iti göz,
Min-min qancıl qabağında dəmirdöz,
Dönməz idi, enməz idi bu gənc qız,
Sevgi birdən gəlir,-demə!, Yalandır.

***

Ancaq Ağüz bilməyirdi Başevdə
Ilk sevginin güzgüsüdür soluqluq.
Elçiçək də gizli onu sevirdi,
Ilk sevginin güzgüsüdür soluqluq.

O, Ağüzü hərdən gizli güdürdü,
Gizlicədə hərdən mahnı ötürdü,
Ova çıxıb yal-yamacda itirdi,
Ilk sevginin güzgüsüdür soluqluq.

Bəyənmişdi özlüyündə Ağüzü,
Tək gəzirdi boylan-boylan dağ-düzü,
Götür-qoyla arayırdı hər sözü,
Ilk sevginin güzgüsüdür soluqluq.

Deyirdilər, Elçiçəklə Minbaşı
Yaman-yaman bir-birinə yaraşır,
Öz sevgisi, öz yolu var hər yaşın,
Ilk sevginin güzgüsüdür soluqluq.

Eşitmişdi, inanmışdı bu sözə,
Vurulmuşdu gizli-gizli Ağüzə,
Çəkilmişdi üz-gözündən bər-bəzək,
Ilk sevginin güzgüsüdür soluqluq.

Bu sevginin önü varsa sonu yox,
Bu sevginin yolu varsa yönü yox,
Bu sevginin gecəsi çox, günü yox,
Ilk sevginin güzgüsüdür soluqluq.

***

Əl-ayağa düşüb Başev gözləyir,
Gizli sevgi didib üzər sevəni.
Qorxurdular bunu bilə Turq ata,
Gizli sevgi didib üzər sevəni.

Ancaq bunu Turq bilirdi, dinmirdi,
Elçiçək də sevgisindən dönmürdü,
Qız öz sevgi zirvəsindən enmirdi,
Gizli sevgi didib üzər sevəni.

Ağüzər də düşünürdü ayrıca,
“Hörükləri Dəmirqızın var, haça
Boydan bəstə, düşüncədən çox uca,
Gizli sevgi didib üzər sevəni.

O elə bil tunc yaraqlı sonadır,
Dəmirqızdır, mənə gücdür, arxadır,
Həm döyüşçü, həm də gözəl başqadır,
Gizli sevgi didib üzər sevəni.

Mənlə olar o, döyüşdə, vuruşda,
Çətinlikdə, gözlənilməz duruşda,
Biz sevgiyə yer qoyarıq bu başdan,
Gizli sevgi didib üzər sevəni.

Mən əzilib büzüləni sevmirəm,
Arı beli üzüləni sevmirəm,
Hər boyundan asılanı sevmirəm,
Gizli sevgi didib üzər sevəni.

Onu sevib hər an aşıb daşaram,
Mən onunla toysuz sevgi başlaram,
Ona döyüş gündəmimi aşlaram,
Gizli sevgi didib üzər sevəni.

***

O mənimlə olmalıdır hər yanda,
Hər an birgə olmalıdır ər-arvad.
Döyüşdə də, dinclikdə də, evdə də,
Hər an birgə olmalıdır ər-arvad.”

Ağüz belə düşünürdü, sanırdı,
Düşündükcə Dəmirqızı anırdı
O qız üçün alovlanıb yanırdı,
Hər an birgə olmalıdır ər-arvad.

Bir gün lapdan ova çıxdı Ağüzər,
Meşəliklər, yallar, yollar, kövşənlər,
Dovşan, maral, donuz, ayı, ta nələr,

Hər an birgə olmalıdır ər-arvad.

Qobuyerin ormanları seyrəlib,
Gur-gur axan bulaqları kövrəlib,
Çaylar, göllər sızıldayır, təklənib,
Hər an birgə olmalıdır ər-arvad.

Niyə belə sarsılıbdır bu ovlaq,
Niyə daha oxumayır buz bulaq,
Yoxdur burda bir gəzişən, bir qonaq,
Hər an birgə olmalıdır ər-arvad.

Ağüzərin sıxılırdı ürəyi,
Dəmirqıza bağlanmışdı istəyi,
O olmuşdu Ağüzərin dirəyi,
Hər an birgə olmalıdır ər-arvad.

Üz-gözündən kimsəsizlik yağırdı,
Gizli sevgi onu sıxıb boğurdu,
"Ovlaq" durub Ağüzərə baxırdı,
Hər an birgə olmalıdır ər-arvad.

***

Bir səs gəldi, lap uzaqdan, uzaqdan,
"İkiləşmə, yıxar səni ikilik.
Qızçiçəyəm, görünmürəm gözə mən,
İkiləşmə, yıxar səni ikilik.

Mən Bacarın sevgisiyəm, sonası,
Tuncər ilə Qarçiçəyin anası,
Iki varlıq arasının durnası
İkiləşmə, yıxar səni ikilik.

Iki tanrı arasında tutuğam,
Alt, Üst yerin ikisindən qopuğam,
Dolanışdan dolanışa atığam,
İkiləşmə, yıxar səni ikilik.
Məni dinlə, sənə yardım edərəm,
Görünmərəm, hara desən gedərəm,
Mən varlığam, harda desən bitərəm,
İkiləşmə, yıxar səni ikilik."

Bir az qorxdu səsdən öncə Ağüzər,
Ələ aldı öz-özünü bir təhər,
Səsi birdən qamarladı küləklər,

İkiləşmə, yıxar səni ikilik.

Dalğalandı bu səs, azca boğuldu,
Səs dağlara səpələndi, dağıldı,
Sonra geri döndü, yenə doğuldu,
İkiləşmə, yıxar səni ikilik.

***

Danışırdı lap uzaqdan Qızçiçək,
“Böyük gərək böyük yerdən yapışa.
Sən görübsən Dəmirqızı, sevibsən,
Böyük gərək böyük yerdən yapışa.

Elçiçək də səni sevir, biləsən,
Bilib gərək doğru yola gələsən,
Ürəyini iki yerə bölәsən,
Böyük gərək böyük yerdən yapışa.

Bir də bil ki, gizlənərək Eldəbir
Daşağızda çox-çox ağır gündədir,
Onun böyük gələcəyi öndədir,
Böyük gərək böyük yerdən yapışa.”

Ağüz dedi,”Eldəbiri taparam,
Alıb onu mən Muğana çaparam,
Sevimlimi Muğaneldən qaparam”
Böyük gərək böyük yerdən yapışa.

Dağ döşündə yerləşirdi daşağız,
Gördü yazıq Eldəbiri ac, yalqız,
Cüt almadı Eldəbirlə Dəmirqız,
Böyük gərək böyük yerdən yapışa.
Dedi:-Sənsən, deyən, burda Eldəbir,
Dur ayağa, gedək, bacın gözləyir,
-Yox, getmərəm, öldürərlər.-O deyir,
Böyük gərək böyük yerdən yapışa.

***

O yapışdı Eldəbirin əlindən,
Yaxşılıqdır yol göstərmək yolçuya.
O, geriyə, bu irəli çəkirdi,
Yaxşılıqdır yol göstərmək yolçuya.

-Məni burax, yol azmışam, artığam,
Mən anamı öldürmüşəm, yanığam,

Qancıl kimi bu ellərə tanığam,
Yaxşılıqdır yol göstərmək yolçuya.

-Daşağızda sən acından ölərsən,
Gedək, çöldə sən özünə gələrsən,
Sevgi nədir, ana nədir, bilərsən,
Yaxşılıqdır yol göstərmək yolçuya.

Dilə tutur Eldəbiri, danışır,
-Oğul hələ sənin kaldır gənc yaşın,
Yaraqlı ol, dur bacınla yanaşı,
Yaxşılıqdır yol göstərmək yolçuya.

Daşağızdan çıxar-çıxmaz Eldəbir,
Ağüz ona inam verir, güc verir,
Qobuyeri, Muğaneli göstərir,
Yaxşılıqdır yol göstərmək yolçuya.

Deyir:-Tanrı yerincidir analar,
Analarda tanrı kimi dözüm var,
Anaların oylağıdır Mindiyar,
Yaxşılıqdır yol göstərmək yolçuya.

Ürəyini verib anan sənə ki
Öz sevginə yetişəsən sən təki,
Hər ana da sevgisiyçin çox çəkib,
Yaxşılıqdır yol göstərmək yolçuya.

***

Sənin bacın başçı olub ellərə,
Gec-tez hərə öz yerini tutacaq
Demris deyil, Dəmirqızdır indi o,
Gec-tez hərə öz yerini tutacaq.

Sən də mənə bir yaraqlı olarsan,
Toplumlanıb toplumumda qalarsan,
Döyüşlərdə yaşa-başa dolarsan,
Gec-tez hərə öz yerini tutacaq.

Eldəbiri bu danışıq ovutdu,
Yuxudaydı, sanki onu ayıltdı,
Ölmək-qalmaq yasağından qayıtdı,
Gec-tez hərə öz yerini tutacaq.

Dedi: “Gedib bir yaraqlı olaram,
Qan öcümü acıqandan alaram,

“Ana” deyib mən də qılınc çalaram,
Gec-tez hərə öz yerini tutacaq.

Bu minbaşı, deyən, yaxşı ərəndir,
Qabaqları çox-çox qabaq görəndir,
Yaxşı-yaman, ölçü-biçi güdəndir,
Gec-tez hərə öz yerini tutacaq.

Ana borcu, səni necə qaytarım,
Ana, ana, səni harda axtarım,
Mənim sevgim, lay-la yuxum, toxtarım,
Gec-tez hərə öz yerini tutacaq.

Sənə borcum tükənməzdir, bitməzdir,
Yanıq-yanıq sancılarım bitməzdir,
Könül yaram sağalsa da getməzdir,
Gec-tez hərə öz yerini tutacaq.

Öz-özünə dedi: Ay küt, ay andır,
Sevgi gec-tez ötüb gedir, yalandır,

Təkcə ana bu varlıqda qalandır,
Gec-tez hərə öz yerini tutacaq.

***

-Ana, sənə kəsi olum, hardasan?
Ana gücdür, ana yanan ürəkdir.
Ürəyimi sənə verim keçinim,
Ana gücdür, ana yanan ürəkdir.

Haçan, haçan mışıl-mışıl yatırsan,
Haçan, harda istəyinə çatırsan,
Harda solub qaranlığa batırsan,
Ana gücdür, ana yanan ürəkdir.

Böyük tanrı, məni bir də bağışla,
O qorudu məni qardan, yağışadan,
O qorudu məni oddan, qarğışdan,
Ana gücdür, ana yanan ürəkdir.

Ana, sənə kəsi olum, ağlama,
Mənim üçün ürəyini dağlama,
Dəniz anam, daha dincəl, çağlama,
Ana gücdür, ana yanan ürəkdir.

Bir səs gəlir uzaqlardan, anadır,
Bir söz ötür qulaqlarda, anadır,
Titrəyişdir dodaqlarda anadır,
Ana gücdür, ana yanan ürəkdir.”

Düşünürdü, ağlayırdı Eldəbir,
At aşırdı dağ yolunu birbəbir,
Ana elə hərbir, hər bir yerdədir,
Ana gücdür, ana yanan ürəkdir.

Muğanel söyləncі

Muğanelin yerincliyi Aranda,
Hər bir yerin başbiləni yerincdir.
Muğanelin ilk yerinci Dəmirqız,
Hər bir yerin başbiləni yerincdir.

Qarşıladı Ağüzəri sevinclə,
Ağüzər də qucaqlaşdı yerinclə,
Ellər gəldi, gülər üzlə,ölç-biçlə,
Hər bir yerin başbiləni yerincdir.

Geyinmişdi qız al-ipək, alxara,
Gözəl saçlar, bir də qaşlar qap-qara,
Iki daraq sancılmışdı saçlara,
Hər bir yerin başbiləni yerincdir.

Qarayanız, dadlı-duzlu Dəmirqız,
Çəkir gözü yanaq, dodaq, dil ağız,
Dilə gəlir dinqır, dohol, saz qopuz,
Hər bir yerin başbiləni yerincdir.

Bacı baxır, qardaşını tanımır,
Üzü-gözü, əl-ayağı his, çamır,
Batıb gedib Eldəbirin hay-hayı,
Hər bir yerin başbiləni yerincdir.

Ağüz deyir:-Qardaşındır, Eldəbir,
-Nə söylədin, nə buyurdun, bu kimdir?!
-Söylədim ki, qardaşındır, Eldəbir,

Hər bir yerin başbiləni yerincdir.

***

Lap yaxına getdi, baxdı Dəmirqız,
Yanlış sevgi baş-gözü də dəyişər.
Bir də baxdı, tanımadı qonağı,
Yanlış sevgi baş-gözü də dəyişər.

Tanıyanda bacı sanki bayıldı,
Bu səs, hay-küy dörd bir yana yayıldı,
Bir an keçdi, yerinc bacı ayıldı,
Yanlış sevgi baş-gözü də dəyişər.

-Ah, Eldəbir, sənsən, qardaş,mən bacın,
-Ah, bacı! Mən bir qancılam, yabançı!
Mənəm qansız! Aldadılmış yalançı!
Yanlış sevgi baş-gözü də dəyişər.

Bacı, qardaş qucaqlaşdı, ağladı,
Göz yaşları ürəkləri dağladı,
Oxa döndü, hər baxanı oxladı,
Yanlış sevgi baş-gözü də dəyişər.

Ağüzərin yaddan çıxdı sevgisi,
Artdı onda Dəmirqızın çəkisi,
Parıldadl göz yaşının güzgüsü,
Yanlış sevgi baş-gözü də dəyişər.

Dedi:-Qardaş, olan olub keçibdir,
Ana çoxdan dolanışdan köçübdür,
Indi hərə öz yolunu seçibdir,
Yanlış sevgi baş-gözü də dəyişər.

Get Başevə, üst-başını dəyişdir,
Burda hamı yaxın tanış-bilişdir,
Mən bilmədim bu sınaqdır, nə işdir,
Yanlış sevgi baş-gözü də dəyişər.

***

Ağüz dedi “Mindiyarım, Minelim,
El oğula, oğul elə dayaqdır.
Mən gəlmişdim öz sevgimin dalınca

El oğula, oğul elə dayaqdır.

Qız ayrıdır, mən də ondan ayrıyam,
Gərək hələ sevgimə çox yarayam,

Qılıncımla bu ölkəni qoruyam,
El oğula, oğul elə dayaqdır.

Mən tələsdim, sən tələsmə ürəyim,
Sən dilə tut, ovut, yaşat istəyi,
Sən də bir az döz, yuxalma, diləyim,
El oğula, oğul elə dayaqdır.

Dəmirqızın burda yerinc adı var,
Onu burda tanrı bilir adamlar,
Muğaneldən çox iş umur Mindiyar,
El oğula, oğul elə dayaqdır.

Bu sevgini öncə gərək Turq bilə,
Turq adıyla mənim sevgim yüksələ,
Gərək bunca çox gözləyim mən hələ,
El oğula, oğul elə dayaqdır.

Yazıq sevgi, odsan, yaman bəlasan,
Düz yol getsən soysan, toysan, qolaysan,
Yox kal olsan, toy yox, qanlı olaysan,
El oğula, oğul elə dayaqdır.

***

Toy-düyündə, çalhaçalda Muğanel,
Bir günlükdür hər sevinci elatın.
Çıxdı gözəl bir geyimdə Eldəbir,
Bir günlükdür hər sevinci elatın.

Ancaq bir az baş-aşağı, utancaq,
Gözlərində qorxaq, əzgin qanacaq,
O, yüz il də "ana" deyib yanacaq,
Bir günlükdür hər sevinci elatın.

Soyuq baxır ona ellər, obalar,
Soraq gəlir bu an, "Yolda atlı var",
Yaxınlaşır Ağüzərə bir çapar,
Bir günlükdür hər sevinci elatın.

Yazı verir minbaşıya yaraqlı,
Turq göndərib çox tələsik, qaytaqlı,
Ölkə ilə, Parsa ilə o bağlı,
Bir günlükdür hər sevinci elatın.

“Qız toplumu yürüş edib Parselə,
Darvidellə Parsel verib əl-ələ,
Çatan kimi yerincliyi al ələ
Bir günlükdür hər sevinci elatın.

Uğureldə Tuncər ağır gündədir,
Ordan ora yollanarsan, gör, nədir?
Pis yoldadır Muğelin də öndəri,
Bir günlükdür hər sevinci elatın.

Dəmirqızı ordan göndər Duzdağa,
Vergi üstə çoxu qalxıb ayağa,
Dönməsələr qoy əl atsın yarağa,
Bir günlükdür hər sevinci elatın.

***

Qalxdı Ağüz dedi:-Tələs Dəmirqız,
Tələs geri qalma, işə gecikmə.
Turq buyurur, sən gedəsən Duzdağa,
Tələs geri qalma, işə gecikmə.

Mən Parselə, Uğurelə, Muğelə...
Yazılıda çox göstəriş var hələ,
Sevinc bitdi, sevgi bitdi, bax, belə,
Tələs geri qalma, işə gecikmə.

Eldəbiri aparıram özümlə,
Döyüşkəndir, çıxmaz mənim sözümdən,
Sənin kimi olar işdə, dözümdə,
Tələs geri qalma, işə gecikmə.

Bir də sənə deyiləsi sözüm var,
Qalsın hələ sonralara qalanlar,

Sən özündən muğayat ol gülyanaq,
Tələs geri qalma, işə gecikmə.

Vergi üstə savaş gedir Duzdağda,
Sözlə anlat, tez yapışma yaraqdan,

Uğur yarat, mən sevinim uzaqdan,
Tələs geri qalma, işə gecikmə.

Çaptı getdi uzaq yola üç atlı,
Atlar sanki quş oldular, qanadlı,
Üç minelli, mindiyarlı, elatlı,
Tələs geri qalma, işə gecikmə.

Uğureldə vuruş söyləncі

Uğureldə səngimirdi döyüşlər,
Keçmişlərdən qalıb ayıq-sayıqlıq.
Bacaroğlu Tuncər yaman düşmüşdü,
Keçmişlərdən qalıb ayıq-sayıqlıq.

Hindel tez-tez Uğurelə yürüşdə,
Daşıyırdı göydaş, qızıl gümüşlə,
Güc gəlirdi Tuncər ilə döyüşdə,
Keçmişlərdən qalıb ayıq-sayıqlıq.

Vecsiz görüb danışığı, duruşu,
Orda-burda vecsiz, saysız vuruşu,
Bir səs gəlir, Qızçiçəkdir, soruşur,
Keçmişlərdən qalıb ayıq-sayıqlıq.

-“Oğlum, Tuncər, niyə belə düşübsən,
Düşüb sanki öz-özündən küsübsən,
“Çiçək” olum, toplumlara səpilim,
Keçmişlərdən qalıb ayıq-sayıqlıq.

Tuncər dedi:-Ana bunu eləmə,
O, son sözdür, onu öncə söyləmə,
Vuruşaram, ölməmişəm hələ mən,
Keçmişlərdən qalıb ayıq-sayıqlıq.

“-Ağüz gəlir, turqun min-minbaşısı,
Hindelin də alınacaq qarşısı,
O olacaq uğurelin başçısı,
Keçmişlərdən qalıb ayıq-sayıqlıq.

***

Gəzdi bir-bir toplumları Qızçiçək,
Bir hay, bir səs döyüş günü arxadır.

Dedi:”-Vuruş Bacar kimi, yaraqlı,
Bir hay, bir səs döyüş günü arxadır.

Qızçiçəyəm, mən Alt yerdən qaçmışam,
Quş olmuşam, Uğurelə uçmuşam,
Tanrıları sözlərimlə sancmışam,
Bir hay, bir səs döyüş günü arxadır.

Oğlum Tuncər bir az solub, düşübdür,
Əl-ayağı, üzü-gözü şişibdir,
Qancıl görüb bunu azğınlaşıbdır,
Bir hay, bir səs döyüş günü arxadır.

Ağüz gəlir, on min toplum başında,
O ərəndir, başçı, yetgin yaşında,
Bu gün axşam olacaqdır qarşında,
Bir hay, bir səs döyüş günü arxadır.

Elə bu an eşidildi gurultu,
Nəriltiylə, haray-həşir, xarıltı,
Dağ döşündə bulud-bulud qaraltı,
Bir hay, bir səs döyüş günü arxadır.

Ağüzərlə on min atlı gəlirdi,
Gələ-gələ qanı qanla silirdi,
Hindellilər beş-beş, on-on ölürdü,
Bir hay, bir səs döyüş günü arxadır.

Ağüz tez-tez soruşurdu Tuncəri,
Tuncərinsə yaralıydı hər yeri,
Vuruşurdu ölgün-ölgün ötəri,
Bir hay, bir səs döyüş günü arxadır.

***

Bir səs gəldi:-Ahay,ahay, Hindelli!
Mindiyarın göbəyidir Uğurel!
Acgözlükdən, qan-qadadan çəkin, get!
Mindiyarın göbəyidir Uğurel.

Səs deyildi, nəriltiydi, qorxulu,
Hindellilər ye-içməkdə, yuxulu,
Yuxulular böyrü üstə yıxılıb,
Mindiyarın göbəyidir Uğurel.

Qılıncını endərdikcə Ağüzər,
Sərilirdi qanlı yerə ölənlər,
Sıraları yarmaqdaydı “dördtəkər”,
Mindiyarın göbəyidir Uğurel.

Dördtəkərli vurub, keçib, yıxırdı,
Yaralının üzərinə çıxırdı,
Qılınc, balta ildırımtək çaxırdı,
Mindiyarın göbəyidir Uğurel.

Yaralıydı sağ çiynindən Eldəbir,
O yenə də ön sırada, öndədir,
Acıqanın kürəyində ox əkir,
Mindiyarın göbəyidir Uğurel.

-Mən bilməzdim döyüş oyunsayaqdır,
Axır qanlar, sanki çaydır, bulaqdır,
Təkcə dişlər, gözlər burda düm ağdır,
Mindiyarın göbəyidir Uğurel.

Uğurelin dirçəlmişdi toplumu,
İgidlərin ürəkləri qor dolu,

Almışdılar acıqandan yol-yalı,
Mindiyarın göbəyidir Uğurel.

Tuncər isə bayılırdı hərdənbir,
Son gününü yaşayırdı elə bil,
Boşalırdı acıqandan Uğurel,
Mindiyarın göbəyidir Uğurel.

Ox şıdırğı yağış kimi yağırdı,
Şimşəkqılınc şimşək kimi çaxırdı,
Qancılları öz qanında boğurdu,
Mindiyarın göbəyidir Uğurel.

***

Eldəbirdi Qızçiçəkdi Ağüzər,
Səs uzaqdan dinlənərkən yatımlı.
Nərildəyib vuruşurdu, deyirdi:
Səs uzaqdan dinlənərkən yatımlı.

Alınmışdı Yaşıldaşlar yarğanı,
Bu yerlərin qalın, sıx-sıx ormanı,
Qayıtmışdı Uğurelə ad-sanı,

Səs uzaqdan dinlənərkən yatımlı.

Arxasınca yeriyirdi Eldəbir,
Ona tez-tez bizuc verir, ox verir,
Ağüzərsə, hərdən yavaş söyləyir,
Səs uzaqdan dinlənərkən yatımlı.

Tuncər bir də yıxılarkən bayıldı,
Bu, səs getdi, uzaqlara yayıldı,
O, bir aydan sonra evdə ayıldı,
Səs uzaqdan dinlənərkən yatımlı.

O soruşdu:-Hanı böyük Ağüzər?!
Dedilər ki, Muğ-muğelə getdilər,
O yer ayaq üstə durub bir təhər,
Səs uzaqdan dinlənərkən yatımlı.

Dedilər ki, ölüb gözəl Qarçiçək,
Əri qalıb təklik ilə təkbətək,
Bir özüdür, bir atıdır, bir köpək,
Səs uzaqdan dinlənərkən yatımlı.

Qıtlıq söyləncі

Altı günə çatdı Ağüz Muğelə,
Atı qovub, yorub yabı eləmə.
İstəsəydi lap üç günə gedərdi,
Atı qovub, yorub yabı eləmə.

Şimşəkatın ombaları çıxmışdı,
Döyüş-vuruş atı yorub sıxmışdı,
Ağüz onun cilovunu yığmışdı,
Atı qovub, yorub yabı eləmə.

Saralmışdı otlar, kollar, yarpaqlar,
Saralmışdı eldə al-al yanaqlar,
Sönmüş idi evdə çox-çox ocaqlar,
Atı qovub, yorub yabı eləmə.

Bu quraqlıq, aclıq görən nədəndir,
Dedilər ki, ötəridir, ötəndir,
Ağac, yarpaq, ot yenidən bitəndir,
Atı qovub, yorub yabı eləmə.

Çox gəzdilər, tapmadılar Muğəri,
Axtardılar hər ocağı, hər yeri,
Bilmədilər o ölüdür, ya diri,
Atı qovub, yorub yabı eləmə.

Muğel bütün saralmışdı, solmuşdu,
Qarçiçəksiz eli aclıq almışdı,
Qan ayğırma burda yuva salmışdı,
Atı qovub, yorub yabı eləmə.

***

Çox düşündü, yol aradı Ağüzər,
Təkbaşına el qorumaq çətindir.
Eldəbirlə qapı-qapı gəzdilər,
Təkbaşına el qorumaq çətindir.

Çox qapılar bağlı idi, qalan yox,
Qalanlardan evdə, işdə olan yox,
Çörək vardı, arpa vardı, alan yox,
Təkbaşına el qorumaq çətindir.

Ağüz dedi:-Gedim gecə Çinçaya,
Haraylayım Çinçayeli haraya,
İşləkləri alıb gəlim buraya,
Təkbaşına el qorumaq çətindir.

Onu görüb bir qız durdu ayağa,
Dedi:-İlxı dünən çıxdı yaylağa,
Onlar girib dağətəyi ovlağa,
Təkbaşına el qorumaq çətindir.

“-İlxı, qımıs süd deməkdir körpəyə,
Bir də döyüş sursatıdır ölkəyə,
İlxı köklü süd-çörəkdir bölgəyə,
Təkbaşına el qorumaq çətindir.”

O yollandı “Muğər” deyə yallara,
Yaşıllıqda itib batan yollara,
Baxdı hələ qurumamış kollara,
Təkbaşına el qorumaq çətindir.

Bir səs gəldi bu an yaxın qaladan,
“-Gir Muğərin qış evinə bacadan,
Bir saxlanc var, orda, dolu buğdadan,

Təkbaşına el qorumaq çətindir.

***

Qarçiçəyəm, görünməzəm gözlərə,
Dolanışda bir sevinc var, sevgidir.
Qız artamı itirmişəm, gedirəm,
Dolanışda bir sevinc var, sevgidir.

Qızçiçəyəm, yer üstündə yasağam,
Üç yüz ildir yatmamışam, oyağam,
Qarçiçəktək gedəriyəm, qonağam,
Dolanışda bir sevinc var, sevgidir.

Qızçiçəyəm, görünməzəm, ötəri,
İtirmişəm Qarçiçəyi, Tuncəri,
İtib gedir daha tanrı dəyərim,
Dolanışda bir sevinc var, sevgidir.

Qıtlıqları Alpis tanrı törədir,
Yanqınları, qan tökməyi öyrədir,
Bu da bizdən öc almağa görədir,
Dolanışda bir sevinc var, sevgidir.

Ağüz dedi:-Sən gedəri deyilsən,
Külək kimi sən ötəri deyilsən,
Yaxşılıqsan, sən itəri deyilsən,
Dolanışda bir sevinc var, sevgidir.

Qal bizimlə, Mindiyara yardım ol,
Qal bizimlə, bizə sevgi andı ol,
Adamlara arxa dayan, yatım ol,
Dolanışda bir sevinc var, sevgidir.

***

Muğər gəldi at üstündə bükülü,
Yaratmaqdır, yaşatmaqdır yaşamaq.
Dedi:-Kimdir min-min başı, Ağüzər?
Yaratmaqdır, yaşatmaqdır yaşamaq.

Ağüz dedi:-Mənəm gələn Başevdən,
Soldum,qaldım bu yerləri görəndə,
-İlxıları otarırdım dağda mən,
Yaratmaqdır, yaşatmaqdır yaşamaq.

-Niyə belə?

-Necə?
-Qıtlıq, quraqlıq?
-Düz deyirsən, bura qumluq, açıqlıq,
Doğmalaşıb bizə çoxdan bu varlıq,
Yaratmaqdır, yaşatmaqdır yaşamaq.

-Biz il boyu, bax, beləcə yoxsuluq,
Görməyirik nə çal-çağır, nə bolluq,
Tanrı bizi yoxsul qoyub bir yolluq,
Yaratmaqdır, yaşatmaqdır yaşamaq.

Odur gənclər burdan qaçır, qalmayır,
Burda dörday, beş ay çörək olmayır,
Taxıl bitir, ancaq içi dolmayır,
Yaratmaqdır, yaşatmaqdır yaşamaq.

Buğdam vardır, saxlamışam pis günə,
Burda yoxdur yurdla, ellə öyünən,
Boş vurğudur ürəklərdə döyünən,
Yaratmaqdır, yaşatmaqdır yaşamaq.

***

Ağüz baxdı, azca soldu, saraldı,
Hər ölkəyə yöndəm verən tanrıdır.
Dedi:-Boldur, diribaşdır atların,
Hər ölkəyə yöndəm verən tanrıdır.

Dedi:-Güc ver atçılığa, qamçıya,
İldə min at göndər gəlsin başçıya,
Üstünlük var orda ata, atçıya,
Hər ölkəyə yöndəm verən tanrıdır.

Muğər sanki dəyişildi, qımışdı,
Iki əlli Ağüzərdən yapışdı,
Sonra yorğun bir sevinclə danışdı,
Hər ölkəyə yöndəm verən tanrıdır.

-Belə olsa, dolanarıq, minbaşı,
Atlar çöldə özbaşına dolaşır,
Boş-boşuna təpikləşir, qapışır,
Hər ölkəyə yöndəm verən tanrıdır.

Sonra qoca köks ötürdü dərindən,
Dedi:-Ağüz, nə alarıq yerində?
Varsa alaq quru balıq yerində!

Hər ölkəyə yöndəm verən tanrıdır.

Ağüz dedi:-Buğda, arpa, geyimlər,
Yerə salmaq üçün gəbə, ceçimıər,
Yazı, oxu, bir də ölçü-biçilər,
Hər ölkəyə yöndəm verən tanrıdır.

***

Muğər dedi:-Yaxşı olar, dirillik,
Dirilikdən doğur dirrik, yaranış.
Yoxsa gənclər oğurluğa gedirlər,
Dirilikdən doğur dirrik, yaranış.

Ağüz dedi:-Atçılığa giriş sən,
O tutacaq burda sənin əlindən,
Tanrı belə buyurubdur əzəldən,
Dirilikdən doğur dirrik, yaranış.

-Demək belə...
-Biz danışdıq.
-Yaxşı yol.
-Ala, bu da bir az quruş, ağ qızıl,
Get Çinçaydan otuz təlis düyü al,
Gələcəkdir otuz günə dalısı,
Onlar bir də görüşdülər yol üstü,
Yollar bürkü, düzlər ilğım, yer isti,

***

Kimsə mahnı oxuyurdu uzaqda,
Əl çatmayan nə vardırsa arzudur.

Mahnı sanki titrəyirdi, itirdi,
Əl çatmayan nə vardırsa arzudur.

Qızçiçəyin səsi idi sanki səs,
Təklikdə tük ürpəşdirir belə səs,
“-Tuncər öldu! Ağüz, tələs, çıx, tələs!”
Əl çatmayan nə vardırsa arzudur.

“-Bacarımı, Tuncərimi itirdim,
Qarçiçəyi sonevinə ötürdüm,
Üzərimə ən ağır yük götürdüm,
Əl çatmayan nə vardırsa arzudur.

Mən iki tay arasında durnayam,

İki yandan üz döndərən anayam,
Yeddi bacı toplumunda sonayam,
Əl çatmayan nə vardırsa arzudur.

Qızçiçəyəm, görünməzəm, ölməzəm,
Orda-burda ağlamsaram, gülməzəm,
Mən Bacardan özgə nə var bilməzəm,
Əl çatmayan nə vardırsa arzudur.

***

Ağüz döndü Uğurelə birbaşa,
Özlüyündə itir nəsə itirən.
Onu ağlar qarşıladı çoxları,
Özlüyündə itir nəsə itirən.

El Tuncəri itirmişdi bir yolluq,
Uğurelli gözü yaşlı, səs tutuq,
Hamılıqda baxış donuq, üz donuq,
Özlüyündə itir nəsə itirən.

Ağüz dərdi uduğunu, tutuldu,
Qara qaşlar qoşa yaytək dartıldı,
Ağıyerə doğma kimi qatıldı,
Özlüyündə itir nəsə itirən.

Ürəyindən bir səs qopdu, inilti,
Qulağında “Tuncər” sözü,-pıçıltı,
Boğazında bir yaralı sızıltı,
Özlüyündə itir nəsə itirən.

Dedi:-Tanrım, Mindiyara dözüm ver,
Bu Tuncərdən beş yox, on yox, yüzün ver,
Versən, bizə yüzünün də yüzün ver,
Özlüyündə itir nəsə itirən.

Dedi:-Tanrım, qoy doğulum yenidən,
Odərboydan, Tuncər olum Tura mən,
Qoy yaşasın bir də, bir də ər ölən,
Özlüyündə itir nəsə itirən.

Yerinclik söyləncі

Turq qocaldı, çatdı neçə yüz yaşa,

Ər qocalsa öz yerinə ər qoyar.
O, Ağüzü qoydu şahlıq yerinə
Ər qocalsa öz yerinə ər qoyar.

Ağüz aldı Dəmirqızı, toy oldu,
O, Turqtaya, o Turərə tay oldu,
Elçiçəyin göz yaşları çay oldu,
Ər qocalsa öz yerinə ər qoyar.

Elçiçəyin yalqızlaşdı ürəyi,
Xırdalaşdı qızın qoşa bəbəyi,
Sındı qılınc qanadının lələyi,
Ər qocalsa öz yerinə ər qoyar.

Bunu bilib Manayqızla Turq ata,
Apardılar qızı uzaq Elata,
Qoymadılar el-obaya bu çata,
Ər qocalsa öz yerinə ər qoyar.
Parsaeldə onu yerinc saydılar,
Ad-sanını hər bir yana yaydılar,
Yığıncaqda Turq yerinə qoydular,
Ər qocalsa öz yerinə ər qoyar.

O dinmədi, göz yaşını qurutdu,
Ürəyini, sevgisini ovutdu,
Bu yer onun acığını soyutdu,
Ər qocalsa öz yerinə ər qoyar.

***

“-Anam, bacım, sevgi, əl çək könlümdən,
Sevgi gəldi, bir də geri dönməyir.
Məndən əl çək, soyu, yazıq, ölüşgə,
Sevgi gəldi, bir də geri dönməyir.

Çox çəkmədi, qızın könlü dəyişdi,
O, gecələr öz-özüylə döyüşdü,
Yuxularda Dəmirqızla çəkişdi,
Sevgi gəldi, bir də geri dönməyir.

“-Ağüz məni almalıydı, onu yox,
Bu sevgidir, onun yönü-yanı yox,
Dolanışda, yaranışda sonu yox,
Sevgi gəldi, bir də geri dönməyir.

Sevgim qayıt, qayıtmasan boğ məni,

Tanrım, götür, sən yenidən doğ məni,
Anam-bacım yırğalama çox məni,
Sevgi gəldi, bir də geri dönməyir.

Mən burada qala bilməm, gedəri,
Gedərilər sevir, ancaq ötəri,
Yoxdur belə sevgilərin dəyəri,
Sevgi gəldi, bir də geri dönməyir.

Şah qızıyam, bu gedişlə barışmam,
Sevənlərin sevgisinə qarışmam,
O cütlüyün dam-daşına sarmaşmam,
Sevgi gəldi, bir də geri dönməyir.

***

“-Anam-bacım, sevgim, gedək mənimlə,
Dilsiz sevgi yara olur ürəkdə.
Gedim, söyləmc, “deyim “yığım ölkədən,
Dilsiz sevgi yara olur ürəkdə.

Nə olsun ki, evim vardır, qızıldan,
Mən şah qızı sayılıram azından,
Qal mənimlə, illər boyu sızılda,
Dilsiz sevgi yara olur ürəkdə.

Söyləmc yığım, sevgi dili bilim mən,
Yalan, yoluq sevgilərə gülüm mən,
Gedim sevgi yollarında ölüm mən,
Dilsiz sevgi yara olur ürəkdə.

Ahay, yollar, yollar üstü daxmalar,
Ahay, məni özgə sayan doğmalar,
Ahay, ordan-burdan gələn yığmalar,
Dilsiz sevgi yara olur ürəkdə.

Yola salın məni boğuq sevgilər,
Gözü batıq, saçı yoluq sevgilər,
Sevgilidən uzaq, qopuq sevgilər,
Dilsiz sevgi yara olur ürəkdə.

Ta ağlama, yazıq sevgim, gəl, gedək,
Gedək, gedək, çox gözlərdən biz itək,
Gedək uzaq ucqarlara təkbətək,
Dilsiz sevgi yara olur ürəkdə.

***

Manay dedi:-Getmə sınar Turq ata,
Sınıqların kövrək olur dözümü.
Gedim söyləncyığım-dedi Elçiçək,
Sınıqların kövrək olur dözümü.

Manay dedi:-Qal burada yerinc ol,
Ata, ana ürəyinə sevinc ol,
Mənim ağlar göz yaşıma təpinc ol,
Sınıqların kövrək olur dözümü.

Şah qızısan, tək yollanma yollara,
Tək dırmaşma kənd yolunda yallara,
İlişərsən tikanlara, kollara,
Sınıqların kövrək olur dözümü.

Çox yalvardı, Manay, ancaq olmadı,
Acıqlı qız Parsaeldə qalmadı,
Öyüd-möyüd heç vecinə almadı,
Sınıqların kövrək olur dözümü.

Yola düşdü, o yanıqlı, o dağlı,
Üstü-başı tanınmazdır, üz bağlı,
Arxasınca gizli neçə yaraqlı,
Sınıqların kövrək olur dözümü.

Öz-özündən qaçmaqdaydı Elçiçək,
Söyləncyığan güllər üstdə kəpənək,
Hər bir güldə sevgi, deyim bir ətək,
Sınıqların kövrək olur dözümü.

***

Çox el, çox yurd, çox-çox yollar keçdi o,
Söylənctopla, keçmişləri dirilt sən,
Dinclik tapdı təkcə Uğureldə o,
Söylənctopla, keçmişləri dirilt sən.

Söylənc, deyim, qoşma, öyüd, bayatı,
El dilində nələr vardır, nə yatıb,
Sevgi dolu mahnılar var, qanadlı,
Söylənctopla, keçmişləri dirilt sən.

Uğurelin Başevi var, başçı yox,
Başçı yoxdur, ancaq boş-boş işçi çox,
Soyuqlaşıb burda gözlər, çox soyuq,
Söylənctopla, keçmişləri dirilt sən.

Elçiçəyin baxışları gözəldi,
Qaş çatıldı, göz alışdı, bərəldi,
Ölü idi, sanki birdən dirildi,
Söylənc topla, keçmişləri dirilt sən.

Dedi:-Hanı Bacar, Tuncər, Qızçiçək,
Bu Başevə əltut olum mən gərək,
Yaraqlılar şişib,olub göbələk,
Söylənc topla, keçmişləri dirilt sən.

Yazı yazdı atasına "Turq ata,
Yardım elə, yerinc göndər buraya,
Yoxsa alar buraları çor, qada",
Söylənc topla, keçmişləri dirilt sən.

***

Elçiçəyi görüb hamı sevindi,
Eldə gərək başçı olsun, baş olsun.
Bu ad gedib çatdı uzaq kəndlərə,
Eldə gərək başçı olsun, baş olsun.

Ellər gəldi, dağı, yalı aşdılar,
Urumçuda dinib, deyib daşdılar,
Elçiçəyə, Turqa mahnı qoşdular,
Eldə gərək başçı olsun, baş olsun.

Ağüz gəldi, Dəmirqızla Eldəbir,
Niyə belə boşalıbdır bu kəndir?
Uğurelin susqunluğu nədəndir?
Eldə gərək başçı olsun, baş olsun.

Qız Ağüzü görüb azca qımışdı,
Gözü-başı bir-birinə qarışdı,
Iki baxış üzləşərək tapışdı,
Eldə gərək başçı olsun, baş olsun.

Ağüz dedi:-Baş əyirəm Sizə mən,
Mən deyirəm Turq atanın dilindən,

Seçilmisən Uğurelə yerinc sən!
Eldə gərək başçı olsun, baş olsun.

Üstəlik də Eldəbiri götürdüm,
Onu Sizə bir yardımçı gətirdim,

Tapşırığı bunca Sizə yetirdim,
Eldə gərək başçı olsun, baş olsun.

***

Elçiçəyin başı sanki fırlandı,
Baş-göz susur sevgilini görəndə.
Ələ aldı o, bir anlıq özünü,
Baş-göz susur sevgilini görəndə.

Üz saraldı, döndü sarı heyvaya,
Yanaqları bayaz, solğun almaya,
Yara dəydi, yara üstən yaraya,
Baş-göz susur sevgilini görəndə.

Elçiçəyi belə görüb o qorxdu,
Necə oldu, Ağüz belə karıxdı,
Qızçiçəyi düşünərək doluxdu,
Baş-göz susur sevgilini görəndə.

Bir yol ona söyləmişdi Qizçiçək,
Səni sevir mənim balam Elçiçək,
Qız sevgidən solğunlaşıb, nə bilmək,
Baş-göz susur sevgilini görəndə.

Elçiçəyin könlü birdən sıxıldı,
Ayaq üstə valayladı, yıxıldı,
Dörd yanına yaxınları yığıldı,
Baş-göz susur sevgilini görəndə.

Ağsaqqallar söylədilər:-Yerincdir!
Yerinc olmaq qıza böyük sevincdir,
Sevincdənsə ürəkaxdı gülüncdür,
Baş-göz susur sevgilini görəndə.

***

Gəlib gördü bu olayı Dəmirqız,
Tanrı, nələr bacarmayır dolanış.
Üç adama bəlli idi bu sevgi,
Tanrı, nələr bacarmayır dolanış?

Dəmirqızı çəkdi Ağüz qırağa,
Dedi:-Daşma, bu yaraşmaz qonağa,
O, bir azdan qalxacaqdır ayağa,
Tanrı, nələr bacarmayır dolanış?

Danışığı ikibaşlı görüncə,
Dəmirqızı aldı dərin düşüncə,
Baxdı bir də o bayılan yerincə,
Tanrı, nələr bacarmayır dolanış?!

“-Görən niyə belə deyir minbaşı?
Niyə belə bərk qolumdan yapışıb?
Baxışları bir-birinə dolaşıb,
Tanrı, nələr bacarmayır dolanış?!

***

Onlar Turqu soruşdular gəlindən,
-Turq tanrıdır, neçə qucaq işıqdır.
Bunu dedi gələnlərə Dəmirqız,
-Turq tanrıdır, neçə qucaq işıqdır.

Qocalsa da “Minel” düşmür dilindən,
Ağır qılınc, sallan-sallaq belindən,
Tutaq, toppuz, bizuc hələ əlində,
Turq tanrıdır, neçə qucaq işıqdır.

Gedir ova, çıxır dağa, örüşə,
Gedir hərdən “Ana qurd”-la görüşə,
Hərdən Başev işlərinə girişən,
Turq tanrıdır, neçə qucaq işıqdır.

Qocalmayır tanrı, osa qocalır,
Qocalsa da tanrılaşır, ucalır,
Üç yüz yaşa çatmağına az qalır,
Turq tanrıdır, neçə qucaq işıqdır.

Biz hamımız onu tanrı sanırıq,
Biz onunla yaşayırıq, yanırıq,
Üstüağı, İşdayağı anırıq,
Turq tanrıdır, neçə qucaq işıqdır.

***

Bir ağsaqqal çıxdı, belə söylədi,
Başsız qalan el hər səsdən diskinir.
Göydən gələn səsdən qorxur el-oba,
Başsız qalan el hər səsdən diskinir.

Qızçiçəkdir, gəlir tez-tez bağırır,
Bacarını, Tuncərini çağırır,
Bu səs eldə qorxu, hürkü doğurur,

Başsız qalan el hər səsdən diskinir.

Deyən yoxdur bacım, anam, nə olub,
Biri gəlir, biri gedir, dağılır,
Adam ölür, gedir bir də doğulur,
Başsız qalan el hər səsdən diskinir.

Deyən yoxdur, toxda bir az, kiri sən,
Bu yaşında neynəyirsən əri sən,
Bacar, Tuncər öldü, sənsə dirisən,
Başsız qalan el hər səsdən diskinir.

Bilsəm məni eşidər o, söylərəm,
İş-gücünü alqışlaram, küylərəm,
Birdən məni lağa qoysa neynərəm,
Başsız qalan el hər səsdən diskinir.

***

Ağüz dedi:-Yerinc olub Elçiçək,
Qızlar yerdə göyün tanrı kölgəsi.
Qızçiçəyin doğmasıdır Elçiçək,
Qızlar yerdə göyün tanrı kölgəsi.
Elçiçəyin duyğuları ipəkdir,
Səsi, sözü ipəkdən də titrəkdir,
Söyləncləri dinləyərkən kövrəkdir,
Qızlar yerdə göyün tanrı kölgəsi.

O, dil töküb Qızçiçəyi susdurar,
Onu səslər Altyerindən azdırar,
Bacarlaşan sevgisini basdırar,
Qızlar yerdə göyün tanrı kölgəsi.

Toxdayacaq onda bir az Qızçiçək,
Altyerindən qopub bura gələcək,
O qalacaq bizlə, bizdə itəcək,
Qızlar yerdə göyün tanrı kölgəsi.

Dəmirqızı incik saldı Ağüzər,
Elçiçəyi bəyəndirən bu sözlər,
O duydu ki, kül altında var közlər,
Qızlar yerdə göyün tanrı kölgəsi.

***

Qızçiçəyin səsi lapdan gurladı:
-Tanrı bütün səsi, sözü eşidir!

Eşidirəm mən də sizi uzaqdan,
Tanrı bütün səsi, sözü eşidir

Qoy kimsəsiz səsim elə yayılsın,
Qızçiçəyəm Üstyer yurdum sayılsın,
Qoy Uğurel igidləri ayılsın,
Tanrı bütün səsi, sözü eşidir.

Mən Ağüzdən, Dəmirqızdan küsürəm,
Uğureldən ayağımı kəsirəm,
Acığımdan bunca tir-tir əsirəm,
Tanrı bütün səsi, sözü eşidir.

Mən Bacarın sevgisiyəm, ölmərəm,
Mən Bacarsız sevinmərəm, gülmərəm,

Mən sevgisiz yaşaya da bilmərəm,
Tanrı bütün səsi, sözü eşidir.

Qızçiçəyəm, kimsəsizəm, ortada,
Altyer, Üstyer içrə qaldım arada,
Qoy yer versin mənə böyük yaradan,
Tanrı bütün səsi, sözü eşidir.

***

Bir ağlamaq səsi gəldi uzaqdan,
Kimsəsizlik harayıdır ağlamaq.
Ağlayırdı uzaqlarda Qızçiçək,
Kimsəsizlik harayıdır ağlamaq.

Ağüz dedi:-Qızçiçəksən, anamsan,
Uğurelə tanrı kimi yanansan,
Sən küləksən, sən yağışsan, dumansan,
Kimsəsizlik harayıdır ağlamaq.

Bu ağlamaq, bu sızlamaq de nədən?
Sən ana ol, sənə oğul olum mən,
Gəl bizlə qal, bizlə yaşa yenidən,
Kimsəsizlik harayıdır ağlamaq.

Sən anasan, çevrilibsən tanrıya,
Yardım əli uzadırsan hamıya,
Sən anasan mənə,Turqa, Tanıya,
Kimsəsizlik harayıdır ağlamaq.

Gəl yerüstdən düşərliyi qovginən,
Qancılların burunların ovginən,
Mindiyara tanrı səsi yayginən,
Kimsəsizlik harayıdır ağlamaq.

***

Elçiçəyin səsləncləri gurladı,
El inanır yeni gələn yerincə.
Uğureli dinqir səsi bürüdü,
El inanır yeni gələn yerincə.
Bəyəndilər Ağüzərin sözünü,
Görsələr də görünməzin özünü,
Unutdular onun çılğın səsini,
El inanır yeni gələn yerincə.

Bir ay sonra Çinə getdi Elçiçək,
O danışdı Xaqan ilə təkbətək,
Qonşulaşdı qara yağla al ipək,
El inanır yeni gələn yerincə.

Çin, Uğurel dartım ipək yol oldu,
Qara yağın adı Çinə yayıldı,
Qardaşlığın dib daşları qoyuldu,
El inanır yeni gələn yerincə.

Elçi gəldi Əkbitəndən, Xançudan,
Qız verdilər, qız aldılar qonşudan,
Yaşadılar qardaş kimi yanbayan,
El inanır yeni gələn yerincə.

***

Tikin yeni Əkbitəni!-dedi-Turq,
Yıxılanı, uçulanı qaldırın!
Başev yandı, o, yenidən tikilsin,
Yıxılanı, uçulanı qaldırın!

Ağüz dedi:-Qoy ucalsın ağ başraq,
Başev artıb Odərboydan olacaq,
Asur, Balasq bizdən ipək alacaq,
Yıxılanı, uçulanı qaldırın!

Ağüz dedi:-Az olsa da az yaşı
Eldəbiri qoyaq burda yüzbaşı,
Olsun burda Elçiçəyin qardaşı,
Yıxılanı, uçulanı qaldırın!

Qızçiçəyin səsi düşdü uzağa,
-Mən gedirəm-dedi-uca Duzdağa,

Nuhçatanı qaldıraram ayağa,
Yıxılanı, uçulanı qaldırın!

***

Buludların səsləncləri gurladı,
Göy səslənib gurlayanda yer susar,
Tanrı dedi:-Yaşayacaq Mindiyar,
Göy səslənib gurlayanda yer susar.

Dedi:-Yaşa Minel ilə Mindiyar,
Ad qoyublar burda şahlar, başçılar,
Bu ölkədə tanrılaşan Tur-Bax var,
Göy səslənib gurlayanda yer susar.

Dəmirqızın səsi gəldi Başevdən:
-Mən boyluyam min-minbaşı Ağüzdən,
Mən anamı doğacağam yenidən,
Göy səslənib gurlayanda yer susar.

Eldəbir də öz-özünə söylədi,
Anasıtək o da bala dilədi,
"Ana" deyib gizli-gizli mələdi,
Göy səslənib gurlayanda yer susar.

Göyə tutdu tək əlini Alçiçək,
Dedi:-Tanrım, çox yaşasın Turq gərək,
Manay qızdır, qocalmasın qız gərək,
Göy səslənib gurlayanda yer susar.

Turqa tanrı öyüdü söyləncі

Yer üzünə bir də Zərdüşt gələcək,
O, tanrının oğlu, tanrı yoludur.
O gələndə sən də tanrılaşarsan,
O, tanrının oğlu, tanrı yoludur.

Yer üzünə Budda gəlsə, yaxın dur,
O, Sərtüzə bizə kökdən yaxındır,

İnsanları haqqa qoşan haqq odur,
O, tanrının oğlu, tanrı yoludur.

Yer üzünə Məryəm, İsus gələcək,
Onu tanrı öz övladı biləcək,
Böhtanları yer üzündən siləcək,
O, tanrının oğlu, tanrı yoludur.

Turq, Məhəmməd doğulacaq doğuda,
Tanrılaşıb yaranışda, qurquda,
Ayılacaq yuxululer yuxuda,
O, tanrının oğlu, tanrı yoludur.

Sən də sonda tuş gələrkən Alpisə,
Dur Bacar tək o ölümlə üz-üzə,
Öncə tapşır Mindiyarı Ağüzə,
O, tanrının oğlu, tanrı yoludur.

Turq, sənin də tanrılıqda adın var,
İlk yaranış, son barışıq – Mindiyar,
Turq barışda, Turq vuruşda baş çapar,
O, tanrının oğlu, tanrı yoludur.

Mindiyarın on min ildən çox yaşı,
Tanrılarla qoyulubdur dibdaşı,
Çox-çox ellər, çox uluslar qardaşı,
O, tanrının oğlu, tanrı yoludur.

Turq hər yerdə doğulacaq, qalacaq,
Gücü, işi tanrısayaq olacaq,
O, Alpisdən çox öc-acıq alacaq,
O, tanrının oğlu, tanrı yoludur.

***

Tanrı dedi:-Oğullarım, qızlarım,
Barış üstə dayanmışdır dayanış,

Barış olsun, ey Turq, hər bir yürüşün,
Barış üstə dayanmışdır dayanış.

Tanrı dedi:-Mindiyarı gəz, dolaş,
Nə qan olsun Mindiyarda, nə savaş,
Hər bir elə Turq adınla sən yanaş,
Barış üstə dayanmışdır dayanış.

Tanrı dedi:-Yaman, Turqu qarşıla,
Bütün düzlər gərək ona qoşula,
Yer bürünsün al qana yox, yaşıla,
Barış üstə dayanmışdır dayanış.

Böyüklükdə ilk oğlumdur o, mənim,
Saxlayacaq barış üstə ölkəni,
Çatdıracaq sonevinə o, səni,
Barış üstə dayanmışdır dayanış.

Turqtayındır Körfəz, Çinçay, Buzboğaz,
Bu yerlərin barı boldur, çoru az,
Dayanışa al qurşaqdır, göy palaz,
Barış üstə dayanmışdır dayanış.

Qoy Turq olsun hamı biri-birinə,
Hamı gərək eldə Turq tək görünə,
Oğullaşın Odərboydan yerinə,
Barış üstə dayanmışdır dayanış.

***

Tanrı dedi:-Dayanışın sonu yox,
Dayanışdan hərə bir ad qoparsın,
Yay, qış kimi, dayanış da dəyişir,
Dayanışdan hərə bir ad qoparsın.

Dəyişəcək, incələcək yalanlar,
Qalacaqdır yaxşılarla yamanlar,
Görüşəcək ölənlərlə qalanlar,
Dayanışdan hərə bir ad qoparsın.

Çəkiləcək yurdarası kəndirlər,
Qanadlanıb uçacaqdır dəmirlər,
Sarıyacaq yer üzünü təkərlər,
Dayanışdan hərə bir ad qoparsın.

Hamı gəlib gücü Turqdan alacaq,
Turqun adı barış kimi qalacaq,
Gözəlliklər bütün Turqun olacaq,
Dayanışdan hərə bir ad qoparsın.

Yer üzündən silinəcək qan-qada,
Lap yenidən doğulacaq hər adam,

Dönəcəkdir Yaman quru bir ada,
Dayanışdan hərə bir ad qoparsın.

Ağır gündə siz sığının Tanrıya,
Tanrı sizin yaranızı sarıyar,
Tanrı sizi qan-qadadan qoruyar,
Dayanışdan hərə bir ad qoparsın.

***

Tanrı dedi:-İgid Turqlar, Cumərlər,
Yer üzündə kim çox bilir, o gücdür,
Yerin, göyün alt, üstünü öyrənin,
Yer üzündə kim çox bilir, o gücdür.

Tanrılaşın gözəlliklə, biliklə,
Uçun göyə quşla, püflü köpüklə,
Qaynaq olun tunc, dəmirə körüklə,
Yer üzündə kim çox bilir, o gücdür.

Gəzin, tapın, açıqlayın yoxları,
Bilik ilə baş olacaq çoxları,
Bilik üzə çıxaracaq laxları,
Yer üzündə kim çox bilir, o gücdür.

Yer üzündə nə var, bilin, sizindir,
Son gəzməyin, varlıq dilin, sözündür,

Sonra hər şey suyun, qarın, buzundur,
Yer üzündə kim çox bilir, o gücdür.

Hər bir işdə Tanrı deyin, güllənin,
Bir danışın, bir yeriyin, dillənin,
Yamanlara qarşı durun, sellənin,
Yer üzündə kim çox bilir, o gücdür.

Yer üzündə dəmir Tanrı olacaq,
O, sudan da alov, şimşək alacaq,
Yaman görüb bu işləri solacaq,
Yer üzündə kim çox bilir, o gücdür.

***

Tanrı dedi:-İgid Turqlar, Cumərlər,
Toplu olun, dağılmasın sıranız,
Yer üzünə yaşıl qurşaq sizsiniz,
Toplu olun, dağılmasın sıranız.

Sayınızla tuşlaşıbdır ulduzlar,
Qoy böyüsün, kiçilməsin uluslar,
Qoy səslənsin hər bir yerdə qopuzlar,
Toplu olun, dağılmasın sıranız.

Turq başçıdır, özünüzə «Turq» deyin,
Yaman gəlsə, nə söyləsə, «yox» deyin,
Ac olanda özünüzə «tox» deyin,
Toplu olun, dağılmasın sıranız.

Mənim ilkin balalarım, ərlərim,
Buzboğazdan Körfəzəcən yerləri
Yamanlara yer verməyin, döş gərin,
Toplu olun, dağılmasın sıranız.

Qabaqdadır altı böyük inanış,
Qabaqdadır hələ neçə oyanış,
İnanışla dolanacaq dayanış,
Toplu olun, dağılmasın sıranız.

Ağır gündə məni deyin, səsləyin,
Mən arxayam, mənə inam bəsləyin,
Hər bir yerdə, işdə ölçü gözləyin,
Toplu olun, dağılmasın sıranız.

***

Turq düşündü:-Bunlar qızıl öyüddür,
Hər barışda gərək olur qılınc da.
Çox da olma bunca tükü yumuşaq,
Hər barışda gərək olur qılınc da.

Körfəz-Çinçay boyu təkşah olaram,
İki ölkə boyu yollar salaram,
Mən qarayağ verib ipək alaram,
Hər barışda gərək olur qılınc da.

Hələ qalır üç yanımda acıqan,
Tanrı olmaq nəyə gərək yalandan,
Nə tanrılıq, yerdə Yaman qalanda,
Hər barışda gərək olur qılınc da.

Gərək gedəm, Yeraltına addayam,
Çəkəm yaman tanrıları ortaya,
Məni görcək bağırları çatdaya,

Hər barışda gərək olur qılınc da.

Çinçay ilə gərək bir də barışaq,
Bu ölkəyə bir su olub qarışaq,
Bir ağaca iki yandan yapışaq,
Hər barışda gərək olur qılınc da.

Yerdə Minel, göydə Tanrı başrağım,
Doğu-Batı mənim qızıl qurşağım,
Odərpayla Sərtüz yanar ocağım,
Hər barışda gərək olur qılınc da.

VI Bölmə, XIX QAPI

Yay gedirdi, qış gəlirdi bir ildə
Qolboyundu yaranışla dolanış.
Əkin-biçin, ölüm-itim yan-yan
Qolboyundu yaranışla dolanış.

Buz salxımlar çaylaqların əmziyi,
Döyəc külək sovururdu çəltiyi,
Yer, göy, su, yel-tanrıların birliyi,
Qolboyundu yaranışla dolanış.

Pislik solub hamılıqla pislənir,
Yaxşılığın tanrı payı gözlənir,
İkisi də varlıq kimi səslənir,
Qolboyundu yaranışla dolanış.

Yoxsul oldun sən utanma, sıxılma,
Sırtıq üzlə hər bir yerə soxulma,
Aclıq, toxluq qabağında yıxılma,
Qolboyundu yaranışla dolanış.

Bil ki, tanrı səni gizli sınayır,
O bu sayaq varlıları qınayır,
Dan yerinin gözü bundan qanayır,
Qolboyundu yaranışla dolanış.

Yoxsul çoxdur, o, tanrıya yaxındır,
Yoxsul saysız, varlı təkbir yığındır,

Bu yan susqun, o yan küydür, çovqundur,
Qolboyundu yaranışla dolanış.

Varlıq iki qıçı üstə dayanıb,
Hər yer göyə, yaşıllığa boyanıb,
Bizlə su da, daş da yatıb oyanır,
Qolboyundu yaranışla dolanış.

Ər-arvaddır yer ilə göy əzəldən,
Biri yağır, biri yığır deyəsən,
Boğuşurlar, barışırlar yenidən,
Qolboyundu yaranışla dolanış.

***

Ağüzərin ilk artası Tunq idi,
Unudulmur ilk beşiklə son beşik.
Tunq böyüdü, çatdı onbeş yaşına,
Unudulmur ilk beşiklə son beşik.

İkiliyin ilk sevgili uşağı,
İnanc oldu ilk sevginin sınağı,
Qulaqlardan gəlməkdəydi sorağı,
Unudulmur ilk beşiklə son beşik.

On yaşında oxdan, yaydan yapışdı,
Qurdlar ilə, ayılarla tapışdı,
Aslanlarla üzləşəndə qapışdı,
Unudulmur ilk beşiklə son beşik.

Ağüz hərdən balasını izlədi,
Onu qorxunc yırtıcıdan gözlədi,
Tanrıları yardımına səslədi,
Unudulmur ilk beşiklə son beşik.

Şaxta, külək, duman, yağış, bürkülər,
Nəriltilər, ulaşmalar, ürkülər,
Uyuşmuşdu ona qurdlar, tülkülər,
Unudulmur ilk beşiklə son beşik.

Axmazlardı parıldayan güzgüsü,
Göyqurşağı çaylar üstdən körpüsü,
Buludlarsa güzgülərin silgisi,
Unudulmur ilk beşiklə son beşik.

Atdan düşüb hərdən ayı minirdi,
Meşəlikdən düzənliyə enirdi,

Yağışlarda şıdırğıya dönürdü,
Unudulmur ilk beşiklə son beşik.

Tunq meşənin, dağın, çölün yiyəsi,
Tunq küləyin, qar-çovğunun şəpəsi,
Tunq sel-suyun, qasırğanın löhməsi,
Unudulmur ilk beşiklə son beşik.
O gedirdi öz başına hər yerə,
Ağüz onu tapşırmışdı gör-görə,
Itirmişdi onu ata üç kərə,
Unudulmur ilk beşiklə son beşik.

***

Ululardan danışırdı oğluna,
Gücər,Turər,Üstüağla,Turq,Tanı,
Qızağ, Mindon,Turqız, Bacar, Qızçiçək,
Gücər,Turər, İşdayaqla Turq,Tanı,

Buzboğazdan Cütçayadək Mindiyar,
Minel idi, Muğel ilə Onçular,
Danışırdı öz oğluna, nə ki var,
Gücər, Ərtur, Qızağ, Düzər, Turq,Tanı.

O deyirdi, Minel tanrı dayağı,
Minel basmaz özgə qonşu torpağı,
Acıqana qarşı tutar yarağı,
Gücər,Turər,Qızağ,Bacar,Turq,Tanı.

Pis ayaqda tanrısını səsləyər,
Dinclikdə də at, mal-qara bəsləyər,
Qıtlıqlarda ad-sanını gözləyər,
İşdayaqla, Üstüağla, Turq, Tanı.

Ata dedi:-Döyüşlərdə ayıq ol,
Ölkədəsə doğmalardan sayıq ol,
Uluların kimi yurda duyuq ol,
Ağqurd Alpan, Manay, Günay, Turq, Tanı.

Döyüş, vuruş minellilər kimi sən,
Vermə Minel başrağını əlindən,
Acıqanı susdur, sonra vur birdən,
Odərboydan, Tuncər, Qaraş, Cumərtək.

Qorxudmasın səni sıxma-boğmalar,
Dörd yanında yığmalardan yığmalar,

Sənə yaxın olacaqdır doğmalar,
Qayaquşla, Ağquş, Bozqurd, Turq,Tanı.

Bil ki, bunlar ölüblərsə qalıblar,
Oğul, bunlar belə ad-san alıblar,
Hamı tanrı görkəmində olublar,
Muğər, Tuncay, Arıq, Qızay, Turq, Tanı.

Basılmayıb acıqana, qancıla,
Qalıb Gümüş Çevrəsində yazılar,
O çevrədən bizə işıq saçılar,
Bölgəmiçlə, Ərqayayla, Turq, Tanı.

Sevgisiylə, qılıncıyla ad qoyub,
Bicləməni, aldanmanı tez duyub,
Özlərini Mindiyarda var sayıb,
Yanqu, Sansi, Alçiçəklə, Turq, Tanı.

Oğul bala, yenilməz ol, Turq kimi,
Yaşad, yaşa artan kimi Tunq kimi,
Keç qancılın ürəyindən ox kimi,
Sənə baxır Qarbaş, Qızod, Turq, Tanı.

Başev söyləncі

Mindiyarda üçyüz mindən çox olub,
Dolaqlılar, yaraqlılar, atlılar.
Gözləritək qoruyublar ölkəni,
Dolaqlılar, yaraqlılar, atlılar.

Sən yaşdaydı Odərboydan öləndə,
Hamı ondan çəkinirdi gələndə,
Minel çökdü öldüyünü biləndə,
Dolaqlılar, yaraqlılar, atlılar.

Tunq söylədi:-Ata,bu, bir yarışdır,
Çoxdan çoxu savaş ilə barışdır,
Bu, ölkəyə dəmir-dözüm duruşdur,
Dolaqlılar, yaraqlılar, atlılar.

Məni apar döyüşlərə özünlə,
Görüm vuruş yerlərini gözümlə,
Yox, ər olmaz sənin yağlı sözünlə,
Dolaqlılar, yaraqlılar, atlılar.
Mən oxşamaq istəmirəm onlara,

Ad-san gərək boyanmasın qanlara,
Qızıl, gümüş sovrulmasın yanlara,
Dolaqlılar, yaraqlılar, atlılar.

***

Ağüz dedi:-Mən boşluyam Turqərə,
Borcu gərək qaytarasan üzüağ.
Əkbitəni gərək bir də tikək biz,
Borcu gərək qaytarasan üzüağ.

Turqər məni öz yanına gətirdi,
Minbaşıydım, min-minbaşı götürdü,
Bununla da şahlığını bitirdi,
Borcu gərək qaytarasan üzüağ.

Turqu gərək sevindirək bu sayaq,
Onu gərək yenə böyük şah sayaq,
Tikintiyə ayıq-sayıq göz qoyaq,
Borcu gərək qaytarasan üzüağ.

Başev olar yenə əski Əkbitən,
Turq qayıdar şahlıq edər yenidən,
Utanmaqdan qurtararam onda mən,
Borcu gərək qaytarasan üzüağ.

***

Mindiyarın baş-baş evi Əkbitən,
El-obadır başevləri yaşadan.
Təkcə Başev dağılmışdı, yanmışdı,
El-obadır başevləri yaşadan.

Mindiyarda uca qarlı bir dağ var,
Qayalıqdır yatım-yatım yamaclar,
Nə közərir, nə də yanır qayalar,
El-obadır başevləri yaşadan.

Ağüz gəzdi, çökən uçan yerləri,
İşə qoşdu tutuqları, ərləri,
Alınlarda muncuq-muncuq tərləri,
El-obadır başevləri yaşadan.
Yanmaz daşlar Suböləndən gəlirdi,
Bu daşların Ağüz yerin bilirdi,
Tunq baltayla kəsib, yonub dəlirdi,
El-obadır başevləri yaşadan.

Sal daş, süd daş, qızılı daş, dağıntı,

Riyə-riyə, çil-çil, üzdə parıltı,
Qalxmaqdaydı dağlar boyu xarıltı,
El-obadır başevləri yaşadan.

Tikilirdi, ucalırdı dayaqlar,
Suvanırdı dərin-dərin çatdaqlar,
Çəkilirdi göz oxşayan boyaqlar,
El-obadır başevləri yaşadan.

Şahın böyük Oturağı o başda,
Dayaqların üzlükləri sudaşdan,
Yanmaz, aşmaz yanqınlarda savaşda,
El-obadır başevləri yaşadan.

İpək, qırçın sallantılar dalğalı,
Qulluqçular durub gümüş toqqalı,
Neçə yerdə od-ocağı, tonqalı,
El-obadır başevləri yaşadan.

On il çəkdi quruculuq, tikinti,
Görünmədi gözə uçuq, söküntü,
Uçuntular, aşıntılar tükəndi,
El-obadır başevləri yaşadan.

Turq görəndə Başevini diskindi,
Çoxu parlaq gözəllikdən səksəndi,
Göz oxşadı Başev ilə Başkəndi,
El-obadır başevləri yaşadan.

***

Dedi:-Sağ ol Ağüz, sağ ol, Alp Ər Tunq,
Düzlük gəlib öz yerini tutacaq.
Yanmış Başev yaman məni qocaltdı,
Düzlük gəlib öz yerini tutacaq.
Xruş bura od vurmuşdu acıqdan,
Başçı olmaz elə döşü batıqdan,
Bütöv çıxmaz elə ağzı yırtıqdan,
Düzlük gəlib öz yerini tutacaq.

Sənin oğlun, Ağüz deyən igiddi,
O gözümün ağrısını əritdi,
Dediyini sona kimi yeritdin,
Düzlük gəlib öz yerini tutacaq.

Mən andımda, istəyimdə durmuşam,

Mən özümü döyüşlərdə yormuşam,
Bunca səni min-minbaşı qoymuşam,
Düzlük gəlib öz yerini tutacaq.

Yerli, yersiz işlər məni qocaltdı,
Əkbitəni sən bir daha ucaltdın,
Gördüm sizi ürəyimdə güc artdı,
Düzlük gəlib öz yerini tutacaq.

Bu Başevdə oturaram bircə ay,
Sonra sənin olacaqdır bu saray,
Köçürərsən Əkbitənə on alay,
Düzlük gəlib öz yerini tutacaq.

Mən də sizə ata ollam qıraqdan,
Hərdən səsim eşidilər uzaqdan,
Qocalaram, dura bilməm yataqdan,
Düzlük gəlib öz yerini tutacaq.

***

Ağüz dedi:-Ey basılmaz Turq ata,
Başçı qoca eldə çox-çox gərəkdir.
Əkbitənə göz dikənlər hələ var,
Başçı qoca eldə çox-çox gərəkdir.

Muğel, Duzdağ bizdən əltut gözləyir,
Bu əltutu neçə el, yurd gözləyir,
Çinçay, Parsel bizdən öyüd gözləyir,
Başçı qoca eldə çox-çox gərəkdir.

Göstəriş ver qancıllardan öc alaq,
Başçılıq et səndən yeni güc alaq,
Nərildəyib uzaqlara səs salaq,
Başçı qoca eldə çox-çox gərəkdir.

Turq söylədi:-Yollan, durma,dayanma,
Bu işləri yoluna qoy, yubanma,
Bundan sonra izn istəmə, usanma,
Başçı qoca eldə çox-çox gərəkdir.

***

Ağüz, Tunqər yollandılar Duzdağa,
Göstərişi yoluna qoy, yubanma.
Batmamışdı dağ başında gün hələ,
Göstərişi yoluna qoy, yubanma.

Ağüz öndə, Tunqər dalda, gedirdi,
Hərdən Tunqər atasını ötürdü,
Hərdən Çil-çil qatı çəndə itirdi,
Göstərişi yoluna qoy, yubanma.

Manayqız söyləncі

Ağüz, Ağat vermişdilər baş-başa,
Çap, ayağın yerdən qopsun, dədəm at.
Baş qoymuşdu Ağüz atın yalına,
Çap, ayağın yerdən qopsun, dədəm at.

Parsel təkdir, Manayqız da tək qalıb,
Ağrı onun ürəyinə iz salıb,
Gözlərinə yaş yerinə buz dolub,
Çap, ayağın yerdən qopsun, dədəm at.

Gendir burun pərələri Ağatın,
İpək yalın dalğasında ağ yatım,
Yol dolanbac, dağ qorxulu, çən qatı,
Çap, ayağın yerdən qopsun, dədəm at.

Əl çatmazdır Mindiyarın ölkəsi,
Dolambacdır yollarının döngəsi,
Enir, qalxır atlıların kölgəsi,
Çap, ayağın yerdən qopsun, dədəm at.
Manayqızın ala gözü qızarıb,
Yanaqları tək qalmaqdan sozarıb,
Göz yaşıdır təkcə onun bol varı,
Çap, ayağın yerdən qopsun, dədəm at.

***

Düz duymuşdu Manayqızı Ağüzər,
Olmuşların ilk duyumu duyğudur.
Son illərdə o, pis günə qalmışdı,
Olmuşların ilk duyumu duyğudur.

Parsel vergi verməyirdi, beş ildi,
Bunu Manay gec anladı, gec bildi,
Cümər öldü, Parsa öldü, Xruş yox,
Olmuşların ilk duyumu duyğudur.

Qocalmışdı öz içində dul yerinc,
Yerinclikdə nə dinclik var, nə sevinc,

Ən yaxını bir qalxandı, bir qılınc,
Olmuşların ilk duyumu duyğudur.

Çuqçu başı qarşıladı Ağüzü,
Parsellidən açıq dedi hər sözü,
Danışdıqca ağlamsındı o özü,
Olmuşların ilk duyumu duyğudur.

***

Ağüz dedi:-Çuqçuları götür get,
Axtarmaqla tapmaq olar itəni.
Gəz hindeli, Misireli büs-bütün,
Axtarmaqla tapmaq olar itəni.

Mənim oğlum Tunqər burda qalacaq,
Hələlik o burda yerinc olacaq,
Darvideli, Körfəzeli alacaq,
Axtarmaqla tapmaq olar itəni.

Min yaraqlı göndərərəm buraya,
Qız toplumu gəlsin dursun sıraya,
Onlar el-el, yurd-yurd girsin araya,
Axtarmaqla tapmaq olar itəni.
Bu itgiyə bir aydınlıq gətirin,
Olanları yazın, mənə yetirin,
Qancılların işlərini bitirin,
Axtarmaqla tapmaq olar itəni.

Başev yenə Əkbitəndir, əzəldən,
Bu işlərə mən baxıram, təkcə mən,
Burda Yerinc Tunqər olur, bir də sən,
Axtarmaqla tapmaq olar itəni.

Tunqər dedi:-Mən gedərəm Hindelə,
Ağüz dedi:-Burada qal sən hələ,
Darvideli yola gətir, tut dilə,
Axtarmaqla tapmaq olar itəni.

***

Çuqçubaşı Tunqər ilə bir oldu,
Ağır gündə birlik çatar haraya.
Ağır işdən yapışmağa güc gərək,
Ağır gündə birlik çatar haraya.

Çuqçubaşı dedi:-Burda ayıq ol,

Parslar yaraq oğurlayır, sayıq ol,
Həm bu yurda, həm özünə qoruq ol,
Ağır gündə birlik çatar haraya.

Tunqər dedi:-Özgə paltar geyərəm,
Soruşsalar, Hindeldənəm deyərəm,
Hindellini, Parsellini öyərəm,
Ağır gündə birlik çatar haraya.

İlk günlərdə belə etsən yaxşıdır,
Ev-ev gəzib, yol-yol getsən yaxşıdır,
Didik, qara çalma örtsən yaxşıdır,
Ağır gündə birlik çatar haraya.

Parsellilər soyuqdurlar, acıqlı,
Minellidən, Hindellidən yanıqlı,
Darvidelli qapalıdır, qılıqlı,
Ağır gündə birlik çatar haraya.

Tunq bağladı qara şalla belini,
Yamsıladı hərdən pars-hind dilini,
Hər qapıya bir-bir çəkdi əlini,
Ağır gündə birlik çatar haraya.

Beş gün gəzdi, düşdü Körfəz düzünə,
Düşənmədi Manayqızın izinə,
Altıncı gün bir ev dəydi gözünə,
Ağır gündə birlik çatar haraya.

Evin damı, qap-bacası tökülüb,
Əyri-üyrü çay daşından tikilib,
Qapı-baca, dam-daş uçub sökülüb,
Ağır gündə birlik çatar haraya.

Qulağına bir səs gəldi uzaqdan,
Yaxınlaşdı, qulaq asdı qıraqdan,
Bir dilənçi oturmuşdu bucaqda,
Ağır gündə birlik çatar haraya.

Tunqər gedib addımladı irəli,
Yaxaladı beş ər onu, on əlli,
Hamısı da Darvidilli, Parsdilli,
Ağır gündə birlik çatar haraya.

Birdən çomaq dəydi onun boynuna,

Düşdü Tunqun key əlləri yanına,
O atıldı tokuntülər qoynuna,
Ağır gündə birlik çatar haraya.

O yaxından bir inilti eşidir,
Bu, kim ola, bu qadındır, kişidir,
Deyən, bu da beş kişinin işidir,
Ağır gündə birlik çatar haraya.

***

-Səs yiyəsi, kimsən, bura, haradır,
Qaranlıqda çoxu səsdən tanınır.
-Mən Yerincəm, əlim, qıçım bağlıdır,
Qaranlıqda çoxu səsdən tanınır.
Bunlar məni daraçəkib döyürlər,
Hər gün gəlib alçaldırlar, söyürlər,
Parsellini, hindellini öyürlər,
Qaranlıqda çoxu səsdən tanınır.

-Mən yoxsulam, kimsəsizəm, yazığam,
Varda, gücdə, doğmalıqda qırığam,
Elə bil ki, bu yerlərdə artığam,
Qaranlıqda çoxu səsdən tanınır.

Dolaşıram boş-boşuna elləri,
Mən özümə yurd etmişəm çölləri,
Ac-yalavac, gecələrim, günlərim,
Qaranlıqda çoxu səsdən tanınır.

Mən bilirəm sən yerincsən, Manayqız,
Mənsə yoxsul bir kimsəsiz, bir yalqız,
Eşitmişəm sən qancılsan, amansız,
Qaranlıqda çoxu səsdən tanınır.

-Yox tərsinə, mən düz yoldan qalmadım,
Bu ellərdən beş il vergi almadım,
Elə qarşı məndə acıq olmadı,
Qaranlıqda çoxu səsdən tanınır.

Sən çox gəncsən, məni sonra qanarsan,
Başa düşüb sonra məni anarsan,
Tanıyarsan kimliyimi, yanarsan,
Qaranlıqda çoxu səsdən tanınır.

-Mən aclıqdan-Əkbitəndən gəlirəm,

Tanıyıram səni, sənə gülürəm,
Sən Turq şahın bacısısan, bilirəm,
Qaranlıqda çoxu səsdən tanınır.

Mən gəlmişəm, bu el mənə yaxındır,
Könlüm bura, buralara vurğundur,
Parsam, Parsel acdır, coşqundur,
Qaranlıqda çoxu səsdən tanınır.

-Yox bunları tanımırsan hələ sən,
Unudulur, pislik olur yaxşılıq.
Qırx ildir ki, saxlayıram parseli,
Unudulur, pislik olur yaxşılıq.

Gəlib gizli məni lapdan tutublar,
Sürddəyib məni bura atıblar,
Yerinc deyib daş-kəssəyə qatıblar,
Unudulur, pislik olur yaxşılıq.

Verməyiblər vergi, yoldan azıblar,
“Turqa vergi verilmişdir” yazıblar,
Bunu alıb ordakılar susublar,
Unudulur, pislik olur yaxşılıq.

-Düz iş görüb Parsel səni susdurub.
-Susdurmayıb, o mənə qan qusdurub.
-Yaxşı səni bu dusdaqda basdırıb.
Unudulur, pislik olur yaxşılıq.

Bir səs gəldi:-Ay kimsəsiz gəl bəri,
Biz eşitdik danışdığın sözləri,
Tapşırırıq sənə bu gün bu yeri,
Unudulur, pislik olur yaxşılıq.

Parsellitək Tunq göstərdi özünü,
Tərsə dedi bilə-bilə sözünü,
Yalan ilə örtdü sözün düzünü,
Unudulur, pislik olur yaxşılıq.

***

Bunu bilib dusdaqbaşı söylədi:
Hər bir işdə ölçü-biçi gərəkdir.
Eşitdim ki, təpinibsən yerincə,
Hər bir işdə ölçü-biçi gərəkdir.

Sən bizdənsən, biz də səndən, yaxşıdır,
Minel, parsel bir-birinə qarşıdır,
Indi burda yerinc çuqçubaşıdır,
Hər bir işdə ölçü-biçi gərəkdir.
Biz üç aydır ev-eşikdən ayrıyıq,
Üç aydır ki, günü, ayı sayırıq,
El içində yalan sözlər yayırıq,
Hər bir işdə ölçü-biçi gərəkdir.

Sən qal burda, gecə ona qorunc ol,
Kimsə gəlsə aldat, ona görünc ol,
Bir gecəlik gedək evə qayıdaq,
Bir gecəlik sən də burda qal qonaq,
Yemək-işmək dolu burda cağ-bacaq,
Hər bir işdə ölçü-biçi gərəkdir.

Tunqər baxdı, inanmadı, gülərək,
Dedi:-Yerinc deyən bu gün öləcək,
Gecə ikən basdırılsın o gərək,
Hər bir işdə ölçü-biçi gərəkdir.

Basdırarıq, təki ölsün, qalmasın,
Yanında qal, haray-həşir salmasın,
Sözə tut ki, səsi-küyü olmasın,
Hər bir işdə ölçü-biçi gərəkdir.

Belə dedi dusdaqbaşı Tunqərə,
Dedi, birdən səs-küy salar ellərə,
Bu səs düşər Mindiyarda dillərə,
Hər bir işdə ölçü-biçi gərəkdir.

***

Tunq gözlədi, Manayqıza yan aldı,
Hərdən gücü doğru olur yalanın.
Yalan dedi o, yaralı yerincə,
Hərdən gücü doğru olur yalanın.

Axşam düşdü, günəş batdı, saraldı,
Gecə gəldi, yer-göy qat-qat qaraldı,
Gör-görünclər, görünmələr daraldı,
Hərdən gücü doğru olur yalanın.

Tunqər getdi, girdi onun qoluna,
Aldı ölgün gövdəsini dalına,
O tələsik çıxdı Parsel yoluna,

Hərdən gücü doğru olur yalanın.
Çuqçubaşı Tunqu görüb sevindi,
Dedi:-Onun yer-yurdunu nə bildin,
Bununla da ən böyük iş görüldü,
Hərdən gücü doğru olur yalanın.

Manayqızın üzü, başı yaralı,
Düşüncəsi, göz bəbəyi daralıb,
Ölü kimi üzü-gözü saralıb,
Hərdən gücü doğru olur yalanın.

O danışmaq istəyirdi olanı,
Olanlardan doğru-doğru yalanı,
Tunq deyirdi hərdən yerdə qalanın,
Hərdən gücü doğru olur yalanın.

Bir də Manay elə bil ki ölürdü,
Tunqa baxıb hərdən azca gülürdü,
Yalan san ki qulağını dəlirdi,
Hərdən gücü doğru olur yalanın.

Tunqər dedi:-Çuqçu başı, becid ol,
Apar onu Əkbitənə, igid ol,
Yolda ona arxa dayan, öyüd ol,
Hərdən gücü doğru olur yalanın.

Toplumunla gecə ikən çıx yola,
Bu, Başevdə sevinc olar, toy olar,
Qızı görcək çox gözlərə yaş dolar,
Hərdən gücü doğru olur yalanın.

Elə bu an elə girdi min atlı,
Onlar çapıb gəlmişdilər qanadlı,
Ağız odlu, baxış odlu, göz odlu,
Hərdən gücü doğru olur yalanın.

Yerinc Tunqər söyləncі

Mindiyarın səsləncləri gurladı,
Səsləncçox-çox yatanları ayıldır.
Parsel san ki ayılaraq diskindi,
Səsləncçox-çox yatanları ayıldır.
Hamı gəldi yerincevə durmadan,
Gəldi bir-bir qılınc vuran, ox atan,
Gəldi bütün qışı yatan, yatağan,

Səsləmc çox-çox yatanları ayıldır.

Tunqər dedi:-Yerinc mənəm bu gündən,
Gəldim sizi yoxlamağa yenidən,
Ad çıxarın, əkin, biçin, səpində,
Səsləmc çox-çox yatanları ayıldır.

Küsüb gedib Əkbitənə Manayqız,
Gedib həm də qan-qadasız, olaysız,
Biz qalmışıq daha burda Manaysız,
Səsləmc çox-çox yatanları ayıldır.

Biri çıxır önə, deyir, mən başam,
Manayqızla mən yaxınam, yoldaşam,
Mənəm burda yerincliyə yaraşan,
Səsləmc çox-çox yatanları ayıldır.

Tunqər deyir:-Kimsən, söylə, nəçisən,
Darvideldən, ya Parseldən elçisən,
Hindellisən, Parsellisən, kəndçisən,
Səsləmc çox-çox yatanları ayıldır.

-Kim olsam da sənə qarşı qancılam,
Sən at olsan mən də sənə ağ çulam,
Gəldim ox tək gözlərinə sancılam.
Səsləmc çox-çox yatanları ayıldır.

Acığından Tunqun gözü bərəlir,
Çil-çil atdan düşür gəlir irəli,
Bu Daryaşdır, qaşı-döşü gərilib,
Səsləmc çox-çox yatanları ayıldır.

Köksü, başı, boynu ətli, iridir,
Yekə burnu deyən bir az əyridir,
Ancaq Daryaş əl-ayaqdan itidir,
Səsləmc çox-çox yatanları ayıldır.

O əl atır, tunqu çəkir araya,
Tunq silkənir lapdan çıxır ortaya,
Yaraqlılar düzülübdür sıraya,
Səsləmc çox-çox yatanları ayıldır.

Daryaş alır Tunqu göyə qaldırır,
Bununla da o, gücünü bildirir,
Yerə qoyub o hamını güldürür,

Səsləmc çox-çox yatanları ayıldır.

Tunq daryaşı süpürləyir, sürüyür,
Yerdən üzür ayağını, kürüyür,
Alır onu başı üstə, yürüyür,
Səsləmc çox-çox yatanları ayıldır.

Atır onu gölməçəyə, qayıdır,
Daryaş san ki beli sınmış ayıdır,
Kimsə deyir, bu da yerinc payıdır,
Səsləmc çox-çox yatanları ayıldır.

***

Daryaş Tunqu buyruxlayır güləşə,
Kim üstündür, bunu güləş göstərər.
Sayıqlayıb onu tutur söyüşə,
Kim üstündür, bunu güləş göstərər.

Deyir:-Kim güc gəlsə yerinc o olsun,
Bu Parseldə basar başçı qoyulsun,
Gənc olsa da o ağsaqqal sayılsın,
Kim üstündür, bunu güləş göstərər.

Yaxalaşıb qurşaqlaşır iki ər,
Tutaşırlar, biri buğa, biri nər,
Çəkilibdir baxanlardan sıx çəpər,
Kim üstündür, bunu güləş göstərər.

Dirək qollar, güclü, dəmir çiyinlər,
Dağ köküslər, üstün, qızmış beyinlər,
Cırıq-cırıq olur qalın geyimlər,
Kim üstündür, bunu güləş göstərər.
Biri beldən, biri qıçdan yapışır,
Iki kəldir, iki qurddur, qarpışır,
Bir yer üçün iki yerinc çarpışır,
Kim üstündür, bunu güləş göstərər.

Tunq düşünür, “Boynun tutum, sıxım mən”,
Daryaş deyir, “İtələyib yıxım mən”,
Tunq düşünür,”Bürmələyim, boğum mən”,
Kim üstündür, bunu güləş göstərər.

Hey-hey, hay-hay, boğaz yırtan nərilti,
Çəkişmədən qopan boğuq bəyirti,
Boğazlarda qırıq-qırıq xırıltı,

Kim üstündür, bunu güləş göstərər.

Köküslərdə axır tər su yerinə,
Aman vermir kəllər biri-birinə,
Tunq Daryaşın birdən girir böyrünə,
Kim üstündür, bunu güləş göstərər.

Tunq silkənib bərk yuxarı dartınır,
Sıxır onun qoltuğunun altını,
Kəsir onun uduğunu, hortunu,
Kim üstündür, bunu güləş göstərər.

Daryaş deyir:-Burax gözüm qaralır,
Övkələnir üzü-gözü saralır,
Valaylayır düşür Tunqdan aralı,
Kim üstündür, bunu güləş göstərər.

***

Yalan hərdən gərək olur doğruya,
Çox qısqırtma yalan üstə doğrunu.
Biri bulaq, biri sısqa-bir içim,
Çox qısqırtma yalan üstə doğrunu.

Yalan çatdı harayına yerincin,
Doğru, yalan ayrıdırlar nə üçün,
Biri bulaq, biri isə bir içim,
Çox qısqırtma yalan üstə doğrunu.
İkisi də aldatmağa boyludur,
Biri dikdir, biri üzüquyludur,
Biri susqun, o birisi küylüdür,
Çox qısqırtma yalan üstə doğrunu.

Biri sağda səndən, biri soldadır,
Hamı yalan, hamı doğru yoldadır,
Bunca hamı bir-birini aldadır,
Çox qısqırtma yalan üstə doğrunu.

Doğruluqdan hamı qaçır çəkinir,
Dirrik yalan üstə qurub yükünü,
Doğru ölmür, yavaş-yavaş tükənir,
Çox qısqırtma yalan üstə doğrunu.

Biz yalanla aldadırıq doğrunu,
Biz yalanla azaldırıq ağrını,
Çatdadırıq qancılların bağrını,

Çox qısqırtma yalan üstə doğrunu.

Biz yalanı pisləyirik, söyürük,
Doğruluğu pişim-pişim öyürük,
Ancaq hər gün yalan çörək yeyirik,
Çox qısqırtma yalan üstə doğrunu.

Doğruluğu ovud, tut, al qucağa,
Yalanısa çox da qovma uzağa,
Bir də gördün gərək oldu qulluğa,
Çox qısqırtma yalan üstə doğrunu.

Kim desəki doğru gücdür, yalandır,
Yalan ötən, doğru isə qalandır,
İkisi də bir anadan olandır,
Çox qısqırtma yalan üstə doğrunu.

Pis ayaqda verir önə döşünü,
Görür hərdən yüz toplumun işini,
Yaz eyləyir sözlə qarın qışını,
Çox qısqırtma yalan üstə doğrunu.

O itildir, qılınc edir xışını,
Qartal edir ölü serçə quşunu,
O dirildir yaralının leşini,
Çox qısqırtma yalan üstə doğrunu.

***

Tunq söylədi:-Beş il vergi boşluyuq,
Vergi dönür, el-obaya paylanır.
Yoxsullara yardım olsun varlılar,
Vergi dönür, el-obaya paylanır.

Varlı, yoxsul bir-birinə arxadır,
Yoxsul qayış, varlı isə toqqadır,
Harda bu var, orda yoxsul azdır,
Vergi dönür, el-obaya paylanır.

Biri dedi sısqa səslə arada,
-Parsellidən güclü toplum yaradaq,
Səs-küy düşdü bu sözlərlə sırada,
Vergi dönür, el-obaya paylanır.

Bu ağır iş tapşırılsın Daryaşa,
Sanıram ki, bu iş ona yaraşar,

Qoy o mənlə girsin böyük yarışa,
Vergi dönür, el-obaya paylanır.

Daryaş söyləncі

Daryaş çıxdı ortalığa söylədi:
-Yanılmışam, Tunqər, məni bağışla.
Səndə böyük ürək vardır, Turqsayaq,
Yanılmışam, Tunqər, məni bağışla.

Parsel hər il korluq çəkir vergidən,
Yardım görmür doğmasından, özgədən,
Nə doğma var, nə yabançı ölkədə,
Yanılmışam, Tunqər, məni bağışla.

Bu böyüklük məni bütün dəyişdi,
Yaxşılığa pislik etmək pis işdi,
Bağışla ki, mən sənlə deyişdim,
Yanılmışam, Tunqər, məni bağışla.

***

Tunq Parselə bağışladı borcları,
Bir bağışla dəyişilir acıqan.
Parsel Tunqa boyun əydi, baş əydi,
Bir bağışla dəyişilir acıqan.

“Acıqan da demək olmaz Parselə,
Həm qardaşığ, həm elliyik biz hələ,
Tutacağam yurdu, eli mən dilə,
Bir bağışla dəyişilir acıqan.

Ağüzər də gərək bunla barışsın,
Bu işlərə doğma kimi qarışsın,
Bunu öncə yoxsullardan soruşsun,
Bir bağışla dəyişilir acıqan.

Gərək indi Darvidelə yol tapam,
Küsülüdür, deyən, orda çox adam,
Deyir, burda nə arpa var, nə saman,
Bir bağışla dəyişilir acıqan.

Hər iki el yeni bir yol seçəcək,
Bu yol Hindel, Misireldən keçəcək,
Tunq söz əkib, Tunq bicləmə biçəcək,
Bir bağışla dəyişilir acıqan.

Bicləmədir eli qoyur yoluna,
O bənzəyir atın qulaq qılına,
Çətin anda girir mənim qoluma,
Bir bağışla dəyişilir acıqan.

Qız toplumu az qalıbdır, çox azdır,
Parsellilər acıqlıdır, konazdır,
Çayı, gölü, gölməçəsi dayazdır,
Bir bağışla dəyişilir acıqan.

Tanrı, mənə yardım elə, yol göstər,
Yardım elə yağ düşməsin köz üstə,
Var çoxalsın, çox da gəlsin az üstə,
Bir bağışla dəyişilir acıqan.
Mən Parseli, Darvideli qucaram,
Satallara yeni yollar açaram,
Mən Ağüzəm, Üstüağam, Bacaram,
Bir bağışla dəyişilir acıqan.”

***

Tunqər qısa yazı yazdı Başevə:
“Başev hər gün bilməlidir hər şeyi.
Parsel, Daryaş, Vergi, bir də Manayqız,
Başev hər gün bilməlidir hər şeyi.

Yazdı, ata, mən qalıram burada,
Baş vur mənə, hərdən-birdəm, arada,
Yardım olsun qoy Minelə yaradan,
Başev hər gün bilməlidir hər şeyi.

Bunlar bura “ölkə” adı qoyublar,
El olmaqdan çiyriyiblər, doyublar,
Başev, ölkə istəyinə dolublar,
Başev hər gün bilməlidir hər şeyi.

Mən burada yerinc kimi qalaram,
Yellidirlər, yellərini alaram,
Onlar Parsel, mən isə Minel olaram,
Başev hər gün bilməlidir hər şeyi.

“Başev”, “ölkə”, bu sözləri arayın,
Tək bunlardır Parsellinin harayı,
Yazı yazın hər günündə hər ayın,
Başev hər gün bilməlidir hər şeyi”.

Tunqər yazdı, ancaq soraq gəlmədi,

Başev boşdur, bunu Tunqər bilmədi,
Turq yox oldu, tanrılaşdı, ölmədi,
Başev hər gün bilməlidir hər şeyi.

***

Sak dağları dan yerinə boylanır,
Gəl-gəl deyir dağlar ulu günəşə.
Naxır, sürü, ilxı qalxır yaylağa,
Gəl-gəl deyir dağlar ulu günəşə.
Oynaqlayır, şıllaq atır dayçalar,
Çiçəklərdən boya alır xalçalar,
Dolub daşır fətir, külçə-xonçalar,
Gəl-gəl deyir dağlar ulu günəşə.

Quzu gəlib əmir dolu tuluğu,
Yerə dəyir qoyunların quyruğu,
Qızlar çəkir, süzmələyir qatığı,
Gəl-gəl deyir dağlar ulu günəşə.

Tüstülənir təndir-odun sobası
Xurcunlarda gül-çiçəyin boyası.
Unudulub burda qişlaq şorbası,
Gəl-gəl deyir dağlar ulu günəşə.

Papaq qoyub ağ buluddan Sak dağı,
Duman gəlir cizildadır ocağı.
İki uşaq otarırlar bir atı,
Gəl-gəl deyir dağlar ulu günəşə

Parsel çıxıb oba-oba yaylağa.
Səpələnib sürü, naxır otlağa
Soyutma ət bişirirlər qonağa
Gəl-gəl deyir dağlar ulu günöəşə.

Gözü yolda gözləyirlər Tunqəri
Osa gəlir gəzə-gəzə hər yeri
Öyünc olub yorulmayan dillərin
Gəl-gəl deyir dağlar ulu günəşə.

***

Tunq düşünür, çıxış yolu axtaraır,
Birində güc birində öc güclüdür.
Parsel, Daryaş öz yolundan dönməyir,
Birində güc, birində öc güclüdür.

Bunlar el yox, “ölkə” olmaq istəyir,
Bunlar Minel, Mindiyarı pisləyir,
“Xruş” deyib ona inam bəsləyir,
Birində güc, birində öc güclüdür.
Daryaş Xruş olmaq üçün atdanır,
Ancaq “Minel” deyib üç yol qatdanır,
Gizli vergi yığır, onla otlanır,
Birində güc, birində öc güclüdür.

Məndə güc var, onda öc var, nə olsun,
Orda-burda qoy deyinib yorulsun,
Lap Parselin adı “Ölkə” qoyulsun,
Birində güc, birində öc güclüdür.

“Ölkə” olsa aclarından ölərlər,
Minel nədir, kimdir, onda bilərlər,
Üstümüzə ac-yalavac gələrlər,
Birində güc, birində öc güclüdür.

***

Tunq düşünür, biləyində güc duyur,
Güclü susur, arxayındır özünə.
Deyir toplum, yaraq, Başev məndədir,
Güclü susur, arxayındır özünə.

Kim oynadır öz yerindən Parseli,
Burda, deyən Hindelin də var əli,
Yoxsa bizə kələzdənməz təkəlli,
Güclü susur, arxayındır özünə.

Göz qoydurram özlərindən Daryaşa,
Daryaş kimdir, ev-ev düşüb soruşar,
Belə getsə tez-tez ara qarışar,
Güclü susar, arxayındır özünə.

Var Darvidel,Qız toplumu, çuqçular,
Bir söz desəm bu Parseli uçurar,
Onda görər bu yerlərdə nələr var,
Güclü susar, arxayındır özünə.

Deyən bunlar arxayındır Asura,
Parsel hara, Hindel hara, biz hara,
Parsel olub Mindiyara bir yara,
Güclü susar, arxayındır özünə.

Bunca niyə mən də gedim uzağa,
Belə getsə sarılaram silaha,
Darvielli qaldıraram ayağa,
Güclü susar, arxayındır özünə.

Bir də vardır aldatmaqla bicləmə,
Həm də hərdən pişim-pişim yelləmə,
Bir də dibdən acıqanı belləmə,
Güclü susar, arxayındır özünə.

Yerinc evdə oturmuşdu tək, yalqız,
Düşünürdü,-daşınırdı dayaqsız,
Öz-özüylə danışardı o yalnız,
Güclü susar, arxayındır özünə.

Daryaşın Hindelə getməsi söyləncі

Yol almışdı yoldaşlığa Daryaş da,
Son tutacaq, əltut yeri uludur,
O Hindelə yollanmışdı bir aydı,
Son tutacaq, əltyt yeri uludur.

Daryaş adlı döyüşərdi,güləşər,
Yoxdu onda geridönmə, dönüşlər,
Bir sınaqdı ona, qanlı döyüşlər,
Son tutacaq, əltut yeri uludur.

Kumar idi minbaşısı Hindelin,
Adlı-sanlı bir əri var hər elin,
Bir açarı, bir dili var hər dilin,
Son tutacaq, əltut yeri uludur.

Kumar ağır, kök, gödəkboy, qaraşın,
Tanıyırdı on yaşından Daryaşa,
-Sənsən yerinc -dedi ona minbaşı,
Son tutacaq, əltut yeri uludur.

Görüşdülər bağ evində Kumarın,
Açıq idi qapıları komanın,
Gül-çiçəkdi bu komanın hər yanı,
Son tutacaq, əltut yeri uludur.
Ha vaxt gəlsən bura sənin komandır,
Mənim evim sənin doğma daxmandır,
Doğmalarım dib daşındır, doğmandır,
Son tutacaq, əltut yeri uludur.

Mən də burdan köçüb gedən eldənəm,
Siz aparan, siz danışan dildənəm,
Çətin sizdən ya ayrılam,ya dönəm,
Son tutacaq, əltut yeri uludur.

Daryaş dedi:-Mən tutuğam bu yaşda,
Öyünürəm sənin kimi qardaşla,
Yardım elə, deyim elə bu başdan,
Son tutacaq, əltut yeri uludur.

Vergi bizi talayıbdır, soyubdur,
El olmaqdan ellərimiz doyubdur,
Turq indi də Tunqu yerinc qoyubdur,
Son tutacaq, əltut yeri uludur.

Bizə yaraq çox yaxşıdır komadan.
Yaraq göndər, qoru bizi arxadan.
Yaraq yaxşı, arxa yaxşı doğmadan,
Son tutacaq, əltut yeri uludur.

***

Kumar getdi minminbaşı yanına,
Minbaşıdan minminbaşı böyükdür.
Dedi:-Başcım, Parsel yardım diləyir,
Minbaşıdan minminbaşı böyükdür.

Soldu onun dolu, titrək yanağı,
Gümüşdəndi başındakı dolağı,
Qızıldandı göz oxşayan yarağı,
Minbaşıdan minminbaşı böyükdür.

Dedi:-Qoşul özün ona, yola düş.
Gizli yerdə başçıları gör, göreş,
Nə istəyir Parsellilər, bir soruş,
Minbaşıdan minminbaşı böyükdür.

Bax, gör, öyrən, dedikləri düz olsa,
Götür apar yaraqlını, nə varsa,
Sən güləşər, sən döyüşkən caparsan,
Minbaşıdan minminbaşı böyükdür.

Güc gələrsən onlara mən biləni,
Sən birləşdir bizə çılqın parseli,
Xaqan bizə yardım edər beşəlli,

Minbaşıdan minminbaşı böyükdür.

Kumar gəldi, Daryaş döndü yaraqlı,
Hindellilər ayaqyalın, balaqlı,
Bizuc, qılınc, yay, ox, dəmir tutaqlı,
Minbaşıdan minminbaşı böyükdür.

Dağ dalında gilləndilər iki ay,
Nə bir hay-küy eşidildi, nə haray,
Könüllülər artdı oldu bir alay,
Minbaşıdan minminbaşı böyükdür.

Tunqər bunu bildi, üzə vurmadı,
Sıraları bərkişdirdi, durmadı,
Çuqçuları tərpətmədi, yormadı,
Minbaşıdan minminbaşı böyükdür.

Kumar söyləncі

Qız toplumu meşəlikdə busurdu,
Min yaraqlı gizlənmişdi susurdu,
Hamı durub səsə qulaq asırdı,
Qılınc, qalxan vuruşması döyüşdür.

Bu, döyüş yox, basqın idi deyəsən,
Qılınc qalxan toqquşması döyüşdür.
Yerincliyi tutmaq hələ döyüş yox,
Qılınc qalxan toqquşması döyüşdür.

Kumar oxla daldan vurdu Tunqəri,
Aşdı bu an Çilçilatın yəhəri,
Yatdı yerə Yerincliyin çəpəri,
Qılınc qalxan vuruşması döyüşdür.
Qılınc çəkib Daryaş çıxdı qabağa,
Dedi: Tunqər, əl at indi yarağa,
Tunq da düşüb atdan endi torpağa,
Qılınc qalxan vuruşması döyüşdür.

Qılınc qalxdı, bunu Daryaş bilmədi,
Qılınc endi, o yıxıldı, ölmədi,
Kumar qorxdu, çox qabağa gəlmədi,
Qılınc qalxan vuruşması döyüşdür.

Tunqər döndü, ona bərkdən qabardı,
-Sənin adın, mən biləni Kumardır,

Burda ox yox, iti qılınc basardır,
Qılınc qalxan vuruşması döyüşdür.

Qılınc qalxdı, qılınc endi aşağa,
“Vay “ deyərək Kumar düşdü torpağa,
Daryaş daha əl atmadı yarağa,
Qılınc qalxan vuruşması döyüşdür.

Balaqlılar Tunqər üstə cumdular,
Qılınc dəydi, qan oldular , damdılar,
Yüzü öldü, ağız açıb yumdular,
Qılınc qalxan vuruşması döyüşdür.

Dağdan enən yaraqlılar yürüşdə,
Qız toplumu nərildədi döyüşdə,
Qılınc tutan ağ əlləri gümüşdən,
Qılınc qalxan vuruşması döyüşdür.

Balaqlılar qaça-qaça söyürdü,
Parsellilər hindellini döyürdü,
“Tunqər” deyib hamı onu öyürdü,
Qılınc qalxan vuruşması döyüşdür.

***

Yaralıydı Kumar tutuq düşəndə,
Toplum çökür tutuq düşsə minbaşı.
Saxlanıldı o, tavansız dustaqda,
Toplum çökür tutuq düşsə minbaşı.
Dustaqlandı o hay-küydən uzaqda,
Manayqızın saxlandığı dustaqda,
İplə qat-qat sarılmışdı bucaqda,
Toplum çökür tutuq düşsə minbaşı.

Kumar dedi:- Mən yanlış yol tutmuşam,
Toplumumu satqınlara satmışam,
Tunqun ağır qılıncını dadmışam,
Toplum çökür tutuq düşsə minbaşı.

Yalvarıram tutuq kimi sat məni,
Öldür, apar qurda-quşa at məni,
İpə sarı, öz ardınca dart məni,
Toplum çökür tutuq düşsə minbaşı.

Ancaq məni sən qaytarma Hindelə,
Saxla elə dustaqlıqda, bax, belə,

Qoyma danlaq çoxluğunda mən öləm,
Toplum çökür tutuq düşsə minbaşı.

-Sən haradan tanıyırdın Daryaşı,
Deyir, odur mənim ögey qardaşım,
Ancaq sənə heç oxşamır göz-qaşı,
Toplum çökür tutuq düşsə minbaşı.

-Düzdür, mən də bunlardanam, mən yazıq,
Min il qabaq bunlar köçdü, biz qaldıq,
Min il bizi ayırmışdır ayrılıq,
Toplum çökür tutuq düşsə minbaşı.

Dedim, mənə doğmadırlar, amandır,
Ayrılıblar yurdlarından haçandır,
Pislik ötər, yaxşılıqsa qalandır,
Nə bileydim bunlar quduz qabandır,
Toplum çökür tutuq düşsə minbaşı.

Gəldim, gördüm, dolanışıq yaxşıdır,
Qudurmuşlar yaxşılığa qarşıdır,
Başçıları düşüncədən naşıdır,
Toplum çökür tutuq düşsə minbaşı.
Tunq Kumarın sözlərinə inandı,
İnanmaq yox, inandırmaq çətindir.
Onu alıb qoydu orda onbaşı,
İnanmaq yox, inandırmaq çətindir.

Dedi, olsun “baş” özündən özünə,
Dedi, hamı baxsın onun sözünə,
Dedi, düşsün qoy işlərin izinə,
İnanmaq yox, inandırmaq çətindir.

Kumar yerinc işlərinə qatıldı,
Çoxu dedi, o, Tunqərə satıldı,
Qara qaşlar düyünləndi, çatıldı,
İnanmaq yox, inandırmaq çətindir.

Tunqər bunu acığından elədi,
Çoxlarının kal içini bellədi,
Hellənmişi yuvasına hellədi,
İnanmaq yox, inandırmaq çətindir.

Ancaq Kumar Tunqu gördü, vuruldu,
Bulanmışdı, inanc tapdı, duruldu,

Mindiyarda inanc üstə quruldu,
İnanmaq yox, inandırmaq çətindir.

Bu bicləmə nədir, vuruş, barışıq,
Aldatmaqla aldanmaqdır, qarışıq,
Çox da bunu anlamırdı onbaşı,
İnanmaq yox, inandırmaq çətindir.

Çuqçubaşı dönüb gəldi Parselə,
Dedi, getdim, tutuq oldum Hindelə,
Yiyələndim ancaq orda çox dilə,
İnanmaq yox, inandırmaq çətindir.

Öz yerinə gizli qoydu Tunq onu,
O artırdı yaraqlının sayını,
Bunla bitdi Daryaş-Kumar oyunu,
İnanmaq yox, inandırmaq çətindir.

Ana söyləncі

Bir gün Tunqər anasıyçin darıxdı,
Çox yaraya toxdaq-dərman anadır.
Görməmişdir Dəmirqızı bir ildir,
Çox yaraya toxdaq-dərman anadır.

Duzdağ əski Nuhçatanın bölgəsi.
Deyirdilər ona Daşduz ölkəsi,
İsti yayı, ancaq sərin kölgəsi,
Çox yaraya toxdaq-dərman anadır.

Yerinc idi bu torpaqda Dəmirqız,
Burda idi duz yatağı, daşağız,
Tükənməzdi burda lay-lay qaya duz,
Çox yaraya toxdaq-dərman anadır.

Duz gedirdi burdan tez-tez Çinelə,
Gəmilərlə daş duz böyük Hindelə,
Duzdağ, Daşduz deyirdilər bu elə,
Çox yaraya toxdaq ata-anadır.

-Ana, gəldim səni görüm, günaydın,
Bu yollarda sürünürəm biraydır,
-Gəlibsənsə üç ay burda qalaydın,
Çox yaraya toxdaq ata-anadır.

Eşitmişəm istəyirsən bir qızı,
Bilmirəm ki bunu bilir qız özü,
O böyükdür səndən neçə yaş düzü,
Çox yaraya toxdaq ata-anadır.

-Nə olsun ki, böyük olsun ya kiçik,
Mən sevirəm, sevgi yaşda biz birik,
Qız da bilir, ancaq dinmir hələlik,
Çox yaraya toxdaq ata-anadır.

Görüşməyib görməsə də Tunq nədən,
Vurulmuşdu Elçiçəyə ürəkdən,
Yorulmuşdu o Elçiçək deməkdən,
Çox yaraya toxdaq ata-anadır.
O bilmirdi qız sevirmiş Ağüzü,
Ağüzünsə Elçiçəkdə yox gözü,
O saymayıb çox sevgini, çox sözü,
Çox yaraya toxdaq ata-anadır.

Tunqər isə çox oxşayır ataya,
Ona oxşar olub çıxıb ortaya,
İstəyib ki atasını addaya,
Çox yaraya toxdaq ata-anadır.

Dəmirqızı bunlar yaman göynədir,
Deyir, bunlar sevgi deyil, heç nədir,
Çox sözləri öz oğlundan gizlədir,
Çox yaraya toxdaq ata-anadır.

***

Nə düşübsən şellən-şellən gəzirsən,
İstəyirsən sağ qalasan sayıq ol.
Toplum gəlir Nuhçatanın üstünə,
İstəyirsən sağ qalasan sayıq ol.

Belə dedi Tivə kənddə bir kişi,
Ayıq saldı kənddə tanış-bilişi,
Axsaq idi, sınıq idi yerişi,
İstəyirsən sağ qalasan sayıq ol.

-Özüm gördüm yaraqlını,altı yüz,
Başçı təndir şişi kimi dübbədüz,
Altı yüz baş qızmış-qızıx bir öküz,
İstəyirsən sağ qalasan sayıq ol.

Dəmirqıza çatdırıldı bu sözlər,
“Daraşıblar Duzdağelə öküzlər
Yekəbaşlar, şiş udmuşlar, iblislər,
İstəyirsən sağ qalasan sayıq ol.

Yüz atlıyla Yerinc çıxdı Duzdağa,
“Dayan” dedi çağrımamış qonağa,
Qızıxmışlar əl atdılar yarağa,
İstəyirsən sağ qalasan sayıq ol.
-Siz kimsiniz, bura duzdağ elidir,
Nuhçatandır, bu hamıya bəllidir,
Başçınızın başı deyən yellidir.
İstəyirsən sağ qalasan sayıq ol.

-Kimliyimiz alnımızda yazılıb,
Qılıncımız üzərində qazılıb,
Kirpiklərdən oxlarımız asılıb,
İstəyirsən sağ qalasan sayıq ol.

-Baş apama, çıx ortaya yarışaq,
-Yaxşı olar vuruşmadan barışaq,
Sən qadınsan, geyinibsən ərsayaq,
İstəyirsən sağ qalasan sayıq ol.

-Mən qadınam, sən kişidən qabağam,
Döyüşlərdə Mindiyara dayağam,
Əyilməyən, kütləşməyən yarağam,
İstəyirsən sağ qalasan sayıq ol.

-Mən qadına əl qaldıra bilmərəm,
Qadın vursa, qanım axsa silmərəm,
O, başımı kəssə belə ölmərəm,
İstəyirsən sağ qalasan sayıq ol.

***

Bir səs gəlir birdən-birə uzaqdan,
Arxa, söykənc güc gətirir ürəyə.
-Ana, gözlə, mən gəlirəm, tələsmə,
Arxa, söykənc güc gətirir ürəyə.

Altı yüzə qarşı yüz ər çox azdır.
Şeşələnmək bunca oynaq qotazdır,
Hamı bilir şeşələnən dayazdır,
Arxa, söykənc güc gətirər ürəyə.

Tunqdur. Gəlir yardımına ananın,
Tunqdur, bu gün yuxudan gec oyanıb,
Kimdir bitən burda ottək yabanı
Arxa, söykənc güc gətirər ürəyə.
Tunqu görüb hamı çaşır, tutulur,
Dəmirqızın yay qaşları çatılır,
Oxlu yaylar sona kimi dartılır,
Arxa, söykənc güc gətirər ürəyə.

Ana deyir:-Tunq, burdayıq, elliyik,
Biz danışıq aparırıq hələlik,
Bu üzləşmə tanışlıqdır, gileylik,
Arxa, söykənc güc gətirər ürəyə.

Düşür atdan boyun əyir yüzbaşı,
Gülür onun dolu üzü, göz-qaşı,
Danışığı sıralarda dolaşır,
Söykənc, arxa güc gətirər ürəyə.

Deyir: -Tunqər, biz gəlmişik görüşə,
Gəlməmişik sizlə duraq döş-döşə,
Gəlməmişik vuruşmağa, döyüşə,
Söykənc, arxa güc gətirər ürəyə.

Bizik Balasq toplumunun qopuğu,
Keçmişlərin, olmuşların qalığı,
Biz olmuşuq Balasqelin atığı,
Söykənc, arxa güc gətirər ürəyə.

Hər bir yerdə sınıqların sınığı,
Soyuqluğun, saymazlığın yazığı,
Biz olmuşduq Mindiyarın yanığı,
Bizik onun bayrağının sayığı,
Biz olmuşduq artıqların artığı,
Ancaq Minel ölkəsinin ayığı,
Bizik Düzər,Yüzər, Odər qoruğu,
Qan hayqıran yaraların ovuğu,
Söykənc, arxa güc gətirər ürəyə.

Biz ayrıldıq Balasqeldən bir təhər,
İllər boyu alçaldılmış beş yüz ər,
Biz çox idik qol-budaqlı ərənlər,
Söykənc, arxa güc gətirər ürəyə.

Balasqeldən bizi yer-yer qovublar,

Üç min ildir bizi artıq sayıblar,
Onlar ölkə başçısına uyublar,
Bizi belə yersiz, yurdsuz sayıblar,
Söykənc, arxa güc gətirər ürəyə.

Biz gəlmişik Mindiyara yaşayaq,
Mindiyarın bayrağını daşıyaq,
Bizim qorunc yerimizdir bu başraq,
Söykənc, arxa güc gətirər ürəyəş

Tunqər dedi:-Gəlibsiniz, göz üstə,
Bizim ölkə doğma elə doğmadır.
Yal-yaraqla gəlmisiniz, nədəndir,
Bizim ölkə doğma elə doğmadır.

Tunqər dedi:-Sizi işdə görərik,
Onda sizə yer-yurd, inanc verərik,
Onda böyük döyüşlərə girərik,
Bizim ölkə doğma elə doğmadır.

-Gələ-gələ orda-burda döyüşdük,
Çapdıq, soyduq, qancıllarla deyişdik
Yaraq tapdıq, yaraqlandıq vuruşduq,
Bizim ölkə doğmalara doğmadır,

İndi bizə iş buyurun, qulluq yox,
Döyüşçü tək baxın bizə, tutuq yox,
Vuruşqanıq, yaraqlıyıq, yazıq yox,
Bizim ölkə doğmalara doğmadır.

Tunqər dedi: -Çəkinməyin heç nədən,
Uğurelə apararam sizi mən,
Çiçək iyi duyarsınız o yerdə,
Bizim ölkə doğmalara doğmadır.

Tivi kəndi yüz qoyunu bəyirtdi,
Qonaqlara qulluq etdi, yedirtdi,
Üç min illik ayrılığı kiriltdi,
Sızıltının buzlarını əritdi,
Bizim ölkə doğmalara doğmadır.
Tunq sonra da çəkinməyib heç nədən,
Atasına, anasına demədən,
Yola düşdü Uğurelə kənbəkənd
Bizim ölkə doğmalara doğmadır.

Arxasınca getdi onun on takım,
Sevgisinə doğru idi hər addım,
Uzun yollar sevgisini çoxaltdı,
Bizim ölkə doğmalara doğmadır.

Görüş söyləncі

Uğureldə yerinc idi Elçiçək,
Qıtlıq olmur qadın yerinc olanda.
On beş ildə dəyişmişdi elatlar,
Qıtlıq olmur qadın yerinc olanda.

El çox işi özü görüb keçirdi,
Sulu yeri, yalı əkib biçirdi,
Gah yaylağa, gah qışlağa köçürdü,
Qıtlıq olmur qadın yerinc olanda.

Elçiçək də baş çəkirdi yurdlara,
Alaçıqdan, aullardan kəndlərə,
Əl çəkirdi çiçəklərə, otlara,
Qıtlıq olmur qadın yerinc olanda.

Onu hərdən hort qoyurdu ilmələr,
Yaylıqlarda incə-incə tikmələr,
Daş yazmalar,daş üstündə çəkmələr,
Qıtlıq olmur qadın yerinc olanda.

Soyumuşdu sevgi, sevinc içində,
Yanılmışdı ölçü bilməz seçimdə,
O tapmadı daha Ağüz biçimdə,
Qıtlıq olmur qadın yerinc olanda.

Çox elçilər gəlib getdi on ildə,
Çinel, Minel, Hindel, bir də Muğeldən,
Boş döndülər, səs çıxmadı tək əldən,
Qıtlıq olmur qadın yerinc olanda.
Başı uca, Alnı açıq Uğurel,
Nə yaxşı ki, yerincimiz “şort” deyil,
Eşidirdi olmuşları anagil,
Qıtlıq olmur qadın yerinc olanda.

Ancaq hərdən kövrələrək, gülərək
Ana olmaq istəyirdi Elçiçək,
Körpə iyi, bağırtısı, yaş bələk,
Qıtlıq olmur qadın yerinc olanda.

Ağsaqqallar yağlı dilə uymuşdu,
Öyüd-möyüd söyləməkdən doymuşdu,
Hərdən qızı öyüb tanrı saymışdı,
Bunu bütün Uğurelə yaymışdı,
Qıtlıq olmur qadın yerinc olanda.

***

Kimi isə gözləyirdi Elçiçək,
İlk sevginin ilk qorudur gözləmək.
Ancaq kimi, nəyi bu qız gözləyir,
İlk sevginin ilk qorudur gözləmək.

Biri vardı, Yerincevi busurdu,
Elçiçəyə tez-tez qulaq asırdı,
Sevgisini deyə bilmir, susurdu,
İlk sevginin ilk qorudur gözləmək.

O kim idi, neçə kəndin yiyəsi,
Qırx sürüsü, beş naxırı, pəyəsi,
Sözü vardı Elçiçəyə deyəsi,
İlk sevginin ilk qorudur gözləmək.

Yerincevdə minbaşıydı, çox çevik,
Əlindəydi on beş takım, beş bölük,
Ancaq içi-çölü yaman örtülü,
İlk sevginin ilk qorudur gözləmək.

Azdan, çoxdan varıb, dönüb gülüncə
Sevgisini bildirmişdi yerincə,
“ Yerinc, səni sevəcəyəm ölüncə”
İlk sevginin ilk qorudur gözləmək.
Çopur idi, atar idi ad-sanı,
Yerincevin yolu üstə ormanı,
Ovlaq idi ormanının hər yanı,
İlk sevginin ilk qorudur gözləmək.

Yerinc deyib Atar sanki ölürdü,
Çoxdan idi yerinc bunu bilirdi,
Altdan-altdan bu sevgiyə gülürdü,
İlk sevginin ilk qorudur gözləmək.

O bilirdi Atar sulu yer tutub,
Yerlərinə yeni-yeni yer qatıb,
Orda-burda gizli-gizli yer satır,

İlk sevginin ilk qorudur gözləmək.

***

Uğurelin səsləncləri gurladı,
Səsləns inam, qorxu-ürkü yaradır.
Döyüş, vuruş sorağıdır bu səsləns,
Səsləns inam, qorxu-ürkü yaradır.

Soraq gəldi, beş yüz atlı, minbaşı,
Dayanmadan yoxuş aşır, dağ aşır,
Tələsmədən Uğurelə yanaşır,
Səsləns inam, qorxu-ürkü yaradır.

Yerinc dedi: -Gedin, görün kim ola,
Yol azıblar, çıxıbdılar bu yola,
Yol verməyin eldə qorxu yayıla,
Səsləns inam, qorxu-ürkü yaradır.

Beş takımla Atar çapdı ovlağa,
Qılınc çəkib o yeridi qabağa,
Qorxu-ürkü gəldi gələn qonağa,
Tunqu görcək o çevrildi yumağa,
Səsləns inam, qorxu-ürkü yaradır.

Tunqər dedi: -Sən nəçisən, ay qotur,
-Mən Elçiçək yaraqlısı, şah odur.
Yerinc odur, bu ovlağı o tutub.
-Yavaş danış, ay dombagöz, ay qotur,
Səsləns inam, qorxu-ürkü yaradır.
Hər sözündən salxım-salxım buz qopur.
Səsləns inam, qorxu-ürkü yaradır.

-Mən Elçiçək vurğunuyam,Tunqərəm,
Mən gəlmişəm öz sevgimi göstərəm,
Çəkil yoldan, buyururam son kərə,
Səsləns inam, qorxu-ürkü yaradır.

Atar baxdı, domba gözlər oynadı,
Ürəyində açıq coşub qaynadı,
Çapdı birdən Tunqər üstə o atı,
Səsləns inam, qorxu-ürkü yaradır.

-Elçiçəyə qara yaxma! O deyir,
Eldən başqa o heç kəsi sevməyir,
Bu ovlaqlar onunkudur, çap geri!

Səsləndi inam, qorxu-ürkü yaradır.

Qılıncların şaqqıtısı qopanda,
Bir-birinin üstə ərlər çapanda,
Eldəbir də daşı qoyub sapanda,
Gələnlərin üstlərinə atanda
Tunqər vurdu, Atar aşdı atından,
Bir səs gəldi sanki bulud qatından,:
-Eldəbirəm, Sarıqaya ardında,
Səsləndi inam, qorxu-ürkü yaradır.

-Sən kimsənsə, qılıncını at yerə.
Çox özünü oxşadırsan Tunqərə,
Qoyma sənə sapand daşı göndərəm,
Səsləndi inam, qorxu-ürkü yaradır.

-Mən Tunqərəm, minminbaşı, minbaşa,
-Mən Eldəbir, sənin ana qardaşın.
-Onda gəlin bir-birizlə barışın.
Səsləndi inam, qorxu-ürkü yaradır.

Görüşdülər Tunqər ilə Eldəbir,
Tanrı gülür görüşəndə yaxınlar.
Ordan-burdan deyib soraq tutdular,
Tanrı gülür görüşəndə yaxınlar.

Elçiçəyin ilk sevgisi dəbərir,
O görəndə dağ gövdəli Tunqəri.
Ürəyində yeni sevgi göyərir
Tanrı gülür görüşəndə yaxınlar.

Baş əyirlər Elçiçəyə birbəbir,
Tunqər, Balaşq, Atar, bir də Eldəbir,
Tanrı özü sevgi payı göndərib
Uğureli toy yerinə döndərib,
Tanrı gülür tapışanda yaxınlar.

Tunqər baxır qıza gözlər alışır,
Elçiçəyin baxışları sayrışır.
İki ürək bir sevgidə tapışar,
Tanrı gülür görüşəndə yaxınlar.

O sevinir, bu uğunur, sevincək,
Sözlər incə, baxış incə, bel incə,

Hamı baxır Tunqər ilə Yerincə,
Tanrı gülür öpüşəndə yaxınlar.

Qız itirir sanki bir az özünü,
O çəkməyir Tunqdan bir an gözünü,
Bu görüşdən tükənərkən dözümü,
Çəkinməyib açıq deyir sözünü,
Tanrı gülür sevişəndə yaxınlar.

Birdən deyir o utana-utana:
-Sən necə də oxşayırsan atana,
Ərənlikdə bənzəyirsən anana.
Tanrı gülür sevişəndə yaxınlar.

Tunqər deyir: -Mənim sevgim tükənməz,
Dağ püskürər, sönər gedər, Tunq sönməz,
Tanrı dönsə Elçiçəkdən o dönməz,
Tanrı gülür sevişəndə yaxınlar.
Mən buraya sənin üçün gəlmişəm,
Ürəyimə səni yaxın bilmişəm,
Hələ səni görməmişdən sevmişəm,
Tanrı gülür sevişəndə yaxınlar.

***

Çox çəkinmə, ana sevgi, şəngül ol,
Sevgi yaşa, işə, gücə baxmayır.
Yaşlı olsa bir-birini sevənlər,
Sevgi yaşa, işə gücə baxmayır.

Tunqər Yerinc bir-birinə vuruldu,
Gözlərinin güzgüləri duruldu,
İçlərində “neynim” sözü qırıldı,
Sevgi yaşa, işə gücə baxmayır.

Onlar atla tez-tez ova çıxdılar,
Bulaq kimi sızıb, çay tək axdılar,
Gün tək çıxıb, bulud kimi yağdılar,
Qoltuq dolu çöl çiçəyi yığdılar,
Düzə enib yenə dağa qalxdılar,
Sevgi yaşa, işə, gücə baxmayır.

Hərdən maral, ceyran, cüyür gördülər,
Qurdla, tülkü, ayı, qaplan gördülər,
Meşələrdən alma, armurd dərdilər,
Sevgi yaşa, işə, gücə baxmayır.

Atar baxdı, acığından qıvrıldı,
Tunqa qarşı acıqana çevrildi,
Hər baxanda bir də öldü, dirildi,
Sevənləri izləməkdən yoruldu,
Sevgi yaşa, işə, gücə baxmayır.

Bir gün güddü, qulağını şəklədi,
Tunqu ovda yavaşcadan təklədi,
Busqu qurdu, ordan başın diklədi,
Sevgi yaşa, işə, gücə baxmayır.

Oxu qoydu, yayı çəkdi, buraxdı,
Qorxusundan bir az çaşdı, karıxdı,
Ox dəymədi, atar lapdan duruxdu,
Sevgi yaşa, işə, gücə baxmayır.

Tunqər döndü, çapdı ona çaparı,
Qılınc vurdu, yerə sərdi Atarı,
Yüzbaşını qan götürüb apardı,
Sevgi yaşa, işə gücə baxmayır.

Tunqər dedi:-Daldan vurma iyidi,
Bir də ovu, acıqanı at, iti,
Sən kiminin gövdəsində ox bitir,
Mənim isə bu qılıncım çox iti,
Get özünü Yerincevə tez yetir,
Sevgi yaşa, işə, gücə baxmayır.

***

Atar öldü, başsız qaldı var-yoxu,
Başa çatmır var, yer güdən sevgilər.
Atar üçün ağı dedi Elçiçək,
Başa çatmır var, yer güdən sevgilər.

Sevgililər qırx gün qaldı küsülü,
Ayrılıban görüşləri kəsilir,
Sevgilər var el obadan asılı,
Kəbinləri öncə göydə kəsilir,
Başa çatmır var, yer güdən sevgilər.

Ağı yeri, alaçıqlar yığıldı,
O ayrılıq, küsülülük dağıldı,
Sevgiləri sanki bir də doğuldu,

Başa çatmır var, yer güdən sevgilər.

Yenə ovlar, alaçıqlar, aullar.
Gəldi yola ayrı düşən o yollar,
Ova getdi sevgililər, oğullar,
Başa çatmır var, yer güdən sevgilər.

Hindellə Uğurel Söyləncі

Sevgililər dağda, düzdə ovdaydı,
Hər bir şeyi kəsi vermə sevgiyə.
Yerincyeri özbaşına qalmışdı,
Hər bir şeyi kəsi vermə sevgiyə.

Hindel Turqun yer-yurdunu nə bildi,
Yaraqlısı Uğurelə təpildi,
Ac qurd kimi kənd-kənd evə səpildi,
Hər bir şeyi kəsi etmə sevgiyə.

Basmarlayıb dağıtdılar, soydular,
Yeyib, içib gərnəşməkdən doydular,
Özlərini basar-kəsər saydılar,
Hər bir şeyi kəsi vermə sevgiyə.

Tunqər dedi: -Yerinc, Balaşq, Eldəbir,
Uğureldə qan tökülür,var gedir,
Özünüzü qancıllara yetirin,
Vurun, yıxın, işlərini bitirin,
Hər bir şeyi kəsi etmə sevgiyə.

Qalxdı böyük Mindiyarın başrağı,
Turqər böyük Uğurelin dayağı,
Qaldırdılar yuxarıya başrağı.
Axdı körpə göz yaşının bulağı,
Yandırdılar dağ başında ocağı,
Yöndəm oldu döyüş,vuruş sınağı,
Hər bir şeyi kəsi etmə sevgiyə.

Tunqər göydə qılıncını hərlədir,
Topbuzunu, biucunu fırladır,
Dağ titrədən gur səsini gurladır,
Hər bir şeyi kəsi etmə sevgiyə.

***

Tunqun döyüş səsləncləri gurladı,
Basar olur böyük inam yiyəsi,

Oxlar gəlir Tunqərdən yan sovuşur,
Basar olur böyük inanc yiyəsi.
Yürüşdədir yüz min atlı, yaraqlı,
Əyinlərdə tunc toxunma sırıqlı,
Hamısı da tüklü, dəri papaqlı.
Hindellinin alt geyimi balaqlı,
Çoxu çılpaq, çoxu yalın ayaqlı,
Gələn görüb Tunqu, qollu-budaqlı,
Yox oldular sanki əlli-ayaqlı,
Basar olur böyük inam yiyəsi.

Oxlar gəlir Tunqərdən yan sovuşur,
İki toplum bir-birinə qarışır,
Minellilər hindellilər qarpışır,
Dəli kimi bir-birinə sarmaşır,
Tunqər qılınc, topbuz ilə savaşır,
Basar olur böyük inam yiyəsi.

Birdən birə bir səs gəlir yovuqdan,
Başçı olmaz hər bir qorma-qoduqdan,
Öc alaram Tunq deyilən yoluqdan,
Kumar, Daryaş qalıb orda tutuqda,
Tutuq kimi onlar durub qulluqda,
Basar olur böyük inam yiyəsi.

Tunqər dedi:-Sən də tutuq düşərsən,
Qumu, yeri burnun ilə eşərsən,
Ac-acına su içməkdən şişərsən,
Gün altında ağnayarsan, bişərsən.
Basar olur böyük inam yiyəsi.

Minbaşılar bir-birilə üzləşir,
Vuruşaraq söyüşləşir sözləşir,
Eniş, yoxuş ayaq altda düzləşir,
Basar olur böyük inam yiyəsi

Yelləndirir Başrağını Mindiyar,
Ağızlaşır göydə iti qılınclar,
Al boyanır qanlı yerdə nə ki var,
Yara üstdən gəlir yeni yaralar,
Yaralıdır hər yaraqlı, hər çapar,
Basar olur böyük inam yiyəsi.

***

Yaralanır, düşür Balaşq, Eldəbir,
Qanlı döyüş durum, dözüm istəyir.

Hindellilər bu döyüşdən qaçırlar
Qanlı döyüş durum, dözüm istəyir.

Bizuc olur hər ölənin baş daşı,
Yaralanır bu vuruşda minbaşı,
Enir köksü üzərinə dik başı,
Ağız burun bir-birinə qarışır,
Əl uzadır o,Tunqərdən yapışır,
Qanlı döyüş durum, dözüm istəyir.

Deyir:-Məni, böyük Tunqər öldürmə,
Hindellini mən yazığa güldürmə,
Tutuq elə, ancaq bunu bildirmə,
Qanlı döyüş durum, dözüm istəyir.

Tunqər deyir:- Burax məni, çök yerə,
Yoxsa qanın sovrulacaq göylərə,
Qancıl gərək ayaq altda gəbərə,
Qanlı döyüş durum, dözüm istəyir.

Kumar səndən dözümlüdür döyüşdə,
Duydum bunu mən Parseldə döyüşdə,
Onun kimi sən də çəkin bu işdən,
Qanlı döyüş dözüm, durum istəyir.

Döyüş çəkdi burda üç gün, üç gecə,
Uğurelə Tunqər, Basar dönüncə
Eşitdi ki, ox dəyibdir Yerincə,
Qanlı döyüş dözüm,durum istəyir.

Tunqər tapdı Elçiçəyi yataqda,
Uzanmışdı tunc geyimdə yataqda,
Öpüş aldı o, saralmış yanaqdan,
Qanlı döyüş dözüm, durum istəyir.

Dedi:-Gözəl, keçib gedər yaralar,
Ancaq qoyma mən sevgidən saralam,
Toy çaldırıb mən də səni alaram,
Qanlı döyüş dözüm, durum istəyir.

Yerinc dedi:-Anam bilsə yaxşıdır,
Alçiçəkdir, toy-düyünə qarşıdır,
Turq yox olub, onun gözü yaşlıdır,
Qanlı döyüş dözüm, durum istəyir.

Tunqər bir az yığışdırdı özünü,
Söyləmədi daha o, toy sözünü,
Qız önündə yerə qoydu dizini,
Üç yol öpdü Elçiçəyin gözünü,
Qanlı döyüş dözüm, durum istəyir.

***

Turq yox olub, gəlir ildə bir kərə,
Tanrılıqdır üzdə gözdən yayınmaq.
Tanrı ona tanrı dedi, ucaltdı,
Tanrılıqdır üzdə gözdən yayınmaq.

Qocalmışdı əl-ayağı əsirdi,
Hərdən-birdən öz-özündən küsürdü,
Olacaqlar qabağında susurdu,
Tanrılıqdır üzdə gözdən yayınmaq.

Ana Qurdun sonevində görünür,
Görünəndə çöl işıga bürünür,
Qurdlar, atlar dörd yanında sürünür,
Tanrılıqdır üzdə gözdən yayınmaq.

Turqız, Yanqu, Odərboydan, Alçiçək,
Bu yerlərə o baş vurur təkbətək,
Bu yerlərdə nə güıərdir,nə kövrək,
Tanrılıqdır üzdə gözdən yayınmaq.

Hərdən-birdən Odərpayı səsləyir,
O, səsini səslilərdən gizlədir,
Öz içində bir susqunluq bəsləyir,
Tanrılıqdır üzdə gözdən yayınmaq.
Alçiçəyin kəsik qalmış tay qolu,
O gözlərdə, gilələrdə yaş dolu,
Bunlar Turqun üz-gözündə duyulur,
Tanrılıqdır üzdə gözdən yayınmaq.

Tunqun toyu, yurd, elatlar çox oldu,
On gün çəkdi, çoxluq, bolluq ağ oldu,
Turq göründü, sonra lapdan yox oldu,
Tanrılıqdır bunca gözdən yayınmaq.

Toya gəldi az oturdu Alçiçək,
Alçiçək yox, gözü dolu ağbiçək,
Bu yaşda da o çevikdir, o göyçək,

Tanrılıqdır bunca gözdən yayınmaq.

Toyda Tunqər bir şahsayaq geyimdə,
Sərtüz sayaq bir sallanma çiynində,
Duru daşlar parıldayır əynində,
Tanrılıqdır bunca gözdən yayınmaq.

Dəyişmişdi çöl üzünü Mindiyar,
Lovğalıydı toyda qonaq olanlar,
Deyinirdi hər gün toydan qalanlar,
Çoxalmışdı lovğalıqlar, yalanlar,
Tanrılıqdır bunca gözdən yayınmaq.

XX QAPI
Daryaş Balaşq söyləncisi

Parsel birdən qalxdı, durdu ayağa,
Yerinc yıxır, şah devirir el gücü.
Daryaş, Kumar sıralardan qovuldu,
Yerinc yıxır, şah devirir el gücü.

Vergi, bir də ölkələnmək istəyi,
Yoxsa boldur əti, suyu, çörəyi,
Kimdir bu yol tərpənişin dirəyi,
Yerinc yıxır, şah devirir el gücü.

At səyirtdi üç gün Tunqər durmadan,
Balaşq burdan, Eldəbir də o yandan,
Çəkil çiskin, çəkil bulud, sıx duman,
Yerinc yıxır, şah devirir el gücü.

Beş yüz atlı gecə çatdı Parselə,
Çuqçular da qayıtmışdı bir belə,
Qız toplumu yayılmışdı hər yerə,
Yerinc yıxır, şah devirir el gücü.

Yerincevi çevirdilər dustağa,
Çuqçubaşı əl atmadan yarağa,
Yerincevdən durdu getdi qırağa,
Yerinc yıxır, şah devirir el gücü.

Darvidel də qoşulmuşdu Parselə,
Vergi sözü bir də düşdü hər dilə,
Boz başraqdır döngələrdə yüksələn,
Yerinc yıxır, şah devirir el gücü.

Ağüzərin gəlib çatır çaparı,
Deyir,Tunqər, atan səni axtarır,
Deyir, ad qoy ora Parsel diyarı,
Yerinc yıxır, şah devirir el gücü.

Deyir, özü durub gəlsin bu yana,
Hayan yeydir qoy getsinlər o yana,
Görək gedir Parseldiyar hayana,
Yerinc yıxır, şah devirir el gücü.

Hamı susur, baxır Tunqa dolayı,
Tunqər isə yeni bir yol arayır,
O çağırır yaraqlanan alayı,
Yerinc yıxır, şah devirir el gücü.

Tunqər deyir:- Hamı evə çəkilsin,
"Ək" çağıdır, arpa, buğda əkilsin,
Parsdiyarda yeni evlər tikilsin,
Yerinc yıxır, şah devirir el gücü.
Mən Balaşqam, Balasqeldən gəlmişəm
Çevik olur ordan, burdan gələnlər.
Mən Parseli dönmə, qancıl sayıram,
Çevik olur ordan, burdan gələnlər.

-Mən Daryaşam, ölməmişəm acından,
Beş yol ölüb dirilmişəm azından,
Doğulmuşam Parseldiyar qızından,
Çevik olur ordan, burdan gələnlər.

-Mən Balaşqam, Tunqam, Turqun oğluyam,
Minel Turan, Mındiyara bağlıyam,
Pars önündə çətin çökəm, laxlayam,
Çevik olur ordan, burdan gələnlər.

-Mən Daryaşam, el demişəm çöllərə,
Basılmışam Turqa azı dörd kərə,
Elim ilə dilim düşüb dillərə,
Çevik olur ordan, burdan gələnlər.

-Mən Balaşqam, beş yüz atlım, yaraqlım,
Tur gözəli, qızı qaymaq dodaqlım,
Çinar boylu ərəm, kövrək budaqlı,
Çevik olur ordan, burdan gələnlər.

-Mən Daryaşam, qovulmuşam Hindeldən,
Yer-yurd saldım, doğmalaşdım Mineldə,
Mən qorxuram ancaq Darvidellidən,
Çevik olur ordan, burdan gələnlər.

Mən Balaşqam, Turqsoy adı almışam,
Gəlib burda mən də yuva salmışam,
Vuruşqanlar içrə ərən olmuşam,
Çevik olur ordan, burdan gələnlər.

Mən Daryaşam, Hindel soyam, sınığam,
Öz yerimdən, öz yurdumdan atığam,
Öz-özümdən, Mindiyardan yanığam,
Çevik olur ordan, burdan gələnlər.

Mən Turqsoyam, mən Tursoyam yenilməz,
Özgə eldən gələn burda sevilməz,
Yurd atana burda kişi deyilməz
Çevik olur ordan, burdan gələnlər.

-Mən Parssoyam, burda uğur tapmışam,
İlk yurdumdan qovulmuşam, sapmışam,
Bu yerləri Mindiyardan qapmışam,
Çevik olur ordan, burdan gələnlər.

***

Üzləşmələr, deyinmələr, küsüllər,
Deyinəndə güləşçilər üzülər.
Balaşq, Daryaş özlərini öyürdü.
Deyinəndə güləşçilər üzülər.

Güləşçilər ağızlaşıb durdular.
Deyinərək özlərini yordular,
Olan qalan bağları da qırdılar,
Deyinəndə güləşçilər üzülər.

Tunqər dedi:-İndi durun, güləşin,
Bu yer-yurdun torpağına bələşin,
Basıq olsaz, basar olsaz birləşin,
Deyinəndə güləşçilər üzülər.

Balaşq, Daryaş iki qaplan,iki kəl,
Qurşaqlaşıb güləşdilər əlbəəl,
Dildən düşdü çox acılıq, çox əngəl,
Deyinəndə güləşçilər üzülər.

Qollardakı tunc dartımlar çəkildi.
Yerin bağrı, yurdun döşü söküldü,
Köküslərdən tər su kimi töküldü,
Deyinəndə güləşçilər üzülər.

Qıçdan tutma, boyun burma, bel sıxma,
Süpürləşmə, qarmalaşma, qol yığma,
Dizə çöküb eşələnmə, karıxma,
Deyinəndə güləşçilər üzülər.
Ay güləşçi, qıçdan-mıçdan tutdu yox,
Başdan tutdu, baş, qulağı dartdı yox,
"Dincəl" deyib ağzı üstə yatdı yox,
Acıqlanıb birdən əl-qol atdı yox.
Deyinəndə güləşçilər üzülər.

Sıyrılmışdı budlar, dizlər, dirsəklər,
Cırmaqlanmış üzlər, döşlər, göbəklər,
Od alırdı, qor tökürdü bəbəklər,
Deyinəndə güləşçilər üzülər.

Açılmışdı, tökülmüşdü qurşaqlar,
Qurumuşdu susuzluqdan dodaqlar,
Titrəyirdi yorğunluqdan ayaqlar,
Deyinəndə güləşçilər üzülər.

Güləşirdi Parsel ilə Mindiyar,
Güləşdilər, tutaşdılar o ki var,
Nə o basıq oldu, nə də bu basar,
Deyinəndə güləşçilər üzülər.

***

Dağılışıb hamı getdi evinə,
Bicləmədir güc sınamaq, baş qatmaq.
Tunqər bunu öyrənmişdi, bilirdi,
Bicləmədir güc sınamaq, baş qatmaq.

Daryaş dedi:-Bunu belə qoymaram,
Mən güləşə, yağlı dilə uymaram,
Qan tökərəm, qan içərəm doymaram,
Bicləmədir güc sınamaq, baş qatmaq.

On min ildir at oynadır Mindiyar,
Bax, mənim də belə oynaq suçum var,
Qoy dəyişsin olacaqlar, olanlar,

Bicləmədir güc sınamaq, baş qatmaq.

Üstün olmaq istəyənə güc gərək,
Dağıtmağa, uçurmağa öc gərək,
Heçdən basar olmaq üçün bic gərək,
Bicləmədir güc sınamaq, baş qatmaq.
-Parsellilər, çox getməyin uzağa,
Hər gün üç yol siz toplaşın ocağa,
Yiyələnin bicləməyə, yarağa,
Bicləmədir güc sınamaq, baş qatmaq.

Bundan sonra hamı məni eşitsin,
Ürəyində buzlaq varsa əritsin,
Acığını vuruşmada öyütsün
Bicləmədir güc sınamaq, baş qatmaq.

Ağüz bizə diyar adı veribdir,
O anlaqlı gələcəyi görübdür,
O qocalıb öz kefini sürübdür,
Bicləmədir güc sınamaq, baş qatmaq.

Ata öyüdü söyləncі

Balaşq, Daryaş dayandılar üz-üzə,
Üz-üzəlik gücləndirir başçını.
Turqər getdi Əkbitənə gecəykən,
Üz-üzəlik gücləndirər başçını.

Ağüz toya getməmişdi susurdu,
Minbaşılar başbaşını büsürdü,
Soyuq yellər aralıqda əsirdi,
Üz-üzəlik güc gətirər başçıya.

Tunq sıçraqlı qaynaq, qaynar ər idi,
Onda iri, oynaq qırtlaq var idi,
İşdə, gücdə, vuruşmada qor idi,
Üz-üzəlik güc gətirər başçıya.

***

(On min ildir bu yollardan keçirik
Yol gedənlər yolu, yalı dindirin.
Ata yolu, ana yolu bir olub,
Yol gedənlər, yolu, yalı dindirin.

Tunq “günaydın” səsləndirdi dağ,düzə,

İki “sağol” dedi gecə gündüzə,
Əkbitəndə o baş əydi ağüzə,
Yol gedənlər yolu, yalı dindirin.
Dedi: -Ata, bir də məni bağışla,
Məni nə öy, nə döy, nə də alqışla,
Yağsın Parsel üzərinə qarğışlar,
Yol gedənlər, yolu, yalı dindirin.

Diyar adı verdin ona çəkinmə,
Görək necə dolanırlar əkinlə,
Parsel bizə yapıq deyil kəbinlə,
Yol gedənlər, yolu, yalı dindirin.

***

-Ata, elə sən deyənlər doğrudur,
Keçmiş soydur gələcəyi görənlər.
Mindiyarsız Parsel boşdur, maraqsız,
Keçmiş soydur gələcəyi görənlər.

Ac qalacaq, gedə bilməz səpinə,
Batacaqdır yoxsulluğun dibinə,
Düşəcəkdir çoxlu-çoxlu çətinə,
Keçmiş soydur gələcəyi görənlər.

Yaraqlımız iki mindir orada,
Balaşq gəlib Balasqeldən arada,
Diyar hara, Darvid, Parsel harada,
Keçmiş soydur gələcəyi görənlər.

Ac qalarsa bunu bizdən biləcək,
Tək qalanda o özünə gələcək,
Darvidellə torpaqları böləcək,
Ayıq olaq, sayıq olaq, biz gərək,
Keçmiş soydur gələcəyi görənlər.

Ağüz dedi:-Yaman artıb, dolubsan,
Qancıllardan vergi yox, öc alırsan,
Sən bu gündən Minminbaşı olursan.
Keçmiş soydur gələcəyi görənlər.

Özbaşına olma, belə yaramaz,
Özünə gəl, oğul bala sən bir az,
Sənin əlin altındadır, bil,az-maz,
Uğurellə, Muğel, Çinçay, Buzboğaz,
Keçmiş soydur gələcəyi görənlər.

Tunqər bir az bürmələnib qısıldı.
Yaxşı ata əl çatmayan zirvədir,
Elçiçəklə toy düyündən utandı
Yaxşı ata əl çatmayan zirvədir.

Hər dikbaşlıq yekəbaşlıq gətirər,
El içində ad-sanını itirər,
Azğın edər, düşgünlüyə ötürər,
Yaxşı ata əl çatmayan zirvədir.

Tunq başını lap-lap saldı aşağı,
O belindən açdı ağır yarağı,
Qoydu yerə yazıq-tutuq sayağı,
Yaxşı ata əl çatmayan zirvədir.

Ata durdu öz oğlunu yanladı,
Dedi:-Oğul,yaxşı məni anladın,
Öz içində öz-özünü danladın,
Yaxşı ata əl çatmayan zirvədir.

Götür gəzdir Eldəbiri yanında,
Turqsoyluğun soykökü var qanında,
Utancaqdır, üzü yoxdur onun da,
Üzü qara olub ana yanında,
O ərəndir, ancaq ana donunda,
Yaxşı ata əl çatmayan zirvədir.

Nə edirsən mənə də de, mən bilim,
Pis ayaqda yardımına mən gəlim,
Gərək olsa vuruşaraq lap ölüm,
Yaxşı ata əl çatmayan zirvədir.

Saxla, yedirt üç yol yüz min toplumu,
Məndən, ondan öyrən bunun yolunu,
Daha bunlar sənə uspurd olunur.
Yaxşı ata əl çatmayan zirvədir.

Tunq, Eldəbir Uğurelə çapdılar,
Harda olsa sevgi çəkir sevəni,
Boylu idi gözəl Yerinc Elçiçək,
Harda olsa sevgi çəkir sevəni.
Görüşdülər, sevişdilər, daşdılar,
Sel-su olub dağı-daşı aşdılar,
Dinc günlərin axarında çaşdılar,
Harda olsa sevgi çəkir sevəni.

Ataroğlu Eldəbiri yanladı,
Toyuq kimi qırıq-qırıq banladı,
O,Tunqəri, Elçiçəyi danladı,
Harda olsa sevgi çəkir sevəni.

Ana öyüdü söyləncі

Anasından yuxu gördü Eldəbir,
Ata, ana qoşa tanrı deməkdir.
Dedi “-Oğlum, sən də evlən ata ol”,
Ata, ana qoşa tanrı deməkdir.

“Bir qız vardır, oğlum”-dedi- “mən adda”,
“O yoxsuldur, qoyma onu it-batda,
Get sev onu, qabağında diz qatda,
Ata, ana qoşa tanrı deməkdir.

Dedi : “oğlum, məni axtar, məni an,
Mən buludam, mən çiçəyəm, mən duman,
Yaradıbdır məni belə yaradan,
Ata, ana qoşa tanrı deməkdir.

Duman səni gəzər, tapar, yoxlayar,
Yara alsan bulud onu bağlayar,
Yazıq olsan çiçək sənə ağlayar,
Ata, ana qoşa tanrı deməkdir” .

Oğul dedi: - ana, məni bağışla,
Ana dedi: “Çaysan, selsən, alışqan,
Qoy tutmasın səni sellər, qarğışlar,
Ata, ana qoşa tanrı deməkdir”.

“Ana” deyib o yuxudan ayıldı,
“Ana” deyib o yenidən bayıldı,
Ürəyindən ağrı, acı yuyuldu,
Ata, ana qoşa tanrı deməkdir.
Getdi bunu Dəmirqıza danışdı,
Dəmirqız da bu yuxuya qarışdı,
Gəzib-gəzib bir yoxsuldan yapışdı,
Ata, ana qoşa tanrı deməkdır.

Anasının adındaydı “Qızana” ,
Dedi:-Qızım, kimdir atan, kim anan,
Səni gözəl yaradıbdır yaradan,

Ata, ana qoşa tanrı deməkdir.

Dedi:-Səni sevir mənim qardaşım,
O, hündürboy, çevik, tez-tov, qaraşın,
Yaşayarsız, qocalarsız yanaşı,
Ata, ana qoşa tanrı deməkdir.

Baş əyərək, ağlayaraq gözəl qız,
Dedi:- Sizi tanıyıram, Dəmirqız,
Necə gəlib bu yerləri tapıbsız,
Ata, ana qoşa tanrı deməkdir.

Dedi, mən də inanıram Yerincə,
Öz özümü tapdım sizi görüncə,
Kimsəsizdim, indi kimli, sevincək,
Ata, ana qoşa tanrı deməkdir.

***

Ana bulud, şehli çiçək, ağ duman,
Toy bir evin qurumudur, dib daşı,
Gəl oğlunu, gəlinini toyda gör,
Toy bir evin qurumudur, dib daşı.

Ağüz,Tunqər, Balaşq Muğər toydadır,
Hamı sanki bir görkəmdə, boydadır,
Hamı coşqun hay-harayda, hoydadır,
Toy bir evin qurumudur, dib daşı.

Atlı gəldi Uğurelə Duzdağdan,
Dedi: -Sanki Turqu gördüm ovlaqda,
O, baxırdı toy yerinə uzaqdan,
Toy bir evin qurumudur, dib daşı.
Hamı çıxdı böyük Turqu görməyə,
Tanrısına öz borcunu verməyə,
Turq adına toy çələngi hörməyə,
Toy bir evin qurumudur, dib daşı.

Ahay, Qızay, Eldəbirdən uzaq ol,
Ana bulud, gəl bu toya qonaq ol,
Tanrım, yoxsul sevgilərə dayaq ol,
Toy bir evin qurumudur, dib daşı.

***

Dəmirqızın səsləncləri gurladı,
Səsləncə toya, lova, anda çağırış.

Balasqeldən bir toplu da gəlmişdi,
Səsləmc toya, lova,anda çağırış.

Bu toplum da üz döndərib Balasqdan,
Çox yol gəlib, yaman düşüb ayaqdan,
Tivi kəndi bunları da qonaqla,
Yedirt, içirt, bəslə əski sayaqca,
Səsləmc toya, lova, anda çağırış.

Bu toplumda yaraqlılar basardır,
Bunlar Parsel küsüsünə açardır,
Acıqana qarşı çatlı çapardır,
Səsləmc toya, lova, anda çağırış.

Min yaraqlı Parsdiyira yetişdi,
Balasqlılar birləşərək qatışdı,
Balaşq yenə Daryaş ilə tutaşdı,
Səsləmc toya, lova, anda çağırış.

Daryaş yenə eldə hay-küy yaratdı,
Yeni gəlmiş qonaqlara əl atdı,
Neçəsinin üz-gözünü qanatdı,
Səsləmc toya, lova, anda çağırış.

Balaşq gəldi, itələdi Daryaşı,
Bürmələdi yıxdı yerə dikbaşı,
Başladılar qılınc ilə savaşı,
Səsləmc toya, lova, anda çağırış.
Qılınclaşma ağır oldu, qan-qada,
Daryaş başdan yaralandı arada,
Yüngül yara onu aldı sıradan,
Səsləmc toya, lova, anda çağırış.

Daryaş dedi: -Yaraqlılar çoxalır,
Bəlli deyil bunlar kimdir, haralı,
Gündən günə Parsel bizə daralır,
Biz düşürük bir-birindən aralı,
Səsləmc toya, lova, anda çağırış.

Balaşq dedi: -Parsel olub Parsdiyar,
Parsel demə, bundan sonra söz olar,
“Ölkə, diyar” deyirdiniz, o da var,
Səsləmc toya, lova, anda çağırış.

Vergiləri yığın, qalsın özüzə,

Toxluq gəlsin aclıq çəkən gözüzə,
Yardım edin artıq indi siz bizə,
Səsləns toya, lova, anda çağırış.

Bu vuruşma qaldı belə yarımçıq,
Daryaş sındı, Daryaş hovçu, yalançı,
Güldü ona doğma, yerli, yabançı,
Səsləns toya, lova, anda çağırış.

***

Çökdü, qaldı öz içində Parsdiyar,
Dikbaşlıqla "ölkə, diyar" yaranmaz,
Dilə tutdu üz döndərmiş Kumarı,
Dikbaşlıqla "ölkə, diyar" yaranmaz.

Göydən qar yox, sanki qıtlıq yağırdı,
Mal-qara da tez-tez ölü doğurdu,
Ölkə qurub el saxlamaq ağırdır,
Dikbaşlıqla "ölkə, diyar" yaranmaz.

Balaşq, Kumar, qız toplumu, minbaşı,
Bubirliklər aldı yurdu, dağ-daşı,
Darvidel də Mindiyarla yanaşı,
Dikbaşlıqla "ölkə, diyar" yaranmaz.
Çuqçubaşı Darvideli sınadı,
Gümüşqızın el-obasın qınadı,
Gah ürəyi, gah da gözü qanadı,
Dikbaşlıqla "ölkə, diyar" yaranmaz.

Daryaş idi Darvideli çaşdıran,
Mindiyara qarşı qoyub coşduran,
El-obanı eşələyən, daşdıran,
Dikbaşlıqla "ölkə, diyar" yaranmaz.

Qaratel söyləncі

İlişmişdi ortalıqda Darvidel,
Ortadakı iki yandan döyülür.
Nə durubsan yazıq-yazıq ortada,
Ortadakı iki yandan döyülür.

Çuqçubaşı Darvideli sınadı,
Bu ellərin tərsliyini qınadı,
Qınadıqca könlü, gözü qanadı,
Ortadakı iki yandan döyülür.

Dedi:-Sizi tutaq edib bu Daryaş,
Heç bilinmir nə istəyir bu külbaş,
Hara gedib çıxacaqdır bu savaş,
Ortadakı iki yandan döyülür.

Gümüşqızın kötükçəsi Qaratel,
Qarateli yurd-yurd sevir Darvidel,
Gözəldirsə gözü yaynıq qız deyil,
Ortadakı iki yandan döyülür.

Darvidelə tez-tez gəlir Balaşq da,
Dilə tutur Qarateli yavaşdan,
Toy-düyündən o, söz açır bu yaşda,
Ortadakı iki yandan döyülür.

Deyir:-Mən də Balasqeldən gəlməyəm,
Oraları buralardan bilənəm,
Qoymadılar məni bir yol dillənəm,
Ortadakı iki yandan döyülür.
Qarateli çoxdur sevən bu yaşda,
Onu sevir gizli-gizli Balaşq da,
Qız çoxunu ovsunlayıb göz-qaşla,
Ortadakı iki yandan döyülür.

***

Darvidel də küsülüdür hamıdan,
Çatmazlığa üstün gəlir bacarıq.
Elə bilir onu soyan, qırtan var,
Çatmazlığa üstün gəlir bacarıq.

Balaşq burda çox işlərə qarışır,
Tez-tez gəlib Qaratellə görüşür,
Ondan, bundan Qarateli soruşur,
Çatmazlığa üstün gəlir bacarıq.

Dil tapırlar Balaşq ilə Qaratel,
Qaratelə çox inanır Darvidel,
Burda nə çay, nə axmaz var, nə də göl,
Çatmazlığa üstün gəlir bacarıq.

Bir topluda qız söyləyir ellərə,
Mal-qaramız çıxır otsuz çöllərə,
Daryaş bizi verir quru yellərə,
Çatmazlığa üstün gəlir bacarıq.

Nəyi var ki, bizə verə, yaşayaq,
Əldə paya, bıçaq, kotan, ox, çomaq,
Onlar otdur bu torpaqda, biz alaq,
Çatmazlığa üstün gəlir bacarıq.

Balaşq deyir:-Əkək, biçək, yaradaq,
Şumlamasaq basar yeri ot, alaq,
Ağır gəlir Darvidelə bu qınaq,
Çatmazlığa üstün gəlir bacarıq.

Biri deyir, biz Misirlə birləşək,
Gedək orda sulu yerdə yerləşək,
Misirellə Efiopla elləşək,
Çatmazlığa üstün gəlir bacarıq.
Qarateli yanlayırdı qoçular,
Ovlamağa gəlmişdilər ovçular,
Qoçuları hərləyirdi çuqçular,
Çatmazlığa üstün gəlir bacarıq.

Qaratelin səsi gəldi, danışdı,
İki elin bu günündən yapışdı,
Hay, hay, səs-küy bir-birinə qarışdı,
Çatmazlığa üstün gəlir bacarıq.

Deyinən çox, işləyən az,nə işdir,
Çoxu getdi, yenə gəldi, nə işdi,
Əski, yeni gündə üç yol döyüşdü.
Çatmazlığa üstün gəlır bacarıq.

Sanna-Qaratel söyləncі

Qaratelin səsi incə, çəkimli,
-Hamı gərək borclu bilsin özünü,
Danışırdı çəkinmədən, qorxmadan,
Hamı gərək borclu bilsin özünü.

Gənc olsam da inciməyin sözümdən,
Biz tutuğuq bu çöllüklər düzündə,
Mən heç nəyəm, yükəm mən öz gözümdə,
Hamı gərək borclu bilsin özünü.

Dörd bir yanda gəlin birlik yaradaq,

Ayrı olsaq biz gedərik aradan,
Duraq işdə bir yerdə, bir sırada,
Hamı gərək borclu bilsin özünü.

Balaşq ona vurğun-vurğun dalmışdı,
Gözəlliyə uyub uyuq qalmışdı,
Sevgi ondan ayıqlığı almışdı.
Hamı gərək borclu bilsin özünü.

Qarateli eşidirdi Daryaş da,
O görürdü sevincəkdi Balaşq da,
Doymamışdı öcdən, dava-dalaşdan,
“ İkisi də yox olacaq yavaşca
Ya öldürrəm, ya ölərəm savaşda”,
Hamı gərək borclu bilsin özünü.

Qız onu da oynatmışdı yerindən,
Sancı kimi öc də yeyir ürəyi.
O deyirdi “Mən bu qızı boğaram”,
Sancı kimi öc də yeyir ürəyi.

Bir ay güddü Qarateli, o hər gün,
Öc işinə qurşanmışdı büs-bütün,
Günlərini saymaqdaydı qaragün,
Sancı kimi öc də yeyir ürəyi.

Çıxdı gecə “ölüm” sözü dilində,
Bir torbaydı bir də bir ip əlində,
Bir qılıncla bir balta da belində.
Sancı kimi öc də yeyir ürəyi.

Daryaş çatdı qıza günəş batanda,
Boğazına daldan ipi salanda
Dedi:-Yazıq, ta sağollaş ananla,
Sancı kimi öc də yeyir ürəyi

Onda kimsə onu daldan girlədi,
Qaranlıqda iti qılınc hərlədi,
O, Daryaşı alıb göydə hərlədi,
Qılınc onun başı üstə parladı,
Birdən qızın boğuq səsi gurladı,
Sancı kimi öc də yeyir ürəyi.

Balaşq idi, dedi:-Qanlı qaraça,
Mən güdürdüm çoxdan səni, adamcıl,

Niyə qızı öldürürsən, a qancıl,
Dar gözləri qanla dolu yabançı,
Dedigilə düz gəlməyən yalançı,
Sancı kimi öc də yeyir ürəyi.
Yaralandı Daryaş, düşdü torpağa,
Sonra durdu, qaçdı ordan uzağa,
Qorxusundan əl atmadı yarağa,
Sancı kimi öc də yeyir ürəyi.

***

Dağ başında günəş batdı, tutuldu,
Günəş görür çox işləri ucadan.
Daryaş, Balaşq, iplə torba, Qaratel,
Günəş görür çox işləri ucadan.

Qaratelin boğazında ip yeri,
O gəzirdi Balaşq ilə elləri,
Yuva qurub ev etmişdi çölləri,
Günəş görür çox işləri ucadan.

Öyrənirdi ox atmağı Balaşqdan,
Qılınc vurmaq bacarığı savaşda,
Yaşamağı meşəlikdə, dağ-daşda,
Günəş görür çox işləri ucadan.

İstəyirdi acıqandan öc ala,
İstəyirdi dağdan-daşdan güc ala,
O, köçlərə qoşularaq köç ola,
Günəş görür çox işləri ucadan.

İstəyirdi ox-yay kimi dartıla,
Döyüşlərə, yürüşlərə atıla,
Qız toplumu sırasına qatıla,
Günəş görür çox işləri ucadan.

***

Toplum yığdı Daryaş Parseldiyarda,
Gücün artar, öz gücünə inansan.
Hindel, Balasq ona yardım elədi,
Gücün artar, öz gücünə inansan.

Yaraq verdi, öyrənc verdi qonşular,
Dedilər ki, çöksün böyük Mindiyar,
Mindiyara qarşı dursun Parsdiyar,
Gücün artar, öz gücünə inansan.

Daryaş dedi:-Əkbitəni tutaram,
Darvideli Parsdiyara qataram,
Sak dağına yürüş edib çataram,
Gücün artar, öz gücünə inansan.

Daryaş dedi:-Mənim olar Əkbitən,
Mindiyarı oynadaram yerindən,
Ona son ev qazdıraram dərində,
Gücün artar, öz gücünə inansan.

Mən Daryaşam, Əlvənd boyda öcüm var,
Toplumum var, yenilməyən gücüm var,
Minə qədər yaraqlanmış gəncim var,
Gücün artar, öz gücünə inansan.

Soraq aldı bir basırıq görüşdə,
Tunqər öndə gözlənilən yürüşdən,
Çatdı ona sonra yazı-yetişmə,
Gücün artar, öz gücünə inansan.

Yazı yazdı:-"Mən gələnə Çuqçular
Basıb alsın Daryaşərdə nə ki var,
Öcdən, gücdən uzaqlaşsın Parsdiyar,"
Gücün artar, öz gücünə inansan.

Ağüz dedi:-Oğlum doğru buyurur,
Yığışdırın iki yanlı oyunu,
Uca tutun Minel, Parsel soyunu,
Verin ağzıəyrilərin payını,
Çox azaldın yaraqlının sayını,
Gücün artar, öz gücünə inansan.

Yerinc yerə çatdı yazı-yetişmə,
Başlamışdı onda yeni tutaşma,
Neçə yerdə qızışmışdı vuruşma,
Burda barışmaydı, orda alışma,
Gücün artar, öz gücünə inansan.

***

Çuqçubaşı Daryaş ilə üz-üzə,
Gülümsəyib öc baxmaqda qıraqdan.
Çuqçubaşı yaralıydı, çökürdü,
Gülümsəyib öc baxmaqda qıraqdan.

Çuqçuların çatmaqdaydı sonları,
Daryaş vurub aşırırdı onları,
Geyimlərə hopmaqdaydı qanları,
Gülümsəyib öc baxmaqda qıraqdan.

Bir qız səsi eşidildi yaxında,
Bir atlıydı, qu lələyi alnında,
At çapırdı Kumar onun yanında,
Gülümsəyib öc baxmaqda qıraqdan.

Qanlı qılınc sağa, sola enirdi,
Daryaşlılar geri-dala dönürdü,
Yıxılanlar haray çəkib sönürdü,
Gülümsəyib öc baxmaqda qıraqdan.

Qız deyirdi:-Mən Sannayam, onbaşı,
Axtarıram iki üzlü Daryaşı,
O bit kimi, Parsdiyara daraşıb,
Gülümsəyib öc baxmaqda qıraqdan.

Daryaş atı çapdı, çıxdı qabağa,
Hər ikisi əl atdılar yarağa,
Daryaş döndü qorxusundan yaltağa,
Dedi:-Qurban gözə, qaşa, yanağa,
Mən dönərəm yolun üstə alağa,
Gülümsəyib öc baxmaqda qıraqdan.

Qılınc endi, Daryaş yerə oturdu,
Bir də endi, tunc qalxanı batırdı,
Bir də vurdu, onu yerə yatırtdı,
Gülümsəyib öc baxmaqda qıraqdan.

-Sanna, səni tanıyıram, yaraqlı,
Sanna deyil, Qaratelsən, acıqlı,
Acıqlısan, ancaq yenə yapıqlı,
Həm gözəlsən, döyüşçüsən, qılıqlı,
Gülümsəyib öc baxmaqda qıraqdan.

Qız toplumu gəlib girdi araya,
Kəsərlidir qız hikkəsi, qız ərki,
Keçdiyi yer yaralıyla qalandı,
Kəsərlidir qız hikkəsi, qız ərki.

Birləşmişdi iti qılınc, incə səs,
Acıqana oxdur sanki bircə səs,

Göyərçin səs, qartal, bayquş, sərçə səs,
Kəsərlidir qız hikkəsi, qız ərki.

Qızlar çatıb birləşdilər Sannaya,
Bənzəmirdi onlar daha sonaya,
Bənzəmirdı toplum-toplum durnaya,
Bənzəyirdı qan-qan deyən anaya,
Kəsərlidir qız hikkəsi, qız ərki.

Balaşq, Kumar güc artırdı onlara,
Əllər, üzlər incə, ancaq qap-qara,
Qızlar qaplan doğumudur diyara,
Kəsərlidir qız hikkəsi, qız ərki.

Daryaş qalxdı, o əl atdı qılınca,
Çapdı getdi o, Sannanın dalınca,
Gəzdi onu vuruşmalar boyunca,
Kəsərlidir qız hikkəsi, qız ərki.

Çatdı ona, bizuc atdı arxadan,
“Öc alıram bu gün”-dedi Sannadan.
Qız qıvrıldı belindəki yaradan,
Kəsərlidir qız hikkəsi, qız ərki.

Balaşq dedi:-Alçaq, yenə durubsan,
Qızı gəlib sən arxadan vurubsan,
Hələ gəlib burda ölkə qurursan,
Kəsərlidir qız hikkəsi, qız ərki.
Bunu deyib o, Daryaşı izlədi,
Bir də onu döyüşməyə səslədi,
Sonra durdu, o Sannanı gözlədi,
Kəsərlidir qız hikkəsi, qız ərki.

Yaralı qız döyüşürdü yenə də,
Birdən durub valayladı yerində,
Çatdı Balaşq ona bunu görəndə.
Kəsərlidir qız hikkəsi, qız ərki.

***

Tunqər gəldi Eldəbirlə, toplumla,
Vuruşmadan sonra barış olmalı.
Yerinc gəlib öz yerini görməyə,
Vuruşmadan sonra barış olmalı.

Daryaş yoxdur boğazından yapışsın,

Ağsaqqallar yoxdur gedib barışsın,
İşlər bitib, hansı işə qarışsın,
Kimsə yoxdur ondan bir söz soruşsun,
Vuruşmadan sonra barış olmalı.

Soraq çatdı bütün tanış-bilişə,
Çuqçu, Balaşq, Kumar gəldi görüşə,
Dedi:-Öncə kim başladı döyüşə?
Vuruşmadan sonra barış olmalı.

Daryaş,Balaşq,Kumar,Sanna-dedilər,
-Hər iki el batdı qana, -dedilər,
Olmuşları açıb ona dedilər,
Vuruşmadan sonra barış olmalı.

Tunqər dedi:-Sanna kimdir,nəçidir,
Balaşq dedi:-Darvidelin gəncidir,
İşdə işlək, sözdə ölçü-biçidir,
İnanılmış söykənəcək, elçidir,
Vuruşmadan sonra barış olmalı.

-Bir adı da Qarateldir, vuruşqan,
Sözdə ötkəm, döyüşlərdə alışqan,
İşdə-gücdə, zəmilərdə çalışqan,
Vuruşmadan sonra barış olmalı.

Tunqər dedi:-Yerinc qoysaq, necədir?
Deyirsiniz döyüşkəndir, nərçədir.
-Bu, onunçun ağır olar, incədir.
Vuruşmadan sonra barış olmalı.

Balaşq, Kumar bu deyimi bəyəndi,
Döyüşkən qız Sanna ilə öyündü,
İkisi də bir ürəkdən sivindi,
Vuruşmadan sonra barış olmalı.

Sannanın qaçırılması söyləncі

Dolanışı başa düşmək olmayır,
Çox qışqırıb, səsi batıb torpağın.
Göy gurlayır, şimşək çaxır arabir,
Çox qışqırıb, səsi batıb torpağın.

Yerin səsi gedib göyə çatmayır,

Bulud daha yerə qaş-göz atmayır,
Ay yatsa da hərdən, günəş yatmayır,
Çox qışqırıb, səsi batıb torpağın.

On min ildir Tur,Bax köçüb gediblər,
Torpaq olub dolanışda, itiblər,
Çiçək olub yerdə, suda bitiblər,
Çox qışqırıb, səsi batıb torpağın.

Gücər hanı, Bacar hanı, Qayaquş,
Fırlan-fırlan yeniləşir quruluş,
Dayanışla, yaranışla, dolanış.
Çox qışqırıb, səsi batıb torpağın.

Dəyişməyən bir sevgidir, bir tanrı,
Dəyişməyən iri göllər axarı,
Dəyişməyən böyük turqlar diyarı,
Dolan-dolan kim nə sayaq bacarır.
Çox qışqırıb, səsi batıb torpağın.
Tanrı bilir Sərtüz bir yox, ikidir,
Onun yolu tanrılara sevgidir,
Yazıları yaranışa vergidir,
Hamı onla pis işlərin tərgidib,
O, tanrılar elçisinin ilkidir,
Öyüdləri, inanışı bərkidib,
Çox qışqırıb, səsi batıb torpağın.

***

Tunq düşünür, sanki görür bunları,
Bir-birindən güclü gəlir gələnlər.
Balaşq kimdir, Kumar kimdir, Sanna kim,
Bir-birindən güclü gəlir gələnlər.

O söyləyir, gedin deyin yerincə,
Sanna qorxur göstərişi biləndə,
Yaralıdır, ağrı çəkir, gəlincə...
Çıxır evdən, düşür yeni gilincə,
Bir-birindən güclü gəlir gələnlər.
Ad-san qoyur, yol-yurd qoyur gedənlər.

Kimsə daldan torba salır başına,
Çəkir onu atın yəhər qaşına,
Atlı çapır, dönür Humay quşuna,
Bir-birindən güclü gəlir gələnlər,
Ad-san qoyur, yer-yurd qoyur gedənlər.

Nə səs-səmir, nə qışqırıq, nə görən,
Kimdir belə qız qaçıran bu ərən,
Kimdir belə at səyirdən, at sürən,
Bir-birindən güclü gəlir gələnlər,
Ad-san qoyur, yer-yurd qoyur gedənlər.

Sanna dedi:-Burax məni, yaramaz!
Gətirdiyin bu, xurcundur, ya palaz?
Səni yaxşı tanıyıram, dap-dayaz,
Bir-birindən güclü gəlir gələnlər,
Ad-san qoyur, yol-yurd qoyur gedənlər.

Sən Daryaşsan, o gün qaçdın döyüşdən,
Yalançısan, qaçarısan hər işdə,
Üz döndərdin Tunqər qoyan gedişdən,
Bir-birindən güclü gəlir gələnlər,
Ad-san qoyur, yol-yurd qoyur gedənlər.

-Düz tapıbsan, mən Daryaşam, gözəlim,
Deyən sənlə işlərimiz düzəlir,
Ancaq gərək çətinliyə dözəlim,
Bir-birindən güclü gəlir gələnlər.
Ad-san qoyur, yol-yurd qoyur gedənlər.

Bizi Balasq atlıları gözləyir,
Arxadan da yaraqlılar izləyir,
Balasqel də Mindiyarı pisləyir,
Bir-birindn güclü gəlir gələnlər,
Ad-san qoyur, yol-yurd qoyur gedənlər.

-Yenə niyə sən çıxıbsan özündən,
Burax məni, itil mənim gözümdən,
Qışqıraram, tanıyarlar səsimdən,
Bir-birindən güclü gəlir gələnlər,
Ad-san qoyur, yol-yurd qoyur gedənlər.

-Balasqelin atlıları qabaqda,
Parsel uzaq, uzaq səsdən, soraqdan,
Əl ataraq Sanna tutur yaraqdan,
Bir-birindən güclü gəlir gələnlər,
Ad-san qoyur, yol-yurd qoyur gedənlər.

***

Tunqər deyir:-Sanna niyə gəlmədi?

Hamı hər gün nəyi isə gözləyir.
Görünür ki bir iş gəlib başına,
Hamı hər gün nəyi isə gözləyir.

Gecə düşür, Balaşq gedir qayıtmır,
Öyüd-möyüd, bunlar Turqu ovutmur,
Açıqlıdır, söz-möz onu soyutmur,
Hamı hər gün nəyi isə gözləyir.
Günçıxmadan Tunqər çıxır ovlağa,
O uzanır ala-yaşıl otlağa,
Göz gəzdirir dörd-bir yana, qoruğa,
Söz ataraq yoldan keçən qonağa,
-Hardan belə -deyir- bizim torpağa,
Hamı hər gün nəyi isə gözləyir.

-Gəlirəm ki, qucum doğma yerimi,
Ancaq yolda aparırlar birini,
Sürütdəyə-sürütdəyə ərini,
Ağlar qoyur qızı belə görəni,
Balasqsayaq dindirirlər hərəni,
Hamı hər gün kimi isə gözləyir.

Tunqər deyir:-Bu Balaşqdır,Sannadır,
Köçün üzü deyən Balasq yanadır,
Söylə, qardaş, bu yol üzü haradır,
Hamı hər gün nəyi isə gözləyir.

-Balasqeldir, bax, görünür uzaqdan,
Tunqər qalxır, tutur iti yaraqdan,
Çil-çil atla birdən qopur torpaqdan,
Azqınları yaxalayır cınahdan,
Hamı hər gün nəyi isə gözləyir.

Deyir:-Durun, tutuqları buraxın,
Qoyun yerə əlizdəki yarağı,
“Yox” deyənin kəsiləcək qırtlağı,
Hamı hər gün nəyi isə gözləyir.

Balasqelli yaraqlılar yeddi yüz,
Tunqərinsə ovçuları yüz əlli,
Sıralanıb dayanırlar üz-bəüz,
Hamı hər gün nəyi isə gözləyir.

Balaşq, Sanna yara içrə tanınmaz,
Kimlikləri, ad-sanları anılmaz,

Azqınlarsa quldurlardır, danılmaz,
Bunca yaxın tanış-tunuş yanılmaz,
Hamı hər gün nəyi isə gözləyir.

***

Tunqər deyir:-Buraxınız yerınci,
Başçılara yaraşmayır oğurluq,
Kimdir burda oğrubaşı, söyləyin,
Başçılara yaraşmayır oğurluq.

Tunqər deyir:- Ahay, yeygin, qarıncıl,
Burax tutuq apardığın yerinci,
Ya da dad bu qoşaağız qılıncı,
Başçılara yaraşmayır oğurluq.

Tunqər deyir:- Kəs, qır batman qılıncım,
Bu toplumdan qalsın ancaq sonuncu,
Yaralılar yerdə yalın, yarımçıq,
Başçılara yaraşmayır oğurluq,

Qoşaağız qılınc kəsir, doğrayır,
Eldəbirlə Kumar ara saxlayıb,
Oxu, yayı, bizucları yoxlayır,
Yüzbaşının yekə başı laxlayır,
Bir qılıncla yerə düşür, ağnayır,
Daryaş yenə basıqlığa uğrayır,
Başçılara yaraşmayır oğurluq.

Sanna dedi:- Mənim işim qarışdı,
Mən gəlirdim, yolda yolum dolaşdı,
Burda duran örtüküzlü Daryaşdı,
Daryaş gəlib daldan məndən yapışdı,
O, başıma palaz-xurcun atmışdı,
Tunqər, gəlib yaxşı bizə yanaşdın.
Tunqər, Daryaş durdu qarşı-qarşıya,
-Mən qancılam -dedi- Minminbaşıya,
Odur yardım gəlir Parsel qonşuya,
Başçılara yaraşmayır oğurluq.

Bunu deyib o,Turqərdən yapışdı,
Qılınc, bizuc, topbuz ilə çarpışdı,
Sonra onla yaxalaşdı, dartışdı,

Soyunaraq, güləşərək qarpışdı,
Qan, tər, palçıq bir-birinə qarışdı,
Nəsə gücü onun qat-qat artmışdı.

Yeni toplum gəlib artıq çatmışdı,
Başçılara yaraşmayır oğurluq.

Tunqər, Sanna, Kumar, Balaşq, Eldəbir,
Görək kimlər görək kimə güc gəlir,
Ancaq Balasq atlıları çox ölür,
Başçılara yaraşmayır oğurluq.

***

Üç gün döyüş gedir, aclıq, susuzluq,
Döyüşdə say üstün gəlir, ya qılınc.
Balaşq düşür, son anını yaşayır,
Döyüşdə say üstün gəlir, ya qılınc.

Tunqun gücü, öcü, hayı azalır,
Qızıl qanı üz-gözündə qızarır,
Saralaraq üzü-bənzi sozarır.
Döyüşdə say üstün gəlir, ya qılınc.

Nərildəyir qaplan kimi yaralı,
“Ölüm” diyə o düşünür qapalı,
“Su” söyləyir, hərdən gözü qaralır,
Döyüşdə say üstün gəlir, ya qılınc.

Daryaş görür onda kirpikəsdini,
Baxışında acı küsdü-küsdünü,
Quzqun kimi alır başı üstünü,
Döyüşdə say üstün gəlir, ya qılınc.

-Mən Daryaşam,-Deyir bərkdən Tunqərə,
Sonda, ərən, gəlib çıxdın bu yerə,
Mindiyarı gəlin bölək üç yerə,
Balasqelə, Parsdiyara, Hindelə,
Döyüşdə say üstün gəlir, ya qılınc.

Silkələnib Tunqər qalxır ayaqa,
O, əl atır yenə qanlı yaraqa,
Birdən bir səs gəlir çatır qulağa,
Səs yayılır dalğa-dalğa uzağa,
Döyüşdə say üstün gəlir, ya qılınc.

Qız toplumu haray-haray yetişir,
Dəyişdirir bu gəlişlə gedişi,
Vurur, yıxır, kəsir qanlı döyüşü,

Daryaş görür üstünlüklər dəyişib,
Əl saxlayır, dayandırır döyüşü,
Döyüşdə say üstün gəlir, ya qılınc.

Qızlar tək-tək, dolu kimi yağırlar,
Qancıllara şimşək olub çaxırlar,
On-on, yüz-yüz ön sıraya çıxırlar,
Acıqandan yaraqları yığırlar,
Döyüşdə say üstün gəlir, ya qılınc.

Əkbitəndən toplum gəlir, düzülü,
Balasqelin könlü bağrı, üzülür,
Bu gəlişdə böyük vuruş sezilir,
Daryaşınsa laxlam-laxlam özülü,
Üz-gözündə qanlı qorxu sezilir,
Acığından ağzı-burnu büzülür,
Döyüşdə say üstün gəlir, qılınc yox.

Döyüş söylənci

Balasqelin yolu dolu atlıdır,
Hər üzləşmə on min ölüm deməkdir.
Bulud-bulud yaraqlıdır, sürünür,
Hər üzləşmə on min ölüm deməkdir.

Üç təkərli, dörd təkərli qoşqular,
Qoşa atlı, altı atlı daşqalar,
Minellilər, Balasqlaşan başqalar,
Sıyrılmadır çox qılınclar, şoşqalar,
Yüzər, Düzər, Qızod, Odər-qalınclar,
Qalınclardan törəmələr, qorunclar,
Minellidən üz döndərən qorxunclar,
Hər üzləşmə on min ölüm deməkdir.

Bu toplumlar gəlir qanlı duruşa,
Mindiyarla, Minelliylə vuruşa,
Göydə oxlar bənzər seyrək yağışa,
Hər üzləşmə on min ölüm deməkdir.

Balaşq bilir, Balasqelin dilini,
Yey tanıyır elatını, elini,
Yaşayıbdır orda otuz ilini,
Hər üzləşmə on min ölüm deməkdir.

İki toplum bir-birinə dirənir,

Öncə çıxır ortalığa Eldəbir,
Deyir:-Gəlsin qabağıma, kim gəlir!
Balasqelcə Balaşq neçə söz deyir,
Deyir: -Balasqeldən gələn Minelli,
Anlamadan bizə qarşı gələli,
Biliniz ki, biz qardaşıq sizinlə,
Qılınc tutub, vuruşmayın bizimlə,
Minellidən törəyənlər, ayılın!
Dədələriz Mindiyarlı sayılır,
Köklәriniz bu soy üstə qoyulub,
Hər üzləşmə on min ölüm deməkdir.

Bizuc, topbuz, qılınc, tutaq toqquşur,
Minellilər bir-biriylə tapışır,
Balasqelin toplumundan qopuşur,
Mindiyarın başrağından yapışır,
Hər üzləşmə yüz min ölüm deməkdir.

Tunqər qovur ortalığa Çil-çili,
Çil-çil bilir döyüşlərdə hər dili,
Qoşaağız qılınc ilə təkəlli,
Bir vurumla yerdə qalır beş ölü,
Hər üzləşmə yüz min ölüm deməkdir.
***
Mindiyarın səsləncləri gurlayır,
Hər yürüşdə başraq əl-əl öndədir,
Balasqelin öncülləri qırılır,
Hər yürüşdə başraq əl-əl öndədir.

Kimdir geri üz tutaraq qaçanlar,
Kimdir qanlı torpaqları qucanlar,
Kimdir yeni,yeni yollar açanlar,
Kimdir dillə özgəsini sancanlar,
Hər yürüşdə başraq əl-əl öndədir.

Haradasan,ahay, Balaşq yüzbaşı,
Axtar gətir həndəvərə Daryaşı,
O başlayıb bu on günlük savaşı,
Hər yürüşdə başraq əl-əl öndədir.

Ölənləri, qazın, yüz-yüz basdırın,
Yaralıya su çatdırın, susdurun,
Sonevləri tutuqlara qazdırın,
Quzqunları qovalayın, azdırın,
Kimlər kimdir, bir bucağa yazdırın,

Hər yürüşdə başraq əl-əl öndədir.

Daryaş yoxdur, hara qaçıb, yoxlayın,
Atlı salın, yalı, yolu bağlayın,
Yaralının yarasını dağlayın,
Innən belə ayıqlığı saxlayın,
Hər yürüşdə başraq əl-əl öndədir.

Tunqun hər bir göstərişi acıqlı,
İçi,çölü, gözü,könlü yanıqlı,
Tutuq düşən yaraqlılar qılıqlı,
Hər yürüşdə başraq əl-əl öndədir.

Kumar deyir:-Balasqeli çapax biz,
O Daryaşı orda gəzib tapaq biz,
Üzə çıxaq, Balasqeldən qabaq biz,

Yerlərini bir-bir alaq, tutaq biz,
Qarış-qarış Mindiyara qataq biz,
Hər yürüşdə başraq əl-əl öndədir.

Balaşq deyir: -Yerim-yurdum ordadır,
Doğma anam, yoxsul atam dardadır,
Bir qardaşım qalıb orda, xırdadır,
Hər yürüşdə başraq əl-əl öndədir.

***

“Anam-bacım, qız qardaşım, Elçiçək,
Tanrısoydur sevgi; sevil, tanrılaş.
Sən də mənim tanrım oldun sevgilim,
Tanrısoydur sevgi; sevil, tanrılaş.

Heç bilmədim oğlum oldu, ya qızım,
Heç bilmədim necələşdin sən özün,
Tanrı boyda bir sevgimiz var bizim,
Tanrısoydur sevgi; sevil, tanrılaş.

Biləcəksən niyə dönüb gəlmədim,
Körpəmizi gəlib görə bilmədim,
Sənlə güldüm, sənsiz, gülüm, gülmədim,
Tanrısoydur sevgi; sevil, tanrılaş.

Gec gəlsəm də, gülüm, acıq saxlama,
Yaraşığa, vara könül bağlama,
Qız sevgili-sevgisini yoxlamaz,

Ayrı düşsə ayrılıqdan laxlamaz,
Sən yerincsən, yerinc acıq saxlamaz,
Tanrısoydur sevgi; sevil, tanrılaş.

Körpəmizi dindir mənim yerimdə,
Gec dönsəm də sən incimə ərindən,
Mən sevirəm səni lap-lap dərindən,
Tanrısoydur sevgi; sev, öl tanrılaş.”

Tunqər düşdü çil-çil atı yalladı,
Yazı yazdı, göyərçinlə yolladı,
Göyərçini özü göyə tolladı,
Öz özündən küsdü, dodaq salladı,
Tanrısoydur sevgi; sevil, tanrılaş.

VII Bölmə XXI QAPI
Görüş söylənci

Ağüz getdi Nuhçatana, Duzdağa,
Görüş, səni bitgin edir görüşlər.
Dəmirqızla görüş-öpüş könlündə,
Görüş, səni bitgin edir görüşlər.

Gün batırdı o, Duzdağa çatanda,
Dağətəyi sazağ, şaxta artanda,
Gecə yerə zil örtüyün atanda,
Bu yerlərdə qır atını yortanda,
Dağ evində sevgi gülü çırtanda,
Görüş, səni bitgin edir görüşlər.

Dəmirqızın küsü, sözü bol idi,
Yerinc olmaq çox-çox ağır yol idi,
Elə bil ki, o ərli yox, dul idi,
Şah budaqda sınıx-sallaq xol idi,
Görüş, səni bitgin edir görüşlər.

Qaymaq öpüş, soyuq öpüş, qız öpüş,
Birdən birə ordan-burdan yüz öpüş,
Marçıldayır hər bal dadan duz öpüş,
Dodaqlarda donub qalan buz öpüş,
Görüş, səni bitgin edir görüşlər.

Yerinc nədir, qancılları bəyirtmək,
Qancıl üstə tez-tez atı səyirtmək,
Uşaq doğub özgə əldə böyütmək,

Öz içində öc-acığı əritmək,
Özünü yox, ölkəsini diriltmək,
Başrağını uca tutmaq, böyütmək,
Görüş, səni bitgin edir görüşlər.

Uşaqlaşır sevişəndə yerinclər,
Gülünc gəlir ona kiçik gilinclər,
Yan ötüşür ondan çox-çox sevinclər,
Görüş, səni bitgin edir görüşlər.

Görüşdülər iki başçı, bax, belə,
Yanqı sevgi könüllərdə çox hələ,
Sevgi üstə dağ-dağ evlər tikilər,
Görüş, səni bitgin edir görüşlər.

***

Elçiçəkdən söz açdılar, ər-arvad,
Sevinərsən oğlun ata olanda,
Öyünərsən qızın ana olanda.
Ağüz dedi:-Oğlu olub Tunqərin,
Sevinərsən oğlun ata olanda,
Öyünərsən qızın ana olanda.

Dedi:-Yaxşı ad qazanıb gəlinin,
Öyrənibdir el, elatın dilini,
Bacarığı işindən də bilinir,
Sevinərsən oğlun ata olanda,
Öyünərsən qızın ana olanda.

Sevinirəm, indi o da qızımdır,
Yaxşı, pisi, nəyi varsa bizimdir,
Ilk sevgisi batdı, getdi, gizlindir,
Bu sevgisi daha doğru, düzgündür,
Sevinərsən oğlun ata olanda,
Öyünərsən qızın ana olanda.

Yerinc ana baxıb qulaq asırdı,
Düşünürdü, daşınırdı, susurdu,
Ürəyini hərdən qorxu basırdı,
Sevinərsən oğlun ata olanda,
Öyünərsən qızın ana olanda.

Düşünürdü, ilk sevginin öcü var,
Ölənəcən onun tanrı gücü var,

Hər sevənin ilk sevgiyə borcu var,
Küllü, közlü soyumamış içi var,
Sevinərsən oğlun ata olanda,
Öyünərsən qızın ana olanda.

Dəmirqızı o ilk sevgi eşirdi,
Gizli-gizli alışırdı, daşırdı,
Bu sevgiyə bir çox adlar qoşurdu,
Ölçü-biçi cızığını aşırdı,
Sonra yenə öc-acıqdan düşürdü,
Sevinərsən oğlun ata olanda,
Öyünərsən qızın ana olanda.

Qırx il idi düşünürdü bu sayaq,
Qırx il idi o gəzirdi utancaq,
Daha solub sozarmışdı al yanaq,
Özü yerinc, özü yerli, ər qonaq,
Bunun sonu görən necə olacaq,
Sevinərsən oğlun ata olanda,
Öyünərsən qızın ana olanda.

***

Ancaq yürük dəyişirdi dayanış,
Öz içində susqun qalıb boğulma.
Hər gilincdən neçə çıxış yolu var,
Öz içində susqun qalıb boğulma.

Ağüz Turqu hər bir yerdə gəzirdi,
Hərdən qalıb yolda,yalda busurdu,
Meşəliyə, çaya qulaq asırdı,
Ancaq meşə, dağ, düzənlik susurdu,
Öz içində susqun qalıb boğulma,
Düşgünlükdən çürüyərək dağılma.

Ucalırdı yavaş-yavaş Əkbitən,
Düşünürdü özlüyündə o hərdən,
“Başev gərək Başev ola yenidən,
Bir başbilən gəlsin bura hər eldən,
Soraq tutsun hər iş, hər kim, hər nədən,
Öz içində susqun qalıb boğulma,
Düşgünlükdən çürüyərək dağılma”.

Düşünürdü, “yığcam olaq biz gərək,
Gəlsin bura Dəmirqızla Elçiçək,
Çətinlikdə əl-əl, dil-dil birləşək,

Dən saxlamaz yoxsa iri, gen ələk,
Elat-elat biz Başevdə birləşək,
Öz içində susqun qalıb boğulma,
Düşgünlükdən çürüyərək dağılma.”

Turqla birgə uzaq düşən nələr var,
Gilinc olub Duzdağ, Muğel, Parsdiyar,
Yığışsalar öz yerini söz tapar,
Öz içində susqun qalıb boğulma,
Düşgünlükdən çürüyərək dağılma.

Düşünürdü,”Gərək yığış keçirək,
Qurultayda səslə seçək, seçilək,
Yasa yazaq, onun ilə ölçülək,
Yasa ilə biz yenidən biçilək”,
Öz içində susqun qalıb boğulma,
Düşgünlükdən çürüyərək dağılma.

Turq ucalıb yarımtanrı olmuşdu,
Mindiyarda tanrı adı almışdı,
Işıq olub ürəklərə dolmuşdu,
Öz içində susqun qalıb boğulma,
Düşgünlükdən çürüyərək dağılma.

Yığış söyləncі

Əkbitənin səsləncləri gurladı,
“Qurultaydır birəşdirən gücləri.
Qurultaya gəlmişdilər elçilər,
Qurultaydır birləşdirən gücləri.
Oturmuşdu neçə-neçə minbaşı,
İlk sırada minminbaşı, başbaşı,
Oturmuşdu elatbaşı, yurdbaşı,
Şahın qızıl başdolağı yaraşıq,
Üzərində durudaşı, aldaşı,
Göyə çalır dənizdaşı sudaşı,
Oturmuşdu Dəmirqızla, Elçiçək,
Ağüz, Tunqər, Odərpayla yanaşı,
Qurultaydır birləşdirən gücləri.

Daşdayaqlar bəzənmişdi ipəklə,
Söykənclərsə palaz, dəri örtüklə,
Mərmər yerlər ağ, sarı, al çiçəklə,
Parlayırdı gümüş, mərmər dirəklər,
Sayrışırdı sevinc dolu bəbəklər,

Qurultaydır birləşdirən gücləri.

İlk söz dedi, Ocaqbaşı Odərpay,
Dedi:-Bizi birləşdirir qurultay,
Bizi el-el birləşdirən tanrıdır,
Oddan ötgəm, sudan, aydan arıdır,
Onun yeri, Turqun yeri ayrıdır,
Qurultaydır birləşdirən gücləri.

Ağüz dedi:-Yığılmışıq danışaq,
Görüləcək çox işlərdən yapışaq,
Muğel boyu at səyirdir quraqlıq,
Uğureldə hər gün toydur,qonaqlıq,
Duzdağ on min döyüş atı istəyir,
Parsel bizdən "diyar" adı istəyir,
Mindiyarda min-min ac var, yoxsul var,
Bir az qolay dəbərsinlər varlılar,
Artsın otlaq, əkin-biçin, malqara,
Çatmır arpa, saman, yonca atlara,
Muğər deyir əlli min at bizdə var,
Qoy Muğelə gəlsin dayça alanlar.

-Basar toplum gərək çapınc gətirsin,
El-obaya ondan pay-puş yetirsin,
Yaralara onu təpinc eləyək,
Çapqınçıya biz də sağol söyləyək.
Qurultaydır birləşdirən gücləri.

-Bir az da çox vergi alaq varlıdan,
-Çox vergini varlı versin haradan,
Varı verir el yox, böyük yaradan,
-Dağda-daşda tapınc yeri arayaq,
-Bu sözlərdən təpinc olmaz yaraya,
Qurultaydır birləşdirən gücləri.

Qurultayda səs ucalır, səs artır,
Üç yol belə gecə düşür, gün batır,
El-obaya gedib yer-yer söz çatır,
Qurultaydır birləşdirən gücləri.

Biri deyir:-Tanrılaşıb Turq ata,
Görən indi o hardadır, o harda,
O gəlseydi qurultayı görərdi,
Baş başlığı Ağüzərə verərdi.
Qurultaydır birləşdirən gücləri.

Hamı sanki bu sözləri bəyənir,
Hamı bunca Odərpaya güvənir,
Ağüzəri alqışlayır qurultay,
Baş Başlığı verir ona qurultay,
Qurultaydır birləşdirən gücləri,
Qurultaydır birləşdirən elləri,

Ander, Daryaş söyləncі

Qırx il bunca şahlıq edir Ağüzər,
Şah ölkənin umu-küsü yeridir.
Qocalanda Tunqər alır şahlığı,
Şah ölkənin umu-küsü yeridir.

Alp Ər Tunqun Dörd oğlu var,üç qızı,
Oğlanlar nər,qızlar göylər ulduzu,
Şah olmaqdır hamısının yanqısı,
Şah ölkənin umu-küsü yeridir.

Sayan, Alan, Çatan,Qaplan,-adları,
Hamısı da Mindiyarın qurdları,
Uçar, sıçraq, qıvraqqanad atları,
Şah ölkənin umu-küsü yeridir.

İş-gücləri izləməkdir Daryaşı,
Parsdiyarın yorulmayan başbaşı,
Olub yazıq Parsdiyarın baş daşı,
Şah ölkənin umu-küsü yeridir.

Ata qoymur oğulları döyüşə,
Basarlaşa çox vuruşa, yürüşə,
Daryaş ilə özü çıxır döyüşə,
Şah ölkənin umu-küsü yeridir,

Alandadır parsdiyarın açarı,
Daryaşlını Yerincyerdən qaçırır,
Sanna ilə vurub, yıxır uçurur,
Şah ölkənin umu-küsü yeridir.

Qız toplumu,Sanna,bir də Balaşqər,
Çox artıbdır burda yorğa yerişlər,
On gündən bir gedir qanlı döyüşlər,
Şah ölkənin umu-küsü yeridir.

Tunqər yenə qarşılaşdı Daryaşla,
O əyilib dedi, ona yavaşdan:
-Sən dönüksən,satqın,qaçqın bu yaşda,
Şah ölkənin umu-küsü yeridir.

Daryaş dedi:-Qocalıbsan,düşübsən,
Parsdiyara yenə gəlib çaşıbsan,
Alanı da bu işlərə qoşubsan,
Şah ölkənin umu-küsü yeridir.
Daryaş çapdı, o yan, bu yan ox atdı,
Çil-çilatın yalmanını qanatdı,
Tunqun dörd yan-yövrəsini daraltdı,
Şah ölkənin umu-küsü yeridir.

Dedi:-Çoxdan şah olmusan,nə yaxşı,
Mənsə burda, Parsdiyarda minbaşa,
Sənə deyil,mənə şahlıq yaraşır,
Şah ölkənin umu-küsü yeridir.

Tunqər dedi:-Yekə-yekə danışma,
Yerinc, ölkə işlərinə qarışma,
Yoxsa ellər bir-biriylə barışmaz,
Şah ölkənin umu-küsü yeridir.

Diyar olsa Mindiyardan qopanlar,
Xərac verə onda gərək Parsdiyar,
Əlinizdən çıxar olan qalanlar,
Başınızın üstün kəsər yamanlar,
Şah ölkənin umu-küsü yeridir.
***
O qışqırdı, bu bağırdı ucadan,
Ağır sözdən qor götürür döyüşlər,
O, söz atdı, ağız dolu, bu söydü,
Ağır sözdən qor götürür döyüşlər.

Söyüşdülər, səsdən batdı qulaqlar,
İşə düşdü ən kəsərli yaraqlar,
Bir-birini qamarladı caynaqlar,
Səsləmc ilə dalğalandı bayraqlar,
Boğazlarda xarıldadı qırtlaqlar,
Ağır sözdən qor götürür döyüşlər.

-Sən mənimçin lap dünənki uşaqsan,
-Sən bəyirən qoyun kimi inaqsan,
-Baş aparma, sən üç günlük qonaqsan,-

-Sən də el-el, yer-yer gəzən sarsaqsan,
Ağır sözdən qor götürür döyüşlər.

Qılınc endi, qalxan göyə tollandı,
Qılınc endi, qol keyəldi, sallandı,
Topbuz endi, Daryaş qana bulandı,
At dizəcən sarı quma quylandı,
Daryaş qalxan arxasından boylandı,
Bir də endi o,qalxanla çullandı,
Qaçdı, yenə Balasqelə yollandı,
Ağır sözdən qor götürür döyüşlər.

Qaçan görüb başçısını ellilər,
Yaraqları atdı yerə yerlilər,
Baş əydilər Tunqa başı yellilır,
Ağır sözdən qor götürür döyüşlər.

***

Balaşq, Sanna, Alan, Kumar, Eldəbir,
Ağır gündə göstərişi gözləmə.
Göstərişlər gözlənirdi Tunqərdən,
Ağır gündə göstərişi gözləmə.

Alan cumdu yaraqlılar içinə,
Gücü verdi qollarının gücünə,
Qılınc vurdu ikisinə, üçünə,
O başladı qılınc ilə biçinə,
Tunqər dedi:-Alan, dayan, kiçilmə,
-Gedim, ata, qoy Daryaşın dalınca,
Doğram-doğram edim onu qılıncla,
Ata dedi:-Getmə,bu yol boyunca,
Gizlənilər, gözləyirlər qancıllar,
Ağır gündə göstərişi gözləmə.

***

Daryaş çatdı Balasqelə üç günə,
Sınıq gedib sınıqçıya sığınar.
Ander yaxşı tanıyırdı Daryaşı,
Sınıq gedib sınıqçıya sığınar.

Üç yol idi o gəlirdi yardıma,
O, Parsdiyar, Parsel, Hindel adına,
Düşüb yenə Ander şahın ardına,
Sınıq gedib sınıqçıya sığınar.
Ander şahın Başevinin bəzəyi,

Onun oddan, qordan gözü, bəbəyi,
Başlığında durudaşdan lələyi,
Qız, qadının sevinc dolu ürəyi,
Qızıllanıb boynu, döşü, biləyi,
Sınıq gedib sınıqçıya sığınar.

Çini qablar masa üstdə düzülü,
Yeməklərdən elə bil bal süzülür,
Sallanmalar qırçın-qırçın, qızılı,
Dörd bir yanda neçə dildə yazılı,
Bir bucaqda Daryaş durub büzülüb,
Sanki qatdaq, əyri boynu üzülür,
Sınıq gedib sınıqçıya sığınar.

O Daryaşa acı-acı söz atır,
-Niyə bir yol acıqana batmadın,
Tapşırdığım sözü, yolu tutmadın,
Yaraq verdim döyüşlərə qatmadın,
Buna görə istəyinə çatmadın,
Sınıq gedib sınıqçıya sığınar.

Daryaş deyir:-Verdiklərin heç oldu,
Tunqər vurdu, hər döyüşdə güc oldu,
Bizimkilər çaşdı, qorxdu, qıc oldu,
Sınıq gedib sınıqçıya sığınar.

Bizə, Ander, tunc, qatlanmaz tutaq ver,
Altı atlı, dörd təkərli yaraq ver,
Qırx min qancıl, gözü qanlı qoçaq ver,
Sınıq gedib sınıqçıya sığınar.

Onda Tunqa, Mindiyara bataram,
Əkbitəni Darvideli tutaram,
Mindiyarı Balasqelə qataram,
Sınıq gedib sınıqçıya sığınar.

***

Daryaş tez-tez udqunurdu nədənsə,
Basar olmaq güc istəyir, bicləmə.
Onu saya qoymayırdı qonaqlar.
Basar olmaq güc istəyir, bicləmə.

Düşünürdü Hindel toplum göndərər,
Tunqu üzü sonevinə döndərər,

Onun sönməz alovunu söndürər,
Basar olmaq güc istəyir, bicləmə.

Bir qız tez-tez mahnı deyir, banlayır,
Ander yoğun qadınları yanlaylr,
Gəlib hərdən o, Daryaşı danlayır,
Yardım etsin gərək ona, anlayır,
Basar olmaq güc istəyir, bicləmə.

Daryaş deyir: -Bir də pis iş bulmayaq,
Minellini bu topluma salmayaq,
Keçmişdəki kimi basıq qalmayaq,
Basar olmaq güc istəyir, bicləmə.

Ander şahla Dəmirqızın döyüş söyləncl

Qırx min qancıl yola düşdü yaraqla,
Çapqınçılıq döyüş deyil, oyundur.
Parselə yox, Manayyura yol aldı,
Çapqınçılıq döyüş deyil, oyundur.

Ancaq Ander aldadırdı hamını,
Gizlədirdi döyəcəyi qapını,
Manayyurda çapmaqdaydı atını,
Çapqınçılıq döyüş deyil, oyundur.

İstəyirdi çapıb, yığıb gətirsin,
İstəyirdi üzdə izi itirsin,
Bolluq yerdən bollu var-mal götürsün,
Çapqınçılıq döyüş deyil, oyundur.
Bircə bölük yola saldı Parselə,
Yüz bölüksə Manayyurda, Duzgölə,
Düşünürdü Nuhçatana güc gələr,
Çapqınçılıq döyüş deyil, oyundur.

Dəmirqızsa tutdu gecə çox yeri,
Duzgöl üstdə yaxaladı Anderı,
Dedi: -Ander, toplumunu çək geri,
Çapqınçılıq döyüş deyil, qırğındır.

Ander bu an ondan yürük dəbərir,
Toplum çıxır iki yandan irəli,
Çayı keçir neçə iki təkərli,
Minellilər basıq düşür ötəri,
Çapqınçılıq döyüş deyil, qırğındır.

Dəmirqızsa gücü sağa döndərir,
Deyir:-Tunqər mənə yazı göndərib,
İstəyibsən aldadasan öndəri,
Yanlış yolla gəlibsənsə, gəl bəri,
Çapqınçılıq döyüş deyil, qırğındır.

-Döyüşmərəm sənin kimi qoduqla,
Nələr deyir üzündəki çapıqlar,
-Mən bilirəm nəyə gəlib yazıqlar,
Gözü aclar, ağzı, burnu yırtıqlar
Onu-bunu soyub qaçan qırıqlar,
Ac-yalavac, pal-paltarı, cırıqlar,
Çapqınçılıq döyüş deyil qırğındır.

-Get, ərini göndər gəlsin döyüşə,
Onda bir az bu üzləşmə dəyişər,
-Mənim ərim Tunqər, Alpər ayrıdır,
O,döyüşdə basılmayan tanrıdır,
-Gəlsə o da vuruşmağı öyrəşər,
Mənimkilər baxar, gülər, gərnəşər.
Dəmirqızın çıxdı qından qılıncı,
Ander şahın qaldı sözü yarımçıq,
Çapqınçılıq döyüş deyil qırğındır.
Vuruşdular, cingildədi yaraqlar,
Nəriltidən, səsdən batdı qulaqlar,
Danqıldadı, şapbıldadı tutaqlar,
Al boyaya döndü qanlı yanaqlar,
Kişnərtidən, səsdən qorxdu uzaqlar,
Çapqınçılıq döyüş deyil qırğındır.

***

Üç gün vuruş Ander şahı mələtdi,
Dözümlüdür, sanki qadın kişidən,
Ander şahın vuran qolu keyəldi,
Dözümlüdür sanki qadın kişidən.

Çoxu düşdü aclığından bayıldı,
Çox yaralı öldü bir də ayıldı,
Açıqanın sısqalığı duyuldu,
Basarlığın dib daşları qoyuldu,
Dözümlüdür qadın sanki kişidən.

Bu vuruşu üç gün sonra bildilər,
Balasqelli, minellilər gəldilər,

Vuruşdular, Ander şahla, öldülər,
Öclərini gözlərindən sildilər,
Basarlığı Dəmirqızla böldülər,
Dözümlüdür qadın sanki kişidən.

Ander yenə əzgin çıxdı irəli,
Dedi:-Verin Balesqelə hələlik,
Əkbitəni, Manayyurdu, Parseli,
Tanrı özü biz deyəni düz bölüb,
Dözümlüdür qadın sanki kişidən.

Elə onda dağ-daş, yer-göy titrədi,
Yaraqlılar, atlar, ərlər büdrədi,
Tunqər gəldi, Mindiyarın öndəri,
Dözümlüdür sanki qadın kişidən.

Başladılar qanlı, qancıl savaşa,
Tanrı gücü gəldi birdən Balaşqa,
Yardı, qırdı Eldəbirlə o, qoşa,
Yer qalmadı daha bir də barışa,
Dözümlüdür sanki qadın kişidən.

Keçdi Tunqər Ander şahın yanından,
Topbuz dəydi Ander şahın boynundan,
Sonra dəydi iti qılınc alnından,
Qan fışqırdı onun ağız-burnundan,
Dözümlüdür sanki qadın kişidən.

O yandan da qırıb tökdü Eldəbir,
Döndü ölüm tanrısına elə bil,
“Sağ ol”dedi bacısına hərdən bir,
Dözümlüdür sanki qadın kişidən.

***

Ander şahı götürdülər basıqlar,
Ötgəm dilli ötgəm gücə basılar.
Çökdü yerə Manayyurda çatmamış,
Ötgəm dilli ötgəm ərə basılar.

Tunqər dedi:-Qoy götürüb getsinlər,
Sürün-sürün göz önümdən itsinlər,
Basıqlığı gözlərinə dürtsünlər,
Ötgəm dilli ötgəm ərə basılar.

Dəmirqızı gətirdilər yaralı,
Əyni-başı, əli-qolu qaralıb,
Qan itirib, gültək solub, saralıb,
Ötgəm dilli ötgəm ərə basılar.

Daryaş qaçdı Parsdiyardan Hindelə,
O, Hindeldə olub, qalıb çox belə,
Gedib ordan güc gətirsın Parselə,
Ötgəm dilli ötgəm ərə basılar.

O bilirdi sınıb, köçüb minbaşı,
Tunqlaşıbdır onun Kumar yoldaşı,
Kimdir bir də tumarlaya Daryaşı,
Ötgəm dilli ötgəm ərə basılar.
Çox deyinmə dolanışın dalınca,
Dolanışın iki üzü olmayır.
O bir gözlə baxır elə hamıya,
Dolanışın iki üzü olmayır.

XXII QAPI. Alpislə Odərpay Söyləncі

Üç yüz yaşa gəlib çatdı Odərpay,
Minellinin iç tanrısı ocaqdır,
Mindiyarın çöl tanrısı başraqdır.
Uzun ətək, saqqal, saç, ip yiyəsi,
Minellinin iç tanrısı ocaqdır,
Mindiyarın çöl tanrısı başraqdır.

Gecə-gündüz ocaq çırt-çırt yanırdı,
Ulduzlarsa tez-tez yanıb sönürdü,
Onlar hərdən yerə gizli enirdi,
Buna görə ocaq çırt-çırt yanırdı,
Enən ulduz yerdə közə dönürdü,
Onda tanrı ucalarda dinirdi,
Minellinin iç tanrısı ocaqdır,
Mindiyarın çöl tanrısı başraqdır.

Bu ocaqda şahlar kəsi kəsirdi,
Üztutmalar ölkə-ölkə gəzirdi,
Odərpayın kövrək səsi əsirdi,
Üztutmaya Alpis qulaq asırdı,
Ödərpaydan tez-tez dönüb küsürdü,
Öz-özündən, öz işindən bezirdi,
Çovğun olub Mindiyarı gəzirdi,
Ağacları yerdən, dibdən üzürdü,

Minellinin iç tanrısı ocaqdır,
Mindiyarın çöl tanrısı başraqdır.

Bu yer böyük Ocaq yeri adlanır,
Pis Alpisin bundan qolu qatlanır,
Orda-burda o qıvrılır, atlanır,
Acığından neçə yüz il qartlanır,
Minellinin iç tanrısı ocaqdır,
Mindiyarın çöl tanrısı başraqdır.
Ahur, Aşa, Yasna, üztut, yalvarış,
Susub baxır Mindiyara dayanış,
Yer üzünü tutur göycül oyanış,
Tanrılara üztut deyir yaranış,
Ağ başrağın kölgəsidir dolanış,
Minellinin iç tanrısı ocaqdır,
Mindiyarın çöl tanrısı başraqdır.
***
Odərpayın üztutması səslənir,
Qulaq asır hərdən yerə tanrılar.
“Ayıryaman, bizə yardım, əltut ol,
Qulaq asır hərdən yerə tanrılar.

-Aşa olub bizə, Aşa Vaxıştan,
Aşa tanrı, Aşa yaxşı, barışqan,
Ahurmuzda yolundadır Minelli,
Aşa, Amen İspenda da sevimli,
Ahurmuzda, yararlı keç bu Qata,
Bolluq gəlsin bunca elə-elata,
Titrək səslə, kövrək səslə söylərəm,
Ayıryaman, bir də yardım dilərəm,
Qulaq asır hərdən yerə tanrılar”.

Alpis gəlir, bir az yanda dayanır,
Odərpayın gözlərindən yayınır,
Alpis deyir:-“-Az tanrını tut dilə,
Vayzaqlama, ocaqyerdə bir-belə,
Aclıq-qıtlıq göndərərəm Minelə,
Qulaq asır hərdən yerə tanrılar.

Mən Daryaşa güc verərəm,güc gələr,
Yanğın, qırğın göndərərəm, dikələr,
Əkbitəni yandıraram, küllənər,
Qulaq asır hərdən yerə tanrılar.

Mən Ahuru, Aşa, Yasna saymaram,

Yaranışı bu qurumda qoymaram,
Qıtlıq, aclıq quraqlıqdan doymaram,
Qulaq asır hərdən yerə tanrılar".
Odərata eşidirdi bunları,
Acığından saralmışdı, sap-sarı,
Söyləyirdi üztutları, qatları,
Qulaq asır hərdən yerə tanrılar.

O Alpisi saymayırdı, dözürdü,
Deyiləni ürəyinə yazırdı,
Yeddi tanrı göydə qulaq asırdı,
Qulaq asır hərdən yerə tanrılar.

***

Alpis dedi:-Nə deyəsən bu işə,
Bir yol diyən mən yaxşılıq etmişəm,
Mən Bacarla onda gəldim döş-döşə,
Mən göz yumdum Qizçiçəktək itmişə,
Onu gəlin göndərmişəm Üstyerə,
Hələ də mən öz-özümü pislərəm,
Çox vurnuxma keçmiş bir də qayıtmaz.

Odərata eşidirdi bunları,
Saralmışdı, üzü-gözü sap-sarı,
Saymayırdı o bu yersiz qır-qırı,
Odərata eşidirdi bunları,
Çox vurnuxma keçmiş bir də qayıtmaz.

Odərata Aşa, Aman deyirdı,
Hərdən "qardaş Odərboydan" deyirdi,
O kiməsə tez-tez yaman deyirdi,
Çox vurnuxma keçmiş bir də qayıtmaz.
Çoxalırdı üztutluğa gələnlər,
Kəsi kəsib onu pay-pay bölənlər,
Sevinənlər, göz yaşını silənlər,
Çox vurnuxma keçmiş bir də qayıtmaz.

Alpis küsüb soyumuşdu Altyerdən,
Öz-özünü qınayırdı o hərdən,
Acığını gizlədirdi, bəs nədən,
O Bacardan, Qızçiçəkdən, Gücərdən,
Çox vurnuxma keçmiş bir də qayıtmaz.
O gəzirdi, görünmürdü gözə o,
Çıxammırdı Qızçiçəktək üzə o,
Güc vermişdi deyinməyə, sözə o,

Çox vurnuxma keçmiş bir də qayıtmaz.

Onun idi seldən-sudan qalmalar,
Uçuq evlər, yanan çöllər, tarlalar,
Çökən, aşan alaçıqlar, obalar,
Çox vurnuxma keçmiş bir də qayıtmaz.

Sevinirdi, ağrıyırdı hardasa,
Ağlayırdı harda bolluq vardısa,
Kor olacaq işıq görsə yarasa,
Çox vurnuxma keçmiş bir də qayıtmaz.

Alpislə Daryaşın görüş söyləncі

Alpis gəzdi, bir gün gördü Daryaşı,
Dolanışın döşü eniş-yoxuşdur.
Gördü hərdən əl-qolunu dişləyir,
Dolanışın döşü eniş-yoxuşdur.

Dedi:”-Yenə dəli olub durubsan,
Mənlə yenə bağlantını qırıbsan,
Çox düşünüb öz-özünü yorubsan,
Dolanışın döşü eniş-yoxuşdur.

Dur ayağa, yaraq götür, çıx çölə,
Eldəbiri, Qızbaşını tut dilə,
Yalan, doğru çoxlu söz ver, söz elə,
Dolanışın döşü eniş-yoxuşdur.

Göndərərəm çörəklə ot qıtlığı,
Göndərərəm çoxlu gözü yırtığı,
Göndərərəm atım Şimşəkquyruğu,
Su yerinə yellə dolu tuluğu,”
Dolanışın döşü eniş-yoxuşdur.

Daryaş dedi:-Tanrı, mənə dayaq ver,
Yorulmayan qol ver, dəmir ayaq ver,
Əyilməyən, qırılmayan yaraq ver,
Dolanışın döşü eniş-yoxuşdur.
Bicləmələr məni yordu, soyutdu,
Kimi vurdum, vurum mənə qayıtdı,
Tunqər məni öz qanımla doyurtdu,
Vurdu məni, yaraladı, bayıltdı,
Dolanışın döşü eniş-yoxuşdur.

-Sevinərəm el ölümə sarılsa,
Çox yaxşıdır çoxsayda çox qırılsa,
Çovqun olsa, evlər göyə sovrulsa,
Göy yırtılsa, bulud qat-qat yarılsa,
Dolanışın üstü eniş-yoxuşdur.

Alpis ona çox söz verdi, o ki, var,
Çox axtardı onu Daryaş, Parsdiyar,
Ancaq gözə görünməyir tanrılar,
Dolanışın üstü eniş-yoxuşdur.

Eşidənlər dedi, yeldir, küləkdir,
Ola bilsin devdir, quşdur, böcəkdir,
Ya hardasa sızıldayan tütəkdir,
Dolanışın üstü eniş-yoxuşdur.

Şimşəkquyruq söyləncі

Bir gün Daryaş bir at görür Sakdağda,
At igidin yaraşığı, adıdır.
Quyruğundan şimşək qopur çapanda,
At igidin yaraşığı, adıdır.

Yaxınlaşmaq istəyəndə o qaçır,
Quyruğunun tüklərindən od saçır,
Tuta bilmir nə at tutan, nə atçı,
At igidin yaraşığı, adıdır.

Minik vermir Şimşəkquyruq heç kimə,
Baxmır bu at muşquruğa, deyimə,
Şındırpalaz, tunc, toxunma geyimə,
At igidin yaraşığı, adıdır.
İstəyirlər döl tutalar bu atdan,
Tumarlayır onu hərə bir adda,
Gözdən itir o dumanda, buludda,
At igidin yaraşığı, adıdır.

Ağız atır, şıllaq atır çoxuna,
Çoxlarını buraxmayır yaxına,
Yol verməyir kimsə ona toxuna,
At igidin yaraşığı, adıdır.

Ancaq bir gün Daryaş ona təpinir,
Alır onun şıltaqlıqla, kopünü,
Atır, çəkir ağ boynuna ipini,

At igidin yaraşığı, adıdır.

Şimşəkquyruq oynaqlayır, kişnəyir,
Şaha qalxır, saya salmır heç nəyi,
Təkcə hərdən o, Daryaşı dinləyir,
At igidin yaraşığı, adıdır.

Minir Daryaş, olur dağlar çaparı,
Yorğa çapır, çapır başı yuxarı,
Yarır çəni, yala, döşə çıxarır,
At igidin yaraşığı, adıdır.

Ürəklənir, diləklənir kim görür,
Görən ona Şimşəkquyruq ad verir,
Bu at yerdən sıçraq qopur, dəbərir,
At igidin yaraşığı, adıdır.

***

Daryaş sanki bir də qalxdı,dirildi,
At yiyənin, yiyə atın dirisi.
Görmək üçün Atı gəldi el-oba,
At yiyənin, yiyə atın dirisi.

Daryaş dedi:-Mən basılmaz olmuşam,
Bu atı da mən tanrıdan almışam,
Yeni qana, yeni gücə dolmuşam,
At yiyənin, yiyə atın dirisi.
Gəlsin indi yüzlər, minlər, yüzminlər,
Gəlsin görsün gücümüzü Alp Tunqər,
Qabağımda qatdanacaq o kəhər,
At yiyənin, yiyə atın dirisi.

Mindiyardan Əkbitəni qoparram,
Parsdiyarı çox-çox uzaq aparram,
Şahlığımı Parsdiyarda yaparam,
At yiyənin, yiyə atın dirisi.

Bunu deyib çapdı,getdi uzağa,
O qaldırdı neçə eli ayağa,
Döndü yelə, quraqlığa, sazağa,
At yiyənin, yiyə atın dirisi.

Şimşəkquyruq başraq oldu çoxuna,
Yaraqlılar döndü coşqun axına,
O başladı orda, burda qırğına,

At yiyənin, yiyə atın dirisi.

Darvidelli başraq tutub and içdi,
Nə qoşuldu, nə danışdı, nə köçdü,
Misirelə gizli yüz-yüz qız qaçdı,
At yiyənin, yiyə atın dirisi.

Sanna dedi:-Vuruşaram Daryaşla,
Çəkilərəm Sak dağına Balaşqla,
Aldadaram o sırtığı göz-qaşla,
At yiyənin, yiyə atın dirisi.

Qız toplumu, balasqelli, çuqçu var,
Oturacaq öz yerində Parsdiyar,
Ona kimi güc göndərər Mindiyar,
At yiyənin, yiyə atın dirisi.

Sanna çıxdı qabağına Daryaşın,
Qız toplumu, çuqçu, Balaşq, minbaşı,
Gördü Daryaş Darvidellə barışıb,
At yiyənin, yiyə atın dirisi.

Sak dağında döyüş söyləncі

İlk döyüşdə Sanna, Balaşq çökürlər,
Güc atdadır, tanrıdadır, yaraqda.
Şimşəkquyruq şaha qalxır, kişnəyir,
Güc atdadır, tanrıdadır, yaraqda.

İlk döyüşdə qan qan üstə tökülür,
Sanna, Balaşq Sak dağına çəkilir,
Parsdiyarda Yerincevi sökülür,
Güc atdadır, tanrıdadır, yaraqda.

Bu güc, bu at, bu basarlıq haradan,
Qız toplumu, çuqçu çıxır sıradan,
Parsdiyara nə güc verib yaradan,
Güc atdadır, tanrıdadır, yaraqda.

Daryaş ilə qarşılaşır Eldəbir,
İlk vuruşda kürəyindən ox dəyir,
Yaraqlılar dənlənirlər birbəbir,
Güc atdadır, tanrıdadır, yaraqda.

Söyləyirlər bunu ana yerincə,

O,işləri belə gilinc görüncə,
Gizli çıxır yola üç gün,üç gecə,
Güc atdadır, tanrıdadır, yaraqda.

Yerinc on gün düşmür yorğun atından,
Gəzir onu göyün yeddi qatında,
Tapır onu Sak dağının altında,
Güc atdadır, tanrıdadır, yaraqda.

Görür Daryaş "Sanna" deyib,dayanıb,
Qıza qarşı onda sevgi oyanıb,
Ana yerinc üzdən-gözdən yayınıb,
Qanlı gözü sanki qanda yuyunub,
Güc atdadır, tanrıdadır, yaraqda.

Daryaş qıza öz-özünü öyəndə,
"Sanna" deyib öz döşünə döyəndə,
Kürəyinə cüt qoşa ox dəyəndə,
O yıxılır "Sanna" "Sanna" deyəndə,
Atı yerə ayağını döyəndə,
Güc atdadır, tanrıdadır, yaraqda.

Dəmirqızla yaraqlılar yürüşdə,
Balasqelden gəlmələr də döyüşdə,
Daryaş çökür gözlənilməz görüşdən,
Göz bərələ qalıb sanki bu işdən,
Güc atdadır, tanrıdadır, yaraqda.

Ancaq bu an külək qalxır kəsərli,
Gəlir Alpis, gözü qanlı, təpərli,
Yürüşdədir dördatlı,dördtəkərli,
Qar ələyir, sazaq tökür yetərli,
Dəmirqızı itələyir təkəlli,
Güc atdadır, tanrıdadır, yaraqda.

***

Bunlar bir göz qırpımında baş verir,
Olay yeydir gözlənilməz olanda.
Alpis yıxır Dəmirqızı, alayı,
Olay yeydir gözlənilməz olanda.

Alpis küsüb sanki böyük tanrıdan,
O qıvrılır, pöştələnir ağrıdan,
O bağlanıb Daryaş yönə doğrudan,
Olay yeydir gözlənilməz olanda.

Enir göydən şaxta, külək, qar, sazaq,
Udur şaxta yaralını busaraq,
Gələnləri o dondurur bu sayaq,
Olay yeydir gözlənilməz olanda.

Tək Dəmirqız, Balaşq, Sanna sağ qalır,
Daryaş atın quyruğundan güc alır,
Acığından düşüncəsi qaralır,
Olay yeydir gözlənilməz olanda.

Sanna deyir:-Yığaq çubuq, ot, alaq,
Daşı daşa sürtüb ondan od alaq,
Bu şaxtadan, bu sazaqdan qorunaq,
Olay yeydır gözlənilməz olanda.
Alpis gedir, ötür şaxta, qar, sazaq,
Axır yenə neçə-neçə çay, bulaq,
Daryaş döyüş görməmişdi bu sayaq,
Yaralıdır, çapır atı qaçaraq,
Olay yeydir gözlənilməz olanda.

Tunqər gəlir, durur vuruş önündə,
Sak dağına çatır bu yay günündə,
Tunc toxunma geyimi var əynində,
Olay yeydir gözlənilməz olanda.

Deyir:-Alpis burda olub deyəsən,
Solub burda meşə,otlaq,çöl,çəmən,
Bu döyüşə gecikmişəm mən deyən,
Olay yeydir gözlənilməz olanda.

***

Yürüş etdi Parsdiyara Alp Tunqər,
Hər döyüşdə neçə qanlı ölüm var.
Dörd öğlu da at səyirdir yanında.
Hər döyüşdə neçə qanlı ölüm var.

Alan,Sayan, Qaplan, Çatan ayıqdır,
Döyüşlərdə, yürüşlərdə sayıqdır,
Hər bir sözə, hər baxışa duyuqdur,
Hər döyüşdə neçə qanlı ölüm var.

Parsdiyara axşam üstü çatırlar,
Sıralanır yaşıl boya çadırlar,
Gənc oğullar baş qoyaraq yatırlar,
Hər döyüşdə neçə qanlı ölüm var.

Gecə ikən Tunqər çıxır yürüşə,
O başlayır Daryaş ilə döyüşə,
Daryaş yoxdur, gedib ellə görüşə,
Hər döyüşdə neçə qanlı ölüm var.

Axtarırlar, tapmayırlar Daryaşı,
Tunqər bunca hamı ilə dalaşır,
O danlayır Sanna, Çuqçu, Balaşqı,
Hər döyüşdə neçə qanlı ölüm var.

Dörd qardaş söyləncі

Gecə keçdi, işıqlandı dan yeri,
Gündüz yeni başlanqıcdır gecəyə.
Bu gecədən yuxu dərdi qardaşlar,
Gündüz yeni başlanqıcdır gecəyə.

Dörd qardaşı Sanna gördü, qımışdı,
Qardaşların gözü yandı, alışdı,
Dördünün də ğözü sanki qamaşdı,
O gözəllə hamı yayqın danışdı,
Gündüz yeni başlanqıcdır gecəyə.

Sanna qızı gözəl gördü dördü də,
Gizli ona könül verdi dördü də,
Onu sevdi, sinə gərdi dördü də,
Gündüz yeni başlanqıcdır gecəyə.

Yaddan çıxdı ata, ana, döyüş, el,
Axtardılar qızı gizli yerbəyer,
Tanrı,bu gənc qardaşlara dözüm ver,
Gündüz yeni başlanqıcdır gecəyə.

***

Ana deyib döndü evə qardaşlar,
Sevə bilməz bir gözəli dörd qardaş.
Ayrı-ayrı söz açdılar anaya,
Sevə bilməz bir gözəli dörd qardaş.

Hər bir qardaş anasıyla görüşdü,
Sanna qızı anasından soruşdu,
Gizli sözlər bir-birinə qarışdı,
Sevə bilməz bir gözəli dörd qardaş.

Dörd qardaşda sevgi tək,tək doğuldu,

Bu kal sevgi gündən günə coxaldı,
Aradakı döğmalıq da yoxaldı,
Sevə bilməz bir gözəli dörd qardaş.
Ana gördü onlar düşüb qadaya,
Dörd oğulu vurulubdur Sannaya,
Bu sevgilər gülünc gəldi anaya,
Sevə bilməz bir gözəli dörd qardaş.

Dedi:-Niyə üzün belə solubdur,
Qardaşların kaldır, subay qalıbdır,
Nə sevgidir səni çaşqın salıbdır,
Sevə bilməz bir gözəli dörd qardaş.

Ana qorxdu,tez-tez çökdü diz üstə,
Dedi:-Tanrım, oturmuşam köz üstə,
Yalvarıram uzanaraq üz üstə,
Qorxuram ki savaşalar qız üstə,
Döyüşələr kobud-kobud söz üstə,
Necə sevib bircə qızı dörd qardaş,
Sevə bilməz bir gözəli dörd qardaş.

Tunqər ata bunu bildi soluxdu,
Elçiçəklə ağızlaşdı, doluxdu,
Düşünərək hərdən-birdən karıxdı,
Sevə bilməz bir gözəli dörd qardaş.

Dedi:-Yoxsa bu, Alpisin işidir,
Bu iş deyən Mindiyara qarşıdır,
Dörd oğlum var, adlarını eşidib,
Qoy sevgidən-deyib-bir aş bişirim,
Dördünü də ağılayım, aşırım,
Sevə bilməz bir gözəli dörd qardaş.

Gedib gəldi, Çil-çil düşdü ayaqdan,
O, Sannaya bir də baxdı qıraqdan,
Gözəl idi Sanna üzdən, yanaqdan,
Necə ala bilər qızı dörd qardaş,
Sevə bilməz bir gözəli dörd qardaş.

***

Tunqər dedi atasına bunları,
Doğru danış, yalan çıxsın ortaya.
Atasına o hər şeyi danışdı,
Doğru danış, yalan çıxsın ortaya.
Ağüzər şah dedi:-Oğlum, ayıq ol,
Sevgi işi qolay işdir, sayıq ol,

Duyuq olur sevən,sən də duyuq ol,
Doğru danış, yalan çıxsın ortaya.

Bir də Sanna ərə getsə yaxşıdır,
Həm yerincdir, həm də toplumbaşıdır,
O qız bizə orda atmac daşıdır,
Doğru danış, yalan çıxsın ortaya.

Oğlum,bu da baş tutmasa,onda sən
Gərək ağır bir qatlağa gedəsən,
Al onları, ayır biri birindən,
Doğru danış, yalan çıxsın ortaya.

Hərəsini göndər getsın bir yana,
Harda olsa Mindiyara dayanar,
Gedər, baxar, görər, artar, oyanar,
Doğru danış, yalan çıxsın ortaya.

Yoxsa onlar bir-birini qırarlar,
Sevgi üstə qırıb, çatıb, vurarlar,
Həm də gəlib bizə qarşi durarlar,
Doğru danış, yalan çıxsın ortaya.

Tunqər yaxşı başa düşdü atanı,
Alpis idi bunu atıb tutanı,
O, olmuşdu indi sevgi xortdanı,
Doğru danış, yalan çıxsın ortaya.

Alp Tunqərin könlü başı titrəkdir,
Oğul atmaq, nədir, bu nə deməkdir,
Buna böyük ürək-dirək gərəkdir,
Bu oğullar min-min içrə tək təkdir,
Oğul, ana, qız ataya dirəkdir,
Doğru danış, yalan çıxsın qrtaya.

Bu qardaşlar qalsaydılar burada,
Sevgi üstə döyüşərdi arada,
Bu gilinci ancaq Alpis yaradar,
Haradasan, tanrım, böyük yaradan,
Yardım elə gənclər çıxsın aradan,
Doğru danış, yalan çıxsın ortaya.

Ağüzlə Daryaşın vuruşması söyləncі

Daryaş girdi Əkbitənə toplumla,
Vergi, sıxı Başbaşevdən gələndir.
Dedi:-Bizim olacaqdır Əkbitən,
Vergi, sıxı Başbaşevdən gələndir.

Dedi:-Yaxşı yaraqlanıb Parsdiyar,
Çıxsın mənim qabağıma oğullar,
Uğureldə dördün birdən doğurlar,
Vergi, sıxı Başbaşevdən gələndir.

Tutulmuşdu Əkbitənin yarısı,
At yolunun,ev yolunun hamısı,
Ona yardım olub Alpis tanrısı,
Döyülməkdə Ağüz şahın qapısı,
Vergi, sıxı Başbaşevdən gələndir.

Hanı, çıxsın ortalığa Başbaşı,
Oğulları soylarıyla yanaşı,
Sanna qıza sevgiləri qarışıb,
Sevib qızı alçaltdılar balaşqı,
Dörd qardaşlar bir-biriylə dalaşır,
Vergi, sıxı Başbaşevdən gələndir.

At çapırdı Daryaş basarsayağı,
Yerlilərsə alıb daşı, çomağı,
Daşlayırdı çağrılmamış qonağı,
Alpis isə görünməzdir, bayağı,
Yandırırdı qorla evi ocağı,
Vergi, sıxı Başbaşevdən gələndir.

Şimşəkquyruq od tökürdü yollara,
Daryaş isə kül səpirdi yallara,
Od vururdu ağaclara, kollara,
Yazqabağı çiçəklənən xollara,
Vergi, sıxı Başbaşevdən gələndir.

Çıxdı Ağüz nərildədi bağırdı,
Yaraqlanan el-obanı çağırdı,
Dedi:-Bunlar toplum deyil,naxırdı,
Acıq onu boğazlayıb boğurdu,
Əkbitəndə bağırtılar doğurdu,
Vergi, sıxı Başbaşevdən gələndir.

Ağüz,Daryaş qılınclaşdı iki gün,
Alpis saldı çox işlərə sap, düyün,

Çay, bulaqlar qurudular büs-bütün,
Vergi, sıxı Başbaşevdən gələndir.

Turqla Alpisin vuruşu söyləncі

Bir kişnərti səsi gəldi uzaqdan,
Kişnərtidə bir toplumun gücü var.
Ağüz dedi:-Hər at belə kişnəməz,
Kişnərtidə bir toplumun gücü var.

Turq atadır,Şimşəkatdır deyən bu,
Bu kişnərti ayıqlıqdır, ya yuxu,
Aldı bütün Parsdiyarı bir qorxu,
Kişnərtidə bir alayın gücü var.

Birazdan da Şimşəkquyruq kişnədi,
Bir doğmalıq tapdı, duydu at, nədi,
Doğmalıqdan çox ürəklər göynədi,
Kişnərtidə bir toplumun gücü var.

Açıqana düşdü qorxu, hay-haray,
Döndü şimşək görüşünə bu olay,
Yarağını yerə qoydu üç alay,
Kişnərtidə bir alayın gücü var.
Öncə atlar birbirini iylədi,
Daryaş güldü, basarlıqdan küylədi,
-Turq dirisən, ya ölüsən?-söylədi,
Kişnərtidə bir alayın gücü var.

Bunu görüb Turqər onu saymadı,
İtələdi, heç yaxına qoymadı,
Artıq sözü mənliyinə qıymadı,
Kişnərtidə bir toplumun gücü var.

Dedi:-Alpis, ey pisliklər tanrısı,
Ötüb deyən tanrılığın yarısı,
Lillənibdir gözlərinin sarısı,
Artıb yenə ürəyinin ağrısı,
Kişnərtidə bir alayın gücü var.

Görüşmüşdük çox-çox qabaq Altyerdə,
Görüşürük Əkbitəndə biz bir də,
Küsülüsən, didərginsən o yerdən,
Kişnərtidə bir toplumun gücü var.

Yaxşı olub sən gəlibsən Üstyerə,
Gəl, üzülüş pis işlərlə son kərə,
Verək burda işdə-gücdə əl-ələ,
Kişnərtidə bir alayın gücü var.

Qoy yox olsun qıtlıq, aclıq, quraqlıq,
Yanğın, çovğun, döyüş, vuruş, çolaqlıq,
Qoy yox olsun ölüm, itim, uzaqlıq,
Kişnərtidə bir alayın gücü var.

***

Alpis dedi:-Mən tanrıyam yenə də,
Yaxşı pislə, pis yaxşıyla paylaşır.
Parçalanıb bölünübdür tanrılıq,
Yaxşı pislə, pis yaxşıyla paylaşır.

Tanrılıq da çətin işdir bilirsiz,
Vardır onun iki üzü, yaxşı,pis,
Nə olsun ki burda sizsiz, orda biz,
Yaxşı pislə, pis yaxşıyla paylaşır.
Yaxşılığı böyüdürəm pisliklə,
Pis düzəlir yaxşı olur düzlüklə,
Yaxınlaşa bilməyirik biz hələ,
Yaxşı pislə, pis yaxşıyla paylaşır.

Tunqər dedi:-Sən pislikdə tanıqsan,
Min-min ildir yaxşılıqdan yanıqsan,
Pisdə bütöv, yaxşılıqda qırıqsan,
Yaxşı pislə, pis yaxşıyla paylaşır.

-O at mənim atım olub minibsən,
-Sən basılıb atdan düşüb,enibsən,
İndi küsüb Altyerdən də dönübsən,
Yaxşı pislə, pis yaxşıyla paylaşır.

Tutuşdular Turqla Alpis adbaad,
İki idi Şimşəkqılınc, Şimşəkat,
İki ərdə dəmir kimi qol, qanad,
Yaxşı pislə, pis yaxşıyla paylaşır.

Tanrı ilə yarıtanrı güləşir,
Vurnuxmalar gedişində dilləşir,
Tər,qan axır yerdə sanki selləşir,
Yaxşı pislə,pis yaxşıyla paylaşır.

Hamı qulaq asır acı sözlərə,
Ancaq Alpis görünməyir gözlərə,
Qorxu, ürkü qonur sanki üzlərə,
Yaxşı pislə, pis yaxşıyla paylaşır.

Görmürdülər Turqər kimlə vuruşur,
Görünmürdü görünməzin duruşu,
Deyirdilər Turq cinlərlə döyüşür,
Yaxşı pislə, pis yaxşıyla paylaşır.

Ancaq səs-küy eşidirdi baxanlar,
Qalxıb enir qılınc, topbuz, qalxanlar,
Bu görümdən çoxalırdı qorxanlar,
Yaxşı pislə, pis yaxşıyla dilləşir.
Tunqla Alpisin vuruşu söyləncі

Tunqər gəldi,yolda qırx min yaraqlı,
Ağır olur ata-oğul nisgili.
Acıqlıydı, küsülüydü özündən,
Ağır olur ata-oğul nisgili.

Onu görüb Alpis geri oturdu,
Mindi atı yürüyünü artırdı,
O, Turq ilə döyüşünü qurtardı,
Ağır olur ata-oğul nisgili.

Daryaş mindi,çapdı Şimşəkquyruğu,
Qaldı yerdə toplumunun qalığı,
Tunqər çapdı, tutsun sırtıq yoluğu,
Gözlərində ata-oğul nisgili.

Tunqər çapdı,tutdu onu arxadan,
Bir səs qopdu o yekəbaş lovğadan,
Gizlənmişdi yarğansayaq çalada,
Gözlərində basıqlığın nisgili.

Dedi:-Məni Alpis tanrı aldadıb,
Ələ alıb qanığımı qaraldıb,
Dilə tutub məndən qancıl yaradıb,
Pis ayaqda hamımızı o atıb,
Gözlərində basıqlığın nisgili.

Mən qaçmırdım, aldadırdım səni mən,
Çox da böyük, lap böyüksən, hər nəsən,

Öpməlisən burda mənim əlimdən,
Gözlərində basıqlığın nisgili.

Gözləmədi, çapdı Şimşəkquyruğu,
Şimşək çaxdı onun ipək quyruğu,
Çil-çilatın yandı yalı, çulluğu,
Gözlərində basarlığın nisgili.

Tunqər ona qoşa-qoşa ox atdı,
Atıb onun yalmanını qanatdı,
Kəsdi qaçmaq yollarını daraltdı,
Gözlərində ata-oğul nisgili.
Gəlib onu şəlitdədi götürdü,
Bu döyüşü Tunqər belə bitirdi,
O, Daryaşı Əkbitənə gətirdi.
Gözlərində ata-oğul nisgili.

***

Böyük tanrı baxır bizə ucadan,
Pis ayaqda tanrılardan yapışın.
Alpis bezdi, döndü yenə Altyerə,
Pis ayaqda tanrılardan yapışın.

Oğul gərək bir inanca inansın,
Döyüşlərdə, vuruşlarda sınansın,
Öymələnsin, yaxşılıqla qınansın,
Pis ayaqda tanrılardan yapışın.

Dörd oğlunu Tunqər qatdı sınağa,
Yola saldı dağa, daşa, çaylağa,
Ata, deyib onlar getdi uzağa,
Yaxın-yaxın, uzaq-uzaq torpağa,
Pis ayaqda tanrılardan yapışın.

Ana dedi:-Tanrı sizi qoruyar,
İnanc sizə hər bir yerdə yarayar,
Gəncliyiniz yaxşı yolda qarıyar,
Pis ayaqda tanrılardan yapışın.

Odərpayın üztutması, kəsisi,
Pis ayaqda tanrılardan yapışın.
Dörd qardaşı tanrılara tapşırdı,
Pis ayaqda tanrılardan yapışın.

Dedi:-Tanrım, dörd qardaşı Qam elə,

Ovsunlanmış sevgilərdən yan elə,
Sevgiləri qarışmasın qan ilə,
Pis ayaqda tanrılardan yapışın.

Dedi, tanrım, anaları bağışla,
Pis ayaqda tanrılardan yapışın,
Tanrılıqdır dörd ər doğan ana da,
Pis ayaqda tanrılardan yapışın.
Sevgilim yox, oğlum, qızım da yoxdur,
Yanan Ocaq mənə isti, soyuqdur,
Yer üzündə artarlarım nə çoxdur,
Pis ayaqda tanrılardan yapışın.

Tunqərin öyüd söyləncі

Tanrım, bizə güc veribsən, bir də ver,
Bu dolanış əkənindir, biçənin.
Tunq adımı alıb Turan qoyaram,
Bu dolanış əkənindir, biçənin.

Tunqər dedi:-Oğullarım, tələsin,
Nə qədər ki qıy qanadlı gəncsiniz,
Dolanışı qamarlayıb alın siz,
Bu dolanış əkənindir, biçənin.

Çil-çilatı qotaz, ipək çulladı,
Dörd yan-yönə dörd ox atdı, tolladı,
Dörd oğlunu dörd yan-yönə yolladı,
Bu dolanış əkənindir, biçənin.

Tunqər dedi:-Dörd yan-yönə yol çəkin,
Uca-uca boy dayanan ev tikin,
Düzənlikdə quyu qazın,yer əkin,
Bu dolanış əkənindir, biçənin.

Kim olsa da yoxsullara əl tutun,
Çox işləyin, az istəyin, az yatın,
Hər bir yaxşı istəyizə tez çatın,
Bu dolanış əkənindir, biçənin.

Hər oğlumdan yeddi oğul doğulsun,
Acıq, küsü içinizdə boğulsun,
Sizə qarşı nə vardırsa dağılsın,
Bu dolanış əkənindir, biçənin.

Harda olsa dilləndirin dilləri,
Tutun sizə uzadılan əlləri,
Qoruqlayın çörək verən çölləri,
Bu dolanış əkənindir, biçənin.
Var, gəliri ev-ev, əl-əl paylayın,
Dargözlüyü, qısmırlığı tollayın,
Pisə qarşı tanrıları haylayın,
Bu dolanış əkənindir, biçənin.

Başraqlayın Mindiyarı,Turanı
Yığın otu, arpa, buğda, samanı,
Qovun pisi, düşərliyi, yalanı.
Bu dolanış əkənindir, biçənin.

Bəbəkləyin atı, otu, ananı,
Yaxın bilin qanmayanı, qananı,
Uca tutun yazı-pozu, inamı,
Bu dolanış əkənindır, biçənin.

Boş əl ilə qayıtmayın o yerdən,
Ürəyiniz yuxa olsun dəmirdən,
Uca olun, ayıq olun təpərdə,
Bu dolanış əkənindir, biçənin.

Dörd qardaşlar at çapdılar, getdilər,
Yeli, yalı dalda qoyub ötdülər,
Gözlərini silib gözdən itdilər,
Bu dolanış əkənindir, biçənin.

Sayanər söyləncі

Getdi Sayan Hindelyana,Təbətə,
Tanrı özü verir sənə uğuru.
Axşam üstü o bir kəndə yetişdi,
Tanrı özü verır sənə uğuru.

Ev yiyəsi yemək verdi qonağa,
Sonra onu çəkdi yüngül sınağa,
-Suyumuz yox, qızım gedib bulağa,
Tanrı özü verir sənə uğuru.

Qız gəlsəydi sənə qulluq edərdi,
Sən yatanda qoruyardı, güdərdi,
Sən haraya getsən sənlə gedərdi,
Tanrı özü verir sənə uğuru.

Qocalmışam,suya gedə bilmirəm,
Sürünürəm bunca,ancaq ölmürəm,
Gəl deyirəm, ölüm deyir gəlmirəm,
Tanrı özü verir sənə uğuru.

Sayan dedi:-Bulaq burdan uzaqdır,
Ata dedi:-Yolu tikan, alaqdır,
Ancaq qızım igid qızdır, qıvraqdır,
Tanrı özü verir sənə uğuru.

Sayan dedi:-Mən gedərəm yardıma,
Qız tuş gələr birdən meşə qurduna,
Həm də sərin su verərəm atıma,
Tanrı özü verir sənə uğuru.

***

Gəldi, gördü qız danışır bulaqla,
Suyun dili, qulağı var deyəsən.
Bulaq deyir, gir qoynuma, sərinlə,
Suyun dili, qulağı var deyəsən.

Qız deyir ki, su dərindir, bataram,
Mən boğulsam hardan, nədən tutaram,
Bulaq deyir harayına çataram,
Suyun dili, qulağı var deyəsən.

Bulaq deyir:-Qorxma,Tan-tan, gəl bəri,
Mən ilığam, həm də sərin, lap sərin,
Atan məni Buzbulağa döndərib,
Suyun dili, qulağı var deyəsən.

Sayan gülür, qıza neçə söz deyir,
-Ay qız, atan səni çoxdan gözləyir,
Diksinərək, çəkinərək qız deyir:
-Ah, sən kimsən?!
-Mən atanın qonağı.
-Qoy gözləsin, mən sevirəm bulağı,
-Çox gözəlsən dolu üzün, yanağın,
Suyun dili, qulağı var deyəsən.
-Yox-yox qızlar oğlan sevir, bulaq yox,
-Düz deyirəm, o oğlandır, bulaq yox,
Dili vardır onun, ancaq dodaq yox,
Suyun dili, qulağı var deyəsən.

Uşağıydıq, oynayırdıq durmadan,

Atam gördü, dedi, kimdi bu oğlan,
Dedim, məni çox-çox sevir bu oğlan,
Suyun dili, qulağı var deyəsən.

Çay qurudu, göl qurudu, quraqlıq,
Nə bir meşə, nə uçarsu, nə bağlıq,
Tək var idi bizdə dəli uşaqlıq,
Suyun dili, qulağı var deyəsən.

Çox axtardıq, nə su tapdıq, nə bulaq,
Tanrı bizə sevgi verdi busayaq,
Mən qız oldum, bu oğlansa Buzbulaq,
Suyun dili, qulağı var deyəsən.

***

Sayan dedi:-Düz deyirsən, gözəl qız,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.
Sayan dedi:-Ver götürüm tuluğu,
Sən götürsən sınar qolun, topuğun,
Mən qorxuram bu bulaqdan açığı,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Tuluq yaman ağır gəldi Sayana,
Sayan çəkdi onu o yan-buyana,
Lakqıldadı, o güc gəldi oğlana,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Bunu görüb qız əl atdı tuluğa,
Çəkdi, vurdu o tuluğu qoltuğa,
Girdi iti atdımlarla otluğa,
Tuluq döndü qoltuqaltı yasdığa,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Ata dedi:-Mənim qızım oğlandır,
Qoldan, qıçdan o güclüdür, sağlamdır,
O qız deyil, mənim oğul balamdır,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Sayan dedi:-O, bulağla danışır,
Bulaq ondan, o bulaqdan yapışır,
Qız əyilir hərdən onla öpüşür,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Ata dedi:-Onlar uşaq olublar,
Oynayıblar, birgə yaşa dolublar,

Nədəndirsə indi ayrı qalıblar,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Qız dedi ki, on il qabaq, ata sən,
Dedin, haray quraqlığın əlindən,
Su axtardıq, üç gün, dörd gün onla mən,
Su tapmadıq, boş qayıtdıq yenidən,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Oğlan dedi:-Gəl gedməyək lap uzaq,
Bu yaxında əlimizlə yer qazaq,
Qaza-qaza biz taparıq bir bulaq,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Bir neçə gün eşələndik, əlləşdik,
Acıqlandıq, hərdən də bir dilləşdik,
Ev-eşiyi unudaraq çölləşdik,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Oğlan üç yol düşük düşdü, sağaldı,
Su göründü, sular artdı, çoxaldı,
Oğlan mənə söz demədən yoxaldı,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

Tanrılaşdı, bulaqlaşdı o, deyən,
Hərdən gedib danışıram onla mən,
Bulaq sevir, mən bulağı ürəkdən,
Tanrı gücdür, sudur, oddur, ocaqdır.

***

Sayan qıza baxa-baxa saraldı,
Sevən oğlan bir az solar, saralar.
Qoca dedi:-Niyə belə dəyişdin,
Sevən oğlan bir az solar, saralar.

Qız da dedi:-Qonaq, niyə dəyişdin,
-Dəyişdim ki, görüm bu iş nə işdi,
Niyə bulaq sənə beş söz demişdi,
Sevən oğlan bir az solar, saralar.

-Yox mən onu diyə bilməm, soruşma,
Yaxşı olar sən bu işə qarışma,
Küsər bulaq, çətin olar barışmaq,
Sevən oğlan bir az solar, saralar.

Çox istəsən get özündən soruş sən,

O söyləsə, sən beş sözü bilərsən,
And içmişəm, diyə bilməm bunu mən,
Sevən oğlan bir az solar, saralar.

Ata dedi, qız açmadı beş sözü,
Kövrələrək yaşla doldu göy gözü,
-Tanrı baxır, bağışlamaz o bizi,
Sevən oğlan bir az solar, saralar.

“Beş söz” yaman düşündürdü Sayanı,
Burda sevdi alaçığı obanı,
Sevdi, qızla gəzdi, onla hər yanı,
Sevən oğlan bir az solar, saralar.

Ata gördü Sayan ilə qızını,
Vurdu ora-bura qoca özünü,
Açammadı Buzbulağın sözünü,
Sevən oğlan bir az solar, saralar.

Hər gün Sayan baş əyərək bulağa,
Onun ilə verdi dodaq-dodağa,
Dedi, danış o beş sözü qonağa,
Sevən oğlan bir az solar, saralar.
Bulaq susdu, danışmadı, dinmədi,
Öz andından, öz sözündən dönmədi,
Öz tanrılıq zirvəsindən enmədi,
Sevən oğlan bir az solar, saralar.

***

Sayan qızı çox sevirdi ürəkdən,
Bizə sevgi bağışlayan ürəkdir.
Gəldi, ona sevgisindən söz açdı,
Bizə sevgi bağışlayan ürəkdir.

Sayan getdi bir ay sonra qayıtdı,
Yaz yetişdi, ilk sevgini ayıltdı,
Yenə gəlib o Tan-tana söz atdı,
Bizə sevgi bağışlayan ürəkdir.

Dedi:-Sənsən Mindiyarda tək varım,
Əkbitənə səni gəlin aparım,
Minel olsun sənin doğma diyarın,
Bizə sevgi bağışlayan ürəkdir.

Ata bunu eşidərək ağladı,
Ürəyində nə vardısa laxladı,

Bu söz onun ürəyini oxladı,
Sonra yenə o, Sayanı yoxladı,
Bizə sevgi bağışlayan ürəkdir.

O yoxladı sevgisini Sayanın,
Gördü, qızı bu sevgidən oyanıb,
O, iki yol arasında dayanıb,
Bizə sevgi bağışlayan ürəkdir.

Dedi:-Sayan burda qalsın ərsayaq,
Qızım getsə, bu el-ocaq qalacaq,
Onda burda nələr-nələr olacaq,
Bizə sevgi bağışlayan ürəkdir.

Qıza dedi:-Sevgi iki başlıdır,
Diyən Sayan səndən bir az yaşlıdır,
Sevgi yolu tikanlıdır, daşlıdır,
Bizə sevgi bağışlayan ürəkdir.
Get Sayana, saxla, qalsın burada,
Sən harada, o da olsun orada,
Kəbinizi kəssin böyük yaradan,
Bizə sevgi bağışlayan ürəkdir.

Tan-tan dedi:-Könlüm mənə sus deyir,
Atam isə mənə doğru söz deyir,
Sevinərik biz evlənsək, düz deyir,
Bizə sevgi bağışlayan ürəkdir.

Axşam oldu, bulağ üstə yollandı,
Buzbulağın dörd yanına dolandı,
Sevgi üstə yeni sevgi qalandı,
Baxışları aşağıya sallandı,
Bizə sevgi bağışlayan ürəkdir.

Bulağ dedi:-Niyə belə tutqunsan,
Mən görürəm çox əzginsən, yorğunsan,
Diyən Tan-tan, sən Sayana vurğunsan,
Bizə sevgi bağışlayan ürəkdir.

Səni sevən oğlan gəlib, nə yaxşı,
Mən də ollam sənin bulağ qardaşın,
Sən böyüdün, mənsə qaldım az yaşlı,
Bizə sevgi bağışlayan ürəkdir.

Sənə görə mən burda sağ qalmışam,

Sən böyüdün, mənsə uşaq qalmışam,
El-obaya sərin bulaq olmuşam,
Sevinirəm burada yurd salmışam,
Bizə sevgi bağışlayan ürəkdir.

***

Tan-tan sildi göz yaşını, ağladı,
İki sevgi yaşayanlar yazıqdır.
Dedi:-Səni çox sevirəm, Buzbulaq,
Iki sevgi yaşayanlar yazıqdır.

Sayan səni məndən də çox istəyir,
Belə oğul az tapılar, mində bir,
-Ürəyim yox, atam ona get deyir,
İki sevgi yaşayanlar yazıqdır.
Bulaq dedi:-Mən bulağam, tanrıyam,
Mən sevgidən, ev-eşikdən ayrıyam,
Mən sənin̂çin ancaq belə duruyam,
İki sevgi yaşayanlar yazıqdır.

Mən sənin̂çin bulaq oldum, çağladım,
Uşaq ikən sənə könül bağladım,
Tanrı bizim sevgimizi yoxladı,
İki sevgi yaşayanlar yazıqdır.

Qız bulağla sonda belə görüşdü,
Yalaşaraq, qucaqlaşdı, öpüşdü,
Sular coşdu, löhmə-löhmə qarışdı,
İki sevgi yaşayanlar yazıqdır.

Sayan getdi gecə yenə bulağa,
Çəkdi yenə o bulağı sınağa,
Döndü onun qabağında yumağa,
İki sevgi yaşayanlar yazıqdır.

***

Sayan üç yol Buzbulağa əyildi,
Gənci qorxmaz ər eləyən sevgidir.
Dedi, yenə mən gəlmişəm yanına,
Gənci qorxmaz ər eləyən sevgidir.

Dedi, bulağ, yalvarıram mən sənə,
Öz gücünü, öz sevgini ver mənə,
Məni də qoy yarıtanrı yerinə,
Gənci qorxmaz ər eləyən sevgidir.

Bulaq dedi:-Sən çox yaxşı bir ərsən,
Mən bilirəm sən Tan-tanı sevirsən,
Bu sevgini mənə açıb deyirsən,
Gənci qorxmaz ər eləyən sevgidir.

Sənə çoxdur mənim böyük inancım,
Məndə duru inancdandır hər damcı,
Məndə qalır tanrımızın saxlancı,
Gənci qorxmaz ər eləyən sevgidir.

Qalır saxlanc bu suların altında,
Gizlədiblər onu yerin qatında,
O saxlancdır, böyük tanrı adında,
Gənci qorxmaz ər eləyən sevgidir.

Ancaq qazıb sən çıxarma saxlancı,
Qoy bilməsin nə acıqan, nə qancıl,
Toxunmasın ona oğru, yabançı,
Gənci qorxmaz ər eləyən sevgidir.

O Tan-tanın olmalıdır, bağışdır,
O, tək qızın sevgisində naxışdır,
Saxlanc deyil, toydur, görüş, barışdır,
Gənci qorxmaz ər eləyən sevgidir.

Tanrı özü gəlib suya girəcək,
O saxlancı Tan-tanqıza verəcək,
Onun gözəl qız toyunu görəcək,
Gənci qorxmaz ər eləyən sevgidir.

Qoca ata Sayanəri güdürdü,
Deyiləni bir-bir, söz-söz udurdu,
O, özünü tanrıyla bir tuturdu,
Gənci qorxmaz ər eləyən sevgidir.

Ata gecə qazdı, sökdü bulağı,
Saxlancyerə toxunanda ayağı,
Öldü, düşdü əlindəki çomağı,
Gənci qorxmaz ər eləyən sevgidir.

Sevgililər onu itmiş bildilər,
Bir-birinin göz yaşını sildilər,
Durub yenə bulağ üstə gəldilər,
Gənci qorxmaz ər eləyən sevgidir.

Gördülər ki, bulaq suyu çəkilib,
Altındakı böyük saxlanc sökülüb,
Hər bir yana qızıl-gümüş tökülüb,
Gənci qorxmaz ər eləyən sevgidir.
Gördülər ki, qoca ölüb, yıxılıb,
Dar gövdəsi yumaq kimi yığılıb,
Şimşək vurub, döşü-başı dağılıb,
Gənci qorxmaz ər eləyən sevgidir.

***

Sevgililər ağladılar, susdular,
Saxlancların yiyəsi var, tanrıdır.
Buzbulaqda ağı yeri qurdular,
Saxlancların yiyəsi var, tanrıdır.

Bir səs gəldi, sevgililər, durmayın,
Ta qocaya ağı yeri qurmayın,
Ağı deyib özünüzü yormayın,
Saxlancların yiyəsi var, tanrıdır.

Mən tanrıyam, sizi yaxşı görürəm,
O saxlancı alıb sizə verirəm,
Buzbulaqdan al gül, çiçək dərirəm,
Saxlancların yiyəsi var, tanrıdır.

Ağac əkin Buzbulağın başında,
Su axacaq gecə, gündüz daşından,
O da tanrılaşıb körpə yaşından,
Saxlancların yiyəsi var, tanrıdır.

O saxlancla buğda, arpa, ot əkin,
Mindiyara uzun-uzun yol çəkin,
Başkənd salın, yaraşıqlı ev tikin,
Saxlancların yiyəsi var, tanrıdır.

***

On il keçdi, çoxlu bulaq çağladı,
Bulaq tanrı vergisidir, görgüsü.
Buzbulağın üstə ağac əkdilər,
Bulaq tanrı vergisidir, görgüsü.

On il keçdi, son qoyuldu ürküyə,
Sevgililər çevrildilər sevgiyə,
Çevrildilər bulaq kimi güzgüyə,
Bulaq tanrı vergisidir, görgüsü.

Bura yeni ölkə oldu, el oldu,
Hər bir yanı tarla oldu, gül oldu,
Sevgi dönüb bir çağlayan dil oldu,
Bulaq tanrı vergisidir, görgüsü.

Tan-tan üç yol ana oldu, doğaraq,
İlk uşağa ad qoydular Buzbulaq,
Tanrı sevinc duydu hər gün baxaraq,
Bulaq tanrı vergisidir, görgüsü.

***

Harda suda bir yonulu daş gördün,
Buzbulaqdır,o uşağın yontası,
Durna görsən öz-özünə tək uçur,
Buzbulaqdır, onun sevgi durnası.

Harda suda üzən ağ quş görəndə
Bil,Tan-tandır, Sayanərin sonasi,
Harda bir tək ağac gördün yellənir
Odur körpə Buzbulağın anası.

Harda gördün döyüş-vuruş basarı,
O Tunqərdir, Sayanərin atası,
Harda gördün bolluq, dəniz, bağ, meşə
Nan-Sayandır, Mindiyarın ortası.
Bir qız görsən el toyunda oynayır
Buzbulaqdır, sayanərin artası.

***

Biri yaydır biri qışdır, yovuşur,
Bərki, boşu birləşdirən sevgidir.
Çox özünü atıb-tutma, əyil bir,
Yeri, göyü birləşdirən sevgidir.

Ağzı, burnu, qıçı, qolu üzülür,
Gözü çay tək,özü su tək süzülür,
Yaranışın, dolanışın özülü,
Bərki, boşu birləşdirən sevgidir.

Gizli sevir haradasa tanrı da,
Ceyran, maral, ayı, qurd-quş, arı da,
Gizli sevir susqun qoca, qarı da,
Suyu, odu birləşdirən sevgidir.

Qorxaq, varlı sevgisini gizlədir,

Utancaqlar öz-özünü pisləyir,
Yuxuda da sevgisini səsləyir,
Yeri, göyü birləşdirən sevgidir.

Sevibsənsə çox gizlətmə,açıqla
Sevgisoylar öz-özünə arıqlar,
Sevgisindən ey utanan yazıqlar,
Suyu, odu birləşdirən sevgidir.
Göz yaşından çələng hörən sevgidir.

Güllənirsən üzdən, sevgi gələndə,
Sevinirsən ağlayanda, güləndə,
Tanrısoysan yaşayanda, öləndə,
Varı, yoxu birləşdirən sevgidir.

VIII Bölmə XXIII QAPI

Alanər söyləncі

Ox dalınca Alan getdi Batıya,
Dörd bölgəyə bölünübdür yaranış.
Tanrı bölüb, günəş bölüb, bilinmir,
Dörd bölgəyə bölünübdür yaranış.

Soyuq, isti, quru nəmiş üz-üzə,
İki yanı gedib çıxır dənizə,
Bir yanda da dağlar verib diz-dizə,
Dört bölgəyə bölünübdür yaranış.

Getdi, beş yol düşdü qatı dumana,
Yenə getdi, çıxdı düzə, arana,
Çıxdı dikə o boylandı dört-yana,
Dörd bölgəyə bölünübdür yaranış.
Beş gün getdi, Balasqelə çatdı o,
Yenə getdi, bataqlığa batdı o,
Ayı günə, günü aya qatdı o,
Dörd bölgəyə bölünübdür yaranış.

Bir meşənin qırağında bir qarı,
Oturmuşdu dindirirdi otları,
Saçı kilkə, üzü-gözü sap-sarı,
Dörd bölgəyə bölünbdür yaranış.

Alan dedi ona:-Ay qız, günaydın,
Qarı dedi:-Yerindədir bu sayqın,

Ərsən, düşüb mənə qonaq olaydın,
Dörd bölgəyə bölünübdür yaranış.

Evim də var,yerim də var,düş atdan,
Gəl yanıma, otur, dincəl, diz qatda,
Neçə söyləncdeyim sənə elatdan,
Dörd böldəyə bölünübdür yaranış.

Alan düşdü, gəldi lap, lap yaxına,
Əl çəkərkən saqqalına, bığına,
Batdı qıçı bir dayaz su arxına,
Dörd bölgəyə bölünübdür yaranış.

Qarı güldü, dedi:-Kimsən, nəçisən,
Alan dedi:-Ovsunçusan deyəsən,
-Yox,kimsəsiz bir qarıyam,qızam mən,
Dörd bölgəyə bölünübdür yaranış.

-Ana,bacım,qarı nədir,qız nədir,
Sənin adın deyən qarı nənədir,
Deyən dilin öz içini göynədir,
Dörd bölgəyə bölünübdür yaranış.

Alan dedi:-Mən uzaqdan gələnəm,
Söylənckimi maraqlıdır uzaqlar.
Mən Tunqərin,Mindiyarın oğluyam,
Söylənckimi maraqlıdır uzaqlar.
Qarı dedi:-Məni dinlə, ay oğlan,
Mən qarıyam lap anadan olandan,
Məni belə yaradıbdır yaradan,
Söylənckimi maraqlıdır uzaqlar.

Eşitmişəm Mindiyarı, Tunqəri,
Oyanlardır döyüş, vuruş yerləri,
Bəs sən niyə bir sümüksən, bir dəri,
Söylənckimi maraqlıdır uzaqlar.

-Neçə aydır yol gəlirəm durmadan,
Yavaş-yavaş öz atımı yormadan,
Ondan,bundan yeri,yurdu sormadan,
Söylənckimi maraqlıdır uzaqlar.

-Mən görürəm,ərsən,solğun yanaqlı,
Hündür boysan yaraşıqlı, maraqlı,
Göz çəkənsən, iri, köklü, budaqlı,

Söyləmc kimi maraqlıdır uzaqlar.

Qaralıbdır gözəl bığın, saqqalın,
Saçın gurdur, qap-qaradır, qap-qalın,
Qal mənimlə sənə gözəl qız alım,
Söyləmc kimi maraqlıdır uzaqlar.

-Qız almağa gəlməmişəm buraya,
Gəlmişəm ki, işə, gücə yarayam,
Döyüş, vuruş olsa durum sıraya,
Söyləmc kimi maraqlıdır uzaqlar.

-Döyüş, vuruş ərənisən, görürəm,
Qal mənimlə sənə yer, yurd verərəm,
Mən də sənlə döyüşlərə girərəm,
Söyləmc kimi maraqlıdır uzaqlar,

Alan güldü, qarı durdu ayağa,
O əl atdı Alandakı yarağa,
Gözlər yandı, döndü isti ocağa,
Söyləmc kimi maraqlıdır uzaqlar.
Dedi:-Mən də vuruşqanam, ərənəm,
Sənin kimi gələcəyi görənəm,
Mənim deyil bu görünüş, bu görkəm,
Söyləmc kimi maraqlıdır yaranış.
***
Düşüncəyə daldı Alan dinmədi,
Oğul varki, ovsunlayır ovsunu.
Yarağını aldı onun əlindən,
Oğul var ki, ovsunlayır ovsunu.

-Vuruşqansan,ancaq qarı olmusan.
Niyə belə yumaqlanıb qalmısan,
Niyə belə yazıq görkəm almısan,
Bu meşədə gizli yer-yurd salmısan.
Oğul var ki, ovsunlayır ovsunu.

-Gedək, sənə danışaram çoxunu,
Nə bilibsən, oğul, ürkü-qorxunu,
Yeyib qorxu ürəyimin yağını,
Oğul var ki, ovsunlayır ovsunu.

Çox getdilər, atı çəkib dartdılar,
Gəlib kiçik daşağıza çatdılar,
Bir az yenə əyləşdilər, otdular,

Oğul var ki, ovsunlayır ovsunu.

Bir sürü qurd lapdan çıxdı qabağa,
Sağ əlini Alan atdı yarağa,
Qarı qaçdı girdi bir daş bucağa,
Oğul var ki, ovsunlayır ovsunu.

Alan birdən yarağını tolladı,
Oturaraq qurdlar kimi uladı,
Sonra alıb sol əlini yaladı,
Oğul var ki, ovsunlayır ovsunu.

Sonra dedi bərkdən,“Bozqurd”,”Əyri diş”
Baş qurd yerə çökdü sürü gəlməmiş,
Yaraqlının kim olduğun bilməmiş,
Oğul var ki, ovsunlayır ovsunu.
Ağzı açıq qaldı Alan özü də,
Doğmalaşdı sanki qurdlar gözündə,
Qurdlar çökdü onun iki sözündən,
Oğul var ki, ovsunlayır ovsunu.
***
Qarı dedi:-Oğul, bu lap ovsundur,
Ovsunlamaq olar lap ac qurdu da.
Yoxsa bizi dağıtmışdı bu qurdlar,
Ovsunlamaq olar lap ac qurdu da.

-Qurdlar ovsun-zada bağlı deyillər,
Ululların adlarını bilirlər,
Desən, qurdlar sənə yaxın gələrlər,
Ovsunlamaq olar lap ac qurdu da.

Ağqurd Alpan, Tuncər, Bacar, Üstüağ,
Qurdlar ilə birgə, yaxın olaraq,
Qancıllara qarşı birgə duraraq,
Vuruşublar iyidsayaq, qurdsayaq,
Ovsunlamaq olar lap ac qurdu da.

Qurdlar geri çəkildilər, ötdülər,
Geri-geri sürünərək getdilər,
Meşəlikdə onlar gözdən itdilər,
Ovsunlamaq olar lap ac qurdu da.

Qarı evə qonaq etdi Alanı,
Bir ev idi üstü xolla qapalı,
Lığ qamışla örtülmüşdü hər yanı,

Ovsunlamaq olar lap ac qurdu da.

Çölü yoxsul, evin içi bər-bəzək,
Çox çiçəkdən hörülübdür çox çələng,
Qablar var ki, çox bahalı, bər-bəzək,
Bu meşədə bu gizli ev nə demək,
Ovsunlamaq olar lap ac qurdu da.

Tağlar, damlar yontalanmış dirəkdən,
Hörgülər var qu tükündən, lələkdən,
Dil yorular gözəl-gözəl deməkdən,
Ovsunlamaq olar lap ac qurdu da.
Qarı dedi:-Bəyəndinsə, qalarsan,
İstəyincə öz qonağım olarsan,
Lap bəyənsən qızımı da alarsan,
Ovsunlamaq olar lap ac qurdu da.

Bir qız gəldi, döndü evə, döngədən,
Taysız idi gözəllikdə, gövdədə,
Sanki gülən çiçək idi ertədən,
Su istədi o qız qarı nənədən,
Ovsunlamaq olar lap ac qurdu da.

Çiçəklərin gülüşündən o üstün,
Onu güldən ayırmaq da çox çətin,
Evə işıq səpələyir büs-bütün,
Ovsunlamaq olar lap ac qurdu da.
***
Bəyənmədi Alan qızı, deyəsən,
Çox öyəndə gözdən düşür gözəl də.
Ana çox-çox öydü gözəl qızını,
Çox öyəndə gözdən düşür gözəl də.

Biri gödək, biri hündür, biri kök,
Biri yoğun, o birisi sür-sümük,
Biri incə, biri kötük, tör-töküк,
Çox öyəndə gözdən düşür gözəl də.

Qarı dedi:-Ərim olub yüzbaşı,
Mamırlanıb onun çoxdan başdaşı,
O yazığı öldürübdür minbaşı,
Çox öyəndə gözdən düşür gözəl də.

Onda mənə vurulmuşdu o qancıl,
Sevməyi də bacarmırdı yalançı,

Məni tez-tez izləyirdi ardıcıl,
Çox öyəndə gözdən düşür gözəl də.

Qaçdım gəldim buralara mən ondan,
Məni gəzir, yenə güdür o qaban,
O əl çəkmir mənim gözəl qızımdan,
Çox öyəndə gözdən düşür gözəl də.
Qarılaşıb yayınmışam gözündən,
Bunca mənim zəhləm gedir özümdən,
Zəhləm gedir onun qaban üzündən,
Çox öyəndə gözdən düşür gözəl də.

Qarısayaq geyinirəm acıqdan,
Mən qızımı qoruyuram yoluqdan,
Yazıq qızım, utanıram yazıqdan,
Çox öyəndə gözdən düşür gözəl də.

Bax, beləcə qızıl odda yanıram,
Mən səni də görüb, duyub, qanıram,
Səni, Alan igid oğlum sanıram,
Çox öyəndə gözdən düşür gözəl də.

Oğlum, sənə tapşırıram qızımı,
Gəlib-gəlib sona çatıb dözümüm,
Dedim bunca sənə sözün düzünü,
Çox öyəndə gözdən düşür gözəl də.

Çox düşündü Alan, gecə yatmadı,
Deyilənlər heç başına batmadı,
Yazıq qancıl kimdir, ona çatmadı,
Çox öyəndə gözdən düşür gözəl də.

***

Hamı sevə bilməz parlaq gözəli,
Öz yönü var sevilənin, sevənin.
Nəyin yoxsa, sən də onu sevirsən,
Öz yönü var sevilənin, sevənin.

Gödək hündür, hündür gödək sevəndir,
Qara ağı, ağ qaranı sevəndir,
Gursaç seyrək saçlıları sevəndir,
Öz yönü var sevilənin, sevənin.

Susqun, azca deyingəni bəyənir,
Gözü xırda gözü iri bəyənir,

Sısqa güclü, güclü sısqa bəyənir,
Öz yönü var sevilənin, sevənin.
Qurulubdu öncə belə dolanış,
Bəyənmişdir bu dirriyi yaranış,
Bir-birini dəyişməkdə yaz,yay,qış,
Öz yönü var sevilənin, sevənin.

Üstəlik də irişmələr, qılıqlar,
Ərköyünlər, bir də könlü sınıqlar,
Utancaqlar, utanmayan sırtıqlar,
Öz yönü var sevilənin, sevənin.

Öz yer-yurdu, öz vamı var hərənin,
Tanı sevgi görməyəni, göräni,
Gözdən qaçan, bir də gözə giräni,
Öz içində uluyanı, hüräni,
Öz yönü var sevilənin, sevənin.

Oğul, qızım dayanıbdır böyründə,
Aydır sanki, durub günəş yerində,
O da sanki sevir səni ürəkdən,
Öz yönü var sevilənin, sevənin.

Alanərlə minbaşının görüş söyləncisi

Enib girdi dərinliyə Alan da,
Dayaz-dərin, alçaq-hündür, bitişik.
Getdi Alan minbaşını görməyə,
Dayaz-dərin, alçaq-hündür, bitişik.

Dedi:-Başçı, mən uzaqdan gəlmişəm,
Mən özümə səni yaxın bilmişəm,
Neçə kərə dirilmişəm, ölmüşəm,
Buludlarla göz yaşımı silmişəm,
Dayaz-dərin, alçaq-hündür, bitişik.

Mənə əl tut, mənə bir az yardım et,
Yaraqlıyam, məndən yeni toplum et,
Mən güclüyəm, məni yurda durum et,
Dayaz-dərin, alçaq-hündür, bitişik.
Başçı baxdı, güldü ona acıqdan,
-Mən bezmişəm-dedi-səntək yoluqdan,
Nə çıxacaq sənin kimi yazıqdan,
Dayaz-dərin, alçaq-hündür, bitişik.

Mən görürəm sən doğudan gəlibsən,
Diyən bizi yazıq-yuzuq bilibsən,
Bura hələ gəlməmişdən ölübsən,
Dayaz-dərin, alçaq-hündür, bitişik.

Dedi:-Gördüm, yaraqlısan, potasan,
Öz yeri var sıralarda görkəmin.
Sənin kimi mən də gözə çarpanam,
Öz yeri var sıralarda görkəmin.

Bacarıqda seçilirsən nə ilə,
Mənim ilə bacarmazsan sən hələ,
İstəyirsən bir döyüşək, bax belə,
Öz yeri var sıralarda görkəmin.

Başçı qılınc çəkdi, gəldi yaxına,
Güc göstərmək istəyirdi çoxuna,
Alan baxdı, asta dedi yoğuna,
Öz yeri var sıralarda görkəmin.

-Gəl güləşək, sınaqlanaq, yaraqsız,
Lap soyunaq, biz başmaqsız, dolaqsız,
Sən dayaqlı, güclü, mənsə dayaqsız,
Öz yeri var sıralarda görkəmin.

Soyundular, güləşdilər, qızdılar,
Diz, dirsəklə yeri qat-qat qazdılar,
Güvəndilər güclərinə, azdılar,
Öz yeri var sıralarda görkəmin.

Başçı dedi:-Burax, ordan yapışma,
Yay kimisən, çox açılıb, yığışma,
Alan dedi:-Məndən heçnə soruşma,
Öz yeri var sıralarda görkəmin.
-Sən güclüsən, güc qaynayır gönündə,
Yerə vurma məni alay önündə,
Əl tutaram sənə ağır günündə,
Yıxıl mənə bu gedişdə, dönümdə,
Öz yeri var sıralarda görkəmin.

O düşündü,”Çox güclüdür bu oğlan,
Dilə tutum onu, çıxım aradan,
Görünür ki, güclü olub anadan,”
Öz yeri var sıralarda görkəmin.

Güləşdilər, güc verdilər qol-qıça,
Yoruldular, tərli, lüm-lüt, yalıncaq,
İkisi də buğa güclü qoç, qoçaq,
Öz yeri var sıralarda görkəmin.

Birdən onun ağzı-burnu əzildi,
Ayaqları lapdan yerdən üzüldü,
Minbaşının sözü, səsi nəzildi,
Əl-qol atdı, göydə səsi kəsildi,
Öz yeri var sıralarda görkəmin.

Dedi:-Məni yerə vurma, qoy yerə,
Ərlik göstər, bizə baxan ərlərə,
Bundan sonra mən başçıyam, sən ərən,
Öz yeri var sıralarda görkəmin.

***

Alan onu qoydu yerə yavaşca,
Güləş yeydir, gözlənilməz olanda.
Basar, basıq kimdir, artıq bilindi,
Güləş yeydir, gözlənilməz olanda.

Yanılmışdı başçı belə seçimdə,
Öc qaynadı minbaşının içində,
Güc duymuşdu onun sonzuz gücündə,
Gözündəsə Alan qanlı biçimdə,
Güləş yeydir, gözlənilməz olanda.
Başçı dedi, Alan bura gələndir,
Bundan sonra o toplumda ərəndir,
El yolunda o qanını verəndir,
Güləş yeydir, gözlənilməz olanda.

O düşündü,”yenilməzdir yaradan,
Bir gün onu çıxardaram sıradan,
Apararam, götürərəm aradan,
Nə bilərlər ölüb, qalıb harada,”
Güləş yeydir, gözlənilməz olanda.

Başçı bir gün çağırtdırdı Alanı,
Dedi:-Get tap itmiş ana-balanı,
Dağıt məni gözdən salan yalanı,
Güləş yeydir, gözlənilməz olanda.

Gəz dağları, meşələri, çölləri,
Dolaş bir-bir yaxın, uzaq elləri,

Dindir gözəl çiçəkləri, yelləri,
Ara gölü, çayı, axan selləri,
Güləş yeydir, gözlənilməz olanda.

Qap, yaxala, öldür, gətir onları,
Axsın gərək yalan üstə qanları,
Daha çatıb o qızların sonları,
Güləş yeydir, gözlənilməz olanda.

Ellər mənə yalan-qoşma qoşubdur,
Ölçü-biçi cızığını aşıbdır,
Ta dözmürəm, öc-acığım daşıbdır,
Güləş yeydir, gözlənilməz olanda.

Alan dedi:-Görkəmləri nə sayaq,
Başçı dedi:-Qız bəstəboy, utancaq,
Ana gözəl, ancaq yoxdur qanacaq,
Güləş yeydir, gözlənilməz olanda.

Alan dedi:-Yaxşı, gedib tutaram,
Bir qaranlıq dustaqlığa qataram,
İzin versən kölə edib sataram,
Güləş yeydir, gözlənilməz olanda.

***

Başçı yaman tutqun idi, acıqlı,
Qancıl gərək dörd bölünə qılıncla.
-Mən onlara on il çörək vermişəm,
Qancıl gərək dörd bölünə qılıncla.

Tapsan, öncə mənə söylə, mən bilim,
Öldürəndə gözlə məni, mən gəlim,
Qılınc ilə hərəsini dörd bölüm,
Qancıl gərək dörd bölünə qılıncla.

Alan indi başa düşdü qarını,
Qarı niyə minbaşıdan qorunur,
O, çağırır yardımına tanrını,
Qancıl gərək dörd bölünə qılıncla.

Gəldi gördü iki gözəl yanaşı,
Üstlərində bir ölkənin daş-qaşı,
Daş-qaş, qaş-göz, qol biləyə yaraşır,
Qancıl gərək dörd bölünə qılıncla.

-Qarı nənə-dedi-hanı, hardadır,

Qızlar dedi:-Oturublar, burdadır,
Dedi:-Qızlar, sizin işiz dardadır,
Qancıl gərək dörd bölünə qılıncla.

-Qarı nənə mənəm,Alan,bax,belə,
Görünürəm indi gözəltək sənə,
Daha, Alan, qarı olmam mən yenə,
Qancıl gərək dörd bölünə qılıncla.

Biz başçının qorxusundan köçəri,
Gah qaçırıq, gah doluruq içəri,
Ağı əkib burda ağrı biçirik,
Qancıl gərək dörd bölünə qılıncla.

Biz qorxudan burda acıq, yalavac,
Sən iyidsən, bizə doğru bir yol aç,
Özümüzdən biz qaçırıq, sən də qaç,
Qancıl gərək dörd bölünə qılıncla.
Başçı mənim qız balama vurulub,
Dirriyimiz uçub göyə sovrulub,
Ağlamaqdan qızım solub saralıb,
Qancıl gərək dörd bölünə qılıncla.
***
-Mən qızımı qoruyuram qancıldan,
Ata olsun qıza gərək atalıq.
O deyir ki, qızın səndən gözəldir
Ata olsun gərək qıza atalıq.

Qarı kimi geyinərəm, gəzərəm,
Qızım ərə gedənətək dözərəm,
Bala deyib yarpaq kimi əsərəm,
Ata olsun gərək qıza atalıq.

İstəmirəm məni gözəl görsünlər,
Qızıma yox,mənə çiçək versinlər,
Dul anadan çiçək-öpüş dərsinlər,
Ata olsun gərək qıza atalıq.

Buna görə qarı nənə olmuşam,
Buna görə çöl-bayırda qalmışam,
Öz-özümdən mən öc-acıq almışam,
Ata olsun gərək qıza atalıq.

Alan dedi:-Sən çox yaxşı anasan,
Ana başdır,bunu gərək qanasan,

Sən qızınla qoşa uçan durnasan,
Ata olsun gərək qıza atalıq.

***

Alan getdi ova, qızı apardı,
Qız tanrının gülümüdür hər yerdə,
Alan ona könül verdi, ad verdi,
Qız tanrının gülümüdür hər yerdə.

Onlar getdi kolluqları dolaşdı,
Qurdlar ilə tapışaraq ulaşdı,
Ayı ilə, zolaqlıyla qarpışdı,
Qaban ilə, tülkü ilə yollaşdı,
Quşlar ilə yuvalandı, tapışdı,
Qız tanrının gülümüdür hər yerdə.

Dedi:-Adın Ana olsun, Anna yox,
Dedi:-Sən bir göyərçinsən,sona yox,
Sən doğmasan,ta kimsəsiz durna yox,
Qız tanrının gülümüdür hər yerdə.

Ana dedi:-Nə gözəldir çiçəklər,
Gülə qonan kəpənəksoy ürəklər,
Buludlardan uca durur diləklər,
Diləklərdə şaxan qızıl şimşəklər.
Qız tanrının gülümüdür hər yerdə.

Alan dedi:-Bu yuxudur görürəm,
Yoxsa Ana adlı çiçək dərirəm,
Mən deyəsən öz sevgimdə itirəm,
Qız tanrının gülümüdür hər yerdə.

***

Ana dedi:- Apar məni Doğuya,
Sevgi birdir uzaq Doğu, Batıda.
Məni apar sevgililər yurduna,
Sevgi birdir uzaq Doğu, Batıda.

-Mən qorxuram anam əri başçıdan,
O qancıldan bizi qurtar, yaradan,
Gəl, bu gecə qaçaq, çıxaq aradan,
Sevgi birdir uzaq Doğu, Batıda.

-Biz ananı yalqız qoya bilmərık,
Yalqız qoysaq daha deyib gülmərik,

Yüz yaşasaq biz dincliklə ölmərik,
Sevgi birdir uzaq Doğu, Batıda.

Doğu yanda sökülürdü dan yeri,
Tutulmuşdu dodaqları, dilləri,
Titrəyirdi kirpikləri, əlləri,
Sevgi birdir uzaq Doğu, Batıda.
Evə gəlib nə gördülər, qan-qada,
Qarı nənə düşüb qalıb arada,
Bu qan nədir, söylə, böyük yaradan,
Sevgi birdir uzaq Doğu, Batıda.

Nənə ölüb, ev dağılıb, dam uçub,
-Kimdir belə qan axıdan bu qancıl,
Aldadıbdır məni deyən yalançı,
Sevgi birdir uzaq Doğu, Batıda.

Qız sarsılıb ağzı üstə yıxıldı,
Bunun ilə ana evi dağıldı,
Yaraqlılar gəlib sıx-sıx yığıldı,
Sevgi birdir uzaq Doğu, Batıda.

Başçı dedi:-Bu Alandır,bu da mən,
Budur mənim arvadımı öldürən,
Alan, bunu öldürmüsən niyə sən,
Sevgi birdir uzaq Doğu, Batıda.

Qoy el bilsin, Alan kimdir, mən kiməm.
Kim giribdir ərənsayaq görkəmə,
İndi görək güc gələcək kim kimə,
Sevgi birdir uzaq Doğu, Batıda.

Alan dedi:- Sənsən bunu törədən,
Sənsən məni, onu, bunu öyrədən,
Sənsən başı öclə dolu bir gödən,
Sevgi birdir uzaq Doğu, Batıda.

***

Qız ayıldı, çox ağladı, sıtqadı,
Güclü olur çoxu ölüm qabağı.
Saçlarını yolub tökdü torpağa,
Güclü olur çoxu ölüm qabağı.

Qız bir azdan ələ aldı özünü,
Dedi:-Bilin,mən deyirəm düzünü,

Mən tuturam minbaşıya üzümü,
Güclü olur çoxu ölüm qabağı.
Sən əl atdın qızlığıma, yanıldın,
Ana-bala nisgilində qan oldun,
Boşa çıxdı əlin,bizdən yan oldun,
Güclü olur çoxu ölüm qabağı.

On il səndən uzaq gəzdik, tökküldük,
Ev-eşikdən uzaq düşdük, söküldük,
Kökdən qopduq, biz yenidən əkildik,
Güclü olur çoxu ölüm qabağı.

Bir aydır ki, Alan gəlib buraya,
O giribdir barış deyə araya,
Ancaq toxdaq olmayıbdır yaraya,
Güclü olur çoxu ölüm qabağı.

Başçı dedi:-Qoy kəsilsin başları,
Atılsınlar qabağına quşların,
Qoy qalmasın daş üstündə daşları,
Güclü olur çoxu ölüm qabağı.

Qolu bağlı Alan çıxır irəli,
Yaraqlılar çıxıb gedir, seyrəlir,
Qalanlarsa ağlamsınır, kövrəlir,
Güclü olur çoxu ölüm qabağı.

Deyir:-Məni öldürünüz qızı yox,
Atalığı batıb qana, özü yox,
O, dup-duru qızdır, varda gözü yox,
Güclü olur çoxu ölüm qabağı.

Çağırıram başçımızı vuruşa,
İstəyirəm ondan bir söz soruşam,
Əl uzatsın biz əl tutaq yarışaq,
Güclü olur çoxu ölüm qabağı.

***

Alan birdən dönüb baxır meşəyə,
Son əl yeri, son inamdır inanış.
O ulayır, boz qurdları çağırır,
Son əl yeri, son inamdır inanış.
Gur ulartı səsi gəlir uzaqdan,
Başçı gedir, durur bir az qıraqda,
Yaraqlılar qorxur,tutur yaraqdan,

Son əl yeri, son inamdır inanış.

Qurd sürüsü lap yaxında görünür,
Hamı qorxur, sarılığa bürünür,
Kimi qaçır, kimi yerlə sürünür,
Son əl yeri, son inamdır inanış.

-Boz Qurd-deyib Alan çıxır irəli,
Alan qurda, qurd Alana güvənir,
İti dişlər boğazlara dirənir,
İrəlidə nə vardısa kürünür,
Son əl yeri, son inamdır inanış.

Üç qurd alıb minbaşını dağıdır,
Qurd dırnaqla, caynaqla qan axıdır,
Çoxunu da yerə sərən qorxudur,
Son əl yeri, son inamdır inanış.

Ana baxır, o inanmır gözünə,
Ovsunlanıb Alan Boz Qurd sözünə,
Gah bayılır, gah da gəlir özünə,
Son əl yeri, son inamdır inanış.

***

Bir ay keçir, qırx gün keçir olandan,
Yeni gəlir, unudulur olanlar.
El yığışıb başçı qoyur Alanı,
Yeni gəlir, unudulur olanlar.

Alan qurda, yaraqlıya baş olur,
Bu düşdüyü yerdə ağır daş olur,
“Minel” deyib hərdən uçar quş olur,
Yeni gəlir, unudulur olanlar.

Hərdən gizli “Tunqər ata” söyləyir,
Hərdən əski paltarını iyləyir,
Hərdən “Minel” söyləyərək kövrəlir,
Yeni gəlir, unudulur olanlar.

Çatanər söyləncisi

Ox dalınca Çatan getdi durmadan,
Ad dəyişir, ancaq el, yol dəyişmir.
At səyirtdi, Misirelə girdi o,
Ad dəyişir, ancaq el, yol dəyişmir.

Dəyişmişdi Firon yeni Fironla,

Üz-üzəydi yəhudilər Harunla,
Yaşayırdı ellər əski durumla,
Ad dəyişir, ancaq el, yol dəyişmir.

Günəş idi Misirelin tanrısı,
Kəsi-küsü, sevgi, inam tanrısı,
Tanrılıqdı, fironluqdu ağrısı,
Tanrıinanc yaşayırdı yarısı,
Ad dəyişir, ancaq el, yol dəyişmir.

Ölməz yaşam sözü girib araya,
Ölməzliyi yaşadırdı mumiya,
Ölməz sevgi, ölüm durub sıraya,
Ölməzlik də söykənmişdi buraya,
Ad dəyişir, ancaq el, yol dəyişmir.

El qumluqda ölməz ağac əkirdi,
Ölməzliyə daş Başevlər tikirdi,
Ölməzliklər Başevlərə çökürdü,
Ad dəyişir, ancaq el, yol dəyişmir.

Yəhudilər Misireldən köçürdü,
Dönməzliyə yüz minlər and içirdi,
Ağızlar od, gözlərsə yaş tökürdü,
Ad dəyişir, ancaq el, yol dəyişmir.

Çatan çatdı belə gündə ölkəyə,
O sığındı lüm-lüt, yoxsul bölgəyə,
Bir ağac yox sığınasan kölgəyə,
Ad dəyişir, ancaq el, yol dəyişmir.
Qayıqçılar aldı onu araya,
Dedilər ki, hardan gəldin buraya,
Gəl bir yerdə qızıl balıq ovlayaq,
Ad dəyişir, ancaq el, yol dəyişmir.

O dedi:-Mən minminbaşı oğluyam,
Kökdən, dibdən Tur şahına bağlıyam,
Çətin sizlə burada baş saxlayam,
Ad dəyişir, ancaq el, yol dəyişmir.
***
Bir balıqçı ona dedi:-Ay Çatan,
Kişi gərək hər bir işi baçarsın.
Şah oğlu da gərək ovu öyrənə,
Kişi gərək hər bir işi bacarsın.

Deyən yaxşı bacarırsan üzməyi,
Sular üstə ilan kimi gəzməyi,
Qarmaqları sıra ilə düzməyi,
Kişi gərək hər bir işi bacarsın.

Qayıq üstdə ayıq, sayıq durarsan,
Balıqlara ip, ilişkən qurarsan,
İriləri bizuc ilə vurarsan,
Kişi gərək hər bir işi bacarsın.

Balıq kürü tökür başı yuxarı,
Sən də tərsə üzməlisən axarı,
O başını hərdən sudan çıxarır,
Kişi gərək hər bir işi bacarsın.

Onda balıq ilişkənə tez düşür,
Gözləsən də bu hərdən-bir görüşü,
Hərdən dalğa ov işinə qarışır,
Hərdən balıq dalğa ilə yarışır,
Ovçu gərək üzə dalğa qarışıq,
Kişi gərək hər bir işi bacarsın.

Çatan baxdı göy sulara saraldı,
Burulqanı görcək gözü qaraldı,
Bəbəkləri xırdalaşdı, daraldı,
Kişi gərək hər bir işi bacarsın.

Biri onu itələdi yarğandan,
Çaya düşdü, səs çıxmadı Çatandan,
Yoxlanırdı o beləcə yalandan,
Kişi gərək hər bir işi bacarsın.

Çatan batdı, sarsılarkən dözümü,
Bir balıqçı suya atdı özünü,
Su altında açdı iki gözünü,
Kişi gərək hər bir işi bacarsın.

Çatan sudan asılmışdı, asılqan,
Fırladırdı onu iti burulqan,
Nil suları nə amansız, nə yaman,
Kişi gərək hər bir işi bacarsın.

***

Balıqçılar onu çəkdi çıxartdı,
Oddur,sudur,külək,bunlar yamandır.
Dedilər ki, yoxlayırdıq biz səni.

Oddur, sudur, külək, bunlar yamandır.

Çatan dedi:-Məni tutdu burulqan,
O fırlatdı, saldı məni ayaqdan,
Çox şey gördüm orda,balıq,quş,qaban,
Oddur, sudur, külək, bunlar yamandır.

Bundan sonra qoşuluram sizlərə,
Qurban olum bu qırışmış üzlərə,
Su altında məni tapan gözlərə,
Oddur, sudur, külək, bunlar yamandır.

Atı satdı, qayıq aldı, su atı,
İki avar onun qoşa qanadı,
Dedi,"Gedək, suda üzək, su atım,"
Oddur, sudur, külək, bunlar yamandır,
Tez öyrəndi, tez alışdı Nilə o,
Seldə yaxşı üzəmmirdi hələ o,
Tutammırdı iri balıq hələ o,
Oddur, sudur, külək, bunlar yamandır.

Əlləşirdi üzsün başı yuxarı,
Qayçılasın qollarıyla axarı,
Aldadandı çayın axar-baxarı,
Oddur, sudur, külək, bunlar yamandır.

Lil gəlirdi sular yağış yağanda,
Sevinirdı gündüz günəş çıxanda,
Yatımlıydı çən döşündən qalxanda,
Oddur, sudur, çovğun, bunlar yamandır.

Sevinirdi dalı üstdə üzəndə,
Qısılırdı yanı üstdə üzəndə,
Böyrü üstdə, qarnı üstdə üzəndə,
Oddur, sudur, külək, çovğun yamandır.

Sevinirdi tutduqların sayanda,
Şappıldayıb çay yarğanı yuyanda,
Şırıltını, pıçıltını duyanda,
Oddur, sudur, külək, çovğun, yamandır.

Balıq sanki tanıyırdı Çatanı,
Balıq deyə suya batıb çıxanı,
Çay döşəyi, bulud isə yorğanı,
Oddur, sudur, külək, çovğun yamandır.

***

Bir şah vardı,çaylar şahı,Aman şah,
Ölkəsinə tanrı ola şah gərək.
Sara qızı gözəl idi bu şahın,
Ölkəsinə tanrı ola şah gərək.

Çaylar şişib yazda aşıb daşanda,
Seldən, sudan ellər, kəndlər şaşanda,
Qoşar çaya üztut, mahnı qoşanda,
Ölkəsinə tanrı ola şah gərəg,
Selə kəsi verirdilər, batırdı,
Kəsi-qızı sel-su alıb yatırdı,
Sel-sulara kəsi dinclik qatırdı,
Ölkəsinə tanrı ola şah gərək.

Kəsi gəzəl olmalıydı, lap gözəl,
O yatımlı olmalıydı hər gözə,
Qız kəsiydi daşqın çaya, dənizə,
Ölkəsinə tanrı olsun şah gərək,

Gizlədirdi şah qızını hamıdan,
Gizlədirdi ağsaqqaldan, tanrıdan,
Utancaqdı şah öz qızı sarıdan,
Ölkəsinə tanrı ola şah gərək.

Çox gözəllər atılmışdı sellərə,
Mahnı olub düşmüşdülər dillərə,
Bu kəsilər dözülməzdi ellərə,
Ölkəsinə tanrı ola şah gərək.

Ancaq bir gün Nil basanda çölləri,
Çox atdılar suya atla, kəlləri,
Kəl almadı qabağını sellərin,
Ölkəsinə tanrı olsun şah gərək.

Daha gözəl qalmamışdı ölkədə,
Biri vardı, şah qızıydı, kölgədə.
İş aşmırdı buğa, gamış, cöngədən,
Ölkəsinə tanrı olsun şah gərək.

Ağsaqqallar bir ocağa yığışdı,
Başbilənlər bir-biriylə barışdı,
Şahın ölkə işlərinə qarışdı,
Ölkəsinə tanrı ola şah gərək.

Dedilər ki, gözəl yoxdur, lap düzü,
Bir gözəl var, o da gözəl şah qızı,
Həm gözəldir, həm göyərçin, həm quzu,
Ölkəsinə tanrı ola şah gərək.
Şah tutuldu, qız yeridi irəli,
-Biz bilikli-dedi-ancaq çay dəli,
Ata, bu gün qızın kəsi getməli,
Ölkəsinə tanrı ola şah gərək.

***

Sellər şişdi, gəlib çatdı Başkəndə,
Seldə, suda, odda ölçü-biçi yox.
Ata, ana qara geydi, ağladı,
Seldə, suda, odda ölçü-biçi yox.

Ağlar gözlə bəzədilər Saranı,
Sara kimi gözəl hanı,qız hanı,
Sara gəlib yarğan üstdə dayanır,
Seldə, suda, odda ölçü-biçi yox.

Hamı yerdə el-obalar haylanır,
Gəlir hamı yarğan yönə boylanır,
Ağı deyir hamı, küyə quylanır,
Seldə, suda, odda ölçü-biçi yox.

Balıqçılar gəlir qızı görməyə,
Son üztutu qorxmaz qıza verməyə,
Şah qızıyla danışığa girməyə,
Seldə, suda, odda ölçü-biçi yox.

Sel də baxdı qıza, deyən udqundu,
Udqunaraq güldü, güldü, uğundu,
Tökdü göydən boz buludlar yağıntı,
Seldən, sudan, yerdə uçuq, dağıntı,
Seldə, suda, odda ölçü-biçi yox.

Çatan gəldi lap yaxına qarmaqla,
Baxdı qıza ürkək-ürkək maraqla,
Qara saçlar, ağ üz, alma yanaqlar,
Seldə, suda, odda ölçü-biçi yox.

Sara gördü ona baxır bir oğlan,
Acıqlandı, atdı özün yarğandan,
Boylanaraq gördü bunu yaradan,
Seldə, suda, odda ölçü-biçi yox.
Çatan dedi:-Dayan, böyük Nil çayı,

Dedi, dayan, çox gözəldir qız payın,
Dedi, səni qancıl sayım, çay sayım,
Seldə, suda, odda ölçü-biçi yox.

Sanki bir an sel dayandı, sel yatdı.
Bu səs bütün el-obanı oyatdı,
Tanrı gördü bunu o əl uzatdı,
Seldə, suda, odda ölçü-biçi yox.

Çatan baxdı, cod qaşları çatıldı,
O sıçrayıb yatan selə atıldı,
Dalğaların axarına qatıldı,
Seldə, suda, odda ölçü-biçi yox.

***

Çatan dedi:-Sara,qorxma,gəlirəm,
Kim görmürsə tanrı görür bunları,
-Nil çayının yöndəmini bilirəm,
Kim görmürsə tanrı görür bunları.

Çatan üzdü burulqana qarışdı,
Burulqanlar dalğalarla çarpışdı,
Çatdı qıza qoltuğundan yapışdı,
Dalğalarla yumruqlaşdı, qarpışdı,
Kim görmürsə tanrı görür bunları.

Sel onları atdı, tutdu, oynatdı,
Baş-gözünü, qol-qıçını qanatdı,
Gah gur yerə təpdi, gah da yan atdı,
Kim görmürsə tanrı görür bunları.

Sel onları atdı, tutdu yüz kərə,
Övkələdi, çırpdı, sürtdü düzlərə.
Sonra atdı hərəsini bir yerə,
Bir adaydı, bürünmüşdü lillərə,
Kim görmürsə tanrı görür bunları.

Çatan qalxdı, gəzdi ora-buranı,
Gəzdi lildə, kol-koslarda Saranı,
Sara isə sınıq-salxaq, yaralı,
Kim görmürsə tanrı görür bunları.
Pal-paltarı didilmişdi əynində,
Neçə yara açılmışdı çiynində,
Şah qızıydı, ancaq yazıq nə gündə,
Kim görmürsə tanrı görür bunları.

Qışqıraraq Sara tez-tez bayıldı,
Səsi seltək dörd bir yana yayıldı,
Üç gün keçdı, Sara bir də ayıldı,
Kim görmürsə tanrı görür bunları.
***
Çoxdan köpü yatmış idi sel-suyun,
Bərk kükrəyən selin köpü tez yatar,
Nil boyunca löhmə, palçıq, lil, kötük,
Bərk kükrəyən selin köpü tez yatar.

Keçdi sel-su qorxusundan düz bir ay,
El-obanı sarsıtmışdı bu olay,
Sara, Çatan ikisi də ölüvay,
Axtarırdı ölüləri üç alay,
Bərk kükrəyən selin köpü tez yatar.

Qırxıncı gün tapıldılar adada,
Qurudular, qorundular qadadan,
Çox sevindi, toy çaldırdı şah ata,
Bərk kükrəyən selin köpü tez yatar.

Çatan dedi:-Mən də şahın oğluyam,
Soykökümlə Mindiyara bağlıyam,
Kim olsam da mən sel-sudan dağlıyam,
Şah sevgimdə gərək ötəm, çağlayam,
Şah sevgimi gərək bir də yoxlayam,
Sara ilə birgə güləm, ağlayam,
Bərk kükrəyən selin köpü tez yatar.

Ata gəldi ər oğlunun toyuna,
Daş-qaş, qızıl düzdü qızın boyuna,
Nəyi vardı qatdı oğul payına,
Bir ox qoydu at quyruğu yayına,
Atdı,-dedi:-gedək minel soyuna,
Bərk kükrəyən selin köpü tez yatar.
Balıqçılar şahdan bağış aldılar,
Yeyib, içib toyda səs-küy saldılar,
Neçə gün də şaha qonaq qaldılar,
Bərk kükrəyən selin köpü tez yatar.
***
Sevgi nədir, isinişmə, öyrənmə,
Sevgi öncə ilk baxışdan başlanır.
Bir də baxır, yüz də baxır gözaltı,
Sevgi öncə ilk baxışdan başlayır.

Çox sevgilər öldü,getdi,qalmadı,
Barış, küsü oldu, sevgi olmadı,
Üzlər soldu, ancaq sevgi solmadı,
Sevgi öncə ilk baxışdan başlayır.

Çox özünü atma o yan, bu yana,
Üstünlük ver ilk sevgini duyana,
Onun ilə hər yer sarı boyanar,
Sevgi öncə ilk baxışdan başlayır,

Sevirsənsə göstər onu, utanma,
Dözümlü ol,susqun olma,usanma,
Soyuqluqdan od götürüb odlanma,
Sevgi öncə ilk baxışdan başlayır.

Çox tələsmə, ayrılıq var, görüş var,
Soyuqluqla, ayrılıqla vuruş var,
Gündə-gündə yüngül küsü,barış var,
Sevgi öncə ilk baxişdan başlayır.

Qaplanər söyləncі

Qaplan getdi ox dalınca uzağa,
Gedən yeri, yolu gərək biləsən.
Dağlar aşdı, çöllər keçdi, meşələr,
Gedən yeri, yolu gərək biləsən.

Bir ay getdi, nə el gördü, nə elat,
Diz qatdadı yorularkən yorğun at,
Bulud gəldi göy üzünə neçə qat,
Gedən yeri, yolu gərək biləsən.
Tutularaq toranlaşdı göy üzü,
Çən bürüdü yavaş-yavaş dağ,düzü,
Böyrü üstə döndü sanki ay özü,
Gedən yeri, yolu gərək biləsən.

Quşlar susub bir-birinə qısılıb,
Bulud yerdən,yer buluddan küsülü,
Ağac göydən sallanıbdır, asılı,
Gedən yeri, yolu gərək biləsən.

Quşlar göydə dalı-dalı uçurlar,
Quyruqlular dalı-dalı qaçırlar,
Baş-ayaqdır burda, orda nə ki var,
Gedən yeri, yolu gərək biləsən.

Qaplan dedi:-“Gəl bu yoldan dön geri,
Baş-ayaqdır bu yerlərin hər yeri,
Nə görünür, nə də biri səs verir”,
Gedən yeri, yolu gərək biləsən.

Birdən çıxdı qabağına bir arvad,
Quş kimidir,ancaq yoxdur tük,qanad,
Üz dərisi, döş dərisi neçə qat,
Gedən yeri,yolu gərək biləsən.

Dedi:-Qaplan gəldiyin yer Altyerdir,
Altyer, Üstyer nə ikidir, nə birdir,
Burda hər şey daşdır, tuncdur, dəmirdir,
Gedən yeri, yurdu gərək biləsən.

Qapıçıyam bu qapısız Altyerə,
Gəlib sənin soyköklərin bu yerə,
Səndən suvay bura gələn yox hələ,
Gedən yeri, yurdu gərək biləsən,

Bacar gəlib Turqər gəlib gediblər,
Tanrılarla vuruşublar, ötüblər,
Qızçiçəklə, Şimşəkatla itiblər,
Gedən yeri, yurdu gərək biləsən.

Qaplan dedi:-Mən anadan olanda,
Qızçiçəyi eşitmişəm atamdan,
Gəlin olub o qız bizə yalandan,
Gedən yeri, yurdu gərək biləsən.

***

Baş apardı, baş tovladı qapıçı,
-Böyük tanrı Hörmüz deyil, Alpisdir.
Sən gəlibsən Qızçiçəyi görməyə,
Böyük tanrı Hörmüz deyil, Alpisdir.

Qapıçıyam, dörd bir yanda gözüm var,
Tanrımızda dəmir kimi dözüm var,
Mənim kimi burda min-min yüzü var,
Biz basarıq, bunun geci, tezi var,
Böyük tanrı Hörmüz deyil, Alpisdir.

Baş apardı, baş tovladı qapıçı,
Bir səs gəldi uzaqlardan gur, açıq,
Qapıçının sözü qaldı yarlmçıq,

“Böyük tanrı Alpis deyil, Hörmüzdür”.

-O qapıçı, Qaplan, səni aldadır,
Gözlə məni, böyük nənən yoldadır,
Giriş qapı orda deyil, daldadır,
Böyük tanrı Alpis deyil, Hörmüzdür.

Mən tutuğam bu Altyerdə Alpisə,
Salınmışam mən bir hopuq təlisə,
Gözlə məni, mən gəlirəm, nə isə...
Böyük tanrı Alpis deyil, Hörmüzdür.

Qaplan qaçdı qapıçının dalınca,
Sağ əlini atdı iti qılınca,
O yox oldu onu qılınc alınca,
Böyük tanrı Alpis deyil, Hörmüzdür.

Çıxdı onun qabağına bir dəvə,
Dəvə deyil, çox yekə bir heyvərə,
Şişdi, şişdi, döndü ətdən çəpərə:
“Böyük tanrı Hörmüz deyil, Alpisdir”.
Qadın durdu, tərs-tərs baxdı Qaplana,
O hərləndi od püskürdü hər yana,
At diskindi, çaşdı, çapdı od yana,
Böyük tanrı Alpis deyil, Hörmüzdür.

Qaplan düşdü oda, atı çağırdı,
Qatı tüstü atı alıb boğurdu,
Qaplan vurdu heyvərəni bağırtdı,
Böyük tanrı Alpis deyil, Hörmüzdür.

O, qılıncla od, alovu dağıtdı,
Öz atını çəkib oddan çıxartdı,
Gələnləri qılıncıyla qorxutdu,
Böyük tanrı Alpis deyil, Hörmüzdür.

***

Getdi, ancaq bilmədi ki hayana,
Güc artırar sənə yeri tanımaq.
O baş qoydu atın yalı üstünə,
Güc artırar sənə yeri tanımaq.

Ölüb yerə çökmüş idi heyvərə,
İnanmırdı bir qılıncla gəbərər,
Bir də durdu, bir də aşdı son kərə,

Güc artırar ərdə yeri tanımaq.

Birdən attək kişnədilər buludlar,
Bir quş gəldi, vurdu onu qanadla,
Qaplan aşdı ağzı üstə boz atla,
Güc artırar ərdə yeri tanımaq.

Qızçıçək də dedi boğuq bir səslə,
-Yaxındadır tanrı, ondan güc istə,
Hərlə, hərlə qılıncını baş üstə,
Güc artırar ərdə yeri tanımaq.

Qaplan dedi:-Tanrım, güc ver Qaplana,
Tut üzünü sən üstyerdən bu yana,
Basar elə onu pisə, yamana,
Güc artırar ərdə yeri tanımaq.
Quş qılıncı gördü, yerə oturdu,
Vurdu quşu Qaplan, işin bitirdi,
Qızçiçək də özün ona yetirdi,
Güc artırar ərdə yeri tanımaq.

Aldı Qaplan Qızçiçəyi tərkinə,
Baxdı onun gözlərinin təkinə,
Bürmələdi nənəsini kürkünə,
Güc artırar ərdə yeri tanımaq.

Dedi:-Böyük Mindiyarın vurğunu,
Kim qaraldıb gözlərinin ağını,
Nədir bu göz yaşlarının axını,
Güc artırar ərdə yeri tanımaq.

Dedi:-Oğul, mən Alpisdən uzağam,
Üç min ildir bu Altyerdə dustağam,
Ayrılmışam Mindiyardan qırağam,
Bunlar mənə, mən bunlara yasağam,
Üç min ildir mən ölmüşəm,mən sağam,
Güc artırar ərdə yeri tanımaq.

***

Üç min ildir mən tutuğam Alpisə,
Pis olarsan pisdiklilər içində,
Yaxşı oldum mən Üstyerdə neçə il,
Pis olarsan pisdiklilır içində.

Güc qalmayıb məndə, oğul, ölürəm,

Bu ölməyi mən Bacardan bilirəm,
O gözləyir məni, de ki, gəlirəm,
Pis olarsan pisdiklilər içində.

Qaplan tutqun, atı isə yüyürək,
Danışırdı keçmişləri Qızçiçək,
Çırpınırdı, tələsirdi üç ürək,
Pis olarsan pisdiklilər içində.

Birdən çıxdı qara ayı qarşıya,
Nənə dedi:-Qoyma onu başlaya,
Qoyma onu daşı bizə tuşlaya,
Daş götürüb ayı bizi daşlayar,
Pis olarsan pisdiklilər içində.

Onu gərək hərləyəsən, yorasan,
Önu gərək göbəyindən vurasan,
Gövdəsini gərək iki yarasan,
Pis olarsan pisdiklilər içində.

Bir vurumla ayı yerə sərildi,
Bir də vurdu, bir də öldü, dirildi,
Yarılaraq tükü göyə sovruldu,
Pis olarsan pisdiklilər içində.

Nənə dedi:-İrəli get sən ancaq,
Qabaqda da heyvərələr olacaq,
Kəl qartallar qarşımızı alacaq,
Pis olarsan pisdiklilər içində.

Düz get, dayan, biz onları güdərik,
Ordan sağa yol dəyişib gedərik,
Sonra sola, sonra gözdən itərik,
Pis olarsan pisdiklilər içində.

Yol getdilər beş gün, qıçlar süründü,
Yol getdilər, dağ-daş çənə büründü,
Altyer, üstyer bir-birinə dirəndi,
Göy açıldı, ayla günəş göründü,
Pis olarsan pisdiklilər içində.

Nənə dedi:-Qaplan,oğlum,kötükçəm,
Burda dayan, atını da qoy dincə,
Mənim yolum, bax, burada bitəcək,
Öləcəyəm, məni basdır bu gecə,

Tanrı verib sənə böyük gələcək,
Mindiyara de ki, öldü Qızçiçək,
Pis olarsan pisdiklilər içində.
***
Sonevində yatdı nənə Qızçiçək,
İki yanlı iki yandan qalacaq.
O, Tuncərin, Qarçiçəyin anası,
İki yanlı iki yandan qalacaq.

-Altyer, Üstyer, tanrılıqdır, yaxşı, pis,
Üz-üzədir, bu Hörmüzdür, o Alpis,
Görüşürük ikisiylə gündə biz,
Qızçiçəyi burda ortaq sayız siz,
İki yanlı iki yandan qalacaq.

İki yanın ilk yurddaşı sən oldun,
İki yanın ölməz adı sən oldun,
Dörd min ildən sonra düşdün,qocaldın,
İki yanlı iki yandan qalacaq.

Yat Mindiyar torpağında,yuxla sən,
Əkbitənə gəl hərdən bir qonaq sən,
Deyən dirrik dəyişəcək yenidən,
İki yanlı iki yandan qalacaq.

O bilmirdi Alpis durub qıraqda,
Tutqun baxır bu sonevə bayaqdan,
Şimşəkquyruq vurnuxurdu uzaqda,
İki yanlı iki yandan qalacaq.
***
Belə dedi Alpis ona qıraqdan,
Yaxşı olsan pislik yenə azalmaz,
Şimşəkquyruq atı çapdı irəli,
Yaxşı olsan pislik yenə azalmaz.

-Sən Sannanı sevmiş idin, ay oğlan,
Qardaşların gül dərdilər o qızdan,
Sevgi yalan,qardaş yalan,sən yalan,
Yaxşı olsan pislik yenə azalmaz.

Al bu atı, min get, orda şah ol sən,
Al Sannanı qardaşların əlindən,
Yardım ollam,yazıq Qaplan,sənə mən,
Yaxşı olsan pislik yenə azalmaz.
Qaplan bunu bilən kimi inandı,

Onda qısqanc düşüncələr oyandı,
Mindi atı, bir az getdi, dayandı,
Yaxşı olsan pislik yenə azalmaz.

Dedi:-Kimdir bu sözləri söyləyən,
Haradasan, gizlənibsən niyə sən,
Düş qabağa, məni çıxar bu yerdən,
Yaxşı olsan pislik yenə azalmaz.

-Mən Alpisəm, pisdiklilər tanrısı,
Mənimkidir dayanışın yarısı,
Üstyerlinin sonu, qorxu, ağrısı,
Yaxşı olsan pislik yenə azalmaz.

Qaplan dedi:-Sənsən yolu bağlayan,
Qızçiçəyı min il tutuq saxlayan,
Sevgiləri, ürəkləri dağlayan,
Yaxşı olsan pislik yenə azalmaz.

-Mənəm-dedi-Alpis iyid Qaplana,
Şahlıq edən hər ölümə, yalana,
Qardaşların Sayan, Alan, Çatana,
Yaxşı olsan pislik yenə azalmaz.

Qaplan oxu qoydu yaya, dartdı o,
Dörd bir yana oxla, bizuc atdı o,
Dörd yanını bir-birinə qatdı o,
Yaxşı olsan pislik yenə azalmaz.

Alpis güldü, səsi düşdü ormana,
Bulud gəldi, şimşək çaxdı Qaplana,
Qaplan yandı,döndü tüstü,dumana,
Yaxşı olsan pislik yenə azalmaz.

Alpis dedi:-Üstyerə at çaparam,
Üç qardaşı harda olsa taparam,
Onlara da şimşək ölüm yaparam,
Yaxşı olsan pislik yenə azalmaz.

Yer üstündə qalın kölgə göründü ,
Görünərək duman kimi süründü,
Alpis idi boz tüstüyə büründü,
Yaxşı olsan pislik yenə azalmaz.

XXIV QAPI

Dörd yüz yaşlı Odər Söyləncisi

Alpis gəzdi, üç qardaşı tapmadı,
Min yaşayar pis tanrıdan yayınan.
Gəldi yenə Odərpayın yanına,
Min yaşayar pis tanrıdan yayınan.

Dedi:-Odər, hayandadır üç qardaş,
Dördü bir qız sevən o üç yekəbaş,
Sanna küsüb, ağlar qalıb o göz-qaş,
Min yaşayar pis tanrıdan yayınan.

Onları mən çağırıram barışa,
Bir qız üstə qardaşları yarışa,
Bunca çox iş bir-birinə qarışar,
Min yaşayar pis tanrıdan yayınan.

Odər dedi:-Görünmürsən niyə sən,
Tanrısansa çox iş gəlmir əlindən,
Söyləyirəm sənə tanrı dilində,
Min yaşayar pis tanrıdan yayınan.

Əlin çatmaz qardaşlara bir daha,
Qardaşları görməz nə sən, nə Sanna,
Baş vursan da dayanışda hər yana,
Min yaşayar pis tanrıdan yayınan.

Sən yenə də tanrılıqdan küsübsən,
Dağıtmaqdan,yandırmaqdan bezibsən,
Pisliyini, heçliyini sezibsən,
Min yaşayar pisliklərdən yayınan.

At bu işi, vuruş olma, barış ol,
Pis tanrısı Alpis olma, alqış ol,
İki güclü arasında yarış ol,
Min yaşayar pis tanrıdan yayınan.
Alpis dedi:-Mən yoxluğa varıram,
Sısqaları, gücsüzləri qırıram,
Varlıqları varlığımla yarıram,
Ölüm-itim tanrılığı qururam,
Min yaşayar mən tanrıyla yaşayan,

Odər dedi:-Yaxşılıqlar artacaq,
Pisdiklilər hər gün solub qartacaq,
Yaranmışlarsə ölümləri yartacaq,

Pis nə varsa hamısını atacaq,
Tanrılaşıb tanrılığa çatacaq,
Onda Alpis orda,burda yortacaq,
Min yaşayar pis tanrıdan yayınan.

***

Danışdılar, deyişdilər neçə gün,
Dayanışda ikiliklər yox olmaz,
Odər dedi, Alpis dedi, bitmədi,
Dayanışda ikiliklər yox olmaz.

-Mən taparam üç qardaşı,vuraram,
Qovub, qovub mən onları yoraram,
Ayıraram mən onları qıraram,
Dayanışda ikiliklər yox olmaz.

Ölüm, qırğın göndərərəm Minelə,
Yaraqlılar min-min aşar, min ölər,
Onda Daryaş şahlığına tuş gələr,
O güclənər, çox yaşayar, çox bilər,
Dayanışda ikiliklər yox olmaz.

-Bizim də öz tanrımız var, nə olar,
Çox döyüşdən basar çıxıb Mindiyar,
Tanrıların ürəyində kökü var,
Olanları yox etməyib olanlar,
Mindiyarı yaşadacaq qalanlar,
Dayanışda ikiliklər yox olmaz.

Alpis çıxıb getdi ocaq yerindən,
Köks ötürdü nədən isə dərindən,
Bir tutan əl, yer görmədi birindən,
Dayanışda ikiliklər yox olmaz.

Odər dedi:-Mən-mən deyir bu çoxdan,
Tanrım bizi qoru bu var, bu yoxdan,
Birdən bir səs gəldi sanki torpaqdan,
Ağır ayaq səsi gəldi uzaqdan,
Bir də gördü Turq oturub ocaqda,
Ona baxır Turq elə bil bayaqdan,
“Ata “ deyib Odər qalxdı Ocaqdan.
Dayanışda ikiliklər yox olmaz.

Turqər dedi:-Oğlum,niyə solubsan,
Niyə belə boşalıbsan, dolubsan,

Niyə ürkək düşüncəyə dalıbsan,
Dayanışdan ikiliklər yox olmaz.

Bil ki,Turqam,ölməmişəm,mən sağam,
Yaxındayam, yuxuda da oyağam,
Mən hər yerdə Mindiyara dayağam,
Dayanışdan ikiliklər yox olmaz.

***

Turqər dedi:-Alpis bizi qorxudur,
Pis tanrının son dayağı qorxudur.
Çovğun, yanqın, hay-küy, qıtlıq, quraqlıq,
Pis tanrının son yarağı qorxudur.

O, Daryaşı bir də çəkir sınağa,
Neçə əldə Daryaş dönüb sınağa,
Tunq əl atsa qoşa ağız yarağa,
Yeli yatar, dönər bir boş tuluğa,
Pis tanrının son yarağı qorxudur.

Sən tanrıdan Mindiyara güc istə,
Kəsi kəsdir, qoy güc gəlsin güc üstə,
Yaraq bizdə, toplum bizdə, güc bizdə,
Pis tanrının son yarağı qorxudur.
Bir düşərlik gəlsə, önü alınsın,
Hər toplumda çoxlu ocaq qalansın,
Yaraqlılar ocaq üstdə dolansın,
Soğan yesin hamı, daş duz yalasın,
Pis tanrının son yarağı qorxudur.

Mən də sizə lap son,lap son dayağam,
Mindiyara yenilməyən başrağam,
Gecə, gündüz dağda, düzdə oyağam,
Mən tanrıya ildə bir yol qonağam,
Şimşək atlı, Şimşəkqılınc yarağam,
Pis tanrının son yarağı qorxudur.

Odər durub baş əyəndə ataya,
Bir də baxdı, gördü yoxdur Turq ata,
Dönüb yelə, dönüb qoşa qanada,
Pis tanrının son yarağı qorxudur.

***

Əkbitənin səsləncləri gurladı,
Yaraqlını ərləşdirən inamdlr,
Daryaş yenə toplum çəkib gəlmişdi,
Yaraqlını ərləşdirən inamdır.

O durmuşdu Qanlı gədik boyunca,
Yaraqlilar neçə on min sayınca,
Ot, arpası, su, qorğası doyunca,
Yaraqlını ərləşdirən inamdır.

Parsel yenə inanmışdı Daryaşa,
O gəlmişdi Əkbitənlə savaşa,
İnanmırdı ta hay-küyə, qarqışa,
Yaraqlını ərləşdirən inamdır.

Qanlı Gədik vuruşu söyləncі

Tunqər şahlıq kürkü geydi əyninə,
Şahdan da çox minminbaşı güclüdür.
Getdi yüz min yaraqlıyla gədiyə,
Şahdan da çox minminbaşı güclüdür.
Çilçil atın çölü ipək palazdan,
Yal, quyruğu çiçək-çiçək qotazda,
Çapır gedir ala-ilıq ayazda,
Şahdan da çox minminbaşı güclüdür.

Hər addımda güdməkdədir busqular,
Dəmirdəndir sıralarda qayğılar,
Sağ,solunda yer titrədir qöşqular,
Şahı didir öz içində sorğular,
Şahdan da çox minminbaşı güclüdür.

“-Niyə Daryaş durub Qanlı gədikdə,
Orda sazaq əsir, keçir ilikdən,
Deyən artıb Daryaş bir az bilikdə,
Nə gözləyir görən toplum bu dikdə,
Şahdan da çox minminbaşı güclüdür.

Yaraqlılar dağı, döşü aşırlar,
Yeltək əsib, dəniz-dəniz coşurlar,
Gedə-gedə Tunqa mahnı qoşurlar,
Şahdan da çox minminbaşı güclüdür.

Tunq toplumu bölüb düp-düz üç yerə,
Hərəsini paylaşdırıb dinc yerə,
On min orda, on min burda, üç birə,
Şahdan da şox minminbaşı güclüdür.

Daryaş dedi:-Tunq indidən ölübdür,

Dedi, bizi o oyuncaq bilibdir,
Odur kiçik bir toplumla gəlibdir,
Şahdan da çox minminbaşı güclüdür.

Diş qıcıdıb üzləşdilər ərənlər,
Qımışdılar üstünlüyü güdənlər,
Silkələnib sıçramlandı gödənlər,
Şahdan da çox minminbaşı güclüdür.

Tunqər dedi:-Alpis hanı, yoldaşın,
Tək qoyub o deyən qansız Daryaşı,
İndi sənsən Parsdiyara başbaşı,
Ancaq Daryaş kimə qarşı savaşır,
Şahdan da çox minminbaşı güclüdür.

***

-Biz bir idik, qardaşıydıq, yanaşı,
Yanılırlar qardaşı dost bilənlər.
Mən gəlmişəm Alpis ilə vuruşum,
Yanılırlar qardaşı dost bilənlər.

Biz yer verdik Mənіş qıza, Hexaya,
Hexa döndü minel üçün arxaya,
Sənsə gəlib girdin qanlı çuxaya,
Lap dönübsən iti buynuz buğaya,
Bənzəyirsən lap uyuşmaz qarğaya,
Yanılırlar qardaşı dost bilənlər.

-Biz gəlmişdik, yer də aldıq, torpaq da,
Tunqər, sizdən yemək, geyim, yaraq da,
Sizə borclu bizim çox-çox qabalar,
Min ildən çox biz qonağıq bu bağda,
Ancaq gərək dinc yaşasın qonaq da,
Yanılırlar qardaşı dost bilənlər.

-Çəkil dala, göstər mənə Alpisi,
Vuruşdurur, döyüşdürür o bizi,
Görən Alpis niyə belə tələsir,
Yozub, yozub oynaşdırır hər sözü,
Daşla yaşıd tanrıların hərəsi,
Yanılırlar qardaşı dost bilənlər.

-Alpis burda, öncə vuruş Daryaşla,
Caynaqlaşsın bir də qardaş qardaşla,
Kim üstündür biz anlayaq dalaşla,

Əkbitəni biz alarıq savaşla,
Yanılırlar qardaşı dost bilənlər.

Şimşəkquyruq şimşək səpdi Tunqərə,
İsti düşdü, sonra şaxta çöllərə,
Sonra Alpis gücü verdi yellərə,
Yanılırlar qardaşı dost bilənlər.

Tunqər birdən qılıncına əl atdı,
Vurdu onun sol qolunu qanatdı,
Yaralını ağrı, sancı ulatdı,
Yanılırlar qardaşı dost bilənlər.

***

Daryaş döşdən yaralıydı, Tunq əldən,
Hər vuruşda bir basar var, bir basıq.
Şimşəkquyruq şimşək çaxıb gedirdi,
Hər vuruşda bir basar var, bir basıq.

Topbuzlaşmaq, qılınclaşmaq, oxlaşmaq,
Gücdə, sözdə, vurumlarda bağlaşmaq,
Dərin yara alıb lapdan yoxlaşmaq,
Hər vuruşda bir basar var, bir basıq.

Daryaş vurur, bizuc dəyir, əyilir,
Tunqər vurur, Daryaş bir də bəyirir,
Tunq yıxılır, qıpıq gözlər səyirir,
Hər vuruşda bir basar var, bir basıq.

Tunqər durur, deyir:-Düş, gəl, güləşək,
Basar, basıq bu yerləri bölüşək,
Sözü ataq ortalığa, dilləşək,
Hər vuruşda bir basar var, bir basıq.

Güləşirlər, boğuşurlar ortada,
Tunqu tutub kimsə çəkir arada,
Tunq yıxılır, çıxır yenə sıradan,
Hər vuruşda bir basar var, bir basıq.

Daryaş çıxır, yara almış, döş üstə,
Qara quzğun qonur sanki leş üstə,
Deyir:-Tunqər, istəyirsən, nə istə,
Hər vuruşda bir basar var, bir basıq.
Bax, sonevin olacaqdır bu gədik,
Son qoyulur tutuqluğa min illik,
Söylə, indi sən dönüksən mən dönük,

Hər vuruşda bir basar var, bir basıq.

Vurur, ancaq gücü çatmır, yıxılır,
Aşır yerə, ilan kimi yığılır,
Qan daşlanır boğazından, boğulur,
Hər vuruşda bir basar var, bir basıq.

Tunqər qalxır, o, Alpisə söz atır,
Deyir:-Alpis sazaq, çovğun yaradır,
Layla söylə, qardaşlığın, bax, yatır,
Hər vuruşda bir basar var, bir basıq.

***

Daryaş yırtıq boğazıyla bağırdı,
Son döyüşdə başraq qalır basardan.
-Parsel, Hindel, balasqelli irəli!
Son döyüşdə başraq qalır basardan.

Daraşdılar bir-birinə qoçaqlar,
Toqquşdular bir-birinə yaraqlar,
Qovuşdular qanlı arxlar, bulaqlar,
Son döyüşdə başraq qalır basardan.

İlk cummada Minel vurdu dağıtdı,
Hay-küy salıb parsellini qorxutdu,
Ox, bizucla qancılları bağırtdı,
Vurdu, yıxdı, yırtdı, qanlar axıtdı,
Son döyüşdə başraq qalır basardan.

Ancaq Parsel irəliyə yeridi,
Tunqərlilər üzərinə yürüdü,
Minellini qanlı yerdən kürüdü,
Bilinmədi kim ölüdü, diridi,
Son döyüşdə başraq qalır basardan.

Tunqər durdu, o da bərkdən bağırdı,
Sağ, sol güdük bölmələri çağırdı,
Girdi qana, qanı qanla yoğurdu,
Son döyüşdə başraq qalır basardan.
İki bölmə daldan girdi döyüşə,
Alpis, Daryaş donquldandı bu işə,
Susqun qaldı döyüşdəki dönüşə,
Son döyüşdə başraq qalır basardan.

Od yağırdı göydən, yerdə buz, sazaq,
Qarpışmadan doğur palçıq, tozanaq,

Hər bir yerdə bağırtı var, boğanaq,
Son döyüşdə başraq qalır basardan.

Alpis minib çovqunları çapırdı,
Ağac, dam-daş öz yerindən qopurdu,
Minellinin son gücünü qapırdı,
Son döyüşdə başraq qalır basardan.

Yaraqlılar bir-birini didirdi,
Minellilər vurub, yıxıb ötürdü,
Parsellilər qaçıb gözdən itirdi,
Qorxusundan düşüb yerə, yatırdı,
Laxta-laxta qan gölünə batırdı,
Son döyüşdə başraq qalır basardan.

***

Alpis baxır, inanmayır gözünə,
Tanrılardan güclü varsa, inamdır.
O qapırdı tez-tez sağ, sol çiynini,
Tanrılardan güclü varsa, inamdır.
Tanrı özü elə böyük inamdır.

Minellilər inanırdı Turqərə,
Arxaydılar arxalaşan Tunqərə,
Belə döyüş görmüşdülər yüz kərə,
Tanrılardan güclü varsa, inamdır.
Tanrı özü elə böyük inamdır.

Bu döyüşdə öldü qırx min yaraqlı,
Yaraqlının çoxu arvad-uşaqlı,
Yüz min uşaq gözü yaşlı, yanıqlı,
Tanrılardan güclü varsa, inamdır.
Tanrı özü elə böyük inamdır.
Alpis bir də öz gücünü sınadı,
Sonra durub öz-özünü qınadı,
Kimliyini başa düşdü, anladı,
Öz içində pöştələndi, qaynadı,
Tanrılardan güclü varsa, inamdır.
Tanrı özü elə böyük inamdır.

Turqər gəldi baxdı lap-lap uzaqdan,
O baxırdı döyüşlərə bayaqdan,
Yapışmışdı o qılıncdan, tutaqdan,
Dodaq altı söyləyirdi, düz-yalan,
“-Çovğun, şaxta salıb eli ayaqdan”,
Tanrılardan güclü varsa, inamdır.

Tanrı özü elə böyük inamdır.

Gördü Alpis çapır Şimşəkquyruğu,
Səpir yerə quraqlığı, qıtlığı,
Yanqınlara çəkir böyük varlığı,
O yandırır meşələri, otluğu,
Tanrılardan güclü varsa, inamdır.
Tanrı özü elə böyük inamdır.

Tunqər yenə yaralıydı, soyuqdu,
Ancaq çox qan itirsə də, ayıqdı,
Döyüşlərin gedişində sayıqdı,
Hər bir səsə, sızıltıya duyuqdu,
Yaraqlılar arasında qoruqdu,
Tanrılardan güclü varsa, inamdır.
Tanrı özü elə böyük inamdır.

Quraqlıq söyləncі

Qanlı gədik vuruşları bitmişdi,
Sınıq, qırıq, çapıq qalır vuruşdan.
On il qıtlıq, quraqlıq da üstəlik,
Sınıq, qırıq, çapıq qalır vuruşdan.

Quraqlıqla qıtlıq vurdu torpağı,
O bürüdü Əkbitəni, Duzdağı,
Batdı yerin suyu, gölü, bulağı,
O qurutdu yaşıl-yaşıl otlağı,
Çatdaq-çatdaq oldu sulu batlağı,
Laxlam qaldı ot, yem, çörək tabağı,
Quru qaldı elin ağzı, qırtlağı,
Sınıq, qırıq, çapıq qalır vuruşdan.
Yer-yurd, baxış, göz acıqlı, alışqan.

On il ötdü, qıtlıq, aclıq ötmədi,
Quraqlığın quru yeli bitmədi,
Qurd-quş köçdü, burdan ot-su güdmədi,
Ancaq Minel burdan köçüb getmədi,
Sınıq, qırıq, çapıq qalır vuruşdan.
Yer-yurd, baxış, göz acıqlı, alışqan.

***

Parseli də tutdu aclıq, quraqlıq,
Qıtlıq gəlir hamılığa, gələndə.
Parsel sanki Mindiyardan qopmuşdu,

Qıtlıq gəlir hamılığa, gələndə.

O Savanı, Qamı, Sakı bürüdü,
Atlar köpdü, adamlarsa qurudu,
Çoxu qaçdı, batıyerə yürüdü,
Sürüsünü dağlıqlara sürüdü,
Uşağını ot koküylə qorudu,
Qıtlıq gəlir hamılığa, gələndə.

Daryaş dedi:-Alpis bizi tollayıb,
Hələ çaşıb bizə qıtlıq yollayıb,
Şimşəkquyruq atını da yallayıb,
O, atı da yalan ilə çullayıb,
İldırımla, şimşək ilə nallayıb,
Çıxıb, gedib ağız-burun sallayıb,
Qıtlıq gəlir hamılığa, gələndə.

Niyə bizi hamı, hamı aldadır,
Niyə Parsel düşüb belə, daldadır,
Niyə hər şey ağı dadır, su dadır,
Qıtlıq gəlir hamılığa, gələndə.
***
Tanrı dedi:-Daha otur yerində,
Əl-qol atma, əlin-qolun uzanar.
Yaxşılığı qarışdırma pisliklə,
Əl-qol atma, əlin-qolun uzanar.

Yaranmışlar işə, gücə yaranıb,
Ancaq indi o yarağa sarınıb,
Cumur, tutur, alır ora-buranı,
O tutsa da, qopartsa da haranı,
Pozur ölkə, el içində aranı,
Əl-qol atma, əlin-qolun uzanar.

Kəsi elə varın varsa varını,
Əltut elə ağsaqqalı, qarını,
Yaşa, yaşat yaxşılıqla durumu,
Əl-qol atma, əlin-qolun uzanar.

Tanrınındı torpaq, onu paylaşın,
Hamı soylar birdir, gedin soylaşın,
Atın getsin yaraqları, savaşı,
Qardaşlaşın, sevin bacı, qardaşı,
Əl-qol atma, əlin-qolun uzanar.

***

Daryaş dedi:-Tanrı, məni bağışla,
Yaranmışlar elə tez-tez yanılır.
Yaranmışa yer veribsən, var da ver,
Yaranmışlar elə tez-tez yanılır.

Sən yox elə o basılmaz Tunqəri,
Mindiyarda hər gün bir Tunq göyərir,
Yoxdur mənim Mindiyarda dəyərim,
Yaranmışlar elə tez-tez yanılır.
Mənə güc ver, basar olum, basım mən,
Tunqərlərə hər gün sonev qazım mən,
Gəlmir daha başqa bir iş əlimdən,
Yaranmışlar elə tez-tez yanılır.
Böyük artır, kiçik isə danılır.

İzin versən, son döyüşə gedərəm,
Parsdiyarı Pars ölkəsi edərəm,
Mən şah ollam, şahlığıma yetərəm,
Yaranmışlar elə tez-tez yanılır.
Böyük artır, kiçik isə danılır.

***

Uğurelə köçdü getdi önçular,
Susuz qalsa torpaq, aclıq olacaq.
Çörəkçilər köçdü, getdi Çinçaya,
Susuz qalsa torpaq, aclıq olacaq.

Qobuyerdən köçdü, getdi yurd, oba,
Çox evlərdə nə buğda var, nə arpa,
Ac günləri say, muncuqtək düz sapa,
Bir xurcunluq saman, ot da yox tapan,
Susuz qalsa torpaq, aclıq olacaq.

Hər gün dolub, boşalırdı ocaqlar,
Susuzluqdan qurumuşdu dodaqlar,
Üztut deyib ağlayırdı uşaqlar,
Qup-quruydu arxlar, göllər, bulaqlar,
Susuz qalsa torpaq, aclıq olacaq.

Turqər, Tunqər, Ağüz, Manay, Dəmirqız,
Qılıncları atın yerə hamınız,
Kimə gərək indi qılınc, ox, topbuz,
Qan içində ölənləri anınız,
Qan tökmənin budur sonu, bu yalnız,

Susuz qalsa torpaq, aclıq olacaq.

Tanrıyla görüş söyləncі

Üz tutmuşdu tanrılara Odərpay,
Qıtlıq olur çəkişəndə tanrılar.
O gedirdi ayaq yalın başaçıq,
Qıtlıq olur çəkişəndə tanrılar.

O gedirdi Qobuyerin düzüylə,
Gedə-gedə danışırdı özüylə,
Küləklərin, buludların iziylə,
Qıtlıq olur çəkişəndə tanrılar.

Bulud hara, o da ora, o yönə,
Gedib çatdı dağ çayına yüz günə,
Əl uzadıb üztut dedi o yenə,
Qıtlıq olur çəkişəndə tanrılar.

Əl-üz yudu, onu yuxu apardı,
Gördü birdən çay suları qabardı,
Bir qanadlı onu yerdən qopartdı,
Qıtlıq olur çəkişəndə tanrılar.

Sıx dumanlıq döndü işıq selinə,
Dəydi əli kimin isə əlinə,
“Böyük tanrı” sözü gəldi dilinə,
Qıtlıq olur çəkişəndə tanrılar.

***

Bir səs gəldi, sular, çaylar titrədi:
“-Yaxşılıqla bu dolanış dolanır.
Üç yüz ildir sən Odərsən ocaqda,
Yaxşılıqla bu dolanış dolanır.

Bu qan-qırğın, bu vur-aşır nəyçündür,
Çox şey, hər şey elə bilmə gücündür,
Yaxşı, ya pis, bu sonuncu seçimdir,
Yaşayışsa qısa, bircə içimdir,
Yaxşılıqlar mənim ölçüm-biçimdir,
Yaxşılıqla bu dolanış dolanır.
Bil, ikinci Sərtüz sənsən Üstyerdə,
Sənsən keçmiş böyük Sərtüz dəyərdə,
Sənsən yeni yaranışı göyərdən,
Yaxşılıqla bu dolanış dolanır.

Yorulmayın kəsi, tanrı deməkdən,
Bol olacaq su da, yer də, çörək də,
Bunlar doğur işdən, əldən, biləkdən,
Yaxşılıqla bu dolanış dolanır”.

Bu gür səsdən çaylar, göllər daşdılar,
Gurladılar, dağı, düzü aşdılar,
Çovqun, qıtlıq, quraqlıqlar qaçdılar,
Dolanışa yeni yollar açdılar,
Yaxşılıqla bu dolanış dolanır.

***

Tanrılıqda on il çəkdi çəkişmə,
Çəkişmədən düz yol seçə bilməzsən.
Biri qıtlıq dedi, biri yaşıllıq,
Çəkişmədən düz yol seçə bilməzsən.

Odər-Sərtüz öyüd verdi ərlərə,
Qonaq getdi uzaq-uzaq yerlərə,
Üztut, kəsi qam elədi min kərə,
Çəkişmədən düz yol seçə bilməzsən.

Ağüz, Tunqər inanmadı Sərtüzə,
Dedilər ki, inanmırıq hər sözə,
Biz durmuşuq qancıllarla üz-üzə,
Çəkişmədən düz yol seçə bilməzsən.

Dedilər ki, Daryaş yenə gələcək,
Bu yol onu qabaqlıyaq biz gərək,
Əsəcəkdir yenə çovqun, buz külək,
Çəkişmədən düz yol seçə bilməzsən.

Dedilər ki, gələr yenə Balasqel,
Yenə Hindel,Çinel,Parsel,Darvidel,
Odər-Sərtüz, sən deyənlər düz deyil,
Çəkişmədən düz yol seçə bilməzsən.
Yardım olsun tanrı bizə bir azca,
Üstün olaq acıqandan yaraqca,
Qarşılayaq qancılları qabaqca,
Çəkişmədən düz yol seçə bilməzsən.

Dedilər ki, bizi yıxan barışdır,
Barış-vuruş, bu bitməyən yarışdır,
Bizdən yürüş, Sərtüzdənsə duruşdur,

Çəkişmədən düz yol seçə bilməzsən.

Sərtüz dedi, Ağüz dedi, çəkişdi,
Tunqər qaldı, öz sözündə bərkişdi,
Sərtüz qaldı Ocağında təkləşdi,
Çəkişmədən düz yol seçə bilməzsən.

***

Daryaş yenə çəkib dartdı ipləri,
Ola bilməz dəlisovdan tanrısoy.
-Əkbitənlə Qobu -dedi- bizimdir,
Ola bilməz dəlisovdan tanrısoy.

Dedi:-Köçsün Buzboğaza Mindiyar,
Bu yanlarda bizə qalsın qalanlar,
Toplu, saxlanc, qızıl, gümüş, nə ki var,
Ola bilməz dəlisovdan tanrısoy.

Sərtüz getdi onu tez-tez yanladı,
"Mənəm, mənəm" deməyini danladı,
Daryaş yenə orda, burda banladı,
Ola bilməz dəlisovdan tanrısoy.

Sərtüz dedi:-Tanrım hamı dəyişib,
Qapış-qapış hamı, hər gün deyişir,
Yaxşıyla pis qan-qan deyir, döyüşür,
Ola bilməz dəlisovdan tanrısoy.

Səs gəlmədi yerdən, göydən, tanrıdan,
Tək qalmışdı Sərtüz yerdə doğrudan,
Qıvrılırdı, açılırdı ağrıdan,
Ola bilməz dəlisovdan tanrısoy.

Sakras üzləşməsi söyləncisi

Tunqər, Daryaş üzləşdilər Sakrasda,
Gözləmirdi bu döyüşü tanrılar.
Gurlayırdı səsləncə, gup-gup, nağara,
Gözləmirdi bu döyüşü tanrılar.

Iki yanda yüz min ər var lap azı,
Yaraqlılar yeyir quru yarpızı,
Yalayırlar su yerinə daş-duzu,
Gözləmirdi bu döyüşü tanrılar.

Tunqər dedi:-Daryaş, çatıb son döyüş,
Get alt yerdə Alpisinlə sən görüş,

Görək kimdə qalıb dəmir, dağ duruş,
Gözləmirdi bu döyüşü tanrılar.

Daryaş dedi:-Susuzluqdan ölmüşük,
Tərimizi qanımızla silmişik,
Əkbitəni aramızda bölmüşük,
Gözləmirdi bu döyüşü tanrılar.

Öncə qılınc, sonra topbuz, sonra ox,
Sonra yumruq, sonra təpik, sonra xox,
Bu doyüşdə ölçü-biçi var, ya yox,
Gözləmirdi bu döyüşü tanrılar.

Çəkişmələr, güləşmələr qurtardı,
Diz çökmələr acıqları artırdı,
Sonra yenə dəmir yaylar dartıldı,
Gözləmirdi bu döyüşü tanrılar.

Yaraqlılar iki yandan dəbərdi,
Acıqanlar bir-birinə döş gərdi,
Yaralılar gün altında gəbərdi,
Gözləmirdi bu döyüşü tanrılar.

Hərə qovub qancılını yorurdu,
Bıçaq ilə damarından vururdu,
Tutub onun şor qanını sorurdu,
Sorub-sorub o, ayağa dururdu,
Gözləmirdi bu döyüşü tanrılar.
Tunqər oxu qoydu yaya, gözlədi,
O Daryaşı atdım-atdım izlədi,
Oxu onun ürəyinə düzlədi,
Gözləmirdi bu döyüşü tanrılar.

Çəkdi, atdı ox sancıldı kürəyə,
Kürəkdən də vurdu, keçdi ürəyə,
Daryaş aşdı, döndü qanlı köpüyə,
Qanlı döşü döndü qanlı körüyə,
Gözləmirdi bu döyüşü tanrılar.

***

Parsellidən çox qırıldı, az qaldı,
Ölüm deyil, köçdür böyük qırğınlar.
Birdən bulud gəldi, göylər gurladı,
Ölüm deyil, köçdür böyük qırğınlar.

Yağış yağdı, çöllər yaşıl ot oldu,
Qan-qadalar qopub göyə sovruldu,
Gözsüz qalmış qanlı gözlər duruldu,
Odər gəldi, hamı ona sarıldı,
Ölüm deyil, köçdür böyük qırğınlar.

-Tanrı mənə belə dedi görüşdə,
Dedi, daha əl götürün döyüşdən,
Əkin, biçin, yaxşı olun hər işdə,
Ölüm deyil, köçdür böyük qırğınlar.

Mindiyarın öz başrağı, öz adı,
Parsdiyarın yaxşı eli, elatı,
Böyük tanrı bizi belə yaradıb,
Ölüm deyil, köçdür böyük qırğınlar.

Bundan sonra gəlin, birgə yaşayaq,
Ağır yükü, günü birgə daşıyaq,
Yeni günü hamı birgə başlayaq,
Ölüm deyil, köçdür böyük qırğınlar.

***

Yağış yağdı, şimşək çaxdı, yaz oldu,
Yeri silib varlandıran yağışdır.
Tarlaları, çölü, düzü göyərtdi,
Yeri silib varlandıran yağışdır.

Göy vergisi yerə qardır, yağışdır,
Dolanışda yağış yeni doğuşdur,
Yağış Alpis pisdikliyə qarğışdır,
Yeri silib varlandıran yağışdır.

Çıxın daha, çəkinməyin, çiçəklər,
Buludları minin, gəlin, küləklər,
Süd iyinə qoy bələnsin bələklər,
Yeri silib varlandıran yağışdır.

IX Bölmə XXV QAPI

Birinci qardaş söyləncisi

Oğulların bir-bir adın çəkərək,
Ağı deyib ağlayırdı Elçiçək,
Ağı desən ağrıların toxdayar,
Ağı deyib ağlayırdı Elçiçək.

Bu ayrılıq uzanaraq dağ oldu,
Yavaş-yavaş ağlamalar lağ oldu,
Gəzib dedi, “oğullarım yox oldu”,
Ağı deyib ağlayırdı Elçiçək.

-Siz üz tutub hayanlara getdiniz,
Bəlkə küsüb bizdən acıq etdiniz,
Kimisəsizlik qucağında itdiniz,
Ağı deyib ağlayırdı Elçiçək.

Ağ günləriz qaralıbdır olmaya,
Al yanağız saralıbdır olmaya,
Bəbəkləriz daralıbdır olmaya,
Ağı deyib ağlayırdı Elçiçək.
-Ana könlüm uçar-uçar quş olub,
Ağlamaqdan ağ balışım yaş olub,
Dönün, gəlin anaz başda-baş olub,
Ağı deyib ağlayırdı Elçiçək.

Özünüzü siz qoruyun Alpisdən,
Gəlir tez-tez, əl çəkməyir o bizdən,
O, Daryaşa çox oxşayır üz-gözdən.
Ağı deyib ağlayırdı Elçiçək.

Bacı doğdum sizə, öldü, qalmadı,
Uçdu getdi, bir yaşı da olmadı,
Küsdü getdi burda yuva salmadı,
Ağı deyib ağlayırdı Elçiçək.

Ölməyəydim, toyunuzu görəydim,
Hər balamdan bir bala da dərəydim,
Bal balama nənə borcu verəydim,
Ağı deyib ağlayırdı Elçiçək.

Döş yırtırdı, saç yolurdu bir ana,
İstəyirdi at səyirtsin dörd yana,
Baş çəkərək dağa-daşa, ormana,
Dörd oğlunu tapıb dönsün Turana,
Çatsın Sayan, Alan, Çatan, Qaplana,
Ağı deyib ağlayırdı Elçiçək.

İyləyirdi pal-paltarı, köynəyi,
Çağırırdı yardımına küləyi,
Ayrılıqdan titrəyirdi ürəyi,

Ağı deyib ağlayırdı Elçiçək.

***

Biri dedi, onu dağda görmüşəm,
Nə söz desən çıxa bilər ağızdan,
Biri dedi, şələ bığda görmüşəm,
Nə söz desən çıxa bilər ağızdan.

Deyilənlər sarsıdırdı ananı,
Yuxularda görməkdəydi Qaplanı,
İzləyirdi ondan qaçan Alanı,
Çağırırdı sayan ilə Çatanı,
Nə söz desən çıxa bilər ağızdan.

Yalan deyən, nağıl deyən çox idi,
Deyilənə görə onlar sağ idi,
Yer – yurdunu göstərənlər yox idi,
Nə söz desən çıxa bilər ağızdan.

Atlı getdi dallarınca beş kərə,
Neçə atlı səpələndi çöllərə,
Baş çəkdilər doğma, özgə ellərə,
Nə söz desən çıxa bilər ağızdan.

Yola düşdü gizli getdi Eldəbir,
Yelçəkəni gəzdi kənd kənd birbəbir,
Görən qırx il bu ayrılıq nədəndir,
O yoxladı yurdu eli birbəbir,
Onu başa düşən vardı təkdə bir,
Nə söz desən çıxa bilər ağızdan.

Bir qız gördü qırçın yaxa qız donu,
Dedi:-Qardaş, tanıyıram mən onu
Sənin, dedi, yeddi kökün –Turq, Tanı,
Damarında axır Turqla Tunq qanı,
Nə söz desən çıxa bilər ağızdan.

Qal burada mənə yaxın qonaq ol,
Gedək mənlə toya, mənlə ayaq ol
Qorxma məndən bir az diri, qoçaq ol,
Nə söz desən çıxa bilər ağızdan.

Gecə qaldı qıza qonaq Eldəbir,
Gördü gecə yarı olcaq qız itir,
Kənddə yoxdur bir hənirti səs- səmir

Ancaq lap-lap uzaqlardan arabir,
Azca, güclə eşitdilən səs gəlir,
Nə söz desən çıxa bilər ağızdan.
Gəldi gördü çalhaçaldı toy düyün,
Qız oturub bir kişiylə qolboyun,
Dörd yanında mələşmədə qoç, qoyun,
Nə söz desən çıxa bilər ağızdan.

Bunu görüb o sarsıldı, saraldı,
Geri döndü, qaranlığa yan aldı,
Gördü qızı qucaqlayan ər deyir:
-Əlimizdə qızıl vardır "Eldəbir",
Apararıq, satıb qızıl eylərik,
Nə söz desən çıxa bilər ağızdan.

***

Dan yerində gəlib yatdı Eldəbir,
Özü aşıb yıxılanlar ağlamaz.
O düşmüşdü bir çıxılmaz quyuya,
Özü aşıb yıxılanlar ağlamaz.

Qız gələndə ondan bərk-bərk yapışdı,
Qız başına gələnləri danışdı,
Dedi:- Sənin üzün mənə tanışdır,
Mənim adım bil ki, üzdə Ağuşdur,
Nə yaxşı ki, mən səninlə tapışdım,
Özü aşıb yıxılanlar ağlamaz.

Mən oxunmaz, mən açılmaz yazıyam,
Mən Nileldə böyük varlı qızıyam,
Ancaq burda oğurlanmış quzuyam,
Özü aşıb yıxılanlar ağlamaz.

Oğurlayıb məni oğru beş aydır,
Oğru mənə nə sevgili, nə yardır,
Mən nişanlı, oğrularsa subaydır,
Özü aşıb yıxılanlar ağlamaz.

Oğru məni aparacaq satacaq,
Təzə şənlik toy-düyünə batacaq,
Gəlin edib məni toya qatacaq,
Özü aşıb yıxılanlar ağlamaz.

Mənə yardım etsən sənə qul ollam,
Qurtar məni, sənə gözəl qız allam,

Burdan qaçsam nişanlıma qız qallam,
Özü aşıb yıxılanlar ağlamaz.

***

Eldəbirsə susdu, çox çox düşündü,
Gözəl olur düzə bənzər yalanlar.
Dedi:- Ağuş, nə istəsən elərəm,
Gözəl olur düzə bənzər yalanlar.

Ağuş dedi: Andım başa çatacaq,
Oğru məni qullarına qatacaq,
Misirelə aparacaq, satacaq,
Səsim, sözüm, andım, sevgim batacaq,
Gözəl olur düzə bənzər yalanlar.

Mən açaram gecə səni qandaldan,
Sən qaçarsan satılarkən satalda,
Nileldədir, sarayımız – Ağyalda,
Şərif xanı soruşarsan satalda,
De, satdılar Ağuş qızı qul halda.
Gözəl olur düzə bənzər yalanlar.

Ağ mərmərdim, saralmışam solmuşam,
Qaralmışam, qara mərmər olmuşam,
Acığımdan saçlarımı yolmuşam,
Gözəl olur düzə bənzər yalanlar.

Mən də sənə yardım ollam el boyu,
Mən taparam axtardığın Turqtayı,
Toy etdirəm sənə ona dolayı,
Gözəl olur düzə bənzər yalanlar.

Eldəbirsə inanaraq Ağuşa,
Söz verdi ki, bu işdən bərk yapışar,
Bu yolla da dörd qardaşlar tapışar,
Gözəl olur düzə bənzər yalanlar.

***

Gün çıxarkən gəldi atlı oğrular,
Tutuq oldun günün, üzün qaradır,
Tutuqları at döşünə saldılar,
Tutuq oldun günün, üzün qaradır.

Öncə yeyib, yeyib-içib doydular,
Öncə yazıq Eldəbiri döydülər,
Döyə-döyə yaman günə qoydular,

Onu, qızı baha tutuq saydılar,
Hey vurdular, kəndə hay-küy saldılar
Geyimini, var-yoxunu soydular
Tutuq oldun günün, üzün qaradır,

Gün altında qum çölündən ötdülər
Ağ dəvələr axşamacan yortdular
At, eşşəyi dalarınca dartdılar,
Gecələri gündüzlərə qatdılar,
Iki gunə satal yerə çatdılar,
Tutuq oldun günün, üzün qaradır,

Biri gəldi Eldəbiri dindirdi,
Dəyərini lap aşağı endərdi,
Alıb onu daş işinə göndərdi,
Tutuq oldun günün, üzün qaradır.

İplərinin düyünləri boş idi,
Ağuş qızın qara gözü yaş idi,
Tutuqçunun qançıl könlü daş idi,
Eldəbirin ayaqları şiş idi,
Tutuq oldun günün, üzün qaradır.

Sildi Ağuş gözlərinin yaşını,
Sonra dikdi aşağıya başını,
O qıcıtdı tutuqçuya dişini,
Eldəbirə qoşdu könül quşunu,
Tutuq oldun günün, üzün qaradır.
Eldəbirsə gördü bütün bunları,
Ağuş qızın üzü gözü saraldı,
Qarşıdaydı Misir, Nilel diyarı,
Ağ gədiyə yollar başı yuxarı,
Gərək vurub aşıraydı çaparı,
Gərək atla dırmaşaydı yolları,
Tutuq oldun günün, üzün qaradır.

Çapar aşdı at kükrədi quş oldu,
Qum çaparın gözlərinə sovruldu,
O bağırdı, bir az qaçdı yolları,
Qum çölləri sanki yer yer yarıldı,
Tutuq oldun günün, üzün qaradır.

Ağ gədikdən enməkdə idi Şərif xan,
Acıqlı idi itib-batan qızından,
Tutuq görcək at üstündə çapağan,

Eldəbiri göndərmişdi yaradan,
Sanki göylər atlısıydı bu oğlan,
Dedi:- Oğul, haralısan, haradan,
Tutuq oldun günün, üzün qaradır.

***

“Ağuş” deyib sorağ verdi Eldəbir,
Ata hər gün yarı candır qızı üçün.
Hər bir şeyi o danışdı ataya,
Ata hər gün yarı candır qızıyçün.

Xan biləndə qızı qul tək satılır,
Oxa dönüb o yay kimi dartılır,
Eldəbirlə irəliyə atılır,
Ata hər gün yarı candır qızıyçün.

Yaraqlandı qılınc ilə iki ər,
Qaçır çoxu, aşır, ucur çöl - çəpər,
Sarsılırlar gələnləri görənlər,
Ata hər gün yarı candır qızıyçün.

Satal döndü qan gölünə, qızardı,
Qız oğrusu qansız qaldı, sozardı,
Ağ buludlar göy üzündə bozardı,
Ata hər gün yarı candır qızıyçün.

“Ata” deyib Ağuş aşdı bayıldı,
Qılınc səsi hər bir yana yayıldı,
Oğrulardan satal yer-yer yuyuldu,
Ağuş bir də öz evində ayıldı,
Ər Eldəbir burda igid sayıldı,
Ata hər gün yarı candır qızıyçün.

Ağ gədikdə evlər döndü bayrama,
Sevinc quşu qondu sanki hər dama,
Paypuş verdi Şərif çox-çox adama,
Ata hər gün yarı candır qızıyçün.

***

Sorağ aldı dörd qardaşı Eldəbir,
Bayram olar itən bunca tapılsa.
O danışdı dörd qardaşın işindən,
Bayram olar itən bunca tapılsa.

Şərif dedi:- Mindiyardan biri var,
Onu igid bilər burda adamlar,

Nağıl olub burda Minel, Mindiyar,
Bayram olar itən bunca tapılsa.

Şah qızını verib ona öyünclə,
Qız da gedib balıqçıya sevinclə,
Oğlan igid üzgüçüdür, qız incə,
Bayram olar itən bunca tapılsa.

Adı Çatan, özü igid bir oğlan,
Bu Nileldə sevilibdir o yaman,
Qızı sel-su caynağından qopardan,
Bayram olar itən bunca tapılsa.

Eldəbirin səsi tutur hər yanı,
Deyir:- Mənə göstəriniz Çatanı,
Danışırlar ona bir-bir olanı,
Bayram olar itən bunca tapılsa.
O söyləyir:- qoy var olsun eliniz,
Çatan mənim qardaşımdır, biliniz,
Nə gözəldir adamlığız, diliniz,
Bayram olar itən bunca tapılsa.

Ağuş deyir: Mən Sarayla tanışam,
O ulduzdur, ulduzlar tək sayrışar,
Eldəbirlə Çatan bu gün tapışar,
Bayram olar itən bunca tapılsa.

***

Görüşdülər Çatan ilə Eldəbir
Şah olanda sanki daş da dəyişir,
Eldəbiri tanımadı Çatan şah,
Şah olanda göz də, qaş da dəyişir,
Düşüncə də, üz də, baş da dəyişir.

O şah idi, qızıldandı toqqası,
Duru daşdan burun, qulaq sırğası,
Parlayırdı iri al daş cıqqası,
Sallanırdı dizə kimi çuxası,
Yanındaydı gözəl-köyçək Sarası,
Parlaq geyim içindəydi arxası,
Şah olanda göz də, qaş da dəyişir
Düşüncə də, üz də baş da dəyişir.

Dedi: - Çatan, Eldəbirəm, minelli,
Sənin ilə bir yurddanam, bir dilli,

Gəldim səni axtarmağa könüllü,
Sizdən sonra ana qalıb tək əlli,
Elçiçəyin boynu, beli bükülü,
Şah olanda göz də, qaş da dəyişir,
Düşüncə də, üz də, baş da dəyişir.

Çatan baxdı, dedi:- Qoçaq Eldəbir,
Bu əyin-baş nədir qardaş,gün nədir,
Dəmirqızın qardaşısan bunu bil,
Şah olanda göz də, qaş da dəyişir,
Düşüncə də, üz də, baş da dəyişir.
Onlar birdən qucaqlaşdı, öpüşdü,
Çatan ona olanları danışdı,
Anasını, atasını soruşdu,
Toya döndü başev, ara qarışdı,
Şah olanda göz də, qaş da dəyişir,
Düşüncə də, üz də baş da dəyişir.

Eldəbir də olanları danışdı,
Ölənləri, qalanları danışdı,
Alpis deyən yalanları danışdı,
Mineldə lov salanları danışdı,
Şah olanda göz də, qaş da dəyişir,
Düşüncə də, üz də, ba da dəyişir.

Çatan dedi:- Mən yurduma gələrəm,
Anam üçün on yol, yüz yol ölərəm,
Uğurumu mən anamdan bilərəm,
Mən atama böyük şahlıq dilərəm,
Şah olanda göz də, qaş da dəyişir,
Düşüncə də, üz də, başda dəyişir.

Bu görüşlə çox sevindi Nileli,
Nil elliylə bağlaş oldu Minelli,
Ağuş, Sara yaxın oldu, sevimli,
Ikisi də gözəl, parlaq geyimli,
Şah olanda göz də, qaş da dəyişir.
Düşüncə də, üz də, baş da dəyişir.

Sorağ aldı Alpis bu toy-düyündən,
Öc alaram, dedi bu kal kəbindən,
Nil çayını daşdıraram dərindən,
Fironları oynadaram yerindən,
Şah olanda göz də, qaş da dəyişir.
Düşüncə də, üz də, baş da dəyişir.

Özüm ollam burda böyük başbaşı,
Oturdaram burda yersiz Daryaşı,
Şah olarıq ikimiz də yanaşı,
Şah olanda göz də, qaş da dəyişir.
Düşüncə də, üz də, baş da dəyişir.
Çevrilərəm şaxta, yanğın, dumana
Mən baxmaram hər yaxşıya, yamana,
Mindiyarı səpələrəm dörd yana,
Şah olanda göz də, qaş da dəyişir.
Düşüncə də, üz də, başda dəyişir.

***

“Çatan” deyib ata ana sevindi,
Çox gücünü Tanrı verib anaya.
Dedi: - gedim gəlinimlə görüşüm,
Çox gücünü Tanrı verib anaya.

Tunqər Alpan öz oğluyla öyündü,
Dağ ürəyi çırpım-çırpım döyündü,
Qoca ata uşaq kimi sevindi,
Çox gücünü Tanrı verib anaya.

Elçiçəyi qucaqladı,ağladı,
Ayrılıqlar dib daşından laxladı,
Eldəbiri bir də, beş də yoxladı,
Sonra ata çəkisini saxladı,
“Alpis” dedi, o qancili dağladı,
Çox gücünü Tanrı verib anaya.

İkinci qardaş söyləncі

Tunqər Alpan Eldəbiri soruşdu,
Hər uğuru dəyərləndir, bacarsan.
İstəyirdi ona yeni ad verə,
Hər uğuru dəyərləndir, bacarsan.

Dedilər ki,o bir aydır yox olub,
Ola bilsin yeni yola yol alıb,
Deyən o da kövrəkləşib, qocalıb,
Hər uğuru dəyərləndir, bacarsan.

Eldəbir də bal uğuru dadmışdı,
Bunun üçün iş gücünü atmışdı,
O on günə Təbətelə çatmışdı,
Qardaşların son yolunu tutmuşdu,

Gecəsini gündüzünə qatmışdı,
Elçiçəyə iç yanğısı artmışdı,
Yorularaq daşlar içrə yatmışdı,
Hər uğuru dəyərləndir, bacarsan.

Yuxusunda anasını görürdü,
Ana ona yenə öyüd verirdi,
Bulud ana güllərdən şeh dərirdi,
Hər uğuru dəyərləndir, bacarsan.

Deyirdi ki, oğul, bu yol uzaqdır,
Bundan sonra yollar dardır, yasaqdır,
Getmə, yollar burda qardır, buzlaqdır,
Təkcə Sayan, Tantan burda qonaqdır,
Burda qızıl, gümüş qalaq-qalaqdır,
Burda çox şey tanrılaşmış uşaqdır,
Hər uğuru dəyərləndir, bacarsan.

O diksinib ayılarkən yuxudan,
Gördü ona durub baxır bir oğlan,
Ona deyir:- Sən gəlibsən haradan,
Mənim adım Buzbulaqdır nə vaxtdan,
Bu dağların adı qalıb Tantansan
Hər uğuru dəyərləndir, bacarsan.

-Mənim adım Eldəbirdir, Eldəbir,
Dedi:- qardaş mən gəzirəm bir ildir,
Tapacağam mən onları birbəbir,
Hər uğuru dəyərləndir, bacarsan.

-Qardaşların adı nədir söylə sən,
-Sayan, Alan, Qaplandırlar, bir də mən,
-Olmaya sən, Mindiyardan gəlmisən,
Sayan burda baş başıdır biləsən,
Hər uğuru dəyərləndir, bacarsan.

***

Elə bu an göründülər ovçular,
Tanrı bizə hər şey verir verəndə.
Sayan başda, Tantan onun yanında,
Tanrı bizə hər şey verir verəndə.
Bir birini tanıdılar, güldülər,
Öpüşməkçün lap-lap yaxın gəldilər,
Kövrələrək göz yaşların sildilər,
Ata, ana eldən sorağ bildilər,
Tanrı bizə hər şey verir verəndə.

Sayan dedi:- Sağdır anam Elçiçək,
Gedim düşüm ayağına mən gərək,
Gecələri o yuxuma girərək,
Öyüd verir mənə anam bir ətək
Tanrı bizə hər şey verir verəndə.

-Çox nəzilib ürəyinin bağları,
Oğul deyir, bala deyir, ağlayır,
Hər il sizə bayram payı saxlayır,
Tanrı bizə hər şey verir verəndə.

Bu an qaplan səsi gəldi uzaqdan,
O Sayanı izləyirdi bayaqdan,
Sayan tutdu iki əlli yaraqdan,
Tantan bərk-bərk yapışmışdı tutaqdan,
Atlar qorxub düşmüşdülər ayaqdan,
Tanrı bizə hər şey verir verəndə.

Sayan dedi:- o Alpisdir, veyllənir,
Toyuq kimi orda-burda küllənir,
Hərdən birdən sel-su kimi sellənir,
Qasırğalı çovğun olub yellənir,
Tanrı bizə hər şey verir verəndə.

***

İrəliyə cumdu birdən Eldəbir,
Olacağın qabağında dik dayan.
Sıyrılaraq parıldadı qılıncı,
Olacağın qabağında dik dayan.

Sıçrayaraq irəliyə yüyürdü,
Toz-torpağı yolda göyə sovurdu,
O qaplanı izləyərək qovurdu,
Hər uğuru dəyərləndir, bacarsan.
At çapırdı qaplan üstə Sayan da,
Yaraqlılar qovur onu hər yandan,
Bunu görüb dəyişildi qaplan da,
Külək oldu, o uladı yalandan,
Olacağın qabağında dik dayan.

Külək oldu, şaxta oldu, sel oldu,
Hərdən dönüb uğuldayan yel oldu,
Sonra göyə sovrularaq kül oldu,
Çaylar, göllər, göy axmazlar lil oldu,
Ağacların budaqları qıl oldu,

Olacağın qabağında dik dayan.

Birdən dindi lap ucadan Buzbulaq,
Dedi, sonda o bir yumaq olacaq,
Tanrı onu pis günlərə salacaq,
Olacağın qabağında dik dayan.

Bulaq ollam, yaraqlılar su içər,
Sərinləyər iş üstündə çölçülər,
Dəyişilər Alpis qoyan ölçülər,
Hər şey, hər iş yaxşılıqla seçilər,
Olacağın qabağında dik dayan.

***

Alpis qaçdı Tanrı bulaq dinəndə,
Yaxşılıq et, yaxşı yarım Tanrıdır.
Acıq gəlir o pisdikli Alpisə,
Yaxşılıq et, yaxşı yarım Tanrıdır.

Yaraqlılar su içdilər bulaqdan,
Qovrularaq Alpis baxdı uzaqdan,
Gözəl Tantan əl götürüb yaraqdan,
Buzbulaqla əylənirdi bayaqdan,
Olanları soruşurdu qonaqdan,
Yaxşılıq et, yaxşı yarım Tanrıdır.

Elçiçəkdən danışırdı Eldəbir,
Tantan gülüb ağlayırdı hərdən bir,
Gah qaynana, gah qaynata söyləyir,
Yaxşılıq et, yaxşı yarım Tanrıdır.
Təbətelə qırıx gün qonaq qaldı o,
Çox öyüncül, çox sevincək oldu o,
Çoxlarından qızıl bağış aldı o,
Elçiçəkdən, Mineldən söz saldı o,
Yaxşılıq et, yaxşı yarım Tanrıdır.

Sorağ aldı Alpis bu toy düyündən,
Öc alaram dedi bu kal kəbindən,
Təbəteli silkələrəm dərindən,
Mən Sayanı oynadaram yerindən,
Yaxşılıq et, yaxşı yarım Tanrıdır.

Özüm ollam burda böyük başbaşı,
Oturdaram burda yersiz Daryaşı,
Şah olarıq hər ikimiz yanaşı,
Yaxşılıq et, yaxşı yarım Tanrıdır.

Çevrilərəm şaxta, yanğın, dumana,
Mən baxmaram hər yaxşıya, yamana,
Mindiyarı səpələrəm dörd yana,
Yaxşılıq et, yaxşı yarım Tanrıdır.

***

Nə gözəlsən, sərt sayaqsan Təbətel,
Gözəllər də incə olur, sərt olur,
Incə gülün çiçəkləri titrəkdir,
Gözəllər də incə olur, sərt olur.

Qar saxlayır zirvəsində dağların,
İldə üç yol bəzəklənir bağların,
Gözəl olur sənin yay qış çağların,
Gözəllər də incə olur, sərt olur.

Şahlıq edir burda daşlar, qayalar,
Yüzdür, mindir güllərdəki boyalar,
Duyğuludur burda qızlar, analar,
Gözəllər də incə olur, sərt olur.

Dağ çayların ürəklərə axırmış,
Yağışların od sevgiyə yağırmış,
Qar zirvələr Mindiyara baxırmış,
Elin-oban buludları sağırmış,
Gözəllər də incə olur, sərt olur

Dayanışı, hündür damı, zirvəsi,
Qara bulud gözlərinin sürməsi,
Dağ çayları hörüyünün hörməsi,
Gözəllər də incə olur, sərt olur.

***

Bunu bilcək ana, ata srvindi,
Öz gücünü Tanrı verib ataya,
Dedi, gedim, gəlinimlə görüşüm,
Öz gücündən Tanrı verib ataya.

Tunq Ər Alpan Sayan ilə öyündü,
Dağ ürəyi çırpım-çırpım döyünd.
Qoca ata uşaq kimi sevindi,
Öz gücündən Tanrı verib ataya.

Elçiçəyi qucaqladı, ağladı,
Ayrılıqlar dib daşından laxladı,
Eldəbiri bir də, üç də yoxladı,

Sonra ata çəkisini saxladı,
“Alpis” dedi, dildə onu dağladı,
Öz gücündən Tanrı verib ataya.

Üçüncü qardaş söyləncі

Üç Ay keçdi, yoxa çıxdı Eldəbir,
İş götürdün sona çatdır işini.
Atı çapdı getdi uzaq Batıya,
Iş götürdün sona çatdır işini.

Balasqeldə kəsdi Alpis yolunu,
O yağdırdı üzərinə dolunu,
Qamarladı ağ atının yalını,
-Kəsəcəyəm, dedi,- iki qolunu,
İş götürdün sona çatdır işini.
Öldürmüşəm mən alt yerdə Qaplanı,
Qızçiçək də onun üstə qalanıb,
Bu dolanış mənlə gün gün dolanır,
Göndərərəm sənə pisi, yamanı,
Dərinizə dolduraram samanı,
İş götürdün sona çatdır işini.

Eldəbiri bürüyərkən qaranlıq,
Dedi:- Nədir bu qancıllıq, bu acıq,
Tanrısansa yoxdan sıçra üzə çıx,
Döyüşərik qılınc ilə biz acıq,
Yoxsa nədir bu qaçarlıq, qırıqlıq,
İş götürdün sona çatdır işini.

Alpis ona çovğun, şaxta püflədi,
Yel Ağ atı dağa daşa hellədi,
O şaxtadan o istidən ləhlədi,
İş götürdün sona çatdır işini.

Eldəbiri şaxta, çovğun dondurdu,
Alov çıxdı birdən onu yandırdı,
Kimsə gəldi bu alovu söndürdü,
İş götürdün sona çatdır işini.

Ana idi, Eldəbirin anası,
Ana əli duydu onun balası,
Əli onun pambıq bulud cunası,
İş götürdün sona çatdır işini.

Ana dedi:- Ağ buludam, şəhəm mən,
Yara alıb mənim balam köksündən,
Dedi oğlum, yıxılıbsan yenə sən,
Ağ buluda bürün, iç gül şehindən,
Sağalarsan, ucalarsan yenidən,
İş götürdün sona çatdır işini.

Bulud gəldi, yavaş yavaş süründü,
Pambıq kimi Eldəbirə büründü,
Bir cüt isti göz yaşları göründü,
Bunu gördü Alpis, lapdan ərindi,
Qıvrılaraq öz üzünə dirəndi,
İş götürdün sona çatdır işini.

***

Ayılarkən gördü təkdir Eldəbir,
Saxla, oxşa yarı tanrı ananı,
Göydə bulud, yerdə şeh də yox idi,
Saxla, oxşa yarı tanrı ananı.

“Ana” dedi, o sıçradı ayağa,
Göz gəzirdi o yaxına, uzağa,
Qaçdı ora bura düşüdü sorağa,
Çəkilmişdi ana göyə, oylağa,
Saxla, oxşa yarı tanrı ananı.

Ana bir cüt göz yaşına dönmüşdü,
Şaxtalıqlar od alovlar sönmüşdü,
Gül çiçəklər dikəlmişdi çönmüşdü,
Saxla, oxşa yarı tanrı ananı.

Gedə gedə axtarırdı hər yanı,
Axtarırdı ölkə ölkə Alanı,
Alan qardaş ölməyibsə bəs hanı,
O Alpisə oxşadırdı qabanı,
Yola çökən sisi çəni, dumanı,
Ölməyibsə Alan qardaş bəs hanı,
Saxla, oxşa yarı tanrı ananı.

Gəlib çatdı geniş qanlı bir düzə,
Gördü düzdə parçalanıb yüz yüzə,
İki toplum vuruşurdu üz üzə,
Yaralılar bənzər qanlı dənizə,
Qıvrılaraq onlar dönüb ilbizə,
Saxla, oxşa yarı tanrı ananı.

***

O, soruşdu:- kimdir burda vuruşan,
Hər damla qan bir adamlıq dənizdir.
Gördü öndə haray çəkən Alandır,
Hər damla qan bir adamlıq dənizdir.
Qılınc çəkib o da girdi savaşa,
Vura-vura, yıxa-yıxa bir başa,
Gəlib çatdı o döyüşkən qardaşa,
Alan baxdı, dedi:- kimsən savaşan,
Dedi:- mənəm girişmişəm vuruşa,
Səni gəzən yer üzünü dolaşan,
Eldəbirəm, kəsi gəldim qardaşa,
Hər damla qan bir adamlıq dənizdir.

Eldəbiri tanımadı o öncə,
Dedi:- Döyüş ola bilməz əyləncə,
Sən döyüşü döndərirsən gülüncə,
Dur qıraqda, məni salma gilincə,
Hər damla qan bir adamlıq dənizdir.

Solda vuruş- dedi:- sol yan çökməsin,
Onlar bizim sıraları sökməsin,
Onlar burda öc göyərdib əkməsin,
Bir ölkəyə iki çəpər çəkməsin,
Hər damla qan bir adamlıq dənizdir.

Eldəbirin vurumları ağırdı,
Qılınc çəkdi, qancıl üstə bağırdı,
O hamını ön sıraya çağırdı,
Üzərinə oxla bizuc yağırdı,
Alan ona hərdən dönüb baxırdı,
Ona qarşı onda inam doğurdu,
Hər damla qan bir adamlıq dənizdir.

Üç gün çəkdi vuruş, hamı sarsıldı,
Acıqanlar Alanərə basıldı,
Basıq, tutuq gəlib ona qısıldı,
Hər damla qan bir adamlıq dənizdir.

Eldəbirin qolu, başı yaralı,
Qan üzündə quruyaraq qaralıb,
Dedi:- İgid, sən hardansan, haralı,
Qanın gedib, üzün-gözün saralıb,
Hər damla qan bir adamlıq dənizdir.
Dedi:- Alan, Eldəbirəm mineldən,
Gəzib gəzib axtarırdım səni mən,

Alan gəlib tutdu onun əlindən,
Dedi:- Necə gəlib çıxdın bura sən,
Atam, anam gəlməyiblər bəs nədən,
Sən qardaşsan, həm də yaxşı döyüşkən,
Hər damla qan bir adamlıq dənizdir.

Danışdılar, öpüşdülər, coşdular,
Hərdən gülüb dəniz kimi daşdılar,
Oynadılar, ölçüləri aşdılar,
Min ellini öyüb mahnı qoşdular,
Hər damla qan bir adamlıq dənizdir.

***

Alançılar basar çıxdı döyüşdən,
Yaman baha başa gəlir basarlıq.
Ölmüş idi min iki yüz yaraqlı,
Yaman baha başa gəlir basarlıq.

Basıqların istəkləri heç oldu,
Qazandığı Alaneldən köç oldu,
Bu basıqlıq ürəklərdə öç oldu,
Yaman baha başa gəlir basarlıq.

Bu ölkəni tutmaq üçün gələnlər,
Alan eli iki yerə bölənlər,
Heçə döndü neçə yüz yüz ölənlər,
Yaman baha başa gəlir basarlıq.

Ana gəldi qarşıladı qonağı,
Nədən isə solmuş idi yanağı,
Heç gülmürdü, tərpənmirdi dodağı,
Yaman baha başa gəlir basarlıq.

Ana doğa bilməmişdi hələ də,
Sevgiləri qalmamışdı elə də,
Utanırdı çıxmayırdı çölə də,
Yaman baha başa gəlir basarlıq.

***

Bir ay qaldı, qonaq oldu Eldəbir,
Soyuq olur ev uşaqsız olanda.
Danışdılar olanları birbəbir,
Soyuq olur ev uşaqsız olanda.

Sınıq idi ər arvadın ürəyi,
Evdə yoxdur uşaq iyi, bələyi,

Dadsız idi evin dadlı çörəyi,
Soyuq olur ev uşaqsız olanda.

Dağlar, çöllər, güllər niyə soyuqsan,
Yayqın baxış, qulaq yaman duyuqsan,
Sınıq ürək sən quşdan da ayıqsan,
Yorğun sevgi çox çox ayıq-sayıqsan
Soyuq olur ev uşaqsız olanda,

Tanrı, nədir bu düzən yer, soyuq yer,
Tanrı yazıq uşaqsıza uşaq ver,
Tanrı, igid məğrurları özün gör,
Soyuq olur ev uşaqsız olanda.

Tanrı, qurtar yer üzündən Alpisi,
Qırır, çatır, boğur atır o bizi,
Yaxın elə gecə ilə gündüzü,
Soyuq olur ev uşaqsız olanda.

***

Sorağ tutdu ata ana alandan,
Dolanışı yey göstərən sevincdir.
Dedilər ki, gedək onla görüşə,
Dolanışı yey göstərən sevincdir.

Tunq Ər Alpan Alan ilə öyündü,
Dağ ürəyi çırpım-çırpım döyündü,
Qoca ata uşaq kimi sevindi,
Dolanışı yey göstərən sevincdir.

Elçiçəyi qucaqladı, ağladı,
Ayrılıqlar dib daşından laxladı,
Eldəbiri bir də, beş də yoxladı
Dolanışı yey göstərən sevincdir.
Sonra ata çəkisini saxladı,
Alpisliyin əl qolunu bağladı,
Uşaq kimi oynaq, oynaq çağladı,
Dolanışı yey göstərən sevincdir.

Turqa Tanrı tapşırığı söyləncі

Tanrı Turqa tapşırmışdı ağır iş,
Dolanışda barış-duruş yarat sən,
Vuruş, döyüş, ölüm itim olmasın,
Dolanışda barış-duruş yarat sən.

Turq gəzirdi ölkə ölkə, elbəel,
Tanrılığı çoxalırdı ilbəil,
İz qoyurdu kənd-kənd, yurd-yurd evbəev,
Dolanışda barış-duruş yarat sən.

Anlamışdı, böyük Tanrı, nədənsə,
Qoyub onu Alpis ilə üzüzə,
Tanrı kimi qancıl ola Alpisə,
Əltut ola o, yaxşıya, o pisə,
Gah görünə, görünməyə o gözə,
Dolanışda barış-duruş yarat sən.

Alçiçəkdən sonra iç-iç sınırdı,
Arzuları, sevgiləri sönürdü,
Şahlığının kəhərindən enirdi,
Sönüb gedən sevgisinə yanırdı.

Hərdən birdən Elçiçəyi anırdı,
Hərdən birdən gizli evə dönürdü,
Ana iti süd anası sanırdı,
Dolanışda barış-duruş yarat sən.

Yarı Tanrı deyirdilər adına,
Yemək-içmək düşməyirdi yadına,
Yem vermirdi çox da Şimşək atına,
Baş vururdu göyün-yerin qatına,
Dolanışda barış-duruş yarat sən.

***

Düşünürdü, düşünürdü Turq ata,
Keçmiş səni gələcəyə çatdırır.
Düşünürdü ata, ana, bacını,
Keçmiş səni gələcəyə çatdırır.

Hərdən Yanğu, Dinti, Parsa deyirdi,
Sən mənimlə, Parsa, varsan deyirdi,
Sən mənimçün isti qarsan deyirdi,
Keçmiş səni gələcəyə çatdırır.

Yanğu mənim, Tanrı sevgim, ölməzim,
Qıyıq gözlü, ölməz dili bilməzim,
Öz yolundan, zirvəsindən dönməzim,
Keçmiş səni gələcəyə çatdırır.

Hardasınız, Gucər, Qızbax, Tur, Qızağ,
Sizə necə mən yaxınam, mən uzaq,

Hərdən mənlə yuxulaşır İşdayaq,
Keçmiş səni gələcəyə çatdırır.

Hanı mənim Bölgəmisim, qan soyum,
Hanı sənin boy- buxunun, dağ boyun,
Ölməzlikdən gələn səsin hay- huyun,
Keçmiş səni gələcəyə çatdırır.

***

O gedirdi, dindirirdi hər yeri,
Doğma olsan doğmalaşar yol sənə.
Gah görünür, gah görünməz olurdu,
Doğma olsan doğmalaşar yol sənə.

Bir quş gördü, yolda sallaq qanadı,
Dedi:- gözəl, nədir sənin quş adın,
Tanrı səni necə gözəl yaradıb,
Doğma olsan doğmalaşar yol sənə.

Dedi, quşum, niyə belə sallaqsan,
Bir az tutqun, bir az sınıq sayaqsan,
Hardan gəlib, hara gedən qonaqsan,
Doğma olsan doğmalaşar yol sənə.
Dedi, quşum, qanadların qayçıdır,
Səni üzən nədir, deyən sançıdır,
Çöldə sancı, qorxu yaman acıdır,
Quş dinmədi, elə bildi ovçudur,
Doğma olsan doğmalaşar yol sənə.

Birdən çıxdı atlı meşə yolundan,
Yüz-yüz tutuq çıxdı dağın dalından,
Yaraqlılar vardı sağı solunda,
Yaralıydı çoxu qıçla qolundan,
Ağlaşırdı çoxu dağın yalında,
Doğma olsan doğmalaşar yol sənə.

Satallara daşınırdı tutuqlar,
Başı, üzü, qıçı, qolu qopuqlar,
Satdıq idi ordu, döşü batıqlar,
Ağlar idi alnı, başı çapıqlar,
Doğma olsan doğmalaşar yol sənə.

İnləyən kim, son gününü soran kim,
Soruşan kim, ağlayan kim, hürən kim,
Çağlayan kim, ölümünü görən kim,
Son gücünü itirən kim, verən kim,

Doğma olsan doğmalaşar yol sənə.

Son sırada qız-qadınlar gəlirdi,
Gözlərini qolları ilə silirdi,
Satallarda satılacaq, bilirdi,
Doğma olsan doğmalaşar yol sənə.

***

Başçı gəldi durdu, Turqun önündə,
Saysız gəlir görməmişi qudurdur.
Dedi:- niyə yol üstündə durubsan,
Saysız gəlir görməmişi qudurdur.

Turq soruşdu:- Ət yüküylə sən hara,
-Ət deyildir, işçidirlər, mal-qara,
Sınıq salxaq, ölü diri, yap-yara,
Saysız gəlir görməmişi qudurdur.
Aparıram satallara atıram,
Mələşdirib sürülərə qatıram,
Alansansa, buradaca satıram,
Saysız gəlir görməmişi qudurdur.

-Qız, qadını lap ölümcül görürəm,
Burax getsin, nə istəsən verərəm,
-Quruşun var, mən alverə girərəm,
Saysız gəlir görməmişi qudurdur.

Quruşum var, burax getsin əyalı,
Aç qollardan dəmir ağac qandalı,
Elə burda qur sən uzaq satalı,
Saysız gəlir görməmişi qudurdur.

Turq üç bağlı qızıl gümüş çıxartdı,
Başçı ona gözün, dişin ağartdı,
Verdiyini Turq bur az da çoxaltdı,
Saysız gəlir görməmişi qudurdur.

Başçı dedi:- Çox varlısan qoca, sən,
Söylə kimsən, nə iş gəlir əlindən,
Bir az da ver səni başçı qoyum mən,
Saysız gəlir görməmişi qudurdur.

Turq söylədi:- hər iş gəlir əlimdən,
Danışıram sənlə Minel dilində,
Gəl qurtaraq tutuqları ölümdən,

Bollu gəlir görməmişi qudurdar.

Başçı Turqu itələdi arxaya,
Yaraqlılar onu aldı araya,
Bir çaxnaşma düşdü seyrək sıraya,
Bollu gəlir görməmişi qudurdar.

Başçı dedi:- Onu tutun, saxlayın,
Qıçlarına dəmir qandal bağlayın,
Qoltuğunu yəhərini yoxlayın,
Bollu gəlir görməmişi qudurdar.
Turq əl atdı qılıncını sıyırtdı,
Neçə kərə nərildədi, bağırdı,
Tutuqları yardımına çağırdı,
Yaraqlıda bu səs qorxu doğurdu,
Bollu gəlir görməmişi qudurdar.

Başçı dedi:- Yaman səsküy salırsan,
Bax, bu gündən sən də tutuq olursan,
Bax, onlarla bir sırada qalırsan,
Bollu gəlir görməmişi qudurdar.

Turq qılınçı başı üstdə hərlədi,
Şimşək çaxdı, qılınc göytək gurladı,
Başçı qaçdı, öz başını girlədi,
Bollu gəlir görməmişi qudurdar.

Turq atılıb sıçraq mindi atını,
Qılınc səpdi dörd-bir yana odunu,
O ayırdı yana qızı-qadını,
Tutuqlara dedi Turq soy adını,
Sonra dedi, yarı Tanrı adını,
“Mən barışa, mən duruşa elçiyəm,
Mən Tanrılar Tanrısının gücüyəm,
Qan deyənə qancıl, qanlı sancıyam,
Kimə balam, kimə isə acıyam,
Çəkişmədə düzgün ölçü biçiyəm,
Turq atayam yaranışın qılıncı,
Tanrıların yer üzündə görüncu!

Göy gurladı, şimşək çaxdı bu yerdə,
Yağış yağdı, əsdi sərin yel hərdən,
Turq at çapdı, belə dedi o birdən:
“Bollu gəlir görməmişi qudurdar”

Turq başçını vurdu, sərdi torpağa,
Yaraqlılar döndü gülünc yumağa,
Tutuqlular sarıldılar yarağa,
Bollu gəlir görməmişi qudurdar.
O döyüldü uzununa, eninə,
Tutuq saman təpdi onun gönünə,
Tutuqbaşı qaldı tutuq gününə,
Bollu gəlir görməmişi qudurdar.

***

Quşcığazı Turq götürdü torpaqdan,
Yerdə deyil, quş göylərdə uçmalı.
Sığalladı quşu, dillə oxşadı,
Yerdə deyil, quş göylərdə uçmalı.

Gördü bu quş yerdə yuva salıbdır,
O qartaldır, düşüb burda qalıbdır,
Quşlar onun tüklərini yolubdur,
Yerdə deyil, quş göylərdə uçmalı.

Geri baxdı gördü qaçır tutuqlar,
Gəlib ona yaxınlaşır atıqlar,
Yalvarırlar gözü, ağzı yırtıqlar,
Yaralılar, bir də gözü qıpıqlar.

Turq onlara öyüd verir, dindirir,
Ağızlarda alovları söndürür,
Dilə tutur, dörd bir yana göndərir,
Üzlərini işə-gücə döndərir,
Quş yerdə yox, quş göylərdə uçmalı.

Biri deyir:- Hara gedim, çaparım,
Sel vuraraq evimizi aparıb,
Kəndimizi lap dibindən qoparıb,
Quş yerdə yox, quş göylərdə uçmalı.

Biri deyir:- Mən kimsəsiz oğlanam,
Yoxdur evim, yoxdur atam, yox anam,
Mənə iş ver, mən hər şeyi qananam,
Quş yerdə yox, quş göylərdə uçmalı.

Turq söylədi:- Sən gəl mənim dalımca,
Dolanışı dolanışdan alınca,
Sarıl oxa, sarıl ata, qılınca,
Ey kimsəsiz, ey ac susuz yalıncaq,
Quş yerdə yox, quş göylərdə uçmalı.

Qız qadınlar, ər oğlanlar, sınıqlar,
Çətinliyin qabağında qırıqlar,
Yazıq deyil, yazıqlanan yazıqlar,
Qoşul Turqa yerdən göydən yaynıqlar,
Quş yerdə yox, quş göylərdə uçmalı.

***

Turq onları çay üstünə gətirdi,
Sudur, otdur, iş elliyin dib daşı.
Dedi:- gəlin buralarda kənd salaq,
Sudur, otdur, iş elliyin dib daşı.

Qol çırmadı, çay daşları daşıdı,
Yoxdu burda qoca Turqun yaşıdı,
O daş yonan, o tikinti başıdı,
O tutuqa, tutuqluğa qarşıdı,
Turq ev tikdi, həm də ki dibdaşıdı,
Sudur, otdur, iş elliyin dib daşı.

Dedi:- Qızlar, kişilərə əl tutun,
Dedi, ərlər çox işləyin, az yatın,
Yönlü olun, dilinizə duz qatın,
Ata olmaq istəyizə tez çatın,
Sudur, otdur, iş elliyin dib daşı.

Ev tikdilər evləndilər, qaldılar,
Arvad-uşaq yiyəsi də oldular,
Meşəliyə, çölə səsküy saldılar,
Sudur, otdur, iş illiyin dib daşı.

Turq dedi ki, mən gedirəm sağ olun,
Mindiyardır bura, burda siz qalın,
Bir-birizə əltut olun, əl olun,
Sudur, otdur, iş elliyin dib daşı.

***

Turq yol getdi, qartal uçdu onunla,
Yol gedəndən, yol göstərən böyükdür,
Yol olmamış cığırların yolu var,
Yol gedəndən, yol göstərən böyükdür.

Gah getdilər, gah uçdular düz yolu,
Yol izlərlə, burumlarla dop- dolu,
Hər yolun da yüz cığırı, yüz qolu,
Yol gedəndən, yol göstərən böyükdür.

Yol da çıxır yoldan, hərdən sağ- sola,

Sənin yolun mənim yolum qol- qola,
Bu iki yol sonda çıxır bir yola,
Çıxır qalxır yol gədigə, yol yala,
Yol gedəndən yol göstərən böyükdür.

Böyük yollar yeni yollar doğurlar,
Onun alın qırışıdır cığırlar,
Əl uzadıb ulduzları sağırlar,
Gülüb yolsuz buludlara baxırlar,
Yol saymayır ilxı, sürü, naxırlar,
Yol gedəndən yol göstərən böyükdür.

Qartal Turqa yol göstərir arada,
Bu birliyə baxır hərdən yaradan,
Turq düşünür, bu quş gəldi haradan,
Şimşək atla uçur gedir yanbayan,
Yol gedəndən yol göstərən böyükdür.

***

İki sözdür "alver" bircə anlayış,
Alver üstə durub qoca dolanış.
Alır verir, verib alır adamlar,
Alver üstə durub qoca dolanış.

Dolandıran odur min-min dördlüyü,
Dördlüklərin odur dərin kötüyü,
Yerdə qalannarsa kökün örtüyü,
Alver üstə durub qoca dolanış.

Bacarmadın onu, tutuq olursan,
Öz evində belə artıq olursan,
Diri ola-ola yazıq olursan,
Alver üstə durub qoca dolanış.
Güdür iki yanın satış dəyərin,
O dəyişir ölçülərin çəpərin,
Çəkişməyə çəkir çox çox öndəri,
O yoxlayıb satallarda təpəri,
Alver üstə durub qoca dolanış.

Ancaq üç şey var ki, ərki çoxdur, çox,
Hər üçü də satallarda yoxdur, yox,
Ac gözlərdə yeri hər an toxdur, tox.
Alver üstə durub qoca dolanış

Bir anadır, bir bayraqdır, bir torpaq,

Bu üçlükdən durub alver çox uzaq,
Alver dolan dolan gedir bu sayaq,
Alver üstə durub qoca dolanış.

Ana Qurd söyləncі

Ana doğur körpəsini yol üstə,
Ana ata doğuş ilə ölməzdir.
Ağlayırdı, qışqırırdı ağrıdan,
Ana ata doğuş ilə ölməzdir.

Bir çaqqal da gözləyirdi doğuşu,
Körpə yemdir ona yaş yaş yapışıq,
Oxuyurdu quşlar mahnı qarışıq,
Ana ata doğuş ilə ölməzdir.

Gözləyirdi həm də bulud, dağ, meşə,
Göz qırpmadan baxırdılar bu işə,
Gəlmişdilər körpə ilə görüşə,
Ana ata doğuş ilə ölməzdir.

Turq eşitdi səsi, bir an dayandı,
Ana görüb üzü ala boyandı,
Dedi, qartal, bura hara, hayandı,
Bura dolu quşdur, qurddur, qabandı,
Ana ata doğuş ilə ölməzdir.
Ana doğdu, öz gücünü itirdi,
Ana öldü doğuşunu bitirdi,
Qartal endi o körpəni götürdü,
Ağlar-ağlar Turq ataya yetirdi,
Ana ata doğuş ilə ölməzdir.

Bələklədi Turq, körpəni hovladı,
Daş götürüb çaqqalları qovladı,
Yardımına qurdu, quşu hayladı,
Ana ata doğuş ilə ölməzdir.

Iri idi körpə, dolu, sümüklü,
Çığır – bağır, küylü, ağır təpikli,
Qadın görkəmliydi, kişi ilikli,
Ana ata doğuş ilə ölməzdir.

Bir gün keçdi, südsüz körpə ağladı,
Qışqıraraq ürəkləri dağladı,
Bir yol gəzdi hamı, susdu, dığladı,

Tanrıların səsi sanki çağladı,
Onlar bir də yaranışı yoxladı,
Ana ata doğuş ilə ölməzdir.

***

Turq söylədi, gedim hardan süd tapım?
Anlaqlıdır dilsizlərlə dillilər,
Yoxsa ölər uşaq bu gün acından,
Anlaqlıdır dilsizlərlə dillilər.

Süd gəzərək Turq lap düşdü ayaqdan,
Gəldi gördü uşaq yoxdur qundaqda,
Bir səs gəlir ancaq lap-lap uzaqdan,
Çapdı gəldi, baxdı, gördü qıraqda,
Qurd süd verir o körpəyə bayaqdan,
Anlaqlıdır dilsizlərlə dillilər.

Dedi:- Tanrım, qurdda nədir bu anlaq,
Nədir o diş, o ürəklə o qırtlaq,
Nə olacaq qalsa belə bu uşaq,
Gələcəyi onun necə olacaq,
Anlaqlıdır dilsizlərlə dillilər.
Bir səs gəldi buludlardan, töküldü,
Buludların bağrı, döşü söküldü,
Səs dağlara, meşələrə çəkildi,
Ana qurd da səs yönünə dikəldi,
Anlaqlıdır dilsizlərlə dillilər.

Tanrı dedi, “Uşaq öndə olacaq,
O, meşədə, dağda yaşa dolacaq,
Çox dillini gedib dildən salacaq,
Ürəksizə qarşı qılınc çalacaq,
Yaranışda başraq kimi qalacaq,
Misireli, Çineli də alacaq,
Anlaqlıdır dilsizlərlə dillilər.

Turq baş əydi ana qurda, uşağa,
Yola düşdü qartal ilə uzağa,
Döndü yenə yarıtanrı qonağa,
Anlaqlıdır dilsizlərlə dillilər.

***

Şimşəkatın boşalmışdı quşqunu,
Düşərlikdir boşluq ilə əyrilik.
Pis qorxulu yönə səni aparar,
Düşərlikdir boşluq ilə əyrilik.

Turq yol üstü bərkidəndə quşqunu,
Tanış üzdə gördü bir tək qaçqını,
Özü kimi o da yollar yorğunu,
Düşərlikdir boşluq ilə əyrilik.

Bir də baxdı, o, kişiyə yan aldı,
Turqun səsi yerdən göyə ucaldı,
Kişininsə solğun üzü saraldı,
Düşərlikdir boşluq ilə əyrilik.

Dedi:- Sənsən, mənim qızım Elçiçək,
Buralarda olmaq nədir, nə gərək,
Bu geydiyin ər paltarı nə demək,
Düşərlikdir boşluq ilə əyrilik.

Sənə, bala, yaraşmayır bu paltar,
Söylə görüm oralarda nələr var,
Tunq necedir, Mindiyarla Parslıyar,
Düşərlikdir boşluq ilə əyrilik.

“Ata” deyib sanki ana sarsıldı,
Utanaraq, qızararaq qısıldı,
Atasının sağ qolundan asıldı,
“Ata” dedi bir də, bir də bayıldı,
Düşərlikdir boşluq ilə əyrilik.

Ayılarkən – dedi – Ata, bağışla,
Döyməsən də məni ancaq qarqışla,
Burda məni saraldıbdır yağışlar,
Düşərlikdir boşluq ilə əyrilik.

Gəlinimiz gizli sorağ yollayıb,
Yazıb, ana, uşağımız olmayır,
Olur ancaq ildən artıq qalmayır,
Düşərlikdir boşluq ilə əyrilik.

Gedim dedim, bunca Alandiyara,
Gül qurusu aparıram onlara,
Tez sağalır bunla həm çor, həm yara,
Söylə, ata bura hara, sən hara,
Düşərlikdir boşluq ilə əyrilik.

-Bala, mən də dolanıram hər yanı,
Axtarıram yaxşı ilə yamanı,
Göstərirəm elə tanrı yazanı,

Düşərlikdir boşluq ilə əyrilik.

Ata baxdı Elçiçəyə tutuldu,
Ağ qaşları düyünləndi, çatıldı,
Nədən isə boynu, çiyni dartıldı,
Düşüncəsi düşüncəyə qatıldı,
Düşərlikdir boşluq ilə əyrilik.

Türbə qızın söyləncі

Bunca bir səs eşidildi yaxından,
İnam, inanc düşərliyi sağaldar.
“Ölüm - dirim ayağında şah qızı”,
İnam, inanc düşərliyi sağaldar.

“Kim sağaltdı qızı varlı olacaq,
Böyük şahın baş evində qalacaq,
Şahdan çox-çox qızıl, gümüş alacaq!”,
İnam inanc düşərliyi sağaldar.

Coşdu, daşdı bir anlığa Elçiçək,
Dedi:- Ata, gedək qıza baş çəkək,
Şah qızını mən sağaldım, mən gərək,
İnam, inanc düşərliyi sağaldar.

Turq dedi:- Get, sən bu işdə yapıqsan,
Uşaqlıqdan gül çiçəklə tanıqsan,
Atan kimi, anan kimi sayıqsan,
İnam, inanc düşərliyi sağaldar.

Elçiçəyi qarşıladı şah özü,
Ona dedi, gizli yalan çox sözü,
Dedi, qızım ölür, gedir, lap düzü,
İnam, inanc düşərliyi sağaldar.

Dedi, anacaq sən sağaltsan, kişisən,
Dedi:- Şahım sən kişisən nə demək,
Dedi, şahım, mən qadınam, Elçiçək,
Mən qadınam sağalt-qadın Elçiçək,
Görünəydim bu paltarda mən gərək,
Çıxdım yola buraları gəzərək,
İnam, inanc düşərliyi sağaldar.

Yoxladılar onu qızlar qadınlar,
Ağlamaqdan üzü gözü solğunlar,
Ana bacı, qız gəlinlər, yaxınlar,

İnam inanc düşərliyi sağaldar.
Qız soruşdu:- kimsən qonaq, nəçisən,
Bu baş evdə sən sağaltsan, elçisən,
Haralısan, incilərdən incisən,
İnam, inanc düşərliyi sağaldar.

Qonaq qıza dedi olan- qalanı,
Gördü qızın gözü tez- tez sulanır,
Ürəyinə ağrı, acı qalanır,
Qız tez duyur sanki düzü, yalanı,
İnam, inanc düşərliyi sağaldar.

Düşər qızın ürəyinə girdi o,
Çox danışdı, sanki qızı yordu o,
Elçiçəyi olduğutək gördü o,
Öz özünə ürək-dirək verdi o,
Elçiçəkdən inanc gülü dərdi o,
İnam, inanc düşərliyi sağaldar.

***

Qız dedi ki:- Mənim adım Türbədir,
Adda-sanda gəzmə düzü, yalanı.
Mən sevgimin tutuğuyam, düşəri,
Adda-sanda gəzmə düzü, yalanı.

Sevdiyim də doğma əmim oğludu,
Əmim isə şah atamdan dağlıdır,
Kimsə bilmir bu nə ilə bağlıdır,
Adda-sanda gəzmə düzü, yalanı.

O da məni sevir, məndən də artıq,
Uşaqlıqdan sevişmişik qalmışıq,
Bu sevgidə o atıqdır, mən atıq,
Adda-sanda gəzmə düzü, yalanı.

Atam bilsə mən tutuğam sevgiyə,
Baxmaz heç də doğmalığa, çəkiyə,
Qılınc ilə məni bölər ikiyə,
Adda-sanda gəzmə düzü, yalanı.

Mən tutuğam, mən qorxağam, mən yazıq,
Qalmayıbdır məndə solğun yaraşıq,
Mənə ağı versə biri bir qaşıq,
Mən ölərəm sevgim ilə qarışıq,
Öndə ölüm gəlir, ya da barışıq,
Add-sanda gəzmə düzü, yalanı.

Lap yavaşdan dedi ona Elçiçək,
-Bir işləyək, bir düşünək biz gərək,
Oğlan ilə gündə bir yol görüşək,
Adda-sanda gəzmə düzü, yalanı.

Mən verərəm sənə bir dağ gülünü,
İyləyərsən, o dirildər ölünü,
Dəlilikdən o ayıldır dələni,
İtgin qoyur doğmaları bələni,
Dağ gülünün yer-yurdunu biləni,
Adda-sanda gəzmə düzü, yalanı.

***

Türbə dedi:- Mən qorxuram bu işdən,
Qorxu boğur istəkləri yamanca.
Dedi, atam bilsə məni öldürər,
Qorxu boğur istəkləri yamanca.

Qorxma:- dedi sağalt ana, bu işdən,
Mən baş ollam bu qorxulu gedişdə,
Sevinərsən sevgilinlə görüşdə,
Heç bir iş də bil, qorxusuz ötüşməz,
Sevgililər bir birinə yetişməz,
Qorxu boğur istəkləri yamanca.

Qız söylədi anasına gizlicə,
Qonaq qalsın sağalt mənə bu gecə,
Gözəl olur belə görüş, əyləncə,
Danışığ güc artıracaq, gör, necə,
Qorxu boğur istəkləri bəlkə də.

O sağaldıb məni bir az elə bil,
Deyir səndə bu düşərlik çor deyil,
Deyir ki, get gəzintiyə sən bir il,
Qorxu boğur istəkləri bəlkə də.
Ata dedi:- qalsın qonaq yanında,
Alsın bütün qorxuları qanından,
Mən qorxuram bu işlərin sonundan,
Qorxu boğur istəkləri yamanca.

Ata bildi qız sağalır, sevindi,
Dedi, Gərək bağış verim mən indi,
Elçiçəyin sağaltlığın bəyəndi,
Öz qızıyla, qonağıyla öyündü,

Qorxu boğur istəkləri bəlkə də.

Bir gün, beş gün, on gün gəlib sovuşdu,
Türbə toya, qonaqlığa yovuşdu,
Elçiçəyin deməyinə uyuşdu,
Düşüncədə istəyinə qovuşdu,
Qorxu boğur istəkləri bəlkə də.

***

Gülqurusu öz işini görürdü,
Sevgi ərklə, ilk addımla bağlıdır.
Sevgililər bir-birini görmədən,
Bir-birilə on gündən bir yazışdı,
Sevgi ərklə, ilk addımla bağlıdır.

Elçiçəyin yazıları yol aldı,
Yazılarda sevgi sözü bol oldu,
Hər bir sözsə könül açan dil oldu,
Sevgi ərklə, ilk addımla bağlıdır.

Yazıları yazmaqdaydi Elçiçək
Hər iki yan yazı alıb təkbətək,
Onu ondan gələn yazı bilərək,
Oxuyurdu, ağlayırdı uşaqtək,
Sevgi ərklə, ilk addımla bağlıdır.

***

“Əmim qızı, əllərini öpürəm,
Göz yaşıdır sevgi, dəli ağrıdır.
On yaşından səni sevdim, gözlədim,
Göz yaşıdır sevgi, dəli ağrıdır.
Sevgim sənsən, sevgim böyük Tanrıdır,
İstək özgə, sevgi isə ayrıdır,
Mənim sevgim bulaqdan da durudur,
Göz yaşıdır sevgi, dəli ağrıdır.

Yola getmir bir birilə böyüklər,
Biz budağıq, onlar isə kötüklər,
Dəli sevgim məni sizə sürüklər,
Göz yaşıdır sevgi, dəli ağrıdır.

Kəsi olum dolu, solğun ayıma,
Kəsi olum sənin nazlı boyuna,
Sıralanan kipriklərin sayına,
Qara, çatma qaşlarının yayına,
Sevgi düşüb mənim şahlıq soyuma,

Göz yaşıdır sevgi, dəli ağrıdır.

Yazıb qoşan sənin "Dağlar sevgilin"
Yazı söyləncisi

Yazı gəlib çatdı gözəl Türbəyə,
Hər yazıda giley də var sevgidən.
Elçiçəyin quru gülü içində,
Hər yazıda giley də var sevgidən.

Yazı gəlib çatdı gözəl Türbəyə,
Göz yaşları döndü gözdə sürməyə,
Damcıları düyün düyün düyməyə,
Hər yazıda giley də var sevgidən.

Gül iyindən keçdi qızın ürəyi,
Qatlaq qaldı qanadının lələyi,
Qanad açdı ilk sevginin çiçəyi,
Hər yazıda giley də var sevgidən.

Sağalt gəldi, yazısını oxudu,
Çox sözləri lap özündən toxudu,
Qızda ona inanc- inam çox idi,
Hər yazıda giley də var sevgidən.
Sağalt baxdı, əl ayağa düşdü o,
Bu yazını görüb sanki çaşdı o,
Yalan-yalan ora, bura qaçdı o,
Hər yazıda giley də var sevgidən.

Yazı ilə gözlərini sildilər,
Öpüşdülər, sayıqlama güldülər,
Gülüşmədən dirildilər, öldülər,
Gələn yazı sevincini böldülər,
Hər yazıda giley də var sevgidən.

Beş gün, on gün, danışdılar güldülər
Bu sevgini şaha yaxın bildilər,
Aradakı incikliyi sildilər,
Hər yazıda giley də var sevgidən.

Qız yazısı gedib çatdı oğlana,
Son qoyuldu bunla olan qalana,
Deyilənlər çıxdı heçə, yalana,
Hər yazıda giley də var sevgidən.

***

Oğlan gilə getdi çıxdı Elçiçək,
Düşərliyi bilən yarı tanrıdır.
Sağalt ana sevən qızı sağaltdı,
Düşərliyi bilən yarı Tanrıdır.

Sağlamlığı güdən yarı tanrıdır,
Sağaldan var, ayaq üstə qoyan var,
Sağaldan da qaldıran da Tanrıdır,
Düşərliyi bilən yarı Tanrıdır.

Dağlar idi adı sevən oğlanın,
Qarşıladı gülər üzlə ananı,
Bom-boş idi içi böyük komanın,
Qara olsun üzü pisin, yamanın
Sağaldan var, ayaq üstə qoyan var,
Sağaldan da qaldıran da Tanrıdır.

Dedi:- Niyə tutulubsan sən nədən,
Sənə sorağ gətirmişəm Türbədən,
Yazı yazmaq öyrətmişəm ona mən,
Yazı qopur hər adamın əlindən
Sağaldan var, ayaq üstə qoyan var,
Sağaldan da qaldıran da Tanrıdır.

Bu yazını sənə Türbə göndərib,
O baş evi gül evinə döndərib,
O yazıyla dağı daşı dindirb,
Düşərliyi bilən yarı Tanrıdır.
Sağlamlığı güdən yarı Tanrıdır.

Qurugülün iyi basdı komani,
Yırtdı onun gözlərində dumanı,
O unutdu çox olanı, yalanı,
Düşərliyi bilən yarı Tanrıdır.

Sağlamlığı güdən yarı Tanrıdır.
Qaçdı öpdü əmi oğlu yazını,
Yazı qırdı ürəyinin buzunu,
O yazıda gördü əmi qızını,
Düşərliyi bilən yarı Tanrıdır.
Sağlamlığı güdən yarı Tanrıdır.
Sağaldan var, ayaq üstə qoyan var,
Sağaldan da qaldıran da Tanrıdır.

İkinci yazı söyləncі

“Əmi oğlu, könlüm, gözüm, işığı,
Yaranışın ilk Tanrısı sevgidir.
Mən sevginin tutuğuyam on ildir,
Yaranışın ilk Tanrısı sevgidir.

Mən on ildir gözləyirəm, düz on il,
Dustaqdayam, baş evdə yox, elə bil,
Mən düşərlik içindəyəm son beş il,
Düşərliyi bilən yarı Tanrıdır.
Yaranışın ilk Tanrısı sevgidir.
Biz sevirik, sən oğlansan, mən qızam,
Bu sevgidə sən dənizsən, mən duzam,
İkilikdə sən payızsan, mən yazam,
Kimdir, görən, sevgilərdən çox yazan,
Dil açmamış sevgiləri pis yozan,
Yaranışın ilk Tanrısı sevgidir.

Bu yaranış Tanrı evi, biz qonaq,
Gedək Tanrı evimizə biz qonaq,
Harda gül var, sevgi gülü, biz qucaq,
Soy kökümüz birdir, bir od, bir ocaq,
Gül, istəsən göyə qalxaq, quşlaşaq,
Buludların üzərində biz uçaq,
Yaranışın ilk Tanrısı sevgidir.

Əmi oğlu, gözləyirəm yazını,
Gözləyirəm sevgilimin özünü,
Gözü yolda qoyma əmi qızını,
Yaranışın ilk Tanrısı sevgidir.
Yazan qoşan əmi qızı dağlardır.
“Yazan-qoşan əmi qızı çağlardır”.

***

Sağalt ana – Elçiçəyin yazısı,
Yazı qalır yazanları yaşadır.
Qurugülün iyi əsdi baş evdə,
Yazı qalır, yazanları yaşadır.

Gah komaya, gah Baş evə getdi o,
Yazı olub ilk sevgidə bitdi o,
Gah da qırx gün yurda gedib itdi o,
Yazı qalır, yazanları yaşadır.

Şah gördü ki, qız sağalıb büs-bütün,
Bağça-bağa çıxır gəzir o hər gün,
Nə sözündə, nə alnında bir düyün,
Yazı qalır, yazanları yaşadır.

Hər aydan bir susqun, gizli, dalbadal,
Döydü sevgi qapısını yazılar,
Çiçək açdı ürəklərdə arzular,
Yazı qalır, yazanları yaşadır.

Sağalt ana yazı oldu ellərə,
Bu yazılar gəzdi, düşdü dillərə,
Onlar uçub çatdı uzaq illərə,
Yazı qalır, yazanları yaşadır.

Sorağ gəldi doğdu sənin gəlinin,
O uzatdı Tanrı yönə əlini,
Yaşat dedi:- Tanrım, o dağ gülünü,
Yazı qalır, yazanları yaşadır.

***

Şaha dedi sağalt ana Elçiçək:
-Hər düşərin dərmanı var, tapılsa.
Qardaşınla barış, qıza toy elə,
Hər düşərin dərmanı var, tapılsa.

Bir gün bağda görüşdülər qız, oğlan,
Bayıldılar, yıxıldılar, yanbayan,
Bu sevgidir, ya düşərlik, Yaradan,
Gəlsin, görsün, sağalt ana, harada,
Yazı dönüb sevgi olub burada,
Yazı yazan getdi, çıxıb aradan,
Hər düşərin dərmanı var, tapılsa.

Yetmələri belə görüb qardaşlar,
Əl çəkdilər gizli, yersiz savaşdan,
Sona çatdı aradakı tutaşlar,
Hər düşərin dərmanı var, tapılsa.

Oyatdılar bayqın qalan “Dağları”,
Bürüdülər zərxaraya “Çağları”,
Bayqın qaldı bu sevgiyə çoxları,
Hər düşərin dərmanı var, tapılsa.
Şah soruşdu:- Yazıları kim yazıb,
Bu sevgidə oğlan azıb, qız azıb,

Bu Baş evi xoşagəlim iy basıb,
Hər düşərin dərmanı var, tapılsa.

Qız oğlanla bilmir yazı işini,
Kim veribdir irəliyə döşünü,
Yazı yazıb, belə işi düşünüb,
Yazı yazıb qoşa- qoşa, beşini,
Hər düşərin dərmanı var, tapılsa.

Biri dedi:- Göydən düşən yazıdır,
Yazı deyil, bu, yuxudur, yozudur,
Bu, göylərdən qopub gələn düzüdür,
Bu düzülər olanmazın özüdür,
Bu. Tanrının görünməyən üzüdür,
Sağalt ana- Elçiçəyin sözüdür,
O qız bizim Turq atanın qızıdır,
Hər düşərin dərmanı var, tapılsa.

Yallı Qaplan söyləncі

Turq Qartalla gəldi çıxdı Hindelə,
Nə gördünsə gördüyündən yararlan.
İki yallı Qaplan gördü qapıda,
Nə gördünsə gördüyündən yararlan.

Onlar ağac evcikdəydi, qapalı,
Şahın Başev qapısından aralı,
Kök gövdəli ancaq, xırda qafalı,
Nə gördünsə gördüyündən yararlan.

Turq dörd yandan alınmışdı üzüyə
Bağlanmışdı qolu, qıçı, kötüyə,
Şah gözündə o dönmüşdü ürküyə,
Nə gördünsə gördüyündən yararlan.

-Qoca kimsən, kimliyini açıqla,
Bura tez-tez gəlir gözü qıpıqlar,
Qaplan yemi olub çox-çox yazıqlar,
“Mənəm” deyir bizə ağzı yırtıqlar,
Turqdan, Tunqdan qalan yersiz qalıqlar,
Nə gördünsə gördüyündən yararlan.

-Şahım, - dedi, Turq – ovçusayağam,
Qocayamsa siz deyəndən uzağam,
Bu yerlərə mən ötəri qonağam,

Nə gördünsə gördüyündən yararlan.

-Ovçusansa bura qaplan oylağı,
Buyur, bu gün sən ol qaplan qonağı,
Qoy açsınlar belindəki yarağı,
Nə gördünsə gördüyündən yararlan.

Bu qaplanlar adam yeyir, donquz yox,
Qılınc odur, ox çeynəyir, toppuz yox,
Yırtıcıdır, amansızdır, quduz yox,
Nə gördünsə gördüyündən yararlan.

-Mən buraya gəlməmişəm vuruşa,
Qaplanlarla girim qanlı savaşa,
Gəlmişəm ki. şahdan bir söz soruşum,
Nə gördünsə gördüyündən yararlan.

Şah buyurdu, - Qaplanları buraxın,
Çəkin ağac evcikdəki darağı,
Gedib onlar iyləsinlər qonağı,
Nə gördünsə gördüyündən yararlan.

***

Yaxınlaşdı Turqa yallı qaplanlar,
Tanrı soydur yarı Tanrı olanlar.
İylədilər onu, yerə çökdülər,
Tanrı soydur yarı Tanrı olanlar.

Turq yerindən tərpənmədi, qalxmadı,
Dönüb çökən qaplanlara baxmadı,
Xaqan kimi o özündən çıxmadı,
Tanrı soydur yarı Tanrı olanlar.
Xaqan dedi:- Qaplanları öldürün,
Acığımı quduzlara bildirin,
Qanlarını bu Baş evdən sildirin,
Tanrı soydur yarı Tanrı olanlar.

Turq söylədi:- Xaqan, yaman cılızsan,
Qaplanlar yox, sanki özün quduzsan,
Onlar deyil, sən yiyəsiz ağızsan,
Tanrı soydur yarı Tanrı olanlar.

Onlar məni tanıdılar, durdular,
Sənin böyük mənliyini qırdılar,
Dilsiz, dilsiz mənlə birlik qurdular,
Tanrı soydur yarı Tanrı olanlar.

Xaqan, göylər mənə belə buyurur:
“Ana qaplan onun üstə yüyürüb,
O qaplana qanlı qılınc sıyırıb,
Cüt körpəni anasından ayırıb,
Tanrı soydur yarı Tanrı olanlar».

Xaqan birdən sıçraq durur ayağa,
Qılınc çəkir o acıqdan qonağa,
Qaplanlarsa diş qıcıbdır yarağa,
Qovub şahı təpir onu bucağa,
Xaqan dönür bir burmaca yumağa,
Tanrı soydur yarı Tanrı olanlar.

Biri dedi:- Qapalanı mən oxladım,
Xaqan yana gələn yolu bağladım,
Mən Xaqana çəpər oldum, saxladım,
Ana Qaplan son anında ağladı,
Tanrı soydur yarı Tanrı olanlar.

Turq söylədi:- Qaçın gedin, qaplanlar,
Sizə qarşı qan, qan olub olanlar,
Öcə qalar dilsizdən öc alanlar,
Gedin, getsin bu Başevdən yalanlar,
Eli sizə yem eyləyən Xaqanlar,
Tanrı soydur yarı Tanrı olanlar.
Qaplanlarsa çökdü yerə getmədi,
Bunun ilə qorxu, ürkü bitmədi,
Göylər yerdə olanları örtmədi,
Küsən, qalan, yalan gözdən itmədi,
Xaqanın da öc acığı ötmədi,
Tanrı soydur yarı Tanrı olanlar.

Xaqan dedi:- Qoca, kimsən, nəçisən,
Ola bilsin sən tanrıdan elçisən,
Ya göylərdən gələn ölçü- biçisən,
Tanrı soydur yarı Tanrı olanlar.

Qal bizimlə, burda yarı tanrı ol,
Bu ölkənin tükənməyən varı ol,
İstəyirsən lap Xaqanlaş, ayrı ol,
Tanrı soydur yarı Tanrı olanlar.

Turq at minib uzağa yol alınca,
Qaplanlarsa getdi onun dalınca,

Qaldı qaplan yuvaları yalıncaq,
Tanrı soydur yarı Tanrı olanlar.

***

Turq gedirdi Tanrı ilə görüşə,
Yolda bizə yol göstərir ulduzlar.
Ağ buludlar süzgün ona baxırdı,
Yolda bizə yol göstərir ulduzlar.

Dedi:- “Tanrım, düzəlməyir dolanış,
Yaranmışdır boğuşmağa yaranış,
Yalan ilə əkilidir hər qarış,
Hər yer, hamı nə özgədir, nə tanış,
Qoşalaşıb ürəklərdə öc, barış,
Yolda bizə yol göstərir ulduzlar.

Dedi:- “Tanrım, qurda dil ver, qanad ver,
Qurda qurd yox, yeni ölməz bir ad ver,
Dolanışa xoşagəlim bir dad ver,
Pisə qarşı bizə dönməz inad ver,
Dolanışı bizə bir də yarat ver,
Yolda bizə yol göstərir ulduzlar.
Turq çox dedi, səs gəlmədi tanrıdan,
O, tökülü qaldı Tanrı sarıdan,
O qayıtdı uzaq yolu yarıdan,
Yolda bizə yol göstərir ulduzlar.

Dedi:- “tanrım, sərt üz göstər Alpisə,
Qoyma çıxsın yer üzündə qan dizə,
Sən qoyubsan bizi onla üz –üzə,
Onda güc ver, yenilməyən güc bizə,
Yolda bizə yol göstərir ulduzlar.

***

Birdən birə çovğun düşür, sel, yağış,
Göydən nələr gözləyirsən, nə gəlir.
Buz üzünü üzə verir dolanış,
Göydən nələr gözləyirsən, nə gəlir.

On gün yağış, on gün çovğun, bir ay sel,
Daşır bulaq, daşır axmaz. daşır göl,
Göylər yerə qırmanc vurur elə bil,
Yer eləyir quraqlığa neçə il,
Göydən nələr gözləyirsən, nə gəlir.

Yarğan, meşə, qaya, çökək dağılır,

Min min dilsiz yuvasında boğulur,
Sanki burda yeni dirrik doğulur,
Göydən nələr gözləyirsən, nə gəlir.

Bunlar hamı tanrı Alpis yarağı,
Qızmar isti oda tutur torpağı,
Bu istidən qopur beynin qapağı,
Yanır gedir yerin otu, alağı,
Tüstülənir mal-qaranın otlağı,
Göydən nələr gözləyirsən, nə gəlir.

Dönür baxır arxasına Turq bu an,
Görür daha nə qartal var, nə qaplan,
Tək qoyubdur onu böyük yaradan,
Göydən nələr gözləyirsən, nə gəlir.
Qalxır dağın zirvəsinə Şimşək at,
Silinibdir, burdan gedib yurd, elat,
Meşələrdə qalmayıbdır qol-qanad,
Göydən nələr gözləyirsən, nə gəlir.

Turqla Alpisin vuruş söyləncі

Alpis gəlir Şimşəkquyruq atıyla,
Pisdiklinin bacarığı pis olur.
Deyir: - “Dayan, yarı Tanrı Turq ata,
Pisdiklinin bacarığı pis olur.

Mən ki, gözə görünmürəm əzəldən,
Bir Odərpay görür məni, bir də sən,
Mən gəlmişəm yer üzünə yenidən,
Pisdiklinin bacarığı pis olur.

Mən vuruldum sənin Hindel qayğına,
Qulaq asdım göyə qarşı sorğuna,
Girdim sənin böyük ata duyğuna,
Girdim hərdən sənin Minel yuxuna,
Güldüm ata qayğı, ürkü, qorxuna,
Pisdiklinin bacarığı pis olur.

Gəl, bir olaq, dolanışı dəyişək,
Gəl, bir olaq Tanrılarla deyişək,
Düzlük üstə onlar ilə söyüşək,
Gedək göydə onlar ilə döyüşək,
Pisdiklinin bacarığı pis olur.

Mən yaxşıyam pis olsa da adlarım,
Mən sökürəm çox ərpimiş qatları,
Vecsizləri, çürükləri, qartları,
Yerəsməni, suəsməni, çatları,
Yandırıram ev, çöl, ağac, otları,
Dilsizləri, dilliləri, atları,
Həm yiyəsiz, həm baxımsız yurdları,
Pisdiklinin bacarığı pis olur.
Gəl bir olaq, dəniz kimi köpürək,
Gəl bir olaq yeri silək, süpürək,
Pisi alaq, yaxşılara tüpürək,
Çovğun olaq, yanğın, qıtlıq, yel-külək,
Pisdiklinin işi-gücü pis olur.

Turq söylədi:- Dəyişibsən yamanca,
Səni gərək tutum oxa, qılınca,
Süpürləyim, əzişdirim doyunca,
Qovum səni gözəl Üstyer buyunca,
Pisdiklinin işi-gücü pis olur.

Dolanışı Tanrı yaxşı qurubdur,
Pisdiklini öz içindən qırıbdır,
Bir-birilə vuruşmada yorubdur,
Pisdiklini yaxşılıqla vurubdur,
Yaranışın arxasında durubdur,
Pisdiklinin işi-gücü pislikdir.

Sən Daryaşı döndəribsən qan-qana,
Oxşadıbsan acıqana, xortdana,
Bələkləyib bürüyübsən yorğana,
Partlamamış zoqquldayan çibana,
Mindiyara qarşı cılız yamana,
O baş-başı olub yağlı yalana,
Pisdiklinin işi-gücü pislikdir.

Alpis dedi:- Ay qocalmış vuruşqan,
Boş-boşuna qılınc çalan dalaşqan,
Sənə qarşı durub ayıq yanbayan,
Yaman, xortdan, yalan, öclə acıqan,
Pisdiklinin işi-gücü pislikdir.

Dörd yüz ildir, gəlib yaşa dolubsan,
Döyüşlərdə topuz, qılınc çalıbsan,
Bunca gəlib yarı Tanrı olubsan,
Pisdiklinin işi-gücü pislikdir.

***

Kələzdəndi bir-birinə Tanrılar,
Tanrılar da yerdə tez-tez toqquşur.
Turqla Alpis dayandılar üz üzə,
Tanrılara yerdə tez-tez toqquşur.

Yaxınlaşıb dirəndilər üz- üzə,
Dayandılar acıq dolu göz- gözə,
Söyüşdülər, qarmalandı söz sözə,
Tanrılara yerdə tez-tez toqquşur.

Qılınclaşma, toppuzlaşma, oxlaşma,
Yaraqlarda cingildəşmə, çaxnaşma,
Yerə aşıb dığırlanma, ağnaşma,
Gendən baxan kəndlilərdə ağlaşma,
Tanrılara yerdə tez-tez toqquşur.

Şimşək qılınc od püskürdü dörd yana,
Şimşəkquyruq od tökürdü ormana,
Girir atlar ağ buluda, dumana,
Səs yayılır sıx meşəyə, arana,
Tanrılar da yerdə tez- tez toqquşur.

Biri gəlir bər-bəzəkdə, sahmanda,
Əzilərək Turqa deyir yalandan,
Qoca Turq Ər, nə gəzirsən bu yanda,
Qanlı vuruş gedir böyük Aranda,
Qızın ölüm ayağında, son anda,
Tanrılara yerdə tez-tez toqquşur.

Qızın dedi; “Atamı tap, ölürəm,
O küsübdür məndən, bunu bilirəm,
Göz yaşımı öz qanımla silirəm,
Tanrılara yerdə tez-tez toqquşur.

Mənə dedi, “Çöküb yanır Mindiyar,
Oğurlanıb, dağlıbdır nəki var,
Satallarda çap ha çapdır, yar ha yar,
Başevdəki dam-daş bir- bir yatırlar,
Tanrılara yerdə tez-tez toqquşur.
Qadan alım, tez məni al tərkinə,
Qalx atınla, bax, bu dağı dikinə,
Şaxta düşür, bürün mənim kürkümə,
Tanrılara yerdə tez-tez toqquşur.

Turq soruşdu:- kimsən, nəçi, haradan,
O əzilib bükülərək neçə an,
Dedi:- Məni göndəribdir Yaradan,
Mən yırtıcı qurdam Qaplan Çalağan,
Yalan, qorxu, qorxu yalan Yaradan,
Mən qorxmuşam, sarsılmışam, orada,
Az qalırdı mən də çıxım sıradan,
Tanrılara yerdə tez-tez toqquşur.

Qılınc çəkdi Turq yalana lapbadan,
Qaçdı getdi uzaqlara acıqan,
Dedi:- Minel dağılacaq, düz-yalan,
Çıxacaqsan, qoca, sən də sıradan,
Tanrılarda yerdə tez-tez toqquşur.

Yaman, gəldi dedi, "Mən də Tanrıyam,
Ad götürmək, ad saxlamaq çətindir.
Mən Alpisin yamanıyam, tutuğu,
Ad götürmək, ad saxlamaq çətindir.

Qulaqları iri-iri, pələydi,
Əl ayaqdan, boy buxundan köləydi,
Tərpənişdə iti qaçan dələydi,
Ad götürmək, ad saxlamaq çətindir.

-Mən yamanam, işim, gücüm yamanlıq,
Üzdə ayam, dibdə qatı qaranlıq,
Ürəklərdə soyuq çənəm, dumanlıq,
Mənim işim gizli olur, bir anlıq,
Düzdə çoram, odam, suda bulanlıq,
Oğruların çox sevdiyi toranlıq,
Öz gücünü məndən alır qaranlıq,
Ad götürmək, ad saxlamaq çətindir.
Turq dinmədi, acıq tutdu gözünü,
Qılınc vurdu, kəsdi onun sözünü,
Tək qol qaldı yaman tutdu özünü,
Turq önündə o qatdadı dizini,
Ad götürmək, ad saxlamaq çətindir.

Təkqol yaman qaçaqaçda büdrədi,
Kəsik qolu başı üstə hərlədi,
Səsi yenə əvvəlki tək gurladı,
Ad götürmək, ad saxlamaq çətindir.

Dedi, «Ey Turq, mən yamanam, qancılam,

Oxtək gərək gözlərinə sancılam,
Mindiyara alov olub od saçam,
Ad götürmək, ad saxlamaq çətindir.
***
Turq gördü ki, biri gəlir acıqlı,
Üz çox şeyi açıq-aydın göstərir.
Sarı yarpaq kimi üzü sapsarı,
Üz çox şeyi açıq-aydın göstərir.

Dedi, Turq Ər, eşit bil ki, mən öcəm,
Dolanışda yenilməyən bir gücəm,
Qafalıyam, qapalıyam, həm bicəm,
Üz çox şeyi açıq-aydın göstərir.

Mən Alpisdən incimişəm küsmüşəm,
Onun ilə bağlanışı kəsmişəm,
Tək təkinə yer üzünü gəzmişəm,
Tək qalmaqdan yorulmuşam, bezmişəm,
Üz çox şeyi açıq-aydın göstərir.

Məni götür öz yanına, iş buyur,
Sən Tanrını, mən də səni qoruyum,
Qancılının tükün göyə sovurum,
Gözlərinin giləsini qovurum,
Qaplanları, Qartalları doyurum,
Üz çox şeyi açıq-aydın göstərir.
Turq söylədi:-Belə başa düşdüm mən,
Yaxşılıqdan öc alırsan yenə sən,
Kimə gərək onda bu baş, bu gödən,
Get, öcünə tapşırıram səni mən,
Üz çox şeyi açıq-aydın göstərir.

İstəsən ki, mənlə birgə gedəsən,
Onda gərək öz öcündə itəsən,
Bir də öcsüz ağac kimi bitəsən,
Ək, biç, al, ver işlərinə yetəsən,
Üz iç üzü açıq-aydın göstərir.

Öc saraldı, acığından sozardı,
Buynuz, quyruq çıxararaq bozardı,
Acığından yandı getdi, qızardı,
Üz iç üzü açıq-aydın göstərir.

Turq yol getdi, çatdı çox-çox haraya,
Ortaq oldu neçə-neçə olaya,

Buzboğazdan yortdu o tay, bu taya,
Kölgəsizlər diyarından Al çaya,
Durudaşlar diyarından Altaya,
Üz iç üzü açıq-aydın göstərir.

Dedi: -Tanrım, hər yer birdir, bir boya,
Hər yer qumdur, dəniz, çaydır, sərt qaya,
Tanrı adı ver Arığa, Qızaya,
Onlar ölməz od aparıb o taya,
Üz iç üzü açıq-aydın göstərir.

Dedi, Tanrım, Tanrı işi ağırdır,
Yarı Tanrı Tanrılığa cığırdır,
Harda yaxşı çoxdur, orda uğurdur,
Pis yerlərdə gözlər çuxur-çuxurdur,
Üz iç üzü açıq-aydın göstərir.

Mənə güc ver, gəlim sənlə görüşüm,
Alpis ilə yaxşı-yaxşı döyüşüm,
Ölüm-dirim vuruşuna girişim,
Üz iç üzü açıq-aydın göstərir.
Dedi Tanrım:- Altyer azıb, ərləşdir,
Yaxşı pisi, acı, toxu birləşdir,
Hər bir yeri öz yerinə yerləşdir,
Hər bir şeyi pis görəni çerləşdir,
Üz iç üzü açıq-aydın göstərir.

Dedi Tanrım:- Çox elat var, ölkə var,
Dolanışın yarısıdır Mindiyar,
Bu ölkədə nə istəsən bollu var,
Quraqlığı bu ölkədən, çək çıxar,
Tox yaşasın gözü yaşlı olanlar,
Çox yaşasın yaşdan sevgi alanlar,
Üz iç üzü açıq-aydın göstərir.

Quruş söyləncі

Tunq Ər Alpan dedi dünən baş evdə,
“Quruş al ver saxlancıdır satalda.
Öz adına qızıl quruş vurdurdu,
Quruş al ver saxlancıdır satalda.

Qızıl quruş, gümüş quruş, tunc quruş,
Quruş ilə güc artırır quruluş,
Artdı Minel Mindiyarda güc, duruş,

Quruş al ver saxlancıdır satalda.

Çinə satdı qarayağı quruşla,
İpək aldı durudaşla, göydaşla,
Artdı ölkə sıçrayışla, uçuşla,
Quruş al ver saxlancıdır satalda.

Xurma, gəmi, dəri, at, yem, tunc yaraq,
Dörd təkərli, iri qayıq, qazalaq,
Getdi, gəldi beş təkərli çaparaq,
Quruş al ver saxlancıdır satalda.

Quruş üstə Tunqun qolu, yazısı,
Ölkələrə açıq oldu qapısı,
Axdı bura yaranmışın yarısı,
Quruş al ver saxlancıdır satalda.
Çinel, Hindel Misirellə, Balasqel,
Qoydu burda ayaq yeri yer bə yer,
Artdı al ver qonşuluqda il bu il,
Quruş al ver saxlancıdır satalda.

Qız aldılar, qız verdilər ölkələr,
Şahlıq oldu, diyar oldu bölgələr,
Gözdən itdi, ötdü qara kölgələr,
Quruş al ver saxlancıdır satalda.

Çinellilər ayaq açdı Minelə,
Yaxınlaşdı çox el-elə, dil-dilə,
İnam artdı yatım oldu il-ilə,
Quruş al ver saxlancıdır satalda.

Turq Ər Alpan ölkələri dolaşdı,
Hər bir elə öz eli tək yanaşdı,
Təkcə Daryaş küsdü, onla tutaşdı,
Quruş al ver saxlancıdır satalda.

Onlar bir də vuruşdular ad üstə,
Güləşdilər, boğuşdular at üstdə,
Çəkişdilər otlaq üstə, ot üstə,
Quruş al ver saxlancıdır satalda.

Döyüş vuruş gəlib çıxdı arana,
Haray – həşir, səs yayıldı hər yana,
Çevrildilər gözü qanlı qaplana,
Quruş al ver saxlancıdır satalda.

Daryaş dedi:- Bizə qızıl quruş ver,
Torpağı ölç, elə qarış-qarış ver,
Quraqlıqdır, göydən bizə yağış ver,
Quruş al ver saxlancıdır satalda.

Bizə diyar adı verdin, nə olsun,
İndi ona ölkə adı qoyulsun,
Pars ölkəsi ölkə-ölkə yayılsın,
Quruş al ver saxlancıdır satalda.
Tunq Ər Alpan dedi:- kütsən, yazıqsan,
Baş olsan da öz içində qırıqsan,
Yekə başsan, elə, yurda soyuqsan,
Quruş al ver saxlancıdır satalda.

Cingildədi, gumbuldadı yaraqlar,
Endi qılınc, toppuz, batdı tutaqlar,
Qızdı gözlər, batdı dibdən qulaqlar,
Quruş al ver saxlancıdır satalda.

Bir ay çəkdi vuruşmalar, çəkişlər,
Gəlib çatdı Pars diyara döyüşlər,
Al-qan oldu biçənəklər, örüşlər,
Mələr qaldı quzu, dayça, çəpişlər,
Quruş al ver saxlancıdır satalda.

Sonra düşüb güləşdilər döş-döşə,
Döndü güləş kobudluğa, söyüşə,
Yer qalmadı sonra çəkiş – bərkişə,
Quruş al ver saxlancıdır satalda.

Baş başılar çəkildilər qırağa,
İki toplum əl atdılar yarağa,
Döndü torpaq qan qoxulu batlağa,
Quruş al ver saxlancıdır satalda.

Tunq Ər Alpan yaralıydı başından,
Daryaşınsa qılınc yeri qaşında,
Ağlayırdı qıztək doxsan yaşında,
Quruş al ver saxlancıdır satalda.

Çoxu öldü, çoxu qaldı yaralı,
Yaralının düşüncəsi qaralır,
O, tanrıdan, eldən incik, aralı,
Qansızlıqdan üzü, gözü saralır,

Ağrılardan bəbəkləri daralır,
Quruş al ver saxlancıdır satalda.
Tanrı, Turqu göndər bura birbaşa,
Yer eləsin barışıqa, barışa,
Tuşlamasın oxu qardaş qardaşa,
Son qoyulsun bu qırğına, savaşa,
Son qoyulsun dalda sözə, qarqışa,
Quruş al ver saxlancıdır sat alda.

XXVI QAPI. Parsdiyar söyləncі

Daryaş baş-baş geyimində oturub,
El deyib ki, daldan gələn bərk gələr,
Çox düşünən az danışar az gülər,
O gümüşdən hörüb tikib başevi,
El deyib ki, daldan gələn bərk gələr.
Çox düşünən az danışar az gülər.

Asureldən tökmə, tikmə dəf-daraq,
Balasqeldən dörd piltəli qırx çırağ,
Hindeldən də al dəmirdən qab-qacaq,
El deyib ki, daldan gələn bərk gələr.
Çox düşünən az danışar az gülər.

Sallamalar qırçın-qırçın, mayallaq,
Ağ çinidən yonta qızlar, utancaq,
Alov çəkir ocaqlarda yanacaq,
Bucaqlarda parıldayan yalyaraq,
Qulluqçular boy-buxundan yapalaq,
Ağ daşdandır, yonma daşdan hər dayaq,
Al ipəkdən oturacaq, yatacaq,
Suvaq daşlar, daş döşəmə ağappağ
El deyib ki, daldan gələn bərk gələr.
Çox düşünən az danışar az gülər.

Daryaş sanki gözü yaşlı, lılıqlı,
Üç ay, beş ay gəzir başı sarıqlı,
Qaldı yenə Mindiyardan yanıqlı,
Tunqa qancil, Alpisinə qılıqlı.
El deyib ki, daldan gələn bərk gələr.
Çox düşünən az danışar az gülər.
Asurelin içi, çölü qarışıb,
Qıtlıq çəkib Hindel, üzü qırışıb,
«Gərək indi yenisilə tapışım,
Gedim gərək Misireldən yapışım,

Alpis gəlir, bunu ondan soruşum,
El deyib ki, daldan gələn bərk gələr.
Çox düşünən az danışar az gülər.

Bir qız ola, ağzı, burnu bal dada,
Naz- qozuyla gedə Tunqu aldada,
Onun ilə qucaqlaşa daldada,
Əkbitənə düşə hay-küy, qan- qada,
El deyib ki, daldan gələn bərk gələr.
Çox düşünən az danışar az gülər.

Boylu ola, uşaq doğa, bic uşaq,
Bu, Tunq Ərə ola yekə bir yamaq,
Bunu bilə hər ev, hər yurd, hər bucaq,
Gedim, deyim yalan sayaq, düz sayaq,
Min diyarda o baş başı olacaq,
El deyib ki, daldan gələn bərk gələr.
Çox düşünən az danışar az gülər.

Dörd oğlu var, yox birində qanacaq,
Oğul demə, dörd itgin de, dörd qaçaq,
Sabah burda kim baş başı olacaq,
Tunq çökəcək böyüyəndə bic uşaq,
Mən uşağı böyüdərəm şah sayaq,
Biz şah olluq, Tunq Ər isə oyuncaq,
El deyib ki, daldan gələn bərk gələr.
Çox düşünən az danışar az gülər.

Tunqu yıxmaq, ən yaxşı yol bu yoldur,
Bir də gördün o bic uşaq şah oldu,
Görüm onda min diyardan nə qaldı,
Tunq bu sayaq bir də gördün qocaldı,
El deyib ki, daldan gələn bərk gələr.
Çox düşünən az danışar az gülər.

Besyar söyləncі

Axtarırdı Daryaş ucu-bucağı,
El deyib ki, gücsüz olan bic olar.
Yol gəzirdi Tunqu yıxıb sürüsün,
El deyib ki, gücsüz olan bic olar.

Çağırtdırdı Besyar qızı qulluğa,
Dedi:- Besyar, gəl son qoyaq dulluğa,
Yoxsulluqdan çıxaq böyük bolluğa,
El deyib ki, gücsüz olan bic olar.

Düşünürdü, axtarırdı başqa yol,
«Elçiçək var, Dəmirqızla, dörd oğul,
Bunların da hər birisi bir nağıl»
El deyib ki, gücsüz olan bic olar.

Sonra Daryaş dedi ona oyunu,
Adlandırdı ata, ana soyunu,
Dedi:- Sən də alacaqsan payını,
Şah olanda çaldıraram toyunu,
Oxşayaram göz oxşayan boyunu,
El deyib ki, gücsüz olan bic olar

Besyar qızın üzü yandı, alışdı,
Göy gözləri ulduzlar tək sayrışdı,
İçi, üzü bir birinə qarışdı,
Sonra durub baş başıdan soruşdu,
El deyib ki, gücsüz olan bic olar

Dedi:- Daryaş, bu sevgimiz nec olsun,
Necə olar səndən uşaq bic olsun,
Başım üstə qılınc olsun, güc olsun,
Ya açılsın bir gün bu iş heç olsun,
Sevgimiz də sönsün, bütün qıc olsun,
Sonra Tunq Ər bizə qarşı öc olsun,
El deyib ki, gücsüz olan bic olar

-Mən deyəni etsən işlər düzələr,
Kül altında qalan odlar közərər,
Biz olarıq təzə gəlin, təzə ər,
El deyib ki, gücsüz olan bic olar.

Besyar boylu bir dul idi, körpəsiz,
Üzü, gözü kirşansızdi, sürməsiz,
Əynindəki tikililər düyməsiz,
Evi yoxsul, döşəməsi gəbəsiz,
Tək qalmışdı o atasız, nənəsiz,
O sevirdi baş başını heçnəsiz,
El deyib ki, gücsüz olan bic olar

***

Besyar gəldi evə, vay-vay ağladı,
Çalış olma başqa əldə oyuncaq.
Dedi, “bunla çökməz böyük Mindiyar,”
Çalış olma başqa əldə oyuncaq.
Çox götür-qoy etdi gecə bu işi,

Gedə bilməz gördü belə yerişi,
“Getdim necə Tunq Ər ilə görüşüm,
Mən bu işə hansı üzlə girişim”,
Çalış olma başqa əldə oyuncaq.

Dedi, “Çətin mən bu işdə bic olam,
Mən boylu bir qadın, həm də bir dulam,
Bu, oxşayır çox gülməli nağıla,
Çalış olma başqa əldə oyuncaq.

Mən görürəm o sevməyir heç məni,
Başqa yerə o göndərir bic məni,
Görünür ki, Daryaş sayır gic məni
Çalış olma başqa əldə oyuncaq.

Getməsəm də məni öcsüz qoymaz o,
Acıqandır, yerdən, qandan doymaz o,
Şahlıq güdür, sevgi-mevgi saymaz o,
Sevgiliyə, sevimliyə uymaz o,
Çalış olma başqa əldə oyuncaq.

Bir də bizə pis olmayıb Mindiyar,
Yuxarıdan buna baxan Tanrı var,
Biz Hindeldən gələnlərik, qaçanlar,
Bizə yeyə, qayğı olub Mindiyar,
Çalış olma başqa əldə oyuncaq.

Baş götürüm hara qaçım onda mən,
Çox pis günə qaldım deyən sonda mən,
Daryaş qandır, çapalaram qanda mən,
Çalış olma başqa əldə oyuncaq.

***

Çox düşündü Besyar, yordu günləri,
Hər bir yolda öz yolu var hərənin.
Besyar qaçdı Darvidelə gecəykən,
Hər bir yolda öz yolu var hərənin.

Sanna, Balaşq evlənmişdi bir ildi,
O anaydı, bu da yaxşı ər idi,
Döyüşlərdə ikisi də nər idi,
Hər bir yolda öz yolu var hərənin,

O başına gələnləri danışıdı,
O Balaşqdan iki əlli yapışdı,
Sanna özü bu işlərə qarışdı,

Hər bir yolda öz yolu var hərənin.

Dedi:- Besyar, get Tunqa de bunları,
O şişirdir, öyür sizin diyarı.
Tökür tay- tay üstünüzə yox- varı,
Vergi vermir, nə el, nə gənc, nə qarı,
Biz qıtlıqdan saralmışıq, sap-sarı,
Hər bir yolda öz yolu var hərənin.

Besyar ayıq qonşulardan çəkindi,
Çox düşündü, güc – dözümü tükəndi,
Başsız qaldı, öz özünə, söykəndi,
Hər bir yolda öz yolu var hərənin.
Sanna dedi:- Besyar, geri qayıt sən,
Daryaşa de, mən boyluyam, keyəm mən,
Uzaqlaşa bilməm çox da yerimdən,
Hər bir yolda öz yolu var hərənin.

Besyar gecə Parsdiyara qayıtdı,
Baş evdəki yatanları ayıltdı,
Sözlərilə Daryaş şahı sarsıtdı,
Hər bir yolda öz yolu var hərənin.

Daryaş dedi:- Ya ketmək var, ya ölüm,
Besyar qaldı şah önündə bükülü,
Getmək, ölmək arasında ikili,
Bərk tutduğu bağlar bir bir sökülü,
Hər bir yolda öz yolu var hərənin.

Dedi, “Gedib Tunqa deyim düzünü,
Mən qatdayım Tunq önündə dizimi,
O eşitsə mənim doğru sözümü,
Görsə mənim qanlı, yaşlı gözümü,
Irəliyə atar Tunq Ər özünü,
Hər bir yolda öz yolu var hərənin.

Bu olmasa, aldadaram hamını,
Deyərəm ki, alçaldıblar sayğını,
Kəsibdilər mənə qarşı qayğını,
Aldadıblar bu kimsəsiz qadını
Bağlayıblar dörd bir yandan qapını,
Hər bir yolda öz yolu var hərənin.

Ya deyərəm mən boyluyam Alandan,
Alan məni aldatmışdır yalanla

Qayıdarsan – dedi-uşaq olanda,
Hər bir yolda öz yolu var hərənin.

Besyar, Tunqər söyləncі

Yola düşdü Əkbitinə gecə ikən,
Ağır işə getmə iki ürəkli.
Üç gün çapdı dördtəkərli, beşatlı,
Ağır işə getmə iki ürəkli.
Onu qoyub Əkbətinə, getdilər,
Daryaşlılar qaçıb gözdən itdilər,
Gizli gəlib gizli yoldan ötdülər,
Ağır işə getmə iki ürəkli.

Biri gəldi, yaxınlaşdı Besyara,
Dedi:- Bacı, bura hara, sən hara,
Burda qaşov çəkir beş yüz yaraqlı,
Başçıların mindikləri atlara,
Ağır işə getmə iki ürəkli.

Buralara atlı gəlir hərdən bir,
Sən kiminin yeri bura deyildir,
Kimliyini nə aç, nə de, nə bildir,
Ağır işə getmə iki ürəkli.

Besyar dedi:- Kim deyiləm, kimsəsiz,
Biz yaxınıq lap yaxınıq doğma biz,
Tunq Ər Alpan qaynatamdır bir ildir,
Ağır işə getmə iki ürəkli.

Çatan kimi bu söz böyük Tunq Ərə,
Tunq Ər özü gəlib çıxdı bu yerə,
Dedi:- Kimsən qızım, yolçu günündə,
Dedi, soyun, kökün çatır kimlərə.
Ağır işə getmə iki ürəkli.

Tunqu görüb Besyar birdən bayıldı,
Bir gün sonra o Başevdə ayıldı,
Dedikləri hər bir yerə yayıldı,
Baş- başının o, gəlini sayıldı,
Ağır işə getmə iki ürəkli.

Tunq Ər Alpan çətin işə qalmışdı,
Çox yaxınlar gəlib bura dolmuşdu,

Hamı sanki gözlə qulaq olmuşdu,
Ağır işə getmə iki ürəkli.
Bu qayğını görüb Besyar ağladı,
Göz yaşını güclə güclə saxladı,
Dedi:- gəldim, sizi bir də yoxladım,
Mən bir daha sizə könül bağladım,
Ağır işə getmə iki ürəkli.

Qoy deyim mən kimliyimi bu başdan,
Mən gəldim ki, sizə deyim yavaşdan,
Mən boyluyam Alandan yox, Daryaşdan,
Atam anam ölüb gedib savaşda,
Mən kimsəsiz bir qadınam bu yaşda,
Ağır işə getmə iki ürəkli.

Göndəriblər bura məni bicliyə,
Ara vurum, mən son qoyum dincliyə,
Öc öyrədim yeniyetmə gəncliyə,
Mindiyarı yola salım heçliyə,
Ağır işə getmə iki ürəkli.

Besyar bir bir olanları danışdı,
Səs-küy qalxdı, bir- birinə qarışdı,
Hərə ondan bir yenilik soruşdu,
Biri küsdü, çoxu onla barışdı,
Ağır işə getmə iki ürəkli.

Tunq Ər dedi:- qızım yoxdur, qızım ol,
Sən bu gündən Daryaşin yox, bizim ol,
Dirriyinə ana, yiyə özün ol
Ağır işə getmə iki ürəkli.

Sevincindən Besyar özün itirdi,
Ağlar –ağlar tez- tez kökus ötürdü,
Dedi, "İşi mən yerinə yetirdim,
Ağır işə getmə iki ürəkli.

***

Ancaq onu istəməz də var idi,
Heç bir işdə hamı səs-bir olanmaz.
Ağız əyib, deyinirdi neçəsi,
Heç bir işdə hamı səs-bir olanmaz.
Dilləşirdi burda zənginsayaqlar,
Baxıb, susub gözləyirdi qonaqlar,
Udqunurdu tez- tez iri qırtlaqlar,
Dinməyirdi hələ beli qatdaqlar,

Palazlar da qaynaşırdı boyaqlar,
Çiçək dolu qızıl, gümüş bardaqlar,
Yanmaqdaydı orda-burda ocaqlar,
Heç bir işdə hamı səs- bir olanmaz.

Tunq Ər dedi:- Dib daşımız barışdır,
Baş yolumuz yürüş deyil, duruşdur,
Ilk andımız qan qadadan qaçışdır,
Heç bir işdə hamı səs bir olanmaz.

Dedi:- Baxın, Parsdiyar da ucalıb,
Ancaq bizdən baş- başısı öc alır,
Dedikləri iki üzlü, haçalı,
Yoxdur onun barışıqa maçalı,
Heç bir işdə hamı səs- bir olanmaz.

Dalğalansın Mindiyarın bayrağı,
Gəlsin onun Buzboğazdan sorağı,
Boldur atı, yemi, yunü, yarağı,
Qarayağı, durudaşı yaylağı,
Gönü, dəni, tikmə-tikmə bel bağı,
Bol çörəyi, əti, otu, otlağı,
Heç bir işdə hamı səs bir olanmaz.

Gücdəbir söyləncі

Ağ üz dedi:- Oğlum, yenə ayıq ol,
Üzdə hər nə görürsənsə örtükdür.
Göz qoy, gör, o hansı yuva quşudur,
Üzdə hər nə görürsənsə örtükdür.

Besyar çox da pisləyibdir Daryaşı,
Yazıq deyir o özünə sözbaşı,
Ola bilər bunlar ilə yanaşı,
Dibdə o qız qızışdırır savaşı,
Qadın sevir, tök üstünə daş-qaşı,
Ya da sən tap bir yoxlanmış yüzbaşı,
Besyar olsun yüzbaşının yoldaşı,
Üzdə hər nə görürsənsə örtükdür.
Görünməyən nə var kökdür, kötükdür.

Ola bilər bicdir, yazıq görünür,
Ola bilər gizli bizi öyrənir,
Bilə-bilə Mindiyara söykənir,
Hər sözündə öz özünə güvənir,

Gah ağlayır, gah əzilir, ərinir,
Üzdə hər nə görürsənsə örtükdür.
Görünməyən nə var kökdür, kötükdür.

Çox söz dedi Tunqa o gün Ağüzər,
Tunq da uddu o sözləri bir təhər,
O düşündü, "Qancıldırsa qız əgər,
Söküləcək onda bir də çəpərlər,
Başımıza nə gələcək, gör nələr,
Üzdə hər nə görürsənsə örtükdür.
Görünməyən nə var kökdür, kötükdür.

Əkbətində yüzbaşıydı Gücdəbir,
Ayıqlıqda, igidlikdə mindəbir,
Düyüşlərdə qılınc idi, ox dəmir,
Dinclikdə də yoxdu onda səs-səmir,
Üzdə hər nə görürsənsə örtükdür.
Görünməyən nə var kökdür, kötükdür.

Gücdəbiri çağırtdırdı yanına,
Tunq söylədi:- Göz ol o tək qadına,
Onu qoru, güd, boyludur, gənc ana,
Üzdə hər nə görürsənsə örtükdür.
Görünməyən nə var kökdür, kötükdür.

Yurd yerinə apardılar Besyarı,
İkisinə bir ev verdi bir qarı,
Onlar iki, Besyar isə bir yarım,
O boyludur, qarnı dikdir, qabarıq,
Yüzbaşının boyu ondan yuxarı,
Üzdə hər nə görürsənsə örtükdür,
Görünməyən nə var kökdür, kötükdür.

On gün gəzdi, susdu yurda köçənlər,
Gedib birgə arpa, buğda biçənlər,
Özlərinə yeni bir yol seçənlər,
Bardaqlardan damcıyla su içənlər,
Üzdə hər nə görürsənsə örtükdür.
Görünməyən nə var kökdür, kötükdür.

***

Hər gün gördü işdə onu Gücdəbir,
Evdə, işdə, çöldə, çalış bir cür ol.
Gördü qonaq nə bic, nə də öc deyil,
Evdə, işdə, çöldə, çalış bir cür ol.

O Besyarı, Besyar onu bəyəndi,
Ürəkləri birgə vurdu, döyündü,
Ancaq qarı bunca hər gün deyindi,
Evdə, işdə, çöldə, çalış bir cür ol.

Ürəklərdə qorxaq sevgi süründü,
Üzlərdəki çox qırışlar göründü,
Gözlər, sözlər sevinclərə büründü,
Evdə, işdə çöldə çalış bir cür ol.

İkisi də dedi, gedək evlənək,
Sevgi varsa sevgililər bir gərək,
Sevgimizə bir ağlayaq, bir gülək,
Mindiyarın sayğısını biz güdək,
Evdə, işdə çöldə çalış bir cür ol .

Evləndilər, ancaq ayrı yatdılar,
Sevgi, sevinc dənizində batdılar,
Günlərini bir-birinə qatdılar,
Evdə, işdə çöldə çalış bir cür ol.

Tunq eşitdi bunu, susdu bir ara,
Ürəyində inam artdı Besyara,
Üzük, sırğa göndərtdirdi onlara,
Xalça, palaz, asqı, qoyun, malqara,
Evdə, işdə çöldə çalış bir cür ol.

Dedi: “ Bir az gözləsinlər, yay olsun”,
Dedi: “ uşaq doğulanda toy olsun”,
Saz çalınsın, qopuz dinsin, hay olsun,
Qan qarışsın, eldə yeni soy olsun,
Oğlan olsun, igid hündürboy olsun,
Evdə, işdə çöldə çalış bir cür ol.

***

Alpis yenə qıtlıq qatdı Minelə,
Hər dillinin uyuşu var, yaxşı pis.
Alpisin də pislik idi uyuşu,
Hər dillinin uyuşu var, yaxşı, pis.

Unuduldu bircə ildə toy – düyün,
Artdı, aclıq azlıq, qıtlıq günbəgün,
Unuduldu uşaq, sevgi büsbütün,
Hər dillinin uyuşu var, yaxşı pis.

Odərpayın səsi göyə çatmadı,
Gecələri Tunq Ər alpan yatmadı,
Yalvarışla arpa, buğda artmadı,
Alpis qancil, ona söz – möz çatmadı,
Hər dillinin uyuşu var, yaxşı pis.

Besyar çıxdı dağ döşünə, yaylağa,
Üzü quylu o sərildi torpağa,
Ağlar, ağlar əl gəzdirdi otlağa,
Hər dillinin uyuşu var, yaxşı, pis.

Dedi: - Tanrım, məni pisgün yaratdın,
Günlərimi, aylarımı qaraltdın,
Yeniyetmə olan kimi qocaltdın,
Hər dillinin uyuşu var, yaxşı, pis.
Səndən bircə gözləməm var, istəyim,
Sənsən mənim sarsılmayan dirəyim,
Sənə kəsi balam, ərim, ürəyim,
Yoxa çıxıb elin suyu, çörəyi,
Qıtlığı poz, qovla Alpis köpəyi,
Sınsın onun qanadının lələyi,
Mindiyarın açsın gülü, çiçəyi,
Hər dillinin uyuşu var, yaxş, pis.

Besyar üç gün üzü quylu uzandı,
Hamı baxdı, ağlamaqdan usandı,
Dürdüncü gün çatdı göyə qız andı,
Bulud gəldi, yay silkəndi, yazlandı,
Hər dillinin uyuşu var, yaxşı, pis.

Yağış yağdı, sel – su üç gün, üç gecə,
Ağlar gözlər, sözlər döndü sevincə,
Son qoyuldu evlər yıxan gilincə,
Hər dillinin uyuşu var, yaxşı, pis.

Bu gözlənməz sorağ çatdı Tunqərə,
Tunqər gəldi qıtlığ vurmuş yerlərə,
Sağ ol dedi o Besyara yüz kərə,
Hər dillinin uyuşu var, yaxşı, pis.

Dedi, Tanrı yerə baxıb silkəndi,
Yağış tökdü, çala-çuxur gölləndi,
Quraqlıqlar bulud əmdi, gülləndi,
Hər dillinin uyuşu var, yaxşı, pis.

Gücdəbirə dedi:- Güc var, güc səndə,
Uşaqları götür, gətir başkəndə,
Qarşılasın sizi ellər gələndə,
Hər dillinin uyuşu var, yaxşı, pis.

Bir ay keçdi, Besyar dağdan enmədi,
Besyar burdan Əkbitənə dönmədi,
Susdu, qaldı, danışmadı, dinmədən,
Hey ağladı öz içində sönmədi,
Hər dillinin uyuşu var, yaxşı, pis.
Dedi:- Tanrı, səndən bir də güc allam,
Dedi, Alpis, səndən qanlı öc allam,
Qallam burda, tək başına köç ollam,
Hər dillinin uyuşu var, yaxşı, pis.

Turqər söyləncі

Besyar qalır dağ döşündə, yaylaqda,
Özlüyü var suyu, otu hər yerin.
Bir yaşında körpəsinə ad qoyur,
Özlüyü var suyu, otu hər yerin.

Turpar bala gecə gündüz yuxulu,
Mindiyarın, Parsdiyarın oğulu,
O anadan ikidamar doğulub,
Özlüyü var suyu, otu hər yerin.

Süd əməndə anasının döşündən,
Süd tökülürTurparın süd dişindən,
Gücdəbir də əkin-biçin işində,
Özlüyü var suyu, otu hər yerin.

Otlar burda sürü, naxır, ilxılar,
Başı üstə qartal, quzğun, qırğılar,
Burda gələr Turparərə duyğular,
Onu alar öz quyluna qayğılar,
Özlüyü var suyu, otu hər yerin.

On yaşında Turpar boyda ərləşir,
Gücdə, at, ot işlərində nərləşir,
Bir çiynində iki qoyun yerləşir,
Qara saçlar buruq- buruq gurlaşır,
Özlüyü var suyu, otu hər yerin.

Ata deyir:- Bu uşaqa göz dəyər,

Bir qoruyaq onu gərək bir təhər,
Qorxuludur burda sağ, sol, həndəvər,
Özlüyü var suyu, otu hər yerin.

Ana deyir:- İgid yaşa, a Turpar,
Qaş gözündə sənin qıztək çəkim var,
Daryaş səni oğurlayar, aparar,
Ağlar qalar anan, atan Mindiyar,
Ayrılığın onda məni yandırar,
Özlüyü var suyu, otu hər yerin,

Ancaq Turpar bu sözlərdən qorxmadı,
Daryaş kimdir, Parsel nədir, baxmadı,
«Ana» deyib öz yolundan çıxmadı,
Özlüyü var suyu, otu hər yerin,

Sürü, naxır, ilxı qovur çöllərə,
Döş qabardır küləklərə, yellərə,
Dayan deyir çaylar aşan sellərə,
Özlüyü var suyu, otu hər yerin.

***

Bir gün biri yaxınlaşdı Turpara,
Nə gözləsən bir gün çıxar qarşına.
Dedi:- Məni bura Daryaş göndərib,
Nə gözləsən bir gün çıxar qarşına.

Turpar dedi:- Daryaş kimdir, sən kimsən,
Minelliyəm, yaraqlıyam, qoca, mən,
Get anamdan soruş məni, istəsən,
Nə gözləsən bir gün çıxar qarşına.

Daryaş idi, başqa adda gəlmişdi,
Özgə görkəm, başqa atda gəlmişdi,
Oğlu boya çathaçatda gəlmişdi,
Öz suyu var suyu, otu hər yerin.

***

O gəlmişdi öz oğlunun dalınca,
Ata, bala bir-birini tapınca,
Daryaş birdən əl atmışdı qılınca,
Nə gözləsən çıxar bir gün qarşına.
Daryaş belə düşünmüşdü qorxaraq,
Turpar güclü bir igiddir, çox qıvraq,
Bir gün o da öz yolunu azaraq,

Atasının üstə gələr çaparaq,
Lapdan onu daldan vurub yıxaraq,
Parsdiyarın şahlığına çatacaq,
Nə gözləsən çıxar bir gün qarşına.

Onu gərək başa salım, aparım,
Mindiyarın torpağından qoparım,
Odur indi mənim ən son taparım,
Nə gözləsən çıxar bir gün qarşına.

O gəlmişdi başqa adda, görümdə,
Turparını oğurlasın yerindən,
Gəlib görüb sarsılmışdı dərindən,
Nə gözləsən çıxar bir gün qarşına.

Daryaş dedi:- gedək, atan gözləyir,
O Mineli, Mindiyarı pisləyir,
Atan səni öz yurduna səsləyir,
Nə gözləsən çıxar bir gün qarşına.

Turpar dedi:- Mənim atam burdadır,
Başqa atam yoxdur, varsa hardadır,
Bir daryaş var, gözü yerdə, vardadır,
Başı yekə, ürəyisə xırdadır,
Nə gözləsən çıxar bir gün qarşına.

Daryaş kimdir, Mindiyara göz tikib,
Neçə kərə Turq önündə diz çöküb,
Eşitmişəm onu yenə qan çəkir,
Nə gözləsən çıxar bir gün qarşına.

Daryaş durub qızarmışdı acığdan,
Düşünürdü, nə vecsizdir bu oğlan,
Gərək onu mən qaçırım buradan,
Nə gözləsən çıxar bir gün qarşına.

***

Daryaş qılınc sıyıraraq bozardı,
Ata əli hər bir əldən ağırdır.
Yaraladı o Turparın döşünü,
Ata əli hər bir əldən ağırdır.

Bir də vurdu, qılınc dəydi çiyninə,
Qan fışqırdı balasının əgninə,
Yandı ata bu oğlanın gününə,
Qan sıçradı sanki ata beyninə,

Ata əli hər bir əldən ağırdır.
Ata əli çörək, paltar, nağıldır.

Turpar deyil, ata özü yıxıldı,
Gözü, başı, döşü birdən sıxıldı,
Çapaladı, əl – ayağı yığıldı,
Bir səs gəldi, onun səsi boğuldu,
Ata əli hər bir əldən ağırdır.
Ata əli çörək, paltar, nağıldır.

-Daryaşa de, mənim atam Gücdəbir,
Anam minlər içində də mindəbir,
Ölkəm mənim əl çatmayan gündədir,
Ata əli hər bir əldən ağırdır.
Ata əli çörək, paltar, nağıldır.

Üç ay keçdi sağalmadı yarası,
Gördü ağır yara alıb balası,
Əl qaldırdı göyə yenə anası,
Ata əli hər bir əldən ağırdır.
Ata əli çörək, paltar, nağıldır.

Dedi:- Tanrım, qapalıdır bu uşaq,
Turpar haçan necə sağlam olacaq,
Demir kimdir onu vuran bu sayaq,
Deyən çatmır onda hələ qanacaq,
Ata əli hər bir əldən ağırdır.
Ata əli çörək, paltar, nağıldır.
Çox keçmədi Turpar durdu ayağa,
O sarıldı ağır, iti yarağa,
Çıxdı getdi at belində ovlağa,
Ata əli hər bir əldən ağırdır.
Ata əli çörək, paltar, nağıldır.

Güddü onu addım-addım Gücdəbir,
Dedi, görüm hara gedir bu kəndir,
Görüm onu vuran kimdir, nəçidir,
Ata əli hər bir əldən ağırdır.
Ata əli çörək, paltar, nağıldır.

***

Turpar gedir, sağa-sola baxmayır,
Süpürləmə getmə, yolu azarsan.
Gücdəbir də arxasınca pusquda,
Süpürləmə getmə, yolu azarsan.

Görür bir qız su götürür bulaqdan,
Ona baxır Turpar bir az uzaqdan,
O gözləyir, durub səsdə - qulaqda,
Körpə edib buzəkçəni qucaqda,
Qız qıyqacı baxır ona qıraqdan,
Süpürləmə getmə, yolu azarsan.

Turpar deyir:- Mən azmışam haçandır,
Parsdiyarın yolu, söylə, hayandır,
Qız deyir ki:- Ora yollar yamandır,
İndi yollar pisdir, çəndir, dumandır,
Gözlə bir az, dincəl, atı dayandır,
Süpürləmə getmə, yolu azarsan.

Alpis gəlir, durur qızla yan-yana,
Deyir: «Turpar, sən gedirsən hayana,
Yol burdandır, atı döndər bu yana,
Süpürləmə getmə, yolu azarsan.

Kimsən deyir- qız – ay gözə görünməz,
Gün dönməzdir, çay dönməzdir, yol dönməz,
Pis yoldasan, öz yoluna sən tələs,
Süpürləmə getmə, yolu azarsan.
Alpis deyir: «Vayzaqlama gözəl qız,
Mən düz, doğru yol, gedirəm, mən yalnız,
Mənim yolum qorxusuzdur, dumansız,
Süpürləmə getmə, yolu azarsan.

Qız deyir ki,- oğlan, qardır o yollar,
Bu yandadır sən soruşan Parsdiyar,
Bu Alpisdir, Şimşəkquyruq atı var,
Gələr çölü, yalı, yolu odlayar,
Süpürləmə getmə, yolu azarsan.

Bir səs gəlir, yer-göy sanki titrəyir,
Mənəm Alpis- deyir- atı ləhləyir,
Yandan çıxır birdən birə Gücdəbir,
Onun köksü sanki tuncdur, daş-dəmir,
Süpürləmə getmə, yolu azarsan.

Deyir:- Alpis, səni çoxdan gəzirəm,
Orda-burda itdiyini sezirəm,
Qıtlıq, aclıq, varlığına dözürəm,
Tökdüklərin qan içində üzürəm.

Süpürləmə getmə, yolu azarsan.

Düş atından, görün, çıxaq vuruşaq,
Qılınc, toppuz döyüşündə yarışaq,
Ölsək gedib ölülərə qarışaq,
Süpürləmə getmə, yolu azarsan.

Alpis çəkir aralığa çovğunu,
Sonra səpir meşələrə yanğını,
Qovur ora-bura qanlı qırğını,
Görməsə də Turpar gözlə azğını,
Qılınclayır yan-yörəni, yaxını,
Süpürləmə getmə, yolu azarsan.

Alır çovğun, yanğın, qırğın çölləri,
Həm yandırır, həm dondurur gülləri,
Pəltək qoyur ağızlarda dilləri,
Süpürləmə getmə, yolu azarsan.
Birdən Turqun səsi gəlir uzaqdan,
Şimşək qopur əlindəki yaraqdan,
Şimşək atın kişnərtisi oylaqda,
Alpis görüb onu qaçıb bayaqdan,
Süpürləmə getmə, yolu azarsan.

Alpis qaçır, çovğun, yanğın dayanır,
Meşə, bulaq al işığa boyanır,
Otlar, güllər donmuş idi, oyanır,
Süpürləmə getmə, yolu azarsan.

Qoca sevgisi söyləncі

Turq danışır, danışdırır onları,
Tanrı çatır son ayaqda yardıma.
Hamı Turqun qabağında baş əyir,
Tanrı çatır son ayaqda yardıma.

Turq söyləyir:- Alpis qopub yerindən,
Gəlir gizli Üstyerə də o hərdən,
Yanır, donur buralarda çöl, çəmən,
Tanrı çatır son ayaqda yardıma.

Deyir Turpar, mənim yolum daş- kəssək,
Mən gedirəm Pasdiyara, gəl gedək,
Mənim yolum Parsdiyardan keçəcək,
Daryaşı da orda görüm mən gərək,

Tanrı çatır son ayaqda yardıma.

Turq deyir:- Qız, bizə söylə adını,
-Atam mənim Sona qoyub adımı,
Tanrı bala, duza qatıb yurdumu,
Tanrı çatır son ayaqda yardıma.

Turqla Turpar yola düşüb gedirlər.
Çapıb çapıb onlar gözdən itirlər.
Çayı, gölü, dağı, düzü ötürlər,
Tanrı çatır son ayaqda yardıma.
Gücdəbirsə yerə əyir başını,
O, evinə qayıtmaqdan daşınır,
Yola düşüb qovur istək quşunu,
Tanrı çatır son ayaqda yardıma.

Sona diki yavaş-yavaş tək qalxır,
Buzəkçədən damla-damla su axır,
Qız yorğundur, düşüncəli, yol ağır,
Ağaclardan yarpaq yağır, gül yağır,
Tanrı çatır son ayaqda yardıma.

***

Turq soruşur kimliyini Turparın,
Kimlik qılınc tutarında yazılar.
Dedi:- Döyüş işlərində necəsən?
Kimlik qılınc tutarında yazılar.

Danışıqdan bilir Turpar qoçaqdır,
Haradasa bir az sınıq sayaqdır,
Yaşı azdır, boyu enməz bayraqdır,
Gəncdir ancaq dayaqsıza dayaqdır,
Kimlik qılınc tutarında yazılar.

***

Axşam üstü bir daxmaya çatırlar,
Çox qonaqcıl olur yoxsul daxmalar.
Qapı döyüb içəriyə girirlər.
Çox qonaqcıl olur yoxsul daxmalar.

Görürlər ki, yanır, sönür bir soba,
Üzüquylu düşüb qalıb bir qoca,
Hər yer boşdur, lütdür, yoxsul, yalıncaq,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Görürlər ki, qoca ölüb acından,
Yaşı çoxdur, doxsan olar azından,
Paslı qurum, torpaq vardır saçında,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Aparırlar, yeri yüngül qazırlar,
Basdırırlar son evində, susurlar,
Dörd bir yanı gəzib yer-yer busurlar,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Gəlirlər ki, bağlasınlar daxmanı,
Öz yerinə qoyub beli, yabanı,
Söndürsünlər ocaqsayaq sobanı,
Görürlər ki, qoca dim-dik dayanıb,
Bərk tutubdur əlindəki payanı,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Qoca deyir:- Yaxşı ərlər, sağ olun,
Belə olar yaxşılığın düz yolu,
Qazdığınız sonev artıq boş qalıb,
Kimsə məni ordan çəkib çıxarıb,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Siz gəlməmiş sizi gələn görmüşəm,
Mən özümü ölülüyə vurmuşam,
Sizə sınaq yoxlaması qurmuşam,
Uduq dərib öz qınıma varmışam,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Siz necə də yaxşı adam çıxdınız,
Pisliklərin dam – daşını yıxdınız,
Siz kimsəsiz kimi mənə baxdınız,
Yaxşılıqla məni bir də doğdunuz,
Acgözlüyü, dargözlüyü boğdunuz,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Turqər dedi:- Danış, qoca, yaxşı ol,
Acgözlüyə, dargözlüyə qarşı ol,
Gəl Minelə, Mindiyara qonşu ol,
Çox qonaqcıl olur yoxsul daxmalar.

***

Qoca dedi:- Mən çox zəngin ər idim,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Üç oğluma verdim bütün varımı,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Mən tək qaldım, orda-burda darıxdım,
Alpis girdi ürəyimə, karıxdım,
Bir qız gördüm bağda, yaman duruxdum,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Biz görüşdük iki kərə, üç kərə,
Çiynim, burnum qalxdı, dəydi göylərə,
Nəyim vardı verdim isti yellərə,
Zəngin olmaq qısmır olmaq deməkdir.

O bir dedi, mən bir dedim, qovuşduq,
Bir-birinə qatışaraq öpüşdük,
Tanış – tunuş yanından dik sovuşduq,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Evlənərək düşdüm sevgi yoluna,
Batdım qadın şirinliyi balına,
Bir gün gəlib o qız girdi qoluma,
Dedi, ölsən, nə qalacaq duluna,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Dedim, gözəl bunu sonra bilərik,
Varlanarıq, biz də zəngin ölərik,
Altyerdə də birgə deyib gülərik,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Oğullarım məni yazıq gördülər,
Mənə qızıl, gümüş, quruş verdilər,
Gedib yenə qınlarına girdilər,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Ancaq qadın sökdü hər gün böyrümü,
Əyri qoydu tez-tez düzü, əyrini
İrəliyə düşən yoxsul gerini,
Gözə soxdu məndən çox-çox yerini,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Sonra dedi:- Gərək səni qorxudam,
Üç qardaşın evlərini dağıdam,
Qanlarını su yerinə axıdam,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Sonra gördüm gündə birin aldadır,
O yaramaz əyri-üyrü yoldadır,
Varım gedib, əlim quru koldadır,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Gördüm mənə oğullarım gülürlər,
Onlar sanki hər bir şeyi bilirlər,
Utanırlar, diri ikən ölürlər,
Çox qonaqcıl olur yoxsul daxmalar.

Qoydum, qaçdım, gəldim, düşdüm buraya,
Daş-daş tikib girdim yoxsul daxmaya,
Üz çevirdim mən özgəyə, doğmaya,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Bir gün getdim, sonev qazdım özümə,
Tanrı baxdı, güldü qara üzümə,
Yer altında saxlanc dəydi gözümə,
Gücüm artdı, dözüm gəldi dizimə,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Dedim tanrı, qoy hamını yoxlayım,
Gələnləri bir-bir qonaq saxlayım,
Yaxşıları qucum, pisi dağlayım,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Ölülüyə vurdum tez-tez özümü,
Hər qonağın görüm iç, çöl üzünü,
Mən eşidim atda-butda sözünü,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Gələn gördü mən ölmüşəm gərildi,
Ölüydüsə ölü görüb dirildi,
Evi çapdı, getdi, gözü bərəldi,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Çoxu gördü, basdırmadı yoxsulu,
Neçəsi də yazıq, ortaq, asılı,
Neçəsi də boş qayıtdı, küsülü,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Birdən birə siz gəldiniz, siz, qoşa
Deyin, necə dirilməsin bu qoca,
Bu ürəklə gələn, səni min yaşa,
Hələ vardır yaranışa yaraşan,

Zəngin olmaq qısmır olmaq deməkdir.

Sonevimdən sıçrayaraq çıxdım mən,
Sizdən qabaq döndüm bura yenidən,
Siz var olduz, mən qoca da dəyişkən,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Oğullarım gəlib məni tapacaq,
Saxlanc isə sizə, sizə çatacaq,
Siz kimiyə çata bilər o ancaq,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Gedək, sizə onun yerin göstərim,
O sonevdə saxlanc yeri çox dərin,
Ya da sizə beş at yükü göndərim,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Turqər dedi:- Yaşa qoca, yüz belə,
Yaşamağa gücün, sevgin var hələ,
Çətinlikdən çıxıb verək əl-ələ,
Zəngin olmaq qısmır olmaq deməkdir.
Biz gedirik çoxlu saxlanc açmağa,
Sənin kimi qocaları qucmağa,
Qartal kimi yaşamağa, uçmağa,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Saxlanc qalsın, gərək olar çoxuna,
Saxlanc dönsün su yoluna, arxına,
Alma, ərik, armud, üzüm bağına,
Zəngin olmaq qısmır olmaq deməkdir.

Gücdəbir söyləncі

Sağollaşıb yola düşüb gedirlər,
Bir üzdədir, yüz boyada yaranış.
Yoldakılar iki deyil, üç idi,
Bir üzdədir, yüz boyada yaranış.

Bilmirdilər dallarınca yerbəyer,
Addım-addım gizli gəlir Gücdəbir,
«Turpar kimdir, oğlum deyil, bəs nədir,»
O, Turparı qaytarmağa tələsir,
Bir üzdədir, yüz boyada yaranış.

O görmüşdü, axşamçağı otlaqda,

Bir ölünü gətirirlər qucaqda,
Çəkilərək gizlənmişdi bucaqda,
O baxmışdı qazha- qaza, uzaqdan,
Basdırdıqdan sonra düşüb ayaqdan,
Qayıdırlar yorğun-arğın o ancaq,
Görmüşdü ki, yer tərpənir bayaqdan.
Ölü sağdır, o çırpınır torpaqda,
Yeri qazıb gizlənmişdi qıraqda,
Bir üzdədir, yüz boyada yaranış.

İndi gedir dallarınca taq-taraq,
Gedənləri addım-addım busaraq,
Düşünürdü, inanmırdı o ancaq,
Turpar gedib oğul sayaq, ər sayaq,
Atasının Baş evində qalacaq,
Bir üzdədir, yüz boyada yaranış.
Düşünürdü, oğurlayıb qaçaram.
Quşa dönüb Mindiyara uçaram,
Tək ananın ürəyini qucaram,
Toxdaq ollam ona, inam saçaram,
Bir üzdədir, yüz boyada yaranış.

Parsdiyarı tanınmırdı o öndər,
Parsellilər görməmişdi belə ər,
Belə oğlu, belə atı, yal-yəhər,
Bir üzdədir, yüz boyada yaranış.

Daryaşərə sorağ gəldi o başdan,
Nə deyinib doymayırsan qarğışdan,
Turqər gəlib bizə qonaq yağışda,
O gözləyir, dayanıbdır çıxışda,
Daryaş Turqu qarşıladı çıxışda,
Turparı da o qıyqacı baxışla,
Bir üzdədir, yüz boyada yaranış.

Daryaş güldü, döndü qızmış bir kələ,
Dedi:- böyük yarıtanrı, bax belə,
Gəlibsənsə, gəl biz verək əl-ələ,
Alpis gəlib yenə çıxıb Parselə,
Gir könlünə, ürəyini al ələ,
Ola bilsin danışıqsız düz gələ,
Unut öcü Tanrı verən güc ilə,
Keçmişləri, olmuşları ver yelə,
Bir üzdədir, yüz boyada yaranış.

Turqər dedi:- Daryaş, səndə dilək yox,
Sən dartdığın o buğdada kəpək yox,
Alpis ərdir, onda saqqal, birçək yox,
O Tanrıdır, ancaq onda ürək yox,
Bir üzdədir, yüz boyada yaranış.

Düz deyirsən, gəl, biz tutaq qol-qola,
İkimiz də addımlayaq bir yola,
Mindiyarda, Pardiyarda bir olaq,
Onda ölkə dinclik tapar, güc alar,
Bir üzdədir, yüz boyada yaranış.
-Sən tutubsan bu ölkəni dörd əlli,
Özbaşına burax bizim Parseli,
Birləşdirmə öz dilinlə bu dili,
Mindiyardan sayma, bilmə hər eli,
Bir üzdədir, yüz boyada yaranış.

Sən buraya barışığa gəlmisən,
Ya yenə də çarpışmağa gəlmisən,
Ya vergidən yapışmağa gəlmisən,
Bir üzdədir, yüz boyada yaranış.

Qoy Turparı burda, özün sovuş get,
Sən onunla sonda bir də görüş get,
Burda daha yoxdur döyüş, vuruş, get,
Bir üzdədir, yüz boyada yaranış.

Turpar dedi:- Turq ölkəyə atadır,
Mindiyarda, Parsdiyarda doğmadır,
Minel dəniz Parsdiyarsa damladır,
Özün şahsan, sözlərinsə yorğadır,
Mən qalmaram burda, bura qabadır,
Bu baş evdə gözlər acdır, dombadır,
Bir üzdədir, yüz boyada yaranış.

Daryaş dedi:- Qalacaqsan burada,
Besyar ilə biz tutaşdıq arada,
Anan alıb səni çıxdı aradan,
İndi sən öz ayağınla gəlmisən,
Gəlmisənsə gəl, dur bizim sırada,
Bir üzdədir, yüz boyada yaranış.

- Sən gəlmişdin Əkbitənə gizlicə,
Məni vurdun, qaçdın, getdin o gecə,
Üç il yatdım, döndüm qanlı gülüncə,

Gəldim gördüm şah Daryaşı mən təkcə,
Demə Daryaş sən özünsən, a nərçə
Düşüb indi içərinə vic-vicə,
Tanrı gülür səndə olan bu öcə,
Bir üzdədir, yüz boyada yaranış.

***

Turq söylədi:- Turpar, otur yerində,
Əl qaldırma sən özündən böyüyə.
O atadır, sən oğulsan, unutma,
Əl qaldırma sən özündən böyüyə.

Daryaş coşdu, Turpar üstə yeridi,
Oturanlar qorxub birdən kiridi,
Hamı sanki yumaqlandı, əridi,
Daryaş aldı onu yerlə sürüdü,
Hər bir yanı haray, səs-küy bürüdü,
Əl qaldırma sən özündən böyüyə.

Elə bu an içəriyə girdi o,
Bunu görüb tunc köksünü gərdi o,
Ata, bala arasına girdi o,
Əl qaldırma sən özündən böyüyə.

Gücdəbiri Turqla, Turpar tanıdı,
Qara gözlər acıqlıydı, qan idi,
Bu, atayçün ölüm idi, son idi,
Əl qaldırma sən özündən böyüyə.

Dedi:- Daryaş, mənəm onun atası,
Sənsə, toysuz bir kəbinin buğası,
Qaçdı Besyar, oldu Minel sonası,
Qulağında qoşa öyüd sırğası,
Əl qaldırma sən özündən böyüyə.

Ver oğlumu, ya da əl at qılınca,
O elə də sısqa deyil, yarımcan,
O güclüdür, səndən gücə qalınca,
O itməyib döndərəsən tapınca,
Əl qaldırma sən özündən böyüyə.

Gəl vuruşaq, elin budur düz yolu,
Qoy bəllənsin iki yerin bir oğlu,
Ürəyimdə ata sözü dop-dolu,
Əl qaldırma sən özündən böyüyə.
Bir ağsaqqal durub dedi:- Dayanın,

Özünüzə gəlin, artıq oyanın,
Qorxu, ürkü alıb, baxın, hər yanı,
Əl qaldırma sən özündən böyüyə.

Turqər dedi:- Turpar, bura gəl, otur,
Ata ola bilməz sənə hər qotur,
Iki atan vardır sənin, doğrudur,
Bundan sonra mənəm atan, ay oğul,
Əl qaldırma sən özündən böyüyə.

Oturanlar qurudular, qaldılar,
Turq ataya bunca vurğun oldular,
Qancıllar da ona baş- əy qıldılar,
Qonaqları sayın yola saldılar,
Əl qaldırma sən özündən böyüyə.

***

Atlı gəldi, at köpük-tər içində,
Yazı sözdür, çırpındıdır, maraqdır.
Bir burlama yazı vardı əlində,
Yazı sözdür, çırpıntıdır, maraqdır.

Tunq yazmışdı, göndərmişdi bir başa,
Yazı gəlib çatasıydı Daryaşa,
Daryaş isə oynarlarla baş-başa,
Yazı sözdür, çırpıntıdır, maraqdır.

«Daryaş, yaman öz yolunu azıbsan,
Yonca yemiş buğa kimi qızıbsan,
Öz boynundan şah dolağı asıbsan,
Mənə yeni, dərin quyu qazıbsan,
Yazı sözdür, çırpıntıdır, maraqdır.

Besyar mənə hər bir şeyi danışdı,
Gəldi gördü, o Mineldən yapışdı,
Mindiyarla o qaynayıb qarışdı,
Yazı sözdür, çırpıntıdır, maraqdır.

Qılıncını yellədirsən belində,
«Vergi» sözü öcə dönüb dilində,
Alpisinsə iti qılınc əlində,
Güc alırsan çovğunundan, selindən,
Yazı sözdür, çırpıntıdır, maraqdır.

Əkbətinə yiyə durmaq çətindir,

Mindiyarda Parsel qurmaq çətindir,
Mənə qara boya vurmaq çətindir,
Tunqu yıxıb, eli qırmaq çətindir,
Yazı sözdür, çırpıntıdır, maraqdır.

Parsdiyar söyləncі

Küsgün görkəm alıb Parsel, Parsdiyar,
Tüstü olmur ac-yalavac yerlərdə,
Qarın doyur, göz doymayır yeməkdən.
Ildə üç yol, torpaq gərək əkilsin,
Qarın doyur, göz doymayır yeməkdən.

Boş olanda səs çıxmayır çölməkdən,
Dad olmayır oğurlanmış çörəkdə,
Arı olur, bal olmayır pətəkdə,
Qarın doyur, göz doymayır yeməkdən.

Oturublar sıra-sıra başçılar,
Üzdə gəzir içlərdəki sancılar,
Ortalıqda təlxək, oynar, falçılar,
Qızıl, gümüş, çini qablar, saxsılar,
Qarın doyur, göz doymayır yeməkdən.

Daryaş deyir:- Az deyinin, az yetər,
Tapşırıq var, bu baş işə kim gedər,
Çox işdə var, o işlərdə yox dəyər,
Qarın doyur, göz doymayır yeməkdən.

Biri durur, baş şəltili, qıç axsaq,
-Mən gedərəm – deyir – məni çağırsan,
Mənə tapşır, bu tapşırıq ağırsa,
Qarın doyur, göz doymayır yeməkdən.
-Sən döyüşdən qayıtmısan heç olmaz,
Yaralısan. Toxda, dincəl, sən bir az,
- Döyüşçüyə, şahım, dinclik yaramaz,
Qarın doyur, göz doymayır yeməkdən.
Tüstü olmur ac-yalavac yerlərdə,

Yaxşı, olsun, onda eşit Daryaşı,
Məncə darda qoymaz qardaş qardaşı,
Baş aparır orda Tunqər başbaşı,
Yontalansın qabaqcadan baş daşı,
Tutub gətir Parsdiyara dikbaşı,
Qarın doyur, göz doymayır yeməkdən.

Tüstü olmur ac-yalavac yerlərdə.

Vardır bir də bir tapşırıq, çox incə,
Turpar, Besyar oğurlansın gizlicə,
Gətirilsin Parsdiyara o gecə,
Qarın doyur, göz doymayır yeməkdən.
Tüstü olmur ac-yalavac yerlərdə.

Yorulmuşam, usanmışam, mən bu gün...
Turparımı gərək özüm böyüdüm,
Şahlıq çatsın məndən ona büsbütün,
Budur sizə, oturanlar, öyüdüm,
Qarın doyur, göz doymayır yeməkdən
Tüstü olmur ac-yalavac yerlərdə.

Buzər söyləncі

Buzər idi başev adı axsaqın,
Basar olar kim özünə inansa.
O ucadan dedi yola düşəndə,
Basar olar kim özünə inansa.

-Mən özümü Mindiyara yetirrəm,
Başın üzüb Tunqun, işin bitirrəm,
Turparı da, Besyarı da gətirrəm,
Basar olar kim özünə inansa.

Qanlı gədik, qorxunc çökək sıx meşə,
İki toplum birdən gəldi döş-döşə,
Tunq göndərdi Gücdəbiri döyüşə,
Basar olar kim özünə inansa.

Buzər dedi:- Gəldim, görüm Besyari,
Verin mənə Tunqu, bir də Turparı,
Tutuq kimi Parsdiyara aparım,
Basar olar kim özünə inansa.

Gücdəbirin səsi aldı gədiyi,
- Vayzaqlama – dedi- Parsel köpəyi,
Yiydir səndən tunqun bircə kirpiyi,
Sən nəsən ki, bulanlıq su köpüyü,
Daryaş şahın uzdə qanlı örtüyü,
Onun yoxsul başevinin pişiyi,
Basar olar kim özünə inansa.

Buzər dedi:- Çıxsa Turpar ortaya,
Toplum onun önündə diz qatdayar,
Alaq, gedək onu, burdan atdayaq,
Yoxsa Alpis yenə gələr, xortdayar,
Qan eyləyər, yer şaxtadan çatdayar,
Basar olar kim özünə inansa.

Turpar yaraq gəzdirsə də, vuruşmur,
Güləşçidir, ona vuruş yaraşmır,
O çox gəncdir, hər qancılla savaşmır,
Diyar, ölkə işlərinə qarışmır,
Basar olar kim özünə inansa.

-Besyarı ver, öz tərkimə götürüm,
Onu doğma şah ərinə yetirim,
Bu döyüşü başlamadan bitirim,
Basar olar kim özünə inansa.

-Qılınc nədir, dadmamısan sən hələ,
Turpar, Besyar adı çəkmə çox belə,
Ölü, yara apararsan Parselə,
Basar olar kim özünə inansa.
İki ərən əl atdılar yarağa,
Vuruş üçün çəkildilər otlağa.
Ox tuşlandı başa, döşə, qırtlağa,
Qan fışqırdı yara, döndü bulağa,
Basar olar kim özünə inansa.

Gücdəbirin ağır idi topbuzu,
Tutağını batırırdı quduzun,
Qan damırdı kirpiyindən qansızın,
Basar olar kim özünə inansa.

Gücdəbirin ox batmışdı çiyninə,
Işləmişdi ox ikiqat dərinə,
Bir də bir ox yəhərinin gönünə,
Basar olar kim özünə inansa.

Hərdən Buzər tövşəyirdi, aşırdı,
Aşa-aşa yenə coşub daşırdı,
Acığından tez-tez ordu şişirdi,
Qan axdıqca başçı heydən düşürdü,
Basar olar kim özünə inansa.

Bunu görüb Parsdiyarın toplumu,

Ayaqlayıb keçdi qanlı ölümü,
Pozdu susqun düzülüşü, qurumu,
Dəyişdirdi qılınc ilə dözümü,
Basar olar kim özünə inansa.

Vuruşanlar bir-birini söyürdü,
Qılınc vurub öz-özünü öyürdü,
Yaraqsızlar bir-birini döyürdü,
Basar olar kim özünə inansa.

Bu an bir səs eşidildi uzaqdan,
-Mən baxıram bu döyüşə bayaqdan,
Əl saxlayın, durun bir- bir qıraqda,
Mən Turparam, köküm iki dayaqdan,
Mən şah olmaq istəmirəm bu vaxtda,
Düşüb şahlıq Parsdiyarda ayaqdan,
Basar olar kim özünə inansa.
Gedin, deyin ögey atam Daryaşa,
Dirəməsin toplumları başbaşa,
Mən şah deyil, güləş üzrə başbaşam,
Öc olmasın daha qardaş qardaşa,
Basar olar kim özünə inansa.

Buzər dedi:- gəl, güləşək, lap indi,
Görək gücə üstün gələn güc kimdir,
Kim basılsa o basara çəkimdir,
Basar olar kim özünə inansa.

Mənlə gedər olacaqsan basılsan.
Mən olaram Parsdiyarda basarman,
Sən olarsan şahdan sonra ataman,
Basar olar kim özünə inansa.

Turpar, Buzər soyundular, durdular,
Güləşdilər, boyun, bel, qol burdular,
Tərlədilər, bir-birini yordular,
Basar olar kim özünə inansa.

Turpar tutdu, sıxdı, yordu Buzəri,
Gördü Buzər düşüb, ağır tərpənir,
Dik burnunun qıraqları göyərib,
O qaldırdı başı üstə Buzəri,
Basar olar kim özünə inansa.

Buzər dedi:- Yollan, qayıt Parselə,

Işlə, ək, biç, ver elinlə əl-ələ,
Sən özünü yorma, cırma bir belə,
De, şah olmaq istəmirəm mən hələ,
Basar olar kim özünə inansa.

Oturdular yerə bunu görənlər,
Öz-özünə gizli toxdaq verənlər,
Bu döyüşə çox könülsüz girənlər,
Basar olar kim özünə inansa.

***

Buzər döndü üzü qara döyüşdən,
Hamı sanır o güclüdür hamıdan.
Daryaş onu danışdırdı iki gün,
Hamı sanır o güclüdür hamıdan.

Biləndə ki, Turpar onu saymayıb,
Parsellini o yaxına qoymayır,
Daryaş nədir, ata nədir duymayır,
Hamı sanır o güclüdür hamıdan.

Deyir, Gərək Tunqər çıxa aradan,
Ona Tanrı gücü verib yaradan,
Qaplandan da güclü olub bu Qaplan,
Hamı sanır o güclüdür hamıdan.

Ağı verim gərək ona saralsın,
Öz içində yatıb sönüb qaralsın,
Çabalasın yer, göy ona daralsın,
Hamı sanır o güclüdür hamıdan.

Bir də Turqa bir toy-düyün qurum mən,
Lapdan gəlib daldan onu vurum mən,
Yarı Tanrı zirvəsində durum mən.
Hamı sanır o güclüdür hamıdan.

Onda gərək yaxın durum onlara,
Aramızda görünməsin heç ara,
Toy çalınsın, dinsin qopbuz, nağara,
Hamı sanır o güclüdür hamıdan.

Mən bu sayaq ancaq ona bataram,
Onu Alpis Altyerinə qataram,
Mindiyarın şahlığına çataram,
Hamı sanır o güclüdür hamıdan.

Onda Turpar gələr öpər əlimdən,
Besyarı da qucaqlaram belindən,
Mən özüm də qurtararam ölümdən,
Hamı sanır o güclüdür hamıdan.
Ancaq Turpar alçaltmışdı atanı,
Necə bir də gedim ona qatdanım,
Bir də məndən üz döndərsə, odlanıb,
Itildərəm, qaldıraram baltanı,
Öldürərəm sarı dimdik çolpanı,
Sağaldaram içimdəki yaranı,
Hamı sanır o güclüdür hamıdan.

O düşünüb sıtqayırdı, gülürdü,
Öc içində dirilirdi, ölürdü,
Qorxub hərdən düşüncəyə dalırdı,
Hamı sanır o güclüdür hamıdan.

Qurdağız söyləncі

On il keçdi, yaşa doldu Qurdağız,
Ana südü dib daşıdır körpəyə.
Ana qurdun südəməri Qurdağız,
Ana südü dib daşıdır körpəyə.

Uşaq ikən anasıtək uladı,
Anasının ağzın, burnun yaladı,
Ana qulaq, bu da əl-qul salladı,
Ana qurdu mindi, çapdı, yalladı,
Ana südü dib daşıdır körpəyə.

Qurdlar kimi bu da qurdla əyləşdi,
Nərildədi, onlar ilə dilləşdi,
Qurdlar ilə ova çıxdı, əlləşdi,
Böyüdükcə adamlığı bəlləşdi,
Ana südü dib daşıdır körpəyə.

Ulartısı yalda, yolda yayıldı,
Kənd evləri diksinərək ayıldı,
Onu görən qız, gəlinlər bayıldı,
Adam idi, o, Qurdağız sayıldı,
Ana südü dib daşıdır körpəyə.
Qurdağızı sən böyütdün, ana qurd,
Hərdən onu yanlayaraq sən ovut,
Dincliyini itiribdir, elat, yurd,
Ana südü dib daşıdır körpəyə.

Qurd olsa da ağaclara dırmaşır,
İlan kimi gülə, kola sarmaşır,
Çaqqallarla ağızlaşır, qarmaşır,
Ana südü dib daşıdır körpəyə.

Atılırdı dağdan Ayıgölünə,
Ağacdan da boz ayının belinə,
Döş gərirdi qışın qarlı yelinə,
Ana südü dib daşıdır körpəyə.

Çiyni, qolu, boynu, köksü iriydi,
Armud, alma, tut yeməklə diriydi,
Qaldığı yer ana qurdun yeriydi,
Ana südü dib daşıdır körpəyə.

Bir gün Turqun yolu düşdü bu yerdən.
Kənndə biri baxdı ona çəpərdən,
Dedi:- Qardaş, görürəm ki, önərsən,
Bizi qurtar lüm-lüt gəzən bir ərdən,
Ana südü dib daşıdır körpəyə.

-Kimdir - dedi:- Turq, o adam yeyəndir,
Yoxsa durub ana, bacı söyəndir,
Ya dəlidir, onu, bunu döyəndir,
Ya lüt gəzib öz-özünü öyəndir,
Ana südü dib daşıdır körpəyə.

Qoca dedi:- Qurddur, üzdə adamdır,
Çaparlıqda qurd yanında yalandır,
Qız, gəlini qorxutmaqda yamandır,
Ana südü dib daşıdır körpəyə.

Turqər gəzdi onu yolda çaylaqda,
Gördü bir qız su götürür bulaqdan,
Qız çəkinir, qorxur bir az uzaqda,
Durub ona baxan lüm-lüt çılpaqdan,
Ana südü dib daşıdır körpəyə.

-Adamdır o, adı qalıb Qurdağız,
Qurdlar ilə gəzir çöldə o yalnız,
Ulayaraq qalıb yurdsuz, yuvasız,
Ana südü dib daşıdır körpəyə.

***

Qurdağıza yaxınlaşdı Turq bir az,
Qurd dilsizdir, dil bilməsə, iy bilir.
Balasını güdür gendən ana qurd,
Qurd dilsizdir, dil bilməsə, iy bilir.

Qurd iy bilir, gəlir, birdən ulayır,
Yaxınlaşır Turqa, quyruq bulayır,
Çökür, onun ayağını yalayır,
Qurd dilsizdir, dil bilməsə, iy bilir.

Turq tanıyır onu, qaçır dodağı,
On il qabaq qaçırmışdı uşağı,
Uşaq indi gəzir igid sayağı,
Qurd dilsizdir, dil bilməsə, iy bilir.

Qurdağızı, qurdu bir-bir öyür o,
- Qoca, buna paltar gətir-deyir o,
Əldən alıb çörək, bişmiş yeyir o,
Qurd dilsizdir, dil bilməsə, iy bilir.

Turq gəzdirir kənddə ana, balanı,
Tumarlayır hərdən dilsiz ananı,
Gələn onun dörd yanına dolanır,
Qurd dilsizdir, dil bilməsə, iy bilir.

Deyir:- hərdən dilsizləri haqlayın,
Geyindirin, onu kənddə saxlayın,
İşdə-gücdə, kənddə, çöldə yoxlayın,
İsinişin, ona könül bağlayın,
Qurd dilsizdir, dil bilməsə, iy bilir.

Ana qurda «ana» deyin görəndə,
Tumarlayın ona çörək verəndə,
Siz qorxmayın, durun onun böyründə.
Qurd dilsizdir, dil bilməsə, iy bilir.

Mənim iki anam vardır, qoşadır,
Biri qurddur, ikincisi anamdır,
Ata arxa, anam isə inamdır,
Qurd dilsizdir, dil bilməsə, iy bilir.

Evdə, çöldə onun yerin gözləyin,
Onu yarıtanrı sayın, bəsləyin,
Sevin onu, «ana» deyib səsləyin,

Qurd dilsizdir, dil bilməsə, iy bilir.

Baxıb hərdən bərk gülürdü Qurdağız,
Sanki artıq dil bilirdi Qurdağız,
Gah qaçırdı, gah gəlirdi Qurdağız,
Qurd dilsizdir, dil bilməsə, iy bilir.

***

Bir ay qaldı, toy düyünü gördü Turq,
Çətin işdən yapış ər ol, düyün aç.
Ayrılanlar, sevişənlər görüşdü,
Çətin işdən yapış ər ol, düyün aç.

Pisdir düyün düyün üstə düşəndə,
Ağlar ağlar qalan gözlər şişəndə,
Acı sözlə eşənəyi eşəndə,
Çətin işdən yapış ər ol, düyün aç.

Var qudurğan, zəngin, varlı, var yoxsul,
Sən yoxsulun əlindən tut, ay oğul,
Onlarilə qal yenidən sən doğul,
Çətin işdən yapış ər ol, düyün aç.
Sağ olsunlar dolanışa gələnlər,
Var olsunlar el yolunda ölənlər,
Çörəyini yoxsul ilə bölənlər,
Ac gözlərə acı-acı gülənlər,
Çətin işdən yapış ər ol, düyün aç.

Istəyirsən sağ olasan, çox əlləş,
Dolanışı gözəlləşdir, gözəlləş,
Gözəlliyin özlüyündə özəlləş,
Çətin işdən yapış ər ol, düyün aç.

Tanrı baxdı, çalhaçala, çatçata,
Dedi, sağ ol, yarıtanrı Turq ata,
Dedi:- Oğul, sən çox tuşsan bu ada,
Çətin işdən yapış ər ol, düyün aç.

Sən pislərin burunların ovursan,
Sən Alpisi o yerlərdən qovursan,
Yer üzündə sən olubsan Ər Alpan,
Çətin işdən yapış ər ol, düyün aç.

Alpis tərsdir, səni görcək şaşır o,
Cızığını keçib tez-tez aşır o.
Kimsəsizə qarşı qalxır coşur o,

Yanğın salır, köpüklənib daşır o,
Çətin işdən yapış ər ol, düyün aç.

Yer üzündə hələ çoxdur qan- qada,
Yenə at çap, gir çovğuna, gir oda,
Gözlər səni dara düşmüş çox adam,
Sən hər şeyi yoluna qoy Turqata,
Çətin işdən yapış ər ol, düyün aç.

XXVII QAPI. Muğdiyar söyləncі

Əkbətəndən Buzboğaza bir ay yol,
Əl çatmazdır ölkə böyük olanda.
Qumdur iki Çayarası, çökəkdir,
Əl çatmazdır ölkə böyük olanda.
Burdan ora, ordan bura köçürlər,
Otla birgə əkiləni biçirlər,
Oturağa ildə bir yer seçirlər,
Əl çatmazdır ölkə böyük olanda.

Muğeldə də yaşıl çöllər sozarıb,
Ot seyrəlib, sürü, ilxı azalıb,
Yaylaq, qışlaq otsuz qalıb, bozarıb,
Əl çatmazdır ölkə böyük olanda.

Qarçiçəkdən sonra Muğel çökübdür,
Qıtlıq çapıb Muğdiyarı sökübdür,
Alpis burda acıqanlıq əkibdir,
Əl çatmazdır ölkə böyük olanda.

Orda Çinel töküb neçə alayı,
Geri alıb Mindiyardan Çinçayı,
Qalxıb göyə Minellinin harayı,
Əl çatmazdır ölkə böyük olanda.

Turqər sayır bir-bir gecə-gündüzü,
Acığından göyəribdir üz-gözü,
Göndərmişdir Çinçay yurda yardıma,
Gücdəbiri, Dəmirqızı, Ağüzü,
Əl çatmazdır ölkə böyük olanda.

Qocalsa da Ağüz hələ qıvraqdır,
Mindiyarın bayrağına dayaqdır,
O bicləmə işlərində oyaqdır,
Döyüşlərdə çox ərəndən qabaqdır,

Əl çatmazdır ölkə böyük olanda.

Uğureldən aldı qırxmin yaraqlı,
Dörd təkərli, önü tuncdan tutaqlı,
Iki min də qoçaq, əli çomaqlı,
On min kişi Çinel – Minel sayaqlı,
Əl çatmazdır ölkə böyük olanda.

Iki dağcıq arasında durdular,
Çox alaçıq, çoxlu evcik qurdular,
Dörd bir yanda qazıb qazma vurdular,
Əl çatmazdır ölkə böyük olanda.

Balta, bizuc, ox atanlar qabaqda,
Dörd təkərli iki yandan qıraqda,
Qılınclılar, atlılarsa görünməz,
Meşə içrə durub arxa, dayaqda,
Əl çatmazdır ölkə böyük olanda.

İki atlı yaxınlaşır onlara,
Boyun bükük, baş sarıqlı, üz para,
Bəbəkləri sapsarıdır, qapqara,
Əl çatmazdır ölkə böyük olanda.

Biri deyir:- Bizi çinli sayıblar,
Evimizi, kəndimizi soyublar,
Çapıb bizi, yeyib içib doyublar,
Döyüb, vurub belə günə salıblar,
Əl çatmazdır ölkə böyük olanda.

Ağüz deyir:- Kimdir bunca acıqan,
Kimdir burda quduzlaşan qudurqan,
O qovulsun gərək bu gün buradan,
Sönməlidir tüstülənən burulqan,
Əl çatmazdır ölkə böyük olanda.

Onlar deyir:- Muğel oğul Muğərdir,
Çapqınçıya o yel verən öndədir,
Deyir, ulu, ulu atam Gücərdir,
Çinçay, Çinel bizim ulu yerlərdir,
Əl çatmazdır ölkə böyük olanda.

Acıqlanır Ağüz bunu biləndə,
Qancıl üstə o gəlmişdi gələndə,
İndi görür Çinçay Muğ Ər əlində,

Bir neçə söz gəzir onun dilində,
Əl çatmazdır ölkə böyük olanda.

***

Tək başına Ağüz çapır Muğelə,
Hər bir şeyin ölçüsü var, unutma.
Muğər ilə tək təkinə görüşür,
Hər bir şeyin ölçüsü var, unutma.

Deyir:- Muğər, bu iş nədir görürsən,
Yenə evə, obalara girirsən,
Eli çapıb ona acıq verirsən,
Hər bir şeyin ölçüsü var, unutma.

Muğər deyir:- Biz ac-susuz qalırıq,
Ac qalmaqdan saralırıq, soluruq,
Yürük edib ev, obaya doluruq,
Çinellini çapıb düyü alırıq,
Hər bir şeyin ölçüsü var, unutma.

-Biz gəldik ki, buraları arayaq,
Gəldik səni acıqandan qoruyaq,
Gəldik bura el – obaya yarayaq,
Hər bir şeyin ölçüsü var, unutma.

Sənsə cumub onu, bunu çapırsan,
Özgə əldən güclə çörək qapırsan,
Sən qancılsan, bunca toxdaq tapırsan,
Hər bir şeyin ölçüsü var, unutma.

Sən azıbsan, çapqınçısan, dilənçi,
Bundan sonra Gücdəbirdir birinci,
O olacaq burda Muğel yerinci,
Əl çatmazdır ölkə böyük olanda.

Muğər susdu, sanki beli büküldü,
Ağ qaşları ox yayı tək çəkildi,
Gözlərindən küsü, acıq töküldü,
Əl çatmazdır ölkə böyük olanda.

***

Muğdiyarın səsləncləri gurladı,
Qorxaq, maymaq ürkər səsləncsəsindən.
Ad dəyişdi Muğel oldu Muğdiyar,
Qorxaq, maymaq ürkər səsləncsəsindən.

Ağüz dedi Gücdəbirə:- Ayıq ol,
El işində gözü açıq, soyuq ol,
Qonşu Çinel duyğuludur, duyuq ol,
Qorxaq, maymaq ürkər səsləmc səsindən.

Artır atı, otu, unu, kəpəyi,
Al Çineldən boya-boya ipəyi,
Tikilini, toxunmanı, örpəyi,
Qorxaq, maymaq ürkər səsləmc səsindən.

Gəlirlidir orda ipək, dəf-daraq,
Çox ucuzdur o ölkədə yal-yaraq,
Gərək ondan yararlanaq, varlanaq,
Qorxaq, maymaq ürkər səsləmc səsindən.

Gedək birgə qonaq olaq Xaqana,
Düşsün alver işlərimiz sahmana,
Əl atmyaq bir də qılınc, qalxana,
Qorxaq, maymaq ürkər səsləmc səsindən.

Çindiyar söyləmci

Qardaşlaşıb Çindiyarla Mindiyar,
Doğma kimi bax hər yandan qonşuna.
Iki böyük ölkə durur yan-yana,
Doğma kimi bax hər yandan qonşuna.

Qalıb Çinçay vuruşları arxada.
Baxır barış bayraqları ucadan,
Bir olublar sanki ata-anadan,
Doğma kimi bax hər yandan qonşuna.
Baş qapılar hərelliyə açıqdır,
Onlar ancaq yaraqlıya qoruqdur,
Başev gözəl, doğma ancaq soyuqdur,
Doğma kimi bax hər yandan qonşuna.

Oturubdur yerdə Xaqan başbaşı,
O çox gəncdir, olar onun qırx yaşı,
Onun ilə Minbaşılar yanaşı,
Doğma kimi bax hər yandan qonşuna.

Hər yan mərmər döşənəkli dirəkdir,
Sallanmalar yeddi boya ipəkdir,
İç, çöl güldür, göz oxşayan çiçəkdir,
Qalxıb enən qu yelpiclər lələkdir,

Doğma kimi bax hər yandan qonşuna.

Boğuq səsdə çalqıçılar çalırlar,
Oynar qızlar, könül verib alırlar,
Oturanlar baxıb susqun qalıblar,
Doğma kimi bax hər yandan qonşuna.

Sayınlıqla qarşılanır, üç qonaq,
Gülür üzə göz aydınlıq, təmtəraq,
Baxışlarda parıldayır bax-maraq,
Doğma kimi bax hər yandan qonşuna.

Ağüz deyir:- böyük Xaqan sağ olsun,
Çindiyarda olan qalan sağ olsun,
Yaman getsin, barış, aman sağ olsun,
Doğman kimi bax dörd yandan qonşuna.

O danışır, say-sayınlıq gözlənir,
Gün aydınlıq, göz aydınlıq səslənir,
Qonaqlara yüksək qayğı bəslənir,
Doğman kimi bax dörd yandan qonşuna.

Xaqan deyir:- Biz qardaşıq, doğmayıq.
Göydən yerdən gələn, düşən yığmayıq,
Bir tanrıdan, bir torpaqdan çıxmayıq,
Doğman kimi bax dörd yandan qonşuna.
Mindiyarın qarayağı, göy daşı,
Gülər üzü, qayğısıyla yanaşı,
Sizdən çox çox say-soy görüb başbaşı,
Doğman kimi bax dörd yandan qonşuna.

Minel yaydı doğu yerə ipəyi,
İpək oldu Çinellinin çörəyi,
Birdir bizim iki elin ürəyi,
Doğman kimi bax dörd yandan qonşuna.

Eşitdik ki, olub Muğel, Muğdiyar,
Dəyişilib orda başçı olanlar,
Aralığa qarışıqlıq salanlar,
Doğman kimi bax dörd yandan qonşuna.

Ağüz dedi:- Dəyişilib başbaşı,
Yerinc olub mənim kiçik qardaşım,
Gücdəbirə yerinc olmaq yaraşır,
Doğman kimi bax dörd yandan qonşuna.

Gücdəbirə baxır Xaqan baş əyir,
Diz üstündə dikələrək Gücdəbir,
Baş əyərək gənc Xaqana o deyir:
Doğman kimi bax dörd yandan qonşuna.

- Gücdəbirəm, Muğdiyarın yerinci,
Bu baş evə sığınmayır sevincim,
Biz barışda olacağıq birinci,
Olmayacaq daha ara gilinci,
Əkdiyini biçəcəkdir əkinçi,
Doğman kimi bax dörd yandan qonşuna.

Böyük Xaqan, siz inanız bu sözə,
Oturacaq yenə ellər diz-dizə,
Alver artar biz də çıxsaq dənizə,
Düyü verin, ilxı verək biz sizə,
Doğman kimi bax dörd yandan qonşuna.

***

Görüşdülər, danışdılar, durdular,
Çox düyünlər tez açılır görüşdə.
Düşdü işə alver, yol ver, izin ver,
Çox düyünlər tez açılır görüşdə.

Yaxınlaşdı iki ölkə bir az da,
Pay götürdü hər az-çoxdan, çox-azdan,
Dəri gəldi, pambıq, göy daş Çinelə,
Əkbitəndən, Muğdan, qoşa boğazdan,
Çox düyünlər tez açılır görüşdə.

Biz əzəldən bir olmuşuq deyirlər,
Çox üzbəüz qoyulmuşuq deyirlər,
İndi-indi ayılmışıq deyirlər,
Çox düyünlər tez açılır görüşdə.

Nə durubsan matdım-matdım baxırsan,
Öp qonşunu, niyə belə ağırsan,
Qonşu gələr ilk yardıma, çağırsan,
Çox düyünlər tez açılır görüşdə.

Kimə gərək, yığışılsın bənd-bərə,
Qardaş desin qonşusuna qoy hərə,
Kəsi ollam qadaşlaşan ellərə,
Gözü açıq, gözü qıyıq ellərə,
Çox düyünlər tez açılır görüşdə.

Qıtlıq keçdi, artdı sürü, artdı var,
Qardaşlaşdı Minel, Çinçay, Mindiyar,
Yaxınlaşdı bir-birinə uzaqlar,
Çox düyünlər tez açılır görüşdə.

***

Yerincyerdə bərk oturdu Gücdəbir,
Yanıq olur gözü yolda qalanlar.
Turpar, Besyar gözləyirdi atanı,
Qopuq olur gözü yolda qalanlar.
Yazı yazdı, yola saldı Besyara,
Yazdı, «Gələ bilsən gəl Muğdiyara,
Ərən kimi min mən minən çapara,
Tapşır evi, ev-eşiyi Turpara,
Tutuq olur gözü yolda qalanlar.

Beş il çəkdi qıtlıq ilə üzdurma,
Buğda, arpa, mərci əkib artırma,
Otlaqları quyularla suvarma,
Qıvraq olur gözü yolda qalanlar.

Sürü, naxır, ilxı artdı düzlərdə,
Getdi aclıq sarılığı üzlərdən,
Gülümsədi toxluq, bolluq gözlərdə,
Yapıq olur gözü yolda qalanlar.

Yola düşdü Əkbitənə ilxılar,
Artdı işdə- gücdə sapma- sayğılar,
Körpələrə, qocalara qayğılar,
Ayıq olur gözü yolda qalanlar.

Alpis yaman qorxdu yeni qurqudan,
At istədi Gücdəbirdən yuxuda,
At götürdü, qaçdı getdi qorxudan,
Gündən –günə say-say artan ilxıdan,
Gücdəbirdə gərginləşən duyğudan,
Duyuq olur gözü yolda qalanlar.

Ağı söyləncі

Daryaş getdi Misirelə, qayıtdı,
Çox söykənmə gülümsəyən yardıma.
Eşitdi ki, Çatan orda başçıdır.
Çox söykənmə gülümsəyən yardıma.

Alov eldən, Həbəşeldən keçdi o,
Hər ölçünü öz boyuyla biçdi o,
Tunqa qarşı yeni bir yol seçdi o,
Çox söykənmə gülümsəyən yardıma.
Dedi:-Hələ çox çəkəcək bu oyun,
Qonaq getdim, gizli tutum yolumu,
Ağılayım yeməyini toplumun,
Çox söykənmə gülümsəyən yardıma.

Sonra çıxım bunu Turpar adına,
Salım onu Tunqun sınaq oduna,
Qan ələyim Əkbitənin yurduna,
Çox söykənmə gülümsəyən yardıma.

Deyim, ona mən tapşırdım bu işi,
Kəsi etdim məndən qaçan çəpişi,
Qızışdırım yenə çəkiş-bərkişi,
Çox söykənmə gülümsəyən yardıma.

Dəysin yerə min-min uzun qulaqlı,
Nə edəcək ağılanmış yaraqlı,
Bir yandan da qirar qıtlıq, quraqlıq,
Çox söykənmə gülümsəyən yardıma.

Əkbitəni allam, çapıb soyaram,
Turparı da ora yerinc qoyaram,
Şahlığımı Mindiyara yayaram,
Çox söykənmə gülümsəyən yardıma.

Bulaqbaşı söyləncі

Bir gün Turpar getdi bulaq başına,
Bulaq başı gizli görüş yeridir.
O gözlədi qızı bir az qıraqda,
Bulaq başı gizli görüş yeridir.

Axşam oldu, o gözlədi, baxmadı,
Gecə quşu səslərindən qorxmadı,
Çox gözlədi Sona gəlib çıxmadı,
Bulaq başı gizli görüş yeridir.

Güzgü kimi duru bulaq gözləri,
Güzgüdən də gözəl parlaq gözləri,
Körpə uşaq baxışları, gözləri,
Uşaqdan da oynaq şıltaq gözləri,

Bulaq başı gizli görüş yeridir.

Küsgünlük var deyən solğun üzündə,
Gülər dodağında, yorğun üzündə,
Sanki gəzir səssiz çovğun üzündə,
Bulaq başı gizli görüş yeridir.

Bir biləydim bu sıxıntı nədəndir,
Kirpiyində o yağıntı nədəndir,
Səsində ki, o boğuntu nədəndir,
Dörd bir yanda bu uğuntu nədəndir,
Bulaq başı gizli görüş yeridir.

Bir biləydim bu qız kimin qızıdır,
Bu ceyrandır, bu marallıq quzudu,
Yoxsa sevgi tanrısının özüdür,
Bulaq başı gizli görüş yeridir.

Bütün günü pıçıldayan buz bulaq,
Gecə boyu xışıldayan göy budaq,
Harda qaldı o bal dodaq, gül yanaq,
Bulaq başı gizli görüş yeridir.

Yola düşdü getdi Turpar cığırla,
Nəyə gərək göl, çay, bulaq Sonasız.
Dedi, gedim, tapım qızın evini,
Nəyə gərək göl, çay, bulaq Sonasız.

Dedi, gedib, görüm onun özünü,
Açım ona ürəyimin sözünü,
Deyim ona düz sözümün düzünü,
Nəyə gərək göl, çay, bulaq sonasız.

Qız anama olar gözəl bir gəlin,
Bu sevgimə sağdış olar toy, kəbin,
Sona bizdə gülü olar güllərin,
Nəyə gərək göl, çay, bulaq Sonasız.

Bunu bilib atam gələr toyuma,
Hamı bundan sonra qalar hayıma,
Qatar qızı öz Parselli soyuna,
Qızıl, göy daş biçər qızın boyuna,
Nəyə gərək göl, çay, bulaq Sonasız.

Bunca hamı bir-birilə yarışar,

Minel Parsel bir-birinə qarışar,
Yoxsul, zəngin bir-birindən yapışar,
Nəyə gərək göl, çay, bulaq Sonasız.

Burulurdu cığır ilan sayağı,
Sürü, ilxı, naxır tutub ovlağı,
Otlayırdı biçilməmiş otlağı,
Nəyə gərək göl, çay, bulaq Sonasız.

Bu andaca bir səs gəldi meşədən,
Qorxub durdu səsi bunca eşidən,
Bu qorxulu səs haradan, səs nədən,
Nəyə gərək göl, çay, bulaq Sonasız.

Bu səs yaxın ev-daxmadan gəlirdi,
Kimsə sanki boğulurdu, ölürdü,
Bu səsə də bir başqa səs gülürdü,
Nəyə gərək göl, çay, bulaq Sonasız.

Turpar qaçdı evə sarı, səs artdı,
Qapıları silkələyib o dartdı.
Acıqlı səs bir də səs-küy qopartdı,
Nəyə gərək göl, çay, bulaq Sonasız.

Kimsə kimə qışqırırdı acıqlı,
Bir qız isə ağlayırdı yanıqlı,
Acıqlı səs söyləyirdi qılıqlı,
Nəyə gərək göl, çay, bulaq Sonasız.

***

Qulaq asdı Turpar belə eşitdi:
-Mən Alpisəm, tanrısıyam Altyerin.
Səni gözəl, yaxşı üzlə sevirəm,
Mən Alpisəm tanrısıyam Altyerin.

Bu ilk sevgim son sevgimdir biləsən,
Yığışasan, gərək mənə gələsən,
Aralıqda qan-qadanı siləsən,
Yox gəlməsən, onda gərək öləsən,
Mən Alpisəm tanrısıyam Altyerin.

Mənə gəlsən, məndə sənlə quş ollam,
Gedib mən də yaxşılara qoşullam,
Böyük Hörmüz tanrımızdan güc allam,
Onun kimi mən Üstyerdə ucalllam,
Mən Alpisəm tanrısıyam Altyerin.

Gedək, sənə mən göstərim Altyeri,
Görüb daha bəyənməzsən Üstyeri,
Sən tanrı ol, mən də sənin ilk ərin,
Mən Alpisəm tanrısıyam Altyerin.

Sən Altyerin qız çiçəyi olarsan,
Cicək-çopur tanrılığı alarsan,
Uşaqları ot tək yerdən yolarsan,
Mən Alpisəm tanrısıyam alt yerin.

Tanrı olsan hamı səndən qorxacaq,
Sənınkilər sənə şah tək baxacaq,
Qabağına tutuq kimi çıxacaq,
Üzərinə qızıl, gümüş yağacaq,
Adın yerə şimşək kimi çaxacaq,
Mən Alpisəm tanrısıyam alt yerin.

-Yox getmərəm mən sənınlə heç yerə,
Yox getmərəm sənə, Alpis, mən ərə,
Adam sevər, yavurular bir kərə,
Ola bilməz sevgiliyə ər hərə,
Mən Alpisəm, tanrısıyam Altyerin.
-Mən Sonayam, sevməyirəm pisliyi,
Mən sevirəm yaxşılığı, düzlüyü,
Tanrı qırsın, görüm sizi, sizliyi,
-Mən Alpisəm tanrısıyam Altyerin.

-Sən Altyerin tanrısısan çəkil, get,
Bura sənin yerin deyil, əyil, get,
Sökülərək öz içində tökül, get,
-Mən Alpisəm tanrısıyam Altyerin.

-Mən Sonayam, mən sevirəm Turparı,
Turpar mənim ürəyimi aparıb,
Turpar mənim qızıl sevgi çaparım,
-Mən Alpisəm tanrısıyam Altyerin.

***

Bu sözləri Turpar çöldən eçitdi,
Tanrı gücü, sevgi gücü deməkdir.
O bağırdı:- Mən burdayam, sevgilim,
Sevgi gücü, tanrı gücü deməkdir.

Bu andaca qapı tay-tay açıldı,

Onun çölə yanıq iyi saçıldı,
Çovğun düşdü,ev yurd, dam - daş uçuldu,
Yer qabardı, yerdəkilər kiçildi,
Sevgi gücü, tanrı gücü deməkdir.

Turparı da külək atdı uzağa,
Yarı ölü Sona qalxdı ayağa,
O qabartdı qız köksünü qabağa,
Sevgi gücü, tanrı gücü deməkdir.

Dedi:- Burax məni, qancıl, qan içən,
Ac ölümdən adamlara don biçən,
Arşin tutub sonevinə yer ölçən,
Sevgi gücü, tanrı gücü deməkdir.

Döyüşməyi öyrənmişəm atamdan,
Düz olmağı pay almışam anamdan,
Mən çıxmaram ata-baba yuvamdan,
Mindiyara böyük andım qafamda,
Sevgi gücü tanrı gücü deməkdir.

Birdən çovğun uğuldadı, gurladı,
Yel qarışıq şimşək bulud qarladı,
Şimşəkquyruq gəldi, gözlər parladı,
Sevgi gücü, tanrı gücü, deməkdir.

At Sonanı aldı getdi, qor oldu.
Yerdə yağış, külək, şaxta, qar oldu,
Üstyer susdu, Altyer ona dar oldu,
Sevgi gücü, tanrı gücü deməkdir.

Gölə düşdü Turpar, birdən ayıldı,
Üzdü çıxdı, şaxta vurdu, bayıldı,
Çovğun səsi hər bir yerə yayıldı,
Sevgi gücü, tanrı gücü deməkdir.

***

Külək önə çapdı getdi yüyürək,
Dillilər tək dilsilər də sevişir.
Gördü quş da, qurd da. At da oxuyur,
Dillilərtək, dilsilərdə sevişir.

Turpar keçdi aşırımı, uçqunu,
Alpis qoyub gedən qarı, çovğunu,

O dindirdi göyərçini. Quzğunu,
Dillilərtək, dilsilər də sevişir.

Dedi:- Bulud, Sona burdan ötübdür,
Yol üstündə güllər bunca bitibdir.
Ötməyibsə o qız harda itibdir,
Dillilərtək, dilsilər də sevişir.

Gördü qartal göy üzünə millənib.
Qanadları qılınc kimi yellənir,
O qıy vurur dilsiz, dilli dillənir,
Dillilərtək, dilsilər də sevişir.
Dedi:- Qartal bax, gör, Sona görünür?
Qana, yoxsa-göz yaşına bürünüb,
Yanınca da qancıl Alpis sürünür,
Dillilərtək, dilsilər də sevişir.

Gördü günəş çıxır, göylər qızarmış,
Dimdiyində çöp tutaraq qaranquş,
Yuva tikir, qılınc qanad yumru quş,
Dillilərtək, dilsilər də sevişir.

Dedi:- Quşum, qon aşağı, yerə düş,
Sarı dimdik, qılınc qanad, yumru döş,
Bir dilə gəl, mənim ilə bir görüş,
De, buradan dünən, bu gün, kim ötmüş,
Sona, beli sancılardan bükülmüş,
Yanağından uçub getmiş, bal gümüş,
Saç qaraşın, üz qızılı, əl gümüş,
Dillilərtək, dilsilər də sevişir.

Dedi:- Ayı, onu yoxsa görübsən,
Axtarıram o sevgili qızı mən,
Öz sevginə çox güvənmə, çox da sən,
Gör bu sevgi niyə çökür, gör nədən,
Dillilərtək, dilsilər də sevişir.

Bir gül gördü dalğa, dalğa əsirdi,
Bir qu quşu su üstündə üzürdü,
O da sanki Sonasını gəzirdi,
Dillilərtək, dilsilər də sevişir.

Dedi:- Ağ quş Sonam, keçib buradan,
Hardan tapım onu, söylə, haradan,
Yardım olsun səni, məni yaradan,

Dillilərtək, dilsilər də sevişir.

Turpar getdi, dağı-daşı dindirdi,
Sonasına quş inancı göndərdi,
Buludları yel yönünə döndərdi,
Külәkləri mindi yerə endərdi,
Dillilərtək, dilsilər də sevişir.

***

Dedi:-Tanrım, o nə idi eşitdim,
Yaxşı tanrı pis tanrını yaradıb.
Gedim tapım onu, mənə yardım et,
Yaxşı tanrı pis tanrını yaradıb.

Hara getsəm, hansı yana yaxşıdır,
Məni igid qiz sevgisi ağrıdır,
Bu Alpisdir, qan içəndir, oğrudur,
Yaxşı tanrı pis tanrını yaradıb.

Ancaq yenə səs gəlmədi tanrıdan,
İncik qaldı Turpar tanrı sarıdan,
Yol hayana bu dənizdən, qurudan,
Hara gedim, gün də keçib yarıdan,
Yaxşı tanrı pis tanrını yaradıb.

Dedi:- Gedim Gücdəbirdən soruşum,
Gördüyümü ona bir-bir danışım,
Altyer, Üstyer, düşüncəmdə qarışır,
Yenə bunlar bir-birilə çarpışır,
Yaxşı tanrı pis tanrını yaradıb.

Bir ağsaqqal ona yolda söz atır,
Deyir:-Külək çapan yönə çap atı,
Yoxsa, oğul, sınar qolun qanadın,
Sevgi evdir ata, arta anadır,
Yaxşı tanrı pis tanrını yaradıb.

Külək üç gün əsdi, çay- sel köpürdü,
Nə var idi yolu üstə süpürdü,
Kolu, kosu, ağacları qopardı,
Nə var idi, yüngül idi apardı,
Yaxşı tanrı pis tanrını yaradıb.

Beş gün getdi, Parsdiyara çatdı o,
Yorğunluqdan bir kolluqda yatdı o,
Sonra durub yavaş-yavaş yortdu o,

Yaxşı tanrı pis tanrını yaradıb.
Dedi:-Tanrım, haradayam, burada,
Bu çöllüklər nədir bizim arada,
Seçmək olmur burda ağı qaradan,
Yardım elə mənə böyük yaradan,
Yaxşı tanrı pis tanrını yaradıb.

Daryaşın sevgi söyləncі

Alpis gəldi Parsdiyara bir günə,
Bir yol sevər sevə bilsə qız, oğlan.
Daryaş gördü, o da sevdi Sonanı,
Bir yol sevər sevə bilsə qız, oğlan.

Dedi:- daryaş – bu gözəli ver mənə,
Bağışlaram mən də neçə qız sənə,
Pırtlayıbdır alma kimi döş önə,
Bir yol sevər sevə bilsə qız, oğlan.

Məntək şaha çatar belə gözəllik,
Mənim olsun bu gənc gülər gözəllik,
İt-bat olar yoxsa kölə gözəllik,
Bir yol sevər sevə bilsə qız, oğlan.

Alpis dedi:- O incədir çiçəkdən,
Mən sevmişəm onu hələ bələkdə,
Ilk sevgidir məndə doğub ürəkdən,
Bir yol sevər sevə bilsə qız, oğlan.

Sən şor gözsən şah deyilsən, çalağan,
Onu bunu yaralayan qapağan,
Bir yol sevər sevə bilsə qız, oğlan.

Sona dedi:-Mən Turparı sevirəm,
Nə şahlığı, nə də varı sevirəm,
Nə qarqarı, nə qurquru süvirəm,
Mən sizi də yarıyarı sevirəm,
Bir yol sevər sevə bilsə qız, oğlan.

***

Sona gördü, baş-başadır iki qoç,
Nə üstəsə qoç qoç ilə vuruşar.
Məni sevən qoçlar gərək vuruşsun,
Nə üstəsə qoç, qoç ilə vuruşar.

Basar gərək sonra mənlə döyüşə,
Mənlə qılınc döyüşünə girişə,
Mən basılsam onda sevgim dəyişər,
Nə üstəsə qoç, qoç ilə vuruşar.

Daryaş dedi:- Çox bilmişsən, ay gözəl,
Səni allam, çaldıraram toy, gözəl,
Yoxdur sənə bu ölkədə tay, gözəl,
Nə üstəsə qoç, qoç ilə vuruşar.

Alpis dedi:- Qız da bizi aldadır,
Turpar gəlib lap yaxında, yoldadır,
Yorğun - arğın çox - çox düşər haldadır,
Nə üstəsə qoç qoç ilə vuruşar.

Alpis dedi:- "Öldürərəm Daryaşı,
Turpar olar onun sevgi başdaşı,
Sevgi üstə atmaz qardaş qardaşı,"
Nə üstəsə qoç, qoç ilə vuruşar.

Vuruşdular, boğuşdular, durdular,
Qılınc qalxan, toppuz, bizuc qırdılar,
Bir-birini yaralayıb yordular,
Nə üstəsə qoç, qoç ilə vuruşar.

Sona gördü ikisi də tökülüb,
Pal-paltarı, döşü-başı sökülüb,
Yavaş- yavaş o qırağa çəkilir,
Nə üstəsə qoç, qoç ilə vuruşar.

O sıçradı qaşqa atın belinə,
Dönür çovğun küləyinə yelinə,
Çapır Parsel otlağına çölünə,
Nə üstəsə qoç, qoç ilə vuruşar.

***

Sona çatdı yorğun düşmüş Turpara,
Güclü olur qızın gizli sevgisi.
Dedi:- Turpar, gəl, min ata qaçaq biz,
Güclü olur qızın gizli sevgisi.

Mən sevmişdim səni neçə il qabaq,
Bu sevgini anlamışdı o bulaq,
Gecə-gündüz mən oyaqdım, o oyaq,
Güclü olur qızın gizli sevgisi.

Olmuşları Sona bir-bir danışdı,
Iki sevgi bir-birinə qatışdı,
Güclü əllər bir birindən yapışdı,
Güclü olur qızın gizli sevgisi.

Turpar baxdı, gördü Şimşəkquyruğu,
Budur dedi, bu Alpisin qoruğu,
Budur dedi o Altyerin yoluğu,
Qızıldandır atın nalı topuğu,
Bu Alpisin minigidir, tutuğu,
Güclü olur qızın gizli sevgisi.

Burax onu- dedi - Turpar çöllərə,
Getsin çatsın o qabarlı əllərə,
O atlaşıb qulluq etsin ellərə,
Güclü olur qızın gizli sevgisi.

Sona, Turpar Əkbitənə yol aldı,
Atsız qaldı Alpis, gücü azaldı.
Şimşəkquyruq çapdı, yelkən yal oldu,
Güclü olur qızın gizli sevgisi.

***

Tunq getmişdi Uğurelə bir aydı,
Döyüş, barış çağı qoru yerini.
Sorağ aldı ağılanıb toplumu,
Döyüş, barış çağı qoru yerini.
Acıqanlar Əkbitənə gəliblər,
Kim, nə, harda sorağlaşıb biliblər,
Yaraqlılar yemək üstə ölüblər,
Döyüş, barış çağı qoru yerini.

Ancaq Daryaş Gücdəbirlə üzləşib,
Iki ərən vuruşaraq sözləşib,
Qılınc, toppuz gumbuldayıb, səsləşib,
Döyüş, barış çağı qoru yerini.

Deyirlər ki, burda Turpar əli var,
Ağılanıb düşüb ölü adamlar,
Başsız qalıb, tək qalıbdir Mindiyar,
Döyüş, barış çağı qoru yerini.

Tunq özünü yetirincə gec olub,
Daryaş alıb, vurub yıxıb qoç olub,
Bu gedişdə başbaşı yox, bic olub,

Döyüş, barış çağı qoru yerini.

El susmayıb, qanlı bayraq qaldırıb,
Əldə paya, yağışlarda ildırım,
Harda kimi kim görübdür öldürüb,
Döyüş, barış çağı qoru yerini.

Alıbdılar aralığa Turparı,
Deyiblər ki, sən edibsən bunları,
Acığından Turpar olub sapsarı,
Döyüş, barış çağı qoru yerini.

***

Birdən Tunqər Əkbitəndə göründü,
Ölkə, Başev qala bilməz yiyəsiz.
Çil-çil atı qovub çatdı üç günə,
Ölkə, Başev qala bilməz yiyəsiz.

Sorağ çatdı yazıq ana Besyara,
Dedi, «Tanrım, ağı hara, o hara,
Çirk atırlar mənim oğlum Turpara»
Ölkə, Başev qala bilməz yiyəsiz.
Tunq bağırdı:- Çəkin bura qonağı,
Od qalansın, odun tanrı sınağı,
Turpar keçsin alovlanan ocağı,
Ölkə, Başev qala bilməz yiyəsiz.

Oddan keçsə, inanarıq biz ona,
Bu göstəriş qoy yayılsın hər yana,
O, Besyarla qoyulmasın yan-yana,
Ölkə, Başev qala bilməz yiyəsiz.

Turpar bildi bu, Daryaşın işidir,
Daryaş ona, anasına qarşıdır,
Dedi, «ata, atalıqda naşıdır,
Belə ata qandır, həm göz yaşıdır»
Ölkə, Başev qala bilməz yiyəsiz.

***

Od qalandı, uzunluğu on addım,
Tanrı özü güc-öc verir qancıla.
Turparı da güclə qancıl etdilər,
Tanrı özü güc-öc verir qancıla.

Turpar dedi:- İstəyirəm yanam mən,

Qopub gedim belə ata əlindən,
Şah olsan da, ata, ata deyilsən,
Tanrı özü güc-öc verir qancıla.

Mən bu işi görməmişəm, görmərəm,
Oda girrəm, mən bu işə girmərəm,
Mindiyarı tanrıya da vermərəm,
Tanrı özü güc-öc verir qancıla.

Dedi:- Anam, atam böyük Mindiyar,
Məndən, səndən qanlı öc-güc alırlar,
Mənim burda bircə qalan anam var,
Qoyma onu qarqışlayıb vuralar,
Tanrı özü güc-öc verir qancıla.

Məndən sonra deyin məni anana,
Yansın məntək alovlanıb yanana,
Ata olsun, oğul olsun anama,
Tanrı özü güc-öc verir qancıla.

Mindiyarı «yurdum» deyib bəsləsin,
Pis ayaqda Turqu, Tunqu səsləsin,
Alpisləri, Daryaşları pisləsin,
Tanrı özü güc-öc verir qancıla.

Od içindən eşidildi bu sözlər,
Yandı sanki yaşıl çöllər, göy düzlər,
Alovlandı elə bil ki, dənizlər,
Tanrı özü güc- öc verir qancıla.

Tunq qışqırdı:- Turpar, girmə oraya,
Alpis girib, oğlum, yenə araya,
Çıx bizimlə sən də dayan sıraya,
Tanrı özü güc- öc verir qancıla.

Turpar susdu, o çıxmadı sınaqdan,
Turpar yandı, səs gəlmədi ocaqdan,
Ancaq bir səs eşidildi uzaqdan,
Tanrı özü güc- öc verir qancıla.

«Sən hardasan südlü çörək Turparım,
Dağ ürəyi çiçək-çiçək Turparım,
Danışığı güllü baltək Turparım,
Tanrı özü güc- öc verir qancıla».

Dəmirqızla Daryaş söyləncі

Duzdağ elin toplumları yürüşdə,
Yer dəyişmə yaranışda yasadır.
Dəmirqızdır gedir Tunqa yardıma,
Yer dəyişmə yaranışda yasadır.

Daryaş gəlib Əkbitəni tutmuşdu,
Tunqu alıb dustaqlıqa qatmışdı,
Yeyib, içib ağır-ağır yatmışdı,
Yer dəyişmə yaranışda yasadır.
Oyatdılar Daryaş şahı yuxudan,
O az qaldı dəli olsun qorxudan,
Gördü toplum dağılıbdır arxadan,
Yer dəyişmə yaranışda yasadır.

Dəmirqızın gözlənilməz yürüşü,
Dustaqlıqda Tunqər ilə görüşü,
Gördü gediş bir gün içrə dəyişib,
Yer dəyişmə yaranışda yasadır.

Dəmirqızın qabağına çıxdı o,
Onun qanlı gözlərinə baxdı o,
Suya dönüb sanki yerə axdı o,
Yer dəyişmə yaranışda yasadır.

Dedi:- Bacı, gəldim görüm Turparı,
Gördüm Tunqər onu dibdən qoparıb,
Verib onu Alpis - tanrı aparıb,
Yer dəyişmə yaranışda yasadır.

Özü girib dustaqlıqa bilmədən,
Bu yerlərə Daryaş hələ gəlmədən,
Yaraqlılar ağılanıb ölmədən,
Yer dəyişmə yaranışda yasadır.

Ana dedi:- Kəs səsini, yalançı,
Ölkələri vuruşduran talançı,
Öz yurduna, öz oğluna yabançı,
Yer dəyişmə yaranışda yasadır.

Səni Alpis aldadaraq tovlayıb,
Acgözlüyü bolluq üstə qovlayıb,
«Ölkə», «şahlıq» sözlərilə ovlayıb,
Yer dəyişmə yaranışda yasadır.

Dəmirqızın üzü göm-göy göyərdi,
Qılıncını öz qınından siyirdi,
Vurdu üç yol, üç yol Daryaş bəyirdi,
Yer dəyişmə yaranışda yasadır.
Daryaş aşdı, at yalından tutdu o,
Toplumunu qabağına qatdı o,
Iki günə Parsdiyara çatdı o,
Yer dəyişmə yaranışda yasadır.

Dedi:- Qalsın bu iş, Alpis sağ olsun,
Gəlsin yenə üzümüzə ağ olsun,
Ortalıqda ara təki sıx olsun,
Mindiyarda aclıq, qıtlıq çox olsun,
Yer dəyişmə yaranışda yasadır.

***

Bolluq oldu toy-düyünlər çox oldu,
Bil ki, böyük Mindiyara Turq gəlib.
Şimşək çaxsa, yağış yağsa, ot olsa,
Göydə bulud gülsə, neçə qat olsa,
İnəklərdə bala olsa, süd olsa,
Bil ki, böyük Mindiyara Turq gəlib.

Gördün sənə doğru gəlir bir işıq,
İşıq ilə Şimşəkat da qarışıq,
Gördün yerlər, göylər tapıb yaraşıq,
Bil ki, böyük Mindiyara Turq gəlib.

Axşam üstü ay baxarsa üzünə,
Gözlərini qırpma, zillə gözünə,
Gördün taxıl qalxıb atın dizinə.
Sürü, naxır yatıb Qobu düzünə,
Bil ki, böyük Mindiyara Turq gəlib.

Onda, qardaş, at bir yana yarağı,
Götür beli, ot biçəni, orağı,
Ol neçə gün tarlaların qonağı,
Biç buğdanı, şumla yenə torpağı,
Bil ki, böyük Mindiyara Turq gəlib.

Deyinməyi, bəzənməyi, unut sən,
At ağzına gedə gedə qovurt sən,

Dəyirmantək çiy buğdanı üyürt sən,
Tərini sil, çöl içini soyud sən,
Axşam evə yorğun, əzgin qayıt sən,
Bil ki, böyük Mindiyara Turq gəlib.

Turq gəlmişdi Mindiyara bu gecə,
Tunqər ilə görüşmüşdü gizlicə,
Aralıqda neçə düyün, düyünçə,
Bil ki, böyük Mindiyara Turq gəlib.

***

Turq söylədi:- Daryaş Alpis qovuşdu,
Öldürməkdən utandırmaq yaxşıdır.
Biz onları qandırsaq ölərlər,
Öldürməkdən utandırmaq yaxşıdır.

Yoxsa birməz döyüş, vuruş, qonaqlıq,
Döyüşəcək min il öclə qorxaqlıq,
Hamı dönüb olub daha yaraqlı,
Öldürməkdən utandırmaq yaxşıdır.

Altyer söyləncisi

Alpis yenə küsüb dönür Altyerə,
Özözüzdən küsmə çaşqın qalarsan.
Yolda sonev görür, nədən çaşır o,
Özözündən küsmə çaşqın qalarsan.

Sonev üstə gül-çiçəklər bitibdi,
Üstyer, Altyer arasında itibdi,
Üzərini duman, çisgin örtübdü,
Özözündən küsmə çaşqın qalarsan.

Qız Çiçəyin soneviydi, o, küskün,
Ağ çiçəklər boynu bükük, ağ, ölgün,
Küskün idi iki yerə ərköyün,
Özözündən küsmə çaşqın qalarsan.
Alpis gördü, yaxın gəldi doğmatək,
Dedi:- Məni bəyənmədin, Qızçiçək,
Sən tanrıydın, bu sonluğun nə demək,
Üstyerliyə getməyəydin sən gərək,
Özözündən küsmə çaşqın qalarsan.

Səndən sonra mənim belim bükükdür,
Tanrılarım cücərməyən kötükdür,
Ağızları küylə dolu köpükdür,

Ayaqları sürüşgəndir, sürtükdür,
Onlar sanki içəridən çürükdür,
İndi mənim öz içimdə sökükdür,
Özözündən küsmə çaşqın qalarsan.

Sən olsaydın mən bu günə qalmazdım,
Üstyerdəcə yersiz qaçqın olmazdım,
Təkluk çəkib saralmazdım, solmazdım,
Özözündən küsmə çaşqın qalarsan.

Sən dirilsən girrəm acıq qoynuna,
Incitmişəm səni, allam boynuma,
Çox qan-qada işlərimdən yanıram,
Özözündən küsmə çaşqın qalarsan.

Hörmüz məni eşidərsə, yalvarım,
Ey varlığa baş baş olan yuxarı,
Dirilt gözəl qız Çiçək sən barı,
Qıtlıqlardan yığım axarbaxarı,
Özözündən küsmə çaşqın qalarsan.

***

Sanki Hörmüz eşitmədi Alpisi,
Adam gərək barışığa yer qoya.
Sısqa günə qalıb Alpis ağladı,
Adam gərək barışığa yer qoya.

O içini çəkə-çəkə gərildi,
İti gözlər qanla dolu, bərəldi,
Qızçiçəyin torpağına sərildi,
Adam gərək barışığa yer qoya.
Qıtlıq, aclıq gəldi, bir də quraqlıq,
Dedilər ki, Alpis, laxdır bu varlıq,
Sizi gözlər başbaşevdə qonaqlıq,
Adam gərək barışığa yer qoya.

Bu gün gedir Üstə çopur yağmurluq,
Unutqanlıq, inamsızlıq, qısmırlıq,
Ağrı üstə oturacaq ağırlıq,
Üstəlik də çopurluqla qoturluq,
Adam gərək barışığa yer qoya.

Alpis durdu, öpdü yeri son kərə,
Dedi:- Gedim, göydə dönüm təpərə,
Tapım «ölü diriltməyi» mən gərək,
Bundan sonra mən də billəm neynərəm,

Adam gərək barışığa yer qoya.

Birdən yerdə nə var idi parladı,
Göydən ağır bir səs gəldi, gurladı.
Alpisi də səs qorxutdu, çorladı,
Adam gərək barışığa yer qoya.

«-Sən öləndə ölər sənli qalıqlar,
Diriləcək sən öldürən yazıqlar,
Yaşayacaq yaxşılarla ayıqlar,
Birləşəcək ayıqlarla sayıqlar»,
Adam gərək barışığa yer qoya.

Alpis durdu, üzü-gözü saraldı.
Dar ürəyi, quru beyni qaraldı.
Altyer, Üstyer gözlərində daraldı.
Adam gərək barışığa yer qoya.

Yerdə qalan səsdən qorxdu, çəkindi,
Pislik etmək dözümləri tükəndi,
Pisdiklilər bir-birinə söykəndi,
Adam gərək barışığa yer qoya.
Tərsə uçan quşlar uçub gəldilər,
Bu kimsəsiz çaşqınlığa güldülər.
Bir neçəsi gülə-gülə öldülər.
Adam gərək barışığa yer qoya.

Sonra gəldi oynaqlayan qorxular,
Sonra gəldi itə bənzər sorğular,
Sorğularla bərk qol-boyun uyğular,
Sonra gəldi bər-bəzəkli duyğular,
Sonra durna qıza bənzər sayğılar,
Gətirildi ağ qızıldan oturaq,
Sonra ye-iç qab-qacağı, yal-yaraq,
Sonra hər bir tanrılıqdan bir qonaq,
Şiş tanrısı, bir də iblis-yapalaq,
Bir də gəldi boz göyərçin qızsayaq,
Ağ yəhərli Qaya quş da çaparaq,
Adam gərək barışığa yer qoya.

***

Alpis dedi:- Mən hamıdan küsmüşəm,
Sizlərimdən əllərimi üzmüşəm,
Üst yer bizə basılmazdır, dözmüşəm,
Pislik Alpis qorxusudur Üstyerdə.

Neçə tanrı Qızçiçəyə baxıblar,
Tanrılığın düz yolundan çıxıblar,
Pisdiklilik qorxusunu yığıblar,
Pislik Alpis qorxusudur Üstyerdə.

Çökər yaxşı, bunca pislik olmasa,
Yaxşılığın şiş köpünü almasa,
Qıtlıq içdən ona qorxu salmasa,
Yaxşılıq da ölər çaşqın qalmasa,
Pislik Alpis qorxusudur Üstyerdə.

Hormuz bizim Qızçiçəyi tovladı,
O Bacarla tanrımızı ovladı,
Sonra onu Üstyerdən də qovladı,
Pislik Alpis qorxusudur Üstyerdə.
Biz Üstyeri doğram-doğram edərik,
Yaxşlığı izləyərik, güdərik,
Pisdiklilər vuruşunda itərik,
Biz Hörmüzü pis yaxşıda ötərik,
Yaxşılığın son evində bitərik,
Yeni Üstyer yaratmağa gedərik,
Pislik Alpis qorxusudur Üstyerdə.

Alpis dedi:- Mindiyarla Parsdiyar,
Mən olmasam gedib qardaş olarlar,
Biz onları gərək qıraq o ki var,
Pislik Alpis qorxusudur Üstyerdə.

Alpis dedi, hamı yedi, əyləndi,
Kök buxaqlar, şiş dodaqlar yelləndi,
Qayğı görüb qanlı gözlər selləndi,
Alpis dedi, göy yanaqlar gülləndi,
Bir quş gəldi, birdən gözlər lilləndi,
Pislik Alpis qorxusudur Üstyerdə.

O quş dedi:- Turqun qartal quşuyam,
Mən Alpisin dediyinə qarşıyam,
Tuşlanmışam, Turqun sapand daşıyam,
Pislik Alpis qorxusudur Üstyerdə.

Gəldim gördüm Qızçiçəyi. Qaplanı,
Gəldim gördüm sənin kimi xortdanı,
Hər bir yarı tutub gülünc yalanın,
Yoxdur sənin bir qadından olanın,

Dediyindən, yazıq, ürək bulanır,
Pislik Alpis qorxusudur Üstyerdə.

Bir quş qalxdı, Qartal quşu fırlasın,
Onu alıb çaynağına ovlasın,
Ovlanmasa qonaqlıqdan qovlasın,
Pislik Alpis qorxusudur Üstyerdə.

Bir ox gəldi dəydi lapdan o quşa,
Quş bükülüb yerə gəldi bir başa,
Elə bu an biri çıxdı yoxuşa,
O İblislə gəldi sanki başbaşa,
Pislik Alpis qorxusudur Üstyerdə.

Dedi:- Kimsən, bura necə gəlibsən,
Sən buranın yolun hardan bilibsən,
Ya da özün bilməyərək ölübsən,
Pislik Alpis qorxusudur Üstyerdə.

Gələn dedi:- Mən Mineldən bir hayam,
Mən Qurdərəm, Qurdağızam, Turq soyam,
Mən vuruşda basılmayan alayam,
Mən anamdan ana qurda bir payam,
Acıqana qarşı qanlı bir toyam,
Pislik Alpis qorxusudur Üstyerdə.

- Mən də İblis, varın-yoxun Tanrısı,
Gözü acın, qarnı toxun Tanrısı,
Qurdağızın, ovçu quzğun Tanrısı.
Pislik Alpis qorxusudur Üstyerdə.

Mən görmüşəm sənin anan öləndə,
Bir qurd səni aldı onun əlindən.
Ağzın oldu, söz olmadı dilində.
Qurd ağızın oxuy sənə dəyəndə,
Pislik Alpis qorxusudur Üstyerdə.

İblis dedi:- Mən öldürdüm ananı,
Aclıq çəkdi, öldü yerdə qalanın,
Qırdım toyuq quzu, toğlu, dananı,
Qırdım atı, öküz, inək, buğanı,
Qırdım yüz-yüz gülümsəyən balanı,
Pislik Alpis qorxusudur Üstyerdə.

O günlərdən gəlib çıxdın bu günə,
Döyüşməyi öyrədibdir Turq sənə,
Bura necə gəlib çıxdın desənə,
Pislik Alpis qorxusudur Üstyerdə.

-Ay Altyerin qanlı Alpis yerinci,
Onu sizə deyəcəkdir qılıncım,
Mənəm böyük Turq atanın qoruncu,
Sənlə Alpis Mindiyara yabançı,
Öndərləri vuruşduran yalançı,
Haradadır, söylə, Alpis, o qancıl,
Pislik Alpis qorxusudur Üstyerdə.

***

Alpis dedi:- Mən şimşəyəm, Qurdağız,
Şimşək çaxar, bulud yağar, göy ağlar.
Sən uşaqsan döyüş vuruş yolunda,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

Get Turqəri çağır gəlsin döyüşək,
Gəlsin bizim qonaqlıqda görüşək,
Ya da əski tanış kimi güləşək,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

-Sənsən Alpis, üzün niyə qaradır,
Şü çöplərdən tanrı səni yaradıb,
Bu sənsənsə, onda bura haradır,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

Alpis dedi:- At qırağa yarağı,
Yaraq ilə incitməyək qonağı,
Qurdər atdı yerə yalı-yarağı,
Çəkməliydi təkcə onun ayağı,
Dedi:- Soyun səndə güləş sayağı,
Təkcə qalsın ayağında dolağın,
Sən çör-çöpsən, cızıqların yumağı,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

Alpis gəldi, şimşək səpdi qonağa,
Qonaq aşdı, yenə durdu, ayağa,
Caynağını atdı çör-çöp yumağa,
O Alpisi aldı. Atdı qırağa,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

Alpis baxdı, gördü sağdır qonağı,
Ağacdandır çəkmələnən dolağı,

Yerə dəymir Şimşəkqıran ayağı.
Şimşək çaxar, bulud yağar, göy ağlar.

Alpis dedi:- Şimşək qırır hər yeri,
Çəkmələri ağacdandır qurd ərin,
Gəl bir daha biz güləşək, gəl bəri,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

Qurdər dedi:- Alpis çoxdur, çox işim,
Gəlməmişəm burda sənlə güləşim,
Sən basarsan mənim kimi on beşin,
Mən gəzirəm itirdiyim günəşi,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

İblis dedi:- burda günəş parlamaz,
Altyer yayda donar, qışda qarlamaz,
Burda su az, əkin azdır, tarla az,
Bizdə qonaq öldürmürlər, yaramaz,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

Birdən yerlər, göylər üç yol kişnədi,
Qurdər gördü göydən yağan iynədir,
Qızıl quşun beli, başı göynədi,
O, Qurdərı yerdən qapdı, dənlədi,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

Qurdər gördü Turq bir daşdan yapışıb,
Qızçiçəyin sonevilə tapışıb,
Öz-özüylə nəsə deyir, danışır,
Ikisinin səsi burda qarışıb,
Şimşək çaxar, bulud yağar, göy ağlar.

***

Birdən bulud parçalanır, yarılır,
Bulud qat-qat parçalansa gün doğar.
Alpis çıxdı Turq atanın önünə,
Bulud qat-qat parçalansa gün doğar.

Turq sıçradı Şimşəkatın belinə,
Qılıncını qapıb aldı əlinə,
Girdi qanlı qara bulud selinə,
Bulud qat-qat parçalansa gün doğar.

Alt, üst yerin keçidində durdular,
Qorxutmaqla bir-birini yordular,
Düyünlənmiş buludları yardılar,

Bulud qat-qat parçalansa gün doğar.

Alpis dedi:- Qonaqlıq var, buyursan,
Yaxşı olar, boş qarnını doyursan,
Burda pisi yaxşılıqdan ayırsan,
Bulud qat-qat parçalansa gün doğar.

Turqər dedi:- Səsin tutub hər yanı,
Sən öldürdün Qızçiçəklə Qaplanı,
Qovla ayaq üstündəki şişmanı,
Bu şişmanlar burda niyə dayanıb,
Bulud qat-qat parçalansa gün doğar.

-Onlar görmək istəyirlər Turqəri,
Nədir onun döyüş – vuruş dəyəri,
Bir qılıncla necə ölür, gəbərir,
Bulud qat-qat parçalansa gün doğar.

Şişman gəldi, dedi:- Turqər gəl bəri,
Mundarlama tanrılaşan bu yeri,
Qonaqlıqdır, ey çöllərdə köçəri,
Gəl uçuraq Minellərin çəpərin,
Geyindirim sənə qurddan bir dəri,
Bulud qat-qat parçalansa gün doğar.

Bu an bir səs səpələndi göylərə,
Qızçiçəkdi, o söylədi Turqərə,
-Onun gücü yığılaraq bir yerə.
Qoltuğunda qalıb, dönüb boz kirə,
Vursan ordan şişman tanrı gəbərər,
Bulud qat-qat parçalansa gün doğar.

***

Turqər vurdu onu oxla, gəbərdi,
Hər vuruşun bir çəmi var, tap onu.
Alpis dedi:- Əlin- qolun sınaydı.
Hər vuruşun bir çəmi var, tap onu.

Qurdər dedi:- Ata, Alpis çılpaqdır,
O ölməzdir, qordan şimşək yaraqdır,
Döşü-başı, çör-çöp, ip-sap sayaqdır,
Gey bunları, bunlar ağac başmaqdır,
Ağac yerdə şimşəklərə yasaqdır,
Hər vuruşun bir çəmi var, tap onu.

Turqər geydi başmaqları, dikəldi,
Şimşək vurdu onu, tez də çəkildi,
Şimşəkqılınc dəydi, Alpis söküldü,
Qırıq-qırıq oldu, ip-ip tökuldü,
Hər vuruşun bir çəmi var, tap onu.

Bunu görüb qara quşlar uçdular,
Ac tanrılar sürü-sürü qaçdılar,
Turq ataya yalvar ağız açdılar,
Qızçiçəyin sonevini qucdular,
Hər vuruşun bir çəmi var, tap onu.

Bunu görüb Alpis bərkdən uğundu,
Silkələyib sel-sel oldu, çalandı,
Qordan yenə ilmə-ilmə toxundu,
Bunu görən çox tanrılar xoxlandı.

Qorxu, ürkü çoxlarında çoxlandı,
Hər vuruşun bir çəmi var, tap onu.
O, dirildi, bir də aşdı, çökdü o,
Öz-özünü ilmə - ilmə tikdi o,
Acığından yeri qazdı sökdü o,
Hər vuruşun bir cismi var,tap onu.

***

Turqər, Qurdər, Qartal çıxdı Altyerdən,
Altyer, Üstyer, yaxındılar əzəldən.
Bağırtılar, ulaşmalar yuvası,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Gün doğana üz tutdular, getdilər,
Küləkləri, buludları ötdülər,
Kolluqlarda, meşələrdə itdilər,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Gəlib sonda bir daxmaya çatdılar,
Yıxıldılar, mışıl-mışıl yatdılar,
Yuxuda da yol getdilər, yortdular,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Turq yaxında bir çay gördü, çağlayır,
Bir qoca da oturubdu ağlayır,
Hərdən alıb bir köynəyi qoxlayır,
Sanki qoca kiməsə yas saxlayır,

Göz yaşları axır ürək dağlayır,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Turq soruşur – qoca, sənə nə olub,
Qoca lapdan diksinərək ayılır,
Deyir:- Mənim nəvəm vardı, cuppulu,
Pambıq kimi yanaqları dop-dolu,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Malım – pulum çoxdu, ona çatası,
Kaş gələydi mənə onun qadası,
Getdi mənim yey balamın balası,
Altyer, Üstyer, yaxındılar əzəldən.
Bir aydır ki, uşaq gedib aradan,
Basdırıblar onu bax, bax, burada,
Mən öləydim kaşki, böyük yaradan,
Altyer, Üstyer, yaxındılar əzəldən.

-Burda niyə oturubsan ay yazıq,
Kövrək olur belə gündə qocalıq,
Qoca dönüb Turqa baxdı bir anlıq,
Dedi:- Məni öldürəcək ayrılıq,
Turq düşündü yol boyunca, düz, yalan,
«Çıxdı qoca yolumuza haradan?»
Gördü qoca ölüb gedir aradan,
Dedi:- Burda nəsə vardır, yaradan
Turqər gəldi o son evə arada,
Qazdı yeri, seçdi ağı qaradan,
Üzüquylu beşik gördü burada,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Bunu bildi bir çox doğma adamlar,
O sonevdə uşaq yoxdur, beşik var,
Anasının başı üstün aldılar,
Uşaq üstə onlar qırğın saldılar,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Çox udqundu, çox sıtqadı gənc ana,
Çox əl atdı ana o yan, bu yana,
Gördülər ki, o güc verib yalana,
Söz yaydılar bu anadan hər yana ,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Sonra ana dedi sözün düzünü,
Dedi:- Burda yox sayıram özümü...

Çox sevirdi qoca gördük uşağı,
Mən- deyirdi- bu gün, sabah qonağı,
Bu körpədən başqa hər şey bayağı,
Var, zənginlik, evin çatdaq suvağı,
Altyer, Üstyer, yaxındılar əzəldən.

O deyirdi tez-tez o yan bu yanda,
Uşaq ölsə mən də ölləm bir anda,
Düzlük güdmə heç də olan qalanda,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Biz ər-arvad bir gün dedik, yoxlayaq,
Haray salaq, gecə-gündüz ağlayaq,
Son ev qazaq, bunu gizli saxlayaq,
Qocamızın sinəsini dağlayaq,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Ölsə, bizə bollu varı qalacaq,
Bu uşaq da zəngin adam olacaq,
Var hamını öz qoynuna alacaq,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Öncə dedik, biz uşağı öldürək,
Sonra dedik, yox, uşağı gizlədək,
Sonra dedik, onu itmiş bildirək,
Bu iş ilə varlı olaq biz gərək,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Uşaq «öldü», ancaq qoca ölmədi,
Biz uşağı gizlətmişdik, bilmədi,
Biz düşünən biclik vecə gəlmədi,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Turq Ər dedi:- Sağdır indi o uşaq,
Sağdır- dedi- ana çox çox utancaq,
Qoca bunu bildi, gəldi çaparaq,
Turqər dedi:- Uşaq sağdır, siz də sağ,
Var ortada olub oyun, oyuncaq,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Qoca dedi:- mən artığam, görürəm,
Nəyim varsa bütün sizə verirəm,
Mən qayıdıb o son evə girirəm,
Varyoxumu xalı edib körpənin,
Ayaqları altınaca sərirəm,

Altyer, Üstyer, yaxındılar əzəldən.

***

Bir gün qonaq qaldı Turq Ər qocaya,
Çox varın da qorxusu var, saxlama.
Qızıldandı burda hər cür qab-qacaq,
Çox varın da qorxusu var, saxlama.

Qoca dedi:- Küplərim var, dop-dolu,
Üzə çıxar onlar, qazsan sağ solu,
Atam mənim varlı olub, ər olub,
Atama da atasından var qalıb,
Altyer, Üstyer, yaxındılar əzəldən.

-Varım sizə kəsi olsun,Turq ata.
Siz qaytardız məni yeni həyata,
Körpə nəvəm döndü mənçin sovqata,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Turqər dedi:- Var heç kəsə qalmayıb,
Varla pulla heç kəs ağgün olmayıb,
Satallarda varla sevinc almayıb,
Qarnı doyub, könlü-gözü doymayıb,
Varla su çək, yer ək, bağ sal, ev ucalt,
Bunsuz adam boş tuluqdur, quru ad,
Al mal-qara, qoyun-quzu, ilxı-at,
Sən varınla insanlara gün yarat,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Qoca güldü, başa düşdü Turqəri,
Iş axtardı, yardım gəzdi əlləri,
Yeni gözlə gördü düzü çölləri,
Altyer, Üstyer, yaxındılar əzəldən.

Yuxu söyləncі

Gecə yatdı Qurdər yorğun, duyğulu,
Düz yozulsa yuxu yarı doğrudur.
Anasını gördü Qurdər yuxuda,
Düz yozulsa yuxu yarı doğrudur.

Ana dedi:- Gəl tap oğlum sən məni,
Ölməmişdən qabaq görüm mən səni,

Unutmazlar qalan ilə öləni,
Düz yozulsa yuxu yarı doğrudur.

Gəl gəl, hələ ölməmişəm mən, bala,
Səni doğub mən ölmüşdüm az qala,
Köləlikdən qurtar məni, nə olar,
Düz yozulsa yuxu yarı doğrudur.

Mən bir qancil köləsiyəm, tutuğu,
Quyu olub gözlərmin batığı,
Quruyubdur gözlərimin bulağı,
Yoxdur burda, bala, arxam, dayağım,
Düz yozulsa yuxu yarı doğrudur.

Gecə yatdı Qurdər yorğun, duyğulu,
Yuxu gördü anasından qorxulu,
Durdu, qaçdı meşəliyə yuxulu,
Gördü hər yer tutqunlaşıb boğulur,
Düz yozulsa yuxu yarı doğrudur.

Yuxusunu gəlib Turqa danışdı,
Turqun ayıq düşüncəsi qarışdı,
Tez-tez onun anasını soruşdu,
Düz yozulsa yuxu yarı doğrudur.

Sonra dedi:- Get ananı tap, oğul,
Şimşəkatı al, yəhərlə, çap oğul,
Götür şimşək qılıncı da lap, oğul,
Düz yozulsa yuxu yarı doğrudur.
Yol göstərər sənə bizim qızıl quş,
Qısa yolu Şimşəkatdan sən soruş,
Yelə dönüb küləklərlə sən yarış,
Düz yozulsa yuxu yarı doğrudur.

Çətin gündə Odərpayla görüş sən
Ağuzərlə, Dəmirqızla, görüş sən,
Lap çətində tək tanrıdan yapış sən,
Düz yozulsa yuxu yarı doğrudur.

Şimşəkatı Qurdər mindi sevindi,
O qılıncı ələ aldı, öyündü,
Anasıçün dağ ürəyi döyündü,
Düz yozulsa yuxu yarı doğrudur.

Onlar gözdən itənədək baxdı Turq,

Hıçqırtını boğazında boğdu Turq,
Yağış oldu buludlardan yağdı Turq,
Düz yozulsa yuxu yarı doğrudur.

***

Başı qarlı dağlar, yastı yoxuşlar,
Çəkil, yol ver tələsənə, tələsmə.
Ana, bala görüşəcək, yol verin,
Çəkil, yol ver tələsənə, tələsmə.

Burum-burum çaylar, yollar çökəklər,
Yaşıl-yaşıl biçənəklər, ətəklər,
Məstan-məstan baxan, gülən çiçəklər,
Qanadlanan mərci boyda böcəklər,
Çəkil, yol ver tələsənə, tələsmə.

Güzgü göllər, solğun, dilsiz axmazlar.
Dənizləri birləşdirən boğazlar,
Bulaq-bulaq parıldayan almazlar,
Salxım-salxım sallaq buz-buz qotazlar,
Çəkil, yol ver tələsənə, tələsmə.

Bizuc-bizuc, millən-millən ağaclar,
Göy palaztək toxunulmuş yamaclar,
Ey qartallar, ey kəhliklər, turaclar,
Çəkil, yol ver tələsənə, tələsmə.

Ey yer altı evlər, xırda komalar,
Səs-küy dolu, uşaq dolu daxmalar,
Yabançılar, doğmalardan doğmalar,
Ey dənizdə enib qalxan dalğalar,
Çəkil, yol ver tələsənə, tələsmə.

Parsdiyarda endi yerə Şimşəkat,
Yerdə ana südü iyi, dadı var.
Iblis çıxdı qabağına Qurdərın,
Yerdə ana südü iyi, dadı var.

Dedi:- Qurdər, bura yenə gəlmisən,
Burda döyüş gedir, hardan bilmisən,
Sanki Turqla tanrılığı bölmüsən,
Sən gəlməmiş, bil ki, burda ölmüsən,
Yerdə ana südü iyi, dadı var.

Burda Daryaş Eldəbiri dağlayır,

Dəmirqızı basıb tutuq saxlayır,
Əkbitəni alamağıçün Turqərdən,
Yarağını, toplumunu yoxlayır,
Mindiyarla, Minel dibdən laxlayıb,
Tunq özünü hələ güclə saxlayıb,
Yerdə ana südü iyi, dadı var.

Qurdər dedi:- Gözə görün İblis, sən,
Kimsən görüm, sən İblissən, Alpissən,
Yoxsa silləm səni bu yer üzündən,
Yerdə ana südü iyi, dadı var.

Ana südü qaynar bu gün qanımda,
Şimşəkatlar, şimşək qılınc yanımda,
Yox edərəm Alpisi də bir anda,
Yerdə ana südü iyi, dadı var.
İblis qorxdu, üzü, gözü qırışdı,
Kölgə olub addım-addım sürüşdü,
Daryaş gəldi, Qurdər ilə görüşdü,
Hər iki Ər qıvraqlandı, dəyişdi,
Ikisi də qılınc çəkdi, döyüşdü,
Yerdə ana südü iyi, dadı var.

Daryaş dedi:- Mən İblisəm, Alpisəm,
Şahlığımda mən dörd üzəm, beş üzəm,
Döyüşdə də mən tək deyil, mən yüzəm,
Yerdə ana südü iyi, dadı var.

Anan mənim tutuğumdur, satdığım,
Sənin satıb Satallarda atdığın,
Mənim isə yer altına qatdığım,
Yerdə ana südü iyi, dadı var.

Əkbitənə dəyişərəm onu mən,
Şah qızıdır hər şey gəlir əlindən,
Gəl ananla Əkbitəni dəyiş sən,
Bu ölkədə baş başılıq al məndən,
Yerdə ana südü iyi, dadı var.

Turqər dedi:- Alpisləşən a kaftar,
Heçnə ilə dəyişilməz analar,
Heç də çökməz Əkbitənlə Mindiyar,
Mən bilirəm, səndə Alpis qanı var,
Altyerdədir, Alpis, iblis olanlar,
Altyerdədir öz yerində sayanlar,

Yerdə ana südü iyi, dadı var.

Öz yerindən Qurdər qopdu, bağırdı,
Nərildədi, anasını çağırdı,
«Ana» sözü sevinc, qorxu doğrutdu,
Yerdə ana südü iyi, dadı var.

Daryaş atan ox sancıldı tutağa,
Qurdər atdı, at sərildi torpağa,
Şimşəkatı Qurdər çəkdi qırağa,
At altından Daryaş qalxdı ayağa,
Hər ikisi əl atdılar yarağa,
Qılınclaşdı qoca buğa, gənc buğa,
Yerdə ana südü iyi, dadı var.

Daryaş vurdu, tutaq iki bölündü,
Daryaş vurdu, tunc dəbilqə dəlindi,
Daryaş vurdu, Qurdər qana bələndi,
Bir də vurdu, gəncin başı yelləndi,
Yerdə ana südü iyi, dadı var.

Ancaq Qurdər «ana» dedi, dirildi,
Qurdər vurdu, Daryaş yerə sərildi,
Bir də vurdu, başı, boynu yarıldı,
Ölüm gəldi, başı üstə gərildi,
Bir-birinə baxdı dörd göz, bərəldi,
Yerdə ana südü iyi, dadı var.

Daryaş dedi:- Vurma məni, yaramaz,
Mən olmasam anan səni tanımaz,
Burax məni, çəkil yana sən bir az,
Mən ölürəm, mənə özün sonev qaz,
Yerdə ana südü iyi, dadı var.

Qurdər durdu, basar kimi ağladı,
Qılıncını başı üstə saxladı,
Anasının varlığıyla çağladı,
Yerdə ana südü iyi, dadı var.

Birdən birə anasını çağırdı,
«Ana» «ana» deyib Qurdər bağırdı,
Bir də bərkdən «Ana» deyib ayğırdı,
Yerdə ana südü iyi, dadı var.

Yer silkəndi, damlar uçdu elə bil,

Qapıları ana açdı elə bil,
Tanrı göydən işıq saçdı elə bil,
Hər bir yanda qaça-qaçdı elə bil,
Yerdə ana südü iyi, dadı var.
Bir qandallı qadın çıxdı qapıdan,
Paltarları didik-didik pis yaman,
«Oğlum» deyib bir səs çıxdı qarıdan,
Yerdə ana südü iyi, dadı var.

Sonra çıxdı Dəmirqızla, Eldəbir,
Qandalları qırıb atdı birbəbir,
«Yeri, göyü silkələyən bu kimdir»,
Yerdə ana südü iyi, dadı var.

Ana qaçdı, yolu azdı, itirdi,
Qurdər qaçdı, onu yerdən götürdü,
Tanrı baxdı bu görüşdən qımışdı,
Ayrıları bir-birinə yetirdi,
Göz yaşları axdı sevinc gətirdi,
Yerdə ana südü iyi, dadı var.

Darayaş baxdı, gördü hamı tutulub,
Hamı sanki Mindiyara qatılıb,
Aradakı acıq - macıq atılıb,
Ona qarşı qara qaşlar çatılıb,
Dedi, «bunca Parsdiyar da satılıb» ,
Yerdə ana südü iyi, dadı var.

Ana, bala bir-birini iylədi,
Biri «bala» biri «ana» söylədi,
Biri «doğma», biri «arxam» söylədi,
Biri yurdum, biri daxmam söylədi,
Yerdə ana südü iyi, dadı var.

***

Daryaş qorxub tez-tez bərkdən çığırdı,
Qan tökməklə ölkə artmaz, dolanmaz.
Çox özünü vurdu o yan bu yana,
Qan tökməklə ölkə artmaz, dolanmaz.

O yıxıldı, dolaşarkən ayağı,
Qucaqladı öləndə də torpağı,
«Ah» demədi yaraqlısı, dayağı,
Şah olsa da öldü yolçu sayağı,

Qan tökməklə ölkə artmaz, dolanmaz.

Çoxu dedi, Qurdər burda baş olsun,
Lap bacarsa Parsdiyarda şah olsun,
Biz birləşək, ölkə gözlə - qaş olsun,
Qan tökməklə ölkə artmaz, dolanmaz.

Onun özü, anası da burdadır,
Ana harda, balsı da ordadır,
Gözü toxdur, həm də ölkə dardadır,
Qan tökməklə ölkə artmaz, dolanmaz.

Qan tökməkdən, qan içməkdən doymuşuq,
Özümüzü didib qırıb soymuşuq,
Mindiyarı öz yurdumuz saymışıq,
Qan tökməklə ölkə artmaz, dolanmaz.

Qurdər dedi:-kim basardır, kim basıq,
Eldəbirlə, Dəmirqızla biz varıq,
Bəs anamı neynəyərəm mən yazıq,
Qan tökməklə ölkə artmaz, dolanmaz.

Turq tapşırıb savaş - mavaş olmasın,
Yığışılsın, dava-dalaş olmasın,
Əkin-biçin olsun, tutaş olmasın,
Qan tökməklə ölkə artmaz, dolanmaz.

Daryaş, bir də durdu, sanki xortdadı,
Baxdı, baxdı sanki bağrı çatladı,
Sonra bir də şax belini qatdadı,
Söydü eli, çox cızıqı atdadı,
Qan tökməklə ölkə artmaz, dolanmaz.

Dedi:- toplum yeridərəm evlərə,
Şah yerimi siz versəniz Qurdərə,
Yandıraram, od vuraram hər yerə,
Qan tökməklə ölkə artmaz, dolanmaz.

Ağsaqqallar çox da ona baxmadı,
Ona qarşı yazıqlıq da doğmadı,
Alpis, İblis susdu, səs-küy qalxmadı,
Çovğun, sel-su, qızmar isti yağmadı,
Qan tökməklə ölkə artmaz, dolanmaz.

Qoca Daryaş ilan kimi qıvrıldı,

İçi- çölü, öcü göyə sovruldü,
İçindəki tel damarlar qırıldı,
Öc odunda yandı, yandı qovruldu,
Qan tökməklə ölkə artmaz, dolanmaz.
***
Buzər dedi:- Qurdər güclü oğlandır,
Aldanmışlar aldanmasın bir daha.
Daryaş getsə, mənəm burda baş-başı,
Aldanmışlar aldanmasın bir daha.

Bir Ağsaqqal dedi:- Sözün doğrüdür,
Düz olanlar bir də gördün oğrudur,
Ölkə işi dolanbacdır, ağırdır,
Aldanmışlar aldanmasın bir daha.

Düz deyirlər, qan tökməkdən yorulduq,
Hər şey gördük, yavaş-yavaş ayıldıq,
Çapdıq, ancaq özümüz də soyulduq,
Basıq olduq, ancaq basar sayıldıq,
Aldanmışlar aldanmasın bir daha.

Parsel idik, gəlib olduq Pardiyar,
Üzə durub daha çox-çox yalanlar,
Ata olsun bizə böyük Mindiyar,
Aldanmışlar aldanmasın bir daha.
Buzər dedi:- Deyilənlər nə yaxşı,
Qoy şah olsun Qurdər, mən də başbaşı,
Daryaş isə keçmişlərə başdaşı,
Baş-baş olan həm də olsun Minbaşı,
Aldanmışlar aldanmasın bir daha.

Hamı dedi, qoca deyən qoy olsun,
Hamı dedi, olmayanlar qoy olsun,
Olanlar yox, olmayanlar qoy olsun,
Aldanmışlar aldanmasın bir daha.

Neçə Ərən qaçdı getdi, yox oldu,
Kimsə dedi, bu seç ha seç ağ oldu.
Seçki deyil, bu bizlərə lağ oldu,
Parsdiyarın işi yenə lax oldu,
Aldanmışlar aldanmasın bir daha.
***
Dəmirqızla, Eldəbirlə, çal-çağır,
Yaxşı olur hər bir işin əzəli.
Ana, Qurdər, Buzər getdi ocağa,

Yaxşı olur hər bir işin əzəli.

Odərpaya baş əydilər, susdular,
Üztutlara üç gün qulaq asdılar,
Oda, közə üç yol barmaq basdılar,
Yaxşı olur hər bir işin əzəli.

Kəsi oldu qoyun, quzu, at, gamış,
Uğur, inam kəsi üstə yaranmış.
Yerə baş əy, sən tanrıdan bərk yapış,
Yaxşı olur hər bir işin əzəli.

***

Odərpaya Qurdər Turqdan danışdı,
Ala gözlər, şaqraq sözlər sayrışdı,
Göz yaşları bir-birinə qarışdı.
Yaxşı olur hər bir işin əzəli.

Odər dedi:- indi atam hardadır,
Qurdər dedi:- Orda kimsə dardadır,
Harda qıtlıq varsa ata ordadır,
Yaxşı olur hər bir işin əzəli.

***

Öyüd verdi Odər ata Qurdərə,
Yol azana yol göstərən var olsun.
Dedi:- Vergi yeri olub Parsdiyar,
Yol azana yol göstərən öyüddür,
Parsdiyardan götür ağır vergini,
Ayırd elə tez əyrini, düzgünü,
Başraq elə el içində ağ günü,
Ayırd elə diri başı, ölgünü,
Tez aç yerli, yersiz düşən düyünü,
El ağırdır, ağır şahla öyünür,
Yol azana yol göstərən var olsun.

Çox danışdı, öyüd verdi Odərpay,
Dedi:- Evlən, ola bilməz şah subay,
Yoxsa düşər el içində hay-haray,
Aç baş evin qapısını taybatay,
Kimi gördün onu dindir, dinlə, say,
Döyüş, qırğın salma-dedi, Odərpay,
Yol azana yol göstərən var olsun.

Qurdər gəldi, Şimşəkatı yalladı,
Onu qızıl nallar ilə nalladı,
Qızıl quşu bu yazıla çulladı,

Olanları yazdı, Turqa yolladı,
Boyun əydi Qartal, qanad salladı,
Yol azana yol göstərən var olsun.

Dedi:- Quşum, bunu çatdır Turqərə,
Döş qər selə, qasırğaya, yellərə,
Ucadan bax uzaq - uzaq ellərə,
Yol azana yol göstərən var olsun.

Balaşq – Sanna söyləncі

Sorağ gəldi, Darvideldən gələn var,
Zoqquldayar, dəymə əsgi yaraya.
Parsellilər əl- ayağa düşdülər.
Zoqquldayar, dəymə əsgi yaraya.

Ata, ana, bacı, qardaş kimidir,
Qocalanda qoşa yandaş kimidir,
Balaları yandaş, qandaş kimidir,
Zoqquldayar, dəymə əsgi yaraya.

Gəlmişdilər görüşünə Qurdərin,
Qoymuşdular dalda qanlı illəri,
Dəyişmişdi ara- sıra dilləri,
Bükülmüşdü bir azcana belləri,
Boş qalmışdı Darvidelin çölləri,
Zoqquldayar, dəymə əsgi yaraya.

Görüşdülər, öpüşdülər, güldülər,
Qurdərin şah olduğunu bildilər.
Göz yaşını sevinc ilə böldülər,
Zoqquldayar, dəymə əsgi yaraya.

Sanna dedi:- Bizdə Sərtüz odu ver,
Bizdə yem ver, bir də Muğel atı ver,
Darvidelə yeni diyar adı ver,
Zoqquldayar, dəymə əsgi yaraya.

Balaşq dedi:- - Mən də sənə öndərəm,
Hara desən, lap ölümə gedirəm,
Ağac ollam, harda əksən, bitərəm.
Zoqquldayar, dəymə əsgi yaraya.

Qurdər dedi:- Mənə deyib Turq ata,
Burda ellər necə düşüb it- bata,

Qanlı köynək biçilibdir Elata,
Zoqquldayar, dəymə əsgi yaraya.
Gərək birgə qan- qadaya son qoyaq,
Bu yerləri diyar sayaq, el sayaq,
Hər adamı düz anlayaq, düz duyaq,
El içində qardaşlığı biz yayaq,
Tanrı bizə ürək verib bu sayaq,
Zoqquldayar, dəymə əsgi yaraya.

Istəyirəm çox toplumu buraxım,
Lap azaldım iti kəsən yarağı,
Ölkələrə çatsın bunun sorağı,
Tanrı olsun yurd, elatın dayağı,
Zoqquldayar, dəymə əsgi yaraya.

***

Birdən döyüş səsləncləri gurladı.
Səsləns «ayıq ol» deməkdir ölkəyə.
Sorağ gəldi Tunq toplumu yürüşdə,
Səsləns «ayıq ol» deməkdir ölkəyə.

Qurdər çıxdı, Dəmirqızla, Eldəbir,
Çıxdı Tunqun qabağına yerbəyer,
Dedilər ki, bizim böyük şah gəlir,
Səsləns «ayıq ol» deməkdir ölkəyə.

Balaşq, Sanna, qız toplumu qabaqda,
Parsdiyarın iç toplumu yaraqda,
Ağ bayraqlar görünərkən uzaqdan,
Hamı döndü, baxdı Tunqa qıraqdan,
Səsləns «ayıq ol» deməkdir ölkəyə.

Dörd təkərli, üç təkərli, atlılar,
Yürüşdəydi toplumlarda nəki var,
Öz gücünü yoxlayırdı Mindiyar,
Səsləns «ayıq ol» deməkdir ölkəyə.

Dəmirqızı görüb Tunqər, dayandı,
Yanaqları aldan da al boyandı,
Ana- bala duyğuları oyandı,
Səsləns «ayıq ol» deməkdir ölkəyə.
At üstündə qucaqlaşdı ərənlər,
Öyündülər bunu belə görənlər.
Utandılar aralığa girənlər,
Səsləns «ayıq ol» deməkdir ölkəyə.

Tunqər dedi:- Tutuq düşən Eldəbir,
Söylə görüm Qurdər hanı, o kimdir,
Əlinizdə tutduğunuz gül nədir,
Daryaş hanı, sizi nəyə göndərib,
Səslənc «ayıq ol» deməkdir ölkəyə.

X Bölmə XXVIII QAPI

Brəhmən, Budda söyləncі

Bir ay beş gün Turq yol yortdu Hindelə,
Ölçü bilməz, qavranılmaz genişlik.
Nələr gördü, nələr gəldi başına,
Ölçü bilməz, qavranılmaz genişlik.

Gördü biri gün altında, qap-qara,
Açıb quştək qollarını yanlara,
Qanadlanmaq istər sanki damlara,
Ölçü bilməz, qavranılmaz genişlik.

Turq söylədi:- Qardaş, kimsən, nəçisən,
Bu yol üstə kimdən kimə elçisən,
Bəlkə yeri, ya da göyü ölçürsən,
Ölçü bilməz, qavranılmaz genişlik.

Brəhmənəm, Budda qanı canımda,
Sən Buddanın elçisinin yanında.
Əllərini qoşalaşdır alnında.
At bicliyi, pisdiklini qanından,
Aldatmağı, aldanmağı, qanından,
Lüt ol, görün öz dərinin donunda,
Əllərini qoşalaşdır alnında,
Ölçü bilməz, qavranılmaz genişlik.
Burda öküz hər dillidən üstündür,
Bu gördüyün al- ver, qaç- tut ölgündür,
Varlıq əyri, ancaq Budda düzgündür,
Palpaltarda parparıltı özgündür,
Ölçü bilməz, qavranılmaz genişlik.

Burda çaylar bir uzunsov dənizdir,
Mən dənizdən, dəniz məndən təmizdir,
Dik baxanın kiprikləri biz- bizdir,
Ölçü bilməz, qavranılmaz genişlik.

Basdırmırlar, yandırırlar ölünü,

Tullayırlar dənizlərə külünü,
Artırırlar çayın, gölün lilini,
Yamsılayır su dillinin dilini,
Kəsir çox-çox ötənlərin yolunu,
Oğru soxub qoltuğuna əlini,
O yalandan bükük tutur belini,
Udur meşə çölün dəli yelini,
Ölçü bilməz, qavranılmaz genişlik.

Ərə gedir on yaşında qız burda,
Toy çaldırır on iki ay yaz burda,
O görməyir şaxta burda, buz burda,
Yağış içər kolluq, meşə, düz burda,
Neçə qatdır dərinlikdə söz burda,
Ölçü bilməz, qavranılmaz genişlik.

Burda daşqın – coşqun olur kiçiklər,
Yorğun sayaq susqun olur böyüklər,
Çox danışır üzlü, üzü sürtüklər,
«Mən mən» deyir çayda, suda köpüklər,
Ölçü bilməz, qavranılmaz genişlik.

Burda torpaq, rupi, quruş vurğunu,
Gəvələmək, dad, ad, öyü vurğunu,
Heç üstündə qanlı döyüş vurğunu,
Üstün olmaq üstə yarış vurğunu,
Varlanmaqçın alış-veriş vurğunu,
Yellən - sellən görüş, öpüş vurğunu,
Ölçü bilməz, qavranılmaz genişlik.

***

Bunlar, onlar gülməlidir tanrıya,
Öz - özündən uca dayan tanrılaş.
Biz varlığa dönəcəyik neçə yol,
Öz - özündən uca dayan tanrılaş.

Dadlı yemək yemə, saxla özünü,
Çək gözəldən, çox dadlıdan gözünü,
Sən özündən hərdən döndər üzünü,
Öz - özündən uca dayan tanrılaş.

- Ey Brəhmən, sən Buddanın nəyisən?
- Budda tanrı yardımçısı tanrıdır,
Mən yardımçı yardımçısı olanda,
Onda billəm mən nəçiyəm, mən kiməm,

Mən tanrını anlamağa gedirəm,
Öz - özündən uca dayan tanrılaş.

Mənəm böyük yaradanın qonağı,
Yeyib alma, filqulağı yarpağı,
Çox atılıb düşmür daha qırtlağım,
Xirtdəyimin, boğazımın saplağı,
Öz - özündən uca dayan tanrılaş.

Onda gözüm öz içimə zillənir,
Başımdakı düşüncələr ələnir,
Yaranışım, yaradanım dillənir,
Öz - özündən uca dayan tanrılaş.

Öz içimdə yaradanı görürəm,
Görən kimi öz qınıma girirəm,
Yaradana varlığımı verirərm,
Öz - özündən uca dayan tanrılaş.
Mənə deyir:- Sən mənləşmək istəsən,
Yaxşılıq et, öz özünü pislə sən,
Çıx özündən qat-qat çox çox üstə sən,
Görün mənə, ta görünmə gözlə sən,
Öz - özündən uca dayan tanrılaş.

«Mən» yolunda sən ölümdən çəkinmə,
Mən ikinci yeniləşmə quranda,
Yaradaram güclü səni yenidən.
Öz - özündən uca dayan tanrılaş.

Deyir, varlıq aldadıcı, gülüncdür,
Tez-tez ye - iç, dad, ad boş- boş görüncdür,
Görünənlər boşluqlara təpincdir,
Öz - özündən uca dayan tanrılaş.

Görünməyən, görünənlər içimdə,
Onlar iynə ucu boyda- biçimdə,
Deyinilməz dəyişkənlik seçimdə,
Heç kəs, heç nə çıxmır mənim ölçümdən,
Yüz ildən bir hamı varlıq köçündə,
Öz - özündən uca dayan tanrılaş.

Deyir, mənə yaxınlaşmaq istəsən,
Özlüyünə son qoyasan gərək sən,
Başlayasan doğuluşa yenidən,
Səni yaxın buraxaram onda mən,

Öz - özündən uca dayan tanrılaş.

***

Belə deyir böyük tanrı Buddaya,
Yaxşı pissiz, düz yalansız keçinməz.
Necə yaxşı, necə yaman olsan da
Yaxşı pissiz, düz yalansız keçinməz.

Mən onları yaratmışam düpbədüz,
Mən qoymuşam mən onları üzbəüz,
Ikisi də ayıq-sayıq, itigöz,
Yaxşı pissiz, düz yalansız keçinməz.
Dəyişirəm min-min ildən bir onu,
Gəl, bacarsan dəyişilmiş gör onu,
Gəl, bacarsan sən könlüncə qur onu,
Gəl istəsən qoru onu, qır onu,
Yaxşı pissiz, düz yalansız keçinməz.

Gəl qapalı iç zirvəmi alqışla,
Varlıların olanını qarqışla,
Nəyin varsa ona, buna bağışla,
Yaxşı pissiz, düz yalansız keçinməz.

Çöl varlıqdır, iç tanrılıq bilginən,
Mənə doğru dolu içlə gəlginən,
Acından da ölsən yaxşı ölginən,
Yaraşıqlı varlıqlara gülginən
Yaxşı pissiz, düz yalansız keçinməz.

***

Belə deyir böyük tanrı Buddaya,
Nəyin varsa ona buna bağışla.
Sən hər yerə zəngin dolu içlə get,
Nəyin varsa ona, buna bağışla.

Yığ içinə gözəlliyi, biliyi,
Nəyin varsa ona, buna bağışla.
Hər varlığın dəyərlidir iliyi,
Nəyin varsa ona, buna bağışla.

Mənə sarı yüngül kəlmək yaxşıdır,
Çox yemək yox, çox şey bilmək yaxşıdır,
Çatmazlığa gizli gülmək yaxşıdır,
Ölmə, ölsən ayıq ölmək yaxşıdır,
Nəyin varsa ona buna bağışla.

Varlıq bütün aldanmaqdır, aldatmaq,

Bu varlıqdan çimdik götür sən ancaq,
Varlıqları kütləşdirir təmtəraq,
Nəyin varsa ona, buna bağışla.
Belə deyir, ata tanrı bizlərə,
Çox inanma yaraşıqlı üzlərə,
Bax dərindən dərin-dərin gözlərə,
Bax ürəkdən gələn dolu sözlərə,
Nəyin varsa ona, buna bağışla.

***

Mən Brəhmən böyük Sapkar oğluyam,
Hamı dibdə öz kökünə bağlıdır.
Mənim atam böyük zəngin kişidir,
Hamı dibdə öz kökünə bağlıdır.

Qırx il onun heç uşağı olmayıb,
Bunu atam heç vecinə almayıb,
Alverindən, gəzməyindən qalmayıb,
Hamı dibdə öz kökünə bağlıdır.

Atam işdə qısmır olub, bərk olub,
Qardaşları arasında tək olub,
Içi dolu, ancaq əli çirk olub,
Hamı dibdə öz kökünə bağlıdır.

Mən anadan doğulanda dəyişib,
Yoxsullarla gedib bir-bir görüşüb,
Pay- puş, yardım işlərinə girişib,
Hamı dibdə öz kökünə bağlıdır.

Deyib varım oğlumundur, nəki var,
Yer üstündə görünənlər, olanlar,
Yer altında olanı da o tapar,
Yer altında saxlanc-saxlanc nələr var,
Hamı dibdə öz kökünə bağlıdır.

Böyümüşəm qayğı-sayğı içində,
Atam kimi uyğu- duyğu içində.
Yaşamışam şirin yuxu içində,
Hamı dibdə öz kökünə bağlıdır.

Biri gəlib borc istəyib, vermişəm,
Biri deyb «məni görsün», görmüşəm,
Gedib yoxsul daxmalara girmişəm,
Hamı dibdə öz kökünə bağlıdır.

Atam öldü, çox işlərim qarışdı,
Borc üstündə çoxlarıyla qarpışdım,
Qancıl təklik boğazımdan yapışdı,
Acgöz mənə birə kimi daraşdı,
Hamı dibdə öz kökünə bağlıdır.

Bir gün yolda bir qız gördüm, ağappaq,
Çox duzluydu, çəkimlidi, bal yanaq,
Sanki əllə çəkilmişdi dil-dodaq,
Kiprik uzun, hörük yoğun, üz parlaq,
Yeriş kəhlik, duruş ceyran, bel oynaq,
Hamı dibdə öz kökünə bağlıdır.

Getdim qızı alım, qorxub hər addım,
Nə çay, nə su gətirdilər bir qurtum,
Addım başı qırtlağımı mən uddum.
Çalışdım ki, gördüyümü unudum,
Hamı dibdə öz kökünə bağlıdır.

Dedilər ki, düz adamsan, ancaq sən,
Atan kimi dağıdansan, Brəhmən,
Ala bilməz qız burada hər ötən,
Hamı dibdə öz kökünə bağlıdır.

Vermədilər mənə gözəl Gülrüxi,
Gülrüx oldu mənim üçün bir yuxu,
Bu sevgini pisləyərək bir çoxu,
Dedilər ki, batıb gözün, qulağın,
Söylə onda nə görmüsən sən axı.
Hamı dibdə öz kökünə bağlıdır.

Bir qız gəldi var- yoxumu yoxladı.
Bir qız gəldi qabağımda ağladı.
Bir qız gəldi, getdi, küsü saxladı.
Biri gəldi, dedi, dedi, dığladı.
Biri getdi bundan kitab bağladı,
Hamı dibdə öz kökünə bağlıdır.

Çoxu gəldi çox danışdı özündən,
Yalan, böhtan sallanırdı üzündən,
Neçəsayaq söz var idi sözündə,
Ancaq Gülrüx çəkilmədi gözümdə,
Mən özümü çox sınadım dözümdə,
Ancaq Gülrüx çəkilmədi gözümdən,
Hamı dibdə öz kökünə bağlıdır.

Bir gün gördüm qaçıb gəlib qız özü,
Ağlar idi, tutğun idi qaş- gözü,
Qaralmışdı, dəyişmişdi ağ üzü,
Oxşamırdı o Gülrüxə, lap düzü,
Hamı dibdə öz kökünə bağlıdır.

Dedim, niyə dəyişibsən belə sən,
Dedi, aman, ata, ana əlindən,
Sevin hələ qurtarmışam belə mən,
Hamı dibdə öz kökünə bağlıdır.

Gördülər ki, çox sevirəm mən səni,
Kəsdirdilər, qapadılar hər yönü,
Bu üç ildə qara keçdi hər günüm,
Hamı dibdə öz kökünə bağlıdır.

Dedim, tanrı, yardım elə mən qaçım,
Qanad da ver, ona doğru mən uçum,
Öz sevgimə doğru gedim, yol açım,
Hamı dibdə öz kökünə bağlıdır.

Qaçdım gəldim mən dilənçi günündə,
Indi Gülrüx durub sənin önündə,
Brəhmənsən, tanrın vardır sənin də,
Yaşamağa sevgim vardır mənim də.
Doldu bundan yaşla mənim gözlərim,
Sarsıtmışdı məni qızın sözləri,
Titrəyirdi bunca mənim dizlərim,
Hamı dibdə öz kökünə bağlıdır.

Dedim ona, xoş gəlibsən, Gülrüxüm,
Mənim kimi yazıq, sevgi yazığı,
Sən də oldun daha sevgi tutuğu,
Hamı dibdə öz kökünə bağlıdır.

***

Keçdi beş ay, on ay, bir il o gündən,
Gizli işlər gec- tez bir gün açılır.
Anam dedi, bu gürülxə bənzəmir,
Gizli işlər gec-tez bir gün açılır.

Dedim, ana, düz deyirsən, o deyil,
Ancaq onu gəlinin tək doğma bil,
Yaxşılıqdan törəyibdir bu Hindel,

Gizli işlər gec-tez bir gün açılır.

O ağladı, o sıtqadı bu işə,
O getmədi gəlin ilə görüşə,
Mən onunla hər gün gəldim döş-döşə,
Gizli işlər gec-tez bir gün açılır.

Dedim ana, az qarqış et, az deyin,
Yazıq yazıq kimsəsizdir bu gəlin,
Varımızla bağlı deyil bu kəbin,
Qancıl deyil o bu evdə heç nəyin,
Gizli işlər gec-tez bir gün açılır.

Ancaq anam hey ağladı, ağladı,
Ağlamaqdan, sıtqamaqdan dığladı,
Öldü, mənim mal-müknitəm laxladı,
Gülrüx bir il susdu, qara bağladı,
Gizli işlər gec-tez bir gün açılır.

Bir gün Gülrüx bir söz atdı araya,
Dedi, anam, bacım gəlsin buraya,
Onlar bizə çətin işdə yarayar,
Gizli işlər gec-tez bir gün açılır.

Dedi, düzü, mən nişanlı qız idim,
Atamınsa varı lap- çox az idi,
Nişanlımgil vardan, evdən saz idi,
Gizli işlər gec-tez bir gün açılır.

Oğlan dedi, ata varın bölərsən,
Get sən varlan, varlananda gələrsən,
Varlı toylar necə olur bilərsən,
Ya nişanlı qala qala ölərsən,
Gizli işlər gec-tez bir gün açılır.

Çox düşündüm, nə iş görüm, nə edim,
Var-dövlətdə nışanlımı mən ötüm,
Sevilməkçün üz gözümə nə sürtüm,
Gəldim səndən bir azcana var qırtım,
Yoxsulluğun üzərini mən örtüm,
Gizli işlər gec-tez bir gün açılır.

Sən hamıdan əli açıq kişisən,
Yardım, pay - puş işlərində bişibsən,
Çox yumaqlar, saplar açıb eşibsən,

Sən atanın düz yoluna düşübsən,
Gizli işlər gec- tez bir gün açılır.

Uşağımız olmur nədən, ötür yaş,
İstəyirsən get arvad al, atalaş,
Ərə gedim mən də, ana olum, kaş,
Bizdən daha sən aralan, aralaş,
Nişanlımla burda olluq, neçə baş,
Gizli işlər gec-tez bir gün açılır.

Dedim, Gülrüx, qoy tanrımla görüşüm,
Tanrı özü bu işlərə qarışır,
Ondan olar – olmazını soruşum,
Ya sənlə, ya onunla barışım,
Gizli işlər gec- tez bir gün açılır.

Indi otur, dalısını danışım,
Necə olub işlər necə qarışıb,
Gülrüx necə oğlan ilə barışıb,
Gizli işlər gec- tez bir gün açılır.

***

Turq yollandı çay qırağı Satala,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.
Brəhmənin bu sözləri dilində,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.

Gördü burda hamı arıq, yarımcan,
Biri qaçır ayaqları yalıncaq,
Arvad- uşaq qaçır ərin dalınca,
Uşaqların hamısı da balaca,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.

Dedi:- Qardaş, hara belə, nə olub,
Bu uşaqlar niyə belə saraləb,
Qaça- qaça qışqırmaqdan yorulub?
Yaxşı pisdən, pis yaxşıdan törəyir.

Kişi dedi:- Qaçıb gözdən itirəm,
Mən yaraqlı yazılmağa gedirəm,
Uşaqlara yemək- çörək gətirrəm,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.

- Sən gələnə, qardaş, bunlar ac qalar,
- Qoy ac qalsın, ac qalanda nə olar,

Ac qalana yardım edən tanrı var,
Tanrı verib, tanrı özü saxlayar,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.
Turq qoşuldu o kişiyə qaçaraq,
Dedi, görüm hara gedir bu qoçaq,
Haradadır döyüş- vuruş, səs - sorağ,
Haradadır toplum, savaş yal-yaraq,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.

Dedi:- Birdən yenə dəli olarlar,
Gedib bizim Uğurelə dolarlar,
Elçiçəyin yerincliyin alarlar,
Orda yenə qanlı yuva salarlar,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.

O dayanır, bir hindlidən soruşur,
Deyir:- Harda, kim kim ilə vuruşur,
O hindli də bunu deyir, soruşur,
Deyir:- Hindel Çinel ilə vuruşur,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.

Turq ah çəkir, birdən çökür torpağa,
Az dincəlim – deyir- durum ayağa,
Çox düşmüşəm Mindiyardan uzağa,
Vuruşların qabağını almağa,
Gərək gedib düşüm orda qabağa.
Vuruşlarda dönüm yaxşı ortağa,
Toplumları bir- bir çəkim qırağa,
Olum qanlı vuruşlara qadağa,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.

Elə bu an bir quş enir buluddan,
O oturur Turqər ilə yan ba yan,
Qızıl quşdur, qılınc qanad, çalağan.
Yollarını bağlasa da sis, duman,
Ər Qurd ərin yazısını oradan,
Gətirmişdir dayanmadan, durmadan,
Yaxşı pisdən, pis yaxşıdan törəyir.

Turqun Çinelə getməsi söyləncі

Turq yazını oxuyarkən sevindi,
Hər söz hər şey öz yerində yaxşıdır.
O kişnərti eşidərək dikəldi,

Hər söz hər şey öz yerində yaxşıdır.

Şaha qalxdı qabağında Şimçəkat,
Bu at ilə istəyini qur, yarat,
Bu at ilə gəzməlidir bu Elat,
Hər söz, hər şey öz yerində yaxşıdır.

Durub öpdü onun qaşqa alnından
Şimşəkqılınc asılmışdı boynundan,
Dayanmışdı bir qurd onun yanında,
Hər söz hər şey öz yerində yaxşıdır.

Turq tanıdı qurdu, dedi, ana Qurd!
O, bozsayaq, kürəntəhər, qara Qurd,
«Turq» söyləyib gəlib çıxıb bura Qurd,
«Qurdər» deyib gəlib çatıb hara Qurd,
Hər söz hər şey öz yerində yaxşıdır.

Dedi:- Ana, Qurd oğlunu gəzirsən,
İzlədikcə bizi bizdən bezibsən,
Mən bilirəm sən Qurdərdən küsübsən,
Öz əlini sanki ondan üzübsən,
Hər söz hər şey öz yerində yaxşıdır.

Sənin oğlun Parsdiyarda şah olub,
O, diyarın ucalığı sayılır,
Artıq hər kəs öz yerinə qoyulur,
Hər söz hər şey öz yerində yaxşıdır.

Mən duymuşdum, izləyirsən sən bizi,
Atdayaraq keçib çayı, dənizi,
Hər keçilməz dağı, çölü, hər düzü,
Eşidibsən biz danışan hər sözü,
Hər söz hər şey öz yerində yaxşıdır.
Biz gedirik Çinə, gedək bizimlə,
Döyüşləri görəcəksən gözünlə,
Düzümlüsən yenə gözlə dözümlə,
Səni varram Mindiyara özümlə,
Hər söz hər şey öz yerində yaxşıdır.

Qurd süründü qarnı üstə, uladı,
Şələsayaq quyruğunu buladı,
O Turqərin əllərini yaladı,
Hər söz hər şey öz yerində yaxşıdır.

- Mən gedirəm xaqanlarla görüşə,
Son qoyaram başlamadan döyüşə,
Mən qoymaram qan qatıla bu işə,
Hər söz hər şey öz yerində yaxşıdır.

Bunu deyib Turq atına «ho», dedi,
Qurd, qartalı, atım, dalda qoy, dedi,
Qalsın dalda bu dağ, dəniz, çay, dedi,
Hər söz hər şey öz yerində yaxşıdır.

Dedi:- Sağ ol vurğun, yorğun, Brəhmən,
Çox şey ələ aldım səndən, bildim mən,
Budda ollam mən də yeri gələndə,
Hər söz hər şey öz yerində yaxşıdır.

***

Öz yerindən götürüldü Şimşəkat,
Çölü, düzü yol eləyən inamdır.
Qurdla, qartal cumdu onun dalınca,
Çölü, düzü yol eləyən inamdır.

Turq inamla atı çapdı Çinelə,
O baxmadı qızmar günə, yel- selə,
Axmamışdı döyüşlərdə qan hələ,
Çölü, düzü yol eləyən inamdır.

Qartal, qılınc qanadını yellədi,
Qurd yoruldu, ara-sıra ləhlədi,
At dırnaqla çölü-düzü, bellədi,
Gözlərini yollar Turqa zillədi,
Çölü, düzü yol eləyən inamdır.

Dedi:- Tanrım, məni ora yetir sən,
Nə olacaq qan yer - göyü götürsə,
Ac uşaqlar ataların itirsə,
Bu döyüşlər aclıq, qıtlıq gətirsə,
Çölü, düzü yol eləyən inamdır.

Yol getdilər onlar üç gün, üç gecə,
Çinçay yerə yorğun - arğın gəlincə,
Çinellilər bunu görüb bilincə,
Turqər adı döndü toya, sevincə,
Çölü, düzü yol eləyən inamdır.

Turq Sansını soruşaraq tutuldu,

Turq Yanqunun sevgisinə qatıldı,
«Dinti» dedi, cod qaşları çatıldı.
Çölü, düzü yol eləyən inamdır.

Dedilər ki, gec gəlibsən görüşə,
El obadan hamı girib döyüşə,
Turq son qoysa qan qoxuyan bu işə,
Yurd, el-oba çiçəklənər, dəyişər,
Çölü, düzü yol eləyən inamdır.

Turq o yerə axçam üstü yetişir,
Görür ərlər yaxalaşır, bitişir,
Əl-qol atıb bir-birilə didişir,
Çölü, düzü yol eləyən inamdır.

***

Turq bağırdı:- Əl saxlayın, qardaşlar!
Səsdən, sözdən öncə ürək titrəyir.
Budda məni göndəribdir buraya,
Səsdən, sözdən öncə ürək titrəyir.
O göndərib məni bura, barışa,
Barışmasaz, deyib, yer-göy qarışar,
Öz yerizə qayıdınız bir başa.
Səsdən, sözdən öncə ürək titrəyir.

Deyib, «mənəm ölüm-dirim gücündə,
Mənə doğru gəlin düz yol seçəndə,
Duru olun işdə, əkin, biçində,
Iki varlıq mənəm, mənim içimdə,
Yada salın məni yeyib içəndə,
Döyüş vuruş keçir mənim ölçümdən,
Mənəm baş-baş siz varlıqdan köçəndə,
Qurtarmayır heç kəs mənim öcümdən»,
Səsdən, sözdən öncə ürək titrəyir.

«Çöl varlığa girmə» - «uyma» deyir o,
«O dadlıdır, onu sayma» deyir o,
«Yeyəndə də az ye, doyma» deyir o,
«- İç üzünə yamaq qoyma», deyir o,
«Çöl üzünə tüstü yayma» deyir o,
Yoxsulları yedirt, soyma, deyir o,
Səsdən, sözdən öncə ürək titrəyir.

Biri dedi:- Sənə kəsi, Turq ata,
Qoy sağ olsun bunca həm Turq, həm Budda,
Biz ac, susuz qayıdarsaq Elata,

Nə yeyəcək ana, arvad, beş arta,
Qarın adlı boş dəyirman nə dartar,
Səsdən, sözdən öncə ürək titrəyir.

Biri dedi, bu döyüşlər olmasa,
Ev çapmasaq, bizə bir şey qalmasa,
Bunun ilə evə çörək almasaq,
Biz olarıq gecə quşu, yarasa,
Səsdən, sözdən öncə ürək titrəyir.

***

Turq bağırdı:- Susun, qorxun tanrıdan,
Hamı gərək öz içinə bağlana.
Tanrı deyir, mənəm sənin içində,
Hamı gərək öz içinə bağlana.

Yaşamağa tanrı yerlə yurd verib,
Sürü, ilxı, naxır verib, ot verib,
Yaşamağa bizə suyla od verib,
Sərtüz, Budda tanrımıza and verib,
Hamı gərək öz içinə bağlana.

Biri dedi:- Qocalıbsan, ay kişi,
Bilməlisən varlıq çoxdan dəyişib,
Gəl, böyütmə, Turqər ata, bu işi,
Hamı gərək öz içinə bağlana.

Turq söylədi:- Onda tək-tək vuruşaq,
Güləş ilə kələzdənək, yarışaq,
Basar, basıq, oradaca barışaq,
Hamı gərək öz içinə bağlana.

Biri dedi: - Güləşərəm sənlə mən,
Görək kimin nə iş gəlir əlindən,
Görüm yarı tanrısansa, bəs nəsən,
Sən deyənlər yoxdur, ata, bəs nədən,
Hamı gərək öz içinə bağlana.

Hər ikisi birdən atdan düşdülər,
Güləşdilər yeri qat-qat eşdilər,
Tərlədilər, pöşdələnib bişdilər,
Hamı gərək öz içinə bağlana.

Birdən göydən şimşək düşdü, yel əsdi,

Yerə yağış, duman çiskin tələsdi,
İki toplum arasını bu kəsdi,
Hamı gərək öz içinə bağlana.
Başbaşılar, minbaşılar susdular,
Baş əyərək Turqa qulaq asdılar,
Yaraqlılar qaçıb yolu azdılar,
Kim göründü, onu çapıb basdılar,
Hamı gərək öz içinə bağlana.

***

Turq gördü ki, iki Xaqan döyüşür.
Bir incə söz acı öcü azaldır.
Dedi:- Durun, vuruşmayın bu gecə,
Bir incə söz acı öcü azaldır.

Dedi:- Xaqan yaranmayıb vuruşa,
Xaqan gərək el işinə qarışa,
O apara kiçikləri barışa,
Samballı söz acı öcü azaldır.

Dedi:- Sayqı göstəriniz ataya,
Qan düşməsin gərək bizim araya,
Qılıncını qoydu Turqər ortaya,
Samballı söz acı öcü azaldır.

Vuruş nəyin üstündədir, bəllidir,
Bir soydandır hamı, yaxın ellidir,
Bir yaranıb, ancaq ayrı dillidir,
Biri susqun, biri isə yellidir.
Samballı söz acı öcü azaldır.

Biri ded:- Təbətdiyar bizimdir,
Var olmamış Təbət yoxdan bizimdir,
O dağ yeri Budda vaxtdan bizimdir,
Samballı söz acı öcü azaldır.

Biri dedi:- Bizi dəli edirlər,
Sürüləri süpürləyib gedirlər,
Gecə gəlib gündüz gözdən itirlər,
Samballı söz acı öcü azaldır.
Belə dedi, elə dedi Xaqanlar,
Ağızlarda pis qoxulu yalanlar.
Dilə gəldi olmayanlar, olanlar,
Yumaqlandı dilə gəlməz – qalanlar,
Samballı söz acı öcü azaldır.

İki Xaqan bir-birini söyürdü,
Bir-birini yumruqlayıb döyürdü,
Hərdən onlar özlərini öyürdü,
Turqa hərdən yumruq, təpik dəyirdi,
Samballı söz acı öcü azaldır.

Bir də baxıb gördülər ki, toplumlar,
Alver edib çox- çox yaxın olublar,
Aralığa yoxsul süfrə salıblar,
Bir- birinin qayğısına qalıblar,
Samballı söz acı öcü azaldır.

***

Hindel Çinel Xaqanları baxdılar,
Sözün gücü qılıncdan da itidir.
Baxıb baxıb bir- birinə, güldülər,
Sözün gücü qılıncdan da itidir.

Dedilər ki, bu acları öyərək,
Bir-birinə qırdıraydıq biz gərək,
Onlar göyü yumruqlayıb təkbətək,
Üstümüzə Qaplan kimi gələcək,
Sözün gücü qılıncdan da itidir.

Turq düşündü, «qan düşməsə, qan ancaq,
Ölkə bir gün əllərindən çıxacaq,
Odur, onlar yenə toplum yığacaq,
Yerə - göyə od vuracaq, yaxacaq,
Bir-birini boğazlayıb boğacaq,
Su yerinə yenə də qan axacaq»,
Sözün gücü qılıncdan da itidir.

Turq üz tutdu yenə böyük tanrıya,
Dedi, tanrım, gir özün də araya,
Birgə eli qan- qadadan qoruyaq,
Sözün gücü qılıncdan da itidir.

Dedi, Alpis el obanı saraltdı,
Qıtlıq ilə günlərini qaraltdı.
Tanrım, bizi niyə belə yaratdın,
Sözün gücü qılıncdan da itidir.

Var olanlar səndən inam, güc alır,
Bu güc ilə bir- birindən öc alır,
Yaşamaqçün gücü verib borc alır,

Sözün gücü qılıncdan da itidir.

Bu andaca çopur Xaqan astadan,
Qılınc ilə Turq atanı arxadan,
Vurur, onu götürməkçün aradan,
Sözün gücü qılıncdan da itidir.

Qartal görür, çırpır ona özünü,
Caynağıyla tökür iki gözünü.
Cırmaq-cırmaq yarır onun üzünü,
Sözün gücü qılıncdan da itidir.

Yaraqlılar bunu görüb sarsılır,
Iki toplum bir- birinə qısılır,
Turq önündə ikisi də basılır,
Hamı sanki bir tanrədan asılı,
Sözün gücü qılıncdan da itidir.

Yara qalır Turqun enməz başında,
Yara onu yeyir qoca yaşında,
Yaralanır qıçı qızıl quşun da,
Sözün gücü qılıncdan da itidir.

Qayıdış söyləncі

Hindel Çinel yaxınlaşır bir az da,
Bir- birindən uzaq olmaz yaxınlar,
Bir- birindən qaçar olmaz yaxınlar.
Düyü, buğda satalları parlayır,
Bir- birindən uzaq olmaz yaxınlar,
Bir- birindən qaçar olmaz yaxınlar.

Niyə göyə millənirsən Qızıl quş,
En aşağı, adamlara sən yovuş,
Dibdən belə qoyulubdur qoyuluş,
Göylərdədir, Qızıl quşum, qurtuluş,
Bir-birindən uzaq olmaz yaxınlar,
Bir-birindən qaçar olmaz yaxınlar.

Ana qurdun qoşa gözü batıqdır,
Yaxınları inciksayaq, soyuqdur,
Boz tükləri sanki yoluq-yoluqdur,
Lomba- lomba tüklər qopuq-qopuqdur,
Sanki onun ürəyi də sınıqdır,

O anadır, oğul yandan yanıqdır,
Cod qaşları düyünlənib çapıqdır,
Bir- birindən uzaq olmaz yaxınlar,
Bir- birindən qaçar olmaz yaxınlar.

Turq söyləyir, - çox danışma, ana Qurd,
Dağlar görmüş ürəyini sən ovut,
Gözlər bizi ana torpaq, ana yurd,
Uzaq-uzaq yol yortmağı ta unut,
Bir-birindən uzaq olmaz yaxınlar.
Bir-birindən qaçar olmaz yaxınlar.

Mən bilirəm, sən sayırsan günləri,
Qayıdanda görəcəksən hər yeri,
Görəcəksən şah oğulun Qurdəri,
Min diyardan çox-çox uzaq, çox bəri,
Mahnı deyən bulaqları lap sərin,
Mahnılarda sözü, sazı çox dərin,
Bir ölkə var, vuruşqandır elləri,
Qana qancıl, barışqandır elləri,
Bir-birindən uzaq olmaz yaxınlar.
Bir-birindən qaçar olmaz yaxınlar.

Qızıl quşum, şığı göyə ayıq ol,
Sən bizdən də göydə ayıq-sayıq ol,
Dolambacdır yollar, bizə qoruq ol,
Sən Alpisə qarşı göydə duyuq ol,
Əkbitənə çatsan bizə yovuq ol,
Bir-birindən uzaq olmaz yaxınlar.
Bir-birindən qaçar olmaz yaxınlar.

Şimşək atım, çap, yelləndir yalını,
Sayma seli, qar, yağışı, dolunu,
Mindiyara sarı götür yolunu,
Mən qoruyuram sənin sağla solunu,
Bax gör harda qan-qan üstə calanıb,
Harda ölü ölü üstə qalanıb,
Sal oradan Şimşəkatım yolunu,
Bir-birindən uzaq olmaz yaxınlar.
Bir-birindən qaçar olmaz yaxınlar.

Qurdər söyləncі

Tunqər Alpan qonaq qaldı Qurdərə,
Gəncdən qulluq, qocadansa tapşırıq.

Dedi:- Qurdər, bil ki, şah yox yerincsən,
Gəncdən qulluq, qocadansa tapşırıq.

Darvideldən bura çox çox iridir,
Bura Hindel parslarının yeridir,
Daryaş yersiz banlayandan biridir,
Bilməyirəm o ölüdür, diridir,
Harda olsa üzü bizə bəridir,
Gəncdən qulluq, qocadansa tapşırıq.
Öncə ev-ev gəz, bu ellə tanış ol,
Küsüşənlər arasında barış ol,
Toydan qalma, toyda soldış, sağdış ol,
Hərdən işlə, tarlalarda yarış ol,
Gəncdən qulluq, qocadansa tapşırıq.

Tunqər Alpan gəzdi eldə, sayıldı,
Adı, andı, sözü ev- ev yayıldı,
Dinclik tapdı hamı, sanki ayıldı,
Gələcəyə yeni dibdaş qoyuldu,
Gəncdən qulluq, qocadansa tapşırıq.

Tunqər Alpan çox qancılı danladı,
Qurdər baxdı, çox işləri anladı,
O da hər gün yoxsulları yanladı,
Gəncdən qulluq, qocadansa tapşırıq.

Beş il keçdi, unuduldu didişmə,
Yersiz danlaq, acıq, deyib deyişmə,
Artdı könül istəyilə, sevişmə,
Deyingənlər arasında deyişmə,
Gəncdən qulluq, qocadansa tapşırıq.

Artdı Qurdər bacarıqda, dözümdə,
Öyüd, sayğı artdı onun sözündə,
El basılmaz diyar oldu gözündə,
Buğda, arpa dalğalandı düzündə,
Gəncdən qulluq, qocadansa tapşırıq.

Ana dedi:- Oğlum, Qurdər, gülər ol,
Ana gərək ad-sanını qorusun.
Mənim kimi qaraqabaq olma sən,
Ana gərək ad-sanını qorusun.

İndi mənim ana başım ucadır.
Ancaq anan düşüb daha qocadır,

Nə olsa da ana elə anadır,
Ana gərək ad-sanını qorusun.
Gəldin, sonda gördüm uca boyunu,
İndi görmək istəyirəm toyunu,
Mən də görüm itib- batan soyumu,
Ana gərək ad-sanını qorusun.

Qurdər dedi:- Ana, toydan yapışma,
Mən şahamsa, şah işinə qarışma,
Məni yoldan çıxarmağa çalışma,
Kəsilibdir Turqla mənim yazışmam,
Daha məndən toyu-moyu soruşma,
Ana gərək ad-sanını qorusun.

Əlbir olaq, ölkə darda qalmasın,
Parsdiyarda aclıq, qıtlıq olmasın,
Acıqanlar burda yuva salmasın,
Ana gərək ad-sanını qorusun.

Çox yerinclər burdan gəlib keçibdir,
İndi yerli özü məni seçibdir,
El bu işi çoxdan ölçüb biçibdir,
Ana gərək ad-sanını qorusun.

Ana- bala danışırdı hər gecə,
Bilmirdilər bir qız gəlib gizlicə,
Qulaq asır sözlərinə sevincək,
Oynayırdı qız qanında vic-vicə,
Ana gərək ad-sanını qorusun.

Seta idi, adı, işi təpərli,
O baş evdə qulluqçuydu, dəyərli,
Düşüncədə, sözdə, dildə kəsərli,
Ana gərək ad-sanını qorusun.

Yekta idi, Dota, Seta, üç bacı,
Üç bacının yeri bir dar alaçıq,
Üç bacıydı, deyib gülən yalançı,
Ana gərək ad-sanını qorusun.

***

Gözəl Yekta, o, Qurdəri sevirdi,
Sevgi də var doğur, ölür gizlidə.
Utancaqdı, o da gizli sevirdi,
Sevgi də var doğur, ölür gizlidə.

Tez-tez ondan yuxu görüb solurdu,
Bu sevginin heç olduğun bilirdi,
Gizli sevib Qurdər üçün ölürdü,
Yuxusunu özü yozub gülürdü,
Sevgi də var doğur, ölür gizlidə.

Danışırdı yuxusunu Dotaya,
Söyləyirdi sevgisini Setaya,
Gizlincələr qoyulurdu ortaya,
Sevgi də var doğur, ölür gizlidə.

-Mən yuxuda görmüşəm ki, uçuram,
Başev üstən keçib qanad açıram,
Mən Daryaşdan tin- tin, ev- ev qaçıram,
Mən Qurdəri orda- burda qucuram,
Sevgi də var doğur, ölür gizlidə.

Qurdər deyir:- Bu qaçhaqaç nə demək?
Seviriksə onda gedək evlənək,
Biz baş evdə bir yaşayaq, bir ölək,
Daryaş görsün, bir də ölsün o gərək,
Sevgi də var doğur, ölür gizlidə.

Daryaş gəlir, deyir bunu qoymaram,
Mən sevgini, evlənməyi saymaram,
Öldürərəm, qan içərəm, doymaram,
Sevgi də var doğur, ölür gizlidə.

Qurdər onu qamarlayır bir anda,
Alıb onu yıxıb yerə çalanda,
«Alpis» deyib o fısqırır yalandan,
Sevgi də var doğur, ölür gizlidə.
Qurdər deyir:- Çatmaz ona bu sözün,
Yoxdur Şimşəkquyruq atı Alpisin,
Daryaş deyir:- Alpis ollam mən özüm,
Sevgi də var doğur, ölür gizlidə.

Daryaş deyir, qarlı, çovğun, gəl bura,
Mən haraya getsəm, sən də get ora,
Mən Üstyerdən gərək sizi qoparam,
Sevgi də var doğur, ölür gizlidə.

Qarlı çovğun ancaq bura gəlməyir,
Daryaş susur, yerə dəyir ölməyir,
Qurdər deyir, o yerini bilməyir,

Sevgi də var doğur, ölür gizlidə.

Qılınc qalxır, birdən enir aşağı,
Yerə dəyir şahın iti yarağı,
Qıvrılaraq Daryaş ilbiz sayağı,
Üzü qoylu qucaqlayır torpağı,
Deyir, dəysin qoy Altyerə ayağım,
Olum pislik tanrıların qonağı,
Çatar sənə Şimşəkağız yarağım,
Sevgi də var doğur, ölür gizlidə.

Qurdər deyir, yekta, gedək Altyerə,
Mən olmuşam orda Turqla bir kərə,
Baxaq orda çovğunlara, sellərə,
Qızçiçəyin son evini biz görək,
Sevgi də var doğur, ölür gizlidə.

***

Qurdər alır məni birdən tərkinə,
At çapmağın sevinci var, sayı yox.
Məni öpür, öpür, ancaq doymayır,
At çapmağın sevinci var, sayı yox.

Gülçiçəyə dönür hər yer gözümdə,
Ayrılıram elə bilki, özümdən,
Qız olsam da güc duyuram dizimdə,
At çapmağın sevinci var, sayı yox.
Biz Altyerə çatar- çatmaz o deyir,
Ağac başmaq geyməliyik birbəbir,
Yoxsa şimşək çaxışından ölərik,
Bura gələn sağ qayıdır mində bir,
At çapmağın sevinci var, sayı yox.

Elə bu an bir səs gəlir, - «Ay igid,
Yekta ilə elə burdan qayıt get,
Mineləcən dayanmadan at səyırt,
At çapmağın sevinci var, sayı yox.

Qurdər deyir, Qızçiçəkdir danışan,
O sevirdi, sevgisində alışqan,
Əri Bacar, Bacardan da vuruşqan,
Altı min il tutuq oldu qorxmadan,
O sevgidə həm tanrıdır, həm insan,
At çapmağın sevinci var, sayı yox.

Dönək çapaq yenə gedək geriyə,

Yoxsa Altyer üstümüzə yeriyər,
Yoxsa Alpis bizi yerdən kürüyər,
At çapmağın sevinci var, sayı yox.

Bir gədikdə bizi görüb bir qarı,
Durub kəsdi üzümüzə yolları,
Dedi, bu yol pis yollara aparır,
Mən qarını bir dindirin siz barı,
Tanıyıram mən yolları, yalları,
At çapmağın sevinci var, sayı yox.

Qurdər dedi, sizə qonaq olaq biz,
Axşam düşür, sizin evdə qalaq biz,
Sən yaşlısan səndən öyüd alaq biz,
At çapmağın sevinci var, sayı yox.

Qarı yemək- içmək verdi, yer yataq,
Dedi, məndən yer istəyir çox qonaq,
Yox, bu yerə gəlməz azğın, yapalaq,
At çapmağın sevinci var, sayı yox.
Mən qarıyla gecə qaldım, bir yerdə,
Əlləyirdi məni bic-bic o hərdən,
Dönüb mənə belə dedi o birdən,
At çapmağın sevinci var, sayı yox.

***

-Göz dəyməsin, qıza, necə gözəlsən,
Öz yerində olmalıdır gözəllər.
Nə görmüsən bu fınxıran qabanda,
Öz yerində olmalıdır gözəllər.

Yekta, qorxmaz qız olginən, gəl mənə,
Şah edərəm səni Altyer ölkəyə,
Vurulmuşam mən bu üzə, görkəmə,
Kimsə barmaq uzadanmaz kölgənə,
Neçə min il ər olaram mən sənə,
Öz yerində olmalıdır gözəllər.

Mən bərk qorxdum, üzüm - gözüm dəyişdi,
İçimdə ki, «hə», «yox» dindi, deyişdi,
Qarı nənə, mənə bərk bərk girişdi,
Dedim, tanrı, bunlar nədir, nə işdi,
Öz yerində olmalıdır gözəllər.

Mən bərk qorxdum, heç bilmədim nə dedim,

Yoxsa ona «yox» söylədim, «hə» dedim,
Qoy Qurdərə bunu deyim, -mən dedim,
Öz yerində olmalıdır gözəllər.

Qarı getdi su gətirsin bir bardaq,
Getdim, dedim, Qurdər, oyan, ay qoçaq,
Mənə belə, elə deyir bu alçaq,
Dur ayağa, geyin burdan biz qaçaq,
Öz yerində olmalıdır gözəllər.

Qurdər dedi. o Alpisdir, yığış tez,
Qarı dönüb gələnəcən qaçaq biz,
Bu yol gedir Əkbitənə dübbədüz,
Öz yerində olmalıdır gözəllər.
Yolumuzu yolda kəsdi bir ayı,
Ayı deyil, o qurd kimi ulayır,
Qurdu quşu bir-birinə dolayıb,
Qan axıdır, isti qanı yalayır,
Öz yerində olmalıdır gözəllər.

Caynağını atdı mənə, yıxıldım,
Qurdər vurdu,ayı yer-yer dağıldı,
Mənsə birdən yavaş-yavaş ayıldım,
Yuxudaydım, durdum, bir də doğuldum,
Öz yerində olmalıdır gözəllər.

***

Dota dedi:- Dayan bacı, amandır,
Yuxu bir az düzdür, bir az qorxudur.
Yuxu gördüm dünən, sizdən gizlətdim,
Yuxu bir az düzdür, bir az qorxudur.

Çox oynatma, Yekta sən üz-gözünü,
Çalxalama sən ağzında sözünü,
Qoy danışım düz yuxumun özünü,
Yuxu bir az düzdür, bir az qorxudur.

Yuxu gördüm, bacı, daryaş dirilib,
Mənə baxır iki gözü bərəlib,
Saç- saqqalı, qaş kipriyi seyrəlib,
Mənə deyir «Dota» tez- tez kövrəlir,
Yuxu bir az düzdür, bir az qorxudur.

Deyir, Dota sənsiz bura gəlməzdim,
Mən bilsəydim Dota vardır, ölməzdim,

Belə qızın olduğunu bilməzdim,
Yuxu bir az düzdür, bir az qorxudur.

Gəl evlənək, sən Daryaşa yardım ol,
Vuruşlarda başrağım ol, andım ol,
Üstyer, Altyer arasında addım ol,
Yuxu bir az düzdür, bir az qorxudur.

Qurdər gəlir, deyir, yenə bu gəlib,
Sənin burda olduğunu nə bilib,
Sənə baxır sırtıq-sırtıq o gülür,
O daryaşdır, beş il qabaq o ölüb,
Yuxu bir az düzdür, bir az qorxudur.

O Qurdəri görür, gözdən yayınır,
Gedib lap-lap uzaqlarda dayanır,
Qurdər deyir, ay qız kimdir say- soyun,
Nədir bu tək gizdilin- pac, bu oyun,
Tanrı biçib verib sənə bu boyu,
Yuxu bir az düzdür, bir az qorxudur.

Mən deyirəm, ey şah məni saymırsan,
Üç bacıyıq, bizi görüb duymursan,
Gözəlliyə baxıb dəyər qoymursan,
Sevgidən yox, sən anadan doymursan,
Yuxu bir az düzdür, bir az qorxudur.

***

-Mən bilmirəm kim doyubdur sevgidən,
Dolanışı böyük sevgi yaradıb.
Kimi söyür, kimi öyür sevgini,
Dolanışı böyük sevgi yaradıb.

Qurdər deyir, - mənim iki anam var,
Oğul doğur, tanrılaşır analar,
Ana ilə ucalmışdır Mindiyar,
Dolanışı böyük sevgi yaradıb.

Soruşuram, Qurdər, hara gedirsən,
Deyir, gizli çıxıb bu gün ova mən,
Qurd atamı axtarmağa gedirəm,
Dolanışı böyük sevgi yaradıb.

Deyir, gözəl, öz yeri var hərənin,
Öz yeri var sevilənin, sevənin,
Gözəlliyi görməyənin, görənin,

Dolanışı böyük sevgi yaradıb.
Deyirəm ki, şah, məni də apar sən,
Gedim ova, Qurd ananı görüm mən,
Tanış olub yararlanım sevgidən,
Dolanışı böyük sevgi yaradıb.

At gətirir, məni ata mindirir,
Gülə- gülə hərdən-birdən dindirir,
Sərt üzünü dağa-çölə döndərir,
Dolanışı böyük sevgi yaradıb.

Hara çatır ana Qurdu çağırır,
Çıxır dağa «ana» deyib bağırır,
Səsi, sözü çöldə qorxu doğurur,
Səsdən quşlar diksinərək karıxır,
Dolanışı böyük sevgi yaradıb.

Qurd dilində ular-ular danışır,
Qurdlar gəlir dörd yanında dolaşır,
Çapır gedir o qurdlara qarışır,
Düşüb hərdən onlar ilə qarpışır,
Dolanışı böyük sevgi yaradıb.

***

Bir qurd deyir, gəlir sənin qurd anan,
Yarananlar dibdən ata, anadır.
Turqla birgə, qızıl quşla gəlir o,
Yarananlar dibdən ata, anadır.

Göydə qızıl quş görünür bu anda,
Turq görünür, Qurd görünür bu yanda,
Qurdərin də öz anası o yandan,
Yarananlar dibdən ata, anadır.

Sevincindən Qurdər çöküb yayıldı,
Elə bu an mən yuxudan ayıldım,
Bu səs sorağ hər bir yana yayıldı,
Yarananlar dibdən ata, anadır.

Seta dedi:- Bacı, yuxu bir yana,
Görünür ki, gələcəkdir Qurd ana,
Tanrı verib şahımıza cüt ana,
Ikisi də doğma ana, süd ana,
Torpaq ana, ölkə ana, yurd ana,
Yarananlar dibdən ata, anadır.

Yığım gərək yuxuları bir yerə,
Gedim bir gün mən danışım Qurdərə,
Görən mənə muştuluğa nə verər,
Yarananlar dibdən ata, anadır.

Yekta dedi:- De, mən onu sevirəm,
Dota dedi:- De, mən onu sevirəm,
Seta dedi:- De, mən onu sevirəm,
Yarananlar dibdən ata, anadır.

Çox gözlədi, güddü Seta Qurdəri,
Qurdər isə kənd- kənd gəzib hər yeri,
Alaçıqda, kənddə tez-tez hərlənir,
Gəzə - gəzə o olmuşdu köçəri,
Yarananlar dibdən ata, anadır.

Şah keçsə də kənd də gecə yarıdan,
Atdan düşdü bir sallama qapıda,
Sorağ aldı üç yuxulu bacıdan,
-Kənddə bolluq varmı, sudan qurudan,
Qıtlıq çəkmir onlar çörək sarıdan.
***
Üç bacının ağzı qaldı açıla,
Yuxular var olduğu tək çin olur.
Qonaq gəlib bacılara şah özü,
Yuxular var olduğu tək çin olur.

Seta ona yuxulardan danışdı,
Qurdər şahın düşüncəsi qarışdı,
O, sevgi yox, ana qurddan yapışdı,
Yuxular var olduğu tək çin olur.
Dedi:- Seta, gedək tapaq ananı,
Gəzək yer-yer çölü, dağı, aranı,
Çindən gələn yolun o yan bu yanın,
Yuxular var olduğu tək çin olur.

Qız yuxusu düzdür, sudan arıdır,
O qızların özü kimi durudur,
Ancaq yuxu ayrı, ana ayrıdır,
Süd anası kim olsa da tanrıdır,
Gedək mənlə, üzüm ona sarıdır,
Yuxular var olduğu tək çin olur.

İzin istədi Qurdər iki bacıdan,
Danışığı, sözü qoydu yarıda,

Oradaca o qayıtdı qapıdan,
Yuxular var olduğu tək çin olur.

Seta, Qurdər çapıb gözdən itdilər,
Ana qurdun qabağına getdilər,
Neçə ölkə, neçə diyar ötdülər,
Sonda gəlib bir saraya yetdilər,
Yuxular var olduğu tək çin olur.

Seta dedi:- Mən pis yuxu görmüşəm,
Qorxuludur, şah bu saray bu meşə,
Yaxşı olar bir otlağa biz düşək,
Buralıya yaxınlaşaq, görüşək,
Acıqanla biz gəlməyək döş-döşə,
Yuxular var olduğu tək çin olur.

***

Qurdər dedi:- Seta, doğru deyirsən,
Qorxuludur yoxlanmamış nəki var.
Biz bu gecə bu otlaqda yatarıq,
Qorxuludur yoxlanmamış nəki var.

Dedi:- «Bu qız deyən yaşda yetgindir,
Düşüncəsi, sözü, özü bitgindir,
Utancaqdır, baxışları gərgindir,
Bu üç bacı qaçqın, köçgün, itgindir,
Qorxuludur yoxlanmamış nəki var.

-İç oxşayır danışığı, duruşu,
Dildən deyil, başdan gəlir çox işi,
Gərək ondan beş- altı söz soruşum,
Mən deyənlə görüm bu qız barışır?
Qorxuludur yoxlanmamış nəki var.

Dedi:- Seta, nədən belə göyçəksən,
Dərilməmiş şeh qoxulu çiçəksən,
Mənim şahlıq sarayıma dirəksən,
Qorxuludur yoxlanmamış nəki var.

Sevgi nədir, bunca məni başa sal,
Bu od nədir, bu örtülü qalmaqal,
Niyə sevir bu üç bacə dalbadal,
Söylə nədir, Seta, məni başa sal,
Qorxuludur yoxlanmamış nəki var.

Seta dedi:- Şahım, sevgi ocaqdır.
Bu ocağa hərə qırx il qonaqdır,
O ürkəkdir, o quşdan da oyaqdır,
Kişilərdə sevgi inam, yaraqdır,
Qadınlara o körpəcə uşaqdır,
Sevgi sınıq adamlara dayaqdır,
Duruluqda sevgi tanrı sayaqdır,
Qorxuludur yoxlanmamış nəki var.

Qız sevgisi qaynar, duru bulaqdır.
Sevgi də var ağda qara yamaqdır,
Adamlıqdan, doğmalıqdan uzaqdır,
O, quruşdur pal-paltardır, yataqdır,
O tanrıya, tanrılıqa yasaqdır,
Qorxuludur yoxlanmamış nəki var.

***

Qurdər dedi:- Çox bilənsən, ay gözəl,
Sevgi tanrı, tanrı sevgi olanmaz.
Sən sevgini öyüb dağa döndərmə,
Sevgi tanrı, tanrı sevgi olanmaz.

Dedi:- Seta, göyərçintək çeviksən,
Gözəllikdə tez-tez səkən kəhliksən,
Danışıqda başdan – başa biliksən,
Baldan təmiz, sən ağ balsan pətəksən,
Ləçəyində şeh saxlayan çiçəksən,
Sevgi tanrı, tanrı sevgi olanmaz.

Bacıların çox sevgiyə uyubdur,
«Sevgi» deyən tez sevgidən doyubdur,
Çox evləri sevgi uçuq qoyubdur,
Ürəkləri yandırıbdı, soyubdur,
Soyub, uyub yalan sözlər yayıbdır,
Pis-pis onu hələ tanrı sayıbdır,
Sevgi tanrı, tanrı sevgi olanmaz.

Mən gedərəm, süd anamı taparam,
Tapıb onu təkliyimdən qoparam,
Səni alıb Parsdiyara çaparam,
Sevgi tanrı, tanrı sevgi olanmaz.

Sevgi nədir, deyər mənə Qurd anam,
Gərək ana qulluğunda dayanam,
Gecə gərək yatam, tez də oyanam,

Durub tezdən çapım atı dörd yana,
Sevgi tanrı, tanrı sevgi olanmaz.

Bu andaca bir səs gəldi meşədən,
Silkələndi qız səsini eşidən,
Bu qız harda, bu ağlarca səs nədən,
Sevgi tanrı, tanrı sevgi olanmaz.

***

Qurdər gəldi, Devqalanın yanına,
Susqun evin olayları çox olur.
Dedi:- Kimdir ağlar - ağlar qışqıran,
Susqun evin olayları çox olur.

Biri çıxır, buynuz yeri cığ vurub,
Gəlib onun qabağında dik durur,
Sağ əlilə üç - üç, beş - beş, ox qırır,
Hərdən vurur öz döşünə, döş yarır,
Susqun evin olayları çox olur.

Kələzdənir dilli-dinməz heyvərə,
Qorxu-ürkü gəlir sanki Qurdərə,
Atır-tutur qaş-gözünü boş yerə,
Susqun evin olayları çox olur.

Qurdər deyir o, döşünü gərmişə,
Deyir:-Səni mən Altyerdə görmüşəm,
Qılınc balta, ox payını vermişəm.
Gəl bir daha duraq burda döş-döşə,
Susqun evin olayları çox olur.

Qurdər çəkib topbuzunu oynadır.
Vurur onun baş-gözünü qanadır,
Deyir, kimdir ağlar, qızdır, anadır,
Susqun evin olayları çox olur.

Seta vurur heyveräni arxadan,
O yıxılıb yerdə yatır qorxudan,
O səs gəlir yenə arxa daxmadan,
Susqun evin olayları çox olur.

-Mən Sonayam, sevgilisi Turparın,
Mindiyardır mənim doğma diyarım.
Alpis məni oğurlayıb gecəykən,
O Altyerə çəkib məni aparır,

Susqun evin olayları çox olur.

***

Qurdər açır əl-qolunu Sonanın,
Yazıq olur çox yiyəsiz gözəllər.
Sona deyir:- Alpis gəlir yenə də.
Yazıq olur çox yiyəsiz gözəllər.

Turpar öldü,. mən də ölləm, basar tək.
Gözlərimdə qaraldı yer, gül - çiçək,
Turpar yoxsa bu yaşamaq nə demək,
Yazıq olur çox yiyəsiz gözəllər.

Alpis deyir, sənin üzün gözəldir,
Səndən gərək Şiş tanrısı düzəldim,
Mən gəzirdim səni, Sona, yüz ildir,
Yazıq olur çox yiyəsiz gözəllər.

Mən yığaram nə var, nə yox gücümü,
Qancıllardan allam qanlı öcümü,
Verrəm igid Turparıma borcumu.
Yazıq olur çox yiyəsiz gözəllər.

Dedi:-Bil ki, Daryaş ölüb nə vaxtdır,
Sona dedi:-Ölməyibdir, o sağdır,
O Altyerdə tanrılara qonaqdır,
O doğrusu yarım ölü sayaqdır.
O Alpisə, Alpis ona dayaqdır,
Yazıq olur çox yiyəsiz gözəllər.

Qurdər dedi:- ölər bir də, iki də,
Ta dirilməz, yaşamağı tərgidər,
Öz yoluna düşər ölçü- biçidə,
Bu qılıncım boş başları bərkidər,
Yazıq olur çox yiyəsiz gözəllər.

Yola düşdü Qurdər getdi Çinelə,
Dedi:- Ordan çıxmayıbdir Turq hələ,
Gəlsə, onla mən verərəm əl-ələ,
Gərək adam qırılmasın bir belə,
Yazıq olur çox yiyəsiz gözəllər.

***

Sona getdi Qurdər ilə Çinelə,
Tanrı hər şey verib igid qızlara.
-Bundan sonra yaraqlıyam mən –dedi,
Tanrı hər şey verib igid qızlara.

Onlar keçdi neçə eli, diyarı,
Sona öydü igid ölən Turparı,
Yolda aldı, geydi kişi paltarı,
Tanrı hər şey verib igid qızlara.

Tunc toxunma döşlük, dizlik, cılısqa,
Göynək gendir, çəkmə dardır, darısqal,
Başda dəmir dəbilqəsi asılqan,
Tanrı hər şey verib igid qızlara.

Baxıb dəmir yal-yarağa, paltara,
Dedi:- Daha mən Sona yox, Turparam,
Üz sapsarı, geyim isə qapqara,
Tanrı hər şey verib igid qızlara.

Seta baxdı:- Belə olar qız - dedi,
Qız toplumu olmalıyıq biz- dedi,
Nə dedisə bu qız bir-bir düz- dedi,
Tanrı hər şey verib igid qızlara.

Qurdər dedi:- Qızlar, susun, dayanın,
Döyüş gedir arxasında qayanın,
Yolun üstü, baxın, qana boyanıb,
Tanrı hər şey verib igid qızlara.

Tələsirlər, yetişirlər oraya,
Qulaq asıb qışqırığa, haraya,
Görürlər ki, quldur dolub buraya,
Yük çaparaq qaçır ora-buraya,
Qılınc çəkib yeriyirlər araya,
Tanrı hər şey verib igid qızlara.
Qurdər vurub quldurları birbəbir,
Üç qulduru bir andaca gəbərdir,
Budur, buğda, pambıq yükü ayda bir,
Qarayağsa tuluqlarda ildə bir,
Çinə, Hində, Qobuçölə yol gedir,
Tanrı hər şey verib igid qızlara.

***

Bu andaca qurd ulayır meşədə,
Tük qabardır, qan titrədir ulartı.
Qurdağıza tanış gəlir qurd səsi,
Tük qabardır, qan titrədir ulartı.

Şimşəkatın kişnərtisi dalınca,

Bu səs yolu, dağı-daşı alınca,
Turq görünür, o əl atır qılınca,
Qurd görünür yorğun, arğın, yarımcan,
Tük qabardır, qan titrədir ulartı.

Öz oğlunu görüb cumur ana qurd,
Gözlərini ağlar yumur ana qurd,
Eşir yeri, qumu, şumu ana qurd,
Tük qabardır, qan titrədir ulartı.

O, Qurdərə, Qurdər ona dırmaşır,
Ana, bala bir-birinə sarmaşır,
Sevgili tək, doğmalar tək, yalaşır.
Tük qabardır, qan titrədir ulartı.

Turqu görüb hamı susur, dinməyir,
Ana-bala ayrılığı sönməyir,
Turq dayanmır, öz yolundan dönməyir,
Tük qabardır, qan titrədir ulartı.

Turq söyləyir:- Gəzdim dağı, aranı,
Gördüm qızı, əri, Qurdu, Qaplanı,
Gördüm yanğı baxışını qabanın,
Gördüm ölməz doğruluğu, yalanı,
Gördüm burda bir daha süd anamı.
Dilli, dilsiz bir sevgidən yaranıb,
Tanrım, belə gözəl elə hər yanı.
Qoy sevişsin bunca doğma, yabanı,
Altyerdən də götür olan - qalanı,
Tük qabardır, qan titrədir ulartı.

Mən də gedim öz yerimdə dayanım,
Üztutuma, işığına boyanım,
Tük qabardır, qan titrədir ulartı.

***

Göydə birdən qanad gərdi qızıl quş,
Yenə harda nələr olub görəsən.
Göydən enib o qıy vurdu iki yol,
Yenə harda nələr olub görəsən.

Ağlar bulud, niyə belə dolubsan?
Yenə harda nələr olub görəsən,
Yoxsa qucər, Turq qayıdıb Qobuya,
Yenə harda nələr olub görəsən.

Daş boşqabda, Gümüş qabda adınız,
«Minel» deyib Mindiyarda artdınız,
Arxanızca toplumları dartdınız,
Tunclaşdınız, daşlaşdınız, qartdınız,
Yenə harda nələr olub görəsən.

Uçur göydə quş, yönəlir doğuya,
Yer qalmayır daha yersiz sorğuya,
Dörd at dönür çapan, uçan qırğıya,
Yenə harda nələr olub görəsən.

Şimşəkatsa yoldan yola sıçrayır,
Dağlıqlarda qısa yollar arayır,
Yel tək çapır, meşələri darayır,
Yenə harda nələr olub görəsən.

Çapır, uçur Turq Qurdərlə elbəel,
Ur görünür öndə, bir də Duzlugöl,
Burda qana bələnibdir aran çöl,
Yenə harda nələr olub görəsən.
Duzdağ-duzgöl dağılıbdır, var deyil,
Ur vergi də verməyirdi əlli il.
Tanrı burda olmaqdaydı ilbəil,
Yastı dağın ətəkləri o yerdir,
Ura Sıdır meşələri çəpərdir,
Ancaq hər yan burda tutqun təhərdir,
O Mindiyar içrə qoruq şəhərdir.
O yaylaqdır Əkbitənə sipərdir,
Ur el deyil çəpər içrə şəhərdir,
Yenə harda nələr olub görəsən.

Yerəsmədən burda uçqun, aşınma,
Qol-qıç, baş-göz əski ilə sarılma,
Ordan bura, burdan ora daşınma,
Burda daha nələr olub görəsən.

Aralanıb yer ikiyə, Ur batıb,
Yeri dağa, dağı yerə kim qatıb,
Ev-eşiyi sürütdəyib yel atıb,
Burda daha nələr olub görəsən.

Düzlügölün ortasından dağ çıxıb,
Su qırağı nə olubsa o, yıxıb,
Deyən tanrı tanrılıqda darıxıb,
Tanrı sanki acıqlanıb, karıxıb,

Deyən tanrı doluxsunub, doluxub,
Yenigisoyun qan öcündən soluxub,
Bölgəmisin dinc yurduna od yaxıb,
Burda daha nələr olub görəsən.

Öc alıbdır Şamxat sevgi tanrısı,
Şamxat idi orda şan - şan oğrusu,
Öc Bölgəmis üstündəydi doğrusu,
Görən keçib qızın sevgi ağrısı,
Burda daha nələr olub görəsən.

***

Bir səs gəldi göydən, Turqu səslədi,
Nə səs gəlsə göydən tanrı səsidir.
-Bil, ölməzik istəyirdi Bölgəmis,
Nə səs gəlsə göydən tanrı səsidir.

Orda neçə yarıadam uluydu,
Yol azmışlar, qaçqınlarla doluydu,
Min il başçı, Turqun Düzər qoluydu,
Yol, varlanıb başçılaşmaq yoluydu,
Var, varlanmaq istəkləri yoluydu,
Nə səs gəlsə göydən tanrı səsidir.

Odur gör-gör düşünüşdü Ur ilə.
Yıxdı onu, sürütdədi yer ilə,
Yaxdı birdən şimşək ilə, qor ilə,
Barışmadı o soyğunçu var ilə,
Nə səs gəlsə göydən tanrı səsidir.

Dəyişildi Fərat çayın yatağı,
Batdı-seldə Urun otu, alağı,
Qopdu, aşdı onun evi, dayağı,
Qopdu Urdan urçuların ayağı,
Nə səs gəlsə göydən tanrı səsidir.

Odərpaya de ki, varı pisləsin,
Tanrıların buyruğunu gözləsin,
O Sərtüzün qoy yolunu izləsin,
Nə səs gəlsə göydən tanrı səsidir.

Dedi:- Turqta, tikin Uru qaldırın,
Yeni, yeni yerdə yurdlar saldırın,
Ürəkləri yaxşlıqla doldurun,

Nə səs gəlsə göydən tanrı səsidir.

Dedi:- Özün otur burda, başçı ol,
Hər bir yolda qoy başlasın yaxşı yol,
Qur, tik, yarat, Alpislərdən sən öc al,
Nə səs gəlsə göydən tanrı səsidir.
Göndər getsin Parsdiyara Qurdəri,
Addım-addım gəz hər yurdu, hər yeri,
Yaşat, işlət sən yaradan əlləri,
Nə səs gəlsə göydən tanrı səsidir.

***

İllər keçdi, Urellilər yoruldu,
İllər keçdi, Ur yenidən quruldu,
Yaşlı gözlər işıqlandı, duruldu,
Alpis gəldi, baxdı, susdu, saraldı,
Gözlərində Üstyer, Altyer daraldı,
Öz - özündən küsdü, yenə, qırıldı.
Nə səs gəlsə göydən tanrı səsidir.

Turqa dedi:- « -Sən tanrısan doğrudan,
Mindiyardır qat-qat artır uğurdan,
Gəl, sən onu çıxart yola cığırdan,
Gəl, qurtarım səni çala-çuxurdan,
Üstyerdəki bu qıtlıqdan, yağmurdan,
Hər inamdan, hər alçaqdan, dılqırdan,
Ay Turq ata sən tanrısan doğrudan,
Gəl qurtaraq yer üzünü ağrıdan,
Gəl biz qovaq tanrılıqdan Hormuzu,
Nə səs gəlsə göydən tanrı səsidir.

Turq söylədi:- Alpis, yenə gəlibsən,
Sən Üstyeri yenə Altyer bilibsən,
Yaranışı iki yerə bölübsən,
Sən neçə yol bu Üstyerdə ölübsən,
Yaxşılığa ağlar-ağlar gülübsən,
Içindəki öcü öclə silibsən,
Nə səs gəlsə göydən tanrı səsidir.

Mən yaradan, sən dağıdan, döş-döşə,
Gəl, adam ol, gəl qarışma hər işə,
Gəl toxunma yerə, yurda, örüşə,
Get sənsiz də bu dolanış ötüşər,
Nə səs gəlsə göydən tanrı səsidir.
Mindiyara gəlmə daha, ay yazıq,
Burda qurub yaradaraq biz varıq,

Sənsiz dincdir bu yaranış, bu varlıq,
Nə səs gəlsə göydən tanrı səsidir.

Mən andımda yarıtanrı qalıram,
Buyuruğu mən Hormuzdan alıram,
Əyriləri doğru yola salıram,
Yaranışa mən Turq ata oluram,
Nə səs gəlsə göydən tanrı səsidir.

Alpis qaldı gözü yaşlı, utancaq,
Çiyni sallaq, beli bükük yoxsayaq,
Getdi tutqun, yolu əyri, yuvarlaq,
O tapmadı heç bir yerdə tutacaq,
Nə səs gəlsə göydən tanrı səsidir.

Uryer söyləncі

Oturmuşdu, düşünürdü Turq ata,
Elə bağlan, yarıtanrı olsan da.
«Mən baş evdən çox aralı düşmüçəm,
Elə bağlan, yarıtanrı olsan da».

«Tunqər Alpan, Ağüz, Qobu, Əkbitən,
Elçiçəkdən on il ayrı mən, nədən,
Gedib görüm öz oğlumu mən hərdən,
Ya köçürüm cumərləri bura mən,
Gəlmir daha çox iş mənim əlimdən,
Topuq vurur hərdən-birdən dilim də,
Elə bağlan, yarıtanrı olsan da».

Saldım tanrı çığırına Uryeri,
Qoy çağırım bura gəlsin Tunqəri,
Çox əlləşdim, yoxdur burda dəyərim,
Bağlan elə, yarıtanrı olsan da.

Bu an girdi evə gözəl bir qadın,
Şamxat idi bu gözəlin soy adı,
Tanrı necə belə gözəl yaradıb,
Sanki onu süd - qaymaqdan yaradıb,
Saçı, gözü qaradan da qap-qatı,
Bağlan elə, yarıtanrı olsan da.

Dedi:- Turqər, çox əlləşdin burada,
Sən ayırdın burda ağı qaradan,
Gəlib sənə, mən baxırdım arada,

Doğmalaşıb bu Uryeri yaradan,
Bağlan elə, yarıtanrı olsan da.

Mən də sevgi tanrısıyam Mineldə,
Hələ tanrı olacağam min il də,
Səni sevdim mən ürəkdən, könüldən,
Bağlan elə, yarı tanrı olsanda.

Bölgəmisin Ulusoyu Qızağdır.
Bu soy yalan, yalançıdan uzaqdır,
Ulu Qızağ əyriliyə yasaqdı,
Bölgəmistək, Yengisoytək qoçaqdı,
Bağlan elə, yarıtanrı olsan da.

Tanrılarla onlar yola getmədi,
Bizə qarşı acıqları ötmədi,
Varla, bolluq istəkləri bitmədi,
Bağlan elə, yarıtanrı olsan da.

Tanrı Ura acıqlandı, qabardı,
Geri aldı Urda yaxşı nə vardı,
Yertitrəmə Uru uddu, apardı,
Bağlan elə, yarıtanrı olsan da.

Bir yol onda Uryer belə dağılıb,
Düzər gəlib, Ur yenidən doğulub,
Bura tanrı olmayanlar yığılıb,
Düzərliyə çapqınçılar soxulub,
Bağlan elə, yarı tanrı olsanda.
Ölməz olmaq istəyirdi Düzər də.
Getdi onu axtarmağa o yerdə.
Düzər batdı, qaldı elə o yerdə,
Bağlan elə, yarıtanrı olsan da.

Yüz il oğlu Turqoğul da baş oldu,
Çox işlərdə atasıtək boş oldu,
Mənə qarşı üzü, könlü daş oldu,
Çoxu çıxdı, getdi burdan, quş oldu,
Bağlan elə, yarı tanrı olsanda.

Oğlu Urər məni görüb vuruldu,
Hər gün mənə yalvarmaqdan yoruldu,
Çox döyüşdə başı, döşü yarıldı,
Acıq etdi, o Ureldən qırıldı.
Getdi sanki öz kökündən ayrıldı,

Sonda gedib o təkliyə sarıldı.

Tək yaşadı, qaldı, günü qaraldı,
Indi onun yerinc yeri Uraldı,
Bax beləcə Ur kiçildi, saraldı,
Bağlan elə, yarıtanrı olsan da.

***

Turqər dedi:- Şamxat, göylər gözəli,
Düz adamlar çox da gözə soxulmaz.
Anan Anni Minelliyə anadır,
Düz adamlar çox da gözə soxulmaz.

Düzər ölməz olmaq üçün sarsılıb,
Bölgəmis də ölməzlikdən asılıb,
Bu adlarsa Daş boşqabda qazılıb,
Mindiyarın keçmişinə yazılıb,
Düz adamlar çox da gözə soxulmaz.

Sözlərində yalan çoxdur, doğru yox,
Uru Alpis dağıtmışdır, tanrı yox,
Sevgində də lağ-lağı var, ağrı yox,
Düz adamlar çox da gözə soxulmaz.
Sənin sevgin, qızım, elə çoxalıb,
Tanrı səni tanrılıqdan çıxarıb,
Sən düşübsən, sevgi qalxıb yuxarı,
Çox sevibsən, səndə sevgi yoxalıb,
Düz adamlar çox da gözə soxulmaz.

Utanaraq Şamxat birdən ağladı,
Əllərilə üz-gözünü bağladı,
O Turqəri sanki bir də yoxladı,
Düz adamlar çox da gözə soxulmaz.

Dedi:-Ata, kimsəsizəm indi mən,
Hormoz qovub məni tanrı yerimdən,
Atalıq et mənə, böyük ata, sən,
Yardım elə, yapış mənim əlimdən,
Düz adamlar çox da gözə soxulmaz.

Turqər dedi:- Sən gözəlsən, mayasan,
Sən biçilmiş otdan bağlı tayasan,
Düz ol, olsan elə- yurda arxasan,
Yoxsa indi başdan-başa boyasan,
Üzdən boya, ürəkdənsə sayasan,

Gərək gedib üz-gözünü yuyasan,
Elə-yurda bunca gərək olasan,
Düz adamlar çox da gözə soxulmaz.

Anni bilsin, inanıram sənə mən,
Tapşırıram, get Urəri tapginən,
Sən özünü qoru həm də Alpisdən,
O qancildir, qandır, ondan çəkin sən,
Düz adamlar çox da gözə soxulmaz.

O qız gəzir, dönsün onun ərinə,
Qoysun onu Qızçiçəyin yerinə,
Qız çevrilsin pis tanrının birinə,
O Altyerdə dönsün bir əl kirinə,
Onla gəzə, onla qoşa görünə,
Düz adamlar çox da gözə soxulmaz.
Şamxat yenə bərk ağladı, sevindi,
Qız ürəyi onun bərk-bərk döyündü,
İlk aldığı tapşırıqla öyündü,
Getdi ipək geyimini soyundu,
Bezdən alt, üst əski paltar geyindi,
Düz adamlar çox da gözə soxulmaz.

Qayıdanda gördü, Turqun çörəyi,
Çörək üstə qalıb yarı yeməyi,
Ona birdən pıçıldadı ürəyi,
«Bu Şanşanı əz, səp, yatırt yeməyə,
Qoy bilmədən Turqər yesin yeməyi,
Ondan alım qoy min-min il ölməyi,
Ölməz olsun qoy bu ellər gərəyi,
Nə gözəldir mənə «qızım» deməyi,
Ona belə pıçıldadı ürəyi,
Düz adamlar çox da gözə soxulmaz.

Gəldi, dedi:- Mən gözələm bu sayaq,
Mən nə idim, bir boyalı yapalaq,
Bölgəmisdən oğurlayıb qaparaq,
Gizlətdiyim şan-şan qalır, o ancaq,
Turqər ata, ancaq sənin olacaq,
Düz adamlar çox da gözə soxulmaz.

Ye şan-şannı, sən ölməz ol, qal belə,
Minellilərlə yaşayarsan sən hələ,
Alpis baxar, acığından lap ölər,
Üst, Altyerdə öz yerini o bilər,

Düz adamlar çox da gözə soxulmaz.

Turqər dedi:- Ölməzlikdə ölərəm,
Mən istəsəm çox çox qala bilərəm,
Mən tanrımla öz gücümü bölərəm,
Yarıtanrı günlərimi dilərəm,
Düz adamlar çox da gözə soxulmaz.

Şan-şan qalsın, ancaq ölməz olma sən,
Onun bunun artığına qalma sən,
Ölməz olub ölməzlikdə solma sən,
Ölməzlikdən bezib-bezib dolma sən,
Ölüm üçün haray-həşir salma sən,
Düz adamlar çox da gözə soxulmaz.

Atma, qızım, o şan-şanı ortaya,
Onu yeyən çox qocalar, qarıyar,
Gövdə dönər suluq-yoluq yaraya
Onda kimdir gəlib səni arayan,
Onda kimdir qaçıb gələn haraya,
Mən qocayam, ancaq yarıtanrıyam,
Gərək elin hər işinə yarayam,
Düz adamlar çox da gözə soxulmaz.

Mən görmüşəm bir tək qartmış ölməzi,
Qarışıbdır bir-birinə hər üzü,
Təngə gəlib yaşamaqdan o özü,
Ölmək üçün o yalvarır lap düzü,
Düz adamlar çox da gözə soxulmaz.

Hamı, hər şey ölüb gedir, bu, düzdür,
Təkcə tanrı ölmür, bizə o gözdür,
Hər bir şeydən o üstündür, o üstdür,
Düz adamlar çox da gözə soxulmaz.

Sən də elə yaşa, yarat maraqla,
Ək, biç yeri hər gün xışla, oraqla,
Şanşanların üstündən keç, ayaqla,
Yaxınlıq et, bağlan odla, ocaqla,
Yoxsulları, yazıqları sorağla,
Düz adamlar çox da gözə soxulmaz.

Şamxat dedi:- Mən gedirəm, izin ver,
Yaxınlıqla qoy ucalsın Uruyer,
Gedim tapım, görüm Urər nə deyir,

Düz adamlar çox da gözə soxulmaz.

***

Gecə- Turqər səs eşitdi uzaqdan,
Ana südü kimi olur ilıq söz.
Bu Şamxatın anasının səsiydi,
Ana südü kimi olur ilıq söz.

«- Turq, qızımı ata kimi dindirdin,
Onu uzaq uzaqlara göndəribsən,
Sən tanrını göz yaşına döndərdin,
Ana südü kimi olur ilıq söz.

Mənim qızım sözə qulaq asmadı,
Tanrıların qabağında susmadı,
Sevdi, onu qorxu-ürkü basmadı,
Sevdi, ancaq düz yolunu azmadı,
Ana südü kimi olur ilıq söz.

Qız balamı tapşırıram sənə mən,
Onu qoru yerli-yersiz sevgidən,
Öcə dönür sevgisində o hərdən,
Tanrılara inamını çoxalt sən,
Hər iş üçün o çıxmasın özündən,
Ana südü kimi olur ilıq söz.

Mindiyarın mənəm ana tanrısı,
Mənəm böyük dolanışın qapısı,
Mənəm böyük tanrımızın qarısı,
Mənəm böyük tanrılığın yarısı,
Tanrı sözü görüm səni qorusun,
Ana südü kimi olur ilıq söz.

Onu da bil, Turqər, ölməz olubsan,
Sən ox batmaz, ağrı bilməz olubsan,
Sən tanrıdan ölməz adı alıbsan,
Sən düz yoldan geri dönməz olubsan,
Ana südü kimi olur ilıq söz.

Turq söylədi:- Ana tanrı sağ olsun,
Təki sevən qızlarımız çox olsun,
Yolu üstən Alpis, İblis yox olsun,
Sevginin də gərək gözü tox olsun,
Ana südü kimi olur ilıq söz.

Hələ çox var ölməzliyə çatım mən,

Yaxşı olar lapdan ölüm, yatım mən,
Tanrıların işığına batım mən,
Ana südü kimi olur ilıq söz.

***

Şamxat minir sarı yala, çaparaq,
Uzaq yola dözüm gərək, at gərək.
Qarlı dağlar göz ağardır Şamxata,
Uzaq yola dözüm gərək, at gərək.

Deyir:- Atım, məni çatdır Urərə,
Döş gər, baş çək dağa, düzə hər yerə,
Gərək bu gün sevgilimi mən görəm,
Acıq edib, küsüb məndən on kərə,
Mən Şamxatam, öz sevgimə yetərəm,
Ya da uca dağlar içrə itərəm,
Uzaq yola dözüm gərək, at gərək.

Deyir:- Atım, yelə dönən Sarıyal,
Qarlı dağlar zirvəsinə çat, ucal,
Çapaq, ötək cığırları dalbadal,
Uzaq yola dözüm gərək, at gərək.

Deyir:- Mənə, tanrı ana, yardım et,
Qabaqdakı qarlı buzu sən ərit,
Həm anasan, həm tanrısan, güc yerit,
Ur ölməyib, ölsə onu sən dirilt,
Uzaq yola dözüm gərək, at gərək.

Şamxat beş gün yol arayır, yol gedir,
Dağlar içrə cığır itir, yol itir,
Çörək bitir, arpa, saman, ot bitir,
Neçə dağı, aşırımı at ötür,
Ağır yola dözüm gərək, at gərək.

Dağda onlar qalın qara batırlar,
Çıxmaq üçün çox-çox əl-qol atırlar,
Bütün gecə qar quyuda yatırlar.
Ağır yola dözüm gərək, at gərək.

Üçüncü gün bir səs gəlir, qurd səs,
Qurd quyuya girmək üçün tələsir,
Qarı eşir gizlənməkçün hərəsi,
Birdən uçur qar quyunun çevrəsi,

Ağır yola dözüm gərək, at gərək.

Ağqurd qarı yavaş yavaş deşirdi,
Qat-qat qazıb o aşağı düşürdü,
Qar şəpəsi qar üstünə aşırdı,
Şamxat bundan çəkinərək şaşırdı.
Ağır yola dözüm gərək, at gərək.

Qurd elə bil lap acından ölürdü,
Qarı eşib dayanmadan dəlirdi,
Bu quyuda nə olduğun bilirdi,
Ağır yola dözüm gərək, at gərək.

Qar uçuldu, durdu onlar üz-üzə,
Sarıyalla, Şamxat, Ağqurd göz-gözə,
Döndü çovğun, ağ qar sanki gündüzə.
Ağır yola dözüm gərək, at gərək.

Ayaqları üzərinə qalxdı Qurd,
Şamxat qıza lap yaxından baxdı Qurd,
Gördüyündən diksinərək qorxdu Qurd,
Ağır yola dözüm gərək, at gərək.
Qurd dilləndi, dilə gəldi o birdən,
Dedi:- Şamxat, qara batan bu sənsən,
İzləyirdim çovğun içrə sizi mən,
Nəsə duyub gözləyirdim düzü mən,
Ağır yola dözüm gərək, at gərək.

Mən Urərəm burda başbaş olmuşam,
Tək sevgimlə burda yuva salmışam,
Qayalarda, meşələrdə qalmışam,
Ağır yola dözüm gərək, at gərək.

Şamxat birdən çığıraraq yıxıldı,
Üstündəki göy mıncıqlar dağıldı,
Əl-ayağa düşüb sanki boğuldu,
Dil tutuldu, döşü, başı sıxıldı,
Ağır yola dözüm gərək, at gərək.

Handan-hana, ayılaraq qız dedi,
-Niyə belə ayrı düşdük biz, dedi,
Bu nə gündür, nə yöndəmdir, qız dedi,
Heç bilmədən ona ağır söz dedi,
Sarıyalı çıxar burdan tez, dedi,
Ağır yola dözüm gərək, at gərək.

Onlar qalxıb qar quyudan çıxdılar,
Bir-birinə doyuncalıq baxdılar,
Qucaqlaşıb döşü-döşə sıxdılar,
Ağır yola dözüm gərək, at gərək.
***
-Mən çovğunda qurd dərisi geyirəm,
Tanınarsan öncə üzlə, geyimlə.
Bu geyimdə adam qurda oxşayır,
Tanınarsan öncə üzlə, geyimlə.

Turq atanı gözləyirdim dolayda,
O demişdi, «gələcəyəm bu yayda»,
Sizi gördüm bu çovğunda, bu hayda,
Tanınarsan öncə üzlə, geyimlə.
Alpis bizi yaşamağa qoymayır,
Çox qan-qada salır burda, doymayır,
O, Hormozu, Turqu, Tunqu saymayır,
Dev kimdir, yalvar-yaxar duymayır.
Tanışarsan öncə üzlə, geyimlə.

Təkcə Turqdan o çəkinir bir azca,
O baş əyir Turqa, Şimşəkqılınca,
Üstyer, Altyer, olub ona oyuncaq,
Sanki onun əlindədir hər açar,
Düşərlikdən ölür çox gənc, çox qoca,
Heç bilmirik ondan necə biz qaçaq,
Tanınarsan öncə üzlə, geyimlə.

Sizi gördüm, gedirdiniz bu qarda,
Dedim, bunlar gəlir hansı diyardan,
Qoy çıxarım qızı-dedim-bu dardan,
Yol azıbdır, aran harda, dağ harda,
Tanışarsan öncə üzlə, geyimlə.

Sonra gördüm sənsən, sevgi tanrısı,
Mənə qarşı qancıl sevgi qurusu,
Gördüyümə inanmıram, doğrusu,
Üzümdədir o günlərin sarısı,
Ölüb gedib ilk sevgimin yarısı,
Tanınarsan öncə üzlə, geyimlə.

Necə sənə «sevgim» dedim, ağladım,
Kimsəyə yox, sənə könül bağladım,
Sənsə mənim ürəyimi dağladın,

On il məni daldalarda yoxladın,
Harda gördün ürəyimi oxladın,
Mən sarsıldım, öz sevgimdə dığladım,
Tanınarsan öncə üzlə, geyimlə.

Şamxat dedi:- yaxşı, yaxşı, deyinmə.
Gəldiyimə çox da elə sevinmə,
Keçmiş uşaq sevgin ilə öyünmə,
Apar məni tanış elə evinlə.
Tanınarsan öncə üzlə, geyimlə.

Gedək, mənim yaylaq evim yaxındır,
Neçə gündür dağıdıcı çovğundur,
Özün incik, atın isə yorğundur,
Baxışların sərtdir, yenə yayqındır,
Gözlər soyuq oynaq, incik, vurğundur,
Tanınarsan öncə üzlə, geyimlə.
***
Yaylaq evi sanki qarda batmışdı,
Çovğunda da susmur sevgi, gileylik.
Sevgililər oturublar üz-üzə,
Çovğunda da susmur sevgi, gileylik.

-Sənin üstə tanrılıqdan qovuldum,
-İndi, Şamxat, öz yerinə qoyuldun,
-Sənin üstə adım Urda yayıldı,
-Mən də sevdim, ancaq çox gec ayıldım,
Çovğunda da susmur sevgi, gileylik.

-Gərək ordan qaçmayaydın acıqlı,
-Ordan çıxdım acıqlı yox, yanıqlı,
-Sən acıqda, mən sevgidə qılıqlı,
-Sən soyuqsan, mən də belə sayıqlı,
Çovğunda da susmur sevgi, gileylik.

-İndi nədir, məndən acıq çıxırsan,
-Danışırıq, niyə belə qorxursan,
-Mənə niyə yazıq yazıq baxırsan,
-Heçdən mənə tez-tez qara yaxırsan,
Çovğunda da susmur sevgi, gileylik.

-Yaxşı, qızma, sözlərini dəyişmə.

-Qan qoxuyur sevgi üstə deyişmək,
-Yox olaydı görüm belə sevişmək,
-Sevgidəndir ağırlaşmaq, döyüşmək,
-Sonu birdir, qucaqlaşmaq öpüşmək,
Çovğunda da susmur sevgi, gileylik.

***

Çovğun ötür, at kişnəyir, gün çıxır,
Deyişməkdən sonra gəlir barışıq.
Urər Şamxat qucaqlaşıb öpüşür,
Deyişməkdən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

At kişnəyir, dəyir ata şillağı,
Görüb sanki o görünməz qonağı,
Dırnağıyla eşir tez-tez torpağı,
Ürküb qaçır hərdən başı aşağı,
Urər durur, qapır oxu, bıçağı,
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

Urər deyir:- bu, Alpisdir, gəlibdir,
Sənin bura gəldiyini bilibdir,
Onun tanrı Qızçiçəyi ölübdür,
Sevgisinə yetişmədən solubdur,
Qızçiçəyin yeri bom - boş qalıbdır,
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

Gəlib səni dilə tutsun, aparsın,
Qabağına lapdan qatsın, aparsın,
Öz tərkinə alıb atsın, aparsın,
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

-Onun gücü mənə çatmaz bilir o,
Aparmağa səni, bil ki, gəlib o,
Mənim üçün yalvar-yaxar ölür o,
Öldürməyə çox qızları alır o,
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

Görünmədən Alpis deyir, ucadan,
Nə görübsüz yarıtanrı qocada,

Getdim onu iki böldüm qılçadan,
Yatdıraram sizi bu dar komada,
Öc alaram sizdən, qapı-bacadan,
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

Urər dedi:- Alpis, burdan uzaqlaş,
Get Altyerdə tanrılarla ayaqlaş.
Get qıtlıqla, quraqlıqla qucaqlaş.
O pisdikli tanrılarla yataqlaş,
Hey verənlə sən ağızlaş, qulaqlaş,
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

Görünmədən Alpis dedi yavaşdan,
Mən deyirəm sizə elə bu başdan,
Bir şey çıxmaz didişmədən, tutaşdan,
Əl çəkmərəm bu qızdakı göz-qaşdan,
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

Şamxat tutur qılıncını qabağa,
Əl gəzdirir hər qapıya, bucağa,
Sonra deyir o görünməz qonağa,
-Mən getmərəm sənin kimi sarsağa.
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

Bir heyvərə çıxır birdən ortaya,
O bənzəyir yeyib yatan buğaya,
Gəlib burda sürü, ilxı otdaya,
Şamxat deyir:- Devdir, girib obaya,
Çala gözü bənzər yanan Sobaya,
Onun canı buynuzunda yerləşir,
Buynuzundan vur qılıncı qabaya,
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

Urər vurur, iki buynuz tökülür,
Yerə gəlir, qarnı, döşü sökülür,
Alpis qorxub, durub qaçır, əkilir,
Birdən göydən qorxu, ürkü çəkilir,
Deyişmədən sonra gəlir barışıq.
Barışıqdan sonra gəlir deyişmək.

***

Şamxat deyir:- Urər, böyük igidsən,
Igid sevmək hər bir qızın borcudur.
Buğa inaq tanrısıydı, gəbərdi,
İgid sevmək hər bir qızın borcudur.

Urər deyir:- Burdan gedək Urelə,
Ordan qaçan burda dönüb bir elə,
Burda Urel yaranmışdır, bax, belə.
İgid sevmək hər bir qızın borcudur.

Şamxat deyir:- Bunu Turqa yetirək,
Alpisləri vuraq, yıxaq, itirək,
Siz sevgidən gərək arta bitirək,
Düşərliyi kəsib burdan götürək,
İgid sevmək hər bir qızın borcudur.

Şamxat deyir:- Qabaqdadır iş hələ,
Ana tanrı, bizə bollu güc dilə,
Tanrı kimi biz də sevək, sevilək,
İgid sevmək hər bir qızın borcudur.
Şamxat verir Sarıyalı Urərə,
Üz tuturlar yaşıl oymaq çöllərə,
Çapıb atı döş gərirlər yellərə,
Baş çəkirlər obalara, ellərə,
Əl tuturlar işdən qabar əllərə,
İgid sevmək hər bir qızın borcudur.

Yoxdur burda çovğun, qıtlıq, quraqlıq,
Yoxdur burda itim-itim uzaqlıq,
Yoxdur burda hələ yaraq, yaraqlı,
Hamı burda əli belli, çomaqlı,
İgid sevmək hər bir qızın borcudur.

Məndə bir az Şanşan qalıb, al, qoçaq,
Onu yeyən ölməz olub qalacaq,
Dolanışa qoca yaşıd olacaq,
İgid sevmək hər bir qızın borcudur.

Şamxat verir onu,- Ura, - al- deyir,
Ancaq baxır görür Şanşan əriyib,
Çoxdan qalıb ağ yaylıqda çürüyüb,
Ancaq iyi el-obanı bürüyür,
Kim iyləyir, iç acığı əriyir,
Içdə, çöldə pislik nə var, kürüyür,

İgid sevmək hər bir qızın borcudur.

Urər deyir:- Bunu belə qoruyaq,
Yaxşı pisi göstərməyə yarayar,
İksir olar o düşərsə haraya,
Vuruşanda ərlər, girər araya,
Biz haraya Şanşan bizlə oraya,
Vuruş olsa o da durar sıraya,
Bunun üçün onu gərək qoruyaq,
İgid sevmək hər bir qızın borcudur.

***

Dalğalanır ağ başraqlar Ureldə,
Haradasan, kimsən, eli unutma.
Şamxat bir-bir çox evlərə baş çəkir,
Haradasan, kimsən, eli unutma.
Səs yayılır dağlar boyu Elata,
Hamı gəlir baxır gözəl Şamxata,
Sarıyala burda çətin at çata,
Haradasan, kimsən, eli unutma.

Urər dedi:- Gəlin gəlib bu göyçək,
Bu gəlini bərk qoruyaq biz gərək,
Toxunmasın ona çovğun, qar, külək,
Bu gəlinlə bir oynayaq, bir gülək,
Haradasan, kimsən, eli unutma.

Sorağ çatdı Əkbitənə, Uryerə,
Oradan da Odərpaya, Tunq ərə,
Şamxat qızın igidliyi hər yerə,
Haradasan, kimsən, eli unutma.

Çıxdı üzə bu yerin də gilinci,
Artdı yerinc seçilməyin sevinci,
Dedilər ki, dəyərlidir hər inçi,
Bu Urelin Urər olsun yerinci,
Urər bizim içimizdə birinci,
Urər işdə, gücdə öncül, görümcül.
Haradasan, kimsən, eli unutma.

Ancaq bir qız gendən baxır acıqlı,
Alnı, başı, boynu ipək sarıqlı,
Mal otarır patavalı, çarıqlı,
Haradasan, kimsən, eli unutma.

-Mən Dümağam. Sürüləri otaran,

Pislikləri – burdan qovub qaytaran,
Mal-qaranı çovğunlardan qurtaran,
Yazda otam, qışda ilıq qar, boran,
Haradasan, kimsən, eli unutma.

Yerinc olmaq güclü olmaq deməkdir,
Acıqana qılınc vurmaq gərəkdir,
Yerinc işdə sarsılmayan ürəkdir,
Haradasan, kimsən, eli unutma.
Yerinc öncə gərək mənlə güləşsin,
Gücü, çəmi, qıvraqlığı, bəlləşsin,
Yerinc öncə gərək ellə elləşsin,
Dilli olsun, acıqanla dilləşsin,
Haradasan, kimsən, eli unutma.

Urər deyir:- Qız, gücünlə az öyün,
Güləşərəm mən sənlə lap bu gün,
Hardan gəlib bu yekə baş ərköyün,
Görən görür mən güclüyəm, sən ölgün,
Haradasan, kimsən, eli unutma.

Şamxat deyir:- Dümağ qızıdır, sən oğlan,
Qoy güləşim mən onunla üç-beş an,
Üzə çıxsın bu gün burda düz, yalan,
Haradasan, kimsən, eli unutma.

***

Dümağ lapdan süpürləyir Şamxatı,
Hər bir işdə ilk başlayan udacaq.
Adı Dümağ, işdə qıvraq, özü sağ,
Hər bir işdə ilk başlayan udacaq.

Şamxat deyir:- Dayan, gəlim özümə,
Yaralıyam, dəymə mənim dizimə,
Bir də elə baxma tez-tez gözümə,
Bax, əl atma sən saçıma, üzümə,
Hər bir işdə ilk başlayan udacaq.

Dümağ dedi:- Niyə bura gəlmisən,
Sən Urəri pərsəng daşı bilmisən,
Tanrılıqdan sonra bil ki, ölübsən,
Hər bir işdə ilk başlayan udacaq.

Sən sevginlə neçə oğul qırıbsan,
İndi gəlib burda sevgi qurubsan,
Gəlib mənlə sən üz-üzə durubsan,

Hər bir işdə ilk başlayan udacaq.
Sən gəlmisən buraları pozasan,
Qaş - göz ilə güclüləri basasan,
Öz əlinlə bizə sonev qazasan,
Hər bir işdə ilk başlayan udacaq.

Bunu deyib baxdı Ura gözaltı,
O qaldırdı başı üstə Şamxatı,
Birdən ona yaxınlaşdı qaraltı,
Qulağına dəydi sanki «Turq» adı,
Hər bir işdə ilk başlayan udacaq.

Qoydu yerə o Şamxatı yavaşca,
Çəkildilər yana iki dalaşqan,
Gücdə, Adda o başqaydı, bu başqa,
Hər bir işdə ilk başlayan udacaq.

Dedi Şamxat, mən sevirəm Urəri,
Bundan sonra bu Urərdən dur bəri,
Hər gözəlin öz yolu var, öz yeri,
Tanrılıqdan sonra yoxdur dəyərin,
Hər bir işdə ilk başlayan udacaq.

Urər dedi:- Mən yerincəm, sən çoban,
Yerinc seçə gərək ağı qaradan,
Burda basar vecə gəlməz, güc yalan,
Sən özündən çox deyirsən, çox yaman,
Hər bir işdə ilk başlayan udacaq.

Dümağ dedi:- Qoy elimiz ayılsın,
Bundan sonra yerinc güclü ər olsun,
Kim güclüdür burda yerinc sayılsın,
Güclü olsa qız da yerinc qoyulsun,
Hər bir işdə ilk başlayan udacaq.

Hamı dedi:- Qoy güləşsin Ur, Dümağ,
Basar olan burda yarinc olacaq,
Yığışılsın üz görənlik, dəf - daraq,
Hər bir işdə ilk başlayan udacaq.
Dümağ qıvraq qol-qıçını yoxladı,
Döş-başını qayım-qayım bağladı,
Süpürlədi Urəri o bir anda,
Başı üstə qaldıraraq saxladı,
Hər bir işdə ilk başlayan udacaq.

Dedi:- Baxın, məndən uca durur o,
Yerinclikdə yarı mənəm, yarı o,
Ucalıqda yerinc yeri qurur o,
Mənlə birgə pislikləri qırar o,
Qancılların sırasını yarır o,
Hər bir işdə ilk başlayan olacaq.

Hamı dedi, düzdür, uca durar o,
Yerinclikdə yarı Dümağ, yarı o,
Dümağ ilə pisdiklini qırar o,
Qancılların sırasını yarar o,
Hər bir işdə ilk başlayan olacaq.

***

Bir qaraltı gəlib burdan sürüşdü,
Ölənlərin iç üzüdür qaraltı.
Dümağ dedi:- Kimsən, qardaş, nəçisən,
Ölənlərin iç üzüdür qaraltı.

Çoxu qorxdu, öz evinə çəkildi,
Birdən göydə qara bulud söküldü.
Birdən göydən yağış, dolu töküldü,
Qaraltı da yox olaraq əkildi,
Ölənlərin iç üzüdür qaraltı.

Turq göründü, Şimşəkqılınc, Şimşəkat,
Əl-ayağa düşdü sanki yurd, elat,
Keç atlının qabağına, a Şamxat,
Ölənlərin iç üzüdür qaraltı.

Ancaq Şamxat tapılmadı, harada,
Basılan qız qaçıb çıxıb aradan,
Qalıb təkcə Dümağ, Urər sırada,
Ölənlərin iç üzüdür qaraltı.

***

Turqər dedi:- O qaraltı Alpisdir,
Qorun, gizli qaraltıdan, kölgədən.
Alpis gözə kölgə kimi görünür,
Qorun, gizli qaraltıdan, kölgədən.

O Şamxatı hərləyirdi, güdürdü,
Hər bir yerdə dörd yanından ötürdü,
Gah görünür, gah da gözdən itirdin,
Harda Şamxat, o da orda bitirdi,
Qorun, gizli qaraltıdan, kölgədən.

Dedilər ki, Şamxat yoxdur, itibdir,
O, Alpisə qoşulubdur, gedibdir,
Turq atadan üz-gözünü örtübdür,
Qorun, gizli qaraltıdan, kölgədən.

Urər tutdu aşağıya başını,
Uçurtmuşdu sanki könül quşunu,
Utanrıdı, görməyirdi qarşını,
Qorun, gizli qaraltıdan, kölgədən.

Turq söylədi:- Urər, belə sıxılma,
Bundan sonra hər güləşdə yıxılma,
Sən yay kimi çəkilərək, yığılma,
Basılsan da sən udqunma, boğulma,
Qorun, gizli qaraltıdan, kölgədən.

Mən görürdüm lap uzaqdan güləşi,
Güləşənlər güclənərək elləşir,
Bir-birilə kələzdənib dilləşir,
Qorun, gizli qaraltıdan, kölgədən.

Mənə qalsa, burda yerinc cüt olar,
Yerincyanı yardımçılar dörd olar,
Onda Urel yaxşı elat, yurd olar,
Burda qıtlıq özü dönüb qıt olar,
Qorun, gizli qaraltıdan, kölgədən.
Dümağ, Urər yerinc oldu Urelə,
Barışdılar burda verib əl-ələ,
Bir yerincdən, iki yerinc çox bilər,
Qorun, gizli qaraltıdan, kölgədən.

Turq söylədi:- gəzin, tapın Şamxatı,
Minin, çapın onun Sarıyal atın,
Qoymayın ki, gəzsin burda qaraltı,
Hər gün, hər il tikin yurdu, Elatı,
Qorun, gizli qaraltıdan, kölgədən.

Mən gedirəm Alpis ilə vuruşa,
Şamxat üstə çətin onla barışam,
Vuruşmasam Altyer, Üstyer, qarışar,
Anni məndən öz qızını soruşar,
Qorun, gizli qaraltıdan, kölgədən.

Dümağ dedi:- Apar məni özünlə,
Mən çıxmaram böyük ata sözündən,

Mən güclüyəm vuruşmada, dözümdə,
Qaça bilməz Alpis mənim gözümdən,
Şamxatı da mən taparam izindən,
Qorun, gizli qaraltıdan, kölgədən.

Urər dedi:- Apar məni özünlə,
Mən çıxmaram böyük Turqun sözündən,
Mən güclüyəm vuruşmada, dözümdə,
Şamxatı da mən taparam izindən,
Qaça bilməz Alpis mənim gözümdən,
Qorun, gizli qaraltıdan, kölgədən.

Qurdər bildi, sağollaşdı anayla,
Yola düşdü Turq dalınca Sonayla,
Getdi o da sağollaşdı Setayla,
Qorun, gizli qaraltıdan, kölgədən.

Parsdiyarı o tapşırdı Buzərə,
Buzər çökdü üz tutaraq göylərə,
Düz olmağa o and içdi üç kərə,
Bu söz, bu iş getdi çatdı çox yerə,
Qorun, gizli qaraltıdan, kölgədən.

Təkcə gedib o, Şamxata çatmadı,
O yurdunu, anasını tapmadı,
Bu, Alpisin ürəyinə yatmadı,
Alpis onu tanrılara qatmadı,
Onun işi bununla da artmadı,
Qorun, gizli qaraltıdan, kölgədən.

Qızçiçəktək ipə sardı Şamxatı,
Şamxat oldu Üstyer üçün qaraltı,
O bir ayda heyva kimi saraldı,
Altyer, Üstyer gözlərində qaraldı,
Dörd yanını dəniz aldı, qar aldı,
Yanağını şimşək vurdu, qor aldı,
Ürəyində «ana» sözü daraldı,
Qorun, gizli qaraltıdan, kölgədən.

***

Dedi:- Ana, mən Şamxatam, dardayam,
Belə gündən ölmək daha yaxşıdır.
Alpis məni dara çəkib Altyerdə,
Belə gündən ölmək daha yaxşıdır.

Sən tanrıya lap yaxınsan, ana sən,
Qurtar məni, çıxart məni Altyerdən,
Atım, sevgim, könlüm qalıb Urərdə,
Belə gündən ölmək daha yaxşıdır.

Mən tanrıydım, indi adam olmuşam,
Adam içrə yarım yalan olmuşam,
Oğurlanıb qapan-qapan olmuşam,
Belə gündən ölmək daha yaxşıdır.

Eşidildi anasının harayı:
“Altyer tərsdir, ora gücüm çatmayır,
Alpis daşdır, ona söz-möz batmayır,
Üstyer artır, Altyer, Alpis artmayır,
Buna görə ora gücüm çatmayır,
Belə gündən ölmək daha yaxşıdır.

Turq Ur, Dümağ, sənə yardım gələcək,
Qurdər, Sona göz yaşını siləcək,
Böyük tanrı bu işləri biləcək,
Qan-qan deyən çox tanrılar öləcək,
Belə gündən ölmək daha yaxşıdır.

Ey Mindiyar sevgisinin tanrısı,
Minellinin sevincinin yarısı.
Bulaqların çox sulusu, durusu,
Sevgilərin ən ötgəmi, dirisi,
Döz bir az da, ol dözümün tanrısı,
Belə gündən ölmək daha yaxşıdır”

Şamxat susdu, xısın-xısın ağladı,
Külək əsdi, çay, göl, bulaq çağladı,
Altyer sanki lap dibindən laxladı.
Sanki tanrı gəldi, qızı yoxladı,
Dedi:- «Bundan ölmək daha yaxşıdır.

Dedi: «- Qızım, sevimli ol, düz yaşa,
Tanrılığa qayıt bir də, yüz yaşa,
Tanrı oldun, ərə getmə, qız yaşa,
Sevgidə də tanrı olmaq yaxşıdır».

***

Turq Altyerin yollarını bilirdi,
Elə yol var adam qorxur, at ürkür.

Ot basmışdı Qızçiçəyin sonevin,
Elə yol var adam çaşır, at ürkür.

Güllər solub, daşlar aşıb tökülüb,
Şamxat orda oturmuşdu bükülü,
Üstyer, Altyer yolu bir-bir sökülüb,
Yoxdur bircə daxma, koma, tikili,
Elə yer var adam çaşır, at ürkür.

Dedi:- Şamxat, niyə belə dolubsan,
Niyə belə arıxlayıb solubsan,
Sən Alpisə sanki tutuq olubsan,
Elə yer var adam çaşır, at ürkür.

Şamxat dedi:- «Ata, yaman qurtardım,
Tanrı mənə tanrılığı qaytardı,
Bu Altyerdə yoxsa, itib batardım,
Elə yer var adam çaşır, at ürkür.

Qurdər gəldi, Sona, Seta yan-yana,
Səs yayıldı çölə, dağa, ormana,
Birdən Şamxat döndü qatı dumana,
O yox oldu, yayılaraq dörd yana,
Elə yer var adam çaşır, at ürkür.

Hamı qaçıb lap yaxına gəldilər,
Baş tanrının soy gücünü bildilər,
O gün Alpis, İblis üç yol öldülər,
Elə yer var adam çaşır, at ürkür.

***

Bir domba göz gəldi, şişman, dodaqsız,
Göz güzgüdür, nə var səndə göstərir.
Durub Turqa göz - qaşım oynadır,
Göz güzgüdür, nə var səndə göstərir.

Dedi: «- Alpis gözəl bir qız seçibdir,
Mən o qızı axtararm, qaçıbdır,
Bir quş olub o Altyerdən uçubdur,
Sizdən bizə, bizdən sizə köçübdür,
Bunca o qız yeni bir yol açıbdır,
Göz güzgüdür, nə var səndə göstərir.
Dümağ dedi:- O qız mənəm, gəzmə çox,
Oynaş olub qaş-gözünü süzmə çox,

Diş qıcıdıb ürəyimi üzmə çox,
Göz güzgüdür, nə var səndə göstərir.

Dümağ üstə cumdu birdən dombagöz,
Hopbanaraq durdu onla üzbəüz,
Dümağ dedi:- Sən nəçisən, dələduz,
Qamarladı yıxdı onu düpbədüz,
Göz güzgüdür, nə var səndə göstərir.

Osa dedi: «- Mən yıxılmaq bilmərəm,
Yıxılsam da ipə-sapa gəlmərəm,
Mən öskürərək, tanrısıyam, ölmərəm,
Göz güzgüdür, nə var səndə göstərir.

Durdu, qaçdı, çatar-çatmaz Altyerə,
Dönüb güldü o Turqərə, Qurdərə,
Gülüş səsi düşdü bərkdən Üstyerə,
Göz güzgüdür, nə var səndə göstərir.

Bir ox atdı Qurdər, dəydi boynuna,
Aşdı, torpaq aldı onu qoynuna,
Tüstüləndi, döndü yoğun oduna,
Çatdı o da pis yolunun sonuna,
Göz güzgüdür, nə var səndə göstərir.

Yol gələnlər ağıyeri qurdular,
Qızçiçəyin başı üstə durdular,
Bir gecəlik orda çadır vurdular,
Göz güzgüdür, nə var səndə göstərir

***

Hamı qaçır sanki yanğı sevgidən,
Sevgidəki sonsuz qorxu, ürküdən,
Yaranışdan, doğuluşdan, itgidən,
Ancaq yoxdur sevgisini tərgidən,
Göz güzgüdür, nə var səndə göstərir.
Sevgi eli yerə, yurda bağlayır,
Üstyeri də, Altyeri də, saxlayır.
Sevgidəndir adam gülür, ağlayır.
Sevgi yazıq ürəkləri oxlayır,
Göz güzgüdür, nə var səndə göstərir.

Bir yol sevir hər kəs uşaq olanda,
Bir də uşaqlıqdan uzaq olanda,
Sevgi küsür evə dayaq olanda,

Küsür ona beş gün qonaq olanda,
Bir də üzdə çox-çox boyaq olanda,
Göz güzgüdür, nə var səndə göstərir.

Sevgi qalır, kim yerini düz seçir,
Ö özünə oğlan seçir, qız seçir,
Böyük sevgi yalanlardan vaz keçir,
O sınaqdan, çətinlikdən az keçir,
O tanrıya, öz-özünə and içir,
Göz güzgüdür, nə var səndə göstərir.

***

Urər, tanrı sevgisində itibdir,
İlk sevgisi Şamxat qaçıb gedibdir,
Tanrı yaşı onun deyən ötübdür,
Sevgi qalıb, ancaq görüş bitibdir,
Dümağ indi istəyinə yetibdir,
Göz güzgüdür, nə var səndə göstərir.

Qurdər isə sevgi nədir, dadmayıb,
O zirvəyə gənc şah hələ çatmayıb,
Sevgidəki üzüntüyə batmayıb,
Bal yesə də balı bala qatmayıb,
Göz güzgüdür, nə var səndə göstərir.

Tanrım, çörək, bir də sevgi çox olsun,
Sevgi alıb satanlarsa yox olsun,
Sevənlərlə-sevimlilər sıx olsun,
Sevgidə ac, tamahlıqda tox olsun,
Sevgisində, dözümündə dağ olsun,
Göz güzgüdür, nə var səndə göstərir.
Tanrım, böyük Ürərə də sevgi ver,
Sevgi yurdu olsun gərək Qobuyer,
Tanrıların yurdu olsun qoy Urel,
Yenə artsın qoy Mindiyar, qoy Minel,
Göz güzgüdür, nə var səndə göstərir.

XXIX QAPI. Turqla Alpis vuruşu söyləncі

Birdən ürkdü, şıllaq atdı Şimşəkat,
Kölgə kimi gəlir hərdən acıqan.
Turq qışqırdı:- Ahay, Alpis yaxın gəl!
Kölgə kimi gəlir hərdən acıqan.

Bu an günün, parlaq üzü tutuldu,
Buludların buz qaşları çatıldı,

Alpis gəldi, ortalıqa atıldı,
Kölgə kimi gəlir hərdən acıqan.
Dedi: «Turqər, sən qapıma gəlibsən,
Sən özünü, yazıq, ölməz bilibsən,
Sən mənimçün, ölməz, çoxdan ölübsən,
Kölgə kimi gəlir hərdən acıqan.

Şamxat sənə şanşan verib yeməkdə,
Sanki səni qurtarıbdır ölməkdən,
Indi nədir suçun bura gəlməkdən,
Yaranışı iki yerə bölməkdən,
Son ev üstə yeyib içib gülməkdən,
Kölgə kimi gəlir hərdən acıqan.

-Ölməzliyi mənə tanrı veribdir,
O Turqərin kimliyini görübdür,
Şamxat bizim aramıza giribdir,
Kölgə kimi gəlir hərdən acıqan.

-Mənəm böyük yertitrəmə, suəsmə,
Mən səni də əsdirərəm, tələsmə,
Nəyə gərk bu gileylik, bu küsmək.
Gizlin gəlib bu qapıda yol kəsmək,
Kölgə kimi gəlir hərdən acıqan.
-Mən gəlmişdim Şamxat qızı qurtarım,
Gəlməmişdim yaşıma yaş artırım.
Ölməz olum, ad-sanımı itirim,
Kölgə kimi gəlir hərdən acıqan.

Sən ölməzsən, sənin min-min yaşın var,
Səndən gəlir, qasırğalar çovğunlar,
Nələr çəkib səndən Minel, Mindiyar,
Kölgə kimi gəlir hərdən acıqan.

Mən ağlaram sənin qara gününə.
Pis tanrısan qılınc batmır gönünə,
Ölməzlikdən, tanrılıqdan kimə nə,
Dolaşdırdın, bizi saldın düyünə.
Yandırırsan uzununa, eninə,
Kölgə kimi gəlir hərdən acıqan.

Şimşəkatla Şimşəkquyruq döş-döşə,
Az qalır ki, dırnaqlaşa, didişə.
Biri lütdür, biri batıb gümüşə,
At da qanır, qulaq asır söyüşə.

Kim girəcək görən öncə döyüşə,
Bulud durub, göz dikibdir gedişə,
Kölgə kimi gəlir hərdən acıqan.

Alpis göydən od ələyir, qar tökür.
Şimşəkatsa dırnağıyla yer sökür,
Tanrı göydən ölməzlərə göz dikir,
Damlar, yollar, çaylar göllər səf çəkib,
Ölməz Ərlər yerə ölüm, qan əkir,
Kölgə kimi gəlir hərdən acıqan.

Qılınc göydə şütüyərək oynayır,
Qanla gözlər, öclər qızıb qaynayır,
Qan sıçrayır, bulud döşü qanayır,
Atın başı, döşü qana boyanır,
Kölgə kimi gəlir hərdən acıqan.
Qor, qar göydə bir-birini udurlar,
Şaha qalxıb atlar əl-qol atırlar.
Bir-birini Ərlər oxa tutular,
Eşib yeri atlar yerə batırlar,
Kölgə kimi gəlir hərdən acıqan.

Turqər deyir:- Qamarlaram gövdəni,
Tutdum, daha buraxmaram mən səni,
Alpis Turqa tez-tez şimşək ötürür,
Əli- qolu Turqun suluq götürür,
Alpisin də üz-gözü şiş götürür,
Kölgə kimi gəlir hərdən acıqan.

Heç görünməz Alpis birdən görünür,
Yerə yatıb o uzanır, sürünür,
Yerdə ikən od alova bürünür,
Kölgə kimi gəlir hərdən acıqan.

Turqər vurur, qılınc ilə doğrayır.
Sürütdəyib tikə-tikə darayır,
O yox olur, Turqər onu arayır,
O görünməz kişnəyərək ulayır,
Sonra durub Turqa quyruq, bulayır,
İtə dönür, Turqu tez-tez yalayır,
Kölgə kimi gəlir hərdən acıqan.

Tökülüşüb gəlir dibdən qırıqlar,
Gözdən, başdan, döşdən çapıq çapıqlar,
Üstyer, Altyer qarqışından qopuqlar,

Ana-bala olmaq üçün yanıqlar,
Əyri-üyrü, içdən, çöldən sınıqlar,
Kölgə kimi gəlir hərdən acıqan.

Ancaq onlar ölüşgəyib bükülüb,
Baş-qulaqdan, əl-ayaqdan tökülü,
Turqu görüb bir-bir ordan çəkilir,
Kölgə kimi gəlir hərdən acıqan.

Yelkənqanad Qızıl quş söyləncі

Qurdər görür göydə Qartal millənir,
Nə var görür yelkənqanad, qızıl quş.
Dedi:- Qartal gəlib yenə, Turq ata,
Nə var görür yelkənqanad, qızıl quş.

Birdən yerə yuvarlanıb enir o,
Şimşəkatın yalmanına qonur o,
Turq anlayan quş dilində dinir o.
Nə var görür yelkənqanad, qızıl quş.

Gah qıy vurur, gah şığıyır, tələsir,
Deyir: «-Öndə zolaq-zolaq yol kəsib»,
Qırıq-qırıq olub batır quş səsi,
Qalxır göyə tutur yolu kölgəsi,
Nə var görür yelkənqanad, qızıl quş.

Turq tanıyır zolaq-zolaq Qaplanı.
Qaya üstə yuva salıb dayanıb,
Tutur çayla o yoldakı aranı,
Nə var görür yelkənqanad, qızıl quş.

Gedib, gedib ora gəlib çatırlar,
Qayaların arxasında yatırlar,
O Qaplana birdən beş ox atırlar,
Nə var görür yelkənqanad, qızıl quş.

Qaplan gəlir, daşdan-daşa sıçrayır,
Ox atanı kol-kol, yer-yer arayır,
Caynağıyla kolluqları darayır.
Qalxır göyə nəriltisi, harayı,
Nə var görür yelkənqanad, qızıl quş.

Qurdər çıxır qabağına Qaplanın,
Qaplan onun üzərinə tullanır,
Quş onların başı üstə dolanır,

Nə var görür yelkənqanad, qızıl quş.
Qaplan kəsir yaraqlının yolunu,
Qamarlayıb, gəmiritdəyir qolunu,
Qan boyayır onun qalın yalını,
Gəmirtdəyir nə var sağı, solunu,
Nə var görür yelkənqanad, qızıl quş.

Qartal birdən yumalanır aşağı,
Vurur onun bir gözünü çıxarır,
Birdən qalxıb o, millənir yuxarı.
Nə var görür yelkənqanad, qızıl quş.

Turq söyləyir:- Dəli olub bu nədən,
Bu Qaplanın balası var deyəsən,
Gəl dəyişək yolumuzu bu yerdən,
Nə var görür yelkənqanad, qızıl quş.

Yol dəyişib başqa yola gedirlər,
Sıx-sıx qalın meşələrdə itirlər,
Çayı, gölü, kolluqları ötürlər,
Nə var görür yelkənqanad, qızıl quş.

Xallı Qaplan çıxır birdən qabağa,
Turq əl atır lapdan iti yarağa,
O xallını sıxışdırır bucağa,
Vurun, deyir, Qaplan dönsün yumağa,
Bu Alpisdir, dönüb xallı sayağa,
Ona dəyən oxlar dönsün darağa,
Nə var görür yelkənqanad, qızıl quş.

Alpis qaçır, duman bulud çəkilir.
Dağ dalında al dan yeri sökülür,
Gümüş şehlər damla-damla tökülür,
Nə var görür yelkənqanad, qızıl quş.

Göydə Qartal, yerdə yorğun atlılar.
Üç güm gedib bir komaya çatdılar,
Yorğun qızlar oturdular, yatdılar,
Şirin-şirin yuxulara batdılar,
Nə var görür yelkənqanad, qızıl quş.
Oturaraq bir daş üstə Turq ata,
Düşünürdü «Alpis bir də qayıdar,
Gərək gecə nə göz yumam, nə yatam,
Nə var görür yelkənqanad, qızıl quş.

***

Uzaq-uzaq, dərin-dərin meşələr,
Nə gözəldir, nə ağırdır dolanış.
Yaşıl-yaşıl, sərin-sərin meşələr,
Nə gözəldir, nə ağırdır dolanış.

Ey şellənən oynaq, sallaq yarpaqlar,
Yarpağını günə verən budaqlar,
Gecə-gündüz mahnı deyən bulaqlar,
Ey sürüşgən yarğanlarla, ovuqlar,
Göm-göy otlar, otdan uzun alaqlar,
Ovluqlarda geniş-geniş oylaqlar,
Nə gözəldir, nə ağırdır dolanış.

Ey buludlar, hara belə gedirsiz,
Gah görünür, gah da gözdən itirsiz,
Uca dağlar zirvəsindən ötürsüz,
Siz harada dincəlirsiz, yatırsız,
Əskilmədən elə qat-qat artırsız,
Hamı yerə, hamı yurda çatırsız,
Nə gözəldir, nə ağırdır dolanış.

Göydə ulduz saysız–soysuz sayrışır,
Gecə olcaq ayla, günlə qarışır,
Dağ buludla, bulud dağla qarmaşır,
Üç yol küsür, dörd yol gündə barışır,
Birə olub ulduz yerə daraşır,
Yer-göy, göy-yer bir-birinə yaraşır,
Nə gözəldir, nə ağırdır dolanış.

Böyük tanrı, niyə bizi yaratdın,
Gülər üzlə günümüzü qaraltdın,
İli, ayı, günü, yaşı daraltdın,
Sevməyən heç, sevənləri saraltdın,
Nə gözəldir, nə ağırdır dolanış.
Böyük tanrı, gileyliyim böyükdür,
Mən sağlamam, döşüm sökük – sökükdür,
Gözüm də var, göz deyildir, dəlikdir,
Küsüm odla alovlanan körükdür,
Udduğumuz, yediyimiz köpükdür,
Çatmaq olmur yaranışa, yürükdür,
Əlimizdə yaraq deyil, çəlikdir,
Nə gözəldir, nə ağırdır dolanış.

Buzər söyləncі

Boş görmüşdü Buzər şahlıq yerini,
Dolu gözlər hər gün boş yer axtarır.
Çulğamışdı onu şahlıq istəyi,
Dolu gözlər hər gün boş yer axtarar.

O gecələr el-obaya çıxırdı,
Toplumuna yaraqlılar yığırdı,
Gəlməyəni öldürürdü, boğurdu,
Dolu gözlər hər gün boş yer axtarır.

Deyirdi ki, Daryaş işi aşırıb,
O ölərkəni, işi mənə tapşırıb,
Ölkə batıb, it-pişik də qapışır,
Hamı acdır, öz-özüylə qarpışır,
Evlər, yurdlar bir-birilə çarpışır.
Dolu gözlər hər gün boş yer axtarır.

Deyir, indi girəvədir, yığışaq,
Hamı birgə yeincyerə axışaq,
Birləşərək bir yumruğa sığışaq,
Qurdər ilə, Tunqər ilə boğuşaq,
Biz son qoyaq gileyliyə, qarqışa,
Qurdər ilə qılınclaşıb toqquşaq,
Dolu gözlər hər gün boş yer axtarır.

Çoxu onu qovur, saya salmayır,
Dediyini heç vecinə almayır.
Bunca toplum takım-takım dolmayır,
Dolu gözlər hər gün boş yer axtarır.
Yekta deyir:- Qurdər yaxşı oğlandır.
Ona qarşı duran itdir, qabandır,
Sənin sözün, dediklərin yalandır,
Beş ildir ki, dincəlmişik, amandır,
Dolu gözlər hər gün boş yer axtarır.

Dota deyir:- Buzər, əl çək bu işdən,
Sən bu qancıl işlərinə girişmə,
Çox çəkmişik yersiz deyiş-döyüşdən,
Qurtarmışıq qanlı-qanlı döyüşdən,
Dolu gözlər hər gün boş yer axtarır.

Deyir, Buzər, sən Turparı öldürdün,
Anasını sən didərgin saldırdın,
Bu ölkəni sən özünə güldürdün,
Dolu gözlər hər gün boş yer axtarır.

Buzər dönüb şəlitləyir onları,
Bacıların qanlı üzü sapsarı.
Tutuq kimi yerincliyə aparır.
Ələ alsın deyə şahdan diyarı,
Yola düzür yaraqlını, çaparı,
Dolu gözlər hər gün boş yer axtarır.

Buzər deyir:- Əkbitəni tutaram,
Mindiyarı Parsdiyara qataram,
Yoxsulluğun dağarçığın ataram,
Bacıları tutuq kimi sataram,
Dolu gözlər hər gün boş yer axtarır.

Başev susur, qorxur Tunqər Alpandan,
Çevrilişi alqışlayır yalandan,
Çoxu qaçır, daxmalanır ormanda,
Üz döndərir ondan, olan- qalanda,
İri gözlər hər gün boş yer axtarır.

İki bacı şəlitlidir dustaqda,
Yaş gözləri yollardadır, sorağda.
Eşələnib ağlayırlar bucaqda,
İri gözlər hər gün boş yer axtarır.

Yekta deyir:- Gəl aldadaq Buzəri,
Biz barışaq onun ilə küsəri,
Yardım edək ona üzdə ötəri,
Sonra qaçaq, aşaq yolu, çəpəri,
Gedək gəzək yurd-yurd tapaq Qurdəri,
Yada gedək başa salaq Tunqəri,
İri gözlər hər gün boş yer axtarır.

Bir yaraqlı, neçə yerdən yaralı,
Bacılara yardım edir qapalı,
Qollarından açır ipi, qandalı,
İri gözlər hər gün boş yer axtarır.

Iki bacı dustaqlıqdan qaçırlar,
Əkbitənə qoğru qanad açırlar,
Ata minib yolda quştək uçurlar,
İri gözlər hər gün boş yer axtarır.

Gecə qaçıb ora, bura girirlər,

Yolda Tunqun toplumunu görürlər,
Olanlardan şaha sorağ verirlər,
İri gözlər hər gün boş yer axtarır.

Tunq dəyişir Üra gedən yolunu,
Qamarlayır ağ Çilçilin yalını,
Yara-yara dağın buzlu yelini,
İki günə keçir kolluq çölünü,
Parsdiyara o çatdırır əlini,
İri gözlər hər gün boş yer axtarır.

Buzər çıxır qabağına Tunqərin,
O qaldırır şaha qarşı hər yeri,
Çomaq ilə yaraqlanmış Ərləri,
Özü durur topumundan az bəri,
Qorxusundan əsir onun əlləri,
İri gözlər hər gün boş yer axtarır.

***

Tunq düşündü, Çilçilatı qovaraq,
Böyük işi hər ötənə tapşırma.
Yenə gedib, hara gedib bu Qurdər.
Böyük işi hər ötənə tapşırma.

Özbaşına olub Qurdər, cayıbdır,
Parsdiyarı başbaşına qoyubdur,
Nə şahlığı, nə də məni sayıbdır.
Görünür o öz işindən doyubdur,
Böyük işi hər ötənə tapşırma.

Buzər bilir, deyən yerinc işini,
O da bizə qıcıdıbdır dişini,
Yoxdur deyən ölçü-biçi arşını,
O Qurdərdən yaxşı görür qarşını,
Böyük işi hər ötənə tapşırma.

Mən Buzəri burda yerinc qoyaram,
Parsdiyarı şahlıq yeri sayaram,
Bu acığı Darvidilə yayaram.
Vuruşdurram, qanı qanla yuyaram,
Böyük işi hər ötənə tapşırma.

Düşünürdü Tunqər Alpan, bax belə,
«Bacıları yerinc qoysam Parselə,
Onda hamı ipə-sapa tez gələr»,
Böyük işi hər ötənə tapşırma.

Birdən Buzər çıxdı Tunqun önünə,
Saldı onu üç tərəfdən düyünə.
Ovçuları bir-bir «neynim» gölünə,
Böyük işi hər ötənə tapşırma.
Tunq Buzəri ata kimi yanladı.
Öyüd verdi, ara-sıra danladı.
Buzər susdu, sanki Tunqu anladı.
Böyük işi hər ötənə tapşırma.

Dedi:- Gedim, yerinc qoyum səni mən,
Bir iş gəlmir Qurdər şahın əlindən,
İşləyərsən yerinc kimi bir az sən,
Danışarsan Qurdər şahın dilindən,
Böyük işi hər ötənə tapşırma.

Buzər dedi:- İndi elə şaham mən,
Hər bir iş də gəlir mənim əlimdən,
Danışıram mən Parselin dilindən,
Yaxşı olar, öz yerinə qayıt sən,
Böyük işi hər ötənə tapşırma.

Cumub lapdan Tunqər qılınc sıyırdı,
Vurdu, Buzər qoyun kimi böyürdü,
Lomba-lomba o qan qusdu, gəyirdi,
Böyük işi hər ötənə tapşırma.

At götürüb onu çapdı Parselə,
Yaralandı yaraqlısı yüz belə,
Yerdə qalan Tunqla verdi əl-ələ,
Ovçularla üz qoydular Parselə.
Böyük işi hər ötənə tapşırma.

Başev çıxıb qarşıladı Tunqəri,
Dedilər ki, yox Buzərin dəyəri,
Şah olanmaz, yoxdur gücü, təpəri,
Böyük işi hər ötənə tapşırma.

Tunqər dedi:- Şahlıq yerinc sayılsın,
İki bacı burda yerinc qoyulsun,
Qoy bir daha Parsellilər ayılsın.
Yerincliyi hər ötənə tapşırma.
Ağsaqqallar dedi:- Yardım edərik,
Bacıların dediyilə gedərik,
Əkibitənin sayın- soyun güdərik,

Yerincliyi hər gələnə tapşırma.

Tunqər dedi:- Buzərləri itirin,
Bacıları yerincliyə gətirin,
Şah adını Parsdiyardan götürün,
Çevrilişi, çağırışı bitirin,
Yerincliyi hər ötənə tapşırma.

Balaşq olsun Parsdiyarda başbaşı,
Qaratel də onun ilə yanaşı,
Döyüş, vuruş çəmi ona yaraşır,
Qancıllarla o ürəkdən çarpışır,
Yerincliyi hər gələnə tapşırma.

Geyindirib gətirdilər qızları,
Qızarmışdı, gülər idi üzləri,
Yerinclikdə belə oldu sözləri,
Yerincliyi hər gələnə tapşırma.

-Biz bacılar and içirik Tunqərə,
Mindiyarla birgə girrik çəpərə,
Qurunc olluq, yardım olluq ellərə,
«Minel» deyib səs salarıq hər yerə,
Yerincliyi hər gələnə tapşırma.

***

Tunqər dedi:- Parsellilər, eşidin,
On ildən bir gərək başçı dəyişsin.
Hər gələnə inanmayın, uymayın,
On ildən bir gərək başçı dəyişsin.

Çoxdandır ki, siz Hindeldən gəlibsiz,
Mindiyarda yer ayırıb bölübsüz,
Siz Hindeli ürəyizdən silibsiz,
Mindiyarı öz ölkəniz bilibsiz,
Bu ölkədə yaşayıbsız, ölübsüz,
Öncə gəlmə, indi diyar olubsuz,
On ildən bir gərək başçı dəyişsin.

Keçmişlərim sizə qulluq ediblər,
Gününüzü yarı bolluq ediblər,
Bacardıqca çoxu çoxluq ediblər,
Sizlə birlik, yaxın sıxlıq ediblər,
On ildən bir gərək başçı dəyişsin.

Siz də bizə arxaydınız hər işdə,
Əkin-biçin işlərində, döyüşdə,
Çox görmüşük yardım, tanış-bilişdən,
Öpüşmüşük, toyda, yasda, görüşdə,
Ancaq indi utanırıq hamımız,
Gözlənilməz çevrilişdən, dönüşdən,
On ildən bir gərək başçı dəyişsin.

Biz hər şeydə birik, təkcə dil ayrı,
Bir sümükdən, bir qan, bir üz, bir tanrı,
Qoruyuruq bir ölkə, bir diyarı,
On ildən bir gərək başçı dəyişsin.

Mən dünəncə quş ovuna çıxmışdım,
Ovçuları dörd yanıma yığmışdım,
Dan yerinə çiskin yağış yağmışdı,
Kəhlik ürküb başın qara soxmuşdu,
Qar içindən sanki günəş doğmuşdu,
On ildən bir gərək başçı dəyişsin.

Kəhliksayaq gördüm iki qız qaçır.
Onlar, ilə birgə neçə quş uçur,
Quşlar içrə gizlənmişdi cüt bacı,
On ildən bir gərək başçı dəyişsin.

İndi onlar yerinc olub, şah olub,
Yerincliyi məndən onlar pay alıb,
Çox qancıllar yuxudaydı, ayılıb,
On ildən bir gərək başçı dəyişsin.
Qurdər gəlsə qoy o gəlsin Ur yerə,
Ancaq orda Qurdər qalxar, yüksələr,
Ucalmağa çox-çox ellər var hələ,
On ildən bir gərək başçı dəyişsin.

***

Yekta, Dota yerincliyə oturdu,
Adam var ki, öz- özünə inanmır.
Başlarını itirdilər sevincdən,
Adam var ki, öz- özünə inanmır.

Hərdən durub düşündülər Qurdəri,
Sevirdilər subay qalmış o nəri,
Sonrası gün yana düşdü əlləri,
Adam var ki, öz- özünə inanmır.

Dedilər ki, dəyişilib bu varlıq,
Gələr, gedib qulluğunda qalarıq,
Gələr, ondan biz buyruq alarıq,
Deyərik ki, dəyişilib şah artıq,
Sən şah olsan, biz də yerinc olarıq,
Adam var ki, öz- özünə inanmır.

Ancaq Qurdər qayıtmadı Parselə,
Göstərişlə o yollandı Uryerə,
Tunqər ona yol göstərdi son kərə,
Adam var ki, öz- özünə inanmır.

Yavaş-yavaş öyrəndilər bu işə,
Parsdiyarda Tinqər qoyan gedişə,
Üzdə dadlı sözə, dalda söyüşə,
Adam var ki, öz- özünə inanmır.

Buzər isə döndü yersiz qaçağa,
Yarasını aldı qaçdı uzağa,
Döndü təzə paltar üstə yamağa,
Öz içində açılmayan yumağa,
Adam var ki, öz- özünə inanmır.
Qurdər, Sona, Seta çatdı Uryerə,
Başçı var ki, öz- özünə inanmır.
Çox yer sökük, çoxu köçüb, adam az,
Başçı var ki, öz- özünə inanmır.

Qurdər incik, dodaq sallaq, üz sarı,
Gəzir bir-bir sökük – salxaq yolları.
Iki yandan sallaq qalıb qolları,
Başçı var ki, öz- özünə inanmır.

Seta baxıb düşgünlüyü görürdü,
O Qurdərə tez-tez öyüd verirdi,
Qabağında qulluqçutək dururdu,
Başçı var ki, öz- özünə inanmır.

Sona isə incimişdi Tunqərdən,
Söz atırdı Tunqər şaha o hərdən,
Deyirdi ki, «görüm səni öləsən»,
«Bunu deyim lap özünə gərək mən»,
Başçı var ki, öz- özünə inanmır.

Toplantı söyləncі

Əkbitənə yığıldılar qırx önər,
Düz danışıq işdə düyün açandı.
Turqər, Tunqər, Ağüz, Qurdər, Dəmirqız,
Düz danışıq işdə düyün açandı.

Danışdılar, deyişdilər birbəbir,
Elçiçəklə Yekta, Dota, Eldəbir,
Balaşq, Sanna, Sona, Muğər, Gücdəbir,
Hərə qalxıb öz yerindən söz deyir,
Danışanlar tək-tək, ancaq yüzdəbir,
Düz danışıq işdə düyün açandı.

Gəlmişdilər çox yaxınla, çox uzaq,
Danışdılar, çox acıqlı, yumuşaq,
Danışanlar, başçı, öndər, çox qonaq,
Cırmaqlaşdı varyeyliklə sərt qınaq,
Toplum, savaş, buğda, arpa, ot, otlaq,
Əkin-biçin, yağış, şaxta, çay, bulaq,
Satal, sürü, ilxı, naxır, yal-yaraq,
Yazı, oxu, ipək, göy daş, qarayağ,
Düz danışıq işdə düyün açandı.

Dedilər ki, ölkə artıb, böyükdür,
Səpələnib, el-el, bölük-bölükdür,
Çatmaq olmur, çoxu bizdən incikdir,
Parsel, Muğel Mindiyardan dönükdür,
Acıqanlar acdır, toxdan çevikdir,
Arpa, buğda çörək olmur, çürükdür,
Yollarımız eniş-yoxuş, sökükdür,
Başev uçur, çox yerləri tökükdür,
Kənddə işçi bir dəri, bir sümükdür,
Qadınların işdən beli bükükdür,
Bolluq yorğa, qıtlıq isə yürükdür,
Düz danışıq işdə düyün açandı.

Ağüz dedi:- Qocalmışam, gücüm yox,
Gövdəm vardır, pota, ancaq içim yox,
Öz başına olub çoxu, biçim yox,
Şahla yerinc üzə durur ölçü yox,
Şah qocalıb yeni şaha seçim yox,
Düz danışıq işdə düyün açandı.

Tunqər Alpan burdan çox söz anladı,
Bunca onun dağ ürəyi qanadı,
Ağüz şahı ata kimi qınadı,

Artdı onun burda şahlıq inadı,
Üç dördündən sındı uçar qanadı,
Şah olmağa neçə adı sanadı,
Düz danışıq işdə düyün açandı.

***

Sonda dedi toplantıya Turq ata,
-Gözlənilməz günü durub gözləmə.
Çıx irəli, çətinliyi qabaqla,
Gözlənilməz günü durub gözləmə.
Böyük olan adınızdan qorxmayın,
Düyün düşmüş çətinliyə baxmayın,
Ağır işdə özünüzdən çıxmayın,
Dörd yanıza xırdalığı, yığmayın,
Bulud-bulud yağış olub yağmayın,
Bacarığı, dili, sözü boğmayın,
Hər olana şimşək olub çaxmayın,
Tikin, hörün, siz ev, daxma yıxmayın,
Gözlənilməz günü durub gözləmə.

Mindiyardır Fərat, Dəclə, Buzboğaz,
O boyuyur, böyükülükdən usanmaz,
Yeniseydir, Ceyhun, Seyhun, Kür, Araz,
Çinçay vardır, Qobu çöl də var bir az,
Ölkə boyu ağ başraq var, al qotaz,
Gözlənilməz günü durub gözləmə.

Çox danışdı, öyüd verdi Turq belə,
Diyar adı verin- dedi hər elə,
Sayğı olsun hər elata, hər dilə,
Günə görə ad-san verin hər ilə,
Gözlənilməz günü durub gözləmə.

Hər söz üstə döyüş - vuruş olmasın,
Su saxlayın qıtlıq yurdu almasın,
Ürəyizdə öclə acıq qalmasın,
Gözlənilməz günü durub gözləmə.

Döyüş - vuruş tanrıları incidir,
Tanrıların könlü tükdən incədir,
Acıqan bir, yaxşı adam mincədir,
Gözlənilməz günü durub gözləmə.

Qardaş olun, bacı olun qonşuya,
Qan-qadağa qoy çıxmasın qarşıya,

Ölkə gərək acıqansız yaşaya,
Oğul odur çətin yükü daşıya,
Gözlənilməz günü durub gözləmə.
Turq ataya hamı durub baş əydi,
Gələn öydü- gedən, qalan çox öydü,
Ağüz, Tunqər onu böyük şah saydı,
Gözlənilməz günü durub gözləmə.

Dedilər ki, sözü el-el yayılsın,
Mindiyarda qoy Turq yenə şah olsun,
Dedilər ki, bir-bir saya sayılsın,
Hər bir şeyə, işə ölçü qoyulsun,
Gözlənilməz günü durub gözləmə.

Ancaq Turqər ata idi hamıya,
Baş vururdu hər ölkəyə, qapıya,
O dönmüşdü böyük yarı tanrıya.
Gözlənilməz günü durub gözləmə.

Sona və ana söyləncі

Uryer adı döndü oldu Urdiyar,
Hər şey bunca yavaş-yavaş dəyişir.
Turqər gəldi Urdiyara yenə də,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Gördü Seta, Sona bir az tutqundur,
Yanaqları qış gülü tək solğundur,
Dedi:-Qurdər, qızlar niyə dalğındır,
Dedi, qızlar arasında qırğındır,
Biri deyir, Buzər, Parsel satqındır,
Biri deyir Tunqər Alpan azğındır,
Qızlar deyən ikisi də yorğundur,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Buzər gedib oğurlayıb anamı,
İstəyirəm başa salıb Sonanı.
Getsin gizli araşdırsın hər yanı,
Mənə desin harda, necə olanı,
Vurum ona yara üstən yaranı,
Gedim tapım qancıl gözü dombanı,
Hər şey bunca yavaş-yavaş dəyişir.
Sona kişi geyimində, papaqlı,
Xurcun, çarıq, patavalı, çomaqlı,
Altdan isə qalın qıvraq yaraqlı,

Yola düşdü atla gizli maraqlı,
Qurdər getdi arxasınca yerbəyer,
Başı, boynu, üzü, köksü sarıqlı,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Sona dedi:- «buzər deyən ölübdür,
Buzər adda bir başqası gəlibdir,
Deyən yeni dəyişiklik olubdur»,
Hər şey bunca yavaş-yavaş dəyişir.

O ananı kənd-kənd, yurd-yurd, gəzirdi,
Ev-eşiyi altdan–altdan sezirdi,
Pıçıltıya gizli qulaq asırdı,
Hərdən kənddə, yurdda, yolda azırdı,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Sizə xurma gətirmişəm, deyirdi,
Sizə alma gətirmişəm, deyirdi,
Armud, heyva gətirmişəm, deyirdi,
Mən anamı itirmişəm, deyirdi,
Mən balamı itirmişəm deyirdi,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Bir döngədə ona dedi bir qarı,
Bax, bu evdən get iki ev yuxarı,
Orda qalır qoca təhər bir qarı,
Deyir, Buzər gözlərimi çıxarıb,
Yeddi günə saçım belə ağarıb,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Qurdər şahın anasını gördü qız,
Oturmuşdu tək bir evdə, o yalqız,
Qarışmışdı bir-birinə göz, ağız,
Hər şey bunca yavaş-yavaş dəyişir.
Dedi:- Ana, mən Sonayam, Uryerdən,
Dur qaçırım səni, ana, bu yerdən,
O Buzəri öldürərəm bu gün mən,
Dur yapışım, dur yapışım əlindən,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Ana dedi:- Gözüm yoxdur, tökülüb,
Paltarlarım cırıq-cırıq sökülü,
Əyilmişəm, qolum, belim sökülü,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Buzər gəldi, dedi:- Kimsən gözəlçə,
Bu geyimdə çinar boysan, bel incə,
Mənə qonaq qalmalısan bu gecə,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Qılıncını çəkdi Sona qınından,
Dedi:- sənsən bizə qancıl, acıqan,
Sən Turparı yaraladın, ay qaban,
Onu vurmaq, istəyəndə qız bu an,
Qurdər evə atılaraq bacadan,
O Buzərlə durdu birdən yanbayan,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Qılınclaşıb bir-birini yıxdılar,
Qılınclaşıb onlar çölə çıxdılar,
Qan gölündən boylandılar, qalxdılar,
Şimşək olub qaranlıqda çaxdılar,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Qaranlıqda bir səs sap tək qırıldı,
Eşidildi sonra qanlı hənirti,
Buzər mal-tək baxdı, başı yarıldı,
Hər şey bunca yavaş-yavaş dəyişir.

Ana, bala qucaqlaşdı, öpüşdü,
Sona, Qurdər bir-birilə görüşdü,
Göz yaşları bir-birinə qarışdı,
Hər şey bunca yavaş-yavaş dəyişir.

***

Sona dedi:- Sən nə bildin burdayam,
Bil tanrıdan sonra gələn anadır.
Qurdər dedi:- İzləyirdim mən səni,
Bil tanrıdan sonra gələn anadır.

Onlar durub yerincyerə gəldilər,
Yekta, Dota bu olayı bildilər,
Gözlərini gizli-gizli sıldılər,
Bil tanrıdan sonra gələn anadır.

Anasından Qurdər çox şey soruşdu,
Ana bir-bir olanları danışdı,
Göz yaşları bir-birinə qarışdı,
Hamı ona anası tək yanaşdı,
Bil tanrıdan sonra gələn anadır.

Dota, yekta baş əydilər Qurdərə,
Dedilər ki, and içirik yüz kərə,
And içirik biz tanrıya, görgörə,
Sizə görə biz gəlmişik bu yerə,
Bil tanrıdan sonra gələn anadır.

Qurdər dedi:- Mən hər şeyi bilmişəm,
Buna görə yerincliyə gəlmişəm,
Elə bilib Tunqər ki, mən ölmüşəm,
Işi verib məndən də çox bilmişə,
Bil tanrıdan sonra gələn anadır.

Ağsaqqallar gəldi, bu iş iç oldu,
Acıq, küsü, «mənəm mənəm» heç oldu,
Şah bacılar bir neçə qat güc oldu,
Yola düşdü Qurdər getdi köç oldu,
Üra gedən yaraqlılar üç oldu,
Bil tanrıdan sonra gələn anadır.

***

Orda bunu görən durdu, söylədi:
Bil tanrıdan sonra gələn anadır.
Dedi bunu yerinclikdə, baş evdə,
Bil tanrıdan sonra gələn anadır.
Turq ata da baş əyərək anaya,
«Sağ ol» dedi neçə kərə Sonaya,
Öyüd verdi ata kimi Setaya,
Dedi:- İndi mən, girirəm araya,
«Barış» deyə qızlar çıxsın ortaya,
Bil tanrıdan sonra gələn anadır.

Sona, Seta Turqa qulaq asdılar,
Barışdılar, qucaqlaşıb susdular,
And içdilər, közə barmaq basdılar,
Bil tanrıdan sonra gələn anadır.

Urdiyarda tanrı yeri ocaqdır,
Turqər kimi bunlar öcdən uzaqdır,
Beş gündən bir Anni burda qonaqdır,
Şamxat yenə öz yurduna dayaqdır,
Burda öyüd, danlaq iti yaraqdır,
Burda hamı yarı tanrı sayaqdır,
Arvad, kişi hamı tüklü papaqdır,
Tanrılıqdır, hamı burda qoçaqdır,
Bil tanrıdan sonra gələn anadır.

Burda hamı tanrılara bəllidir,
Burda çoxu havalıdır, yellidir,
Beli tüklü, alnı, boynu qıllıdır,
Qadınları od-alovdur, dillidir,
Kişiləri işcil, əli bellidir,
Atı-iti saçaqlıdır, tellidir,
Bil tanrıdan sonra gələn anadır.

Burda Sıdır meşələri gül dadır,
Sıdır ancaq Uruyerdə kök atır,
Bu dağlıqda buludlara əl çatır,
Burdakılar sevməkdə də çox qatı,
Bu yerlərdə gün ortada gün batır,
Buna görə burdakılar çox yatır,
Bil tanrıdan sonra gələn anadır.
Turqər deyir:- Urdiyardır baş evim,
Burda mənim çay daşından daş evim,
Yaylaq yerim qışlaq yerim, qış evim,
Qıvır-zıvır yaraşıqdan boş evim,
Bil tanrıdan sonra gələn anadır.

Burdan gedir, bura dönür Turq ata,
Hər bir yerə o baş çəkir arada,
Yarıtanrı qoyub onu yaradan,
O ölkənin hər işinə əl qatar,
O hamıya ürək verər, əl tutar,
Bil tanrıdan sonra gələn anadır.

Neçə ildir Elçiçəkdən uzaqdır,
Şimşəkatla ölkələrə qonaqdır,
Hər öyüdü, sözü elə dayaqdır,
Acıqanı döyüş, vururş, yaraqdır,
Varla quruş Turq ataya yasaqdır,
Bil tanrıdan sonra gələn anadır.

Bir qızı var, üc anası ürəkdə,
Yorulmayır o «Qurd anam» deməkdən,
Körpələri min-min yatır bələkdə,
Kirpikləri, saçı, üzü ipəkdən,
Bil tanrıdan sonra gələn anadır.

Dümağ söyləncі

Verib uca qarlı dağlar, dal dala,
Söyləncі var bil ki, söylənc olanın.

Qalanıbdır kəndlər dağın döşünə,
Söyləncі var bil ki, söyləncі olanın.

Döyüşlərdən qaçan dağa dırmaşır,
Küsülülər meşələrə sarmaşır,
Malqarasa yaylaqlara daraşır,
El görgörə, görgör elə yaraşır,
O qışlağa, bu yayalağa qarışır,
Söyləncі var bil ki, söyləncі olanın.
Yaylaq, qışlaq Dümağ qızın ləllisi,
Mindiyarın minellinin ellisi,
Qoyun - quzu döyüş güləş dəlisi,
Yer-yurdunun, el - obanın yellisi,
O, oynamaq, mahnı demək ölüsü,
Söyləncі var bil ki, söyləncі olanın.

El Dümağı tanıyırdı bu sayaq,
Üzü köyçək , qolu güclü, bel oynaq,
Sevilirdi bu gül dodaq, gül yanaq,
Onu görcək udqunurdu çox qonaq,
Söyləncі var bil ki, söyləncі olanın.

O Urəri sevməsə də, sayırdı,
O azacıq sevgi nədir duyurdu,
Sevgi bilib bunu elə yayırdı,
Üz- gözünü göz yaşıyla yuyurdu,
O özünü Turq yerinə qoyurdu,
Söyləncі var bil ki, söyləncі olanın.

Utanmağı, qısqanmağı yox idi,
Ərk etməyi, küskünlüyü çox idi,
Ona buna atmacası lağ idi,
Elə bil ki, o hər şeydən tox idi,
Söyləncі var bil ki, söyləncі olanın.

Şamxat ondan tanrı kimi küsmüşdü,
Bu güləşkən qızdan əlin üzmüşdü,
O güləşdə tanrı qızı basmışdı,
Söyləncі var bil ki, söyləncі olanın.

Odur Dümağ sevgisində kal idi,
Buna görə yanaqları al idi,
Kallığı turş, sevgisisə bal idi,
Sevgi Şamxat qızdan keçən yol idi,
Söyləncі var bil ki, söyləncі olanın.

***

Gördü Dümağ yol üstündə Urəri,
Hər kəs gərək öz tayıyla görüşə.
Dedi:- Urər, hara belə, sevgilim,
Hər kəs gərək öz tayıla görüşə.

Atdan düşdü Urər, öpdü Dümağı,
Pörtdü qızın ağdan da ağ yanağı,
Sanki qopdu yerdən onun ayağı,
Hər kəs gərək öz tayıyla görüşə.

Urər dedi:- Yerinc, axşam gərək sən,
Yerincliyə gecikmədən gələsən,
Ikilikdə görüşərik, sənlə mən,
Aman köçüb gələnlərin əlindən,
Hər kəs gərək öz tayıla görüşə.

Keyləşmişdi Dümağ sanki öpüşdən,
Nə duymuşdu bu təkbətək görüşdə,
Utanrıdı Dümağ tanış – bilişdən,
Hər kəs gərək öz tayıyla görüşə.

Urər minib atı çapdı, durmadan,
Qızdan gələr gəlməzini sormadan,
Dümağ güldü saymazlığa varmadan,
Sevgisinə inamını qırmadan,
Hər kəs gərək öz tayıyla görüşə.

Axşam düşcək yerincliyə getdi qız,
Urər olan yerdə durub bitdi qız,
Sevgisində, inamında itdi qız,
Üra baxdı, utanaraq pörtdü qız,
Hər kəs gərək öz tayıla görüşə.

Oturanlar baxdı qıza qımışdı,
Maraq hamı üzdə, gözdə sayrışdı,
Urər durdu qaçqınlardan danışdı,
Səs-küy qalxdı, ara bir az qarışdı,
Hər kəs gərək öz tayıla görüşə.
-Deyirəm ki, qardaş niyə gəlibsən,
Sən buranı doğma yerin bilibsən,
Arvad, uşaq acdır, özün solubsan,
Hər kəs gərək öz tayıla görüşə.

Deyir:- Uryer tanrıların yeridir,
Ordakılar sanki yarı diridir,
Göydəkindən ora bir az bəridir,
Işsizlikdir, adamları əridir,
Hər kəs gərək öz tayıla görüşə.
***
Hələ kalsan dedi ona, çoxları,
Böyük sevgi göydən gəlmə sevgidir.
Oğurlayıb Şamxat sənin sevgini,
Böyük sevgi göydən gəlmə sevgidir.

Sən güclüsən, sevgi gücü saymayır,
Sevgi vara, gözəlliyə uymayır,
Yalançını heç yaxına qoymayır,
Sevgi toxdur, tək öpüşdən doymayır,
Böyük sevgi göydən gəlmə sevgidir.

Səndən qaçır, çünki onu yıxıbsan,
Səndən küsüb, ona ucuz baxıbsan,
Onun incə ürəyini yaxıbsan,
Böyük sevgi göydən gəlmə sevgidir.

Dedilər ki, min atını çapginən,
Dedilər ki, get Şamxatı tapginən,
Ondan sevgi soy payını qapginən,
Gizli sevgi göydən gəlmə sevgidir.

Deyiləni o Urərə danışdı,
Deyilənə Urər soyuq yanaşdı,
Hələ qıza azacıq da sataşdı,
Dümağ onla deyişərək tutaşdı,
Gizli sevgi göydən gəlmə sevgidir.
O, düz saydı el-obanın sözünü,
Tutdu Şamxat tanrısına üzünü,
Vurdu dağa daşa, suya özünü,
Getdi tapsın deyilənin düzünü,
Getdi tapsın o tanrının izini,
Yerə qoysun qarşısında dizini,
Yox eləsin aradakı küsünü,
Gizli sevgi göydən gəlmə sevgidir.

Hara getdi o, Şamxatı soruşdu,
Kim eşitdi üzü, alnı qırışdı,
Sorğu artdı bir-birinə qarışdı,
Gizli sevgi göydən gəlmə sevgidir.

Biri dedi:- Görməmişəm Şamxatı,
Mən ilkiyəm, eşidirəm bu adı,
Söylə, ay qız, o kişidir, ya qadın,
Gizli sevgi göydən gəlmə sevgidir.

Çox axtardı Dümağ qaldı arada,
Şamxat kimdir, o yaşayır harada,
«Sevgi harda, get, Şamxat da orada»
Gizli sevgi göydən gəlmə sevgidir.

Qabağına çıxdı yolda bir qarı,
Dedi:- Gəzmə daha diyar - miyarı,
Eşitmişəm, vardır elə bir tanrı,
O dalınca səni çəkib aparır,
Gizli sevgi göydən gəlmə sevgidir.

Mən üç ərdə sevgi nədir bilmədim,
Sevgi-mevgi sorağıma gəlmədi,
Neçə uşaq doğdum öldü, ölmədi,
Yüz yaşım var, hey ağladım, gülmədim,
Gizli sevgi göydən gəlmə sevgidir.

Sevgi yoxdur, bala, çalış get ərə,
Ərlə uşaq dirisidir bil, hərə,
Onlar uçub gedir səndən son kərə,
Tüpür belə dolanışa, gör-görə.
Gizli sevgi göydən gəlmə sevgidir.

Dümağ susdu, dodaqları büzüldü,
Sevgisindən əli bir də üzüldü,
Ürəyində acı ağrı sezildi,
Gözünə yaş kirpik-kirpik düzüldü,
Gizli sevgi göydən gəlmə sevgidir.

-Bacım hər gün «vay» deməkdən yorulub,
Sevgidəndir ürək yanıb qovrulur,
İlbiz kimi burum-burum qıvrılır,
Sevgidəndir çox ev göyə sovrulur,
Gizli sevgi göydən gəlmə sevgidir.

O sevmişdi bir sevimli kişini,
O görürdü evin hər bir işini,
O qıcıdıb hər gün ona dişini,

Bunu atdı, sonra aldı beşini,
Gizli sevgi göydən gəlmə sevgidir.

Tək-tək olur sevgi, o da üç dörd il,
Bu il varsa, üç il sonra var deyil,
Çalış sevmə, ancaq çalış sən sevil,
Gizli sevgi göydən gəlmə sevgidir.

Get, Şamxatı tap, nə olar, qam etsin,
Qoy içində o buzları əritsin,
Ürəyinə göy sevgisi yeritsin,
Qoy mənim də o, sevgimi diriltsin,
Od-alovlu sevgiləri kiritsin,
Gizli sevgi göydən gəlmə sevgidir.

Dümağ susdu, düşgünləşdi, dinmədi,
Ancaq inam zirvəsindən enmədi,
O getdiyi öz yolundan dönmədi,
Gizli sevgi göydən gəlmə sevgidir.

***

Dümağ keçdi Altay ilə Çinçayı
Yoxa qarşı acıq artar bir az da.
O Şamxatı gəzdi-gəzdi tapmadı,
Yoxa qarşı acıq artar bir az da.

Suyabaxan, düyün açan bir qarı,
Dedi ona yoxdur belə bir tanrı,
Tək məndədir sevgilərin açarı.
Yoxa qarşı acıq artar bir az da.

Suya baxdı, göyə baxdı, tas atdı,
O, Dümağda güclü inam yaratdı,
Hörüyündən tutdu qızın o dartdı,
Yudu südlə üz-gözünü, ağartdı,
Yoxa qarşı acıq artar bir az da.

Dedi:- Geyin bu çuxanı əyninə,
Gətir onu gözlərinin önünə,
Qam gələcək ürəyinə, beyninə,
Gün düşəcək sənin qara gününə,
Yoxa qarşı acıq artar bir az da.

Dümağ dedi:-Adı onun Urərdir,
Aramızda sevgi yoxdur, çəpərdir,
Sevgisi var, ancaq soyuq təhərdir,

Yoxa qarşı acıq artar bir az da.

Qarı dedi:- Qayıt, ancaq il boyu,
Üz- gözünü hər gün, hər gün südlə yu,
Saxla evdə iki inək, üç qoyun,
Aldatmasın səni hər söz, hər oyun,
Yoxa qarşı acıq artar bir az da.

Bir gün onu görəcəksən yuxuda,
Çıxacaqsan utanmaqdan, qorxudan,
Görəcəksən, sevəcəksən doğrudan,
Yoxa qarşı acıq artar bir az da.
Dümağ güldü, qarı qıza inandı,
Gördü qarı çox şeyləri qanandı,
Gördü buna o ürəyi yanandı,
Gördü sevgi ağır işdi, yamandı,
Yoxa qarşı acıq artar bir az da.

O Çinçaydan yolu döndü geriyə,
Yolu saldı Uğureldən bəriyə,
Atlar girdi çox naxıra, sürüyə,
O baxmadı hər ölüyə, diriyə,
Sevgi doğdu onda tək-tək hərəyə,
Yoxa qarşı acıq artar bir az da.

***

Bir obada atdan düşdü, dincəldi,
Yaranışın ilk anası sevgidir.
Eşitdi ki, buradadır Turq ata,
Yaranışın ilk anası sevgidir.

Gəldi onun qabağında diz çökdü,
Dedi, dedi, Turq ataya dil tökdü,
Sonra onu sevgi çəkdi, söz çəkdi,
Yaranışın ilk anası sevgidir.

Dedi:-Ata, sevinmirəm, gülmürəm,
Bəyənmişəm, ancaq sevə bilmirəm,
Onunla da mən elbirəm, dilbirəm,
Yaranışın ilk anası sevgidir.

Hamı sevir, mən qalmışam ortada,
Kimsəsizəm mən atadan, anadan,
Niyə sevgi vermir mənə yaradan,
Soruşuram yarıtanrı atadan,

Yaranışın ilk anası sevgidir.

Turqər baxdı, o tanıdı Dümağı,
Dilə tutdu bu sevimli qonağı,
Həm sıxıldı, həm də qaçdı dodağı,
Dedi:-Mənim, ürəyimin dayağı,
Sevə bilməz qızlar, oğlan sayağı,
Yaranışın ilk anası sevgidir.
Tanrı qızı özü belə yaratdı,
Qız, oğlana ölçü qoyub gözaltı,
Oğlan solğun, qız üzündə qızartı,
O gül yanaq, oğlan solğun, sarımtıl,
Yaranışın ilk anası sevgidir.

Qız oğlan tək sevsə eldə vay olar,
Yolun azar, dəlilərə tay olar,
Evlənsə də gündə evdə hay olar,
Qızğın sevgi dönər qanlı toy olar,
Yaranışın ilk anası sevgidir.

Ərə getdi, qız sevgisi artacaq,
O sevgidə balasına çatacaq,
«Bala» deyib hər ağrını udacaq,
Bax beləcə sevgi itib batacaq,
Yaranışın ilk anası sevgidir.

Dümağ dedi:- Onu gendən sevirəm,
Belə çıxır, onda mən də sevirəm,
Mən Urəri lap ilk gündən sevirəm,
Yaranışın ilk anası sevgidir.

Turqər dedi:- Qızım, düzdür, doğrudur,
Doğru sevgi böyük toydur, ağrıdır,
Mənim kimi o da yarıtanrıdır,
Yaranışın ilk anası sevgidir.

Ağüz, Dəmirqız söyləncі

Ağüz dedi:- Çətinləşib yaşayış,
Böyük ölkə dolandırmaq çətindir.
Iş çoxalır, yem azalır ölkədə,
Böyük ölkə dolandırmaq çətindir.

Buzboğaza çapar çatır bir aya,
Çatmaq olmur çox istəyə, haraya,

Səs, hənirti çatmır Çinə, Altaya,
Böyük ölkə dolandırmaq çətindir.
Ölkələrə bölünərsə Mindiyar,
Yaxşılaşar, iş-güc bir az azalar,
Yola düşər, tez qayıdar hər çapar,
Böyük ölkə dolandırmaq çətindir.

Mindiyarı böyütləmək düz deyil,
Ölkə artır, genişlənir ilbəil,
Ölkə olsun Parsdiyarla, Qobuçöl,
Böyük ölkə dolandırmaq çətindir.

Oğuzel də Darvidel də bu sayaq,
Hər diyardan yeni ölkə yaratmaq,
Hər ölkədən vergi alaq biz ancaq,
Böyük ölkə dolandırmaq çətindir.

Hər ölkənin öz başrağı, öz adı,
Öz toplumu, öz başbaşı, öz andı,
Belə olsa böyük ölkə qalandır,
Böyük ölkə dolandırmaq çətindir.

Dəmirqızın çatma qaşı çatıldı,
Əyri qaşlar ox yayıtək dartıldı,
Buludlandı üzü, gözü tutuldu,
Böyük ölkə dolandırmaq çətindir.

Dedi:-Ərim, niyə belə deyirsən,
Belə olsa təklənərəm orda mən,
Unudarsan arvadını onda sən,
Böyük ölkə dolandırmaq çətindir.

İstəyirsən diyar olsun, ya ölkə,
Başçı gərək hər bir yerə baş çəkə,
Nə ev qala, nə yurd qala, nə döngə,
Başçı gərək hər bucağa baş çəkə,
Böyük ölkə dolandırmaq çətindir.

Ərlə arvad üç gün belə deyişdi,
Düşüncələr gərginləşdi, dəyişdi,
İti sözlər qılıncsayaq döyüşdü,
Böyük ölkə dolandırmaq çətindir.
Bununla da o, araya söz atdı,
El-obada dedi - qodu yaratdı,
Çox yerlərdə ürəkləri qanatdı,

Böyük ölkə dolandırmaq çətindir.

Ölkə boyu orda-burda yığıncaq,
Yığıncaqdan bir səs gəldi «yox» -ancaq,
«Nəyə gərək parçalanma yaratmaq»,
Bunu dedi ölkə boyu el, oymaq,
Böyük ölkə dolandırmaq çətindir.

Parsdiyarda bu söz az-çox yayıldı,
Ölkə deyib yatanlar da ayıldı,
Tək Parsdiyar bunca ölkə sayıldı,
Böyük ölkə dolandırmaq çətindir.

Turq ata da, Odərpay da «yox» dedi,
Parçalanma yaratmaqdan qorx, dedi,
Mindiyara «başrağınla qalx» dedi,
«Ağ başrağı uca qaldır!» Turq dedi,
Böyük ölkə dolandırmaq çətindir.

Dedilər ki, Ağüz qartıb, yaşlanıb,
Qocalıqdan gələn qorxu başlanıb,
Şahlıq onda aşıb daşıb daşlanıb,
Böyük ölkə dolandırmaq çətindir.

Deyən Ağüz öz-özünə qarşıdır,
Deyən Ağüz öz işində naşıdır,
Tunq şahlıqda qalsa yenə yaxşıdır,
Böyük ölkə dolandırmaq çətindir.

Bunla ellər, yurdlar, çöllər sırası,
Buzboğazla Dəclə Fərat arası,
Oldu böyük Mindiyarın yaylası,
Turq da böyük bir ölkənin atası,
Böyük ölkə dolandırmaq çətindir.
Tunqər Alpan yenə böyük şah oldu,
Çox diyara yeni yerinc qoyuldu,
Burda hamı dincəl yatdı, ayıldı,
Böyük ölkə dolandırmaq çətindir.

Tanrı baxdı, dedi:- Belə yaxşıdır,
Tanrı qanlı vuruşlara qarşıdır,
Ta dincəlyer Mindiyara qonşudur,
Mindiyarın yaşı tanrı yaşıdır,
Böyük ölkə dolandırmaq çətindir.

Dedi:- Qayıt, get yenə də Elata,
Üztut elə hər gün böyük Şamxata,
Gələr sizi toyunuza Turq ata,
Böyük ölkə dolandırmaq çətindir.
***
Turq danışdı, öyüd verdi Dümağa,
Sevgi birlik anasıdır, inamdır.
Dümağın da yanaqları qızardı,
Sevgi birlik anasıdır, inamdır.

Yola düşdü, getdi çatdı Urelə,
Sevinc oldu Dümağ, qondu hər dilə,
Dedi, gərək oğlan sevə, qız bilə,
Oğlan sevə, qızlar isə sevilə,
Oğlan sevsə qız da dönər al gülə,
Sevgi birlik anasıdır, inamdır.

Urər gəldi, qarşıladı Dümağı,
Gördü qızın qızarıbdır yanağı,
Güzgüləşib gözlərinin bulağı,
Dedi:- Çıxart gəzdirdiyin yarağı,
Gəl ol mənim evciyimin çırağı,
Ört başına bu gün gəlin duvağı,
Yansın evdə sevgimizin ocağı,
Sevgi birlik anasıdır, inamdır.

Urər dedi:- Mən sevirdim, susurdum,
Şamxat bizi hər gün hər gün büsürdü,
Yerincliyə gəlib qulaq asırdı,
Sevgimizə gülüb dodaq buzurdu,
Tanrı kimi o bunlara dözürdü,
Acığından əli-qolu əsirdi,
Sevgi birlik anasıdır, inamdır.

Toy çaldırdı Urər yazın sonunda,
Dümağ çıxdı üzə gəlin donunda,
İki inək, üç qoyun da yanında,
Sevgi birlik anasıdır, inamdır.

Turqər, Qurdər, Urər onla yanaşı,
Hamı dedi, toy Dümağa yaraşır,
Bu toyda da küsülülər barışır,
Sevgi, istək bir-birinə qarışır,
Sevgi birlik anasıdır, inamdır.

Dedi, gəzir yer üzünü Turq ata,
Sevgi birlik tanrısıdır, inamdır.
O son qoyur hər gilincə, dolağa,
Sevgi birlik tanrısıdır, inamdır.

Dedi:- «Turqər yarıtanrı atadır»
Dedi:- «Anni yer üzünə anadır,
Şamxat sevgi tanrısıdır, Sonadır,
Turq öyüdü qulağında sırğadır
Sevgi birlik tanrısıdır, inamdır.»

Turqun Qızılquş söyləncі

Harda ağlar göz görünsə de mənə,
Dəmir caynaq, yelkən qanad qızıl quş.
Gedək silək dolub yağan gözləri,
Dəmir caynaq, yelkən qanad qızıl quş.

Gərək yerdən köçüb gedə yazıqlıq,
Ac gözlüklə gedə gözü qıpıqlıq,
Ürəklərdə kök salmaya sınıqlıq,
Gərək arta yaxşılıqla, ayıqlıq,
Dəmir caynaq, yelkən qanad qızıl quş.

Gərək yerdə qırğın, qan, öc olmaya,
Gücsüzləri qatlayan güc olmaya,
Əltut ola, o da çox borc olmaya,
Dəmir caynaq, yelkən qanad qızıl quş.

Sən görürsən göydən bütün bunları,
Yerli, yersiz axıdılan qanları,
Mənə göstər yanda qalan yanları,
Dəmir caynaq, yelkən qanad qızıl quş.

Səndən qanad, məndən ayaq, uç gedək,
Meşələri düzənləri biz ötək,
Qan-qan deyən güclüləri biz didək,
El içində həm görünək, həm itək,
Dəmir caynaq, yelkən qanad qızıl quş.

Qızıl quşa sanki yeni güc gəldi,
O üç kərə doğuyana dikəldi,
Birdən üçdü, buludlara yüksəldi,
Dəmir caynaq, yelkən qanad qızıl quş.

Sanki bunu gözləyirdi Şimşəkat,
Oda qalxdı ucalara neçə qat,
Turq baş vurdu dumanlığa bathabat,
Dedi:- Tanrım bizə yenə əl uzat,
Mən də olum Qartal kimi cüt qanad,
Dəmir caynaq, yelkən qanad qızıl quş.

Yeri göyə, göyü yerə qatdılar,
Meşələrdə üç yol itib batdılar,
Sonra gəlib bir Başevə çatdılar,
Yığışılıb bir bucaqda otdular,
Dəmir caynaq, yelkən qanad qızıl quş.

Turqun and söyləncі

Niyə belə acıqlısan, gülərsən,
Tanrı böyük dayanışdır, yaranış.
Öc alırsan, sonra sevinc verirsən,
Tanrı böyük dayanışdır, yaranış.

Tanrı sizi yekə ağız yaratdı,
Onda niyə gözünüzü daraltdı,
Günü verdi, gecənizi qaraltdı,
Tanrı böyük dayanışdır, yaranış.

Niyə biri yoxsul oldu, şirşindir,
Niyə biri zəngin oldu, mində bir,
Ortaqlar da yazıq orta gündədir,
Tanrı böyük dayanışdır, yaranış.

Niyə qoyub adamları üz-üzə,
Hər bir yanda dirənmişdir göz-gözə,
Yeri burub bənzətmişdir ilbizə,
Tanrı böyük dayanmışdır, yaranış.

Şahlıq nədir, dilənçilik nə demək,
Biri çinar, o birisi göbələk,
Öz yoluna qoysun bunu şah gərək,
Tanrı böyük dayanışdır, yaranış.

Bir boyada olsa dirrik, nə olar,
Onda dilli, dilsiz qoşa balalar,
Onda adam göyərdəcək tarlalar,
Tanrı böyük dayanışdır, yaranış.

Tanrı, sənin sözün nədir bu işə,

Hamı gəlib dayanışda döş-döşə,
Gedir dirrik oyanışa, dönüşə,
Tanrı böyük dayanışdır, yaranış.

***

Gələcəyi Turq bu sayaq görürdü,
Gələcəyi yaxşı görən tanrıdır.
Tunqər isə başqa yolu seçmişdi,
Gələcəyi yaxşı görən tanrıdır.

Düşünürdü, «Mısıreli alaram,
Elçiçəklə orda yer-yurd salaram,
Çatanıma bir az yaxın olaram,
Gələcəyi yaxşı görən tanrıdır.

Alan mənim, Təbət mənim, Çin mənim,
Həbəş mənim, Asur mənim, Hind mənim,
Dolanışda əzəl mənim, son mənim,
Gələcəyi yaxşı görən tanrıdır.

Öyüd ollam Parsdiyara son kərə,
Altyer, Üstyer ayrı olmaz bir belə,
Mən olaram başçı bütün ellərə,
Başlar başı, şahlar şahı, hər yerə,
Gələcəyi yaxşı görən tanrıdır.

Yarıtanrı ollam bu yer üzündə,
Böyük qurqu yaradaram özümdən,
Ölməzliyə mən çataram azından,
Gələcəyi yaxşı görən tanrıdır.

Mən Alpisə son qoyaram, basaraq,
Yığışılar döyüş, vuruş bu sayaq,
Çovğun, qıtlıq, ölüm adlı yatalaq,
Gələcəyi yaxşı görən tanrıdır.

***

Elçiçək də düşünürdü: « Şah ollam,
Şahın gəzib dolanmaqdır çox işi.
Gedib tez-tez uşaqları görərəm,
Şahın gəzib dolanmaqdır, çox işi.

Uğurelin döşənəyi, palazı,
Xalçasının qırağında qotazı,
Üzərində gölü, çayı, axmazı,

Sularının ən dərini, dayazı,
Döşənəyin çiçəklisi, sayası,
Şahın gəzib dolanmaqdır, çox işi.

Tanrı mənə bir də bir qız verəydi,
Oğulların şahlığını görəydim,
Qarıyaydım, sonevimə girəydim,
Şahın gəzib dolanmaqdır, çox işi.

Xalçaların dəyərləri yuxarı,
Burda güllər nə solur nə ağarır,
Onu Çinə, Hində, Misrə çıxarım,
Şahın gəzib dolanmaqdır, çox işi.

Düşünürdü, düşünürdü Elçiçək,
Yanaqları yetişməmiş çiyələk,
Solğun güldür, yüngüllükdə kəpənək,
Dilәkləri uçar quşdur, ağ lələk,
Şahın gəzib dolanmaqdır, çox işi.

Tanrı baxıb yuxarıdan gülürdü,
Kimin necə olacağın bilirdi,
Hamı gəlib yaşayırdı, ölürdü,
Şahın gəzib dolanmaqdır, çox işi.

***

Tanrı isə dodaq dəyməz deyirdi:
«Hamı gedir, qalır təkcə dolanış.
Dolanışı siz üzü ağ yaşayın,
Hamı gedir, qalır təkcə dolanış.

Sizdən sonra çox oğullar gələcək,
Onlar sizdən daha artıq biləcək,
Sonra hamı, hamı tək-tək öləcək,
Hamı gedir, qalır təkcə dolanış.
Sizdən sonra Sərtüz bir də gələcək,
İnancları birləşdirə biləcək,
Suböləndə doğulacaq, öləcək,
Dolanışı iki yerə böləcək,
Hamı gedir, qalır təkcə dolanış.

Sizdən sonra gələcəkdir İskəndər,
Olacaqdır böyük Dara dərbədər,
Alpis susub yaşayacaq bir təhər,
Böyüyəcək kiçik kəndlər, şəhərlər,

Hamı gedir, qalır təkcə dolanış.

O Mineli Atrapatan edəcək,
Parsdiyarın Alpisliyi bitəcək,
Yüz illiklər, minilliklər ötəcək,
Inam getsə tanrılar da gedəcək,
Sevgi itsə onda bəşər itəcək,
Hər şey ölüb sonluğuna yetəcək,
Sonra hər şey yeni üzdə bitəcək,
Hamı gedir, qalır təkcə dolanış.

Yerdə təkcə Turan, İran qalacaq,
Ikisi də doğma qardaş olacaq,
Hormuz yenə böyük tanrı olacaq,
Hamı gedir, qalır təkcə dolanış.

XI Bölmə XXX QAPI

Turpar söyləncі

Uğureldə Elçiçəyi sevən çox,
Yaradandı,yaşadandı sevgilər.
Yerinc toxu, yonta, boya sevirdi,
Yaradandı, yaşadandı sevgilər.

Çox yığmışdı toxuntular, yontalar,
Gülüşürdü üzə-gözə xalçalar,
Sayrışırdı dörd bir yanda boyalar,
Yaradandı, yaşadandı sevgilər.

Bunlar evdə sahmanlaşıb düzülüb,
Biri yerdə, biri damdan asılı,
Hərəsinin adı üstə yazılı,
Yaradandı, yaşadandı sevgilər.

O, sevmişdi adlı-sanlı Ağüzü,
Ağüz idi danışanda hər sözü,
Çən almışdı, tutulmuşdu üz-gözü,
Yaradandı, yaşadandı sevgilər.

Nə yamansan, nə güclüsən dolanış,
Həm enişsən, həm düzənlik, həm yoxuş,
O sevgidən daha alov qalmamış,
Yaradandı, yaşadandı sevgilər.

O, saymayır çox da yerinc olmağı,
O, sağaldır, gəzir eldə sorağı,
Sevir tez-tez, ölümdən öc almağı,
Yaradandı, yaşadandı sevgilər.

Hansı evə getsə ordan çor qaçır,
İtir, gedir əzgin-üzgün yalançı,
O varlığa, dolanışa yol açır,
Yaradandı, yaşadandı sevgilər.

Özününsə ağrıları yox olmur,
Dörd oğlundan çoxdandır ki hay almır,
Sağalt qızın öz yarası sağalmır,
Yaradandı, yaşadandı sevgilər.

Tək qalanda dörd oğluyçun mələyir,
Açıb öpür sonbeşiyin bələyin,
Yola salır sanki çapar küləyi,
Dörd qardaşa çatsın ana diləyi,
Yaradandı, yaşadandı sevgilər.

Qarqışlayır Ağüz oğlu Tunqəri,
Qardaşları o, yad yurda gondərib,
Görən necə yuvaları, yerləri,
Yaradandı, yaşadandı sevgilər.

“Niyə dördü bir gözələ vurulub,
Dolanışda çox iş belə qurulub,
Buna gorə göylər mənə daralıb,
Buna görə üzüm-gözüm saralıb,
Yaradandı, yaşadandı sevgilər.

Nə olsun ki Uğurelə yerincəm,
Düşüb şahlıq yollarıma düyünçə,

“Tunqər səni bağışlamam ölüncə,
Yaradandı, yaşadandı sevgilər”.

Deyinirdi, mələyirdi bir ana,
Saç yolurdu, əl atırdı hər yana,
Bilməyirdi hansı yana yollana,
Yaradandı, yaşadandı sevgilər.

***

Birdən qapı döyülmədən açıldı,
Çətinlikdən qorxma, bir yol tapılar.
Kimsə dedi:-“Mən Turparam diriyəm,
Çətinlikdən qorxma, bir yol tapılar.

-Sizi şah yox bir sağalt qız bilmişəm,
Mən sağaltın qapısına gəlmişəm,
Elə bilir hamı yanıb ölmüşəm,
Çətinlikdən qorxma, bir yol tapılar.

Od sınağı ölümdən də yamandır,
Ondan keçmək, arı qalmaq yalandır,
Bu sınaqda odla, ölüm bir andır,
Od sönəndir, düz adamsa qalandır,
Çətinlikdən qorxma, bir yol tapılar.

Mən oddaykan göydə şimşək çaxırdı,
Kimsə mənə “qayıt” dedi bağırdı,
Birdən gördüm Turqər məni çağırdı,
Alov deyil, tüstü məni boğurdu,
Çətinlikdən qorxma, bir yol tapılar.

Ancaq mənim yanmış idi üz-gözüm,
Ürəyimdə nə güc vardı, nə dözüm,
Qatlanmışdı həm dirsəyim həm dizim,
Çətinlikdən qorxma, bir yol tapılar.

Yağış yağdı, tüstü qalxdı, çən-duman,
Sanki bir əl məni qapdı alovdan,
Sanki məni gördü böyük yaradan,
Çətinlikdən qorxma, bir yol tapılar.

Mən sınaqdan yanıq çıxdım dipdiri,
Gördüm Turqər alovumu söndürür,

Ancaq mənim yanmış idi hər yerim,
Çətinlikdən qorxma, bir yol tapılar”.

Dedim:-Turqər mən yanmışam yapyarı,
Məni sənin kürəkənin yandırıb,
Sən özün də saralıbsan sapsarı,
Çətinlikdən qorxma, bir yol tapılar.

Dedi:-Tunqər səni geri çağırdı,
Onda Qaragölə yağış yağırdı,
Mən uzaqdan Turpar sənə baxırdım,
Çətinlikdən qorxma, bir yol tapılar.

Turqər məni öz kürkünə bürüdü,
Məni sudan, həm günəşdən qorudu,
Hər yaramı tez-tez açdı, sarıdı,
Çətinlikdən qorxma, bir yol tapılar.

-Get Uğurel, yerincini soraqla,
O, nəvəmdir, sənə baxar, sağaldar,
Yaraların qaysaqlanar, toxdayar,
Səni bəslər, oz yanında saxlayar,
Çətinlikdən qorxma, bir yol tapılar.

-Mən üç aya gəlib bura çıxmışam,
Yağış olub yana-yana yağmışam,
Gəlib sizə çox uzaqdan baxmışam,
Çətinlikdən qorxma, bir yol tapılar.

Gördüm siz də yaralısız, yanıqsız,
Siz də mənə neçə yara yovuqsuz,
Yerincliyə, üstünlüyə soyuqsuz,
Yerinc kimi siz çoxdandır ayıqsız,
Çətinlikdən qorxma, bir yol tapılar.

***

-Gəldim sizə yardım olum qonaq yox,
Yardim etmək çox ağrını toxdadar.
Yaralarım, yanıqlarım sağalıb,
Yardım etmək çox ağrını toxdadar.

-Turpar, oğlum, içəri gəl, bu sənsən?
Gəl içəri, öz oğlumu görüm mən,
Dörd oğlum var, beşinci də balam sən,

Yardım etmək çox ağrını toxdadar.

Bir ər gördü qarşısında Elçiçək,
Bir ər idi üz örtüyü ağ ipək,
O sarsıldı,” Turpar ola bu gərək”,
Hündür, qıvraq, köküs iri, saç seyrək,
Yardım etmək çox ağrını toxdadar.

Dedi:-Götür üz gözündən örtüyü,
Görüm kimdir arxam, için, kötuyun,
Atam məni unutmuşdur büstbütün,
Sevindirib məni deyən, o bu gün,
Turpar açdı oddan yanmış üzünü,
O göstərdi iki yanıq gözünü,
Alnındakı çapıqların izini,
Yardım etmək çox ağrını toxdadar.

Elçiçəyin sanki axdı ürəyi,
Düşdü yerə sonbeşiyin bələyi,
Düşdü yerə başındakı örpəyi,
Yardım etmək çox ağrını toxdadar.

Dedi:-Tanrım, bu Turpardı elə bil,
Sanki yanmış kötüyüdür, o deyil,
Başında da nə tük qalıb, nə kəkil,
Turpar sanki qocalıbdır doxsan il,
Yardım etmək çox ağrını toxdadar.
Dedi:-Turpar, sən beşincim olarsan,
Lap istəsən burda mənlə qalarsan,
Lap bəyənsən burdan bir qız alarsan,
Oğlum olub burda yer-yurd salarsan,
Yardım etmək çox ağrını toxdadar.

İstəyirsən qoruqçu ol sən mənə,
Qal burada Besyar anan gələnə,
Önər, Bacar, qoçaq igid ol yenə,
Yardım etmək çox ağrını toxdadar.

-Mən gəlmişəm sizə yardım etməyə,
Dörd qardaşın yer-yurduna getməyə,
Ana-bala görüşünə yetməyə,
Yardım etmək çox ağrını toxdadar.

-Öncə gedək ananı gör, qucaqla,
Doğmaları, tanışları soraqla,

Düşmənlərin var-yoxunu ayaqla,
Sonra igid Önər kimi yaraqlan,
Bir gözəllə evlən, seviş, adaxlan,
Yardım etmək çox ağrını toxdadar.

-Anam sağdır görən?
-Sağdır, bilirəm,
-Nən anamçın bir də, bir də ölürəm,
Dirilirəm, bir də bura gəlirəm,
Yardım etmək çox ağrını toxdadar.

***

Danışdılar Turpar ilə Elçiçək,
Tez tapışar ağrı ilə ağrılı.
Doğmalardan yaxınlardan gileylər,
Tez tapışar ağrı ilə ağrılı.

Mindiyarın böyükləşmə qorxusu,
Ölkə-ölkə, diyar-diyar qurğusu,
Elçiçəyin ana-bala ağrısı,
Tez tapışar ağrı ilə ağrılı.

Turpar dedi:-Mən yansam da bütövəm,
Qılınc, oraq itildənəm, bülövəm,
Mindiyarlı, Minelliyəm, min evəm,
Tez tapışar ağrı ilə ağrılı.

Elçiçək də gileyləndi ərindən,
Dörd oğlunu o oynatdı yerindən,
O, kövrəldi, ağırlaşdı dərindən,
Tez tapışar ağrı ilə ağrılı.

Yerinc birdən yada saldı balanı,
Dedi:-Gedək sorağına Çatanın,
Nəvə doğan bir misirli ananın,
Tez tapışar ağrı ilə ağrılı.

Turpar dedi:-Bəyənirəm bu işi,
Bu işin var uzaq yolu, gedişi,
Bayram olar ana-bala görüşü,
Tez tapışar ağrı ilə ağrılı.

Çatan şahdır, sevimli şah Misirdə,
Firon ilə yan yanadır o yerdə,

Gedək, firon olmasa bəs o birdən,
Tez tapışar ağrı ilə ağrılı.

-Eldəbiri özümüzlə götürək,
Özümüzü Çatan şaha yetirək,
Onu alaq öz yurduna gətirək,
Tez tapışar ağrı ilə ağrılı.

Eldəbiri çağırdılar, o gəldi,
Elçiçəyin istəyini o bildi,
Danışığa qarışaraq o güldü,
Tez tapışar ağrı ilə ağrılı.

Ancaq Tunqər bundan soraq tutmadı,
Misrə yola düşənlərə çatmadı,
Acığından neçə gecə yatmadı,
Bu işləri şah işinə qatmadı,
Çox deyindi, söz başına batmadı,
Tez tapışar ağrı ilə ağrılı.

O başladı Parsdiyara yürüşü,
Getdi alsın qabağını dönüşün,
Gördü yürüş işi daha toqquşub,
Darvidellə Parsel gizli görüşür,
Hələ pis-pis ağlaşaraq opüşür,
Tez tapışar ağrı ilə ağrılı.

Tez-tez gülüb o başını tovladı,
Ürəyindən acığını qovladı,
Dallarınca on yaraqlı yolladı,
Tez tapışar ağrı ilə ağrılı.

***

Parsdiyarı üzdü Tunqər yürüşü,
Hay-küy, yalan yeydir öncə yürüşdə.
Qaçan qaçdı, qalan qaldı vuruda,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Buzər yığdı sıralara on bölük,
Geyimi yox, çiyin cırıq, diz sökük,
Yorğun atlar, bir dəridir, bir sümük,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Buzər yazı yola saldı Tunqərə,
“Niyə yenə buyurubsan bu yerə,
Buralarda qan tökübsən yüz kərə,
Qayıt, dəymə Parsdiyarda ellərə,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Biz bir ölkə yaradırıq Darvidlə,
Sıralanıb ac yalavac igidlər,
Bəsdir daha gostərişlər, öyüdlər,
Dönmə, sən gəl bizuc, qılınc gəmirtlə”,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

-Çilçil atım, sıçra yerdən al məni,
Gəmirtdəmə ağzındakı yüyəni,
İndi Minel baxır bizə güvənir,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Acıqanda acığa bax, sözə bax,
Çatdır məni o Buzərə çaparaq,
Keş dağları, uç göylərə quşsayaq,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Yaraqlılar at belinə tullandı,
Kirpiklərdən öclə acıq sallandı,
Haydı, toplum Parsdiyara yollandı,
Oynaq atlar kişnərtiylə yallandı,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Guruldadı bulud, endi aşağı,
Çən süzülüb tutdu yolu, otlağı,
Buzər yandan qarşıladı “qonağı”,
Birdən haray, hay-küy aldı ovlağı,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Birdən Besyar çıxdı yoldan irəli,
Yaşlı, iri gözlər sanki bərəlib,
Qalxdı göyə titrək arıq cüt əli,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Dedi:-Qardaş, birbirizi qırmayın,
Qılınclaşıb baş-gözüzü yarmayın,
Bəsdir bu qan, ta üz-üzə durmayın,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Turpar sağdır, vuruşmayın boş yerə,

Ancaq yanıb üzü dönüb kömürə,
Yanıq köksü bənzər qara dəmirə,
Qoy bu görüş barış olsun son kərə,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Eldəbirlə Turpar çıxdı araya,
Qoşuldular yürüş edən sıraya,
Toplum döndü qışqırığa haraya,
Ana səsi hər bir yerdə yarayar,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Buzər dedi:-Gizlədirsən düzlüyü,
Qoy götürsün Turpar üzdən örtüyü,
Üz döndərib o itirib bizliyi,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

Turpar dedi:-Mən ocaqda yansam da,
Sən söyləyən bizliyimi dansam da,
Öz anamı ana yurdum sansam da,
Anam kimi öz tanrımı ansam da,
Hay-küy, yalan yeydir öncə yürüşdə.

***

Anam desə, “oğul, get öl, ölərəm,
Yer üzünü qancıldan sil, silərəm,
Mən anamı ana tanrı bilərəm,
Analardan başlamışdır yaranış.
Biz üç atlı Misirelə gedirdik,
Anamızla bu yaxından ötürdük,
Toplumların yürüşünü görürdük,
Analardan başlamışdır yaranış.

Çatan orda baş şahbaşı olubdur,
Neçə ildir o şahlıqda qalıbdır,
Ancaq ana həsrətindən solubdur,
Analardan başlamışdır yaranış.

Başlamısız siz yenə də yürüşə,
Biz gedirik Çatan ilə görüşə,
Hərə gərək istəyinə yetişə,
Analardan başlamışdır yaranış.

Tunqər atdan düşdü gəldi qabağa,
Dedi:-Turpar dönüb tanrısayağa,

Dedi:-dedi durun, əl atmayın yarağa,
Analardan başlamışdır yaranış.

Dedi:-Turpar, neçə kərə bağırdım,
Od-ocaqdan səni geri çağırdım,
Sənsə getdin, onda yağış yağırdı,
Yarıtanrı Turqər gendən baxırdı,
Analardan başlamışdır yaranış.

Demə Daryaş aldadırmış bizləri,
Sən bağışla oğlum, babam Tunqəri,
Demə, oddan sən çıxıbsan dipdiri,
Analardan başlamışdır yaranış.

Mən bilirəm ana yalan danışmaz,
Sən Turparsan, bu yürüşə qarışma,
Alpis ilə, Parsdiyarla barışma,
Analardan başlamışdır yaranış.

Eldəbirlə Uğurelə get indi,
Elçiçəyi götür, onu sevindir,
Çatan şaha tamarzımız dərindir,
Analardan başlamışdır yaranış.

Bu gün yürüş olmayacaq, axşamdır,
Buna gorə bu gün bizə bayramdır,
Turpar bunca yarıtanrı adamdır,
Analardan başlamışdır yaranış.

Iki toplum çəkildilər geriyə,
Tanrım, nədir, ana çıxar bəriyə,
Yanan, batan, ölən dönər diriyə,
Çox anasız, köksüz nə var, çürüyər,
Analardan başlamışdır yaranış.

Diri dilsiz, dilli durun sıraya,
Bir-bir hər gün siz baş əyin anaya,
Yoxsa tanrı bizdən küsər, qınayar,
Analardan başlamışdır yaranış.

Böyük tanrım, nə güc verdin qadına,
O hər yerdə cumur əl tut yardıma,
O ortaqdır sənin böyük adına,
Analardan başlamışdır yaranış.

Ana, ana geyin şahlıq geyimi,
Dayan ərlər sırasında ər kimi,
İki yana göstər ana ərkini,
Sənlə hamı pisliyini tərgidir,
Analardan başlamışdır yaranış.

Çatan şah söyləncі

Çatan şaha “muştuluq” ver dedilər,
Sevindirmək şahı çox-çox çətindir.
Mindiyardan anan gəlib dedilər,
Sevindirmək şahı çox-çox çətindir.

Sara tez-tez işə salıb yamanı,
Söyləyirdi, sənіnkilər bəs hanı,
Qurtarmadı sənin şahlıq yalanın,
Danlayırdı hər gün əri Çatanı,
Sevindirmək şahı çox-çox çətindir.

Bir soyuqluq yaranmışdı arada,
Ayırırdı Sara ağı qaradan,
“Necə oldu sənіnkilər, harada”,
Bu sözləri eşidirdi yaradan,
Sevindirmək şahı çox-çox çətindir.

Firon ona şah söylədi, şah oldu,
Çatan on il bunca soldu saraldı,
Gen saraylar gözlərində daraldı,
Sevindirmək şahı çox-çox çətindir.

Şah deyərək ona dodaq büzdülər,
Sonanılar ondan uzaq gəzdilər,
Kimsəlilər kimsəsizdən bezdilər,
Sara üçün onlar buna dözdülər,
Sevindirmək şahı çox-çox çətindir.

Çatan tez-tez dedi, Minel, Mindiyar,
İnanmadı buna böyük varlılar,
İnanırdı buna yerdə qalanlar,
Hərənin də burda özgə yeri var,
Sevindirmək şahı çox-çox çətindir.

On il keçdi Çatan üçün bu sayaq,
İndi gəlib neçə atlı çaparaq,
Olub Çatan şaha yeni bir dayaq,
Sevindirmək şahı çox-çox çətindir.

Çatan görüb anasını kövrəldi,
Bir ox atan yaya döndü, gərildi,
Düşüb onun ayağına sarıldı,
Bunu görüb acı gözlər bərəldi,
Sevindirmək şahı çox-çox çətindir.

Üz örtüklü Turpar birdən ağladı,
Qaçıb şahı yerdən alıb haqladı,
Onun şahlıq vüqarını saxladı,
Bu, hamının ürəyini dağladı,
Saray bundan coşdu, daşdı, çağladı,
Sevindirmək şahı çox-çox çətindir.

Ana üzük bağışladı Saraya,
Üstəlik də almaz, qızıl, zərxara,
Sonra bağış, mal qarışdı var-vara,
Göz dirəndi parlaq ipək mallara,
Sevindirmək şahı çox-çox çətindir.

Çatan şahsa anasını tutmuşdu,
Göz yaşını göz yaşına qatmışdı,
Iki arzu biri-birinə çatmışdı,
Sevindirmək şahı çox-çox çətindir.

Eldəbirlə Turpar şaha baxırdı,
Şah çaşmışdı, bu, onları sıxırdı,
Burda hər söz, gülüş, baxış ağırdı,
Sevindirmək şahı çox-çox çətindir.

Turpar susur üz örtüyü dalında,
Bərk tuturdu Eldəbirin qolundan,
Yol olmuşdu ana bala yolunda,
Sevindirmək şahı çox-çox çətindir.

***

Düşünürdü Turpar gözəl Sonanı,
Sevgi daha yanqı olur uzaqdan.
Sanki o bərk gileyliydi hamıdan,

Sevgi daha yanqı olur uzaqdan.

Eşitmişdi Sona Tunqu soyubdur,
Soyunaraq ər paltarı geyibdir,
“Məni Turpar siz çağırın” deyibdir,
Elçi gələn ərə ağız əyibdir,
Sevgi daha yanqı olur uzaqdan.

Söyləyirdi, Sonam sağam, ayığam,
Mən Turparam, hər bir yandan yanığam,
Hər bir yandan üz örtüklü qoruğam,
Mən güclüyəm, ancaq sənsiz yazığam,
Sevgi daha yanqı olur uzaqdan.

“Mən od-ocaq sınağından çıxmışam,
Şimşək olu öz-özümə çaxmışam,
Külü, odu öz üstümə yığmışam,
Sevgi daha yanqı olur uzaqdan.

Mən sən görən görkəmimi itirdim,
Tanrı verən yeni görkəm götürdüm,
O günləri dalda qoyub itirdim,
Elçiçəyi Çatanına yetirdim,
Sevgi daha yanqı olur uzaqdan.

Qayıdaram səni gəlib taparam,
Alpislərin tutuğundan qaparam,
Külək ollam sənə doğru çaparam”,
Sevgi daha yanqı olur uzaqdan.
Eldəbirə yaxınlaşıb təkbətək,
Biri ondan soruşurdu gülərək,
-Bu sarayda üz örtüyü nə gərək,
Bu örtükdü üzdə yoxsa kəpənək,
Sevgi daha yanqı olur uzaqdan.

Eldəbirsə dedi:-Üzü yanıqdır,
Üzü, alnı neçə yerdən çapıqdır,
Bu sarayda belə sorğu artıqdır,
Sevgi daha yanqı olur uzaqdan.

Bu sözləri Turpar gendən eşitdi,
Sanki yeldi, üz-gözünü şişirtdi,
Həm də sınıq ürəyini üşütdü,
Gəldi dedi:-sən bu işə qarışma,
Üz örtüyü hər adama yaraşmaz,

Yoxsa qonaq səndən küsər barışmaz,
Ev yiyəsi gördüyünü soruşmaz,
Sevgi daha yanqı olur uzaqdan.

İstəyirsən üz-gözümü görəsən,
Gərək mənlə sən güləşə girəsən,
Bassan məni onda sorğu verəsən,
Sevgi daha yanqı olur uzaqdan.

Ev yiyəsi porsuq kimi kök idi,
Ayrılmışdı Sara gildən, tək idi,
Qulaqları xırda idi, şək idi,
Danışığı acı idi, bərk idi,
Sevgi daha yanqı olur uzaqdan.

Dedi:-Çox da qürrələnmə, qonaqsan,
Çox tutqunsan, sanki qəribsayaqsan,
Şahımızın anası ilə ayaqsan,
Bir güləşci vardır bizdə sənsayaq,
Mənlə deyil, onla güləş, qoçaqsan,
Sevgi daha yanqı olur uzaqdan.
Çağırdılar güləşçini, devsayaq,
Qıçlar kötük, gövdə iri, baş tabaq,
Göz qorxulu, üzü dolu, alyanaq,
Sevgi daha yanqı olur uzaqdan.

Hamı gəldi bu güləşlə görüşə,
Az qaldı ki, güləş donsün döyüşə,
Bu iş döndü üzdə acı gülüşə,
Sevgi daha yanqı olur uzaqdan.

Çox çəkmədi Turpar onu hərlədi,
Birdən tutdu ortasından, bellədi,
Başı üstə qaldıraraq yellədi,
Qoydu yerə, yavaşcadan hellədi,
Sevgi daha yanqı olur uzaqdan.

Turpar qoydu yerə iki dizini,
Üz örtüyün, çəkdi açdı üzünü,
Dedi, ancaq qaldırmadan səsini,
Sevgi daha yanqı olur uzaqdan.

-Mən Turparam, Mindiyarın oğluyam,
Anam-bacım Elçiçəyə bağlıyam,
Yersiz gülüb danışandan dağlıyam,

Sevgi daha yanqı olur uzaqdan.

Mindiyarın şahı Tunqər alpandır,
Qabağında Basar, güclü yalandır,
Sonbeşiyi sizin şahız Çatandır,
Sevgi daha yanqı olur uzaqdan.

Mindiyara Misir olsun bir dayaq,
Bundan sonra yaxın olaq, bir olaq,
Biz sizlərdən pambıq alaq, duz alaq,
Sizdə bizdən ipək, göy daş, qarayağ,
Sevgi daha yanqı olur uzaqdan.
Hamı gəldi söz eşitdi, danışdı,
Bir-birinin əl qolundan yapışdı,
Güləşçilər qucaqlaşdı, barışdı,
Sanki Misir Mindiyara qarışdı,
Sevgi daha yanqı olur uzaqdan.

Birdən Turpar soraqladı ananı,
O düşündü, niyə gözəl Sonanı,
Atdım-atdım gəzdi, gördü hər yanı,
Gördü Sona ondan üstün dayanır,
Sevgi daha yanqı olur uzaqdan.

“Qayıdaram Sonam mənim, biryolluq,
Sənlə anam bir də Turpar bir olluq,
Bizdən uzaq olsun Alpis biryolluq,
Ölkə bizə arxalansın qoy artıq”,
Sevgi daha yanqı olur uzaqdan.

XXXI QAPI

Buzər söyləncі

Sona oğlan paltarında gəzirdi,
Oğlan qıza, qız oğlana oxşayar.
Nə olaydı mən də oğlan olaydım,
Oğlan qıza, qız oğlana oxşayar.

Buzər hər gün düşünürdü Sonanı,
“Görüşdürüm Sona ilə anamı,
Salım işə, açım çox-çox yalanı,
Daryaş gedən yolu, olan-qalanı,
Oğlan qıza, qız oğlana oxşayar.

Yaxınlaşım Sona ilə Turpara,
Ikisinə vurum lapdan bir yara,
Bu yaradan birini də Besyara,
Oğlan qıza, qız oğlana oxşayar.

Mən onları Turqa qarşı yollayım,
Üçünü də yalan ilə çullayım,
Mən onları sonda yana tullayım,
Şah atımı yəhərləyim, yallayım,
Onu qızıl nallar ilə nallaym,
Oğlan qıza, qız oğlana oxşayar.

Düşünürdü Buzər hər gün bax belə,
Iki adam göndərmişdi Minelə,
Ancaq Sona görünmürdü, yox hələ,
Oğlan qıza, qız oğlana oxşayar.

Hərdən özü cındır geyib gedirdi,
Uzaq-uzaq kənd yerində itirdi,
Axtarırdı qızı, yollar bitirdi,
O Sonanın yanından da ötürdü,
Oğlan qıza, qız oğlana oxşayar.

Bilməyirdi ki, lap yaxında dayanan,
Qız deyildir, lap Sonadır bu oğlan,
Buzər bunu nə biləydi, haradan,
Oğlan qıza, qız oğlana oxşayar.

Bir gün Buzər bir oğlanla görüşdü,
-:Burda Sona adlı qız var?- soruşdu,
Oğlan baxdı ona, üzü dəyişdi,
Oğlan qıza, qız oğlana oxşayar.

Oğlan dedi:-Vardır, bizə yaxındır,
Ancaq o qız çox üzlüdür, çılğındır,
O qız deyil, dava-dalaş, qırğındır,
Oğlan qıza, qız oğlana oxşayar.

Buzər dedi:-Elə odur, düz dedin,
Hələ onda olanları az dedin,
Bir yol göstər, o qız gilə mən gedim,
Oğlan qıza, qız oğlana oxşayar.

Yola düşdü, oğlan Buzər dalınca,

O gəzdirdi onu, gücdən salınca,
Buzər əzgin, bənzər boş bir balınca,
Oğlan qıza, qız oğlana oxşayar.

Öz evinə gətirdi o, qonağı,
Daldan vurdu peysərindən çomağı,
Yapdı onu yerə təzəksayağı,
Oğlan sardı onun əlin-ayağın,
Oğlan qıza, qız oğlana oxşayar.

Dedi:-Mənəm sən axtaran Sona, mən,
Parsdiyara şah olmazsan bir də sən,
Tərpənmirsən burda Buzər, yerindən,
Daryaş öldü, o dirildi yenidən,
Istəyirsən sən də diril, öl hərdən,
Oğlan qıza, qız oğlana oxşayar.

Buzər dedi:- Turpar sağdır, ay yazıq,
Misireldən qayıdıbdır o artıq,
Götür onu gəl Parselə bir aylıq,
Qarşılaram onu şahtək, bir olluq,
Keçər gedər bu ayrılıq, uzaqlıq,
Oğlan qıza, qız oğlana oxşayar.

Sona çaşdı, inanmadı Buzərə,
Turpar deyə, soraq verdi hər yerə,
O əl atdı yerə, göyə, gör-görə,
Dop-dolaşıq söyləyirdi söz hərə,
Oğlan qıza, qız oğlana oxşayar.

Ancaq sözü Buzər şahın düz oldu,
Sona çaşdı bir sevgisi yüz oldu,
O gözlədi, çox yollara göz oldu,
Qara günü işıqlandı, yaz oldu,
Oğlan qıza, qız oğlana oxşayar.

***

Iki atlı lapdan durdu üz-üzə,
Tanrı gücü verib ölməz sevgiyə.
Atlar durdu, biri birini tanıdı,
Tanrı gücü verib ölməz sevgiyə.

Bir-birini tanımadı atlılar,
Kimdir bunlar, bu Sonadır, bu Turpar,
Mindiyarda üzü yanıq biri var,

Üz örtüyü dalından da tanınar,
Sona dedi:-Sən Turparsan ay oğlan,
Turpar dedi:-Sən Sonasan ay oğlan,
Yaxınlaşıb dayandılar yanbayan,
Öpüşdülər üz örtüyü dalından,
Tanrı gücü verib ölməz sevgiyə.

Sürtüşdülər, iyləşdilər atlar da,
Bunlar harda, tanrım söylə sən harda,
Bunlar sevgi içindədir, şah darda,
Tanrı gücü verib ölməz sevgiyə.

Sona dedi:-Turpar, sənə nə olub,
Üzün yanıb çapıqlaşıb, az solub,
Nə olubsa yaraşığın yey olub,
Görkəmini bir xoş görüş, zəhm alıb,
Tanrı gücü verib ölməz sevgiyə.

Sona dedi:- At örtüyü, aç, görün,
Sənin artıb, çoxalıbdır ər yerin,
Yeydir mənə, mən beləcə üz görüm,
Tanrı gücü verib ölməz sevgiyə.
Turpar atdı üz örtüyü üzündən,
Çox sevindi qızın igid sözundən,
Aldı öpdü qızın qara gözündən,
Tanrı gücü verib ölməz sevgiyə.

***

Tunqər bildi, çağırtdırdı onları,
Başçı gərək üzüyola olmaya.
Dedi:-Oğlum, qızım, doğmam, sevimlim,
Başçı gərək üzüyola olmaya.

Necə gündür Buzər gedib, yox olub,
Yerinc yeri Parsdiyarda boş qalıb,
O yerləri qıtlıq alıb, vay alıb,
Başçı gərək üzüyola olmaya.

Düş qabağa, toy günləri gələcək,
Besyar ana sevinəcək, güləcək,
Nəvə görüb özün nənə biləcək,
Başçı gərək üzüyola olmaya.

Parsdiyarda Buzər yerinc olammaz,
Olsa bir ay heç yerində qalammaz,

Ölkə belə bicləməylə dolanmaz,
Başçı gərək üzüyola olmaya.

Parsdiyarda yerinc yeri sizindir,
O yer, o yurd, o dağ, oylaq bizimdir,
Bilin bu da mənim köklü sözümdür,
Başçı gərək üzüyola olmaya.

Sona dedi:-Buzər məndə tutuqdur,
Əl-ayağı bağlı, ağzı yumuqdur,
Gözü başı, qarnı şişib tuluqdur,
Bicləmədə şah deyildir, yoluqdur,
Başçı gərək üzüyola olmaya.
-Bunu hələ gətirməyin siz dilə,
İş başına keçməyimiz var hələ,
-Qorxuram ki, ac qalaraq o ölə,
Başçı gərək üzüyola olmaya.

-Alıb onu gecə sallıq dustağa,
O çəkilər bicləmədən qırağa,
Qalar-qalar dönər dərin battağa,
Başçı gərək üzüyola olmaya.

Parsel indi Darvideli bəyənir,
Bicləmədə Balasqelə güvənir,
O Hind, İlam, Asurellə öyünür,
Başçı gərək üzüyola olmaya.

Ayıq olmaq gərək vergi işində,
Ağrı olub vergi elin döşündə,
Bicləmədən tutuq bir iş düşəndə,
Başçı gərək üzüyola olmaya.

Indi ölkə dolandırmaq ağırdır,
Ad qazanmaq yerinc üçün uğurdur,
Uğursuz şah, yerinc, başçı sağırdır,
Başçı gərək üzüyola olmaya.

Indi gedin ananızla görüşün,
Çox işlər var, bollu, ondan soruşun,
Siz qayıdın o anaya qarışın,
Acıqan var üzüyola, barışın,
Başçı gərək üzüyola olmaya.

***

Besyar öncə qucaqladı Sonanı,
Evi, üzü gülləndirən qonaqdır.
Dedi:-Qızım, sən Turpardan qocaqsan,
Evi, üzü gülləndirən qonaqdır.
Göz yaşıdır hər görüşdə yaraşıq,
Ana bala oldu iki sarmaşıq,
Ev gülləndi iki sevgi qarışıq,
Evi, üzü gülləndirən qonaqdır.

Ana üç yol balasını yaladı,
Üzərlikdən qalın tüstü qaladı,
Dörd yanına bulaq suyu tulladı,
Evi, üzü gülləndirən qonaqdır.

Çöldən bir səs eşidildi, xarıltı,
Sonra göydə, buludlardan gurultu,
Sonra sözlər eşidildi dilaltı,
Evi, üzü gülləndirən qonaqdır.

-Ahay Sona söylə Buzər hardadır?!
Zarıldayır, sanki başçı dardadır,
Deyən burda gizlədibsən, burdadır,
Evi, üzü gülləndirən qonaqdır.

Mən Alpisəm, qorxur məndən yaranış,
Yaxşıyla pis arasında yox barış,
Yoxdur yerdə yaranmışa qurtuluş,
Evi, üzü gülləndirən qonaqdır.

Mən sevirəm səni, bunu bilirsən,
Sən get-gedə mənə yaxın gəlirsən,
Mən yaşayır, sənsə hər gün ölürsən,
Evi, üzü gülləndirən qonaqdır.

Sona dedi:-Bu Alpisdir, qabırğa,
Turpar cumdu, gördü çöldə qasırğa,
Bir yiyəsiz atdır gələn, at yorğa,
Evi, üzü gülləndirən qonaqdır.

Dedi:-Alpis mən Turparam, yanığam,
Üz-göz, gövdə başdan başa çapığam,
Ancaq Sona sevgisində ayığam,
Bu sevgidə mən tanrıdan qoruğam,

Evi, üzü gülləndirən qonaqdır.

Mən Turparam, qalır ağır çəkərim,
Yammayıbdır köksüm, qolum, təpərim,
Yana-yana getdim gördüm Altyeri,
Yoxdur sənin Altyer, Üstyer dəyərin,
Evi, üzü gülləndirən qonaqdır.

En atından, görün gözə, vuruşaq,
Qılınc, bizuc, yaydan oxdan yapışaq,
Altyer, Üstyer deyib burda çarpışaq,
Ayaq üstə yaxalaşaq, çapışaq,
Evi, üzü gülləndirən qonaqdır.

Alpis getdi, qasırğa da dalınca,
At üstündə lap kimsəsiz, yalıncaq,
O qayıtdı sevgisiylə utancaq,
Evi, üzü gülləndirən qonaqdır.

Besyar çıxdı ona qayıt, get dedi,
Bu yerlərdən, Mindiyardan it dedi,
Yanlarını basa-basa yort dedi,
Evi, üzü gülləndirən qonaqdır.

Alpis getdi, sevgisindən utandı,
Nə oldusa dizi, dili qatlandı,
Ancaq yandı Sona üçün odlandı,
Evi, üzü gülləndirən qonaqdır.

Sona göyə tutmuş idi üzünü,
Bağlamışdı, qapamışdı gözünü,
Tanrılara çatdırırdı sözünü,
Evi, üzü gülləndirən qonaqdır.

Qonşu söyləncі

Parsdiyarı qızışdıran qonşular
Sənə yaxın, üzügülər qonşudur.
Hindel idi, Balasqellə, Asurel,
Sənə yaxın, üzügülər qonşudur.

Bilmişdilər Buzər itib, üç aydır,
Parsdiyarda gündə neçə yas, toydur,
Turpar sağdır, o da köklü Parssoydur,
Sənə yaxın, üzügülər qonşudur.

Gəlirdilər Mindiyarı çapmağa,
Mal-qaranı sürü-sürü qapmağa,
Əldən, evdən çörək, buğda tapmağa,
Adamları qul edərək satmağa,
Sənə yaxın, üzügülər qonşudur.

Unudurdu onlar, bir də qalanlar,
Bu ölkədə Alan, Sayan, Çatan var,
Bir də dönməz, dizçökməzdir bu diyar,
Sənə yaxın, üzügülər qonşudur.

Turqər, Tunqər, Dəmirqızı var hələ,
Eldəbirdən, Yüzdəbirdən yüz belə,
Saysan sənə yüz beləsi tuş gələr,
Sənə yaxın, üzügülər qonşudur.

Qonşu bilir kim varlıdır çəkimdə,
Parsdiyarsa yoxsul idi köküdən,
Var yox idi onun bunun bərkində,
Yağ yox idi dərisində, tükündə,
Su az idi quyuların təkində,
Sənə yaxın, üzügülər qonşudur.

Odur onlar yığışılıb durmuşdu,
Qonşuluqda yaxınlığı qırmışdı,
Yoldaşlıqda son cizgiyə varmışdı,
Aradakı ölkəliyi yarmışdı,
Sənə yaxın, üzügülər qonşudur.

Ancaq onlar gecikdilər arada,
Eşitdilər Turpar şahdır orada,
Bunla birgə durub Tunqər sırada,
Sənə yaxın, üzügülər qonşudur.

Mindiyara orda sevgi dərindir,
Tunqərəsə batmaq çox-çox çətindir,
Bu bölgüdə yerinc təzə gəlindir,
Ona qarşı Parsdiyarlı sərindir,
Sənə yaxın, üzügülər qonşudur.

Buzərşahı gəzdi tapsın acıqan,
Buzər idi döyüşlərdə çalağan,
O götürə bilər Tunqu aradan,
Sənə yaxın, üzügülər qonşudur.

Turqər isə bu bölgünü bilmirdi,
Çoxdan idi bu yanlara gəlmirdi,
Mindiyardan bir səs-soraq gəlmirdi,
Odur, bunca o da deyib gülmürdü,
Sənə yaxın, üzügülər qonşudur.

Soraq çatdı Mindiyara, ellərə,
Acıqanlar yayılıbdır çöllərə,
Səs salıblar, söz qoyublar dillərə,
Biz basarıq döyüşlərdə çox kərə,
Parsdiyardan almalıyıq yer hərə,
Sənə yaxın, üzügülər qonşudur.

Soraq çatdı Mindiyara, ellərə,
Acıqanlar yayılıbdır çöllərə,
Səs salıblar, söz qoyublar dillərə,
Biz basarıq döyüşlərdə çox kərə,
Parsdiyardan almalıyıq yer hərə,
Sənə yaxın, üzügülər qonşudur.

Acıqanlar söz yaymışdır yalandan,
Bu toplumda bir alay var qaplandan,
Arvad-uşaq çox öləcək bu qanda,
Soraq çatdı Mindiyara, ellərə,
Acıqanlar yayılıbdır çöllərə,
Sənə yaxın, üzügülər qonşudur.

Səs salıblar, söz qoyublar dillərə,
Biz basarıq döyüşlərdə çox kərə,
Parsdiyardan almalıyıq yer hərə,
Sənə yaxın, üzügülər qonşudur.

Qurdər gəldi, yardım olsun Turpara,
Başçı oldu Qurdər üç min çapara,
Mindiyardan iki toplum “diyara”,
Sənə yaxın, üzügülər qonşudur.

Eldəbirdi başçı bu gənc yaşında,
Dayanmışdı toplumların başında,
Acıq vardı üz-gözündə, qaşında,
Birləşmişdi Balasqellə Asurel,
Onlar əlbir olurdular ilbəil,
Bu birlikdə güc yox idi elə bil,

Bunu yaxşı anlamışdı Eldəbir,
Sənə yaxın, üzügülər qonşudur.

***

Dəmirqız da at səyirdib gəlirdi,
Öndəkilər arxalanır arxaya.
Uğureldə atlı alay yürüşdə,
Öndəkilər arxalanır arxaya.

Turparərin üz örtüyü var idi,
Tunc toxunma köynək ona dar idi,
Qılıncından qalxan işıq qor idi,
Öndəkilər arxalanır arxaya.

Yaraqlılar qorxurdular Turpardan,
Sağ əlində qılınc, soldasa qalxan,
Atı oynaq, atı yorğa, çapağan,
Öndəkilər arxalanır arxaya.

Gedə-gedə sıraları yarırdı,
Vurub, yıxıb hərdən səssiz dururdu,
Kimi qılınc arxasıyla vururdu,
Kimini də vura-vura yorurdu,
Öndəkilər arxalanır arxaya.

Acıqanın başçıları arxada,
Onlar hərdəm üzə çıxır arada,
Gözləyirlər Turpar çıxsın sıradan,
Çəkinillər bu gənc, atı yorğadan,
Öndəkilər arxalanır arxaya.

Parsdiyara onlar yürüş ediblər,
Bu diyardan şahlıq yeri güdüblər,
Ancaq batıb bir tərslikdə itiblər,
Öndəkilər arxalanır arxaya.

Görüblər ki əlbir olub sıralar,
Parsdiyara yardımçıdır Mindiyar,
O Qurdərdir, bu Sonadır, bu Turpar,
Qarışıqdır bu iş, burda nəsə var,
Öndəkilər arxalanır arxaya.

Qurdər, Sona vuruşurlar yanaşı,
Biri yerinc, o birisi Minbaşı,
Yaraqlılar güdür bacı, qardaşı,
Öndəkilər arxalanır arxaya.

Turpar vurur acıqana bizucu,
Başçılara doğru belə yol açır,
Yaralının tükənəndə son gücü,
Elə bil ki, ağac qopur, dam uçur,
Öndəkilər arxalanır arxaya.

Başçılarsa donub qalıb yerində,
Mindiyarı bu döyüşdə görəndə,
Düşünürlər, udqunurlar dərindən,
Öndəkilər arxalanır arxaya.

Səs yayılır Turqər gəlib döyüşə,
Asur, Balasq üz turşudur bu işə,
Qorxurlar ki, gücün yönü dəyişə,
Öndəkilər arxalanır arxaya.

Bu başçılar güdükçülər kim ola,
Kim olsa da yeriyirlər dal dala,
Ayrı ayrı qaçışırlar sağ sola,
Deyirlər ki, qarışıbdır yol yola,
Öndəkilər arxalanır arxaya.

Yaraqlılar bunu görüb gedirlər,
Başçıların gözlərindən itirlər,
Gedib kolluq arxasında bitirlər,
Öndəkilər arxalanır arxaya.

Vuruşaraq bağırırdı Sona da,
Tərs baxırdı yaraqlılar ona da,
Deyirdilər, bu qız çıxdı haradan,
O qız belə doğulmuşdur anadan,
Vuruşaraq bağırırdı Sona da,
Öndəkilər arxalanır arxaya.

Hərdən-birdən çağırırdı Turparı,
Üzüntüsü üz tutanda yuxarı,
Saç pırtlaşıq, üz büstbütün, sapsarı,
Qoruyurdu iki böyük diyarı,
Öndəkilər arxalanır arxaya.

Dörd bir yanda haray, həşir, gurultu,
Tutaqlardan qopan ağır xarıltı,
Yaralıdan qırıq-qırıq zarıltı,
Qaralırdı gözlərdəki parıltı,
Öndəkilər arxalanır arxaya.

Tunqər girdi döyüşlərə,-vur!-dedi,
Yer tutmağa gələnləri qır!-dedi,
-Üz bağrını, qov buradan,-yor!-dedi,
Nə dedisə hamısını gur dedi,
Öndəkilər arxalanır arxaya.

Acıqanlar başladılar qaçmağa,
Vuruşlardan geriyə yol açmağa,
Qalanlarsa boş torpağı qucmağa,
Öndəkilər arxalanır arxaya.

Alpisin sevgi söyləncisi

Buzər qaçdı gizli gəldi Parselə,
Qaçmaq yeni yaşamaqdır, sən demə.
Gördü hamı öz işində, döyüşdə,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Gördü bütün dəyişilib yerinclik,
Gördü burda nə qorxu var, nə dinclik,
Tutub yurdu dolaşıqlıq, girinclik,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Dedi:-Mənəm burda başçı, Turpar yox,
Yerinc mənəm burda Sona, Besyar yox,
Mənimkidir Parsdiyarda bu var-yox,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Dünənkilər dörd yanına yığıldı,
Bir çuxura qaçdı, evə soxuldu,
Biri dindi, biri susdu boğuldu,
Buzər dindi qorxu, ürkü dağıldı,

Danışdıqca yeni inam doğuldu,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Buzər dedi:-Gəlin ölkə quraq biz,
Yerinc olun, başçı olun hərəniz,
Mən olmasam olun burda başçı siz,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Yekta, Dota, Seta dönsün işinə,
Mən iş verim üç-dördünə, beşinə,
Vurmaz Turpar şahlıq daşı döşünə,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Tunqər gəlsə vuruşaram onla mən,
O ölkədə, biz olmayaq bəs nədən,
Qoy əl çəksin çıxıb getsin bu yerdən,
Ulamasın Mindiyara o hərdən,
Ta deməsin başlarbaşı mənəm, mən,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Biri dedi:-Olar bir söz soruşum,
Onlar niyə bizim üçün vuruşur,
Buzər onun sözlərinə qarışıb,
Deyir:-Onlar qurur yeni duruşu,
Sanki Parsel Mindiyarla barışıb,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Biz ölkəyik, daha diyar deyilik,
Diyar nədir, köləçilik, kölәlik,
Biz dözsək də bu duruma hələlik,
Dilənçilik, yoxsulluqdur belәlik,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Yığıldılar, danışdılar, durdular,
Özlərini inandırıb yordular,
Bir gündəcə böyük ölkə qurdular,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Gedən toplum basar döndü Parselə,
Gərək onun qabağına el gələ,
Turpar, Sona, Qurdər necə, nə bilə,
Buzərçilər gizli verib əl-ələ,
Gələnləri qıracaqlar ox ilə,
Dönəcəkdir qanaxmaza, qangölə,

Qaçmaq yeni yaşamaqdır, sən demə.

Qurdər nə isə bu qurğunu duymuşdur,
Yollar boyu gözətçilər qoymuşdur,

Bunu toplum içrə gizli yaymışdır,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Neçə takım qıvrağ getdi qabaqda,
Busqudakı Buzərçilər uzaqdan,
Gordülər ki, takım gəlir yaraqda,
Qorxub, qaçıb onlar düşdü ayaqdan,
Boş qalmışdır qazmaları bayaqdan,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Buzərçilər yayılmışdı yollara,
Sığınmışdı dağlardakı yallara,
Təpilmışdi dalda gizli dallara,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Oturmağa yeri yoxdu Turparın,
Saraydakı yerlər boş-boş, yapyalın,
Dildən qopan çox yaralı söz qalın,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Turpar qoydu boşluqları yerinə,
O tapşırdı çox işləri birinə,
Çevrilmişdi işlər alın tərinə,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

Turpar Buzər görüşdülər sarayda,
Düşüncələr dəyişmişdir bir ayda,
Dəyişmişdi biri-birini olaylar,
Dəyişmişdi pis, pisdikli, qolayda,
Qaçmaq yeni yaşamaqdır, sən demə.

***

-Mən Buzərəm, yol kəsənəm, biləsən,
Şah olmağa çox kiçiksən hələ sən,
Şah olsan da öz sevginə köləsən,
Qorxuram ki, bu duruşda öləsən,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Mən Buzərəm, Alpisim var, gücüm var,
Sən yazıqsan, çıx get burdan a Turpar,
Yoxsa səni ağır günə qoyallar,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Gecə yatdı Turpar, bezə büründü,
Alpis şaha yuxusunda göründü,
Yerdə atı, boz kölgəsi süründü,
O Turparla vuruşmağa ərindi,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Dedi:-Sənə toxunmuram, anan var,
Ilk sevgimin şahlar şahı Sonan var,
Sevgi vardır, ona məntək yanan var,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Sona gərək tanrı ola Altyerdə,
Mənlə ola, mənlə qala Altyerdə,
Ana ola, yuva sala Altyerdə,
Qızçiçəktək yaşa dola Altyerdə,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Turpar dedi:-Gözəl Sona mənimdir,
O, Altyerə, sənə qarşı qənimdir,
Qadın deyil, o oğlana dönümdür,
Sona mənim ay-ulduzum, günümdür,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Alpis dedi:-Gəl oturaq danışaq,
Bu Üstyerdə iki kişi barışaq,
Istəyirsən lap vuruşaq, yarışaq,
Biz Sonadan, kimi sevir, soruşaq,
Üçlük quraq, biz Altyerə qarışaq,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Mən Alpisəm, bir də ölüb, doğulmam,
Gedək mənlə, bu Üstyerdə boğulma,
Sən yanıqsan, orda, burda yıxılma,
Tunq yandırıb səni, mənə ağ olma,

Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

-Sən Sonadan əl çək, o qız gəlindir,
Bir könlü var, dənizlərdən dərindir,
Sənə qarşı dəmir kimi sərindir,
Ilk sevgimiz bizə dönməz kəbindir,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Şimşəkquyruq gözdən itdi bir anda,
Alpis güldü, həm ağladı yalandan,
O yapışdı yenə yaxşı, yamandan,
Istədi ki qıtlıq sala hər yanda,
Sevgi onu süpürlədi yamanca,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Dedi:-Onu sən sevirsən beş ildir,
Sənin sevgin bütöv sevgi deyildir,
Sevgi qandan, oddan uzaq bir güldür,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Sevirsənsə get Üstyerdə yuva qur,
Çovğun, yanğın, seldən, yeldən uzaq dur,
Sevgi olmaq, sevgi qurmaq bax, budur,
Sevə bilməz qızı, yurdu hər qotur,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Alpis yenə sevgisindən utandı,
Utanaraq boynu, beli qatlandı,
Birdən atın lüt belinə atlandı,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Buna görə sevə bilmir böyüklər,
Sevə bilmir içəridən çürüklər,
Soyuq gözlər, soyuq əllər, bəbəklər,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Alpis getdi, ta dönmədi Parselə,
Sevgi onu yontaladı bax, belə,

Döndü sevgi yollarında əfələ,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

El şah seçdi üzüyanıq Turparı,
Şah yey tutdu yoxsul, əli qabarı,
Beli əyən vergi yarı, yapyarı,
Yanaqlar al, təkcə çorək sap-sarı,
Sevgi nədir, çoxu bunu dadmayıb,
Dadan varsa istəyinə çatmayıb.

Qardanağ söyləncisi

Dümağ doğdu, oğlu oldu ağappağ,
İlk sevginin ilk beşiyi gözəldir.
Ad qoyuldu bu körpəyə Qardanağ,
İlk sevginin ilk beşiyi gözəldir.

Urər çox da sevinmədi uşaqla,
Baş qarışdı yemək, içmək qonaqla,
Bir il susdu Dümağ, soldu yanaqlar,
İlk sevginin ilk beşiyi gözəldir.

Doğdu qızlıq, köpük atdı Dümağın,
O unutdu güləşməyi, yarağı,
Batdı səsi, ancaq doldu qucağı,
O unutdu mal-qaranı, otlağı,
İlk sevginin ilk beşiyi gözəldir.

İldən-ilə böyüdükcə Qardanağ,
Çəkdi onu öz qoynuna dağ, oylaq,
Köksü sağlam, qolu güclü, başı sağ,
Adı qaldı dağlar oğlu Qardanağ,
İlk sevginin ilk beşiyi gözəldir.

O görmədi ata, ana marağı,
Urel dedi, qalxdı, endi qırtlağı,
Qucaqladı kolu, otu, alağı,
Sevdi qışda qışlağ, yayda yaylağı,
İlk sevginin ilk beşiyi gözəldir.

Bir gün gördü bir qurd bərkdən ulayır,
Getdi ona yandan baxdı, dolayı,
Onu görcək qurd quyruğun bulayır,
Balasını alıb tez-tez yalayır,
İlk sevginin ilk beşiyi gözəldir.

Yaralı qurd sanki düşüb ölürdü,
Axan qanı balasına silirdi,
Qurd elə bil öldüyünü bilirdi,
Sürünərək ona yaxın gəlirdi,
İlk sevginin ilk beşiyi gözəldir.

Gördü gendən baxır qurda yapalaq,
Eşələnir sıçramağa qurdsayaq,
Qurd öləntək bala qurdu udacaq,
Aldı, qaçdı bala qurdu o qıvraq,
Ilk sevginin ilk beşiyi gözəldir.

Bunu gördü, dinclik tapdı qurd nədən,
Silkələndi, güclə qalxdı yerindən,
Ancaq yerə sərələndi o birdən,
İlk sevginin ilk beşiyi gözəldir.

Balaca qurd Qardanağa sarmaşdı,
Ana bilib qucaqına dırmaşdı,
Zingildədi, Qardanağla qarmaşdı,
İlk sevginin ilk beşiyi gözəldir.

O bala qurd evdə artdı, böyüdü,
Dümağ ilə, Qardanağla uyudu,
Çoxu dedi. Bu qurd deyil, ayıdır,
Ilk sevginin ilk beşiyi gözəldir.

Dümağ dedi:-Min atını, çap, oğul,
Böyük baban Turqdur, onu tap, oğul,
Dediyini, bildiyini yay, oğul,
Get bacarsan, Turqbaba ol, ay oğul,
Onun kimi qurda sayınsay oğul,
İlk sevginin ilk beşiyi gözəldir.

Urel, Uryer köçərilər yurdudur,
Gəlib gedən ötərilər yurdudur,
Bura çoxdan təpərlilər yurdudur,
İlk sevginin ilk beşiyi gözəldir.

Urər gəlib burda yeni yurd salıb,
Dümağ kimi bir basılmaz qız alıb,
Sonra urlar axıb bura, lap dolub,
Gələn daha qayıtmayıb, çox qalıb,
İlk sevginin ilk beşiyi gözəldir.

Turqər deyib, Uru başev edəcək,
Əkbitənin başevliyi bitəcək,
Döyüş-vuruş, çarpışmalar ötəcək,
İlk sevginin ilk beşiyi gözəldir.

Qurdər Urda yerinc oldu otuz ay,
Qapı açdı satallığa taybatay,
Buradadır isti qışla, sərin yay,
Ərik, üzüm, alma, armud, limu, çay,
İlk sevginin ilk beşiyi gözəldir.

Mindiyarın ilk beşiyi Qılqamış,
İldə beş yol qar var, qırx yol gur yağış,
Çaylarıyla guruldayır dolanış,
Odur burda toxdaq olub yaşayış,
Oncə burda başlamışdır yaranış,
İlk sevginin ilk beşiyi gözəldir.

Turqər durub tanrılarla yanaşı,
Burda olub dillilərə başbaşı,
Şamxat qızı Turq Şamxatın qardaşı,
Başev olmaq burda buna yaraşır,
İlk sevginin ilk beşiyi gözəldir.

Çayı, gölü, axmazı var buranın,
Turqər kimi atası var buranın,
Minçiçəyi, boyası var buranın,
Ani kimi anası var buranın,
Orayla az arası var buranın,
İlk sevginin ilk beşiyi gözəldir.

***

Bir Qaşqa at verdi ata oğluna,
Tez unudar oğul ata verəni.
Şıllaq atıb oynaqladı Qaşqa at,
Tez unudar oğul ata verəni.

Qılınc verdi, qalxan verdi, bizuc, ox,

“Sağol” dedi, ancaq üzdə sevinc yox,
Anasını çox sevirdi, daha çox,
Tez unudar oğul ata verəni.

Bir il döyüş çəmi keçdi Qardanağ,
Vuruşlarda sındı, düşdü çox yaraq,
Yaralandı döş-baş, köküs, əl-ayaq,
Hər bir çəmi o öyrəndi beşsayaq,
Tez unudar oğul ata verəni.

Ata dedi:-Bacın olub, gözlə sən,
Qırxı çıxsın, sonra toxdaq gedərsən,
Çox ayıq ol, hər bir kəndən keçərsən,
Bir də ayıq öz-özündə itərsən,
Harda qorxsan çağır məni, gəlim mən,
Tez unudar oğul ata verəni.

Dedi:-Ata, körpə uşaq deyiləm,
Mən ağacda sallaq budaq deyiləm,
Mən oğulam, sınıq-salxax deyiləm,
Tez unudar oğul ata verəni.

Qırxı çıxdı qızın, adı Ağdanağ,
Qardaşına baxdı, güldü kök uşaq,
Bacısını öpdü, getdi Qardanağ,
Tez unudar oğul ata verəni.
Şamxat gördü Qardanağı ötəri,
O adladı görünmədən çəpəri,
Urər duydu bunu girdi içəri,
Yoxdu daha onçun sevgi dəyəri,
Tez unudar oğul ata verəni.

Şamxat bir gənc Urər gördü burada,
Son sevgisi dindi, durdu burada,
Qardanağa könül verdi burada,
Tanıdığı evə girdi burada,
Tez unudar oğul ata verəni.

Şamxat onda bərk sevirdi Urəri,
Burda onun alçalmışdı dəyəri,
Yox olmuşdur tanrılığın kəsəri,
Ayrılmışdır burdan incik, küsəri,
Tez unudar oğul ata verəni.

Qardanağı gördü Şamxat dayandı,

Əski sevgi diksinərək oyandı,
Urər deyil, Qardanağı bəyəndi,
Üzü sevgi işığına boyandı,
Tez unudar oğul ata verəni.

Gənc Qardanağ sanki gənc Urərdi,
Onda Şamxat ona köküs gərərdi,
Sevgi əkdi onda Şamxat, nə dərdi,
Tez unudar oğul ata verəni.

Ata Şamxat sevgisini duymadı,
Üz döndərdi, onu evə qoymadı,
Urər sevgi tanrısını saymadı,
Gələn Şamxat tanrısına uymadı,
Tez unudar oğul ata verəni.

Urdiyara gəldi Şamxat birbaşa,
Ona indi belə sevgi yaraşar,
Bu oyun da bənzəyirdi “beşdaşa”,
Tez unudar oğul ata verəni.

Bər-bəzəklə yeniyetmə qız oldu,
Yanqı gözlər, cüt dodaqlar köz oldu,
İpək idi, boyaqlandı bez oldu,
Getdi inam, bu sevgidə buz oldu,
Tez unudar oğul ata verəni.

***

Ora yaxın bir kənd vardı, dağınıq,
Yoxsul kəndin varı-yoxu otlaqdır.
Otlaqlarda bir qız düşüb qalmışdır,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

Üzüqoylu ağlayırdı ürəkdən,
Uşaq ağlar ancaq belə bələkdə,
Saçlarında toxunma börk, çiçəkdən,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

Yaxınlaşdı qızdan “kimsən” soruşdu,
Gördü onu, ala gözlər sayrışdı,
Bir də baxdı, bu yol üzü qırışdı,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

-Nənəm məni qovub evdən təpiklə,

Deyir, gərək sən gəzəsən örtüklə,
Necə gəzim mən, örtüklə, ələklə,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

Oğlan baxdı bu gözəlin üzünə,
O inandı ağlar qızın sözünə,
Durub qıvraq, qız oturdu tərsinə,
Yoxsul kəndin varı-yoxu otlaqdır.
-Sən gözəlsən, yerə yatma busayaq,
Gedək sizi barışdırım, alyanaq,
Qalar qallam sizə gecə mən qonaq,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

Gedək, səni mən aparram Ura mən,
Sonra hara istəyərsən, ora mən,
İstəməsən ayrılaram sonra mən,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

Qız söylədi:-Mən qorxuram, ay oğlan,
Sən həm igid, həm gözəlsən, həm aslan,
Tək-təkinə at çapırsan haradan,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

-Mən Ureldən at çapıram Uryerə,
Igid gərək iş axtara, iş görə,
Mən vurğunam bir də geniş Görgörə,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

-Al tərkinə, məni apar özünlə,
Mən çıxmaram sənin heç bir sözündən,
Qurtararam qarı nənə üzündən,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

-Gedək, öncə ağbirçəyi görüm mən,
Nənəmizin qulluğunda durum mən,
Alıb sənə özgə yuva qurum mən,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

Elə bu an bir səs gəldi uzaqdan,
Bir atlıydı, əli iti yaraqda,
Qız çəkilib durdu bir az qıraqda,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

-Nə durubsan, ahay oğlum, Qardanağ?

Kim yolunu kəsib, hansı yapalaq?
O Alpisdir, o Şamxatdır dur uzaq,
Yoxsul kəndin varı-yoxu otlaqdır.

***

Dümağ idi, Qardanağın anası,
Yuxuda da ana gəzir balanı.
O yuxuda ağlar gördü oğlunu,
Yuxuda da ana gəzir balanı.

Dümağ dedi:-Hara qaçdı o şırtı?
Sevgi deyib bu yollarda o qartıb,
Hər iyidi öz qoynuna o dartır,
Ondan sevgi, bundan ərlik o qırtır,
Yuxuda da ana gəzir balanı.

Dümağ çapıb, qıvraq gəlib çatmaqda,
Qız yox idi, yox olmuşdur otlaqda,
O baxırdı Qardanağa uzaqdan,
O qorxurdu iyid ana Dümağdan,
Yuxuda da ana gəzir balanı.

Qardanağ da dedi:- Ana yazıqsan,
Ayıqlıqda sən quşdan da ayıqsan,
Sən hamıdan, sən məndən də duyuqsan,
Yuxuda da ana gəzir balanı.

Nə bilirsən o qız pisdir, pozuqdur,
O gözəldir, gözəl ağzı yumuqdur,
Nənəsylə araları qırıqdır,
Elə demə, dediklərin artıqdır,
Yuxuda da ana gəzir balanı.

-O Şamxatdır, oğlum, sevgi tanrısı,
Ancaq yoxdur sevgi ilə arası,
Odur, çıxıb baxır bizə qarısı,
Yoxdur onun əri, evi, qapısı,
Yuxuda da ana gəzir balanı.

-Kim olsa da ana, o çox duyuqdur,
Qız ürəyi onun ovuq-ovuqdur,
Onu sevmə, o kimsəsiz yazıqdır,
Yuxuda da ana gəzir balanı.

Ana çaptı atı qızın yönünə,

Qarı çıxdı birdən onun önünə,
Qız büründü qatı meşə çəninə,
O qayıtdı yenə təklik gününə,
Yuxuda da ana gəzir balanı.

-Gördün oğlum, tanrılaşdı qız, nənə,
Çəkildilər deyən yerin dibinə,
Öyrənc olsun bu olaylar qoy sənə,
Mən anayam, bala inan sən mənə,
Yuxuda da ana gəzir balanı.

Acıqlandı anasına Qardanağ,
Dedi:-Ana qopuq olma busayaq,
Sən anasan, sən kötüksən, mən budaq,
Qayıt, səni səslər bacım Ağdanağ,
Yuxuda da ana gəzir balanı.

Bunu deyib o at qovdu o yana,
Girdi seyrək çənə, qatı dumana,
Dümağ soldu, döndü sarı samana,
Heç bilmədi atı çapsın hayana,
Yuxuda da ana gəzir balanı.

***

Tanrı, nə güc buyurubsan sevgiyə,
Sevgi ilə hər bir ürək uçardır.
Ata, ana çox üz vurma çəkil get,
Sevgi ilə hər bir ürək uçardır.

Tanrım, bax gör hara çapır Qardanağ?
Çapır qızın arxasınca çaparaq,
Bu sevgidir, ya qırıcı yatalaq,
Sevgi ilə hər bir ürək uçardır.

Nə dərindir bunun kökü, meynəsi,
Bu sevgiyə ata, ana neynəsin,
Tanrım, qoyma ana konlü göynəsin,
Qoy düzünü tanrı özü söyləsin,
Sevgi ilə hər bir ürək uçardır.

Gözəl Şamxat, sevirsənsə ərə get,
Hər yerə yox, səni sevən yerə get,
Get, ayrılmış sevgiləri seyrə get,
Hara getsən sən yaxşılıq törə, get,
Sevgi ilə hər bir ürək uçardır.

Qoy sevgiyə ölçü, sevgi tanrısı,
Sil üzlərdən ayrılığın sarısın,
İlk sevgi ol, ta olmasın ayrısı,
Hamı olsun ilk sevginin durusu,
Sevgi ilə hər bir ürək uçardır.

Sevgi öyrət, sevilməyi hamıya,
Sevgi apar hərbi evə, qapıya,
Sevgi anlat ağsaqqala, qarıya,
Sevgi ilə hər bir ürək uçardır.

***

Qardanağın Qaşqa atı yel idi,
Ata baxsan, yel nədir ki, ox olar.
Dedi:-Qaşqa, məni çatdır o qıza,
Ata baxsan, yel nədir ki, ox olar.
Dedi:-O qız ürəyimi aparıb,
Qaşqa atım, bir az da tez çaparım,
Qaçan qızı axtararım, taparım,
Ata baxsan, yel nədir ki, ox olar.

Qaşqa atım, qop torpaqdan, dön yelə,
Çap Ureldən, gedək çataq Uryerə,
Hara çatdı, harda qaçdı qız görən,
Ata baxsan, yel nədir ki, ox olar.

Qaşqa ata nə səs çatdı, nə də yel,
Dalda qaldı neçə oba, neçə el,
Alammadı qabağını nə çay, sel,
Ata baxsan, yel nədir ki, ox olar.

Bir qız gördü, su çəkirdi quyudan,
Dedi, durum, içim bir az o sudan,
Çıxım bir az yorğunluqdan, uyğudan,
Mənim anam nə deyirdi, doğrudan,
Ata baxsan, yel nədir ki, ox olar.

Qız su verdi Qardanağa tuluqda,
Su dişini gizildətdi soyuqdan,
Dedi:-Ay qız, görübsənmi yovuqdan,
Bir gözəl qız toxunma ot papaqda,
Ata baxsan, yel nədir ki, ox olar.

-O qız mənəm, bər-bəzəyi atmışam,
Mən Turqərin düz yolunu tutmuşam,
Yer üzünün hər dadını dadmışam,
Öz yolumu doğru yola qatmışam,
Ata baxsan, yel nədir ki, ox olar.

Mən Şamxatam, dönük sevgi tanrısı,
Dolanışın tutumunun yarısı,
Mənəm uçar düşüncələr pərisi,
Mənəm süzmə pətək balın arısı,
Ata baxsan, yel nədir ki, ox olar.

Məni sevmək, sevib qalmaq çətindir,
Mənim sevgim axmazlardan dərindir,
Sevən çoxdur, sevməyənlər min-mindir,
Şamxat isə sevgisində yetimdir,
Ata baxsan, yel nədir ki, ox olar.

Tanrı deyil, tanrılıqda ögeyəm,
Qıvraqlıqda, işdə həm yer, həm göyəm,
Üzdə tanrı, öc almaqda mən böyəm,
Sevməkdə yox, sevilməkdə mən keyəm,
Ata baxsan, yel nədir ki, ox olar.

Doğru sevgi tanrısı var, İştardır,
O, üzərdir, çapar, köçər, uçardır,
İştar bilir dolanışda nə vardır,
Tanrılıq var, bizim böyük diyardır,
Ata baxsan, yel nədir ki, ox olar.

Ana sevgi, mən sevdiyim o qadın,
Yaxınlaşdı mənə hər gün bir addım,
Tapşırdı ki, Yengisoyu aldadım,
Ata baxsan, yel nədir ki, ox olar.

Sonra Turqər, sonra Alpis, sonra mən,
Anan bilir, deyən sən də bilirsən,
Mən bu sayaq qopdum tanrı yerimdən,
Belə oldum öz-özümə tanrı mən,
Ata baxsan, yel nədir ki, ox olar.

İndi isə gördüyün mən bir qızam,
Turqdan sonra çətin bir də yol azam,
On ildən bir dəyişilir hər adam,
İndi daha öz-özümə mən yadam,

Ata baxsan, yel nədir ki, ox olar.
-Mən Qardanağ, sevdim səni Şamxatım,
Tanrı olsan, ya olmasan, boş addı,
Sənə kəsi həm Qardanağ, həm atı,
Ata baxsan, yel nədir ki, ox olar.

Şamxat dedi:-Gedək Turqa söyləyək,
Nə buyurur bu sevgiyə o görək,
İzin versə doğmalaşaq biz gərək,
Ata baxsan, yel nədir ki, ox olar.

-Anam deyir, get tap onu, Turqər ol,
Çətin yoldur, dolanbacdır bu düz yol,
Turqər kimi sən hər işdə ayıq ol,
Ata baxsan, yel nədir ki, ox olar.

Qaşqa atı qovur oğlan çaparı,
Sevincindən gənc ürəyi qabarır,
Bu sevgidir, onu hara aparır,
Ata baxsan, yel nədir ki, ox olar.

***

Bir səs gəldi, meşə susdu bu səsdən,
Tanınmazlar səsdən, dildən tanınar.
-Ahay, dayan üzü yanıq, sən kimsən?
Tanınmazlar səsdən, dildən tanınar.

-Mən Turparam, de sən kimsən yaraqlı?
-Mən Qardanağ, bu gözələ adaxlı,
Hər ikimiz Turq ataya tutaqlı,
Tanınmazlar səsdən, dildən tanınar.

Şamxat dedi:-Gedək, göylər qarışır,
Gedək, sənə bu Turpardan danışım,
Necə olub, o Tunqərlə barışıb,
Tanınmazlar səsdən, dildən tanınar.
Sevgililər atdandılar yəhərə,
Sağollaşıb üz tutdular Uryerə,
Duman çökdü, elə bil ki, yer-yerə,
Tanınmazlar səsdən, dildən tanınar.

Gedək tapaq Turqu, Turqa yaxını,
Turqdu kəsir qabağını qırğının,
Qovur qanlı quraqlığı, çovqunu,

Barışdırır qoğu, kalı, çılğını,
Tanınmazlar səsdən, dildən tanınar.

Mənə doğru yol göstərən Turqərdir,
Turq döyüşə qan-qadaya çəpərdir,
O, Bacardır, Düzər, Qızbax, Gücərdir,
Tanınmazlar səsdən, dildən tanınar.

Daşhörmələr söyləncі

Turq gedirdi, Şimşəkatı çaparaq,
Nə istəsən yolda, yalda taparsan.
İki toplum yürüməkdə Çinelə,
Nə istəsən yolda, yalda taparsan.

Turqa soraq gətirmişdi Qızılquş,
Acı qana göstərməkçin daş duruş,
Qaldırılır daş hörmələr min qarış,
Keçilməzdir burda eniş, həm yoxuş,
Nə istəsən yolda, yalda taparsan.

İşlədillər burda Hindel qulunu,
Saymır heç kəs işdə yağış selini,
Gecə yatır bürünərək çulunu,
Hörmələyir dağın döşü, yalını,
Kəsir onlar Acıqanın yolunu,
Nə istəsən yolda, yalda taparsan.
Daş daş üstə qoyur, qalxır buluda,
Hər atdımda bir qalaça, bir ada,
İşlədilir arvad, uşaq, gənc, qoca,
Nə istəsən yolda, yalda taparsan.

Bu hörmələr qalxır göylə dirəşir,
Bulud gəlir hörmə üstən sürüşür,
Yoxdur qapı, heç bir yerdən girişi,
Pozulubdur Acıqanın yürüşü,
Nə istəsən yolda, yalda taparsan.

Çinel harda, Minel, Muğel hardadır,
Daş hörmələr çinelliyə arxadır,
Yaraqlılar acdır, günü qaradır,
Acıqanın içi, çölü yaradır,
Nə istəsən yolda, yalda taparsan.

Toplumların qabağını aldı Tur,
Soruşdu ki:-Siz kimsiniz?
-Biz muğuq.
-Hara belə?
-Biz Çinelə cumuruq.
Turq söylədi:-Çinel indi bir qoruq,
Nə istəsən yolda, yalda taparsan.

-Biz bilirik onlar hasar çəkillər,
Muğel boyu qalaçalar tikillər,
Daşarası daş sürtüyü tökküllər,
Nə istəsən yolda, yalda taparsan.

Bu andaca qalxdı coşdu sərt külək,
İki toplum dağdan endi yüyürək,
Tapdalandı ayaq alta biçənək,
Danqıldadı qılınc, çomaq, dəyənək,
Nə istəsən yolda, yalda taparsan.

Turq bağırdı, atlar urkdü, dayandı,
Yaraqlılar Turqa sarı boylandı,
Çinel, Muğel boyu bu səs dolandı,
Çay diskindi, quş üst-üstə qalandı,
Nə istəsən yolda, yalda taparsan.

Turqər dedi:-Nə baş verib doğuda?
Niyə belə dəlisovsuz doğrudan?
Əl götürün qan-qan deyən uyğudan,
Nə istəsən yolda, yalda taparsan.

Tanrı məni göndərərək buyurub,
O hərəyə paylıq torpaq ayırıb,
Qan yox, əkin ac qalanı doyurub,
Nə istəsən yolda, yalda taparsan.

Biz tanrının yaratdığı dilliyik,
Bir oraqlı, bir günlüklü, elliyik,
Ağır işdə yurdumuza bəlliyik,
Ancaq üstün olmağıyçün yelliyik,
Nə istəsən yolda, yalda taparsan.

Tanrı deyir:-Qoyun yerə yarağı,
Alın ələ beli, xışı, orağı,
Əkin, biçin, pay verirəm torpağı,

Çəkin, için arxı çayı, bulağı,
Südlə dolu qzançanı, bardağı,
Nə istəsən yolda, yalda taparsan.

Sizi gözlər arvad-uşaq, qız, ana,
Dönün, baxın yaxşı-yaxşı o yana,
Qoymayın ki, inam, anlaq dayana,
Süd körpələr öz qanına boyana,
Nə istəsən yolda, yalda taparsan.

-Qoca, sənin bu sözlərin nə demək,
Ac gəlmişik, evə necə ac dönək?
Buyur görək, biz burada nə yeyək,
Nə istəsən yolda, yalda taparsan.

-Buyur,-dedi-Turqər o çay, o balıq,
Hər bir yandan yararlıdır bu varlıq,
-Qoca, burda çay dərindir, bulanlıq,
Yoxdur bizim başçılarda adamlıq,
Biz yaraqlı, o yanlıqıq, bu yanlıq,
Nə istəsən yolda, yalda taparsan.

Biri çıxdı dedi:-Qoca düz deyir,
Sən az danış, az vəngildə, az böyür,
Çörək ilə samanlığı seç, ayır,
Nə istəsən yolda, yalda taparsan.

Toplumbaşı çıxdı dedi:-Ay dədə,
Sən nəçisən, kimsən, söylə bu yerdə,
Toplumları laxladırsan dibindən,
Nə istəsən yolda, yalda taparsan.

-Mən Turqərəm, Mindiyarın atası,
-Mən də sənin Muğərinəm, qadası,
Sənsən bizim Mindiyarın qafası,
Bir yara var Muğla Çinel arası,
Bu quraqlıq, aclıq, qıtlıq yarası,
Tanrı bilər, nə olacaq sonrası,
Nə istəsən yolda, yalda taparsan.

Turqər dedi:-Deyən Muğel dardadır,
Bəs Mindəbir, niyə yoxdur, hardadır?
-Harda yem var, yeməli var ordadır,
Muğel acdır, el qıtlıqda, dardadır,

Nə istəsən yolda, yalda taparsan.

Çinellilər çoxiydilər, bir yüzə,
Sanki bulaq qarışmışdır dənizə,
Vuruş deyə durmadılar üz-üzə,
Ayrıldılar onlar gecə, gündüzə,
Nə istəsən yolda, yalda taparsan.

***

Turq söylədi:-Ay yaraqlı, Minellı,
Döyüş deyil, iş yaşadır adamı.
Gəlin Çinə yardım edək, əl tutaq,
Döyüş deyil, iş yaşadır adamı.

Yaraqlılar, qoyun yerə yarağı,
Bir-birinə tikin daşı, torpağı,
Bəsləyillər burda işlək qonağı,
Döyüş deyil, iş yaşadır adamı.

Hamı baxdı biri-birinə dayandı,
Urəyində yeni varlıq oyandı,
Çoxu gəlib tikintiyə boylandı,
“İş, iş” dedi, ilk sırada dayandı,
Döyüş deyil, iş yaşadır adamı.

Çinellilər çəkildilər qırağa,
Yol verdilər işə gələn qonağa,
Yer qalmadı daha gücə, yarağa,
Döyüş deyil, iş yaşadır adamı.

Turq Çinelli başçılarla görüşdü,
Muğellitək o da işə girişdi,
O yan bu yan bir-birinə qarışdı,
Bunla sanki, iki toplum barışdı,
Döyüşdə yox, işdə, gücdə yarışdı,
Döyüş deyil, iş yaşadır adamı.

***

Qızıl quşun səsi gəldi yaxından,
Nə olaydı insan quştək uçaydı.
Çıxdı yola Turqər, quşu çağırdı,
Nə olaydı insan quştək uçaydı.

Gördü Şamxat, yanında da bir oğlan,

Dedi:-Ellim, siz gəlirsiz hayandan,
Nə baş verib, nə səs-səmir oradan,
Mən də burda işləyirəm arada,
Nə olaydı insan quştək uçaydı.

Şamxat dedi:- Böyük ata, bağışla,
Yol gəlmişik bir ay qarda, yağışda,
Dayanmada heç, çökəkdə, yoxuşda,
Nə olaydı insan quştək uçaydı.

Biz gəlmişik səndən "həri" almağa,
Qardanağla ilk ər-arvad olmağa,
Sizə yaxın Uryerdə yurd salmağa,
Nə olaydı insan quştək uçaydı.

Qardanağ da gəlib səni görməyə,
Gəlib sənə el borcunu verməyə,
Gəlib burda toy çiçəyi dərməyə,
Nə olaydı insan quştək uçaydı.

Mən Şamxatam, ilk balamı doğaram,
Ərə getsəm, tanrılıqdan çıxaram,
Qarlayaram, yağış kimi yağaram,
Nə olaydı insan quştək uçaydı.

Şamxat dedi:-Bu Dümağın oğludur,
Ana, bala bunlar sənə bağlıdır,
Bizim kimi o Alpisdən dağlıdır,
Nə olaydı insan quştək uçaydı.
Turqər dedi:-Tanrı sizi saxlasın,
Olağızı bir-birinə bağlasın,
Turq da gəlsin sizi hərdən yoxlasın,
Tanrı gülsün, ancaq Alpis ağlasın,
Altyer uçsun, lap dibindən laxlasın,
Nə olaydı insan quştək uçaydı.

Baş əyərək Turqa dedi Qardanağ:
-Biz gəlmişik qulluğuzda dayanaq,
Atasayaq, oğulsayaq, qızsayaq,
Nə olaydı insan quştək uçaydı.

***

Turq düşündü, düz gəlməyir yaşları,
Hər yaşda var, sevgi yaşı saymayır.

Dedi, Şamxat ondan çox-çox yaşlıdır,
Hər yaşda var, sevgi yaşı saymayır.

Hamı sevir, ölənəcən sevgi var,
Yeniyetmə, gənc, yaşlıyla qocalar,
Eləsi var sevir hər il dalbadal,
Hər yaşda var, sevgi yaşı saymayır.

Lal sevgi var, küskün, üzlü, utancaq,
Var tərsinə, sancaqlama, ağyamaq,
Eləsi var, süpürləmə, şapalaq,
Var sevgiyə uyuşmayan qanacaq,
Var tələsən, var yerində çaparaq,
Hər yaşda var, sevgi yaşı saymayır.

Niyə belə saralıbsan, ay bala,
Bir dərisən, bir sümüksən, az qala,
Sevirsənsə, çap atını dördnala,
Kim geciksə, evlənmədən dul qalar,
Hər yaşda var, sevgi yaşı saymayır.
Səslə onu, sevgi tanrı payıdır,
Doğru sevgi, ata olmaq toyudur,
Təklik şahsa, həm də dayaz quyudur,
Hər yaşda var, sevgi yaşı saymayır.

***

Şamxat getdi çayqırağı bulağa,
Sevgi səni çəkər dönməz düzlüyə.
Əllərini tutdu göyə, ağladı,
Sevgi səni çəkər dönməz düzlüyə.

-İştar tanrı, məni bir də bağışla,
Ərə getdim, məni bunca alqışla,
Ta qurtardı doğru, yalan qarğışlar,
Həm də yalan inamlarla uçuşlar,
Sevgi səni çəkər dönməz düzlüyə.

Tapşırmışdın Mingəsoyu aldadım,
Getdim onun sürüsüylə otdadım,
Onla neçə döyüşlərdən adladım,
Ovuşdurdum, dağ gücünü qatdadım,
Sevgi səni çəkər dönməz düzlüyə.

Dedim, sevgi tanrısıyam yalandan,

Tanrılaşdım, qucaqlandım hər yanda,
Söz eşitdim hər çaqqaldan, qabandan,
Sevgi səni çəkər dönməz düzlüyə.

Günüm, ayım aldanışsız ötmədi,
Aldansam da mən pis yola getmədim,
Nə çox sevdim, sevgi tağım bitmədi,
Ancaq sənə bacı sevgim itmədi,
Sevgi səni çəkər dönməz düzlüyə.

Qızım olsa adın İştar qoyaram,
Oğlum olsa, adın Qoşqar qoyaram,
Hara getsəm səni tanrı sayaram,
Keçmişimi bu günümlə yuyaram,
Sevgi səni çəkər dönməz düzlüyə.

“Qızım” deyir Turqər Şamxat yazığa,
O, kül basır içimdəki yanığa,
Sən də əl tut, mən küskünə, atığa,
Qoy öc olsun bu çox ağzı yırtığa,
Sevgi səni çəkər dönməz düzlüyə.

Tanrı dedim mən özümə, yanıldım,
Şamxat deyil, İştar kimi anıldım,
Sevgilərim boşa çıxdı, danıldı,
Ancaq sonra çox işlərim qanıldı,
Sevgi səni çəkər dönməz düzlüyə.

Tanrı sənsən, mənsə sənin tutuğun,
Günəş sənsən, mənsə sənin qopuğun,
Gözəl sənsən, mənsə sənin topuğun,
Zirvə sənsən, mənsə sənin ovuğun,
Sevgi səni çəkər dönməz düzlüyə.

***

-Ana tanrı Ana, məni bağışla,
Bağışlamaq öc almaqdır deyillər.
Tapşırdığın işlər məni ucaltdı,
Bağışlamaq öc almaqdır deyillər.

Aldın məndən sevmək, doğmaq suçunu,
Verdin məndən vurmaq, yıxmaq gücünü,
Mən itirdim qadın olmaq ölçünü,
Bağışlamaq öc almaqdır deyillər.

Qaytar mənə gənclik, dinclik yaşımı,
Uca tutum ər yanında başımı,
Qoy ortaya doğru ölçən arşını,
Onda Alpis kəsə bilməz qarşımı,
Bağışlamaq öc almaqdır deyillər.

Yalvarıram, sıtqayıram önündə,
Yardım elə mənə bu dar günümdə,
Əl tut, göstər mənə bu sərt dönümdə,
Bağışlamaq öc almaqdır deyillər.

Diz çökərək Şamxat iç-iç mələdi,
Tanrısına yalvar, yaxar elədi,
O hıçqırdı, tez-tez üstut söylədi,
Bağışlamaq öc almaqdır deyillər.

O bükülüb qaldı bulaq başında,
İşıq vardı çayın çil-çil daşında,
"Qıy" qopurdu Turqun qızılquşundan,
Bağışlamaq öc almaqdır deyillər.

Bulud sıx-sıx, yağış gur-gur yağırdı,
Şamxat durdu Qardanağı çağırdı,
Gəldi gördü, o sarsıldı, bağırdı,
Gəldi gördü Şamxat gözəl qız olub,
Solğun üzü güzgü kimi üz olub,
Gözlər par-par parıldayan köz olub,
Bağışlamaq öc almaqdır deyillər.

Dedi:- Ay qız bu gözəllik haradan,
Suyun tanrı gücü vardır burada,
Qaytarıbdır gəncliyini yaradan,
Bağışlamaq öc almaqdır deyillər.

Öpüşdülər, yalaşdılar yüz kərə,
Sonra durub üz tutdular Uryerə,
Qaşqa atı səyirtdilər hər yerə,
Bağışlamaq öc almaqdır deyillər.

***

Çapa-çapa Şamxat çox-çox danışdı,
Gələcək ol, keçmişini uca tut.
Nə olmuşdu, nə görmüşdü büstbütün,
Gələcək ol, keçmişini uca tut.

Qardanağdan Şamxat bərk-bərk yapışdı,
Bir-bir ona keçmişini danışdı,
Yerdə qalan biri-birinə qarışdı,
O nə dedi, əri onla barışdı,
Gələcək ol, keçmişini uca tut.

Dedi:-Şamxat, yapış məndən, atımdan,
Çox özünü öymə tanrı adından,
Qurdalasan çox iş çıxar qadından,
Axsamasın qoy at mənim altımda,
Gələcək ol, keçmişini uca tut.

Dedi:-Sözdə arı olaq, işdə düz,
Bir yerdəyik, bir yoldayıq indi biz,
Ağır gündə üstün olluq ikimiz,
Gələcək ol, keçmişini uca tut.

Sən yenidən doğulubsan elə bil,
Yaçayarıq, çoxalarıq ilbəil,
Qoy bəzəsin bizi düzlük, şirinlik,
Gələcək ol, keçmişini uca tut.

Çapa-çapa uçmaqdaydı Qaşqaat,
Şamxat deyib danışırdı adbaad,
Gizliləri açmaqdaydı o qat-qat,
Gələcək ol, keçmişini uca tut.

XXXII QAPI

Gecə vuruş söyləncі

Əkbitənin səsləncləri gurladı,
Gələn, gedən, yanqın, basqın nəsə var...
Tunq toplumla Misirelə gedirdi,
Gələn, gedən, yanqın, basqın nəsə var...

Mal buynuzu səsləncində səs ötkəm,
Bu səs çılğın, diskintili, döyüşgən,
Basar olur çarpışmada o hərdən,
Gələn, gedən, yanqın, basqın nəsə var...

Misireldə üz vermişdi qan-qada,
Efiopi yürüşdəydi Elata,

Öz oğluna yardım gedir Tunq ata,
Gələn, gedən, yanqın, basqın nəsə var...

Dalğalanır ön sırada başraqlar,
Titrəyişdə al ipəkdən saçaqlar,
Gün altında parıldayır yaraqlar,
Bir az solğun görünürdü yanaqlar,
Gələn, gedən, yanqın, basqın nəsə var...

Tunq qabaqda tunc iplikdən çuxası,
On min atlı yaraqlısı, atlısı,
Atlarının oynağanı, yorğası,
Parıldayır qayışının toqqası,
Gələn, gedən, yanqın, basqın nəsə var...

Lap öndəcə gözətçilər, busqular,
Lap arxada ikiatlı qoşqular,
Yelləməkdə ağ başraqlı asqılar,
Xarıldayır dörd təkərli qurqular,
Gələn, gedən, yanqın, basqın nəsə var...
Dörd göy salğı içindəsə Elçiçək,
Dörd bir yanı sarı ipək, al ipək,
Boşqablarda ərik, alma, çiyələk,
Hər qulluqçu durub baxır kölətək,
Gələn, gedən, yanqın, basqın nəsə var...

Çil-çil atsa oynaqlayır, döş gərir,
Göz oxşayır daş-qaş içrə yəhəri,
Ortülüdür yalmanının üzəri,
Gələn, gedən, yanqın, basqın nəsə var...

***

Tunqər oğlu Çatan şahı düşünür,
Necə şahlı ölkədir Mindiyar.
Tunqər isə şahlarşahı sayılır,
Necə şahlı ölkədir Mindiyar.

Düşünür ki, Misireli alaram,
Yurdu firon şahlıqından salaram,
Çatan dönər, mən orada qalaram,
Lap Nil boyu nə vardırsa talaram,
Necə şahlı ölkədir Mindiyar.

Gözətçilər soraq tutub hər işdən,

Dedilr ki Tunqər düzdə, örüşdə,
Beş toplum var, Misrə sarı yürüşdə,
Dən vurular qanqadadan, döyüşdən,
Biz çəkindik onlar ilə görüşdən,
Necə şahlı ölkədir Mindiyar.

Danışırlar, biz Fironu tutarıq,
Çatanını dustaqlığa atarıq,
Bu ölkəni allıq, qana qatarıq,
Sürüyərik, ölkəmizə qatarıq,
Necə şahlı ölkədir Mindiyar.
Tunq gözlədi qap-qaranlıq gecəni,
Misireli arşın - arşın ölçəni,
Dedi gecə onlar yatıb dincəlir,
Seçdi gecə gözü yaxşı görəni,
Necə şahlı ölkədir Mindiyar.

Dedi:-Toplum iki yerə bölünsün,
Acıqanın lapdan önü alınsın,
Arxadan da hərləməyə salınsın,
Necə şahlı ölkədir Mindiyar.

Gecə toplum atsız, səssiz yürüşdə,
Çığırtılar, bağırtılar, təpişdə,
Hamı pərtdir bu bicləmə gedişdən,
Hamı bilir sağ çıxammaz döyüşdən,
Necə şahlı ölkədir Mindiyar.

Qaranlıqda döyüşçülər qısılıb,
Bütün yollar hər bir yandan kəsilib,
Acıqanlar sanki sapdan asılı,
Çoxu gecə tutuq düşüb, basılıb,
Necə şahlı ölkədir Mindiyar.

Acıqanın baş önəri çılğındır,
İşi-gücü dağıtmaqdır, qırğındır,
Səsi kobud, nəriltisi yoğundur,
Döyüşlərdə leş yeyəndir, quzqundur,
Necə şahlı ölkədir Mindiyar.

-Ahay kimsən, gələn toplum, qorxaxsan,
Gecəquşu, sən işığa yamaqsan,
Sən içiboş yar-yaraqlı papaqsan,
Gündüz topal, gecə isə çolaqsan,
Necə şahlı ölkədir Mindiyar.

Tunqər dedi:-Çıx qabağa deyim mən,
Qaranlıqda vayzaqlama, öyünmə,
Nağaratək danqıldanma, döyünmə,
Necə şahlı ölkədir Mindiyar.

Bu gecənin qaranlığı qapqatı,
İki qılınc göydə küt-küt parladı,
Bir-birinə baxdı ərlər gözaltı,
Çox gözlərdə qılınclardan parıltı,
Bir birinə yaxınlaşan qaraltı,
Necə şahlı ölkədir Mindiyar.

Çaqqıldadı, şaqqıldadı qılınclar,
Qarşılaşdı, Efiopi Mindiyar,
Topbuz səsi guruldadı dalbadal,
Bağırtıdan, səsdən batdı qulaqlar,
Səsdən başqa bu gecədə heç nə var,
Necə şahlı ölkədir Mindiyar.

Yanır gecə ulduzları, sayrışır,
Yaraqlılar biri-birinə daraşır,
Çaşıb çoxu kölgəsiylə çarpışır,
Necə şahlı ölkədir Mindiyar.

Gecə baxdı, qorxdu, yumdu gözünü,
Gün göründü, göylər açdı üzünü,
Ölənləri saydı, yüzdə yüzünü,
Çılğın önər susdu, kəsdi səsini,
Necə şahlı ölkədir Mindiyar.

Birdən Çatan toplumayla yetişir,
Atasının toplumuna bitişir,
Qalanlarla vuruşaraq didişir,
Necə şahlı ölkədir Mindiyar.

***

Çatan dedi:-Kəsi olum Tunq ata,
Yol var sanki ürəklərdən ürəyə.
Bu döyüşdə sən basarsan, oğlun yox,
Yol var sanki ürəklərdən ürəyə.

Bu yürüşü ata, hardan bilmisən,
Nə yaxşı ki, ağır gündə gəlmisən,
Toplumunu iki yerə bölmüsən,
Acıqanın ürəyini dəlmisən,
Yol var sanki ürəklərdən ürəyə.

Yüz il qabaq ata, bizi aldadıb,
Dilə tutdun, atımızı nalladın,
Dörd qardaşı atsayağı çulladın,
Saçımızı öpdün bir-bir yalladın,
Hərəmizi bilməzliyə yolladın,
Yol var sanki ürəklərdən ürəyə.

Ana gəldi, Çatan döndü uşağa,
Şah atından düşdü qaçdı qabağa,
Ayağına düşdü, döndü dolağa,
Yol var sanki ürəklərdən ürəyə.

***

Qoşar çıxdı irəliyə,
Şaman gəldi qan elədi,
Mən tanrıyam yerdə deyə,
Dörd yanına od pülədi,
-Balıq balığı qovlayar,
Böyük kiçiyi ovlayar,
Tülkü hamını tovlayar,
Çalış gözün açıq olsun,
Sümük sümüyü bərkidər,
Bala yuvanı tərgidər,
Yoxsul yayınar vergidən,
Burda gözün açıq olsun,
İçin, çölün ayıq olsun,
Minel qızı, baxma belə,
Ölüşgəyib durma elə,
Çıx qabağa gülə-gülə,
Ver saçları sərin yelə,
Bax gözlərin açıq olsun,
Atan, anan ayıq olsun,
Turqa deyin Qoşar gəlib,
Biz dardaydıq, hardan bilib,
Acıqanı yoldan silib,
Qılınc vurub, yüzü ölüb,
Çatan gözün açıq olsun,
Atan, anan ayıq olsun,

***

Çatan burda Firon deyil, şah idi,
Yannan gələn əl-ayaqlı baş olar.
Seldən, sudan aldı gözəl Saranı,
Yannan gələn əl-ayaqlı baş olar.

Şahdır Çatan başkəndə yox, Nileldə,
Burda nələr yaradıbdır qırx ildə,
El danışır öz diliylə hər yerdə,
Yannan gələn əl-ayaqlı baş olar.

Nil çayının su qırağı daş hörmə,
Çox qabarma çayım, daha köpürmə,
El-obanı yerdən silib, süpürmə,
Burulqanda sudan ip-sap əyirmə,
Yannan gələn əl-ayaqlı baş olar.

Firon gəlir Çatan şahı yoxlasın,
Tunqər ilə barış, əltut bağlasın,
Mindiyarla çox yaxınlıq saxlasın,
Yannan gələn əl-ayaqlı baş olar.

Salxım saqqal, topa birçək, qalın qaş,
Uzun boyun, xirda burun, iri baş,
Qara gozlər soyuq daşdır, qara daş,
Yannan gələn əl-ayaqlı baş olar.

Tunqa baxdı o “düzgəldin” söylədi,
Toplumuna çoxbasarlıq dilədi,
Sağ əlini hamılığa yellədi,
Yannan gələn əl-ayaqlı baş olar.

Bağışlarla sevindirdi qanağı,
Elçiçəyə sırğa, Tunqa qolbağı,
Topluma da yağlı çörək, bığyağı,
Yannan gələn əl-ayaqlı baş olar.

Sonra dedi:-Neçə quyu qazdırın,
Yaralını diri-diri basdırın,
Hay-küy salın, qaçanları azdırın,
Tutuqları daş işinə yazdırın,
Yannan gələn əl-ayaqlı baş olar.

Firon dedi:-Tunq, Elçiçək, Eldəbir,

Gərək bizdə qonaq qalsın düz bir il,
Çıxıb yola Başev, sizi gözləyir,
Çalhaçaldır, toy-düyündür, səs-səmir,
Yannan gələn əl-ayaqlı baş olar.

***

Tunqa dedi tutuq düşən həbəşlər,
Yaraqlıya qorxmaz başçı gərəkdir.
Biz Mindiyar yaraqlısı oluruq,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

And içirik Tunqa, bir də tanrıya,
Döyüşlərdə Mindiyara yarayaq,
Orda qalaq, biz ordaca qarıyaq,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Firon dedi:-Öncə işə başlayın,
Gedin şoran torpaqları xışlayın,
Qazıntıda, tikintidə işləyin,
Yalvar-yaxar yaşamağı boşlayın,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Dedi:-Gedin daş işinə həbəşlər,
Sizi gözlər Misireldə çox işlər,
Qamçı, təpik, hədələmə, söyüşlər,
Fironun da öz yeri var demişlər,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Tunq qızardı, acıqından tutuldu,
Qara qaşlar çəkilərək, çatıldı,
Boynundakı damarları dartıldı,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Elçiçək də sanki bir az qısıldı,
Bu döyüşdə Basar sanki basıldı,
Çatanın da içi yandı, qazıldı,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Tunq udqundu, Firon kəsdi səsini,
Başa düşdü sanki yersiz sözünü,
Dönüb Çatan şaha tutdu üzünü,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Dedi:-Çatan, yorğun düşüb Tunq ata,

Dörd təkərli qoşqunu qoş beş ata,
Gedək Başev şənliyinə, büsata,
Qonaqları biz göstərək elata,
Yaraqlıya qorxmaz başçı gərəkdir.
Tunq atanın adı-sanı ucadır,
Elçiçəklə tunq zirvədə haçadır,
Həbəş hələ atlaşmayıb, dayçadır,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Firon dedi:-Tunqa qoşqu ayırın,
Başev yola göz tikibdir, buyurun,
Ərlər, Tunqun arxasınca yüyürün,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Həbəş söyləncisi

Qoşar dedi:-Misireldə olmuşam,
Mindiyardan bura cığır salmışam,
Nilelliyə bir ay qonaq qalmışam,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Şaman dedi:-Qoşar, öymə özünü,
Çək Turqərdən, alıcı, ley gözünü,
Gəl hər yerdə deyək sözün düzünü,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Böyük Firon, burda hər yer dağıntı,
De nədəndir ürəklərdə sıxıntı,
Dediklərin böyük Tunqa toxundu,
Aldı Tunqu, aldı bizi boğuntu,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Tanrı dedi, Tunqər, qayıt buradan,
Yoxsa səni götürərlər aradan,
Uğurelə gəlib dolub acıqan,
Belə deyir mənə böyük yaradan,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Tunqər dedi:-Haydı, qayıt Minelli,
Bizə “saqol” demədilər, bu bəlli,
Şaman, Qoşar qabaqgörən, təpərli,
Mən yapışım gərək sizdən beş əlli,

Haydı qayıt öz yurduna Minellı,
Yaraqlıya qorxmaz başçı gərəkdir.

Uruyer söyləncі

Turpar, Sona Uruyerə çatdılar,
Yerdəyişmə qıvraq edər adamı.
Uruyerdə Sona yaman sevindi,
Yerdəyişmə qıvraq edər adamı.

Güləşirdi Sona ilə Tayqulaq,
Ot üstündə dığırlanıb qurdsayaq,
At üstündə quştək uçub, çaparaq,
Yıxıl-yıxıl ötüşürdü qacaraq,
Yerdəyişmə qıvraq edər adamı.

Boylu sona sevinirdi, gülürdü,
Sevincini turpar ilə bölürdü,
Ilk sevgidir ilk körpəsi, bilirdi,
Yerdəyişmə qıvraq edər adamı.

Tutulmuşdu o Şamxatı görəndən,
Şamxat onu oynatmışdı yerindən,
Əl çəkmirdi Şamxat onun ərindən,
Yerdəyişmə qıvraq edər adamı.

Turpar onu danışdırır, dindirir,
Öyüb, Minel gözəlinə döndərir,
Hərdən gedib ağaclıqdan tut dərir,
Onu qıza, Qardanağa göndərir,
Yerdəyişmə qıvraq edər adamı.
Sona bilmir Şamxat göydən enmədir,
Yarım yarı tanrılıqdan dönmədir,
Qardanağla seviş-öpüş gündədir,
Yerdəyişmə qıvraq edər adamı.

Sona doğur, oğlu olur, kök, topa,
Tayqulaqla olub süddə, süd ortaq,
İkisi də süd qardaşı, qarınpa,
Yerdəyişmə qıvraq edər adamı.

Turpar deyir:- Öz atımı çapım mən,
Gedim boyuk Turq atanı tapım mən,

Saqqalından, əllərindən öpüm mən,
Yerdəyişmə qıvraq edər adamı.

Sona dedi:-Tək qalaram burda mən,
Şamxat məni oynadacaq yerimdən,
Qorxuram ki, biz vuruşaq heç nədən,
Yerdəyişmə qıvraq edər adamı.

Turpar dedi:-Şamxat dibdən özgədir,
Tanrı deyil, tanrılara kölgədir,
İştar sevgi tanrısına yengədir,
Yollar ona yol yox, döngə-döngədir,
Yerdəyişmə qıvraq edər adamı.

Tək deyilsən indi Sona, körpə var,
Üzərində Tunqər kimi kölgə var,
Mindiyarla, Minel kimi ölkə var,
Yerdəyişmə qıvraq edər adamı.

Ayrıldılar, Sona susdu, ağladı,
Sol əlinə onun qaytan bağladı,
Qucub onu, qucağında saxladı,
Yerdəyişmə qıvraq edər adamı.

Anakar söyləncі

Götürüldü yaraqlısı Minelin,
Yaraqlının dədəsidir yarağı.
Həbəş, Darvid, Pars, Asur da içində,
Yaraqlının dədəsidir yarağı.

Çatan tutdu ürəyini, bayıldı,
Azca sonra keçinmədən ayıldı,
Bu səs, küyü Misirelə yayıldı,
Firon Turqun acıqanı sayıldı,
Yaraqlının dədəsidir yarağı.

Minellilər qıy vurdular ley kimi,
Uğurelə uçdu oxla yay kimi,
Xarıldadı dağdan axan çay kimi,
Şimşəklərə, küləklərə tay kimi,
Yaraqlının dədəsidir yarağı.

Kimsə dedi, balam qurban, Mindiyar,

Qan-qırğından başqa səndə hər nə var,
Səndən ayrı mənim üzüm saralar,
Ürəyimdə qalıb səndən yaralar,
Yaraqlının dədəsidir yarağı.

Tunq eşitdi bunu, gizli ağladı,
Hönkürtüdən güclə özün saxladı,
Öz-özüylə dəmir andiç bağladı,
İçi sanki tir-tir əsdi, laxladı,
Yaraqlının dədəsidir yarağı.

Dedi, "Tunqər, Minellilər basılmaz,
Pis gendə də ona, buna qısılmaz,
Sonevi də özgə yerdə qazılmaz,
Tanrı andı özgə dildə yazılmaz,
Yaraqlının dədəsidir yarağı.
Dedi, mənəm ağ başrağı Turların,
Babil, Qobu, Çinçay, Parsel yurdları,
Mənəm şahı adamların, qurdların,
Pars, sak, uru, Darvid, Hindel, surların,
Yaraqlının dədəsidir yarağı".

***

Tunq gördü ki, kimsə durub yol üstə,
Yolda durma, yol üstündə dayanma.
Paltarları əzik, saçı pırtlaşıq,
Yolda durma, yol üstündə dayanma.

Öz özündən sanki nəsə soruşur,
Ürkülüdür dayanışı, duruşu,
Saçı qara, saqqalısa sarışın,
Yolda durma, yol üstündə dayanma.

O, Tunqəri, Çilçil atı saymayır,
Öz-özüylə danışmaqdan doymayır,
Yaraqlını yaxınına qoymayır,
Yolda durma, yol üstündə dayanma.

Başəydisi, ələpdüsü görünmür,
Onda səsdən qorxu, ürkü yaranmır,
Qoşquatlar yürüşündən qorunmur,
Yolda durma, yol üstündə dayanma.

Kiminləsə o danışır, deyişir,

Əl-qol atır, kiminləsə döyüşür,
Birdən-birə susur, lapdan dəyişir,
Yolda durma, yol üstündə dayanma.

Çıxır onun qabağına Eldəbir,
Deyir:-Kimsən, tək gəzirsən, söylə bir,
Əlindəki cızmaqara, de, nədir,
Yolda durma, yol üstündə dayanma.
-Məni gərək tanıyaydı Tunq ata,
Mən gedirəm doğma yurda, Elata,
Tək-tək gəzər həm Anakar, həm qartal,
Yolda durma, yol üstündə dayanma.

Tunqər deyir:-Yurddur sənə Mindiyar,
Sən şairsən, tanıq adın Anakar,
Mənim sənə, sən şairə sözüm var,
Yolda durma, yol üstündə dayanma.

***

Şair deyir:-Mən heç kiməm, hər nəyəm,
Hərdən-birdən hər nə çıxır heç nədən.
Heç nə idim mən anadan olanda,
Hərdən-birdən hər nə çıxır heç nədən.

Mənim ölkəm Türklər, Turlar diyarı,
Yer üzünü tutub yarıbayarı,
Başrağımız dalğalanır ağ-sarı,
Hərdən-birdən hər nə çıxır heç nədən.

Şahlığımdan danışarsam mən bir az,
Baş-başadır Qoşaboğaz, Buzboğaz,
O yan buzlaq, bu yan isti, gün, ayaz,
Turlarındır dəniz, dağ, daş, dik, dayaz,
Hərdən-birdən hər nə çıxır heç nədən.

Turlar “Turan” olub, daha yaxşıdır,
Parsel, Çinel, Hindel ona qonşudur,
Ancaq təkcə Parsel bizə qarşıdır,
Hərdən-birdən hər nə çıxır heç nədən.

-Sən bunları hardan belə bilirsən,
De, Anakar, hardan belə gəlirsən,
De, Turqərdən nə istəyib dilərsən,
Hərdən-birdən hər nə çıxır heç nədən.

-Varındırsa mənə bir az çörək ver,
Mən də olum öz yurdumda yerbəyer,
İki yurdun oğuluyam, sən də bil,
Şah oğluyam, bunu hamı düz deyir,
Hərdən-birdən hər nə çıxır heç nədən.

Tunqər deyir, Anakara at verin,
Yəhərinin üstə ipək çit sərin,
Çadır açın Anakardan ötəri,
Yüksək olsun gərək şair dəyəri,
Qoşqu verin ona ikitəkərli,
Hərdən-birdən hər nə çıxır heç nədən.

Şair güldü, saçlarını daradı,
Ayağının şişlərini sarıdı,
Yüzbaşılar ona boş yer aradı,
Dedi:-Tunqər harda, yerim ordadı,
Hərdən-birdən hər nə çıxır heç nədən.

Bunca şair yaxın oldu Tunqərə,
Onla getdi döyüşlərə, hər yerə,
Mahnı qoşdu, şeir yazdı ellərə,
Hərdən, birdən hər nə çıxır heç nədən.

***

Turq buyurur, bir az danış özündən,
Keçmiş günlər öyüd dolu nağıldır.
-Mən nağılam, iki ölkə nağılı,
Keçmiş günlər öyüd dolu nağıldır.

Iki dildə danışıram, yazıram,
Yazıda yox, bu yollarda azıram,
Deyingənəm, ancaq burda susuram,
Keçmiş günlər öyüd dolu nağıldır.

Şairlikdən əl çək, deyir, anamgil,
Minellisən, deyir mənə atamgil,
Iki üzlü qruşam mən elə bil,
Keçmiş günlər öyüd dolu nağıldır.

Bal dilim var, ancaq bu dil ikidir,
Daş ürəyim çəkişmədə çəkidir,
Həm də məni bu iki dil bərkidib,
Keçmiş günlər öyüd dolu nağıldır.

Dediyimi orda alıb yazıllar,
Bir yox, mənə iki sonev qazıllar,
Həm sevirlər, həm də məndən bezirlər,
Keçmiş günlər öyüd dolu nağıldır.

Bir boyada, heydə iki torpağım,
Ikisi də ata, ana qucağı,
Bura ata, ora ana oymağım,
Iki gözüm, iki əlim, ayağım,
Keçmiş günlər öyüd dolu nağıldır.

Həm orada, həm burada qonağam,
Iki yerə doğma deyil, yamağam,
Otdan uca qalxan vecsiz alağam,
Iki ağzı iti olan bıçağam,
Iki yeri birləşdirən sancağam,
Keçmiş günlər öyüd dolu nağıldır.

Atam orda, anam burda evlənib,
Mənə ikidamar oğlan söylənib,
Yolum bağlı olub, gözüm püflənib,
Keçmiş günlər öyüd dolu nağıldır.

Orda duyğu, burda uyğu gözəldir,
Orda sayqı, burda qayğı gözəldir,

Orda alqı, burda satqı gözəldir,
Keçmiş günlər öyüd dolu nağıldır.

Orda bilmək, burda ölmək yaxşıdır,
Orda görmək, burda sevmək yaxşıdır,
Orda alqı, burda satqı yaxşıdır,
Keçmiş günlər öyüd dolu nağıldır.

Ta nə deyim, böyük Tunqər bağışla,
Alınyazım, öyləmələr, qarqışlar,
Məni ya öy, ya da pislə, alqışla,
Keçmiş günlər öyüd dolu nağıldır.

Uğureldə döyüş söylənci

Uğureli tapdamışdı Çinelli,

Yel də qapar yiyəsizdən nə gəldi.
Təbəteldən gəlmişdilər yardıma,
Yel də qapar yiyəsizdən nə gəldi.

Yur qalmışdı ondan, bundan asılı,
Getmişdilər Misirelə hamılı,
El qancılla vuruşsa da, basılıb,
Yel də qapar yiyəsizdən nə gəldi.

Ana, bala, arvad, uşaq qırılıb,
Qapı-baca, ev soyuyub, yarılıb,
Mal-qarası Çinçayelə sürülüb,
Ölən ölüb, qalanlarsa yorulub,
Yel də qapar yiyəsizdən nə gəldi.

Sayan, Tantan yürüş etdi azqına,
Təbətelli basqın etdi basqına,
Son qoysa da qanlı qorxunc qırğına,
Çinellilər əl atdılar yanğına,
Yel də qapar yiyəsizdən nə gəldi.
Sayan dedi:-Bu vuruş yox qırğındır,
Bura lapdan basqın edən satqındır,
Uğurellə Təbət lap yaxındır,
Bizim toplum yarı-yarı qadındır,
Yel də qapar yiyəsizdən nə gəldi.

Ilk vuruşda Sayan ağır yaralı,
Qan itirib, üzü, gözü saralıb,
Tantan ondan çox-çox düşüb aralı,
Yel də qapar yiyəsizdən nə gəldi.

Yanır meşə, yanır kol-kos, ev, çəpər,
Tunq hardasan, gəl, gör nə var, gör nələr,
Bir yaraqlın on çinliyə güc gələr,
Tez gəl, çatdır sən özünü birtəhər,
Yel də qapar yiyəsizdən nə gəldi.

Heysiz Sayan dağ yoluna baxırdı,
O, Tunqəri son uduqda çağırdı,
Kimsə onu boğazlayıb, boğurdu,
Tunqər gəldi, nərildəyib, bağırdı,
Gözlərində sanki şimşək çaxırdı,
Yel də qapar yiyəsizdən nə gəldi.

Çinellilər eşitdilər Tunq gəlib,

Ilk vuruşda acıqandan yüz ölü,
Hamı Tunqu yenilməyən güc bilir,
Bir qılıncla neçəsini tən bölür,
“Qaçaq-qaçaq, gözü qanlı Tunq gəlir”,
Yel də qapar yiyəsizdən nə gəldi.

Sayan Tunqun qoruyaraq dalını,
Üzdü qancıl quldurların qolunu,
Kəsdi Çinə qaçanların yolunu,
Yel də qapar yiyəsizdən nə gəldi.

Çıxdı Çinin yüzbaşısı qabağa,
Dedi:-Acıq, daraşmışıq otdağa,
Bıçaq gəlib dayanıbdır qırtlağa,
Çörək üçün biz qalxmışıq ayağa,
Sarılmışıq atda-butda yarağa,
Yel də qapar yiyəsizdən nə gəldi.

Tunqər dedi:-Siz uğursuz quldursuz,
Nə Çinlisiz, nə Minelli, qatırsız,
Siz kimsizsə, içdən, çöldən qotursuz,
Hara gəldi daraşırsız, çapırsız,
Yel də qapar yiyəsizdən nə gəldi.

Uğurelin yiyəsi var, eli var,
Əkbitəndə, Uruyerdə əli var,
Daşı dələn, daşdan keçən dili var,
Acıqanı süpürtdəyən seli var,
Yel də qapar yiyəsizdən nə gəldi.

Al, bu oxdur, bu biridir, bu dördü,
Yüzbaşının döş-başını ox örtür,
-Get, sonevdə danışarsan nə gördün,
Indi dayan səni görüm yanpörtü,
Yel də qapar yiyəsizdən nə gəldi.

Iki yerə parçalanır yüzbaşı,
Sonra yerdə dığırlanır boş başı,
Sonra göydə lapdan bir səs dolaşır:
“Qaçın bitdi Tunqla quldur savaşı”,
Yel də qapar yiyəsizdən nə gəldi.

Yandı elin ev-eşiyi, taxılı,
Çox qapılar qaldı bağlı, qapalı,
Ancaq Turqər qovdu, qırdı qancılı,

Basar çıxdı Mindiyarın oğulu,
Yel də qapar yiyəsizdən nə gəldi.
Tunqər qırdı, qovdu, çatdı Çinçaya,
Çıxdı onun qabağına el-oba,
Dedilər ki, qonaq qalsın Tunq ata,
Yel də qapar yiyəsizdən nə gəldi.

Dedilər ki, burdan qovsun qulduru,
Burada da onlar çox kənd yandırıb,
Qopart bizim yaxamızdan andırı,
Yel də qapar yiyəsizdən nə gəldi.

Sayan Tunqu Təbətelə gətirdi,
Onlar üç gün Tantangildə oturdu,
Ayrılığı yol üstündən götürdü,
Yel də qapar yiyəsizdən nə gəldi.

Təbətel Söyləncі

Təbət yolu dağdır, daşdır, kəsəkdir,
Çətin yolla adam tapır istəyin.
Turqər, Tunqər Təbəteldə görüşdü,
Çətin yolla adam tapır istəyin.

Yazı cənnət, qışı sərtdir qurdutək,
Qız gülüşü boyasıda hər çiçək,
Quşu ürkək, ayısı cod, qışı bərk,
Çətin yolla adam tapır istəyin.

Öz tanrısı, öz inamı, öz sözü,
Nəyi varsa qonaq üçün düzülü,
Türkə bənzər Təbətlinin qaş-gözü,
Çətin yolla adam tapır istəyin.

Təbət min ev, iki enli küçədir,
Burda nə var tutumludur, incədir,
Hərdən burda Tunqər qalır, dincəlir,
Çətin yolla adam tapır istəyin.
Qan içməkdən, qan tökməkdən uzaqdır,
Qarı qalın, qızı qızılyanaqdır,
Qar içində çiçək qucaq-qucaqdır,
Geyim, toy, yas, elə Turansayaqdır,
Çətin yolla adam tapır istəyin.

Toy, bayramdır Turqər burda olanda,

Birdə Sayan, Tantan burda qalanda,
“Buzbulağın” tez-tez gözü dolanda,
Çətin yolla adam tapır istəyin.

Turqər, Tunqər Təbəteldə görüşdü,
Bir-birindən el-obanı soruşdu,
Sevinc, ağrı birbirinə qarışdı,
Çətin yolla adam tapır istəyin.

-Ata mən də kiçik oğlun Sayanam,
Səni işdə, sözdə anan, yayanam,
Acıqanın gözlərinə tikanam,
Çətin yolla adam tapır istəyin.

Təbəteldə baş öndərəm, başbaşı,
İşləyirəm elbaşıyla yanaşı,
Küsülülər gəlib burda barışır,
Çətin yolla adam tapır istəyin.

-Ta denən ki, Turan elə Sayandır,
Basılmayan Sayan qurddur, qaplandır,
Mindiyarın bir adı da Turandır,
Bu ad hələ Turər şahdan qalandır,
Çətin yolla adam tapır istəyin.

Sayab dedi:-Dön gəl bizim Turana,
Qobu yerə, Qobuçölə, arana,
Sən gəlməsən, inamsızlıq yaranar,
Batar ellər sarsıntıya, yamana,
Çətin yolla adam tapır istəyin.
Turq söylədi:-Turandayam, Çində yox,
Vuruşlarda arxadayam, öndə yox,
Harda olsam yaxındayam, gendə yox,
Çətin yolla adam tapır istəyin.

Turqər dedi:-Quldurları vurarıq,
Qancılları qova-qova yorarıq,
Daş, kol, tikan, çəpərləri yararıq,
Elçiçəyin arxasında durarıq,
Uğureli biz yenidən qurarıq,
Çətin yolla adam tapır istəyin.

Atasından utanırdı Elçiçək,
Getməyəydi Misirelə o gərək,
“-Bəsdir daha yığdım xalça, bər-bəzək,

Əldə tutum gərək qılınc, dəyənək",
Çətin yolla adam tapır istəyin.

Utanırdı, sıtqayırdı o hərdən,
"-Uğureli gərək quram yenidən,
Öz işimdə niyə belə kalam mən",
Çətin yolla adam tapır istəyin.

XII Bölmə
XXXIII QAPI

Sərtüz söyləncі

Suböləndə bir də Sərtüz doğuldu,
Doğul bir də, gəl, keçmişi yenilət.
Doğdusuna baxdı, güldü bu körpə,
Doğul bir də, gəl, keçmişi yenilət.

Ahur onu bir də çəkdi sınağa,
Dedi, "Daha son qoy qana, yarağa,
Inam yarat, üztutduya, ocağa,
Yardım elə təkə, aca, çolağa,
Doğul bir də, gəl, keçmişi yenilət.

Dedi,"Çoxalt suyu, otu, otlağı,
Al, geyindir ayaqyalın, çılpağı,
Qoyma batsın boğazında qırtlağı,
Doğul bir də, gəl, keçmişi yenilət.

Yay hər yana üztut, kəsi, bağışı,
İstə məndən günü, qarı, yağışı,
Yoluna sal ölüm ilə, doğuşu,
Başraq elə ikiyanlı barışı,
Düz yola sal Əhriməni, Alpisi,
Doğruluğa səslə qotur İblisi,
Qoy əl çəksin pis işlərdən kirisin,
Doğul bir də, gəl, keçmişi yenilət.

Ot yeyəni ət yeyəndən uzaq tut,
Əziləndən, basılandan soraq tut,
Güc deyənə, əl atana tutaq tut,
Doğul bir də, gəl, keçmişi yenilət.

Yerini tut keçmiş böyük Sərtüzün,
Qoy buyuruq olsun sənin hər sözün,

Yer üzündə ahurluq et sən özün,
Sonra məndən nə istəsən istə sən,
Doğul bir də, gəl, keçmişi yenilət.

***

Sərtüz yer-yer Uruyerdə böyüdü,
Böyüdükcə hamı gəzir yerini.
Yazdı tanrı deyənləri birbəbir,
Böyüdükcə hamı gəzir yerini.

Uruyerdə gəzdi, tapdı özünü,
Cumər, Sumər açdı onun gözünü,
Burda çəkdi dəri üstə yazını,
Seçdi üzdən astar ilə bezini,
Böyüdükcə hamı gəzir yerini.

Yazdı, nədir şahlıq, düzlük, doğruluq,
Yazdı, pisdir yekəbaşlıq, oğruluq,
Basıqlıqdan daha pisdir ayrılıq,
Böyüdükcə hamı gəzir yerini.

Yazıb tez-tez yazdığını pozurdu,
Keçmişləri öyrəndikcə susurdu,
Tanrılara gizli qulaq asırdı,
Böyüdükcə hamı gəzir yerini.

Bilirdi ki o Sərtüzdən bu yana,
Yaranış da artıb, qartıb dörd yana,
Gərək oddan yeni inam yarana,
Tanrı inam oxu ola insana,
Yeni inam qancıl ola yamana,
Böyüdükcə hamı gəzir yerini.

Dilliərə dözüm verən inamdır,
Inamsızlar ötüb gedən dumandır,
Arpa, buğda, mərci deyil, samandır,
Böyüdükcə hamı gəzir yerini.

Ahurlaşa dilli, dilsiz yaranış,
Əl-ayağa dolaşmaya dolanış,
Oxu ola, üztut ola oyanış,
Böyüdükcə hamı gəzir yerini.

Sərtüz yazdı, yorğun gözlər sulandı,

Düşüncəylə söz üst-üstə qalandı,
Mahnılaşdı onlar, eli dolandı,
Çoxu susdu, çoxu iç-iç bulandı,
Böyüdükcə hamı gəzir yerini.
***

“Yoxsul, varlı birdir” Sərtüz söylədi,
Bir olanı iki yerə ayırma.
Buna qarşı çıxdı yerli varlılar,
Bir olanı iki yerə ayırma.

Sərtüz duydu, onu çox az görən var,
Burda Turq var, yarıtanrı ərən var,
Qulaq asan, ona ürək verən var,
Bir olanı iki yerə ayırma.

Gör, neçə min söz qalanıb döşümə,
Turqər gəlsin, yardım olsun işimə,
Qoy onu da salım mən öz ölçümə,
Bir olanı iki yerə ayırma.

Sərtüz çıxdı axtarmağa Turqəri,
Burda indi odur sözün çəkəri,
Yüksək olsun gərək sözün dəyəri,
Bir olanı iki yerə ayırma.

Dedi, gərək yazdıqlarım sayılsın,
Dilli, dilsiz yaranışda yayılsın,
Qoy yaranış bir də, bir də, ayılsın,
Bir olanı iki yerə ayırma.

Ortaboydu, irigözdü, sallaqüz,
Yola düşdü Əkbitənə düpbədüz,
O at yortdu iki gecə, üç gündüz,
Bir olanı iki yerə ayırma.

Əkbitəndə Başev onu saymadı,
Söylədiyi üztutlara uymadı,
Ağüzər də, yaxınına qoymadı,
Bir olanı iki yerə ayırma.
Dedi:-Gəldim bura, Turqu görməyə,
Yazdığımı atamıza verməyə,
Ondan bilik ulduzları dərməyə,
Bir olanı iki yerə ayırma.

Dedilər o yer üzünü dolaşır,
Bir quş, bir qurd onun ilə yanaşı,
İndi Turpar olub onun işdaşı,
Bir olanı iki yerə ayırma.

Sərtüz dedi:-Turpar yanıq gödəndir,
Həm də Turan ölkəsində ərəndir,
Turqər kimi gələcəyi görəndir,
Üzüyanıq yeniyetmə öyrəncdir,
Bir olanı iki yerə ayırma.

Sərtüz azca yazdığından danışdı,
Hər söz üstə onlar ilə qarpışdı,
Neçəsiylə dilbir oldu tapışdı,
Çoxu dedi, bu nə ola, nə işdı,
Bir olanı iki yerə ayırma.

***

Sərtüz getdi Uğurelə üç günə,
Bir axtaran, bir yıxılan tapacaq.
Axtarırdı hər bir yanda Turqəri,
Bir axtaran, bir yıxılan tapacaq.

Altayeldə tapdı onu, soruşdu,
Turqər ilə bir komada görüşdü,
İkisi də neçə kərə öpüşdü,
Gözlərində sanki dirrik dəyişdi,
Bir axtaran, bir yıxılan tapacaq.

Dedi:-Ata gəldim səndən örgənim,
Ağır gündə səni tapım, söykənim,
Sənlə birgə acıqana dirənim,
Sənlə artım, ya da ölüm, tükənim,
Bir axtaran, bir yıxılan tapacaq.

Turqər dedi:-Mənə tanış gəlirsən,
-Mən Sərtüzəm ata, bunu bilirsən,
Mən Sərtüzəm, doğulmuşam bir də mən,
Bir axtaran, bir yıxılan tapacaq.

-Çox-çox qabaq Sərtüz gəlib gedibdir,
Sonevinin üstə meşə bitibdir,
Üç min il də o günlərdən ötübdür,
Bir axtaran, bir yıxılan tapacaq.

Dedi:-Doğru buyursan, eləydi,
Hamı gərək bu gəlişi biləydi,
Tanrı gərək yeri iki böləydi,
Yer üzünə bir də Sərtüz gələydi,
Bir axtaran, bir yıxılan tapacaq.

Sərtüz bizim tanrımızın kölgəsi,
Sərtüz sənün, sən Sərtüzün yengəsi,
Qoy öyünsün bunla Turan ölkəsi,
Tək Turan yox, Yerin altı bölgəsi,
Bir axtaran, bir yıxılan tapacaq.

Sərtüz yığdı yazıları bir yerə,
Bir-bir açdı, o göstərdi Turqərə,
Dedi:-Bunlar getməlidir hər yerə,
Bir axtaran, bir yıxılan tapacaq.

Sərtüz Turqər cüt qardaşa döndülər,
Oxudular, lap dərinə endilər,
Düşündülər, susub yenə dindilər,
Bir axtaran, bir yıxılan tapacaq.

Oxuyurdu Sərtüz, səsi quruydu,
Üzü, gözü, baxışları diriydi,
Dedikləri tutumluydu, duruydu,
Bir axtaran, bir yıxılan tapacaq.

Altı tanrı, su, od, torpaq, mal-qara,
Səs salmışdı “mahnılara”,”qatlara”,
Altyer, Üstyer, əkin, biçin, yox, vara,
Oxuyurdu, verməyirdi o ara,
Bir axtaran, bir yıxılan tapacaq.

Turqər dərin düşüncəyə dalmışdı,
İçi qat-qat öyüdlərlə dolmuşdu,
Yonta idi, sanki donub qalmışdı,
Bir axtaran, bir yıxılan tapacaq.

Turpar qapı arxasında alışqan,
Dinləyirdi hər bir sözü bayaqdan,
Onda sorğu yaranmışdı qonaqdan,
Bir axtaran, bir yıxılan tapacaq.

Çöldə idi qurd, quş, yarıyuxulu,

Gecə keçir, gündüz parlaq doğulur,
Sis çəkilir, duman qat-qat dağılır,
Bir axtaran, bir yıxılan tapacaq.

Gecə çöldə yuxlamışdı Tayqulaq,
“Niyə belə çox danışır bu qonaq”,
Nə yırtardım papağını, gönpapaq,
Bir axtaran, bir yıxılan tapacaq.

***

Sərtüz dedi:-Mənim otuz yaşım var,
Ancaq bilik yaşda deyil, başdadır.
Turq da dedi:-Mənim üçyüz yaşım var,
Ancaq bilik yaşda deyil, başdadır.
Varlı oldu yığa-yığa gələnlər,
Qancıl oldu varı güclü bilənlər,
Incik oldu var görmədən ölənlər,
Bilik, tutum yaşda deyil, başdadır.

Tanrı yaşı bir cür verir hamıya,
Varlı ona yamaq vurub yamayar,
Yoxsul onu vay-vay ilə suvayar,
Qoşar onu oynaq sözlə boyayar,
Bilik, tutum yaşda deyil, başdadır.

Nə atdanıb tullanırsan bu yaşda,
Gör kim səni gözləməkdə o başda,
Biri də var, söyləyirəm yavaşdan,
Bilik, tutum yaşda deyil, başdadır.

Bəsdir, bunca ağrı, acı daşıdın,
Bax, gör kimdir sənin yerlin, yaşıdın,
Gör kim sənə lap yaxındır, qarşıdır,
Lap ayıq ol, ölüm sənlə qonşudur,
Bilik, tutum yaşda deyil, başdadır.

Yemək ilə, içmək ilə yaş artmaz,
Tanrı verən yaşı yemək uzatmaz,
Düşərlik də yaşı boğub daraltmaz,
Bilik, tutum yaşda deyil, başdadır.

Yaşamaqsa yaşatmaqdır yaratmaq,
Yaş sayılmır, vellənməklə baş qatmaq,
Kimə gərək gəldi-getdi bir qonaq,

Bilik, tutum yaşda deyil, başdadır.

***

Əkbitənin səsləncləri gurladı,
Gələn gətir, gedən götür, çəkinmə.
Turqər, Sərtüz, Turpar gəldi Başevə,
Gələn gətir, gedən götür, çəkinmə.
Turqər dedi:-Çıxın çölə bağırın,
Yüz varlını, yoxsul, küsgün, sağırı,
Ordan, burdan ağırlardan ağırı,
Iki günə oturağa çağırın,
Gələn gətir, gedən götür, çəkinmə.

Sərtüz gəlib, tanrıları öyəcək,
O, Alpisi, Əhriməni söyəcək,
Yazdığını, bildiyini deyəcək,
Gələn gətir, gedən götür, çəkinmə.

Sərtüz gəlib, göydəkindən söyləsin,
Onlar ilə bizi yaxın eyləsin,
Bildiyini, yazdığını küyləsin,
Gələn gətir, gedən götür, çəkinmə.

Çox yerlərdən gəldi sayın qonaqlar,
Silkələndi yaxınlıqlar, uzaqlar,
Iskit, uyğur, sak, pars, darvid, muğ, mağlar,
Gələn gətir, gedən götür, çəkinmə.

Sərtüz gəlib bizə, dedi, qonaqdır,
Qoltuğunda yazı qalaq-qalaqdır,
Dedikləri başdan-başa maraqdır,
Gələn gətir, gedən götür, çəkinmə.

-Mən Sərtüzəm, sizə uğur dilərəm,
Mən Turqu da yarıtanrı bilərəm,
Mən tanrının görüşündən gəlirəm,
Gələn gətir, gedən götür, çəkinmə.

Ahurumuz mənə çox iş buyurub,
Sərtüzləri birbirindən ayırıb,
Alpis, İblis, Əhrimənə qabarıb,
Gələn gətir, gedən götür, çəkinmə.

Dedi, mənəm yaranışın yiyəsi,

Dillilərin, dilsizlərin lələsi,
Mənəm yayın, yazın, qışın çilləsi,
Bitən nə var, hər ağacın meynəsi,
Gələn gətir, gedən götür, çəkinmə.

Dedi, göy, yer, günəş, dəniz,-o mənəm,
Dilli, dilsiz; gecə, gündüz- o mənəm,
Vardır bircə sonsuz, ölməz-o mənəm,
Gələn gətir, gedən götür, çəkinmə.

***

Ahur dedi, mənə üztut oxunsun,
Tanrılaşar sözdə, işdə bir olan.
Dedi, verin tez-tez kəsin kəsipay,
Tanrılaşar sözdə, işdə bir olan.

Ölən, yoxsul, varlı gözdən keçilir,
Gördükləri işlə qalxır kiçilir,
Odev, Dincev gərəkliki seçilir,
Işə görə ölməzliyi biçilir,
Tanrılaşar sözdə, işdə bir olan.

Varlı gərək yardım edə yoxsula,
Tək bu yolla varlı yerdə sayılar,
Üztut, kəsi yer üzündə yayılar,
Tanrılaşar sözdə, işdə bir olan.

Hamı gərək doğmasıyla evlənə,
Bu yol ilə var yığılar bəllənər,
Qıraq yerə var dağılmaz bir belə,
Tanrılaşar sözdə, işdə bir olan.

Doğma alan öz varını artırar,
Gələn varı, var üstünə yatırar,
Yada gedən, gedən varı batırar,
Tanrılaşar sözdə, işdə bir olan.
Ahur belə göstəribdir düz yolu,
Ata ölsə, böyük qardaş baş olur,
Şah ölərsə, böyük oğlu şah olur,
Tanrılaşar sözdə, işdə bir olan.

***

Biri dedi:-Mən az cana qopuğam,
Belə olsa biz dönərik qoruğa,

-Mən də yaxın doğmalara soyuğam,
Tanrılaşar sözdə, işdə bir olan.

Biri dedi:-Sərtüz deyən doğrudur,
-Doğrudursa, bir az kaldır, qurudur,
-Qurudursa bal gətirən arıdır,
-Sözlər bulaq suyu kimi durudur,
Tanrılaşar sözdə, işdə bir olan.

Sərtüz dedi:-Gedin bir az düşünün,
Ancaq qandan, vuruşlardan daşının,
Ahur deyən sayaq köklü dəyişin,
Tanrılaşar sözdə, işdə bir olan.

Turqər dedi:-Sərtüz deyir düzünü,
O burada tapıb sanki özünü,
Ona dikib turqlar, türklər gözünü,
Tanrılaşar sözdə, işdə bir olan.

Öz yerindən dik atıldı ataman,
Dedi:-Bəsdir, dedin qandan, qadadan,
Eşitmişik bunu Turqər atadan,
Tanrılaşar sözdə, işdə bir olan.

Bizim ölkə gündən-günə böyüyür,
Böyüdükcə bağlantılar soyuyur,
Çoxu da var bu dinclikdə uyuyur,
Tanrılaşar sözdə, işdə bir olan.
Turqər deyir, Sərtüz deyir vuruşma,
Özgəsinin işlərinə qarışma,
Ondan, bundan olacağı soruşma,
Tanrılaşar sözdə, işdə bir olan.

Mindiyarım Turan olub, dəyişir,
Orda, burda bir az da çox vuruşur,
O, Pars, Həbəş, Hindlə, Çinlə didişir,
Tanrılaşar sözdə, işdə bir olan.

Turan böyük Mindiyarın çevrəsi,
Tanrılaşıb ikiliyin hərəsi,
Iki ana, anaların nənəsi,
Tanrılaşar sözdə, işdə bir olan.

Turqər dedi:-Gün, il ötür, beciddir,
Sərtüz deyən, tanrı deyən öyüddür,

Yaranışdan dolanışa keçiddir,
Tanrılaşar sözdə, işdə bir olan.

***

Turqər, Sərtüz, Turan, Başev, Əkbitən,
Ölkə çökər yoxsa əgər dibdaşı.
Turqər, Sərtüz, Turpar qaldı Başevdə,
Ölkə çökər yoxsa əgər dibdaşı.

Tunqər çox da üz vermədi Sərtüzə,
Onun ilə çox gəlmədi üz-üzə,
Inanmadı o Sərtüzə, Hörmüzə,
Hər yazıya, hər öyüdə, hər sözə,
Ölkə çökər yoxsa əgər dibdaşı.

Həbəşləri Uğureldə saxladı,
Işlərini tez-tez gedib yoxladı,
Dönük çıxan tutuqları haqladı,
Ölkə çökər yoxsa əgər dibdaşı.
Elçiçəyin göz yaşına qarışdı,
O deyənlə yalan-doğru barışdı,
Hərdən yerinc işlərindən yapışdı,
Ağsaqqalla, ağbirçəylə tapışdı,
Ölkə çökər yoxsa əgər dibdaşı.

Balasqellə döyüş söyləncі

Uruyerin səsləncləri gurladı,
Hər çağırış qan-qadadır, barışdır.
Balasqelin toplumları yürüşdə,
Hər çağırış qan-qadadır, barışdır.

Qurdər çıxdı toplum ilə qabağa,
Tunqər, Turpar əl atdılar yarağa,
Onlar sağol dedi sərin yaylağa,
Hər çağırış qan-qadadır, barışdır.

-Bu Filipdir dedi Tunqa Anakar,
Acıqandır ona Turan, Mindiyar,
Sanki onu qızışdırır Parsdiyar,
Hər çağırış qan-qadadır, barışdır.

Onun gözü tanıqlıqda, vardadır,
Balasqelin el-obası dardadır,

Onlar cumur yemək-içmək hardadır,
Hər çağırış qan-qadadır, barışdır.

Qurdər çıxdı qarşısına Filipin,
Yaraqlısı yaraqsızı on üç min,
Qırılırdı, azalırdı günbəgün,
Hər çağırış qan-qadadır, barışdır.

Qurdər dedi:-Filip, niyə gəlmisən,
Sən Turanı sanki sısqa bilmisən,
Onu Parsel, Balasqelə bölmüsən,
Hər çağırış qan-qadadır, barışdır.

Filip dedi:-Qayıt, sısqa, südəmər,
Çıxsın mənim qabağıma Alp, Tunqər,
Sizi nələr gözləməkdə, gör nələr,
Hər çağırış qan-qadadır, barışdır.

Qurdər dedi:-Öncə mənlə vuruş sən,
Şellənməkdə görüm kimsən, nəçisən,
Kiminkidir dənizdəki o yelkən,
Hər çağırış qan-qadadır, barışdır.

-Mən Filipəm, Balasqelin qeysəri,
Mən döyüşə çağırıram Tunqəri,
Verməlidir mənə bu boş yerləri,
Hər çağırış qan-qadadır, barışdır.

-Boş yer yoxdur, boş başlara çatası,
Bura Turan ölkəsinin ortası,
Qayıt burdan öz evinə, qadası,
Hər çağırış qan-qadadır, barışdır.

Kimsə yandan oxla vurdu Qurdəri,
Dedi, ala, budur sənin dəyərin,
Tutqunlaşdı onun gözü, təpəri,
Hər çağırış qan-qadadır, barışdır.

Şamxat çıxdı irəliyə, yaraqlı,
Üz örtülü, tunc görkəmi, papaqlı,
-Gəl vuruşaq-dedi-çapıq yanaqlı,
Hər çağırış qan-qadadır, barışdır.

Filip dedi:-Mən vuruşmam qadınla,
Rədd ol burdan qadınsayaq atınla,

Get, oynama odla, qanla, yanğınla,
Hər çağırış qan-qadadır, barışdır.
Şamxat getdi Filip üstə bizucla,
Biri çıxdı qabağına qılıncla,
Dedi:-Öncə mənlə vuruş, qoruncla,
Hər çağırış qan-qadadır, barışdır.

Yandan çıxdı dağ görkəmli Qardanağ,
Oxla vurdu, döş-başını yararaq,
Filip çıxdı boz atıyla, çaparaq,
Hər çağırış qan-qadadır, barışdır.

Dedi:-Kimsən, ay yekəpər, gən ərən,
-Mən Qardanağ, min birinci Tunqərəm,
Mən güləşdə Tunqəri də ötərəm,
Hər çağırış qan-qadadır, barışdır.

Filip dedi:-Bərk ulayar küçüklər,
Səndə hələ bərkiməyib sümüklər,
Ağzında var sarı körpə köpüklər,
Döyüşlərdə güləşməyir böyüklər,
Çıxın mənim qabağıma, ay türklər,
Uşaq-muşaq deyil köklü kötüklər,
Hər çağırış qan-qadadır, barışdır.

-Mənəm dedi- sən deyən türk Qardanağ,
Qılınc ilə Filip üstə cumaraq,
Vurdu onu yaraladı üç barmaq,
Hər çağırış qan-qadadır, barışdır.

Filip vurdu Qardanağı tutaqla,
Sonra vurdu iti ağır yaraqla,
Sonra dirsək, təpik, yumruq, ayaqla,
Hər çağırış qan-qadadır, barışdır.

Şamxat cumdu Filip üstə arxadan,
Qılınc ilə vurdu, gəldi haradan,

Filip çökdü, diz büküldü ortadan,
Hər çağırış qan-qadadır, barışdır.

Şamxat dedi:-Mən göy türkün gəlini,
Çək Turandan-Filip-qanlı əlini,
Yoxsa qırram toppuz ilə belini,
Hər çağırış qan-qadadır, barışdır.

Şamxat dedi:-Turanlılar, irəli,
Bıçaq gəlib lap sümüyə dirənib,
Cum irəli, atlı, iki təkərli!
Hər çağırış qan-qadadır, barışdır.

Filip dedi:-Cum irəli, Balasqlı!
Bizim olsun gərək bu yer, bu dağlıq,
Irəli get, atlı, iki ayaqlı!
Hər çağırış qan-qadadır, barışdır.

Üç gün vuruş, yara, ölüm, bağırtı,
At kişnəyir, yağıştək ox yağırdı,
Üç gün günəş yorğun batıb, çıxırdı,
Hər çağırış qan-qadadır, barışdır.

***

Dördüncü gün bir səs qopdu doğudan,
Son ayaqda gözlə tanrı yardımı.
Dedilər ki, gələn qaplan, ayıdır,
Son ayaqda gözlə tanrı yardımı.

Şamxat dedi:- Bu Tunqərdir, səslənir,
Çaparaqdır, acıqlanıb, közlənib,
Filip bilcək bunu, qaçıb gizlənir,
Son ayaqda gözlə tanrı yardımı.

Çatar-çatmaz Tunqər girdi döyüşə,
Ağlar oldu hamı lapdan bu işə,
Türklər dedi, güc yerini dəyişər,
Son ayaqda gözlə tanrı yardımı.

Turanlılar süpürlədi qancılı,
Filip qaldı basıqlıqdan asılı,
Ağ bayraqlar zirvələrə sancılır,
Son ayaqda gözlə tanrı yardımı.

Tunqər dedi:-Filip, çıx gəl ortaya,
Ya öl, ya da baş əy Tunqər ataya,
Yoxsa toplun Blasqelə adlayar,
Son ayaqda gözlə tanrı yardımı.

***

Birdən çıxdı irəliyə Anakar,

Turan barış ölkəsidir, döyüş yox.
Dedi, Tunqər, Balasqelli doğmadır,
Turan barış ölkəsidir, döyüş yox.

Sən Filipi mənə görə bağışla,
Qoy bu vuruş sona çatsın barışla,
Bunca səni Balasqelli alqışlar,
Turan barış ölkəsidir, döyüş yox.

Dedi:-Filip, Turan mənim atamdır,
Balasqelsə mənim doğma anamdır,
Bu nə qırğın, nə qancıllqı, nə qandır,
Turan barış ölkəsidir, döyüş yox.

Yalvarıram üzüquylu, deyirəm,
Bu sözləri söyləmişəm yüz kərə,
Qoyaq bu gün yaraqları biz yerə,
Balasq barış ölkəsidir, vuruş yox,
Turan barış ölkəsidir, döyüş yox.

Filip baxdı Tunqda enli qılınca,
Dönüb getdi, qalanlar da dalınca,
Sevinc qopdu ana torpaq boyunca,
Turan barış ölkəsidir, döyüş yox.

Hamı getdi, qaldı yerdə min ölü,
Bir də yerdə laxtalanan qan gölü,
Barış dedi Anakarın şeir dili,
Həm yaraqlı, həm yaralı, həm elli,
Anakarın iki dildə el dili,
Turan barış ölkəsidir, döyüş yox.

Hamı getdi, qaldı çöldə Anakar,
Şair üçün boş çöldə də hər nə var,
Anakara yardım edin, tanrılar,
Turan barış ölkəsidir, döyüş yox.

***

Iki toplum arxasınca o baxdı,
Neçəli ol, ancaq olma ikili.
Düşdü atdan, o atını buraxdı,
Neçəli ol, ancaq olma ikili.

“Ata yurdum, ana yurdum ölkələr,
Dörd yanında gəzib itən kölgələr,
Iki yurddan mənə qaldı döngələr,
Neçəli ol, ancaq olma ikili.

Niyə belə günə qaldın, ay yazıq,
Iki yanda həm kimsəsiz, həm artıq,
Yuxum gəlir, ört üstümü qaranlıq,
Niyə belə günə qaldın, ay yazıq,
Neçəli ol, ancaq olma ikili.

Atım, çap get, toplumuna qovuş sən,
Atsan, çalış bir adama uyuş sən,
Harda görsən məni, yavaş sovuş sən,
Gəz sən məni, iki yandan soruş sən,
Neçəli ol, ancaq olma ikili.

Anakaram, anam, atam vardı, yox,
Iki ölkə Anakara dardı, yox,
Uzaq ölkə, təklik məni yordu, yox,
Neçəli ol, ancaq olma ikili.

Anakaram, qorxaq olub əllərim,
Acı olur hərdən elin dilləri,
Addımlayıb mən ölçürəm çölləri,
Görüb məni acılansın ellərim,
Neçəli ol, ancaq olma ikili.

Anakaram, ana, gözlə gəlirəm,
Ata məni gözləyirsən, bilirəm,
Mən hər iki ölkəm üçün ölürəm,
Neçəli ol, ancaq olma ikili.

Anakaram, kollar, məni didməyin,
Ey tikanlar, yolum üstə bitməyin,
Itlər, mənim ətəyimi yırtmayın,
Boz buludlar, yolum üstün örtməyin,
Neçəli ol, ancaq olma ikili”.

***

Səs eşitdi gecə yarı Anakar,
Sözdə, səsdə nə istəsən taparsan.
Iniltiylə səsləyirdi kimsəni,
Sözdə, səsdə nə istəsən taparsan.

Yaxınlaşdı, yaralıydı köküsdən,
Tanımışdı Anakarı o, üzdən,
Ölülərsə qalanmışdı üst-üstə,
Sözdə, səsdə nə istəsən taparsan.
-Məni apar qardaş, çatdır bir yana,
Evə çatsam axan qanım dayanar,
Yumruğunu bas bu dərin yarama,
Sözdə, səsdə nə istəsən taparsan.

Bax gör, nədir zoqquldayır yaramda,
Daşdəmirəm, adım qalıb atamdan,
Soraq çatdır məndən evdə, Aranda,
Sözdə, səsdə nə istəsən taparsan.

Qoy uşağı doğsun gəlin, böyütsün,
Çiçək kimi, ağac kimi göyərtsin,
Ona döyüş bacarığı öyrətsin,
Sözdə, səsdə nə istəsən taparsan.

Mən ölürəm, öldüm deyən, qaraltı,
Ah, dinclikdir, ah, soyuqdur yer altı,
Ah, uçuram, bulud, duman, qapqatı,
Sözdə, səsdə nə istəsən taparsan.

Ölür, ancaq təpəsində buz tər var,
Gözlərini yumur onun Anakar,
Dörd bir yanda qan fışqırır yaralar,
Sözdə, səsdə nə istəsən taparsan.

-Anakaram, öz-özümü çaparam,
Gedib Aran gəlinini taparam,
Göz yaşımı ağıyerə qataram,
Sözdə, səsdə nə istəsən taparsan.

***

Alıb tanrı tapşırığı Turq, Sərtüz,
Göstərişdən daha sərtdir tapşırıq.
Tanrı olub iki yarı tanrıdan,
Göstərişdən daha sərtdir tapşırıq.

Sərtüz dedi:-Tanrı belə tapşırıb,
Turqər dedi:-Tanrı elə tapşırıb,
-Qatlar bir-bir düşsün dilə,-tapşırıb,

Göstərişdən daha sərtdir tapşırıq.

Uğureldə Turpar çatdı onlara,
-Sən haraya?
-Siz hayana, mən ora,
-Ay dilsizlər, siz qayıdın, siz hara?
Göstərişdən daha sərtdir tapşırıq.

Bir qurd idi, bir quş idi, üç ərən,
Düzəlişib bir də qopdu yerindən,
Heç bir yerdə çəkinmədi heç nədən,
Göstərişdən daha sərtdir tapşırıq.

Söz gələndə ürəkdən yox, boğazdan,
O gəlirdi, qayıdırdı ağızdan,
Sərtüz tez-tez danışırdı Hormuzdan,
Göstərişdən daha sərtdir tapşırıq.

-Məndən qabaq Hormuz Yimi çağırıb,
Yim vuruşqan oğulların ağırı,
Gedib tanrı qulluğuna, yuxarı,
Qaranlıqlar birdən dönüb ağarıb,
Göstərişdən daha sərtdir tapşırıq.

Hormuz deyib:-Yim, yaranış sönükdür,
Parçalanıb yer-yer, bölük-bölükdür,
Yim, yer üzü doğru yoldan dönükdür,
Mənim inam çağırışım böyükdür,
Inam bizi sahmanlayan bilikdir,
Göstərişdən daha sərtdir tapşırıq.

Sən qorxmursan döyüşlərdən, ərənsən,
Mənim kimi sən də uzaqgörənsən,
Bu inamı tapşırıram sənə mən,
Göstərişdən daha sərtdir tapşırıq.

Bu inamı dintək çatdır hamıya,
Çatsın inam qoy batıdan doğuya,
Dönsün inam tay-tay açıq qapıya,
Göstərişdən daha sərtdir tapşırıq.

Qoy yaranış yurd-yurd mənə inansın,
Çoxtanrılıq yuxusundan oyansın,
Qapılarda ocaq yansın, od yansın,
Qancılların qabağında dayansın,

Göstərişdən daha sərtdir tapşırıq.

Yim deyib ki, bacarmaram bu işi,
Öz işiyçün yaranmışdır hər kişi,
Düz gəlməsə yerdə hər şey dəyişir,
Tanrım, hər kəs öz işində əlləşir,
Göstərişdən daha sərtdir tapşırıq.

Hormuz deyib, yaxşı, onda qorunc ol,
Mənim inam qancılıma qılınc ol,
Əhrimənin boğazına təpinc ol,
Məni qoru, yerdə mənə yerinc ol,
Göstərişdən daha sərtdir tapşırıq.

Yer üzünü düzəlt, qoyma dağıla,
Qoyma yoxsul varlı əldə boğula,
Qoyma devlər ürəklərə soxula,
Üstüblük ver, ad ver işlək oğula,
Göstərişdən daha sərtdir tapşırıq.

Artsın sürü, naxır, ilxı, quş, maral,
Doğsun qızlar qoşa-qoşa, dalbadal,
Naxışlansın xalça, xurcun, qab, çuval,
Eşidilsin toppuz, dınqır, saz, qaval,
Göstərişdən daha sərtdir tapşırıq.

Yaylaq, qışlaq, ev, toy-düyün çoxalsın,
Sevinc olsun, paxıllıqlar yoxalsın,
Ölüm ölsün, yara, ağrı sağalsın,
Göstərişdən daha sərtdir tapşırıq.

Yim söyləyib, bacararam bunu mən,
Bax, bu işlər gələr mənim əlimdən,
Mən şah ollam yerə, göyə tanrı sən,
Göstərişdən daha sərtdir tapşırıq.

Belə olub danışıqlar Yim ilə,
Bilməyirəm ta nə olub kim ilə,
Başçı olub Yerə Yim şah min ilə,
Yim yaşadıb yer üzünü çəm ilə,
Göstərişdən daha sərtdir tapşırıq.

***

Tanrı dedi, get Sərtüzü yamsıla,

Keçmiş bizə gələcəyi göstərir.
Gördün acsan, əl at ondan yararlan,
Keçmiş bizə gələcəyi göstərir.

Sınaq idi Sərtüz, ona qınaq ol,
Bax gör ondan nə deyirlər, qulaq ol,
Ancaq bütün deyənlə ayaq ol,
Vuruşlarda ən bilikli qoçaq ol,
Ondan uca, ancaq öyləsayaq ol,
Içə işıq, çölə qızıl suvaq ol,
Gördün hamı yatır, yatma, oyaq ol,
Hara getsən Sərtüz, od ol, ocaq ol,
Keçmiş bizə gələcəyi göstərir.

Səni döyüb söyəcəklər, nə yaxşı,
Sonra gəlib öyəcəklər, nə yaxşı,
Dediyini sevəcəklər, nə yaxşı,
Keçmiş bizə gələcəyi göstərir.

Acıq elə, adam artır acıqla,
Tərslə tərs ol, sən yazıq ol yazıqla,
Könlü yanıq ol, sən könlü çapıqla,
Keçmiş bizə gələcəyi göstərir.

***

Turqər dedi:-Mən də yarıtanrıyam,
Barış, çalış, duruş bacı, qardaşdır.
Bu dörd işi tanrı mənə tapşırıb,
Barış, çalış, duruş bacı, qardaşdır.

Mən Alpislə vuruşmuşam yüz kərə,
Alpis qanlı Əhriməndir ellərə,
Üç yol gedib dirənmişəm Altyerə,
Pis tanrını yox etmişəm beş birə,
Barış, çalış, duruş bacı, qardaşdır.

Mən Alpisi daha tanrı saymıram,
O allatmaq istər məni, uymuram,
Qıtlıq salır bura, yaxın qoymuram,
Barış, çalış, duruş bacı, qardaşdır.

Çox vuruşu ayırmışam barışla,
And vermişəm, qansız bitib vuruşlar,

Yolum üstə durub dağlar, yoxuşlar,
Mən gəzirəm bir at, bir qurd, bir quşla,
Barış, çalış, duruş bacı, qardaşdır.

Mən Turqərəm, Sərtüz, sənin yolunda,
Mənə tapşır ağır işin olanda,
Sevinirəm mən tapşırıq alanda,
Barış, çalış, duruş bacı, qardaşdır.
Sərtüz dedi:-Yaz bunları oxuya,
Yarıtanrı olduğunu oxuyaq,
Çəksin səni qanan, qanmaz sorğuya,
Gedək tanrı deyən yeni qurğuya,
Barış, çalış, duruş bacı, qardaşdır.

Alpisin ölüm söyləncі

Qızıl quşun səsi çatdı Turqərə,
Çağırsalar, get, heç nəyi gözləmə.
Şimşəkatı yəhərlədi, çapdı Turq,
Çağırsalar, get, heç nəyi gözləmə.

Keçdi neçə dağı, gölü, yoxuşu,
Neçə yerdə durdu, gəzdi o, quşu,
Gördü yolda neçə atlı sovuşur,
Çağırsalar, get, heç nəyi gözləmə.

Döyə-döyə aparırlar birini,
Soruşullar kimliyini, yerini,
Bərk döyüllər yazıq yarımdirini,
Çağırsalar, get, heç nəyi gözləmə.

Turq söylədi:-Əl saxlayın, vurmayın,
O yazıqdır, qol-qıçını qırmayın,
Əl saxlayın, döş-başını yarmayın,
Çağırsalar, get, heç nəyi gözləmə.

Yarımdiri səs eşitdi, ayıldı,
Qışqırığı meşə boyu yayıldı,
Dedi, Turqər, mən Alpisəm, bayıldı,
Çağırsalar, get, heç nəyi gözləmə.

Turq tanıdı sözlərindən Alpisi,

Saralmışdı, bozarmışdı bənizi,
Qız səsinə oxşayırdı ər səsi,
Çağırsalar, get, heç nəyi gözləmə.

Dedi, Turqər, qurtar məni, oğul sən,
Məni qovub tanrılıqdan Əhriman,
Aldı bütün güclərimi əlimdən,
Çıx get-dedi-qız sevmisən Üstyerdən,
Çıxarıram tanrılıqdan səni mən,
Çağırsalar, get, heç nəyi gözləmə.

Turq düşündü, bu da yeni oyundur,
Bu bicləmə düyün üstən düyündür,
Incəliklə sancaqlanmış bir dondur,
Çağırsalar, get, heç nəyi gözləmə.

Sərtüz, Turpar çapa-çapa gəldilər,
Yanaşdılar, nə olubdur bildilər,
Ağladıqca Alpis, onlar güldülər,
Çağırsalar, get, heç nəyi gözləmə.

Turqər dedi:-Bunu yaxşı yoxlayın,
Əl-qolunu qayım-qayım bağlayın,
Mən gələnə dustaqlıqda saxlayın,
Çağırsalar, get, heç nəyi gözləmə.

Sərtüz dedi:-Bu Alpisdir, öldürün,
Dərisinə saman təpin, doldurun,
Bir dirəkdən asın, göyə qaldırın,
Çağırsalar, get, heç nəyi gözləmə.

Bu qancıldır, Əhrimәni andırır,
Bu, ölkələr, evlər, çöllər yandırıb,
Çox işığı, od-ocağı söndürüb,
Çağırsalar, get, heç nəyi gözləmə.
-Yox, Alpisi öldürməyək biz gərək,
Ondan Altyer bicliyini oyrənək,
Tanrı-tanrı, yer-yer, bit-bit, təkbətək,
Çağırsalar, get, heç nəyi gözləmə.

***

Ordan birbaş qayıtdılar Başevə,
Pərt olarsan yarı yoldan qayıtsan.
Alpis tez-tez ağlayaraq sızladı,
Pərt olarsan yarı yoldan qayıtsan.

Dedi:-Məni danlamayın bir belə,
Mən Başevdə düşəcəyəm əngələ,
Turana yox, verin məni Parselə,
Inanırlar onlar mənə çox hələ,
Pərt olarsan yarı yoldan qayıtsan.

Turpar dedi:-Sənə yaddır bu varlıq,
Orda səni sevməyirlər, ay yazıq,
Sən hər yerdə həm atıqsan, həm artıq,
Pərt olarsan yarı yoldan qayıtsan.

Yol getdilər, Alpisi də dartdılar,
Sonda gəlib bir yaylağa çatdılar,
Yorğun-arğın yıxıldılar yatdılar,
Pərt olarsan yarı yoldan qayıtsan.

Səhər tezdən cıqqa çəkdi Qızılquş,
Hamı durdu, nə baş verib, nə olmuş,
Gördülər ki, Alpis qaçıb, yox olmuş,
Pərt olarsan yarı yoldan qayıtsan.

Axtardılar, qar izinə düşdülər,
İki yoxuş, iki aşırım aşdılar,
Qar izinə neçə atlı qoşdular,
Pərt olarsan yarı yoldan qayıtsan.
Axtardılar, atı dağa sürdülər,
Qarda onun donduğunu gördülər,
Üzərinə qarla torpaq verdilər,
Pərt olarsan yarı yoldan qayıtsan.

***

Tanrı min il, neçə min il yaşayır,
Ölür, ölmək istəyəndə tanrılar.
Alpis öldü, çiçəkləndi yaranış,
Ölür, ölmək istəyəndə tanrılar.

Ölüm çaşdı bu ölümü biləndə,
Ara verdi qıtlıq, çovğun, ölümdə,
El toy tutdu ölüm özü öləndə,
Ölür, ölmək istəyəndə tanrılar.

Əhrimənin ayaqları tutuldu,
Tanrıların savaşları qurtuldu,
Qancıl, paxıl tullantıya atıldı,

Turan, Minel sağlamlığa qatıldı,
Acı sözlər dustaqlığa atıldı,
Ölür, ölmək istəyəndə tanrılar.

Gözəl imiş, dadlı imiş yaşayış,
Tanrıların evi imiş dolanış,
Yaşmaq tutmur daha Turqda yaranış,
Insanlarda artır dözüm, dayanış,
Ölür, ölmək istəyəndə tanrılar.

XXXIV QAPI

Buzər,Tusər söyləncі

Parsdiyara gəldi güləş bayramı,
Kim güclüdür ən gözəl qız onundur.
Dedilər ki, lap güclü də şah olur,
Kim güclüdür ən gözəl qız onundur.
Yüz güləşçi bu yarışa girişdi,
Bu bayramda çox küsülü görüşdü,
Çoxları da qucaqlaşıb öpüşdü,
Çox-çox qızlar, qadınlar da yarışdı,
Şah qız üstə burda ara qarışdı,
Kim güclüdür ən gözəl qız onundur.

Bu bayrama Turpar gizli gəlmişdi,
Qızılquşdan Turqər bunu bilmişdi,
Bunu bilib Turq, Turpara demişdi;
Kim güclüdür ən gözəl qız onundur.

-Sən güclüsən, get bayramda güləş sən,
Güləşərək toz-torpağa bələş sən,
Parsdiyarda şah olmağa əlləş sən,
Kimsən, nəsən, öz yurduna bəlləş sən,
Kim güclüdür ən gözəl qız onundur.

Şah olarsan, düzəldərsən aranı,
Yaxınlaşdır Parsdiyarla Turanı,
Şah olmasan, şah qoyarsan ananı,
Kim güclüdür ən gözəl qız onundur.

Aramızdan çəkişmələr çəkilər,
Acıq gedər, daş çəpərlər sökülər,
Acıqandan qalan dam-daş tökülər,
Kim güclüdür ən gözəl qız onundur.

Turpar ded:-Çox doğrudur, Turq ata,
Gərək gedəm bu bayrama tez çatam,
Anamgili bu bayrama mən qatam,
Kim güclüdür ən gözəl qız onundur.

Turpar dedi, örtüküzlü gedərəm,
Güləşçilər arasında itərəm,
Sora çıxıb kələzdənmə edərəm,
Kim güclüdür ən gözəl qız onundur.
Yarışların gedişini izlərəm,
Sonda güclü kimdir, onu gözlərəm,
Sonra onu güləşməyə səslərəm,
Kim güclüdür ən gözəl qız onundur.

Gəldi evə, o bayramdan çox dedi,
Yalvar-yaxar ana ona yox dedi,
Turpar şahlıq sarayından çox dedi,
Besyar ana öz oğluna yox dedi,
Kim güclüdür ən gözəl qız onundur.

Sona dedi:-Turpar, sənə nə olub,
-Turqər dedi bunu mənə, inandım,
-Heç bilirsən hara gedir bu yolun,
-Turqər dedi bunu mənə, inandım,
Kim güclüdür ən gözəl qız onundur.

Ana dedi, Sona dedi, saymadı,
Ana kəsdi gedən yolu, qoymadı,
Körpə uşaq dedi, Turpar duymadı,
Kim güclüdür ən gözəl qız onundur.

Sona dedi:-Onda apar məni də,
Güclü çıxsan evlənərsən yenidən,
Öldürərəm özümü də, səni də,
Kim güclüdür ən gözəl qız onundur.

Turpar getdi, yarıyolda dayandı,
Qucaqladı ağlar-ağlar Sonanı,
Gözü yaşlı qoyma-dedi-ananı,
Kim güclüdür ən gözəl qız onundur.

Üç gün axdı evdə dən-dən göz yaşı,
Dördüncü gün soraq gəldi, nə yaxşı,
“Güləşmədə Buzər şahın qardaşı,

Tusər olub Parsdiyara şahbaşı,
Kim güclüdür ən gözəl qız onundur.

***

Haçasaqqal Tusər güclü oğlandı,
Oyuncağı qılınc, bizuc, qalxandı,
Güləş tayı zolaq-zolaq qaplandı,
Kim güclüdür şahlıq yeri onundur.

O bəsləyib toplamışdı gücünü,
Alsın Buzər qardaşının öcünü,
Versin yoxsul Parsdiyara borcunu,
Kim güclüdür şahlıq yeri onundur.

O görmüşdü Tunqu, üç yol uzaqdan,
Ox atmışdı ona yaxın, qıraqdan,
Çox düşmüşdü döyüşlərdə ayaqdan,
Kim güclüdür şahlıq yeri onundur.

Keçən günlər, basıqlıqlar ötüşüb,
O yaralar çapıqlaşıb, bitişib,
Indi yeni döyüş günü yetişib,
Kim güclüdür şahlıq yeri onundur.

Düşünürdü, daşınırdı o belə,
Verməlidir Parselliylə əl-ələ,
Dönməliydi qar dağına, gur selə,
Parsdiyarın oğulları var hələ,
Kim güclüdür şahlıq yeri onundur.

Düşünürdü, daşınırdı yeni şah,
Cummalıydı Əkbitənə birbaşa,
Batmalıydı vara, yerə, daş-qaşa,
Kim güclüdür şahlıq yeri onundur.

Toplum, yaraq, yem, yeməli bol olsa,
Bicləməylə Turqa, Tunqa yol alsam,
Basar ollam qılınc vuran qol olsam,
Kim güclüdür şahlıq yeri onundur.
Düşünürdü, gözlər ocaq, od idi,
Enli qaşlar dartılmışdı, cod idi,
Sanki dəli qaplan idi, qurd idi,
Kim güclüdür şahlıq yeri onundur.

***

Əkbitəni, Uruyeri səs aldı,
Yerdə nə var hər gün, hər an dəyişir.
Tunqər gəlib oturmuşdu Başevdə,
Yerdə nə var hər gün, hər an dəyişir.

Düşünürdü, Turqər onu pisləyir,
Yer üzünü barışığa səsləyir,
Indi gedib o, Sərtüzü izləyir,
Yerdə nə var hər gün, hər an dəyişir.

Əkbitənə aman vermir Parsdiyar,
Indi yeni Tusər adlı şahı var,
Acıqana göz ol deyib atalar,
Yerdə nə var hər gün, hər an dəyişir.

Turq deyir ki, yersiz qana batmayın,
Ayıq olun qancıllardan, yatmayın,
Hər söz üstə işə yaraq qatmayın,
Acıqanı dartışmağa dartmayın,
Yerdə nə var hər gün, hər an dəyişir.

Turq nə deyir, biz də onu edirik,
Ata bilib arxasınca gedirik,
Çox bicləmə üzərindən ötürük,
Yavaş-yavaş unudulub, itirik,
Yerdə nə var hər gün, hər an dəyişir.

Hər savaşdan uzaq durmaq, nə demək,
Hər vuruşda barış qurmaq, nə demək,
Sağalt olub yara sarmaq, nə demək,
Yaraqlını içdən qırmaq, nə demək,
Yerdə nə var hər gün, hər an dəyişir.

Bu, aparır bizi yazıq olmağa,
Döyüşlərdə tez-tez basıq olmağa,
Qorxaq, sısqa, gözüqıpıq olmağa,
Öz yurdunda vecsiz, artıq olmağa,
Boşalaraq içi ovuq olmağa,
Yerdə nə var hər gün, hər an dəyişir.

Düşünürdü, dişlərini qıcırdı,
Qollarıyla yeri, göyü ölçürdü,
Alıb yeni bicləmələr biçirdi,
Basarlığa yeni yollar seçirdi,

Yerdə nə var hər gün, hər an dəyişir.

Dəyişilib yarıtanrı Turq ata,
Barış deyə üz tutmuşdu, elata,
Təki bir də baş verməsin qan-qada,
Yerdə nə var hər gün, hər an dəyişir.

Bunca qat-qat yırtıcılar artacaq,
Barışçılar ləhləyəcək, yortacaq,
Dəli alıb susqunları yırtacaq,
Yerdə nə var hər gün, hər an dəyişir.

Necə gedim, onu dilə tutum mən,
Onu çəkim, vurhavura qatım mən,
Ölkələri turanlğa qatım mən,
Yerdə nə var hər gün, hər an dəyişir.

Mənim olsun Şimşəkqılınc, Şimşəkat,
Yerdə, göydə açım geniş qol-qanad,
Gərək mənə uyuq olsun böyük ad,
Yerdə nə var hər gün, hər an dəyişir.

Mən tutmuşam yer üzünü, tutaram,
Çini, Hindi alıb Türkə qataram,
Mindiyarda turanlığa çataram,
Günəş kimi doğularam, bataram,
Yerdə nə var hər gün, hər an dəyişir.

***

Parsdiyarın səslənçləri gurladı,
Qan qoxusu duyur hər gün yer üzü.
Tusər dedi, gərək Tunqdan öc alam,
Qan qoxusu duyur hər gün yer üzü.

Sıraladı Tusər on min yaraqlı,
Hamısı da qıvraq, yüngül ayaqlı,
Tunc çuxalı, qurşaq, enli balaqlı,
Ayaq yalın, çəkməboğaz, çarıqlı,
Qan qoxusu duyur hər gün yer üzü.

Dedi, Xruş, Daryaş, Buzər and verir,
Parsdiyara onlar “İran” ad verir,
Ürəklərə sevgi, sevinc, od verir,
Qan qoxusu duyur hər gün yer üzü.

Mən onların almalıyam öcünü,
Hər yaraqlı qoy göstərsin gücünü,
Qoy öldürsün, gözləmədən ölçünü,
Hər iranlı turanlının üçünü,
Qan qoxusu duyur hər gün yer üzü.

Gedək, min il tutuqluğa son qoyaq,
Tanrı bizim arxamıza tunc dayaq,
Gedək, Turan ölkəsindən yer alaq,
Qan qoxusu duyur hər gün yer üzü.

***

Əkbitənin səsləncləri gurladı,
Kim nə bilir nə olacaq bir azdan.
Dağ başında yandı bir-bir ocaqlar,
Kim nə bilir nə olacaq bir azdan.

Iran yürüş edir böyük Turana,
Bu səs çatır Qobuyerə, Arana,
Bu səs çatır öncə Tunqər Alpana,
Kim nə bilir nə olacaq bir azdan.

Iyirmi min toplum çıxır qabağa,
Qalxır Qurdər Uruyerdə ayağa,
Silkələnmə, sazaq düşür torpağa,
Kim nə bilir nə olacaq bir azdan.

Qarşılaşır iki toplum Sakresdə,
Düzülüllər iki hündür yer üstə,
Bir qorxu var, bir titrəyiş hər səsdə,
Kim nə bilir nə olacaq bir azdan.

Tusər deyir:-Tunqər yaxşı görüşdük,
Öc günləri artıq gəlib yetişdi,
İran, Turan adlarımız dəyişdi,
Vergi vermək istəkləri ötüşdü,
Kim nə bilir nə olacaq bir azdan.

Istəyirsən öncə bir az güləşək,
Bir-birinə qol-qıç ataq, əlləşək,
Istəyirsən dinc dil ilə dilləşək,

Kim nə bilir nə olacaq bir azdan.

Tunqər dedi:-Öc almağa gəlmisən?
Sən İranı Turana tay bilmisən?
Bu başdan bil, sən çoxdandır ölmüsən,
Kim nə bilir nə olacaq bir azdan.
Kimsə Tunqa gendən gizli ox atdı,
Çil-çilatın sağrısını qanatdı,
At sıçradı, sıraları daraltdı,
Bu, toplumda qarışıqlıq yaratdı,
Kim nə bilir nə olacaq bir azdan.

Tusər çapdı, Turqu vurdu arxadan,
Tunc dəbilqə parçalandı ortadan,
Qılınc sındı, o yapışdı baltadan,
Iki ərən qalxıb durdu yanbayan,
Kim nə bilir nə olacaq bir azdan.

Tusər vurdu, balta yardı tutağı,
Tunqun yerə yatdı iki ayağı,
O söykədi yerə iti yarağı,
Kim nə bilir nə olacaq bir azdan.

Turpar atı birdən çapdı irəli,
Qılıncını Tusər şaha dirədi,
Şahın qaldı iki gözü bərəli,
Kim nə bilir nə olacaq bir azdan.

Dedi:-Tusər, mən Daryaşın oğluyam,
Atama yox, mən Tunqərə bağlıyam,
Gəldim səni güləşməkdə yoxlayam,
Kim nə bilir nə olacaq bir azdan.

-Soyun dəmir geyimini, ay qotur,
Gəl, güləşək, kim güc gəldi, şah odur,
Şah olmağın doğru yolu bax, budur,
Kim nə bilir nə olacaq bir azdan.

Tusər bunca üzə düşdü, soyundu,
Güclə dolu içi bərk-bərk döyündü,
Birincilik ad-sanıyla öyündü,
Kim nə bilir nə olacaq bir azdan.
-Gəl güləşək-dedi-Turpar, yanıqüz,
Dedi-bilki, mən qaplanam, sən öküz,
Basılaraq öləcəksən yüzdəyüz,

Kim nə bilir nə olacaq bir azdan.

Güləşdilər iki qaplan, iki ər,
Tunqər qalxdı öz yerindən birtəhər,
Nələr olur, gör, bir anda, gör, nələr,
Kim nə bilir nə olacaq bir azdan.

Qollar dəmir məngənədir elə bil,
Qıçlar yerdə girdənədir elə bil,
Hər deyilən söz iynədir elə bil,
Kim nə bilir nə olacaq bir azdan.

Biri dedi, yanıqüzsən, yazıqsan,
Biri dedi, beli boşsan, qopuqsan,
Biri dedi, sən yel dolu qovuqsan,
Biri dedi, sən Tunqərə tutuqsan,
Kim nə bilir nə olacaq bir azdan.

Dizə çökdü Turpar, ancaq aşmadı,
Çiyni üstə düşdü, ancaq çaşmadı,
O Tusərin qabağından qaçmadı,
Kim nə bilir nə olacaq bir azdan.

Birdən çıxdı o Tusərin əlindən,
Qamarlayıb tutdu onun belindən,
Sonra onu üzdü birdən yerindən,
Bir söz çıxdı Tusər şahın dilindən,
Kim nə bilir nə olacaq bir azdan.

-Vurma yerə məni Turpar, qoy yerə,
Tutuq ollam sənə hər gün yüz kərə,
Şah olarsan, mən başbaşı ellərə,
Kim nə bilir nə olacaq bir azdan.
Turpar onu qoydu yerə, dayandı,
Üzlər güldü, al çiçəyə boyandı,
“Turpar” deyib sanki hamı oyandı,
Kim nə bilir nə olacaq bir azdan.

Tusər dedi:-Turpar bizə şah olsun,
Onun adı “İran şahı” qoyulsun,
Tusər onun şah başbaşı sayılsın,
Kim nə bilir nə olacaq bir azdan.

Tunqər tutdu iki gəncin qolundan,
-Qardaş olun-dedi-birlik yolunda,

Turan durub İranelin dalında,
Kim nə bilir nə olacaq bir azdan.

***

Turan, İran, iki ölkə, iki yurd,
Iki olmaq bir olmaqdan yaxşıdır.
Hamı dedi, Turq, Tunq, Sərtüz söyləsin,
Iki olmaq bir olmaqdan yaxşıdır.

Besyar, Sona qaldı yenə Turanda,
Üzüyanıq Turpar şahsa İranda,
Tusər güldü, həm sevindi yalandan,
Iki olmaq bir olmaqdan yaxşıdır.

Turpar şah söyləncі

Turpar şaha İran bütün baş əydi,
Çox ayıq ol çətin işdən yapışsan.
Hamı dedi, biz Turanla qardaşıq,
Çox ayıq ol çətin işdən yapışsan.

Turpar öncə Tunqər ilə görüşdü,
Çox işləri Turan şahdan soruşdu,
Küsülüydü, ata bala barışdı,
Çox ayıq ol çətin işdən yapışsan.

Besyar dedi:-Atan kimi olma sən,
Sona dedi:-Şah yerində qalma sən,
Özü dedi:-Üzüyola olma sən,
Çox ayıq ol çətin işdən yapışsan.

Çağırtdırdı öz yanına Qurdəri,
Onun ilə gəzdi, gördü çox yeri,
Çəpər çəkdi Turanyerdən az bəri,
Çox ayıq ol çətin işdən yapışsan.

Dedi, İran yeni ölkə biçimdə,
Qan olmasın gərək ölkə içində,
Dinclik olsun, yaylaq, qışlaq köçündə,
Toplumları böyük tanrı gücündə,
Çox ayıq ol çətin işdən yapışsan.

Dedi, Turan qardaş deyil, atadır,
Turpar isə bu ataya arxadır,

Kim yox desə o, arada baltadır,
Çox ayıq ol çətin işdən yapışsan.

Ölkələrlə əlbir olaq, hər nədir,
Qonşu olağ, ana, qardaş, bacı bir,
Düz əkilən bu torpaqda düz bitir,
Çox ayıq ol çətin işdən yapışsan.

Turpar-şaham-dedi-indi İranda,
Qıraq dayan, ey iranlı, yamandan,
Qalsın şahlıq ev-eşiyin amanda,
Çox ayıq ol çətin işdən yapışsan.

Həbəş, Misir söyləncisi

Uruyerin səsləncləri gurladı,
İnam gücdür, ancaq o da azalır.
Firon basıb dustaqlığa Catanı,
İnam gücdür, ancaq o da azalır.

Aldı Tunqər iyirmi min toplumu,
Yardı isti çöllərdəki boş qumu,
Dedi, mənəm Çatan şahın durumu,
Dedi, mənəm Firon şahın ölümü,
İnam gücdür, ancaq o da azalır.

Firon Tunqdan ilk görüşdə ürkmüşdü,
Yarıdolu tuluq kimi çökmüşdü,
Çatan şaha yeni biclik çəkmişdi,
İnam gücdür, ancaq o da azalır.

O qorxmuşdu, Tunq ölkəni tutacaq,
Onu böyük Turanına qatacaq,
Onun Firon buyuruğu yatacaq,
İnam gücdür, ancaq o da azalır.

Düşünmüşdü, Turan bizə iş açar,
Yaxşı olar bu Tunqərdən biz qaçaq,
Tək Çatandır bu qapıya tək açar,
İnam gücdür, ancaq o da azalır.

Öncə onu götürərəm aradan,
Sonra Tunqu çıxararam sıradan,

Qallam özüm basar kimi ortada,
İnam gücdür, ancaq o da azalır.

Tunq əl atsa bizə qarşı yarağa,
Həbəşləri verrəm onda qabağa,

Sonra Misri qaldıraram ayağa,
Inam gücdür, ancaq o da azalır.

Üztut ollam “Aman” tanrı adına,
Döyüşərəm onla addım addıma,
Çağıraram Balasqeli yardıma,
Inam gücdür, ancaq o da azalır.

Tunq çaparaq Çil-çilatı yormuşdu,
Yolu üstə beş min Həbəş durmuşdu,
Qabağına nə çıxmışdı, qırmışdı,
Vurub çayı, gölü, çəni yarmışdı,
Inam gücdür, ancaq o da azalır.

Firon kəsdi qabağını Tunqərin,
Ancaq nədən əsməkdəydi əlləri,
Çıxdı Tunqun qabağına öndəri,
Inam gücdür, ancaq o da azalır.

Dedi:-Qayıt,tez ol burdan geriyə,
Firon deyir, əgər gəlsə bəriyə,
Nil Turanı qabağından kürüyər,
Inam gücdür, ancaq o da azalır.

Tunqər dedi:-Verin oğlum Çatanı,
Yoxsa tutub yandıraram hər yanı,
Mən saymaram sənin kimi qabanı,
Inam gücdür, ancaq o da azalır.

Bunu deyib Tunqər vurdu bizucu,
Sora çəkdi qoşa tiyə qılıncı,
Öndər qaldı at üstündə ölümcül,
Inam gücdür, ancaq o da azalır.

Firon çıxdı irəliyə acıqlı,
Bir az kobud, bir azcana qılıqlı,
Üzü soyuq, gözü parlaq-işıqlı,
Inam gücdür, ancaq o da azalır.

Dedi:-Oğlun Çatan Nildə boğulub,
Yeri-yurdu, ev-eşiyi dağılıb,
O şəhərdə şahlıq yeri yığılıb,
Inam gücdür, ancaq o da azalır.

Tunqər dedi:-Mənim oğlum dustaqdır,
O, döyüşdə, Firon, səndən qoçaqdır,
Sənin payın burda qandır, yaraqdır,
Inam gücdür, ancaq o da azalır.

Yenə çıxdı irəliyə bir öndər,
Dedi:-Gündə bir dil bilən biləndər,
Çatan şahdan soraq tutsun birtəhər,
Inam gücdür, ancaq o da azalır.

Tunqər daha gözləmədi, bağırdı,
Toplumunu irəliyə çağırdı,
Vurdu, öndər yerə yatdı, çığırdı,
Inam gücdür, ancaq o da azalır.

-Hara qaçdı-dedi-tutun Fironu,
O düzəldib bu yalanı, oyunu,
Ipə keçsin gərək onin boyunu,
Inam gücdür, ancaq o da azalır.

Iki toplum cumdu biri-birinə,
Qan sıçradı üzə yağış yerinə,
Qan laxtası döndü alın tərinə,
Inam gücdür, ancaq o da azalır.

“Vurun”-“qırın”, çığır-bağır, sızıltı,
Son sızıltı, son söz, son səs, bağırtı,

Yaralarda zoqquldayan gizilti,
Inam gücdür, ancaq o da azalır.

Tunq sıranı qılınc ilə darayır,
Vurur, qırır, yarır, yorur, arayır,
Qalxır göyə acıqanın harayı,
Inam gücdür, ancaq o da azalır.

Bundan bir-bir, ondan isə yüz ölür,
Çoxu qaçır, haray çəkir,”Turq gəlir”,
“Döyüş bəsdir” səsləncləri yüksəlir,
Inam gücdür, ancaq o da azalır.

Külək vurur, qanlı bığ, saç yellənir,
Kəsik başlar, kəsik qollar hellənir,
Dörd bir yanda ac qurd, tülkü sülənir,
Inam gücdür, ancaq o da azalır.

Firon qaçır, tapılmayır izi də,
Qaçır gedir, toplumu da, özü də,
Nələr olur, gör, yungülcə küsüdən,
Inam gücdür, ancaq o da azalır.

***

Firon yeni toplum qatır döyüşə,
Yaraqlılar çatır sayda beş-beşə,
Gəlir özü Tunqər ilə görüşə,
Inam gücdür, ancaq o da azalır.

Deyir:-Qayıt, götür, apar Çatanı,
Sən düşübsən, o qorusun Turanı,
Bundan artıq pozma bizim aranı,
Inam gücdür, ancaq o da azalır.

Toplumundan çox qırılıb, az qalıb,
Sən də dincəl, üzün-gözün saralıb,
Üç bir yandan qaçan yolun daralıb,
Inam gücdür, ancaq o da azalır.

Tunq bağırdı:-Bizimkilər, irəli!
Beş öldürsün acıqandan hər dəli,
Durun, yıxın qalsanız da təkəlli,
Inam gücdür, ancaq o da azalır.

O, dolaq ip atdı, tutdu Fironu,
Keçdi ipə Firon şahın boyunu,
Atdan yıxdı, o leş yeyən quzğunu,
Inam gücdür, ancaq o da azalır.

Turq atanın səsi gəldi uzaqdan,
Tunqər yardım gözləyirdi bayaqdan,
Toplum yenə bərk yapışdı yaraqdan,
Inam gücdür, ancaq o da azalır.

Tunq, Turq, bir də Şimşəkqılınc, Şimşəkat,
Artdı yenə döyüş, vuruş, çathaçat,

Topuğacan qanlı palçıq, bathabat,
Inam gücdür, ancaq o da azalır.

Acıqanın sıraları yarıldı,
Atlar, qıçlar, qollar, başlar yoruldu,
Basar, basıq bir-birindən ayrıldı,
Inam gücdür, ancaq o da azalır.

***

Tutuq Firon gətirildi Başevə,
Qıvraq dünən dilənçiydi, bu gün şah.
Düstaqlıqdan çıxartdılar Çatanı,
Qıvraq dünən dilənçiydi, bu gün şah.

Tunqər, Turqər oturmuşdu yanaşı,
Firon isə qolubağlı evbaşı,
Çoxunun da dəyişmişdi göz başı,
Qıvraq dünən dilənçiydi, bu gün şah.

Tunqər dedi:-Çatan burda şah olsun,
Turqər dedi:-O, Firona tay olsun,
Firon dedi:-O ikinci say olsun,
Firon günəş, Çatan isə ay olsun,
Qıvraq dünən dilənçiydi, bu gün şah.

Tunqər dedi:-Çatan günəş, Firon ay,
Bundan sonra Turanındır bu saray,
Turanındır böyük Misir taybatay,
Qıvraq dünən dilənçiydi, bu gün şah.

Biri dedi, iki min il arası,
Tutuq olub burda onun babası,
Bu gün böyük başbaşıdır atası,
Firon olsun Çatan şahın qudası,
Qıvraq dünən dilənçiydi, bu gün şah.

Çox dedilər, danışdılar, neçə gün,
Düyün düşdü, açılmadı çox düyün,
“Bu doğrudur, bu ayrıdır, bu düzgün”,
Qıvraq dünən dilənçiydi, bu gün şah.

Firon dedi:-Bəsdir, getmə dərinə,
Mən batmışam utancaqlıq tərinə,
Mən qoyaram beş il onu yerimə,

Qıvraq dünən dilənçiydi, bu gün şah.

Tunqər dedi:-Güc veribsən yalana,
Sən bizimlə gedəcəksən Turana,
Pay verərsən orda olan qalana,
Qıvraq dünən dilənçiydi, bu gün şah.

***

Qızıl quşun səsi gəldi yaxından,
Ağır gündə hamı doğma qardaşdır.
Turqər çıxdı tər-tələsik qapıya,
Ağır gündə hamı doğma qardaşdır.

Turpar yazı göndərmişdi:-“Turq ata,
Mən burdayam, ata, lap-lap yaxında,
Tusər, beş min yaraqlı da yanımda,
Ağır gündə hamı doğma qardaşdır.

Eşitdik ki, döyüşdəsən, təklənib,
Sənə qarşı Firon beş qat köklənib,
Hərdən-birdən səni sancır, ərklənir,
Ağır gündə hamı doğma qardaşdır.

Gəldik bura toplumbaşı Tusərlə,
Dayanmışıq arxanızda təpərlə,
Üç min atlı, on təkərli çəkərlə”,
Ağır gündə hamı doğma qardaşdır.

Tunqər, Turqər çox üstünlük duydular,
Bunu Tunqa böyük yardım saydılar,
Çatan şahı burda Firon qoydular,
Ağır gündə hamı doğma qardaşdır.

Yazı yaman düşündürdü Tunqəri,
Bir də bir il bundan qabaq ötəri,
Öc almağa gələn güclü Tusəri,
Ağır gündə hamı doğma qardaşdır.

“Yaxşı olub, o, Tusəri gətirib,
Yaxşı, İran bizə yardım yetirib,
Öclü günü ondan qapıb götürüb”.
Ağır gündə hamı doğma qardaşdır.

***

On iki il Firon oldu Çatan şah,
Nə olsan da sən gərək ol ölkənə.
Turon-Misir yolu doldu, boşaldı,
Nə olsan da sən gərək ol ölkənə.

Su üstünə on dörd bərə saldırdı,
Suqırağı daş-tikinti qaldırdı,
Bataqlığı daşla, qumla doldurdu,
Nə olsan da sən gərək ol ölkənə.

Suda balıq, çöldə maral, quş artdı,
Sürü artdı, inək artdı, qoç artdı,
Az yaşayan adamlarda yaş artdı,
Yer becərən öküz artdı, xış artdı,
Nə olsan da sən gərək ol ölkənə.

Deyişmə söyləncі

On gün qaldı Uruyerdə Turq ata,
Iki başev ikiləşmə deməkdir.
Əkbitəndə əsnəyirdi Ağüzər,
Iki başev ikiləşmə deməkdir.

Turqun burda azalmışdı çəkisi,
Tunq, Turq burda deyişirdi ikisi,
Deyişmə yox, ağızlaşma türküsü,
Iki başev ikiləşmə deməkdir.

O deyirdi:-Gözüm-başım sozarıb,
Turanlının döyüş gücü azalıb,
Tanrı sanki aramıza lov salıb,
Iki başev ikiləşmə deməkdir.
Turq deyirdi:-Bunlar səndə görünmür,
Bizimkilər döyüşlərdə sürünmür,
Ağır gündə yoldan dönmür, ərinmir,
Iki başev ikiləşmə deməkdir.

Tunq deyirdi:-Görüş, barış artıqdır,
Yürüş gərək, görüş-mörüş artıqdır,
Işdə-mişdə, yarış-marış artıqdır,
Iki başev ikiləşmə deməkdir.

Turq deyirdi:-Dirrik döyüş deyildir,
O dinclikdir, hər gün yürüş deyildir,
O çalışdır, çarpış-marpış deyildir,
Iki başev ikiləşmə deməkdir.

Tunq:-Sən ata, orda, burda qonaqsan,
Barış, döyüş arasında ortaqsan,
Həm barışsan, həm də iti yaraqsan,
Iki başev ikiləşmə deməkdir.

Turqər:-Mənə tanrı belə buyurur,
Adamları pisə, yeyə ayırıb,
Indi hamı qana doğru yüyürür,
Iki başev ikiləşmə deməkdir.

Tunq:-Mən almasam qabağını öclərin,
Kim qoruyar əl-ayaqsız heçləri,
Dincçilərin buna çatmaz gücləri,
Iki başev ikiləşmə deməkdir.

-Düzdür, sənin bacarığın gərəkdir,
Çox basarlıq çox qan-qada deməkdir,
Əkin üçün günlər dardır, seyrəkdir,
Ancaq dinclik əkin, biçin deməkdir,
Iki başev ikiləşmə deməkdir.

Tunq:-Yim sən deyən o dincliyi yaratdı,
Yer üzündə adam beşdə yüz artdı,
Çoxluq yeri, ev-eşiyi daraltdı,
Iki başev ikiləşmə deməkdir.

-O,tanrıdan yeni yardım istəyib,
Tanrı ona yeni yollar göstərib,
Yim yenə də yer üzünü bəsləyib,
Doqquz yüz il yerdə şahlıq eyləyib,
Iki başev ikiləşmə deməkdir.

Tunq:-Sən deyənlə gedsək, nələr etməli,
Yim yoluyla, Tunq yoluyla getməli?
Qan-qadanın üstün nəylə örtməli,
Iki başev ikiləşmə deməkdir.

Turq:-Yavaş-yavaş qan-qadanı pisləmək,
Adamları yaxşı yola səsləmək,
Tanrıların dediyini izləmək,

Barışığı min, on min il gözləmək,
Iki başev ikiləşmə deməkdir.

Tunq:
-Onda buyur, otur burda şahsayaq,
Bizdən uzaq döyüşgənlik, yal-yaraq,
Yeyək, içək, əkin, biçin, xış, oraq...
Onda gərək "əkbiç" evi yaradaq,
Qancıl gəlsə tanrı gəlib qovacaq,
Iki başev ikiləşmə deməkdir.

Beş min ildir döyüş olub hər yanda,
Hamı buna orgənibdir Turanda,
Öc alanlar ayaq tutub İranda,
Kim qoruyar bizi pisdən, yamandan,
Iki başev ikiləşmə deməkdir.

Turq:
-Tanrı, Sərtüz deyir, yeydir yaxşılıq,
Yaşayacaq yeylər tanrıqarışıq,
Pis gedəcək, güc gələcək yaxşılıq,
Bəsdir daha atda-butda danışıq,
Iki başev ikiləşmə deməkdir.

***

Ikiləşdi İranda da başçılar,
Işdə üçlük ikilikdən yaxşıdır.
Turpar, Tusər hər gün durdu üz-üzə,
Işdə üçlük ikilikdən yaxşıdır.

Biri dedi, yaxşı ürək, söz hanı,
Sənsən belə qarışdıran İranı,
Əlləşirsən odlayasan aranı,
Işdə üçlük ikilikdən yaxşıdır.

Biri dedi, şahsan, bizə böyüksən,
Ancaq sən öz torpağına dönüksən,
Turun, Tunqun qabağında büküksən,
Biri dedi, öc, qancıllıq pis işdir,
Sənınki də güləş, dalaş, döyüşdür,
Darvidelə, Duzdaqelə yürüşdür,
Işdə üçlük ikilikdən yaxşıdır.

Biri dedi, qurdalama yaramı,

Sən öldürdün qardaşımı, atamı,
Bu şahlıqda qorxu basır adamı,
Işdə üçlük ikilikdən yaxşıdır.

Turpar:
-Turqu, Tunqu mən yaxından görmüşəm,
Mən onların iç evinə girmişəm,
Görüb, bilib, sevib ürək vermişəm,
Işdə üçlük ikilikdən yaxşıdır.
Tusər:
-Çox böyükdən qorxma, nədir böyükdür,
Böyük var ki, içi qurdlu, çürükdür,
Qart ağacın köksü dəlik-dəlikdir,
Dalğalanır dəniz, sonu kopükdür,
Işdə üçlük ikilikdən yaxşıdır.

Turpar şahın uca olsun başrağı,
O ağacdır, mən də onun budağı,
O başraqdır, mən də onun saçağı,
Böyük şahdır, məndə iti yarağı,
Işdə üçlük ikilikdən yaxşıdır.

-Şah baxmasın mənim acı dilimə,
O buyursun, durum, gedim ölümə,
Iki olsaq şahlıq iki bölünər,
Işdə üçlük ikilikdən yaxşıdır.

Turpar:
-Bax, belə də Turqər gücdür, hər nədir,
Turq Turandır, Tunqər orda düymədir,
Turan dəniz, Tunqər orda dəhnədir,
Işdə üçlük ikilikdən yaxşıdır.

-Bu sözlərdə yanıq iyi duyuram,
Sən yanmısan Tunq əlində, anıram,
Sən yanmısan, mən də indi yanıram,
Mən şahımı öc yerimkə qoyuram,
Işdə üçlük ikilikdən yaxşıdır.

Turpar susdu, danışmadı, dinmədi,
Ancaq yenə dediyindən dönmədi,
Gördü Tusər ondan sözdə öndədir,
Işdə üçlük ikilikdən yaxşıdır.

Gördü sözlər söz deyildir iynədir,
Tunqa gendən tərs şapalaq, sillədir,
Üzündəki yanıq yerlər göynədi,
İşdə üçlük ikilikdən yaxşıdır.

XIII Bölmə

Darvidellə döyüş söyləncisi

Parsdiyarın səsləncləri gurladı,
Döyüşlərdə söz üstündür, güc üstün?
Iran ola gərək bütün Darvidel,
Döyüşlərdə söz üstündür, güc üstün?

Tusər gizli düşünmüşdü bu toyu,
Turan üçün qazılmışdı bu quyu,
Tunq yardıma gələcəkdi çay boyu,
Bir də üzə çıxacaqdı bu oyun,
Oxu atıb gizlətmişdi o yayı,
Döyüşlərdə söz üstündür, güc üstün?

Darvidelli ayrılmışdı Turandan,
Istəyirdi üzülüşsün İrandan,
Heç bilmirdi tutsun kimdən, hayandan,
Döyüşlərdə söz üstündür, güc üstün?

Qocalmışdı Balaşq, həm də Qaratel,
El-elatdan ayrılırdı ilbəil,
Diyarlaşıb yurdlaşırdı hər biri,
Döyüşlərdə söz üstündür, güc üstün?

Turan böyük, Turanlılar dipdiri,
Baş girdənə, köküs enli, göz iri,
Türkün, mağın, farsın, sakın ilk yeri,
Döyüşlərdə söz üstündür, güc üstün?
Çini, Hindi, Misri keç, gəl dayan, dur,
Yerdə qalan nə vardırsa Turandır,
Kim desə ki mən də varam, yalandır,
Döyüşlərdə söz üstündür, güc üstün?

Darvidelə Tunq qardaşlıq adına,
Qurdər şahı yola saldı yardıma,
Dedi:-Min, get mənim Çilçil atıma,

Toplum götür, çox güc vermə artıma,
Sayı çatsın on iki min yarıma,
Döyüşlərdə söz üstündür, güc üstün?

***

Qız toplumu öncə çıxdı meydana,
Öncə qız yox, oğlan qızdan utanır.
Dedilər ki, biz bağlıyıq Turana,
Öncə qız yox, oğlan qızdan utanır.

Bu, Tusərə alçaqlama gətirdi,
Sanki, birdən o özünü itirdi,
Uruyerdən Qurdər özün yetirdi,
Öncə qız yox, oğlan qızdan utanır.

Qaş-qabaqlı çıxdı Tusər meydana,
Dedi:-Qızlar, bu təhqirdir İrana,
Mən qızlara bu yürüşdə qurbanam,
Öncə qız yox, oğlan qızdan utanır.

Sanna dedi:-Qarateləm, vuruşqan,
Bizim qızlar döyüşgəndir, alışqan,
De, sən kimsən, sən nəçisən, ay oğlan,
Öncə qız yox, oğlan qızdan utanır.

Yarımüztut beş yüz, başda dəbilqə,
Içlərində topal, çolaq, ələngə,
Az danışan, çox düşünən, deyingən,
Öncə qız yox, oğlan qızdan utanır.

Iki qırış düyünləndi alnında,
Parlaq qılınc sıyrılandan qınından,
Tusər gördü gözəl qızı yaxından,
Öncə qız yox, oğlan qızdan utanır.

Sanna vurdu, gözləmədi Tusəri,
Iti idi qılıncının kəsəri,
Daha iti qadın ərki, təpəri,
Öncə qız yox, oğlan qızdan utanır.

Çıxdı önə pota, gödək, Pişikgöz,
Dedi:-Ay qız bir az gözlə, bir az döz,
Bu meydanda sən maralsan, mən öküz,
Öncə qız yox, oğlan qızdan utanır.

Qızlar güldü, ancaq hücum çəkdilər,
Pişikgözü alıb, yırtıb, sökdülər,
Yarıb keçib toplumu, qan tökdülər,
Öncə qız yox, oğlan qızdan utanır.

-Mən Tusərəm, gözləyirəm Tunqəri,
Qurdər, kimi gözləyirsən, çıx bəri,
Qabağıma çıxan ərlər gəbərib,
Öncə qız yox, oğlan qızdan utanır.

-Sanıb uşaq oyuncağı Tunq səni,
Sənə qarşı göndəribdir o məni,
Qatlayaram, büküb iri gövdəni,
Diz çökdürrəm sənin kimi ərəni,
Öncə qız yox, oğlan qızdan utanır.

Qurdər çapdı atı Tusər üstünə,
Tusər çıxdı qıvraq onun qəsdinə,
Vurdu onu, sındı ağız, alt çənə,
Qurdər döndü özü vecsiz gödənə,
Öncə qız yox, oğlan qızdan utanır.

Qurdər:-Gəl, güləşək, ağrıların azalsın,
Kim güc gəlsə, o burada şah olsun,
Basılana burda sonev qazılsın,
Öncə qız yox, oğlan qızdan utanır.

Sanna dedi:-Darvidelin şahı var,
Şah olmağı Darvidelli bacarar,
Məni basan ancaq burda şah olar,
Öncə qız yox, oğlan qızdan utanır.

Bunu deyib Sanna vurdu qılıncı,
Tusər aşdı, yaralandı sağ qıçı,
Söz ağzında qaldı onun yarımçıq,
Öncə qız yox, oğlan qızdan utanır.

Qurdər vurdu yıxılanı bizucla,
Silkələnib Tusər qalxdı qılıncla,
Buynuzlaşdı iki keçi bir qoçla,
Öncə qız yox, oğlan qızdan utanır.

Qılıncların vıyıltısı, işığı,
Qalxanların gumbultusu-yırtığı,

Ərənlərin coşub, daşan acığı,
Ölənlərin daşdan, qumdan yastığı,
Düşündürdü bir az Tusər yazığı,
Öncə qız yox, oğlan qızdan utanır.

Dedi:-Qurdər, gəl, güləşək, yaxın dur,
Tunq gələnə yaxşı vuruş, bax, budur,
Nəyə gərək qırhaqırla, vurhavur,
Öncə qız yox, oğlan qızdan utanır.

Batdı bizuc Qurdər şahın çiyninə,
O çırpıldı bir qayanın tininə,
Çabaladı uzununa, eninə,
Öncə qız yox, oğlan qızdan utanır.

Haçasaqqalla döyüş söyləncі

-Tunq, mən Tusam, haçasaqqal Tusərəm,
“Mənəm” mənəm deyən öndə durur özündən.
Gözləyirdim gəlişini döyüşə,
“Mənəm” mənəm deyən öndə durur özündən.

Biləsən ki, Darvideli almışam,
Başçıları vurub atdan salmışam,
Mən buranın başbaşısı olmuşam,
“Mənəm” mənəm deyən öndə durur özündən.

Hörmətim var sənin kimi yaşlıya,
Iran, Turan durub qarşı qarşıya,
Gəl barışa, ya döyüşə başlayaq,
“Mənəm” mənəm deyən öndə durur özündən.
Tunq:
“Tusər artıq son işıqı söndürür,
O Turandan tam üzünü döndərir,
Gərək ora Eldəbiri göndərim,
“Mənəm” mənəm deyən öndə durur özündən.

Tus Qurdəri basır iplə bağlayır,
Tutuq edib dustaqlıqda saxlayır,
Turanlının gücü, içi laxlayır,
“Mənəm” mənəm deyən öndə durur özündən.

Qız toplumu gözləyərək durubdur,

Döyüş, aclıq hamılığı yorubdur,
Tus bu işi, bicləməni qurubdur,
“Mənəm” mənəm deyən öndə durur özündən.

Tunq eşidir bunu, düşür təşvişə,
Bir qədər də mətəl qalır bu işə,
Iyirmi min atlı çıxır yürüşə,
“Mənəm” mənəm deyən öndə durur özündən.

Tunq yolüstü əmr eləyir, bax, belə:
-On min atlı Tusa, on min Parselə,
Düşsün Tusun ürəyinə vəlvələ,
“Mənəm” mənəm deyən öndə durur özündən.

Çatan kimi Darvidelə bağırır,
Nərildəyib burda dəhşət doğurur,
Yaraqlını qırhaqıra çağırır,
“Mənəm” mənəm deyən öndə durur özündən.

***

Çatır Tusa süpürləyir atını,
Yürüş edən gücdür, zəfər onundur.
Alır Tusun gözlərinin odunu,
Yürüş edən gücdür, zəfər onundur.

Tunq deyir ki, dur ayağa, yekəbaş,
Sənə sonev olacaqdır bu savaş,
Az İranda döşünə döy, yavalaş,
Yürüş edən gücdür, zəfər onundur.

Qalxan tutub Tus yeriyir qabağa,
Tunq əndərir dəmir gürzü tutağa,
Tus dözməyir, diz qatlayır torpağa,
Dönür yerdə ayaqaltı tapdağa,
Yürüş edən gücdür, zəfər onundur.

Səs yayılır ağız-ağız hər yana,
On min atlı birəm girib İrana,
Başsız qalan Başev qalıb virana,
Yürüş edən gücdür, zəfər onundur.

Tus bilir ki bu iş Tunqun işidir,
O diskinir, qoyun kimi tövşüyür,
Deyir:-Parslar durun, məni eşidin,

Yürüş edən gücdür, zəfər onundur.

-Hamı dönsün Darvideldən Parselə,
Gözləmirdik bu döyüşü biz belə,
Qabaqdadır döyüşümüz, Tunq, hələ,
Yürüş edən gücdür, zəfər onundur.

Sanna dedi:-Tusu əsir götürək,
Yekəbaşın ad-sanını itirək,
Ya da onun burda işin bitirək,
Yürüş edən gücdür, zəfər onundur.

Tunq dedi:-O başçıdır ölkədə,
Qoy qayıtsın, ağıllanar bəlkə də,
Ağıllansa çıxmaz bizim cərgədən,
Oğul qalmaz əl-ayaqsız kölgədə,
Yürüş edən gücdür, zəfər onundur.

Eldəbiri çıxartdılar dustaqdan,
O da bunu gözləyirdi bayaqdan,
Ac qalmışdı, o düşmüşdü ayaqdan,
Yürüş edən gücdür, zəfər onundur.

Qurdər deynən haradasan, harada,
Məni alıb ağrı, dərin yaralar,
Yara qalsa laxtalanar, qaralar,
Yaralı da, çöpə dönər, saralar,
Yürüş edən gücdür, zəfər onundur.

***

Sona çatır Darvideldə döyüşlər,
Qan-qadanın əvvəli var, sonu yox.
Qalır Turan yurdu kimi Darvidel,
Qan-qadanın əvvəli var, sonu yox.

Toplum dönür, Tunq İrana dönməyir,
Neçə gündür o, atından enməyir,
Acığı da alovlanır, sönməyir,
Acıqlıdır, danışmayır, dinməyir,
Qan-qadanın əvvəli var, sonu yox.

O düşünür, İran, Turan bir olsun,
Hər ikisi Turanlıqda yer alsın,
Yer üzündə Turan adı gur olsun,
Qan-qadanın əvvəli var, sonu yox.

Dedi, qoyum Elçiçəyi yerimdə,
Bəs kim qalsın Elçiçəyin yerində,
Yerinc qoyum onərlərin birindən,
Qan-qadanın əvvəli var, sonu yox.

Özüm gəzim ölkə, ölkə Turanı,
Mən Turanın qulluğunda dayanım,
Olum hər gün elin, yurdun hayanı,
Qan-qadanın əvvəli var, sonu yox.

Böyük ölkə dolandırmaq ağırdır,
Böyük ölkə haradasa fağırdır,
Ona qarşı çox ölkələr paxıldlr,
Böyük ölkə sanki şirin nağıldır,
Qan-qadanın əvvəli var, sonu yox.

Gərək bölüm bunu İran, Turana,
Tərs baxacaq onda xortdan xortdana,
Bənzəyəcək qohum-arpa, samana,
Qan-qadanın əvvəli var, sonu yox.

Yoxsa bitməz qan-qan deyən bu işlər,
Bitməyəcək aramızda döyüşlər,
Ara verməz sancı, təhqir, söyüşlər,
Qan-qadanın əvvəli var, sonu yox.

Böyük ölkə parçalanır içindən,
Zəhləm gedir daha tayfa köçündən,
Zəhləm gedir onun, bunun öcündən,
Qala bilməz Turan bu cür biçimdə,
Qan-qadanın əvvəli var, sonu yox.

Qoy çağırım Sayan, Alan, Sayanı,
Bəlkə onlar dolandıra Turanı,
Yaradalar hər səliqə, sahmanı,
Qan-qadanın əvvəli var, sonu yox.

Turq düşünür, yorğun atı yorğadır,
Tunqun yolu dəyişilib, başqadır,
Gecə ulduz ətək-ətək qorğadır,
Ay ulduzlar içrə qızıl toqqadır,
Qan-qadanın əvvəli var, sonu yox.

Nə deyirsən, sısqa diyar, sısqa yurd,

Sən də buyur öz-özünə ölkə qur,
Az Turanın arxasınca yeri, yort,
Öz xeyrinə onu, bunu qopart, qırt,
Qan-qadanın əvvəli var, sonu yox.

Muğel, Çinçay, Qoşaboğaz, Qobuçöl,
Ay Buzboğaz, Durudaşel, Yaqutel,
Bağlantıdan çıxın, Altay, Darvidel,
Turan daha yolqonağı ev deyil,
Qan-qadanın əvvəli var, sonu yox.
Turq düşünür, at yanpörtü şüllənir,
Külək vurur, yal, quyruğu yellənir,
Dağ başında gün işığı bəllənir,
Qan-qadanın əvvəli var, sonu yox.

Çilçilatı gətirillər, o, şişib,
Yaralıdır, sol sağrısı, sağ döşü,
O kişnəyir, şaha qalxır, yer eşir,
Qan-qadanın əvvəli var, sonu yox.

Tunqər deyir:-Haradaydın çil atım,
Döyüşlərdə qoruncumsan, həyatım,
Xilaskarım, mənim qolum, qanadım,
Qan-qadanın əvvəli var, sonu yox.

***

Qarşıladı Tunqu tezdən Elçiçək,
Əri yedirt, sonra aç, de, sözünü.
Açılmışdı bol süfrələr Basevdə,
Əri yedirt, sonra aç, de, sözünü.

Dedi:-Ərim, hardan yara almısan,
Arıqlayıb bir azcana solmusan,
Eşitdim ki Tusa zəfər çalmısan,
Əri yedirt, sonra aç, de, sözünü.

Tunq bir dinclik duydu sanki özündə,
Vəcdə gəldi arvadının sözündən,
Iyləyərək öpdü onun üzündən,
Əri yedirt, sonra aç, de, sözünü.

Arvadına açdı dedi çox sözü,
Açdı, dedi cod yalanı, ağ düzü,
Yatdı bütün iki gecə gündüzü,

Əri yedirt, sonra aç, de, sözünü.

Gileyləndi qaynatası Turqərdən,
-O əl çəkmir-ora, bura səfərdən,
Salır bizi yad gözlərdə nəzərdən,
Əri yedirt, sonra aç, de, sözünü.

Ancaq dinib danışmadı arvadı,
Elçiçəkdi təkcə Turqun övladı,
Dağılardı yoxsa evi, büsatı,
Əri yedirt, sonra aç, de, sözünü.

Ərlə arvad arasında söz acı,
Arvad quzu timsalında, ər qoçu,
Belə vaxta açmaq olmaz hər sucu,
Əri yedirt, sonra aç, de, sözünü.

Başev söyləncі

Başev yedi, içdi, kefdən hallandı,
Qarışdırma quşla quzu ətini.
Hamı bildi Tunq bir azca dəyişib,
Qarışdırma quşla quzu ətini.

Tunqun dili acılaşdı get-gedə,
Dedilər ki, bu keçəndir, tez gedər,
Qaratikan tez tökülər, gül bitər,
Tunqu çox da danlamayın, çox, yetər,
Qarışdırma quşla quzu ətini.

Açılmışdı bol süfrələr yan-yana,
Məclis Tunqdan küsülüydü çox güman,
Bicləmələr burdan doğur hər zaman,
Qarışdırma quşla quzu ətini.

Biri dedi:-Mən gücümü yığaram,
Mən İranı beşiyində boğaram,
O ox olsa, mən şimşəktək çaxaram,
Qarışdırma quşla quzu ətini.

Biri dedi:-Çoxuq, saya gəlmirik,
Ölkə artır, sayımızı bilmirik,
Ömür artır, qocalırıq, ölmürük,
Qarışdırma quşla quzu ətini.

Biri dedi:-Turan gərək seçilsin,
Biri dedi:-Turan gərək kiçilsin,
Turan, İran, Çinçay-dedi-üç olsun,
Qarışdırma quşla quzu ətini.

Rəqs etmirdi qızlar bu gün məclisdə,
Bərq vururdu onlar ipək təlisdə,
Çəkinirdi Turqdan, Tunqdan üst-üstə,
Qarışdırma quşla quzu ətini.

Tunq sevmirdi qadın çöldə oynasın,
Ölülərin qatı qanı qaynasın,
Oynaqlasın vaxtsız tövlə danası,
Qarışdırma quşla quzu ətini.

Duzdağda döyüş söyləncі

Duzdağyerin səsləncləri gurladı,
Rəqsdən sümük, səsləncdən qan oynayar.
Balasqelin toplumları yürüşdə,
Rəqsdən sümük, səsləncdən qan oynayar.

Gec gəlmişdi Balasqlılar köməyə,
On min atlı dönüb iti küləyə,
Dırmaşıllar dağa, yala, ətəyə,
Neçə gündü möhtac qalıb çörəyə,
Rəqsdən sümük, səsləncdən qan oynayar.

Ac toplumu qabaqlayır Dəmirqız,
Yaraqlanıb, qılınc, bizuc, ox, toppuz,
Qoşquların təkərləri yararsız,
Dəmirqızdır ondə gedən, tək-yalqız,
Rəqsdən sümük, səsləncdən qan oynayar.

Xəbər çatdı Tunqa gecə yarısı,
Zoqquldadı onun köhnə yarası,
Görüb bunu dedi, Ağüz atası,
Rəqsdən sümük, səsləncdən qan oynayar.

Dedi:-Beş min atlı getsin Duzdağa,
On, dörd atlı qoşqu, bir də on daşqa,
On min atlı yola düşsün Balasqa,
Rəqsdən sümük, səsləncdən qan oynayar.

Dedi:-Filip yenə bizi aldadır,
O, Əkbitən üstə gəlir, yoldadır,
Gizli gəlir özü, yəqin daldadır,
Rəqsdən sümük, səsləncdən qan oynayar.

Tunq düşündü, bu, üçyanlı hücumdur,
Bu bicləmə təzə yoldur, qurumdur,
Filip yolu düz yox, burun-burundur,
Rəqsdən sümük, səsləncdən qan oynayar.

O yardımla inandırır İranı,
İran tutsun bəlkə böyük Turanı,
Bölüşülsün bu ölkənin hər yanı,
Rəqsdən sümük, səsləncdən qan oynayar.

Tunqər yenə yiyələnir yarağa,
Filip kimi gizli gedir qabağa,
“Yol” göstərsin çağrılmamış qonağa,
Rəqsdən sümük, səsləncdən qan oynayar.

***

Görüşüllər Yastıdağın belində,
Fələk bizdən qan qoparır, tanrı can.
Ikisinin enli qılınc əlində,
Fələk bizdən qan qoparır, tanrı can.

Filip:
-Gileylənir Haçasaqqal Tunqərdən,
Tunq:
-Bildim, ona sən yardıma gəlmisən,
Filip:
-Sən İranı özününkü bilmisən,
Tunq:
-Sənsə onu iki yerə bölmüsən,
Yarı sənin, yarı mənim etmisən,
Fələk bizdən qan qoparır, tanrı can.

Sənin qəsdin İran deyil, Turandır,
Iran deyib oynamağın yalandır,
Ver geriyə, toplumunu dayandır,
Fələk bizdən qan qoparır, tanrı can.

-Tunq, yenə də kobud-kobud danışma,
Sən İranla bizim işə qarışma,

Birə kimi cumub bizə daraşma,
Bu bicləmə sənə, mənə yaraşmaz,
Fələk bizdən qan qoparır, tanrı can.

-Bizə vuruş yaraşıqdır, vuruşaq,
Bicləmədə, gücdə bir də yarışaq,
Istəyisən vuruşmadan barışaq,
Ikimiz də biz İrandan yapışaq,
Fələk bizdən qan qoparır, tanrı can.

-Bax, İrana təzə yiyə tapılıb,
Min ildir ki, İran belə çapılıb,
Qapıları o tay bu tay çırpılıb,
Ürəyinə iti xəncər sapılıb,
Fələk bizdən qan qoparır, tanrı can.

Iranı yox, sən Turanı güdürsən,
Irana yox, sən Turana gedirsən,
Yağlı yalan içrə batıb, itirsən,
Fələk bizdən qan qoparır, tanrı can.

Qayıt burdan, yoxsa səni üzərəm,
Əllərini, qıçlarını kəsərəm,
Qan tökərəm, al qanında üzərəm,
Quzğun kimi leşin üstə gəzərəm,
Fələk bizdən qan qoparır, tanrı can.

***

Dindi qılınc, bağlanıldı ağızlar,
Qandan doymur niyə qancıl adamlar.
Danqıldadı, gumbuldadı toppuzlar,
Qandan doymur niyə qancıl adamlar.

Yaxalaşdı Balasqlarla Oğuzlar,
Çəngələşdi qan pipikli xoruzlar,
Didişdilər boz qurdlarla quduzlar,
Qandan doymur niyə qancıl adamlar.

Ilk zərbədə Filip geri çəkildi,
Qan boynundan yaxasına töküldü,
Son zərbədə onun beli büküldü,
Bir də vurdu, dəmir döşlük söküldü,
Qandan doymur niyə qancıl adamlar.

Biri dedi:-Baş aparma çox da sən,
Toplumunla dörd tərəfdən bənddəsən,
Dayan yapım xəmirindən kündə mən,
Qandan doymur niyə qancıl adamlar.

Kimsə dalda Tunqa neçə ox atır,
Sinəsinə onun iki ox batır,
Tunq onları əllərilə bərk tutur,
Birdən birə o oxları bərk dartır,
Sinəsini iki yerdən o yırtır,
Qandan doymur niyə qancıl adamlar.

Tunqun halı bir azcana dəyişir,
Nərə çəkir öz-özündə bərkişir,
O yenidən acıqana dirəşir,
Vurur, oxçu öz qanına bələşir,
Qandan doymur niyə qancıl adamlar.

***

Vuruşurlar, didişillər toplumlar,
Qan tökülməz başbaşılar bir olsa.
Dalğalanır, aşır canlı divarlar,
Qan tökülməz başbaşılar bir olsa.

Vuruşlarda beş-beş, on-on düşən kim,
Ağrısından quru yeri eşən kim,
Gün altında qalıb leşi bişən kim,
Dalı üstə gəbərərək şişən kim,
Qan tökülməz başbaşılar bir olsa.

Yenə təzə toplum çıxır qarşıdan,
Bu toplumun Tusər durur başında,
Düyünlənib, nifrət qoşa qaşında,
Tusdur, Tusər, igid, qırx beş yaşında,
Qan tökülməz başbaşılar bir olsa.

Tus:
-Tunqər, Tusam, Tusər, məni sən tanı,
Atlıların gəldi, tutdu İranı,
Mən də belə tutacağam Turanı,
Arxamızda bizim Balasq dayanır,
Qan tökülməz başbaşılar bir olsa.

-Balasqeli yönəldibsən bizə sən,
Gizlənibsən, çıxmayıbsan üzə sən,
Çevrilibsən lap utancaq qıza sən,
Qan tökülməz başbaşılar bir olsa.

Döyüşlərdə başbaşıdır bicləmə,
Gürz oynatma boşdur, ona güc demə,
Bu döyüşdə olacaqsan heçləmə,
Qan tökülməz başbaşılar bir olsa.

Sən Turparı yandırmısan sınaqda,
O, şah olub bizdə, şahdır nə vaxtdan,
Sir-sifəti çapıq, yanıq, yamaqda,
Gec-tez İran çıxacaqdır yasaqdan,
Qan tökülməz başbaşılar bir olsa.

-Siz Hindeldən bizə qaçqın gəldiniz,
Yalvar-yaxar yer aldınız, qaldınız,
El oldunuz, diyar adı aldınız,
Qan tökülməz başbaşılar bir olsa.

Başraq tutub indi bizi vurursuz,
Yürüş edib bizə qarşı durursuz,
Nahaq yerə öz-özüzü yorursuz,
Boş-boşuna böyük İran qurursuz,
Qan tökülməz başbaşılar bir olsa.

Vergi, xərac üstə düşüb bu dava,
Istəmirdi belə olsun el-oba,
Xuruş, Daryaş, Tusdan qalıb bu hava,
Qan tökülməz başbaşılar bir olsa.

***

Tunq yeridi irəliyə qılıncla,
Neçə yüz min qancıl qovur bir qılınc.
Gedir hərdən bu, irəli, o, geri,
Neçə yüz min qancıl qovur bir qılınc.

Çəkib qılınc Tus qaldırdı tutağı,
Ancaq bizuc deşdi onun qırtlağın,
Qan qızartdı qarış-qarış otlağı,
Neçə yüz min qancıl qovur bir qılınc.

Ancaq Tusər yıxılmadı atından,
Ta demədi bir söz İran adından,
Sanki çıxdı İran, Turpar yadından,
Neçə yüz min qancıl qovur bir qılınc.

Ancaq vurdu Tunqa enli qılıncı,
Vurdu üç yol, qola dəydi üçüncü,
Turq sarsıldı, çıxdı önə qoruncu,
Dedi:-Dayan, bəsdir vurdun yabançı!
Neçə yüz min qancıl qovur bir qılınc.

Tunq bir azdan gəldi yenə özünə,
Qan sıçradı sağ qolundan üzünə,
Bir qaranlıq kölgə gəldi gözünə,
Neçə yüz min qancıl qovur bir qılınc.

Gürzü atdı, dəydi Tusun qoluna,
Tus əl atdı kəhərinin yalına,
Dalı üstə aşdı atın dalına,
Neçə yüz min qancıl qovur bir qılınc.

Iranlılar bunu gördü qıraqdan,
Silkələnib bərk yapışdı yaraqdan,
Vuruşdular, toz sovruldu torpaqdan,
Neçə yüz min qancıl qovur bir qılınc.

Yaralılar sola, sağa çevrilir,
Biri ölür, ilan kimi qıvrılır,
Üçü ölür, biri yenə dirilir,
Neçə yüz min qancıl qovur bir qılınc.

Yetim qalmış atlar yanda otlayır,
Səsdən qulaq batır, beyin çatlayır,
At ölülər üzərindən adlayır,
Neçə yüz min qancıl qovur bir qılınc.

Tanrı baxır, deyir, Turqər, gəl bura,
Adam leşi burda dönüb hasara,
Ana gəzir ölüsünü avara,
Neçə yüz min qancıl qovur bir qılınc.

Iniltilər səs deyildir, duadır,
Bağırtılar dua deyil, əzadır,
Üz-gözünü cırmaqlayan anadır,
Neçə yüz min qancıl qovur bir qılınc.

***

Gecə olcaq yaraq yığır onbaşı,
Kim yaralı, hərə bir cür yaralı.
Ölənlərin ulduzları axışır,
Kim yaralı, hərə bir cür yaralı.

Turanlılar Balasqelə üz tutur,
Bu ölkəni dənləməyə can atır,
Suqırağı bir şəhərə Tunq çatır,
Kim yaralı, hərə bir cür yaralı.

Çilçilatdan düşür Tunqər, daranır,
Onda Turqər öyüd ruhu oyanır,
Gözlərində hər yer nura boyanır,
Kim yaralı, hərə bir cür yaralı.

Deyir:-Toplum, dayan, girmə şəhərə,
Bu, dərs olsun qoy Filipə son kərə,
Toplum durur, dönür canlı çəpərə,
Kim yaralı, hərə bir cür yaralı.

Deyir:-Xalqın günahı yox, yazıqdır,
Bunca adam qırmaq, soymaq artıqdır,
Şər tanrısı gedən deyil, sırtıqdır,
O düşməndir, düşmən içdən qırıqdır,
Bizə qalan beş min sağlam tutuqdur,
Kim yaralı, hərə bir cür yaralı.

Sərtüz söyləncі

Bir gün Sərtüz gəlib çıxdı Başevə,
Çətin işdir bu dünyanı düzəltmək.
Yazı gəldi yazdıqları üstünə,
Çətin işdir bu dünyanı düzəltmək.

Bir adamı düzəltmək də lap ağır,
Tərs adamın boğazından od yağır,
Yazılardı düz adamın yarağı,
Çətin işdir bu dünyanı düzəltmək.

Xeyirlə Şər hər söz başı vuruşur,
Adamların hər işinə qarışır,

Onlar tez-tez yaxalaşır, barışır,
Ikilikdi bu dünyanın duruşu,
Çətin işdir bu dünyanı düzəltmək.

Şər Xeyirdən hər bir işdə güclüdür,
O, xeyirdən əl-ayaqlı üzlüdür,
Xeyir haqdır, ancaq qıztək nazlıdır,
Yolu yaman kələ-kötür, tozludur,
Çətin işdir bu dünyanı düzəltmək.

Düz adamın sakit olur ürəyi,
Bilir axır gələcəkdir istəyi,
Işlək olur Şərin dili, biləyi,
Bilir bu cür gəlir baxtı, çörəyi,
Çətin işdir bu dünyanı düzəltmək.

Düz güc verir dua kəsi, qurbana,
O gözləyir dünya nura boyana,
Şər deyir ki, mən bağlıyam yamana,
Çətin işdir bu dünyanı düzəltmək.

Odur ki, tərs zirəng olur, düz aciz,
Bunca daim vuruşurlar tərslə düz,
Iki yerə bölünmüşük bunca biz,
Çətin işdir bu dünyanı düzəltmək.

Sərtüz yazır, bağlan böyük tanrıya,
Tanrı çətin işdə sənə yarayar,
Tapır özün tanrısını arayan,
Çətin işdir bu dünyanı düzəltmək.

Tərs qabarır, bu dünyanı pisləyir,
Düz oturub haqq-ədalət gözləyir,
O da özün hərdən-birdən pisləyir,
Köməyinə tanrısını səsləyir,
Çətin işdir bu dünyanı düzəltmək.

***

Qulaq asır Başev belə Sərtüzə,
İnsanlarda güclü inam tanrıdır.
O danışır, Başev baxır, qımışır,
Insanlarda güclü inam tanrıdır.

Iti gözü, gur saqqalı, sərt üzü,

Yamsılayır tərs adamı, tərs düzü,
Qulaq asır dediyinə tək özü,
Insanlarda güclü inam tanrıdır.

İnammazın yolu tərsdir, dönümdür,
Dönümlərin sonu yersiz ölümdür,
Inammasan tanrı sənə qənimdir,
Insanlarda güclü inam tanrıdır.

Məqsədinə çatır kim ki beciddir,
Bütün yollar ona açıq-keçitdir,
Yolda qalır kim ağırdır, kim kütdür,
Amandadır kim ki bir az kobutdur,
Insanlarda güclü inam tanrıdır.

Tunqər qulaq asır sanki Sərtüzə,
Düşünür ki, nə verəcək bu bizə,
Çöldən alır bizi soxur dəhlizə,
Oturmuşuq, gör, kim ilə üz-üzə,
Insanlarda güclü inam tanrıdır.

Sərtüz bunu duyur sanki, danışmır,
O, Başevin işlərinə qatışmır,
Bilir burda hələ inam çatışmır,
Heç kəs onun ətəyindən yapışmır,
Insanlarda güclü inam tanrıdır.

Turq yoxdursa, demək Sərtüz əfəldir,
Turq Sərtüzə qol-qanaddır, təməldir,
Yarıtanrı Turqa tanrı əzəldir,
Sən varsansa mən də varam, məsəldir,
Insanlarda güclü inam tanrıdır.

***

Sərtüz küsür, Subölənə qayıdır,
Tanrılaşır sınıq ürək yamayan.
Orada da inammıllar Sərtüzə,
Tanrılaşır sınıq ürək yamayan.

Biri durur qəsddən salır hay-haray,
-İnanmayın, -deyir-böyük Ahura,
Inanmayın hər gözələ, çopura,
Inanmırıq biz bu kəşfə, uğura,
Inanmayın bu möhtəşəm qotura,
Tanrılaşır sınıq ürək yamayan.

Sərtüz gedir Turpar şahın yanına,
Orada da o yük olur qapana,
Orada da toxunullar şanına,
Bir üşüntü gəlir onun canına,
Tanrılaşır sınıq ürək yamayan.

Təkcə Tusdur onu evdə saxlayan,
Yazısını alıb tez-tez yoxlayan,
Ümüd verən ona, ümüd bağlayan,
Tanrılaşır sınıq ürək yamayan.

Tusun qəsdi çox gizlidir, dərindır,
Baş çıxartmaq ondan çox-çox çətindir,
O düşünür,"Bizə gərək bu dindir,
Bu, tanrıdan göndərmədir; yəqindir",
Tanrılaşır sınıq ürək yamayan.

Tus düşünür, "o, İrana xas olar,
O türklükdən dönər, burda fars olar,
Bu, İranın sabahına şans olar,
Bununla da çox toy olar, yas olar",
Tanrılaşır sınıq ürək yamayan.
"Mən Sərtüzü Tunqa qarşı qoyaram,
Yazıları dəyişərəm, yayaram,
Onun qalın dərisini soyaram,
Tanrılaşır sınıq ürək yamayan.

Yazıq Tunqun saya gəlməz günahı,
Turpar kimdir, məhv edərəm o şahı,
Tunqun üstə mən ataram günahı,
Tanrılaşır sınıq ürək yamayan.

Sərtüzün də gələcəyi bəllidir,
Sərtüz məğrur, bir az, bir az yellidir,
Deyərəm ki, sərtdir, acı dillidir,
Yazıları qızıl, özü dəlidir,
Tanrılaşır sınıq ürək yamayan.

Odur, Sərtüz burda qalsa yaxşıdır,
Türk olmasın, fars-türk olsa yaxşıdır,
Tək İrana nəfəs qatsa yaxşıdır,
Tanrılaşır sınıq ürək yamayan.

***

Sərtüz qaldı, rahatlandı Parsada,
Yazı gərək uça, çata yerinə.
Bu yazılar tanrı sözü, öyüdü,
Yazı gərək uça, çata yerinə.

Tus:
-Deynən, Hində doğulmuşam, gəlmişəm,
Suböləndə sağalmışam, gəlmişəm,
Sonda bura yığılmışam, gəlmişəm,
Yazı gərək uça, çata yerinə.

Deynən, mən heç Türk dilini bilmirəm,
Türklə, nuğla heç üz-üzə gəlmirəm,
Adamları el, elata bölmürəm,
Yazı gərək uça, çata yerinə.
Sərtüz dedi:-Niyə belə deyirsən?
Acıqansan bu dünyayla məgər sən?
Belə olsa qoy Turana dönüm mən,
Yazı gərək uça, çata yerinə.

-Öldürərlər səni, "türkdür" deyərlər,
"Türkəm" desən səni tez-tez döyərlər,
"Farsam" desən tez-tez səni öyərlər,
Yazı gərək uça, çata yerinə.

Sərtüz Tusun məqsədini anladı,
Hərdən-birdən başbaşını danladı,
Gedib hərdən Turpar şahı yanladı,
Yazı gərək uça, çata yerinə.

Tus Sərtüzə yağlı sözlər söylədi,
Pişikgözü ona qorunc eylədi,
Yazmalarda ona uğur dilədi,
Sərtüz bildi, bunlar yeni hiylədi,
Yazı gərək uça, çata yerinə.

Odur, Sərtüz oturmadı Parsada,
Uzaqlara səfər etdi arada,
Gecə, gündüz, tənha, atlı, piyada,
Yazı gərək uça, çata yerinə.

Tanrı dedi, Sərtüz, Tusdan ayıq ol,
Təriflərə, təkliflərə soyuq ol,
Çöldə atlı olsan, suda qayıq ol,
Yazı gərək uça, çata yerinə.

Yazı dilin nə Tus nə fars dilidir,
Tanrı dili türk, muğ, oğuz dilidi,
Döyüşlərdə bu dil toppuz dilidir,
Yazı gərək uça, çata yerinə.

***

Sərtüz:
-Gözdən qoymur məni zalım Pişikgöz,
Yazmaq yersiz nə var pozmaq deməkdir.
Döyüşlərdə bu dil toppuz dilidir,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

Tusər deyir, mən Tusərəm, Tus deyil,
Tus ölübdür, çox-çox qabaq, əlli il,
Tus olammaz hər avara, hər səfil,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

-Mən gəlmişəm bu işləri arayam,
Elin tanrı işlərinə yarayam,
Din yolunda qatışıqı darayam,
Sağalmayan yaraları sarıyam,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

Yeni tanrı gətirmişəm, yeni din,
Yox olacaq yer üzündən qəzəb, kin,
Üztut olsun, tanrım, dünya səninçin,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

Dinlə boş-boş arzu, xəyal gedəcək,
Bər-bəzəkli yazı, misal gedəcək,
Dində ağsaq, çolaq, topal gedəcək,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

Mənə güc ver tanrım, qoçaq olum mən,
Hərdən-birdən sənə qonaq olum mən,
Yer üzündə saysız ocaq olum mən,
Yaralara dərman, dolaq olum mən,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

Məni burda pisləyən var, qovan var,
Hələ şərdən bərk yapışan avam var,
Çox halala qarşı duran haram var,

Buna qarşı məndə dönməz xitam var,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

Varsan, yenə yaradıram mən səni,
Yaratmısan bu iş üçün sən məni,
Yaratmısan odu, suyu, çəməni,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

Icazə ver mən yollanım Babilə,
Yazdığımı mən çevirim çox dilə,
Yerləşdirim hər elata, hər elə,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

Babam Sərtüz, yazdı, yaynıq etmədi,
Ocaq, dua sorağına getmədi,
Çox söz əkdi, tək-tək sözü bitmədi,
Yazmaq yersiz nə var pozmaq deməkdir.

Mən Sərtüzəm, göndərişəm səmadan,
Iki dəfə doğulmuşam anadan,
Bəlkə tanrı oldum mən də sonradan,
Kömək elə özün məni yaradan,

***

Haçasaqqal çox izlədi Sərtüzü,
Qadağalar güclü edir adamı.
O izlədi, bu da qaçaq dolandı,
Qadağalar güclü edir adamı.

Gəlib Turqdan Sərtüz imdad istədi,
Yazmaq üçün xəlvət həyat istədi,
Görüşlərdə qurban, sovqat istədi,
Qadağalar güclü edir adamı.
-Evlən,-dedi-Turq-qoy başın qarışsın,
Yerdə qoşa ulduzlarız barışsın,
Bu acılar səndən tamam sovuşsun,
Qadağalar güclü edir adamı.

Bir də bilki sən özün də tanrısan,
Tanrılartək sən də təmiz arısan,
Onlar ayrı, sən onlardan ayrısan,
Qadağalar güclü edir adamı.

Ahur yoxdur, ancaq üzdə var adı,

Sən Ahura verdin yeni həyatı,
Sən doğusan tanrılıqda, o, batı,
Dünya nədir, həm doğudur, həm batı,
Qadağalar güclü edir adamı.

***

Turq Sərtüzlə yenə gəldi Başevə,
Şagird gərək ustasından zor ola.
-Mən Sərtüzün şagirdiyəm Turq-dedi,
Şagird gərək ustasından zor ola.

Sərtüz dedi:-Həm şagirdsən, həm usta,
Yarıtanrı bir ustasan bu yaşda,
Ölsəm, sənə çatacaqdır "Avesta",
Şagird gərək ustasından zor ola.

Dedi:-Turqər bilir yazı sirrimi,
Təkcə odur bilən mənim yerimi,
O istəyir, gəzir mənim xeyrimi,
Ölsəm, Turan qazsın mənim görumu,
Şagird gərək ustasından zor ola.

Bəzən məni anlamıllar, küsürəm,
Acığımdan yolu, çölü gəzirəm,
Tək qalmaqdan, tənhalıqdan bezirəm,
Bu əzaba Turqa görə dözürəm,
Şagird gərək ustasından zor ola.

Dua, üztut eli bizə bağlayır,
O dualar bizi diri saxlayır,
Pislər üzdə gülür, içdən ağlayır,
Şagird gərək ustasından zor ola.

Küsüşmələr, küsmək qalsın bir yana,
Xeyir-dua gəlsin doğma Turana,
Sən inansan, hamı sənə inanar,
Şagird gərək ustasından zor ola.

Ağüz gəldi, öpdü onun əlindən,
Batdı Sərtüz göz yaşının gölündə,
Bir neçə söz eşidildi dilindən,
Şagird gərək ustasından zor ola.

Dedi:-Türkəm, Turanlıyam, Muğam mən,

Bu torpağa göndərişəm, sağam mən,
Bura vətən, vətənimə tağam mən,
Məni gəzin, meyvə dolu bağam mən,
Şagird gərək ustasından zor ola.

Harda ölsəm, məni burda basdırın,
Bu torpaqda sonevimi qazdırın,
Qancılları burdan qovun, azdırın,
“Avestamı” qızıl pulda yazdırın,
Şagird gərək ustasından zor ola.

Ya da mənim sonevimi itirin,
Qazın, məni sonevimdən götürün,
Məni böyük yaradana yetirin,
Şagird gərək ustasından zor ola.

Ağsaqqalım-oğlum olsun Turq ata,
O qaytara bilər məni həyata,
Tək yazıma, harayıma o çatar,
Şagird gərək ustasından zor ola.

Başev susdu, sanki batdı kədərə,
Dönüb baxdı hamı böyük Turqərə,
Dua etdi ona-buna min kərə,
Şagird gərək ustasından zor ola.

***

Turqla Sərtüz gəzdi neçə ölkəni,
Niyə yaşam çətin, ölmək asandır?
Hara getdi, “oddan qorxuram” dedi
Niyə yaşam çətin, ölmək asandır?

Yaranmışam oddan, oddan qorxuram,
Oda niyə düşmən kimi baxıram,
Onun üstə yağış olub yağıram,
Niyə yaşam çətin, ölmək asandır?

Mən od-ocaq Sərtüzüyəm, kahinəm,
Bu dünyaya təzə gələn bir dinəm,
Axır odda yanacağam, əminəm,
Niyə yaşam çətin, ölmək asandır?

***

Od tanrısı, niyə oddan qorxuram,
Yaxşı baxsan ölümüdür su odun.
Sevgililər, bacı-qardaş olanlar,
Yaxşı baxsan gəlinidir su odun,
Tərsə baxsan ölüsüdür od suyun.

Yuxu gördüm, göydən quşlar endilər,
Oda düşüb, yanıb, oda döndülər,
“Yandım” deyib külləşdilər, söndülər,
Yaxşı baxsan gəlinidir su odun,
Tərsə baxsan ölüsüdür od suyun.

Yandırırlar ölüləri Hindlilər,
Toyda odla oynayırlar kəndlilər,
Onlar oda, suya, yerə bənddilər,
Yaxşı baxsan gəlinidir su odun,
Tərsə baxsan ölüsüdür od suyun.

Danış görüm, oddan qalan daş kömür,
Hamı niyə oddan qorxur, baş əyir,
Hamı niyə oda qoyun, at kəsir,
Yaxşı baxsan gəlinidir su odun,
Tərsə baxsan ölüsüdür od suyun.

Hamı qorxur, qorxu vardır hamıda,
Onun üçün hamı qorxur tanrıdan,
Hamı qorxur öz günahı sarıdan,
Yaxşı baxsan gəlinidir su odun,
Tərsə baxsan ölüsüdür od suyun.

Aman, ocaq, yandır pisin damını,
Aman, ocaq, isit, yaşat hamını,
Aman, tanrı, yandır evin şamını,
Yaxşı baxsan gəlinidir su odun,
Tərsə baxsan ölüsüdür od suyun.

***

Turqər getdi Sərtüz ilə Muğelə,
Çəkir səni təməl daşın özünə.
-Nə dağınıq, nə gözəldir vətənim,
Çəkir səni təməl daşın özünə.

Hamı gəlib tamaşaya durdular,

Axşam olcaq od bayramı qurdular,
Oynadılar, özlərini yordular,
Çəkir səni təməl daşın özünə.

Turq:
-Ey yenilməz, qoçaq, güclü Mindəbir,
Burda hər şey gülməlidir, tərsədir,
Gül kolları burda hörmə-hörmədir,
Yollar dolu peyin, təzək, gərmədir,
Çəkir səni təməl daşın özünə.

Sərtüz:
-Buradadır, dədəm, babam, əcdadım,
Muğel, sənsiz keçib mənim həyatım,
Yoluq olub sənsiz qolum, qanadım,
Çəkir səni təməl daşın özünə.

Doğulmuşam Subölündə anadan,
Anam mənə çox danışıb buradan,
Tək sayıldım elə əzəl binadan,
Yetim qaldım uşaqlıqda anadan,
Çəkir səni təməl daşın özünə.

***

Mindəbiri qocaltmışdı ağır iş,
Yaxşı işlə, işdən adam qocalmaz.
Yoxdur rəsmi oturumu, Başevi,
Yaxşı işlə, işdən adam qocalmaz.

Sərtüz:
-Parsayerdə türklər farsdan çoxdular,
Başçıları, işçiləri muğdular,
Oturumda, başçılıqda sıxdılar,
Işdə muğlar farslardan da çoxdular,
Yaxşı işlə, işdən adam qocalmaz.

Parsa Başev, Parsel İran olubdur,
Muğ tərəzi, Farssa batman olubdur,
Balasq yandan İran talan olubdur,
Yaxşı işlə, işdən adam qocalmaz.

Başev muğdan alır fərman, gösdəriş,
Muğdur burda işdə-gücdə tərpəniş,
Asılıdır muğdan sanki hər bir iş,

Yaxşı işlə, işdən adam qocalmaz.

Ahur sizə yardım olar, çağırsaz,
O burdadır, burda yağış yağırsa,
O burdadır, qoyun, inək doğursa,
Yaxşı işlə, işdən adam qocalmaz.

Qurban kəsin, tez-tez dua oxuyun,
Üç yol döğar onda inək, mal, qoyun,
Sözdən yazı, yundan paltar toxuyun,
Yaxşı işlə, işdən adam qocalmaz.

Böyük ocaq evi tikin Muğeldə,
Siz "Odinam" olmusunuz əzəldən,
Od bayramı üç yol olur bir ildə,
Yaxşı işlə, işdən adam qocalmaz.

***

Sərtüz tez-tez tanrılıqdan danışır,
Yazan gedir, əl yazması yaşayır.
Yazıları iki ata yük olub,
Yazan gedir, əlyazması yaşayır.

Sərtüz Muğdan gəlmə-dönmə Türk idi,
Qaralama yazıları çirk idi,
Belə yazar Turan boyu tək idi,
Hərflər xırda, muncuqsayaq tük idi,
Yazan gedir, əlyazması yaşayır.
Sərtüz çıxdı səfərlərə arada,
Yazıları qaldı Tusda, Parsada,
Az qaldı ki, it-bat olsun burada,
Yazan gedir, əlyazması yaşayır.

Yazıları Tus oxuya bilmirdi,
Fars dilinə onlar uyğun gəlmirdi,
Çox yazını heç oxumaq olmurdu,
Yazan gedir, əlyazması yaşayır.

Ov söyləncі

Uruyerin səsləncləri gurladı,
El çağırsa, dala baxma, get, tələs.
Çiçaylılar hücum çəkib Muğelə,

El çağırsa, dala baxma, get, tələs.

Dörd min ağac yoldur, çoxdur, hər nədir,
Tunq Muğelə beş min atlı yeridir,
Sonra müdhiş səslə deyir, əmr edir:
-Mindəbirə yardım getsin Eldəbir,
El çağırsa, dala baxma, get, tələs.

Elçiçəyin tez-tez halı dolaşır,
Hərdən-birdən ürəyi də bulaşır,
Dinmir, ancaq öz içində alışır,
El çağırsa, dala baxma, get, tələs.

Tunq deyir ki, çıxaq ova, çap-çapa,
Yolda, yalda, cığırlarda at çapaq,
Meşəlikdə maral güdək, ov tapaq,
El çağırsa, dala baxma, get, tələs.

Yalvar-yaxar axlamsınıb Elçiçək,
Deyir:-Gedək biz Alana baş çəkək,
Şah olsa da ona arxa, el gərək,
El çağırsa, dala baxma, get, tələs.

Unutmuşuq biz Alanı büstbütün,
Istəyirsən yola düşək lap bu gün,
Pay aparaq, sovqat, qızıl, onunçun,
El çağırsa, dala baxma, get, tələs.

Yollarda da ov var, ovlaq, od-ocaq,
Maral, ceyran, nə istəsən olacaq,
Belə səfər, ərim, yadda qalacaq,
El çağırsa, dala baxma, get, tələs.

-Gedsək əgər, yol dolanbac, yol uzaq,
Bu ölkəni onda kimə tapşıraq,
Düşmən bilib ölkə üstə çapacaq,
El çağırsa, dala baxma, get, tələs.

Eldəbiri göndərmişəm Muğelə,
Əl çəkməyib o yerlərdən Çin hələ,
Mindəbirlə verəcəklər əl-ələ,
Acqanı da döndərərlər çoçilə,
Son qoyarlar oralarda müşkülə,
El çağırsa, dala baxma, get, tələs.

***

Ov geyimi geydi, çıxdı Elçiçək,
Gözəl itir gözəlliklər içində.
Götürmədi Turqər ağır yaraqlar,
Gözəl itir gözəlliklər içində.

Ov səsləyib, ov qovanlar sırada,
Qurddan dönmə itlər səpik burada,
Xalça, cecim yükü gedir arada,
Hazır yemək, qıyma ətdən, çolpadan,
Tunq, Elçiçək at səyirdir ortada,
Gözəl itir gözəlliklər içində.

Dərin dərə, yastı təpə, sıx meşə,
Çıxır ordan, burdan kəndli görüşə,
Itlər cumur quş, quzuya, çəpişə,
Gözəl itir gözəlliklər içində.

Səhər tezdən günəş hələ doğmayıb,
Qurd-quş hələ yuvasından çıxmayıb,
Ovalıqda hələ səs-küy qalxmayıb,
Gözəl itir gözəlliklər içində.

Tunqər:
-Elçiçəyim, bəlkə qalıb yadında,
Yuxuluydun, çaya düşdün atından,
Biz isindik, yatdıq çırpı odunda,
Yataq otdan, mitəkkəmiz odundan,
Gözəl itir gözəlliklər içində.

***

Ürkmüş maral birdən yola sıçradı,
Arvad ilə çıxma ova, bacarsan.
Oxla vurdu Tunq maralı əlbəhəl,
Arvad ilə çıxma ova, bacarsan.

Maral yola çırpılaraq helləndi,
Gördü bunu arvad, başı hərləndi,
At üstündə ağac kimi yelləndi,
Arvad ilə çıxma ova, bacarsan.

Qulluqçular qaçıb ona çatdılar,
Elçiçəyi at üstündən dartdılar,

Atdan aşan zaman onu tutdular,
Arvad ilə çıxma ova, bacarsan.

Dedi:-Maral ovu yaman ağırdır,
Maral gözəl, həm də çox-çox ağırdır,
Son nəfəsdə sanki məni çağırdı,
Arvad ilə çıxma ova, bacarsan.

Tunq dedi ki, Elçiçəyim sarsılıb,
Qız ürəyi onun tükdən asılı,
O həmişə icəliyə qısılıb,
Hər canlıya tale bir cür yazılıb,
Arvad ilə çıxma ova, bacarsan.

Qorxu hissi Elçiçəkdə artırdı,
Bu hiss onu haralara dartırdı,
Kölgə olub onla birgə yorturdu,
Arvad ilə çıxma ova, bacarsan.

Sonra duydu bir üzüntü özündə,
Çəkilmədi ölən maral gözündən,
Öc var idi o heyvanın səsində,
Arvad ilə çıxma ova, bacarsan.

Axşamacan hay-küy, səs-küy, bəyirti,
Dörd bir yanda eşidilən nərilti,
Bir də ölgün, qırıq-qırıq inilti,
Göydə süzən, oxdan qalxan vıyıltı,
Arvad ilə çıxma ova, bacarsan.

Turparın ölüm söyləncі

Tusər yeni böhtan atdı Turpara,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.
Dedi, Turpar Seta ilə sevişib,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Sona gəldi, söydü, döydü Setanı,
Doğru sandı cavan ana böhtanı,
Bu, pis günə qoydu Besyar ananı,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Turpar şahı alışdırdı bu böhtan,
Kar vermədi yal-yalvarış, and-aman,

Pişikgözlə Tus çıxmışdı aradan,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Bir gün Turpar zəhərləndi yeməkdən,
Kimsə ona zəhər verdi xörəkdə,
Oğlu hələ çıxmamışdı bələkdən,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Qusa-qusa şah əridi, çöp oldu,
Barmaqları, damarları sap oldu,
Ağzı, gözü qanla dolu qab oldu,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Qırx gün döş-baş, ağız, yanaq söküldü,
Göz yaşları bulaq-bulaq töküldü,
Sonda hamı öz yerinə çəkildi,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Tus söylədi:-Sona, otur yerində,
Şahlıq yeri çatır sənə ərindən,
Biz qurtaraq bəlkə qancıl şərindən,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Sona dedi:-Mən şah ollam, sən getsən,
Öz öcündə, qəzəbində sən itsən,
Acığını öz içində kiritsən,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Təkcə Besyar qalmalıdır mənimlə,
Pişikgöz də getməlidir səninlə,

Əlbir olar burda ana gəlinlə,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Besyar dedi:-Mən dönürəm Turana,
Ana ollam mən öz nəvəm-oğlana,
Son qoyaram, sonsuz yalan, böhtana,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Böyüdərəm, nəvəm çatar şahlığa,
Iran, Turan bir gün yetər şadlığa,
Şah bazarda ta qoyulmaz satdığa,
Dadsız, rəngsiz, iysiz, zəhər böhtandır.

Qardanağ söyləncі

Tus Parsada müvəqqəti şah oldu,
Şah həmişə müvəqqəti olubdur.
Şahlar güləş yarışında seçilib,
Şah həmişə müvəqqəti olubdur.

Gedib çatdı Qardanağa bu xəbər,
Şamxat ilə bu ölkəyə gəldilər,
Qardanağla Tus güləşdi bu səfər,
Şah həmişə müvəqqəti olubdur.

Çox fənn, çox çəm bilməyirdi Qardanağ,
Beli sıxmaq, qol qaharmaq, baş-ayaq,
Güləşirdi Tusər ilə bu sayaq,
Şah həmişə müvəqqəti olubdur.

Tusər onu üzüquylu yıxırdı,
Sıçrayaraq kürəyinə çıxırdı,
Qardanağsa dincəlib, güc yığırdı,
Şah həmişə müvəqqəti olubdur.

O Tusəri sağa, sola hərlədir,
Tutur onu tov eləyir, fırladır,
Atır, tutur, yorur onu, çərlədir,
Şah həmişə müvəqqəti olubdur.

Birdən sanki o gücünü yoxladı,
Tusu alıb başı üstə saxladı,
Vurdu yerə, Tus içindən laxladı,
Şah həmişə müvəqqəti olubdur.

Dedi:-İndi şah kim olsun, sən ya mən?
Hamı dedi, Qardanağ, şah sən ol, sən,
Şamxat dedi:-Şahlıq düşüb hörmətdən,
Şah həmişə müvəqqəti olubdur.

Şamxat dedi:-Biz gəlmişdik görüşə,
Gəlməmişdik biz yarışa, güləşə,
Mat qalmışıq başdan-başa bu işə,
Bir güləşlə kor şahlıqa yetişər,
Şah həmişə müvəqqəti olubdur.

Dedilər ki, bizdə qayda belədir,
Başbaşılıq, şahlıq pillə-pillədir,

Şah özü də öz xalqına kölədir,
Şah həmişə müvəqqəti olubdur.

Şamxat dedi:-İşləyərik, bilərik,
Urueldən köçüb bura gələrik,
Çox işləri xalq içində bölərik,
Şah həmişə müvəqqəti olubdur.

Qardanağ:
-Mən bilmirəm, bu şah nəyə gərəkdir,
Şahlıq nədir, başdan-başa kələkdir,
Çörək deyil, təntənəli bəzəkdir,
Şah həmişə müvəqqəti olubdur.

***

Şamxat dedi:-Sona, Besyar, nəvə var,
Bəxt yazılıb hər adamın alnında.
Tus dedi ki, onda mən şah olaram,
Bəxt yazılıb hər adamın alnında.

Dedi, oğlan, sən başbaşı olarsan,
Köçüb gəlib sən Parsada qalarsan,
Sən Tusərdən hər gün fərman alarsan,
Bəxt yazılıb hər adamın alnında.

Şamxat dedi Qardanağın dilindən:
Dil bilmirəm burda Parsa elində,
-Türklər çoxdu burda, tutar əlindən,
Bəxt yazılıb hər adamın alnında.

Başevdəki Muğlar, Saklar qıvraqdır,
Məna, hesab işlərində yaraqdır,
Onlar İran torpağına dayaqdır,
Bəxt yazılıb hər adamın alnında.

Tanıyırlar sözü, izi, kolgəni,
Onlar açır sual-cavab-bəlkəni,
Yayda yaşıl otdur, qışda səməni,
Bəxt yazılıb hər adamın alnında.

Sən də gəlib qarışarsan onlara,
Bəlkə sənlə düzələcək əhd, ara,
Sərtüz kimi çevrilərsən yazara,
Bəxt yazılıb hər adamın alnında.

-Türkdür, de ki, yarıdan çox bu diyar,
Onda sənə necə dözür bəs onlar,
Bilmədiyim, gör, dünyada nələr var,
Bəxt yazılıb hər adamın alnında.
***

Qardanağı "ağ" çağırdı çoxları,
Ad dəyişir, insan adla dəyişmir.
Anlamırdı çoxu onun adını,
Ad dəyişir, insan adla dəyişmir.

Tusər şahdı, "Ağ" da onun başbaşı,
Addımladı şah onunla yanaşı,
Turan, İran, Türklər, Farslar barışır,
Iki kökdür, bir ağacda qarışıb,
Ad dəyişir, insan adla dəyişmir.

Dinclik, düzlük, bolluq alır İranı,
Hamı işlə, zəhmət ilə dolanır,
Zəhmət artır, pul üst-üstə qalanır,
Ad dəyişir, insan adla dəyişmir.

Turan, İran versələr də əl-ələ,
Başbaşıyla barışmayıb Tus hələ,
O axtarır bir bicləmə, bir kələk,
Tez-tez deyir, "yoxa çıxsın Tunq gərək",
Ad dəyişir, insan adla dəyişmir.

Deyir, gülür ancaq üzdə, el kimi,
Gah yumulur, gah açılır gül kimi,
Gah düzəlir, gah burulur yol kimi,
Ad dəyişir, insan adla dəyişmir.

Pişikgözdən əlac yolu gözləyir,
Tanrıya yox, ona ümüd bəsləyir,
Şah olsa da "Ağı" hər gün izləyir,
Ad dəyişir, insan adla dəyişmir.

-Əlac elə, mən öc alım, Pişikgöz,
-Əlac vardır, Tusər, ancaq bir az döz,
Tunqər qaçır, duracayıq üzbəüz,
Ad dəyişir, insan adla dəyişmir.

-Yerbəyer et Turqu, Tunqu, Sərtüzü,
Xilas olsun bu üçlükdən yer üzü,

-Batammaram bu üçlüyə mən düzü,
Bu üçlüyə dirəş, giriş sən özün,
Ad dəyişir, insan adla dəyişmir.

***

Iran, Turan qardaşlaşdı, bir oldu,
Bir olanda qanlı gözlər bərəlir.
Qonaq gəldi Parsa Tunqər, Elçiçək,
Bir olanda qanlı gözlər bərəlir.

Tunq şad gündə sanki özün itirir,
Pişikgözə, Tusa inanc gətirir,
Tus onlara acı xəbər yetirir,
“İran, Turan Turparını itirib”,
Bir olanda qanlı gözlər bərəlir.

Tunq deyir ki, gedək ona baş vuraq,
Sonevinin üzərində ev quraq,
Ov eyləyək, qurd uladaq, at qovaq,
Bir olanda qanlı gözlər bərəlir.

Turqu ova dəvət edir Pişikgöz,
Elçiçəyi sanki üzür bu üç söz,
Deyir:-Getmə, sarsılırıq ovda biz,
Bir olanda qanlı gözlər bərəlir.

Tunq baxmayır, gedir, bilmir heç hara,
Həm də gedir təzim etsin Turpara,
Unudulsun köhnələşən çox yara,
Bir olanda qanlı gözlər bərəlir.

Sonevüstə Tunq ağladı bilmədən,
O hönkürdü, gözlərini silmədən,
Dedi:-Gərək öldürəsən, öləsən,
Turpar öldü, bir yol yola gəlmədən,
Bir olanda qanlı gözlər bərəlir.

Tunqun ölüm söyləncі

Tus dedi ki:-Çıxaq ova bu gecə,
Səhər tezdən ovu axtar yuvada.
Ovda Tunqa zəhər verdi Pişikgöz,

Səhər tezdən ovu axtar yuvada.

Tunq zəhərdən qusdu, qusdu bayıldı,
O bir daha axşam çağı ayıldı,
Xəbər getdi uzaqlara yayıldı,
Səhər tezdən ovu axtar yuvada.
Tus söylədi:-Tunqər, səndən öc aldım,
Yaxşı oldu indi özün ayıldın,
Buraxıram səni, çıx get, zay oldun,
Səhər tezdən ovu axtar yuvada.

Tunq dinmədi, durdu qaçdı axmaza,
Zəhər çıxdı su qarışıq boğaza,
Üzdü, üzdü birdən çıxdı dayaza,
Səhər tezdən ovu axtar yuvada.

Suqıraqda dayanmışdı yaraqlı,
Gözləyirdi o, qılınclı, tutaqlı,
Yox etməyə Tunqu əlli-ayaqlı,
Səhər tezdən ovu axtar yuvada.

Zəhərlənmiş Tunq üzərək yarıcan,
Çıxdı sudan yarıhuşsuz, ölücan,
Qorxmasa da onu güdən qancıldan,
O yıxıldı ona dəyən qılıncdan,
Səhər tezdən ovu axtar yuvada.

***

Tunqsuz qaldı Turan, İran, Qobuçöl,
Tez inanan, tez aldanan, tez gedir.
Tus, Pişikgöz öc aldılar Turandan,
Tez inanan, tez aldanan, tez gedir.

Külək əsir, dolu yağır, qar düşür,
Bir-birindən hamı tez-tez soruşur,
Tunqər niyə kiçiklərlə dirəşib?
Tunqər niyə al qanına bələşib?!
Tez inanan, tez aldanan, tez gedir.

Qara geydi Turan, İran, Ekbatan,
Sevinirdi Balasq, Çin, Hind çox güman,
“Tunq ölübdür, Tunq gedibdir dünyadan”,
Tez inanan, tez aldanan, tez gedir.

Xəbər verdi bunu Turqa Qızılquş,
Dünən ovda Aləpərtunqa nə olmuş,
Qara geyib yer, göy, ölkə, dayanış,
Tez inanan, tez aldanan, tez gedir.

Şimşəkatı Turqər çapdı Başevə,
Gördü qancıl oxu dəyib hədəfə,
Yas yerində çox ağladı hər dəfə,
Tez inanan, tez aldanan, tez gedir.

Dedi:-Tanrı, Tunqu qaytar Turana,
Güc ver mənə batım Tusa, İrana,
Iran gərək dönsün olsun virana,
Tez inanan, tez aldanan, tez gedir.
Dedilər ki, İran yasa batıbdır,
Tus şahlığı üzərindən atıbdır,
Getmə ora, orda düşmən artıbdır,
Tez inanan, tez aldanan, tez gedir.

-Yaxşı olar gedib tapaq o yeri,
Yaxşı olar qırxı çıxsın Tunqərin,
Gedib açaq sonevini Tunqərin,
Sonevinə qoyaq çil-çil kəhəri,
Belə olsun gərək yasın təhəri,
Tez inanan, tez aldanan, tez gedir.

Turq örgəndi tamam olan qalanı,
Heç günahlı saymadı o İranı,
Günahlını ev-ev gəzdi,- hər yanı,
Tez inanan, tez aldanan, tez gedir.

Turqla Tusun döyüş söyləncі

Tusər açdı Pişikgözə qəlbini,
Ürək şişər söz qalarsa ürəkdə.
Dedi:-İşin öhtəsindən gəlibsən,
Ürək şişər söz qalarsa ürəkdə.

Dedi:-Çatdı indi Sərtüz növbəsi,
Türk olubdu bu yazarın dədəsi,
Basdırıla gərək qana kəlləsi,
Ürək şişər söz qalarsa ürəkdə.

Çox demişəm, zalım dönmür əslindən,
Gərək onu tam ayıraq nəslindən,

Yazıları itsin türkün dilindən,
Ürək şişər söz qalarsa ürəkdə.

Öldürərik, saxlayarıq öl-diri,
Deyərik ki, bir türk onu öldürüb,
Acığını, qəzəbini bildirib,
Ürək şişər söz qalarsa ürəkdə.

Kim zirəngdir yerin çoxu onundur,
Kim zirəngdir batı, doğu onundur,
Bu dünyanın varı-yoxu onundur,
Ürək şişər söz qalarsa ürəkdə.

Belə dedi, Pişikgözə Tusər şah,
Çox zirəng ol, mənim kimi sən yaşa,
Bunda sonra biz verərik baş-başa,
Ürək şişər söz qalarsa ürəkdə.

Bu Pişikgöz Tusərdən də bic idi,
Ancaq Tusər Pişikgözdən güc idi,
Şah olsa da başdan-başa öc idi,
Ürək şişər söz qalarsa ürəkdə.

Bilirdi ki, bir gün növbə onundur,
Bu, Başevdə bir köhnəlmiş qanundur,
Bu işlərdə o yorulub, yorğundur,
Ürək şişər söz qalarsa ürəkdə.

Bir də Sərtüz xalq içində şanlıdır,
Adi deyil, o bəlkə də tanrıdır,
Bu iş günah işdir, qandır, qanlıdır,
Ürək şişər söz qalarsa ürəkdə.

Tusər dedi:-İş görənsən sən az-maz,
Səndən başqa bunu heç kəs bacarmaz,
Yoxsa sən də yad olmusan yaramaz!
Ürək şişər söz qalarsa ürəkdə.

Pişikgözə göz ağartdı şah birdən,
Dedi:-Ər ol, qorxma, cayma yerindən,
Yoxsa didib-dağıdaram səni mən,
Ürək şişər söz qalarsa ürəkdə.
Pişikgözü qorxu aldı, saraldı,
Şaha qarşı fikri döndü, daraldı,
Gözlərində dünya sanki qaraldı,

Ürək şişər söz qalarsa ürəkdə.

Dedi:-Yaxşı, mənə bir ay möhlət ver,
Işlərimə düz-əməlli qiymət ver,
Mənə yaxşı vəzifə ver, şöhrət ver,
Ürək şişər söz qalarsa ürəkdə.

Ancaq sabah qaçdı, getdi Turana,
Günahlarım, dedi, qalsın bir yana,
Ta dönmərəm mən zəhərli ilana,
Ürək şişər söz qalarsa ürəkdə.

***

O Turqərin ayağına döşəndi,
Etirafla günah getməz, yuyulmaz.
Açdı, tamam işlərini söylədi,
Etirafla günah getməz, yuyulmaz.

“Məni aldı haçasaqqal qorxusu,
Mən zəhərli ilan oldum doğrusu,
Bunlar onun işləridir, qurqusu,
Etirafla günah getməz, yuyulmaz.

Indi deyir, get, Sərtüzü xəfələ,
Ya da tapşır işi bir küt əfələ,
Bir türkü tap, onu bərkdən hədələ,
Etirafla günah getməz, yuyulmaz.

Günahgaram, öldür məni Turq ata,
Ya da götür məni qaytar həyata,
Mən artıqam burda, sanki mən yadam,
Etirafla günah getməz, yuyulmaz.

Mən bilirəm yazıların yerini,
Çox tökmüşəm orda alın tərimi,
Yazdım ora, onun darğa fikrini,
Bəlkə qovum üzərimdən şərrini,
Etirafla günah getməz, yuyulmaz.

***

Turqər dedi:-Toplum qalxsın ayağa,
Hər günahın, hər güzəştin həddi var.
Beş min atlı yürüş etsin İrana,

Hər günahın, hər güzəştin həddi var.

Şimşəkatın kişnərtisi tanışdı,
Sarı yalı atın üçcə qarışdı,
Yalmanında örtük qırış-qırışdı,
Hər günahın, hər güzəştin həddi var.

Hamıdan tez Turqər çatdı Parsaya,
Yolda kəndlər düzülmüşdü sıraya,
Kənddəkilər batmışdılar əzaya,
Hər günahın, hər güzəştin həddi var.

Ağılarda qoşmalarda Tunq adı,
Səslənirdi yer duası, göy andı,
Hər addımda saxlayırdı Turq atı,
Hər günahın, hər güzəştin həddi var.

Tusər çıxdı hədələdi Turqəri,
Hədəqədən çıxmaqdaydı gözləri,
Qorxusundan titrəyirdi dizləri,
Hər günahın, hər güzəştin həddi var.

-Sən öldürdün Tunqu, Pişikgöz ilə,
Qabağıma çıxdın hansı üz ilə,
Daha kimi öldürübsən, düz söylə,
Hər günahın, hər güzəştin həddi var.
-Turparı da mən öldürdüm, bil, qaban,
Mən səni də öldürərəm bir azdan,
Mən üstünəm hər bir yerdə, hər zaman,
Hər günahın, hər güzəştin həddi var.

Şimşəkqılınc endi Tusun çiyninə,
Qandan paltar geydi Tusər əyninə,
Çabaladı uzununa, eninə,
Qaldı o da Pişikgözün gününə,
Hər günahın, hər güzəştin həddi var.

Şimşəkqılınc bir də endi aşağı,
Getdi onun üzü, ağzı, qulağı,
Bir də vurdu, sındı qolu, ayağı,
Hər günahın, hər güzəştin həddi var.

Ancaq Tusər yıxılmadı, ölmədi,
Bir də Turqla o üz-üzə gəlmədi,
Hara getsin, hara qaçsın bilmədi,

Hər günahın, hər güzəştin həddi var.

Şimşəkqılınc göyü, yeri yarırdı,
Kim gəlirdi, beş-beş, on-on qırırdı,
Parsalını vurub yerə sərirdi,
Qan qarışıq Tusər nəfəs dərirdi,
At kişnəyib sıralara girirdi,
Hər günahın, hər güzəştin həddi var.

***

Hamı dedi:-Tusər ölsün, qalmasın,
Zəhər verən ölsün gərək zəhərlə.
O bir daha bizə başçı olmasın,
Zəhər verən ölsün gərək zəhərlə.

Biri dedi, onsuz da o əlildir,
O şahlığa qadir, layiq deyildir,
O hay-küydür, boş gurlayan təbildir,
Zəhər verən ölsün gərək zəhərlə.

Şah Qardanağ olsun onun yerinə,
Başbaşı da fars qızların birindən,
Biz qurtaraq qancılların əlindən,
Zəhər verən ölsün gərək zəhərlə.

Hərə bir söz dedi, bir cür danışdı,
Muğlar, farslar biri-birinə qarışdı,
Vuruşanlar, küsüşənlər barışdı,
Zəhər verən ölsün gərək zəhərlə.

Turqər dedi:-Tusun evi hardadır?
“Avesta”nın yazıları ordadır,
Sərtüz yolda, hələ orda-burdadır,
Zəhər verən ölsün gərək zəhərlə.

Biri dedi, evdə taxça qazdırıb,
Yazıları qat-qat orda basdırıb,
Üzərində “böyük Tusər” yazdırıb,
Zəhər verən ölsün gərək zəhərlə.

Turqər baxdı, gördü burda baxça var,
Qazılı da iki dərin taxça var,
Basdırılıb, gizlədilən boxça var,
Zəhər verən ölsün gərək zəhərlə.

Turqər dedi:-Bura yaşdır, nəmişdir,
Bura başqa yer altına girişdir,
Yazıları oğurlamaq pis işdir,
Zəhər verən ölsün gərək zəhərlə.

Besyar gəlsin, yazıları götürsün,
Onu Sərtüz olan yerə gətirsin,
Əmanəti yiyəsinə yetirsin,
Zəhər verən ölsün gərək zəhərlə.
Uzun çəkdi Sərtüzərin səfəri,
Yazıların çox böyükdür dəyəri,
Bundan yoxdur heç bir kəsin xəbəri,
Zəhər verən ölsün gərək zəhərlə.

Bunlar bizə ana, Sərtüz atadır,
Bunlar vəhdir, şerdir, qatdır, duadır,
Bunlar öyüd, ruhdur, yeni dünyadır,
Zəhər verən ölsün gərək zəhərlə.

***

Çaylar, yollar, yallar eniş-yoxuşdur,
Şahla şahlıq gah ucalır gah enir.
Bir məqamda dura bilməz varlıq da,
Şahla şahlıq gah ucalır gah enir.

Niyə İran çökdü, batdı dumana,
Yenə İran tabe oldu Turana,
Onlar durdu üz-üzə yox, yan-yana,
Şahla şahlıq gah ucalır gah enir.

Yazıları Turqər Tusdan qorudu,
Yazı, hərfi, sözü bir-bir oxudu,
Tus haqqında orda bir söz yox idi,
Tus deyənlər yalan idi, ağ idi,
Şahla şahlıq gah ucalır gah enir.

Turq əmr etdi:-Köçürülsün əsərlər!
Tanış olsun bunla kəndlər, şəhərlər,
Durulaşsın gözlər, başlar, təpərlər,
Şahla şahlıq gah ucalır gah enir.

Turq əmr etdi:-Yansın hər gün ocaqlar!
Gəlsin ora yaxın, uzaq qonaqlar,

Sərtüzləşsin toplum, yaraq, dayaqlar,
Dəyişilsin köhnə geyim, papaqlar,
Itiləşsin ağır-ağır yaraqlar,
Şahla şahlıq gah ucalır gah enir.

Turq əmr etdi:-On min inək kəsilsin!
Bu yazılar gön üstündə yazılsın,
Sözlər, hərflər qızıl mıxla basılsın,
Divarlardan varaq-varaq asılsın,
Şahla şahlıq gah ucalır gah enir.

***

Turq Besyarı Ekbatana gətirdi,
Hər bir evin bər-bəzəyi qadındır.
Turpar üçün Besyar hər gün ağladı,
Hər bir evin bər-bəzəyi qadındır.

Turq söylədi:-Burda otur, ana ol,
Sonanı da gətir, burda ana ol,
Biz dib daşı olaq, sənsə bina ol,
Iki ölkə arasında durna ol,
Hər bir evin bər-bəzəyi qadındır.

Besyar dedi:-Mənim könlüm sınıqdır,
Turparımın üzü kimi yanıqdır,
Utanıram, ağzım, dilim qıpıqdır,
Hər bir evin bər-bəzəyi qadındır.

Turq dedi ki, nəvən mənim olacaq,
Böyüyəcək, o, Turanda qalacaq,
O, dünyaya haray-həşir salacaq,
O, Tusərdən öc-bacını alacaq,
Hər bir evin bər-bəzəyi qadındır.

Turqər, Ağüz, Besyar, Sona birləşdi,
Hərə getdi öz işində yerləşdi,
Qızlar hər gün “Turpar” deyib dərdləşdi,
Yaraq tutub vur-vurlaşdı, ərləşdi,
Hər bir evin bər-bəzəyi qadındır.

Döyüş, vuruş bir sənətdir dünyada,
Sona həvəs, eşq yaratdı anada,
Örgətdilər bu sənəti ona da,
Hər bir evin bər-bəzəyi qadındır.

Ağdanağ söyləncі

Çoxu getdi üzdən görsün Besyarı,
Yaxşı baxsan içdə nə var üzdədir.
Gördülər ki, Besyar təmiz, müqəddəs,
Yaxşı baxsan içdə nə var üzdədir.

Nəvəsini Qor çağırdı nənəsi,
Qor ananın oldu bircə dənəsi,
Qorun iri qolu, çiyni, sinəsi,
Yaxşı baxsan içdə nə var üzdədir.

Uşaqiykən anasıyla güləşdi,
Oxla, yayla, yeniyetmə əlləşdi,
Az böyüdü, böyüklərlə dilləşdi,
Yaxşı baxsan içdə nə var üzdədir.

Qor dedi ki, mən Turqərin oğluyam,
Mən Turpara, mən Turana bağlıyam,
Pişikgözdən, Tusdan, Farsdan dağlıyam,
Mən Turqərin oğluyam,
Yaxşı baxsan içdə nə var üzdədir.

On yaşında o and içdi tanrıya,
Anasına, nənəsinə yarıya,
Turqu, Türkü, Ekbatanı qoruya,
Yaxşı baxsan içdə nə var üzdədir.
Sona dedi:-Tanrı, saxla balamı,
Uzaq elə ondan qəsdi, yalanı,
Həm qıtlığı, quraqlığı, talanı,
Uzaq, uzaq Əhriməndən balamı,
Yaxşı baxsan içdə nə var üzdədir.

***

Qor böyüdü, qılınclaşdı nənəylə,
Evdə keçir oğlan hər bir sınaqdan.
Tutaq oldu qılıncına nəvənin,
Evdə keçir oğlan hər bir sınaqdan.

Qılınclaşma hərdən çıxdı həyətə,
Bir-birinə güzəşt döndü minnətə,
Besyar baxdı Qorda gücə, hiddətə,
Qiptə etdi örgəndiyi sənətə,

Evdə keçir oğlan hər bir sınaqdan.

At minirdi, arxasınca dartmırdı,
Hələ gücü ağır gürzə çatmırdı,
Meşəçiydi, gecə evdə yatmırdı,
Evdə keçir oğlan hər bir sınaqdan.

Bir gün getdi tək başına ocağa,
Orada da at səyirtdi ovlağa,
Yavaş-yavaş döndü cəsur qoçağa,
Evdə keçir oğlan hər bir sınaqdan.

Qılıncını başı üstə hərlətdi,
Sağa, sola çapıb atı tərlətdi,
Vurdu otu, kolu çöldə seyrəltdi,
Evdə keçir oğlan hər bir sınaqdan.

Bir atlını gördü, qalxan əlində,
Xənçər, pıçaq, bir də qılınc belində,
Neçə muncuq astanmışdı telində,
Evdə keçir oğlan hər bir sınaqdan.

Dedi:-Atlı, söylə, qızsan, oğlansan,
Duruşundan görürəm ki aslansan,
Nəsən, ancaq gözəllikdə yamansan,
Evdə keçir oğlan hər bir sınaqdan.

Atlı dedi:-Mən Uruel əriyəm,
Güc, güləşdə çoxlarından bəriyəm,
Mən basılmaz turqdaşlardan biriyəm,
Evdə keçir oğlan hər bir sınaqdan.

Qardaşımı axtarıram burada,
Bilməyirəm o yaşayır harada,
Səsi gəlir ordan, burdan arada,
Evdə keçir oğlan hər bir sınaqdan.

Adı onun Qardanağdır, Urelli,
Pəhləvandır, güləşçidir əməlli,
Çıxıb evdən, yox olubdur on ildir,
Evdə keçir oğlan hər bir sınaqdan.

Qardanağdır qardaşımın ad-sanı,
Bir aydır ki mən gəzirəm Turanı,
Axtarıram, dolaşıram hər yanı,

Evdə keçir oğlan hər bir sınaqdan.

-Tanıyıram Qardanağı, nə yaxşı,
O güləşib, udub, olub başbaşı,
Qardaşından İran bərk-bərk yapışıb,
Evdə keçir oğlan hər bir sınaqdan.

Atlı düşdü atdan, tutdu o Qordan,
Dedi:-Qurban olum sənə, ay oğlan,
Gedək onun qulluğuna buradan,
Evdə keçir oğlan hər bir sınaqdan.
-Çox uzada yaşayır o, çox uzaq,
Söylə görüm adın nədir, ay qonaq,
-Mənim adım Urel qızı Ağdanağ,
-Adınla da sən gözəlsən busayaq,
Yaxşı olar adın olsun Göygözağ,
Oncə buyur evimizə, ol qonaq,
Evdə keçir oğlan hər bir sınaqdan.

***

Atı çapdı, Qora qonaq getdi qız,
Ilk görüşlə başlar oğlan sevgisi.
Qor sevinclə anasına yan aldı,
Ilk görüşlə başlar oğlan sevgisi.

Dedi:-Ana, bu gözələ yaxşı bax,
Ağdanağdır onun adı, göygöz ağ,
Sona dedi:-Xoş gəlmisən Ağdanağ,
Oğlum Qorun bəyəndiyi ilk qonaq,
Ilk görüşlə başlar oğlan sevgisi.

Besyar dedi:-Xoş gəlibdir bu qonaq,
Qardanağın bacısıdır Ağdanağ,
Xəbər tutsa o gələcək qaçaraq,
Başbaşıdır bir ölkədə Qardanağ,
Ilk görüşlə başlar oğlan sevgisi.

Qız utanır, oğlan üzlü olanda,
Oğlan gülür, qızdan “həri” alanda,
Sonra düşür öz yoluna qalan da,
Ilk görüşlə başlar oğlan sevgisi.

Ancaq uşaq sevgisiydi bu, hələ,
Baxçalarda sarmaşsa da gül gülə,

Göy budaqlar versələr də əl ələ,
Ancaq uşaq sevgisiydi bu, hələ,
Görməmişdi sevənləri heç belə,
Ilk görüşlə başlar oğlan sevgisi.

Uşaqda da sevgi olur, kal olur,
Bulaq axır, damcı, damcı göl olur,
Bu olmasa gül də yanır kül olur,
Buna görə daş sevgisi lal olur,
Ilk görüşlə başlar oğlan sevgisi.

Üç gün qalıb, dördüncü gün getdilər,
Dağda, daşda, kolda-kosda itdilər,
Güllər kimi üzü üzə sürtdülər,
Gücə yatıb, gültək səhər bitdilər,
Ilk görüşlə başlar oğlan sevgisi.

Yavaş-yavaş qardaş yaddan çıxırdı,
İki sevgi günəşsayaq doğurdu,
Yaz yağışı kimi sevgi yağırdı,
İlk görüşlə başlar oğlan sevgisi.

***

Bacısını tanımadı Qardanağ,
Yarpaq kimi titrək olur ilk görüş.
Görməmişdi bacısını on üç il,
Yarpaq kimi titrək olur ilk görüş.

Qucaqlaşıb qoşa budaq oldular,
Ağladılar, damcı bulaq oldular,
Bacı, qardaş titrək dodaq oldular,
Yarpaq kimi titrək olur ilk görüş.

***

Şamxat gəldi dilə tutdu baldızı,
Gəlin gərək dilə tuta baldızı.
Şamxat dedi:-Nə gözəlsən, Ağdanağ,
Gəlin gərək dilə tuta baldızı.
O soruşdu öncə Dümağ ananı,
Sonra Urel diyarında qalanı,
O dilucu tərifədi oranı,
Gəlin gərək dilə tuta baldızı.

Dedi:-Göygöz, qoşa hörük Ağdanağ,
Qızbax, Qızod, Qızağ kimi üzü ağ,
Niyə belə çəkinənsən, utancaq,
Gəlin gərək dilə tuta baldızı.

Bu Qor kimdir, düşüb sənin dalına,
Çevrilibdir əsirinə, quluna,
Batıb əli deyən, sevgi balına,
Gəlin gərək dilə tuta baldızı.

Qor dedi ki, Mən Turparın oğluyam,
Mən anama, mən nənəmə bağlıyam,
Bu İrandan mən ürəyi dağlıyam,
Gəlin gərək dilə tuta baldızı.

Şamxat dedi:-Belə demə, cavansan,
Sən də yarı Turan, yarı İransan,
Sən də bura dönəcəksən haçansa,
Gəlin gərək dilə tuta baldızı.

Buralıya xoşdur bura o yandan,
Istəyirsən qal bizimlə İranda,
Ikidamar doğulubsan Turanda,
Gəlin gərək dilə tuta baldızı.

-İkidamar, ikiağız qılıncam,
Turpar oğlu Qoram, sizə qoruncam,
Qisas allam Tusdan, gücüm qalınca,
Gəlin gərək dilə tuta baldızı.

Sona gəldi, təngənəfəs, çaparaq,
Üzərində ağır, iti yal-yaraq,
Dedi:-Oğlum, olma burda oyuncaq,
Öc alanlar gəlib səni tapacaq,
Gəlin gərək dilə tuta baldızı.

Bunu deyib o hay-həşir qopartdı,
O qıy vurdu, Qoru aldı, apardı,
Qor sevdiyi anasına qabardı,
Gəlin gərək dilə tuta baldızı.

Qor söylədi Ağdanağa qəflətən,
-Ay qız, səni mən sevirəm ürəkdən,
Elə bu vaxt ağ at qopdu yerindən,

Gəlin gərək dilə tuta baldızı.

Anakarın ölüm söyləncisi

Balasq, Yunan, Filip bir də İskəndər,
Dəyişilir dünya özü bilmədən.
Şair gəlib çatdı axır Yunana,
Dəyişilir dünya özü bilmədən.

Getdi şeir məclisinə Anakar,
Hamı onun gəlişinə intizar,
Tanınmışdı şair,-Tiran, Mindiyar,
Dəyişilir dünya özü bilmədən.

O, Sərtüzdən, "Avesta"dan danışdı,
Sonra şeir-şairlərlə yarışdı,
Tənqid oldu, üzü, alnı qırışdı,
Hamı ondan Turqu, Tunqu soruşdu,
Dəyişilir dünya özü bilmədən.

Dedi:-Tunqər qayıtmadı səfərdən,
Dedilər ki, zəhərlənib zəhərdən,
Sarsılıbdır Turan bu son xəbərdən,
Dəyişilir dünya özü bilmədən.

Yürüş edir İran tez-tez Turana,
Gah bu çıxır, gah o çıxır meydana,
Güc veriblər qırğın ilə talana,
Dəyişilir dünya özü bilmədən.

Biri dedi:-Şair, heç də darıxma,
Iran, Turan deyib belə qızıxma,
Güc gözləmə daha Turqər yazıqdan,
Dəyişilir dünya özü bilmədən.

Yürüşdədir Filip oğlu İskəndər,
İran, Hind, Çin fəth olacaq sərasər,
Fatehlikdir şərqə doğru bu səfər,
Dəyişilir dünya özü bilmədən.

Siz Filipi iki dəfə qovubsuz,
Yaralayıb, üz-gözünü ovubsuz,
Yunanlıları döyüb, lağa qoyubsuz,
Dəyişilir dünya özü bilmədən.

Görəcəksiz İskəndərin gücünü,
O alacaq atasının öcünü,
Görəcəksən çox ölkənin köçünü,
Yiyəcəksən acığından içini,
Dəyişilir dünya özü bilmədən.

Dedi:-Anam buralıdır, Mariya,
Yüz beş olub yaşı, dönüb qarıya,
Sən düşübsən çəpər kimi araya,
Dəyişilir dünya özü bilmədən.

İskəndər söyləncі

Çıxdı ordan tərmə-tələs Anakar,
Bəzən söz də dönüb olur əmanət.
Çatmalıydı deyilən söz Turana,
Bəzən söz də dönüb olur əmanət.

İskəndərin yürüşləri ardıcıl,
Vurdu, qırdı on minləri bu qancıl,
Ölkələri aldı ələ yabançı,
Bəzən söz də dönüb olur əmanət.

Hələ gəlib çatmamışdı Turana,
Şair bunu xəbər verdi dörd yana,
Öz qardaşı onu çəkdi meydana,
Bəzən söz də dönüb olur əmanət.

Dedi:-Qardaş, sən az qabart Yunanı,
Bir azcana tərif elə Turanı,
Çevir bir az bizə tərəf sükanı,
Bəzən söz də dönüb olur əmanət.

Ana orda, biz burada doğmayıq,
Biz Turanda yerbəyerik, yığmayıq,
Dayaz gölük, biz buluddan yağmayıq,
Bəzən söz də dönüb olur əmanət.

Dedi:-İran, Turan, Yunan bir eldir,
Bizi bircə ayıran var,o, dildir,
Döyüş, vuruş gəlib keçən bir seldir,
Bir-birindən insan ayrı deyildir,
Bəzən söz də dönüb olur əmanət.

Çox dedilər, eşitdilər, durdular,
Çəngələşib Anakarı yordular,
Daldan gəlib onu oxla vurdular,
Yıxıb, vurub baş-gözünü yardılar,
Ürək sapdır, ipək sapı qırdılar,
Bəzən söz də dönüb olur əmanət.

O öləndə, dedi, dünya uçacaq,
Hamı qaçsa cəhənnəmə qaçacaq,
Quştək uçub dünya qanad açacaq,
Bəzən söz də dönüb olur əmanət.

***

Bir qəbir var, yoxdur onun döş daşı,
Əbədidir hər yazılan baş daşı.
Qoymadılar sonevinə daş, qaya,
Əbədidir hər yazılan baş daşı.

Qərib qaldı neçə fəsil o məzar,
Ana orda xiffət çəkdi, intizar,
Ata burda çox eşitdi yozmalar,
Ölüb dərddən qurtarmışdı Anakar,
Əbədidir hər yazılan baş daşı.

Şeirləri ələk-vələk olundu,
Adı, sözü qadağaya alındı,
Qəbr evi iki yerə bölündü,
Iki yanda dustaqlığa salındı,
Əbədidir hər yazılan baş daşı.

Bir gün onun yazısını gördülər,
Gətirdilər onu Turqa verdilər,
Yazıları qəbr üstünə sərdilər,
Əbədidir hər yazılan baş daşı.

İskəndərin yürüş söylənci

Keçdi illər, səs çıxmadı qəbirdən,
Daş ağırdır, o heç zaman danışmaz.
Çəkic döydü, danışdırdı dəmiri,

Daş ağırdır, o heç zaman danışmaz.

Yürüşdədir Filip oğlu İskəndər,
Döyüşlərdə yüz-yüz ölür hər səfər,
Yaraqlıdır, yaraqsızdır ölənlər,
Daş ağırdır, o heç zaman danışmaz.

Altı atlı qoşqu canlı divardır,
Min-min uzun nizə dəmir hasardır,
Atlı alay, bölük qatar-qatardır,
Daş ağırdır, o heç zaman danışmaz.

Qəm dolmuşdu İran boyu gözlərə,
Qəm qonmuşdu ləkə-ləkə üzlərə,
Yayılmışdı qurd-quş, çaqqal düzlərə,
Daş ağırdır, o heç zaman danışmaz.

Turqər dedi:-Yaraqlılar, irəli!
Qazılacaq Balasqelin təməli,
Girə bilməz bu ölkəyə hər dəli,
Daş ağırdır, o heç zaman danışmaz.

Yaraqlılar cərgə-cərgə yürüşdə,
Ancaq hələ xəbər yoxdur döyüşdən,
Heç kəs yaxşı baş çıxartmır bu işdən,
Daş ağırdır, o heç zaman danışmaz.

Filip oğlu çaş-baş qalıb sən demə,
O, İrana girib, Turan yerinə,
Durub gedən dalır döyüş seyrinə,
Daş ağırdır, o heç zaman danışmaz.
Örgənib ki, Muğlar dolu İranda,
Muğ rəhbərdir işdə-gücdə, hər yanda,
Fars dolaşır, orda, burda yalandan,
Daş ağırdır, o heç zaman danışmaz.

İskəndərlə Qardanağın döyüş söyləncisi

Çıxdı üzə toplumuyla Qardanağ,
Sən qorxudan qorxma, yoxsa batarsan.
Filip oğlu qorxu-ürkü salmışdı,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Filip oğlu Qardanağı yanlayır,

Onun cavan olduğunu anlayır,
Öz dilində Qardanağı danlayır,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Dedi:-Başçı, siz Filipi döyübsüz,
Döyüşlərdə təhqir edib, söyübsüz,
Siz Filipə gülüb, ağız əyibsiz,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Deyir:-Sərtüz haradadır, de mənə,
Yazıları haradadır, de mənə,
Öz yanımda məqam verrəm, yer sənə,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Sən Yunanda başlarbaşı olarsan,
Ya istəsən öz yerində qalarsan,
Məndən böyük-böyük töhvə alarsan,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Qardanağa ağır sözlər toxunur,
Gözlərində lənət, nifrət oxunur,
Dediyi söz heyran qoyur çoxunu,
Sən qorxudan qorxma, yoxsa batarsan.
Deyir:-Utan, Filip oğlu, sözündən,
Bac almağa gəlməmişəm bura mən,
“Avesta”dır səni bura gətirən,
Sən qorxudan qorxma, yoxsa batarsan.

İranda yox, Turandadır “Avesta”,
Qızıl mıxla yazılmışdır o hətta,
Onu yığıb, toplamışdır Turq ata,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Filip oğlu deyir:-Onu get gətir,
Nə istəsən xəzinədən gəl, götür,
“Avesta”nı gətir, mənə sən yetir,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Ancaq gecə o yolladı yüz atlı,
Dedi:-Gedin, Ekbatana qanadlı,
Qırın, vurun, yaxın güclü, inadlı,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Hər cildini yük eyləyin bir ata,
Yoxdur orda Tunq, Dəmirqız, Turq ata,

Gətiriniz, ataq onu gur oda,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Qızıl mənim, tüstü-alov, od sizin,
İran bizim, Turan bizim, Hind bizim,
Gərək gedim Çineli də mən gəzim,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Heyran qaldı göstərişə çoxları,
Kim yığacaq görən qızıl mıxları,
Düşgünləşdi, sallaq qaldı bığları,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Qardanağın göyə qalxdı toppuzu,
On ox dəydi gövdəsinə ən azı,
O itirdi at üstündə tarazı,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Dedi:-Yağlı söz verirdin sən mənə,
Bəxş edirdin Filip oğlu xəzinə,
Tüpürürəm ey yalançı mən sənə,
Sən İranı niyə qoydun bu günə,
Sən qorxudan qorxma, yoxsa batarsan.

Turq-Filip söyləncі

On min atlı, beş min qıvraq piyada,
Döyüşlərdə aldatmaqdan yararlan.
Turq getmişdi Filip üstə Yunana,
Döyüşlərdə aldatmaqdan yararlan.

Afinada Turq nər kimi bağırdı,
Iskəndəri vuruşmağa çağırdı,
Yolda durub Filip ona baxırdı,
Döyüşlərdə aldatmaqdan yararlan.

Filip artıq qocalmışdı, əsirdi,
Əsa ilə ayaq üstə gəzirdi,
Yürüşünə Turqun dodaq büzürdü,
Döyüşlərdə aldatmaqdan yararlan.

Dedi:-Turqər, gəldin mənə baxmağa,
Ya qarətlə xalqdan sərvət yığmağa,
Bəlkə məndən yersiz əvəz çıxmağa,

Döyüşlərdə aldatmaqdan yararlan.

Indi Yunan yiyəsizdir, kralsız,
Yunan xalqı indi təkdir, macalsız,
Afina da İskəndərsiz, Calalsız,
Döyüşlərdə aldatmaqdan yararlan.

Yürüşdədir indi oğlum İskəndər,
Alıb keçib ölkələri nə qədər,
Bu fatehdən xəbərsizsən sən məgər,
Döyüşlərdə aldatmaqdan yararlan.

Mən qocayla vuruşursan, vuruşaq,
Qan axıdaq, toz-torpağa qarışaq,
Ya gəl otur, ye-içməkdə yarışaq,
Döyüşlərdə aldatmaqdan yararlan.

Turq dayandı, Filip tir-tir əsirdi,
Əsa ilə ayaq üstə gəzirdi,
Yürüşünə Turqun dodaq büzürdü,
Döyüşlərdə aldatmaqdan yararlan.

Dedi:-Filip, yaxşı girdin araya,
Aldanmışam, mən gəlmişəm buraya,
Aldanmışam, boş-boşuna, haraya,
Döyüşlərdə aldatmaqdan yararlan.

Tunqər ordan döndü birbaş Turana,
Dedi:-Çıxım Kür boyunca Muğana,
Ordan qovum İskəndəri Yunana,
Döyüşlərdə aldatmaqdan yararlan.

Qeysər çıxdı qabağına Turqərin,
Biz almışıq-dedi-bu boş yerləri,
Yer bizimdir, sən buradan dön geri,
Döyüşlərdə aldatmaqdan yararlan.

Qeysər idi, İskəndərin sağ əli,
O tutmuşdu Gürcüeli beş əlli,
Köküs iri, dil söyüşkən, baş yelli,
Döyüşlərdə aldatmaqdan yararlan.

Turqər dedi:-Qabağımdan çəkil sən!
Yoxsa Qeysər, qurtarmazsan əlimdən,
Çəkilməsən, öldürərəm səni mən,

Döyüşlərdə aldatmaqdan yararlan.

Qeysər dedi:-Yava-yava danışma,
Iskəndərin işlərinə qarışma,
Ölməmişdən çıx get, bizlə çarpışma,
Döyüşlərdə aldatmaqdan yararlan.

Şimşəkqılınc sıyrılanda qınından,
Iki qancıl qaldı yerdə yanbayan,
Qeysər aşdı, yaralandı alnından,
Döyüşlərdə aldatmaqdan yararlan.

Gedə-gedə-dedi-getmə, ay yazıq,
Biz İranı tamam kamal almışıq,
"Avesta"nı yandırmışıq biz artıq,
Döyüşlərdə aldatmaqdan yararlan.

Turqun birdən yerə endi qılıncı,
Gözlərindən qopdu iki qığılcım,
Qaldı onun bu yürüşü yarımçıq,
Döyüşlərdə aldatmaqdan yararlan.

***

Turq gedirdi yardım etsin İrana,
Ağır gündə doğma, özgə nə demək.
Iskəndərlə vuruşmağa gedirdi,
Ağır gündə doğma, özgə nə demək.

Qeysər döndü, yürüş etdi bizucla,
Turqər ona cavab verdi qılıncla.
Sonra dedi, öz-özünə pıç-pıçla,
Ağır gündə doğma, özgə nə demək.

"Avesta"nın bir üzü də məndə var,
Yalançıydı Tusərdəki olanlar,
O qalacaq gələcəyə yadigar,
Ağır gündə doğma, özgə nə demək.

Vurdu Turqər, yarıb keçdi onları,
Çöllər oldu qıp-qırmızı, sap-sarı,
Qaçan tək-tək, yerdə yüz-yüz yaralı,
Ağır gündə doğma, özgə nə demək.

Yaxın gəldi benterklərin başçısı,
Dedi:-Sərtüz peyğəmbərdir yazıçı,
Məndə qalır onun türkçə yazısı,
Ağır gündə doğma, özgə nə demək.

Yara-yara, qıra-qıra keçdilər,
Yunanları sarı ot tək biçdilər,
Bentürklər də Turqu ata seçdilər,
Tanrı deyib, Turqərə and içdilər,
Ağır gündə doğma, özgə nə demək.

***

Turqər keçdi Sukarina elindən,
Qan yerində sabah lalə bitəcək;-
Bu ellərin qıpqırmızı laləsi,
Qan yerində sabah lalə bitəcək;-

Gürcüelin yaşıl-yaşıl bağları,
Onun bol-bol qızıl payız çağları,
Bentürklərin qarlı-qala dağları,
Qan yerində sabah lalə bitəcək;-
Bu lalələr şəhidlərin ürəyi,
Şəhidlərin qanlı kəfən bələyi,
Lalələrdir dadlandıran çörəyi,
Qan yerində sabah lalə bitəcək;-

Tanrı dedi, Turq, sən deyən olacaq,
Bəşər sənin xislətini alacaq,
Dünya elə boşalacaq, dolacaq,
Qan yerində sabah lalə bitəcək;-

***

Tanrı dedi, sən ata ol dünyaya,
Əbədidir ağla, sevin dünyası.
Adam çoxdur, ancaq mənə əzizdir,
Əbədidir ağla, sevin dünyası.

Tanrı dedi, Sərtüz qalır, bir də sən,
Göydə mənəm dünya boyu, yerdə sən,
Bir sağaltsan ən əlacsız dərdə sən,
Əbədidir ağla, sevin dünyası.

Nəfəs alır sənlə doğu, həm batı,

Sən tək özün qazanmısan bu adı,
Çox şirindir, qoru şirin həyatı,
Əbədidir ağla, sevin dünyası.

Dünya hələ min-min illər duracaq,
Qırx yol onda Turan şahlıq quracaq,
Qırx yol turqluq yer üzünü saracaq,
Əbədidir ağla, sevin dünyası.

Ağalığı başlayacaq dəmirin,
Olacaqdır insan çörək əsiri,
Unudacaq çoxu dua, nəziri,
Əbədidir ağla, sevin dünyası.

Pul, üstünlük ağalığı başlayar,
Hamı pulu, ağalığı xoşlayar,
Xoşlayanlar ar-namusu boşlayar,
Əbədidir ağla, sevin dünyası.

“Sağol” deyib kim bal verən arıya,
Daş atacaq yerdəkilər tanrıya,
Su düşəcək az-az, yarı-yarıya,
Əbədidir ağla, sevin dünyası.

Odərboydan Atrepatan olacaq,
Atrepatan Azərbaycan olacaq,
Artıb İran Yarı Turan olacaq,
Əbədidir ağla, sevin dünyası.

Öldürdülər yenə Sərtüz babanı,
Indi sənə tapşırıram dünyanı,
Sərtüz sansın qoy xalq Turqər atanı,
Əbədidir ağla, sevin dünyası.

Tanrı dedi, öz yeri var Türklərin,
Atillası doğulacaq Türkyerin,
Mete, Kürxan, Çingiz, Teymur, Gültəkin,
Əbədidir ağla, sevin dünyası.

***

Tələsirdi Turq Parsaya çatmağa,
Az qazanır, çox itirir tələsən.
O, İrana kömək üçün can atır,
Az qazanır, çox itirir tələsən.

Deyir orda ölüm-dirim savaşdır,
Muğlar, Saklar, Türklər döğma qardaşdır,
Turpar oğul, Besyar bizə Anaşdır,
Nec olsa da İran bizə qardaşdır,
Az qazanır, çox itirir tələsən.
Deyir, gedib İskəndəri qovaram,
Güc göstərsə gözlərini ovaram,
Bizuc ilə mıxlayaram divara,
Az qazanır, çox itirir tələsən.

“Avesta”nı yandırmayıb bəlkə də,
Onu bəlkə o qaçırır ölkədən,
Bəlkə şişib paxıllıqdan, hikkədən,
Afinaya pay aparır bəlkə də,
Az qazanır, çox itirir tələsən.

Yadımdadır nə deyirdi Anakar,
“Axtarandır, öyrənəndir Yunanlar,
Buna alim babalarda həvəs var”,
Az qazanır, çox itirir tələsən.

“Avesta”nı yandırıbsa o sərsəm,
Mən onsuz da onu əzbər bilirəm,
Haram olsun ona, o ad, o görkəm,
Az qazanır, çox itirir tələsən.

Gecikmişəm bu vuruşa deyəsən,
Şimşəkatım, uç, küləklə, yürü sən,
Iranlıya kömək, yardım olum mən,
Az qazanır, çox itirir tələsən.

Tələsirdi Turqər qəsddən yürüşdə,
Axşam üfüq rəng götürür gümüşdən,
Turq diskinir gözlənilməz görüşdən,
Az qazanır, çox itirir tələsən.

***

Iskəndərdir, çapan toplum önündə,
Ya ucalır, ya da ölür öndəki.
Turqər deyir:-Kimsən gələn, nəçisən?!
Ya ucalır, ya da ölür öndəki.
Qılıncını parıldadır İskəndər,
Deyir:-Kimdir yol üstündə, nə xəbər?!

Mənimkilər hardan belə gəlirlər?
Ya ucalır, ya da ölür öndəki.

Turqər deyir:-Sənimkilər yox daha,
Qeysər ayaq üstə durmaz bir daha,
Burda yürüş qismət deyil hər şaha,
Ya ucalır, ya da ölür öndəki.

Bura Turan, mən də Turqam, biləsən,
Afinada axtarırdım səni mən,
Filip dedi, yürüşdəsən dünəndən,
Ya ucalır, ya da ölür öndəki.

Iskəndər:
-Eşitmişəm, hörmətim var bu ada,
Nə yaxşı ki biz görüşdük Turq ata,
Ya ucalır, ya da ölür öndəki.

Səni burda böyük xaqan edərəm,
Səni yeni Atrepatan edərəm,
Iranı da böyük Turan edərəm,
Ya ucalır, ya da ölür öndəki.

Turq:
-Eşitdim ki yandırılıb "Avesta",
-"Avesta"mız dünən getdi it-bata,
-İt-bat olmaz, onu əzbər bilirəm,
Sənə qarşı onu sipər bilirəm,
"Avesta"nı ölməz əsər bilirəm,
Ya ucalır, ya da ölür öndəki.

***

Gülə-gülə Turqa dedi İskəndər:
-Ölməz heç nə yoxdur, bunu biləsən.
Sənin belə danışmağın hədərdir,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

-Get, aparma "Avesta"nı Yunana,
Qaytar onu lap indicə Turana,
Yoxsa tamam batacaqsan al qana,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Iskəndərin ala gözü qaynadı,
Lüt qılıncı başı üstə oynadı,
Turqun qalxan tutan əli qanadı,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Neçə addım Turq çəkildi geriyə,
Bir minbaşı bu an çıxdı bəriyə,
Turqa tərəf o yeriyə-yeriyə,
-Sən qocasan, vayzaqlama çox deyə,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Şimşəkqılınc yardı onun üzünü,
Lap ağzında qoydu hərzə sözünü,
Turq çatdırdı İskəndərə özünü,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Vurdu, onun böyrü soldan söküldü,
Qan fışqırdı, riyə-riyə töküldü,
Parıltılar gözlərindən çəkildi,

Turq:
-Get, “Avesta” hara, yazıq, sən hara,
Çox dərindir böyründəki o yara,

Səni qəbrə aparacaq o yara,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Yardı keçdi Turq bir neçə sıranı,
Iskəndərlə o saxladı aranı,
O, susmaqda gördü deyən çaranı,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Gürcü, Bentürk gəldi Turqa əltuta,
Yürüş etdi acıqana Turq ata,
Döşdöşəydi ərən ərə, at ata,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Üç gün çəkdi Sarkinuda bu döyüş,
Iskəndəri susqun qoydu bu dönüş,
Artdı hər gün geriləmə, tökülüş,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

O gizlətdi yarasını hamıdan,
Əlacsızdı yara dərman, sarğıdan,

O inlədi gizli kəskin ağrıdan,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Dedi,"Gedim Hində, Çinə, Təbətə,
Oralarda mən başlayım qarətə,
Qarət məni qaldıracaq hörmətə,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Deyən, yaram sağalacaq o vaxta,
Yoxsa burda düşəcəyəm ayaqdan,
Hədələyir məni ölüm qabaqda,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

Turq düz dedi, tələsmişəm, gərək mən,
Aparaydım "Avesta"nı bu yerdən,
Yandırmışam o əsəri mən nədən,
Səhv etmişəm, günahkaram mən deyən,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

At üstündə oturmuşdu İskəndər,
Gözləyirdi yıxılmasın, birtəhər,
Daim yürüş edən beş min fateh ər,
Dönüb geri qayıdırdı bu səfər,
-Ölməz heç nə yoxdur, bunu biləsən.

***

Bu əsəri mən yazaraq qurtardım,
Həm tarixdir, həm dastandır bu əsər.
Qızıl, gümüş, kərpiç evdir tikilib,
Həm tarixdir, həm dastandır bu əsər.

Qaldı neçə əsərlərim yarımçıq,
Qocalmışam, üzülmüşəm, mən artıq,
Mənə baxıb gülür yorğun qocalıq,
Həm tarixdir, həm dastandır bu əsər.

Heydər ata, sənə rəhmət min kərə,
Bu əsəri sən bəxş etdin ellərə,
Kitab yatdı, ürəklərə, dillərə,
Həm tarixdir, həm dastandır bu əsər.

***

Allah mənə hər şey verdin, çox sağ ol!
Doğruluğu səndə gördüm, çox sağ ol!
Günlər gördüm, yollar yordum, çox sağ ol!
Çirk əlləri burdum, qırdım, çox sağ ol!
Bayraq kimi öndə durdum, çox sağ ol!
Sözdən gümüş saray hördüm, çox sağ ol!
Həm tarixdir, həm dastandır bu əsər.
Səndən tutdum, mən yenilməz güc oldum,
Kitab yazdım, misralandım, iç oldum,
Söz axtardım, yeni sözə ac oldum,
Mən bir idim, o tay, bu tay, üç oldum,
Əsər yazdım misra-misra köç oldum,
Həm tarixdir, həm dastandır bu əsər.

1991-2004 –cü il Azərbaycan, Bakı

Kitabın içindəkilər

Müəllifdən.....4

III BÖLMƏ

İpək söyləncisi.....5
Dinti söyləncisi.....15
Qız toplumu söyləncisi.....28
Dədədüz söyləncisi.....59
Üç qardaş söyləncisi.....71
Alpis söyləncisi.....76
Uğurel söyləncisi.....86
Bacarın ölməsi söyləncisi.....93
Alçiçək söyləncisi.....99
Hindel-Çinçay vuruşları söyləncisi.....107

XIII QAPI

Turq-Alçiçək söyləncisi.....116
Dörd şah vuruşu söyləncisi.....131
Xruş-Parsa söyləncisi.....151
İkiçayarası vuruş söyləncisi.....160
Armas-Adra söyləncisi.....180
Xruş-Parsa söyləncisi.....192
Cumərin ölüm söyləncisi.....211
Odərboydan söyləncisi.....216
Tanrı söyləncisi.....232
Parsa eli söyləncisi.....232

IV BÖLMƏ

XIV QAPI

Ağüzər söyləncisi.....238
Yürüş söyləncisi.....245
Amenexotip söyləncisi.....251
Tuncər-Samdi söyləncisi.....259
Alçiçək-Samdi söyləncisi.....266
Qoşaçayarası söyləncisi.....270

XV QAPI

Ana südü söyləncisi.....279
Heyvərələrlə vuruş söyləncisi.....284
Turqun qızılcaya yoluxması söyləncisi.....288

Ana qurd söyləncі.....290

XVI QAPI

Ana ürəyi söyləncі.....294

XVII QAPI

Dəmirqız söyləncі.....310
Ağüzün Parselə yollanması söyləncі.....315
Muğanda vuruş söyləncі.....317
Turqa tanrı öyüdü.....322

V BÖLMƏ

XVIII QAPI

Ağüzün sevgi söyləncі.....328
Muğanel söyləncі.....336

Uğureldə vuruş söyləncі.....340
Yerinclik söyləncі.....350
Turqa tanrı öyüdü.....361

VI BÖLMƏ

XIX QAPI

Yay gedirdi.....367
Başev söyləncі.....370
Manayqız söyləci.....370
Yerin Tunqər söyləncі.....381
Daryaş söyləncі.....386
Daryaşın Hindelə getməsi söyləncі.....391
Kumar söyləncі.....393
Ana söyləncі.....397
Görüş söyləncі.....402
Hindellə Uğurel söyləncі.....409

XX QAPI

Daryaş, Balaşq söyləncі.....413
Ata öyüdü söyləncі.....418
Ana öyüdü söyləncі.....421
Qaratel söyləncі.....425
Sanna-Qaratel söyləncі.....427
Sannanın qaçırılması söyləncі.....434
Döyüş söyləncі.....440

VII BÖLMƏ

XXI QAPI

Görüş söyləncі.....444

Yığış söyləncі.....447

Ander, Daryaş söyləncі.....449
Ander şahla Dəmirqızın döyüş söyləncі.....454

XXII QAPI

Alpislə Odərpay söyləncі.....458
Alpislə Daryaşın görüş söyləncі.....461
Şimşəkquyruq söyləncі.....462
Sak dağında döyüş söyləncі.....465
Dörd qardaş söyləncі.....468
Ağüzlə Daryaşın vuruşması söyləncі.....471
Turqla Alpisin vuruş söyləncі.....472
Tunqla Alpisin vuruş söyləncі.....475
Tunqərin öyüd söyləncі.....477
Sayanər söyləncі.....478

VIII BÖLMƏ

XXIII QAPI

Alanər söyləncі.....489
Alanərlə minbaşının görüş söyləncі.....496
Çatanər söyləncі.....506
Qaplanər söyləncі.....514

XXIV QAPI

Dörd yüz yaşlı Odər söyləncі.....522
Qanlı Gədik vuruşu söyləncі.....525
Quraqlıq söyləncі.....531
Tanrıyla görüş söyləncі.....535
Sarkas üzləşməsi söyləncі.....538

IX BÖLMƏ

XXV QAPI

Birinci qardaş söyləncі.....540
İkinci qardaş söyləncі.....550
Üçüncü qardaş söyləncі.....555
Turqa Tanrı tapşırığı söyləncі.....561
Ana Qurd söyləncі.....569
Türbə qızın söyləncі.....573
Yazı söyləncі.....577
İkinci yazı söyləncі 579
Yallı Qaplan söyləncі.....582
Turqla Alpisin vuruş söyləncі.....587
Quruş söyləncі.....593

XXVI QAPI

Parsdiyar söyləncі.....596
Besyar söyləncі.....598
Besyar, Tunqər söyləncі.....601
Gücəbir söyləncі.....604
Turqər söyləncі.....609
Qoca sevgisi söyləncі 615
Gücdəbir söyləncі.....621
Parsdiyar söyləncі.....626
Buzər söyləncі.....627
Qurdağız söyləncі.....632

XXVII QAPI

Muğdiyar söyləncі.....636
Çindiyar söyləncі.....640

Ağı söyləncі.....644
Bulaqbaşı söyləncі.....645
Daryaşın sevgi söyləncі.....653
Dəmirqızla Daryaş söyləncі.....658
Altyer söyləncі.....661
Yuxu söyləncі.....675
Balaşq Sanna söyləncі.....685

X BÖLMƏ

XXVIII QAPI

Brəhmən, Budda söyləncі.....687
Turqun Çinelə getməsi söyləncі.....699
Qayıdış söyləncі.....707
Qurdər söyləncі.....708
Uryer söyləncі.....730

XXIX QAPI

Turqla Alpis vuruşu söyləncі.....757
Yelkən qanad Qızılquş söyləncі 760
Buzər söyləncі.....763
Toplantı söyləncі.....771
Sona və ana söyləncі.....774
Dümağ söyləncі.....779
Ağüz Dəmirqız söyləncі.....787
Turqun Qızılquş söyləncі.....791
Turqun and söyləncі.....793

XI BÖLMƏ

XXX QAPI

Turpar söyləncі.....797

Çatan şah söyləncisi.....809

XXXI QAPI

Buzər söyləncisi.....814
Qonşu söyləncisi.....822
Alpisin sevgi söyləncisi.....828
Qardanağ söyləncisi.....834
Daşhörmələr söyləncisi.....847

XXXII QAPI

Gecə vuruş söyləncisi.....858
Həbəş söyləncisi.....866
Uruyer söyləncisi.....867
Anakar söyləncisi.....869
Uğureldə döyüş söyləncisi.....874
Təbətel söyləncisi.....877

XII BÖLMƏ

XXXIII QAPI

Sərtüz söyləncisi.....879
Balasqellə döyüş söyləncisi.....891
Alpisin ölüm söyləncisi.....903

XXXIV QAPI

Buzər,Tusər söyləncisi.....906
Turpar şah söyləncisi.....916
Həbəş, Misir söyləncisi.....918
Deyişmə söyləncisi.....925

XIII BÖLMƏ

Dardivellə döyüş söyləncisi.....930
Haçasaqqalla döyüş söyləncisi.....934
Başev söyləncisi.....940
Duzdağda döyüş söyləncisi.....941
Sərtüz söyləncisi.....949
Ov söyləncisi.....963
Turparın ölüm söyləncisi.....966
Qardanağ söyləncisi.....968
Tunqun ölüm söyləncisi.....973
Tunqla Tusun ölüm söyləncisi.....975
Ağdanağ söyləncisi.....983
Anakarın ölüm söyləncisi.....989
İskəndər söyləncisi.....991

İskəndərin yürüş söyləncisi.....993
İskəndərlə Qardanağın döyüş söyləncisi.....994
Turq Filip söyləncisi.....996

bxana

SÖHRAB TAHİR
AZƏRAZƏR

ATA

(POEMA-EPOS)

(I CİLD)

Mətbəanin direktoru: Elman Qasımov
Kompyüter tərtibatçısı: Gültac Ələkbərli

Çapa imzalanmışdır: 30.12.2015
Formatı: 60x84 1/16
Həcmi: 63,5 ç.v.
Sayı: 100

"Zərdabi LTD"MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel:(012)514-73-73
(012) 498-79-62
Mob:(050,055) 344-76-01
e-poçtu.: zerdabi_em@mail.ru